Nəriman Əbdülrəhmanlı

# KÖNÜL ELÇİSİ

## yaxud

## DON XUAN DE PERSİA – ORUC BƏY BAYATIN HEKAYƏTİ

/roman/

Dünya – yaşam deyilən şey SİRR İÇİNDƏ SİRDİ...

Yoxsa mövcudluğun mənası olmazdı...

N.Əbdülrəhmanlının bu tarixi bestselleri Səfəvi hökmdarı I Şah Abbasın 1599-1601-ci illərdə Moskov çarlığına və Avropa ölkələrinə göndərdiyi səfarət barədə, səfarətin birinci katibi, zəmanəsinin gözəl təhsil görmüş adamlarından olan, döyüşçü, şair, rəssam, Qərbdə Don Xuan de Persia adıyla tanınan Oruc bəy Bayatın ömür hekayəti haqqındadı.

Həqiqətən birnəfəsə omanda siyasi qarşıdurmalar, xəyanətlər, qətllər, fırıldaqlar, əzablarla yanaşı gözəl eşq macəraları da var...

**Əbdülrəhmanlı N.**
**KÖNÜL ELÇİSİ, YAXUD DON XUAN DE PERSİA – ORUC BƏY BAYATIN HEKAYƏTİ**
Bakı: Qanun Nəşriyyatı, 2015, 448 səh., t. 500

Korrektor: Ceyran Abbasova

ISBN 978-9952-36-001-1

© Nəriman Əbdülrəhmanlı, 2015
© Qanun Nəşriyyatı, 2015

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros.,76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

*Deyəsən, əlyazmalar həqiqətən yanmır*
*və ya yarımçıq əlyazmalardan*
*«Yarımçıq əlyazma»nı yaradan*
*yazıçı Kamal Abdullaya*

## ÖN SÖZ YERİNƏ,
## yaxud
## DÖRDÜNCÜ KİTABIN SİRRİ

### *Zəruri açıqlama*

*Bakı, oktyabr 2004-cü il*

**Dünya – yaşam deyilən şey SİRR İÇİNDƏ SİRDİ – hər halda, indi buna zərrə qədər də şübhəm yoxdu...**

**Yoxsa mövcudluğun mənası olmazdı...**

**Yoxsa az qala, otuz il qabaq, hələ yazıya-pozuya uymadığım vaxtlarda yüzillərdən bəri avropalıların duyğularına hakim kəsilmiş Don Juanın Qızılbaş tayfasının Bayat boyundan çıxmış Azərbaycan türkü ORUC BƏY BAYATIN prototipi olduğundan xəbər tutanda, içimi özümün də baş aça bilmədiyim həyəcan dalğası bürüməzdi...**

**Yoxsa Don Juan barədə əlimə keçən əsərləri oxuyub, yazılanlarda O SİRLİ ADAMIN ömür hekayətini, ruhunu, nəfəsini, cizgilərini axtarmazdım...**

**Amma oxuduqlarım qurama nağılları xatırladırdı, o yazılanlarda axtardığım kəsin ruhu bir yana, qoxusuna da rast gələ bilmirdim...**

Sonra Q. Le-Strencin ispancadan ingiliscəyə, O.Əfəndiyev və A.Fərzəliyevin ingiliscədən ruscaya çevirdiyi, geniş şərh yazdığı üç hissədən (kitabdan) ibarət «İranlı Don Juan Oruc bəy Bayatın kitabı»na rast gələndə, bunu da taleyin bəxşişi saydım. Kitabı dönə-dönə oxudum, az qala, əzbərlədim, amma düşüncəmə çökən yarımçıqlıq duyğusundan yaxamı qurtara bilmədim: mənə görə, bu tanıdığım da ƏSL ORUC BƏY BAYAT deyildi, özü barəsində ötəri, xəsisliklə yazılmış sözlərin altında hələ anışdıra bilmədiyim qalın SİRR QATI gizlənirdi.

ƏSL ORUC BƏY BAYAT öz kitabında yazılanlarla ağızlarda dolaşan, dürlü-dürlü əfsanələrə çevrilən, əcnəbi müəlliflərin kağıza köçürdüyü hekayətlərin arasında olmalıydı. Niyə qırx yaşına çatmış, məmləkətində hörməti-izzəti, malı-mülkü, qohum-qardaşı, arvad-uşağı, üstəlik, elmi-savadı olan, şəninə yazılan sonetlərdən anlaşıldığı kimi, gözəl şeirlər yazıb, rəsmlər çəkən, igidlikdə ad çıxaran, I Şah Abbasın etibar eləyib, dünyanın səkkiz ölkəsinə gedəcək səfarətin baş münşi (indiki diplomatik anlayışla səfirliyin birinci katibi) məqamını tapşırdığı bir adam qəfildən dinindən-imanından dönmüşdü, xaç suyuna çəkilməyə, qürbətdə ömür sürməyə, bütün bunlar bir yana, imanı barədə ziddiyyətli fikirlərlə dolu olan kitab yazmağa razı olmuşdu?

İspan krallığında rastlaşdığı əzəmətə, xristian dininin ucalığına, sonralar əfsanəyə çevrilən qadın düşkünlüyünə görəmi?

Özümü buna inandıra bilmədim: Bayat boyundan çıxan kəsdəki SONU HEÇLİK OLAN QÜRBƏT SEVDASI ağlıma batmadı...

Oruc bəy Bayat döyüşlərdə olmuşdu, torpaqlarını yadellilərdən qorumaqdan ötrü əziyyətlərə qatlaşmışdı, ata-anasını itirmişdi, ömrünün, az qala, qırx ilini keçirdiyi məmləkətdən, din-imanından belə asanlıqla, kitabında yazdığı kimi, «ani qərarla» İMTİNA eləyə bilməzdi...

Basılmış kitabında «***qayıdandan sonra Şah Abbasa hesabat vermək üçün gördüyü, eşitdiyi hər şeyi yazmağa söz verən kəs***» yad ölkədə öz kefinə qala bilərdimi?

Kitabında yazdığı oxuculara müraciətində işlədilən ifadələr, sadəcə, gülüş doğurur: «***O (İsa Məsih), məni bütpərəstlərin və uidaizmin yalançı sektasından qopardı, əsl Tövrat təliminə gətirib çıxardı... mənə katolik təliminin sarsılmaz dözümünü aşıladı...***» (?) Oruc bəy Bayat müsəlmandı, oruc tutub, namaz qılandı, şiə məzhəbinə mənsubdu, nəhayət, Bayat boyundandı, amma bütpərəstlikdən, iudaizmdən danışır – inandınızmı?

«***Buna (xristianlığı qəbul eləyənə) qədər əslində, bədxah və kilsə təqibçisiydim, möminlərə düşməncəsinə yanaşırdım, bir sözlə, kafir idim. Amma Allah qəlbimə hakim oldu...***» I Şah Abbasın xristianlara, bütpərəstlərə, iudaistlərə himayədarlıq göstərdiyi məmləkətdə kim bu cür hərəkətlərə cəsarət eləyə bilərdi?

«***...Mənim babalarım və ulu babalarım saxta etiqada qulluq eləyirdilər, mən də həmin şəraitdə, Məhəmmədin yalançı sektasına mənsub olan vəziyyətdə böyümüşəm, çox-çox uzaqlarda, İspaniyadan, bu kitabı yazdığım Valyadolid şəhərindən üç min lyö məsafədə yerləşən bir ölkədə, əqidəsiz xanın hökmü altında olan məmləkətdə yaşamışam...***» Bəs bir az qabaq bütpərəstlik və iudaizm

sektalarından söhbət gedirdi, axı! Oruc bəy Bayat özü bu cür UŞAQCASINA SƏHVLƏR buraxardımı?

Ola bilərdimi, iranlı Don Xuanın – Oruc bəy Bayatın kitabı başdan-başa tarixi faktlardan ibarət olsun, onun öz hekayətinəsə çox az yer verilsin?

«***...Türk və ərəb dillərində təhsil almış, eyni zamanda Quranın prinsiplərini öyrənmiş...***» Oruc bəy Bayat qəfildən dinini-imanını necə dəyişə bilərdi?

Mənə görə SİRRİN AÇARI bu sualdaydı...

İsa Məsihə tapınıb, xristianlığı qəbul eləyən kəs daha böyük günaha batıb, öz məmləkətinə, torpağına, ata-babasına, hələ də onların tapındığı dinə necə qara yaxa bilərdi?

Bəlkə hər şey İRADƏSİ XİLAFINA baş vermişdi?

Bəlkə «***qələm olsun qolu ol katibin ki...***» bütün bunları müəllif istəmədən düzüb-qoşub?

Bəlkə Oruc bəy Bayat – İranlı Don Juan KİTABININ BASILMASI XƏTRİNƏ bu saxtakarlığa qol qoyub?

Ortada daha sanballı, altıncı duyğumla unadığım, hələ içinə yetə bilmədiyim SİRR də ola bilərdi...

O SİRRƏ düz iyirmi il sonra yetəcəkdim...

***

İllərdən bəri düşüncələrimi məşğul eləyən həmin Sirrin izinə düşməyi qət eləyəndə 1999-cu il iyulun 9-u idi...

Səfəvi elçiliyinin İsfahandan Avropa ölkələrinə yola çıxmasının düz 400 ili tamam olurdu!

Bu İLAHİ TƏSADÜF idi, yoxsa MİSTİK ZƏRURƏT?

Çox fikirləşdim, baş aça bilmədim...

Nədənsə həmin məqamda yadıma hər şeydən qabaq TƏBRİZ düşdü: Oruc bəy Bayat bu şəhərdə doğulub-yaşamışdı, mədrəsədə oxumuşdu, sevgisini tapmışdı.

Elə bilirdim, ayağım Təbrizə dəyən kimi, SİRR QAPISI qarşımda taybatay açılacaq...

Səfərimin qayğılarını üstünə götürən hekayənəvis dostum Pərviz Kazımi gəlişimin əsl məqsədini biləndə, xeyli duruxdu, handan-hana:

– Baba, səninki qara sevdadı, – dedi, – açıb-ağartma, dinindən-imanından dönən bir kəslə maraqlandığını bilsələr, günün qara olar. Bu fikri başından çıxar! Bir daş altda, bir daş üstdə!

Qol-qanadım sınıb yanıma düşdü...

Təbrizi gəzirdik, Oruc bəy Bayatın sözləri yadıma düşürdü:

***«Təbriz quzey tərəfində ucalan Oronte (Savalan) dağının ətəyində yerləşir. Şəhər Xəzər dənizindən 8 günlük yolda salınıb, güney tərəfindəsə İranın torpaqları uzanıb gedir. Bir yandan dağlarla çevrələnmiş şəhər Böyük Midiyanın lap hüdudlarındadı... İqlimi çox sərtdi, burda qar ilin bütün mövsümü ərzində qalır. Evlərin çoxunun bir hissəsi yarıyacan torpağın altındadı, əksəriyyəti alçaqdı, yalnız bəziləri azacıq torpaqdan hündürdədi, amma belə evlər bişmiş kərpicdən tikilib, gözəl xarici görkəmə malikdi...»***

O dağlar durur, o evlərin bəziləri qalır, amma Təbriz 400 il öncəki Təbriz deyil: sonrakı yüzillərdə aramsız hücumlar, üstəlik, dağıntılar şəhərin görkəmini çox dəyişib...

ORUC BƏY BAYATIN İZİ İSƏ rastıma çıxmır ki, çıxmır...

Təkcə Şeyx Heydər məscidinin qapısı üzərində atası Sultanəli bəy Bayatın şah Məhəmməd Xudabəndənin göstərişilə çəkilmiş rəsminin qalıqları durur – bu da dəryada damladan özgə bir şey deyil...

Bəs, İsfahanda, Qəzvində, Gilanda nəyə bel bağlayırdım?

...Pərviz Kazımi məni o şəhərlərə aparmaq xətrinə qapılar döydü, neçə-neçə hökm sahibinə ağız açdı, axır ki bircə günlüyə də olsa, İsfahanı görə bildim...

İsfahan da o İsfahan deyil...

Nə vaxtsa SƏFƏVİ DÖVLƏTİNİN PAYTAXTI olan bu şəhərdə adı dəyişdirilsə də, Şah Meydanı qalır, məscidlər qalır, mədrəsələr qalır – amma adını çəkməyə qorxduğumuz adamın izini harda axtarım?!

Böyük ümidlərlə getdiyim səfərdən əliboş dönürdüm, üstəlik, içinə yetmək istədiyim SİRRİN QAPISINA DAHA BİR QIFIL vurulmuşdu...

***

Üçüncü minilliyin ilk yayında da Həştərxana gedən gəmiyə anlaşılmaz, dolaşıq duyğularla minmişdim. Qabaqcadan bilirdim, Oruc bəy Bayatın keçdiyi yollarda onun izini tapmaq, SİRR QAPISIna açar salmaq ot tayasında iynə axtarmaq kimi bir şeydi...

Lal sular, limanlar, kilsələr, məscidlər, karvansaralar nə danışmalıydı?! Gördüklərim olsa-olsa, Oruc bəy Bayat barədə YENİ ƏFSANƏ uydurmağa bəs eləyərdi...

Volqaboyunda – Sarisın, Samara, Kazanda gördüklərim də elə...

Nijni-Novqorod, Moskva, Arxangelskdə gəzdiyim yerlər yalnız təxəyyülümün sınırlarını genişləndirirdi...

Üz tutduğum arxivlərdə sorğumu qəbul eləyir, kataloqları araşdırır, başlarını bulayırdılar: ***«Yox, Səfəvi səfirliyinin Rusiyada səyahəti barədə İranlı Oruc bəy Bayatın kitabından götürülmüş məlumatdan başqa bir şey yoxdu...»***

Təbii ki, Arxangelskdən o tərəfə – Oruc bəy Bayatın səfər boyu təsvir elədiyi yerlərə, qürbətdəki ömrünü yaşadığı Valyadolid və Madrid şəhərlərinə yalnız xəyalımın imkanıyla gedə bilərdim...

Açmağa can atdığım SİRR QAPISINA DAHA BİR QIFIL vuruldu...

***

O ilin payızında öləziyən ümidlərimə qəfil işıq düşdü: Pərviz Kazımi bir tanışıyla Təbrizdən zərf göndərmişdi. Ərəb əlifbasıyla Azərbaycan türkcəsində yazılmış o ikicə vərəqlik yazını bir də xırdaca qeydi oxutmağa adam tapmağım həftələr çəkdi.

Axır ki, bəxt üzümə güldü...

Tapdığım adam əvvəlcə qeydi oxudu:

***«Bu sənədin surətini hardan, necə tapmağımla maraqlanma. Nə dil bilsin, nə dodaq. İşin uğurlu olsun.***

***Əgər köməyi dəyəcəksə, çox şad olaram.***

***Qardaşın Pərviz Kazımi».***

Az qala, ürəyim düşdü. Sonra ahıl professorun oxuduqlarını beynimin uğultusu arasından eşidir, şüuruma çatanlara inana bilmirdim:

*«İspan krallığı, Lissabon, 1019-cu il (10 sentyabr 1610-ci il).*

*Nuri-didəm Sultanəli,*

*Bu naməni sənə çatdıracaq şəxs, təbrizli tacir Xoca Dilman etibarlı adamdı, ona Lissabon limanında rast gəldim, Hörmüzə gedən gəmini gözləyirdi. Məhrəm bilib, başıma gələnləri danışdım, İsfahandamı, Təbrizdəmi sizi tapmağı, bu naməni, əlyazmanı bir də kitabı çatdırmağı boynuna götürdü. Xoca Dilmana 500 dukat bəxşiş verdim, təki boyun olduğu sözü yerinə yetirsin.*

*Mən İsfahandan çıxalı on bir il ötüb, indi yəqin yekəlibsən, on yeddi yaşın var. Ümidvaram, mədrəsəyə də gedirsən, oxuyub-yazmağı bacarırsan, yazdıqlarımı oxuyub, dərdimdən hali ola biləcəksən.*

*Hüseynəli bəyin səfarətindən kimsə qayıdıb, mənim, Əliqulu bəyin, Bünyad bəyin dinimizdən-imanımızdan döndüyümüzü, burda qaldığımızı sizə yetirəndə, necə pərişan olduğunuzu, bu on bir il ərzində mənim üzümdən nələr çəkdiyinizi xəyalıma gətirirəm. Bilirəm, ananın da, sənin də, qohum-əqrəbamızın da başına iş açmışam, sizi məmləkətdə gözükölgəli eləmişəm. Amma istərdim sən biləsən, məni bu addımı atmağa vadar eləyən bir para səbəblər oldu, o səbəbləri göndərdiyim əlyazmanı oxuyanda bilərsən.*

*Qürbətdə yaşadığım illəri sizin həsrətinizlə keçirdim. Şənimə yazılan sonetlər (bu bir cür şeriyyət növüdü), barəmdə uydurulan əfsanələr, yayılan dedi-qodular şərqli olmağıma heyranlıqdan özgə bir şey deyil. İki il çalışıb, bir mirzənin köməyi sayəsində məmləkətimizin tarixiylə bağlı dörd kitab yazdım, altı il qabaq onun üçünü bir yerə yığıb tökmə üsuluyla basdılar. Dördüncü kitabı –*

*soykökümü, həyatımı, məni qürbətdə saxlayan səbəbləri, çəkdiyim sıxıntıları yazdığım kitab bu məsələlərə baxan bir kəsin iddiasıyla basılmağa məsləhət görülmədi. O kitabın nüsxəsini, həm də məsləhət görülməyən hissənin öz dilimizdə əlyazmasını sənə göndəririrəm. Oxuyarsan, atan Oruc bəy Bayatın heç də kafir olmadığını, nə səbəbdən qürbətdə qaldığını öyrənərsən. Ən vacibi gələcəkdə həqiqətin nədən ibarət olduğunu başa düşərsən.*

*Ciyərparəm Sultanəli,*

*Mən yaşadığım əlli ilin (on ilini ömrünmdən saymıram) iyirmi beş ilini Şahımıza, məmləkətimizə, uca dinimizə xidmətdə olmuşam. Ancaq görəndə, Şahımızın dörd bir yanını bürüyən satqınlar, yaltaqlar, kafirlər sayəsində məmləkətimiz də, dövlətimiz də, dinimiz də təhlükəylə üzləşir, onda əlimi yanıma salıb, oturmağı özümə rəva görməmişəm. Üçüncü kitabdan çıxarılan hissələrilə dördüncü kitabın əlyazmasını oxuyanda hər şey sənə ayan olacaq.*

*Əgər İsfahandasınızsa, çətinliyə düşsəniz, mənim qiymətli şeylərimi satın, Təbrizə, baban Mirzə Qədimin yanına köçün. Amma hər vəchlə oxuyub, elm öyrənməyindən qalma. Ananın qayğısını çək. Baban Mirzə Qədim məni başa düşər, o, zəkalı adamdı.*

*Gözlərindən öpürəm, Sultanəli, sizlərdən, gözəl məmləkətimdən ötrü necə darıxdığımı bilsəydin!*

*Qismət olsa, bir də namə göndərərəm.*

*Səni həyatından artıq sevən atan*

*Oruc bəy Bayat».*

...Tale heç olmasa, hər kəsin üzünə ömründə bir dəfə gülürmüş!

SİRR QARISININ BİR QIFILI açılmışdı.

Belə çıxır, Oruc bəy Bayatın özünün, həm də güman ki, səfarətdəkilərin başına gələnləri yerli-yataqlı yazdığı kitabından ixtisar olunan mətləblər, üstəlik, kitabına salınması məsləhəti görülməyən DÖRDÜNCÜ KİTAB var...

Deməli, Oruc bəyi (həm də digərlərini dinindən-imanından üz çevirməyə (üz çevirmişdimi?) vadar eləyən SƏBƏBLƏR var...

Bəs, indi o DÖRDÜNCÜ KİTAB hardadı?

Bəs, o SƏBƏBLƏR hansılardı?

Sirr qapısının bir qıfılı açılmışdı...

Amma əvəzində BAŞQA QIFIL vurulmuşdu...

Bu Sirdən necə baş açasan?

***

İki il beləcə keçdi...

Deyəsən, bu SİRRin içinə nə vaxtsa yetəcəyimdən ümidimi üzmüşdüm – yön çevirdiyim yerlərdə işıq ucu görünmürdü...

Amma içimdə hissi, üstəlik, ruhi müvazinətimi itirməyə qoymayan NƏSƏ vardı...

Nəydi?

Bu, məndən ötrü də AÇILMAZ SİRR İDİ...

Yolum Tiflisə düşəndə arxivlərdə I Şah Abbas dövrünün izlərini sənədlərdə axtarırdım. Gürcüstana elədiyi hücumlar üzündən bu ölkədə Şah Abbasın adı gələndə hamı üz-gözünü turşudurdu (tikdirdiyi məscidi hələ ötən yüzilin 50-ci illərində Stalinin göstərişilə uçurtmuşdular), amma nəzakət xətrinə candərdi də olsa, axtarır, çox vaxt bildiyim faktları, ya da əhəmiyyətsiz şeyləri «üzə çıxardırdılar».

Bu dəfə Əlyazmalar İnstitutunun Şərq bölməsinə getdim. İşimi ehtiyatlı tutub, sanballı elmi idarədən məktub da aparmışdım. Baxdılar, fikirləşdilər, götür-qoy elədilər, axır ki, kataloqla tanış olmağa icazə verdilər...

Ərəb əlifbasını bilən ahıl gürcü qadın bezgin səslə sənədlərin təsvirini oxuyurdu, mən də lazım olub-olmadığını deyir, bəzi şifrələri dəftərçəmə yazırdım.

– Hansısa əsərdən parçalar... Dördüncü kitab... – bu işlə candərdi məşğul olan qadın az qalırdı, kataloq yeşiyini başıma çırpsın.

Necə çevrildimsə, dirsəyimlə qovluğu stolun üstündən yerə saldım.

– Dayanın, dayanın! – Az qala, bağırırdım. – O sənədi görmək olarmı?

– Şöbə müdirinin icazəsi lazımdı! – Qadın əsəblərini cilovlaya bilmirdi.

Şöbə müdirinin otağına necə cumduğum yadımda deyil. Xahiş eləyirdim, yalvarırdım, dil tökürdüm, hətta Bakıya zəng vurub, sənəddən istifadə haqqının ödəniləcəyinə zəmanət almağı da boyun oldum. Görünür, şöbə müdirinin o sənəddən xəbəri vardı, milli maraqlara bir isti-soyuğu olmadığını fikirləşib, əlini yellədi:

– Yaxşı, kalbataono[1] Ketevana deyin, istifadəyə icazə verirəm.

Ərəb əlifbasını oxuya bilmədiyimdən, kalbatono Ketevanın gətirdiyi əlyazmanı o üz-bu üzə çevirdim, axırda şirin dilimi işə salmalı oldum:

– Kalbatono Ketevan, gərək insan insana kömək eləsin...

---

[1] gürcücə qadına hörmətlə müraciət, xanım

– Yaxşı, mən neyləməliyəm? – Qadın açıq-aşkar istehzayla soruşdu.

– Səhər tezdən gəlirəm, siz sənədi oxuyursunuz, mən də yazıram, hörmətiniz də yerində...

Son kəlməni eşidəndə qadının üz cizgiləri yumşaldı, azacıq tərəddüd keçirdi, axırda gözucu şöbə müdirinin otağına tərəf baxıb səsini qısdı:

– Onda heç kəs bilməsin, bir də gecikməyin...

***

...O gecə ilan vuran yatdı, mənim gözümə yuxu getmədi. SİRR QAPISININ AÇARI orda – Əlyazmalar İnstitutundakı ərəb əlifbasıyla yazılmış, bir dəstə solub-saralmış kağızının sətirləri arasındaydı. Gözümü yumurdum, iç dünyamda dörd yüz il qabaq uzaq İspaniyanın Valyadolid şəhərindəki dəbdəbəli sarayın divarları arasında əzab çəkən ORUC BƏY BAYATIN GÖRKƏMİ canlanırdı. Nə vaxtsa şəninə yazılan bir sonetdə vəsf olunduğu kimi, ***«kübar görkəmli, sıx qalın saçlı, Neptun sayaq vuraqlı, görəndə Apollonun utana-utana gözünü döydüyü»,*** bununla belə, ***«dinməz-söyləməz əzab çəkən, ötüb-keçən illərin yeyib-tükətdiyi»*** Oruc bəy elə bil, dil açıb, haqqının özünə qaytarılmasını istəyirdi. Üstəlik, mənim də, az qala, iyirmi il özümlə daşıdığım ƏZABIMA son qoyulacaqdı...

...Kalbatono Ketevanla birgə işimiz üç həftə çəkdi.

Hər gün səhər tezdən Əlyazmalar İnstitutun balaca otağına ürəyim döyünə-döyünə girir, külrəngli saçları olan çəlimsiz qadının xəstəlikdən, yaxud başqa səbəbdən işə gəlməməsindən duyduğum rahatsızlığın əbəs olduğunu görəndə, əməlli-başlı sevinirdim, sonra oturub onun gürcü

ləhcəsiylə oxuduğu ərəb əlifbasıyla yazılmış Azərbaycan türkcəsindəki sözləri kağıza köçürürdüm. Arada qadın şöbə müdirinin kabinetinə, yaxud müraciət eləyənlərin xahişini yerinə yetirməyə gedəndə eşidib-yazdığım mətnin yaratdığı duyğularla reallıq arasında çırpına-çırpına qalırdım...

Kalbatono Ketevanın dediyinə görə, əlyazma Şah oğlu Şah Abbasın Tiflisə hücumu vaxtı öldürülən bir əskərin üstündən tapılıb, çuxasının iç tərəfinə möhkəm-möhkəm tikilibmiş. Tapan adam lazımlı bilib, kilsəyə təhvil verib, üç yüz ildən çox kilsənin kitabxanasında qalıb, ordan arxivə, arxivdən Əlyazmalar İnstitutuna köç eləyib, indiyəcən kimsənin diqqətini çəkməyib...

Belə çıxırdı, Oruc bəy Bayatın oğlu SULTANƏLİ BƏY BAYAT da ata-babası kimi Səfəvi ordusundakı Bayat dəstəsində olub, döyüşlərdə iştirak eləyib, ölkələr ayaqlayıb...

Yoxsa İspan krallığından – Lissabondan İsfahana göndərilən əlyazma Tiflisə hardan gəlib çıxardı?!

ƏLYAZMANIN SON QIRX SƏHİFƏSİ oğul Sultanəli bəy Bayatın qələmindən çıxmışdı, atası İsfahanı tərk eləyəndən sonra başına gələnləri yazmışdı. Bu da məndən ötrü göydəndüşməydi, nə vaxtsa bəxtimin bu qədər gətirəcəyi yuxuma da girməzdi...

Kalbatono Ketevan nədən bu qədər sevindiyimə təəccüblənirdi: yorğun, yeknəsəq səslə oxuduğu mətn ondan ötrü mənasız, darıxdırıcı, bezdiriciydi. Zəhmətinin əvəzində səxavətimi göstərəndə də çox heyrətləndi, uzun-uzadı təşəkkür elədi.

Mənimsə bütün bunlara fikir verməyə amanım yox idi...

***

İndi SİRR QAPISININ ƏN AZI BİR TAYI açılmışdı, Don Juan – Oruc bəy Bayat barədə artıq hər şeyi olmasa da, çox şeyi bilirdim...

Bilirdim, onu dinindən-imanından dönməyə (dönmüşdümü?) vadar eləlyən o «bir para səbəblər» nədi...

Bilirdim, ta İsfahandan – I Şah Abbasın onu səfirliyin birinci katibi təyin eləməsindən Əlfəqih Əmirin öldürülməsinəcən çəkdiyi iztirablar, üzləşdiyi təhlükələr, gördüyü tədbirlər nədən ibarətdi...

Bilirdim, gizlicə ağlaya-ağlaya, uca Allahdan bağışlanmasını diləyə-diləyə, dinini dəyişəndən sonra üzdə kübar, nəcib, igid görünə-görünə, özüylə tək qalanda hansı hissləri yaşayırmış...

Amma hələ də çox şeyləri bilmirdim – görünür, ALLAH SİRR QAPISINI BƏNDƏSİNİN ÜZÜNƏ HEÇ VAXT TAYBATAY AÇMIR...

Bilmirdim, ispanca 1604-cü ilin Valyadolid şəhərində basılmış «İranlı Don-Xuan Oruc bəy Bayatın kitabı»nın titul vərəqəsindəki «Valyadolidin Samano küçəsində yaşayan Xuan da Bostilyo üçün imtiyazla» sözləri hansı mənanı verir...

Bilmirdim, 1603-cü il oktyabrın 20-də kitaba rəy verən iezuit Fransisko de Qalars üçüncü kitabdakı ixtisarların, dördüncü kitabın çapa buraxılmamasının səbəbkarı olub, ya yox...

Bilmirdim, kral və kraliçənin saray kapellanı Alvaro de Karavaxala məktub yazan lisensiant Remon ***"Don Xuana əsərini yazmaqda necə yardım göstərdiyini qeyd eləməklə"*** nəyi nəzərdə tuturmuş: onu arzuolunmaz məlumatları

kitaba daxil eləməkdən çəkindirdiyini, yoxsa Oruc bəy Bayatın yazdıqlarına «əl gəzdirməsini»?

Bilmirdim, o ixtisarlara və qadağaların xeyir-duaçısı kitabın nəşrinə icazə verən, o vaxt cəmi on beş-on altı yaşı olan kral III Filippdi, yoxsa anası kraliçə Marqarita Avstriyalı? Bəlkə də elə göstərişi krallığı faktiki idarə eləyən hersoq Lerma vermişdi?

Kim bilir...

Oruc bəy Bayatın ərəb əlifbasıyla Azərbaycan türkcəsində yazıb oğluna göndərdiyi əlyazmada bu barədə bir kəlmə də yoxdu...

Heç oğlu Sultanəli bəyə göndərdiyi naməsində də bununla bağlı eyhamlarsa vurmayıb...

Görünür, bütün bu mətləblərin örtülü qalması məsləhətmiş...

Amma o əlyazmalarda xəyanətlər, qətllər, fırıldaqlar, əzablarla yanaşı gözəl eşq macəraları da var: yağış-qar ucbatından beş ay qaldıqları Moskvada gözəl Anfisayla, iki ay qonaq olduqları Romada sinyora Romanayla, yaşadığı Valyadoliddə zərif sonetlər yazan donna Anna Espinosa Ledesmayla...

Bəlkə də Oruc bəy elə bu eşq macəralarına görə qadın qəlbinin fatehi kimi məşhurlaşıb, onunla bağlı əfsanələr bundan sonra yaranıb?

Ola bilər...

Amma haqqında onlarla balladalar, poemalar, romanlar yazılmış, filmlər çəkilmiş macəraçı, qadın düşgünü Don Juan Oruc bəy Bayatın prototipi deyil...

O əlyazmalarda ağlagəlməz fakt da var: Oruc bəy Bayatın – don Xuan de Botilyonun böyük ispan yazıçısı,

«Lamançlı Don Kixot»un müəllifi Migel de Servantes Saavedrayla tanışlığı, məhrəm söhbətləri olub!

1605-ci ildə «Lamançlı Don Kixot»un birinci kitabı çap olunandan sonra Oruc bəy Bayat əsəri oxuyub, dilmanc dostuyla yazıçının görüşünə gedib. Don Migel 1570-ci ildə türklərə qarşı döyüşlərdə iştirak eləməsindən, sol qolunu itirməsindən, Əlcəzair paşasının əsiri olmasından maraqlı epizodlar danışıb...

Bu əlyazmada Oruc bəy Bayat taledaşları Əliqulu bəy Bayatın evlənməsindən, Bünyad bəyin məşhur dramaturq, şair don Salaso Barbadilyoyla intriqasından, özünün Səfəvi səfirilə ədavətindən, onu öldürüb əzab çəkməsindən yazır...

***

İşin çətini geridəymiş...

İndi qarşımda «yarımçıq əlyazma sindromu» dururdu: üçüncü kitabdan kiminsə – iezuit Fransisko de Qalarsınmı, lisensiat Remonunmu, kral III Filippinmi, hersoq Lermanınmı ixtisar elədiyi hissələri çap olunmuş mətndən ayrıca təqdim eləməli, yoxsa mətnin bərpasını əsas tutmalı?

Birinci variant Oruc bəy Bayatın – İranlı Don Xuanın müəllif hüquqlarına hörmət demək idi. Amma oxucu o kitabla tanış deyildisə, qırıq-qırıq parçalardan nəsə başa düşəcəkdimi?

İkinci variant oxuduğundan tam təsəvvür almaq istəyən oxucunun gözləntilərini təmin eləmək idi. Amma bununla həmişə ağ paltarda qara ləkə axtaranların əlinə dəstəvuz vermək olmazdımı?

Çox fikirləşəndən sonra İKİNCİ VARİANTI seçdim...

Bu qərarımın bir neçə səbəbi vardı...

Birincisi, şübhəsiz, 1604-cü il nəşrindəki üçüncü kitab Oruc bəy Bayatın öz istəyincə qəbul elədiyi variant deyildi: kim tərəfindənsə ixtisar olunmuş, dəyişdirilmiş, bir sözlə, senzuradan keçirilmiş variant idi...

İkincisi, o ixtisarları, redaktələri, səhvləri düzəltmiş Oruc bəy Bayatın arzusuna əməl eləmək onun ruhuna da, ömür hekayətini bilmək istəyən oxucuya da hörmət olardı...

Üçüncüsü, bu variant mənə – əlyazmanı çapa hazırlayana mətnin üslubunu, dilini, təhkiyəsini indiki oxucudan ötrü anlaşıqlı eləməyə imkan verərdi...

Bu səbəblərdən Oruc bəy Bayatın qələmindən çıxan üçüncü və dördüncü kitabları bir kitabda – Dördüncü kitabda özünün istədiyi kimi verməyi qət elədim. İstərdim, atdığım addım yanlış olmasın...

Bəs, niyə Dördüncü kitabda?

Bəlkə əsl həqiqət Dördüncü kitabda üzə çıxdığına görə?

Bəlkə Qurani-Kərimin müqəddəs kitabların dördüncüsü olduğuna görə?

Bəlkə özümün də bilmədiyim, baş açmadığım başqa bir səbəbdən?

Bilmirəm...

Amma bu işləri gerçəkləşdirməyə başlayanda 2004-cü ilin payızıydı, yadıma düşdü, «İranlı Don Xuanın kitabı»nın çap olunmasından düz 400 il ötür!..

Bu da bir SİRR!

Yazmışdım, axı HƏR ŞEY SİRR İÇİNDƏ SİRDİ – daha buna zərrə qədər də şəkk-şübhəm yoxdu...

# BİRİNCİ FƏSİL

*İsfahan, Abbasabad məhəlləsi*
*İyulun ilk günü, 1599-cu il*

**Bu fəsildə İran şahının dövlətxanasına iki portəgiz rahibin və iki qardaş ingilisin gəlməsindən (Şahımızın məni dövlətxanaya çağırmasından, həmin gecə yuxusuz qalmağımdan, yadıma Şahzadə Həmzə Mirzənin və atam Sultanəli bəy Bayatın öldürülməsinin düşməyindən, Təbrizdə oxumağımdan, gözəl Nisəxanımı sevməyimdən), Şahın səkkiz xristian hökmdarının yanına necə elçi göndərmək qərarına gəlməyindən danışılır.**

***

*(...Şah Abbas öz mülklərində dincələ-dincələ, düşmənlər, fəth elədiyi əyalətlər üzərində qazandığı zəfərlərdən ləzzət ala-ala yaşayırdı ki, İran sarayına 300 əyan-əşrəfin müşayiətilə Türkiyə sultanı III Məhəmmədin* **(Mehmetin, 1595-1603-cü illər – N.Ə.**) *Böyük çavuşu (xüsusi tapşırıqları yerinə yetirən xidmətçilərin başçısı) Məhəmməd (Mehmet) ağa elçi gəldi. Sultanın tələbi Şah Abbasın öz oğlu Səfi Mirzəni Konstantinopola (İstanbula), sultan sarayına – onda vəliəhdin on iki yaşı var idi – göndərməsindən ibarət idi. Şah öz təcrübəsindən Osmanlı sarayının amansız adətlərini bildiyindən, elçiyə belə dedi: hökmdar (Şah) əslində, yalnız öz oğlunun nökəridi, çünki məmləkəti – Səfəviyyədə vəliəhd şahzadə doğulan kimi, birbaşa ölkənin hökmdarı olur, buna görə də əlahəzrət sultana olan hörmətinə şəhadət vermək, onun sarayını şərəfləndirmək üçün özü getsə, daha yaxşı olar: amma əgər oğlu yola salınsa, hətta əgər oğlunu göndərmək istəsə, sarayın (dövlətxananın) əyan-əşrəfi heç vaxt şahzadəni yollamağa razı olmazlar.*

*Osmanlı (sultanı) bu cavabdan qeyzlənmişdi, amma Şah sultanın belə həyasız tələbindən, bu tələbin göndərildiyi məkrli hiyləgərlikdən qəzəblənmişdi: görünür, İranın vəliəhdini aradan götürmək istəyirlər və doğrudan da, Osmanlı sultanının bu cür hərəkət etmək adəti vardı.*

*Beləliklə, Şah Sultan III Məhəmmədin (Mehmetin) niyyətini başa düşdü, o saat da elçinin saqqalını qırxmağı, bəxşiş kimi sultana göndərməyi əmr elədi.*

*Bu hökmdarlar arasında belə təhqir üsulları məqbul sayılırdı, Şah Abbasın bu addımı atmağa haqqı vardı, bununla sultan III Məhəmmədə (Mehmetə) onun atası III Muradın əmri ilə İranın sabiq elçisinin başına açılan oyunu xatırladırdı. Yada salmaq istəyirəm, Konstantinopolda (İstanbulda) təntənəli mərasim za-*

*manı İran elçisini xüsusi qurulmuş taxta səkidə yerləşdirmişdilər, səki də mərasimin qızğın çağında uçmuşdu.*

*Təxminən elə həmin vaxtlarda Şahın sarayına (dövlətxanasına) otuz iki nəfər müşayiətçisi olan, özünü Ser Antoni (Entoni) Şerli kimi qələmə verən ingilis gəldi və onlar Qəzvində dayandılar...)*

Oruc bəy Bayat mətnin bu yerində ikinci kitabın sonundakı kiçicik parçanı əlavə eləyib ki, mənzərə tamam aydın olsun.

*(...Bu adamlar Şotlandiyadan gəlmişdilər, özlərini türk kimi qələmə verib, Venesiyadan keçmiş, Hələbə və Bağdada yol almışdılar. Mövcud sülh müqaviləsinə (məmləkət – Səfəviyyəylə Osmanlı arasında onların birgə silahlı mühafizələri tərəfindən) görə, onları Çisir çayının kənarındakı sərhəddə saxladılar, burada gələnlər özlərini elə göstərdilər, guya türk tacirləri kimi səyahət eləyirlər – ona görə ki bu dildə əməlli-başlı danışırdılar, türk mühafizəsi də onları buraxdı. Sonra yaxınlıqdan keçən bir neçə Səfəvi taciri səyyahları çaydan keçirdilər, ordansa Qəzvinə gətirib çatdırdılar, burada da onların əslində kim olduqları aşkara çıxdı. Biz Xorasandan gələndə bu adamlar artıq Qəzvində gözləyirdilər, amma Şah Abbas onlarla görüşmədi. Sonralar onlara İsfahana getməyə icazə verildi, burada saraya buraxıldılar Şah da gələnləri hüzuruna çağırdı... O, (Şerli) özünü şotland kralı Ceymsin əmisi oğlu adlandırırdı, iddia edirdi ki, xristian aləminin bütün kralları Osmanlıya, ümumi düşmənə qarşı müharibə aparmaq üçün onlarla ittifaqa girməli olan Səfəvi şahıyla danışıqlar aparmaq üçün səfir kimi onu tanıyıb, səlahiyyət veriblər. Xristian cənablar vaxtında gəlmişdilər, ona görə ki, Şah özü portəgiz Hindistanından keçib-getməklə, İspan kralının yanına hədiyyələrlə elçi göndərmək istəyirdi. Amma ser Antoni Şahın nəzərinə çatdırdı ki, Əlahəzrət Katolik İspan kralından başqa Avropada və Qərbdə digər çoxlu daha güclü krallar var, Osmanlıya qarşı onunla (Şahla) həvəslə birləşərlər...*

# 1.

...Şam yeməyini təzəcə qurtarıb, "əlhəmdülillah" eləmişdim, bu vaxt həyət qapısı ehmalca döyüldü. Taqqıltının tövründən gələnin zənən xeylağı, ya da uşaq olduğunu başa düşdüm: Şahımızla Qəzvindən İsfahana köçdüyümüz bu bir il ərzində gəlib-gedənimiz o qədər də çox olmamışdı, bu səbəbdən, hər dəfə qapı döyüləndə kimin gələ biləcəyi fikri məndən ötrü əyləncəli çək-çevirə dönürdü. Ağlımdan keçdi, əgər qadın, ya uşaqdısa, görünür, qonşulardan hansısa diləyə gəlib, ya da qohumlardan kimsə təşrif buyurub. Amma nökər gəlib deyəndə Hüseynəli bəy Bayat buyruqçu göndərib, nəsə çox əsvəl sözü var, qəfildən diksindim, içimdən qəribə gizilti keçdi: nə vaxtdı, həməşirətim Hüseynəli bəylə haqq-salamımız var, gediş-gəlişimiz var, amma heç vədə belə qəfil buyruqçu göndərməmişdi. Öz-özümə "Allah xeyrə calasın" dedim, nökərə tapşırdım, buyruqçunu mənim otağıma aparsın, indi gəlirəm. Durub ağzımı yaxaladım, bığ-saqqalıma, qaşlarıma ətirli yağ sürtdüm, çuxamı geyindim, xəncər-kəmərimi qurşadım, Venedikt tacirlərinin gətirdiyi, Qəzvində aldığım aynada özümə nəzər saldım, sonra "Ya Haqq-Allah!" – deyib, otağıma sarı yönəldim.

Buyruqçu on-iki-on üç yaşlarında erməni balasıydı, iri qara gözləri, toppuş yanaqları, yaraşıqlı əndamı varıdı, məni görəndə baş endirib, təzim elədi, sonra gözlərini gen-gen açdı, heyran-heyran üzümə baxıb udqundu. Ürəyimdə Hüseynəli bəyin zövqünə əhsən deyib, caiz sayılmasa da, əlimi oğlanın yanağına çəkdim, barmaqlarımın altında sütül bədənin necə əsdiyini, mənə sarı necə uçduğunu du-

yub, öz-özümə "Lənət şeytana!" – dedim. Hələ Qəzvində olanda, Hüseynəli bəyin dürlü-dürlü əməllərinə görə, osmanlıların əlindən qaçıb, məmləkətimizə pənah gətirən, qabaqca Təbrizdə məskən salan, sonra Qəzvinə köçən dəlləkPoqosu qanadı altına aldığını bilirdim: Poqos dəlləkliyini eləyirdi, gözəl arvadı Qayane xanımının qulluğunda dururdu, bax, bu oğlu da əl buyruqçusu kimi, tapşırılan işləri görürdü. Əlimi yanağına çəkəndə oğlanın təpədən-dırnağa əsməyindən bildim, Hüseynəli bəy fürsət düşəndə təkcə Qayaneyə ot yoldurmur, həm də bu uşağı özüylə hamama apara-apara ona çox şeyləri daddırıb. Yoxsa Qəzvindən İsfahana köçəndə, bütün ailəni özüylə gətirməzdi.

– Hə, oğlan, de görüm, Hüseynəli bəyin buyruğu nədi? – bu nagəhan fikirləri başımdan qovmağa çalışa-çalışa uşağın üzünə yox, taxçada yanan şama sarı baxdım.

– Ağam buyurdu... – oğlan əsintisini zorla saxlayırdı, – ağam buyurdu, Oruc bəyə çatdır ki, sabah ikindi namazından sonra dövlətxanaya gəlsin... Şahımızın hökmüdü...

Oğlanın üç-dörd ilin içində dilimizi belə səlis öyrənməyi xoşuma gəldi. Şahımızın bu cür qəfil dəvətlərinə adət elədiyimdən, uşağın verdiyi xəbərə təəccüblənmədim, ağlımdan keçdi, yəqin, Qibleyi-aləm yeni səfərlərə hazırlaşır, adəti üzrə məsləhət-məşvərət eləmək fikrindədi. Nəzərlərimi şamın alovundan çəkib, oğlanın itaətkar sifətinə dikdim, beynimə gələnlərdən qaça-qaça başqa şey soruşdum:

– Gədə, oxumaq-yazmaq bilirsənmi?

– Ağam məni mədrəsəyə qoyub, oxumaq da bilirəm, yazmaq da, – oğlan adama "gəl-gəl" deyən iri gözlərini itaətlə üzümə dikdi.

– Böyüyəndə nəçi olacaqsan? – Soruşdum.

Şübhəsiz, Hüseynəli bəyin ayağını basmaq məndən ötrü çətin olardı, oğlanı tezcə yola salmalıydım, daha sual vermək ağılsızlığıydı.

– Mirzəlik eləyəcəm, – oğlan özündən xeyli yaşlı gözlərilə dik-dik üzümə baxdı, bu gözlərin yiyəsi həyatının məqsədini, məramını artıq indidən bilirdi. – Atam deyir, məmləkətimizin tarixini yazmaq lazımdı.

"Yox, bir sual da vermək lazımdı, – öz-özümə dedim, – iri gözlərin belə itaətkar olmağına baxma, indidən qan-qan deyir".

– Yaxşı, gədə, de görüm, adın nədi?

– Arakel, – dedi, gözlərini qırpmadan durdu.

– Get, Arakel, – dedim, – ağana çatdır ki, Oruc bəy Bayat sabah ikindi namazından sonra Şahımızın hüzurunda olacaq.

Oğlan ədəblə baş endirdi, bağır basdı:

– Bəçeşm, ağa! – dedi, dönüb qapıya sarı yönəldi.

Onun yerişinə göz qoya-qoya: *"Hə, də,* – fikirləşdim, – *başlandı. Şahımızın mərhəmətindən gavurlar məmləkətimizdə özlərini çox arxayın hiss eləyirlər. Bu gün "bəçeşm" deyənlər sabah dilimizi də, özümüzü də danacaqlar. Məmləkət get-gedə kafirlərlə dolur. Ötən ay iki portəgiz rahib gəlib, biri dominikandı, o biri fransiskan, yəqin, bu da xristianların təriqətləridi. İki həftə qabaq da nə vaxtdan bəri məskən saldıqları Qəzvindən iki qardaş ingilislər gəliblər, osmanlı türkcəsində səlis danışırlar, məramlarının nə olduğu hələ bəlli deyil...".*

## 2.

Buyruqçu oğlan çıxıb gedəndən sonra xeyli durduğum yerdə qaldım. Adətən bu vaxtlarda qulluqçu oğlumu yanıma gətirirdi, atamın adını qoyduğum altı yaşlı Sultanəlini danışdırırdım, getdiyim səfərləri, keçirdiyim döyüşləri nəql eləyirdim, indisə qulluqçunun qapını taqqıldatmasına fikir vermədim, azacıq sonra ayaq səslərindən ikisinin də çəkilib getdiyini duydum. Əlbəttə, çoxları kimi, durub hamambaşı fars Aləmdarın yanına gedə, bir abbasıya erməni, rumlu oğlanlarla nəfsimi öldürə, ya da Culfa adlanan erməni məhəlləsində Maronun say-seçmə qızlarıyla şərab içib, gecəyarıyacan hər şeyi unuda bilərdim. Amma bütün bunları istəmədim, çalmamı başımdan götürdüm, xəncər-kəmərimi açdım, çuxamı soyundum, döşəkcənin üstündə rahatlanıb, nökərə qəlyanımı gətirməyi tapşırdım.

Nökər qəlyanı gətirdi, sonra buyruğum üzrə üçqanad gümüş şamdanı yaxın gətirib yandırdı, taxçadakı kitabı qarşımda rahladığı taxtanın üstünə qoydu. Həməşirətim, ömrünü Kərbəlada başa vurub, orda da torpağa tapşırılan bağdadlı Süleyman oğlu Məhəmmədin bu divanını Şahımızın verdiyi məvacibdən yığdığım pulla təbrizli xəttat Mir Əliyə köçürtdürmüşdüm, dövlətxanamız Qəzvindən İsfahana köçən il başa gəlmişdi, o vaxtdan bəri gün olmazdı, divandan heç olmasa, bir qəzəl oxuyub, şeriyyətin sehrli aləminə dalmayam. Amma indi gözlərim divanın səhifələrinə, Mir Əlinin zərif xətlə düzdüyü hərflərə, tanımadığım nəqqaşın səhifə kənarlarına çəkdiyi naxışlara baxsa da, beynimdə ayrı şeylər varıdı: gah cavan Şahımızın iri bığları, gah xariciyyə işləri üzrə məsləhətçisi erməni Kio-

sun – Xoca Səfərin biclik tökülən gözləri, gah da Hüseynəli bəyin göndərdiyi buyruqçu oğlanın xanım yerişi xəyalıma gəlirdi, fikrimi heç cür ipə-sapa düzə bilmirdim. Axırda divanı örtüb taxçaya qoydum, qəlyanımı sümürə-sümürə fikrə getdim...

Şahımızın məni dövlətxanaya çağırtdırması bir yandan təəccübümə səbəb olmuşdu: indiyəcən Qibleyi-aləm hüzuruna çağıranda, eşikağasıbaşının xidmətində olanlardan birini göndərərdilər. Bu dəfə dövlətxanaya Hüseynəli bəyin diliylə çağırılmağımın altında başqa mətləblər gizlənə bilərdi. Əlbəttə, indi durub Hüseynəli bəyin evinə getməyin yeri yoxudu, məsləhət bilsəydi, elə buyruqçuya da tapşırardı, bəs, deynən, Şahımız filan işdən ötrü dövlətxanaya gəlməsini tapşırıb. Yəqin, ya doğrudan da, Qibleyi-aləmin məqsədini bilmir, ya da dövlətxanaya gedənəcən bu səbəbi mənim bilməyim məsləhət deyil...

Eşikdə hava yavaş-yavaş qaralırdı, açıq nəfəslikdən yayın orta ayının bürküsünü səngidən sərinlik içəri dolub, tül pərdələri yellədirdi, üstəlik, sərinliklə yanaşı, yaşadığımız Abbasabad məhəlləsinin səs-küyü get-gedə öləziyirdi. Hardansa gözlərimin qabağında bir ay qabaq beş dilmanc, on beş xidmətçi, on katibi-filanıyla gəlib çıxan, Osmanlı türkcəsində yaxşı danışan ingilis qardaşlar canlandı. Bu gəlişdə Xoca Səfərin əli olmaya? Dediyinə görə, böyüyünün adı Antoni, kiçiyininki Robertiydi, guya şotland kralı Ceymsin əmisi oğluydular, xristian aləminin bütün kralları bu iki serə Şahımızla danışıq aparmağı etibar eləmişdilər, Şahımızla birləşib, Osmanlı sultanına qarşı çıxmalıydılar. Tutalım, bütün bunların hamısı düzdü, Qibleyi-aləmin fikirlərinə tən gəlir, amma bu məsələdə Xoca Səfərin

canfəşanlığı nəsə şübhə doğurur. Hüseynəli bəyin dediyinə görə, Qibleyi-aləm əvvəl-əvvəl serlərə şübhəylə baxırmış, amma Xoca Səfər nətəhər qılığına giribsə, Şahımızın müsafirlərə hörmət-izzəti birə beş artıb. Mən bilən, Xoca Səfər səhərdən-axşamacan onların böyür-başında fırlana-fırlana hansı kələklərsə toxuyur...

Dəllək Xudaverdinin beş il qabaqkı əməlindən sonra özlərini quzu kimi sakit, fağır, aciz göstərən ermənilərə bel bağlaya bilmirdim. Şahzadə Həmzə Mirzənin boğazına ülküc çəkən rəzil bir kimsənin soyuna necə inanaydım? Amma Qibleyi-aləm qardaşını qurbanlıq qoyun kimi boğazlayan məlundan da hiyləgər, *"mömin müsəlman"* pərdəsiylə gizlənib, altdan-altdan tor toxuyan idbar bir kəsi özünə məsləhətçi götürüb, məmləkətin aləmdə nüfuzunu qaldırmağı ona etibar eləyib! Günlərin birində Xoca Səfər Şahımızın da canına qəsd eləməzmi? Eləyər, özü də yaxşı eləyər! Hələ Şahımız onun qurduğu torun içindədi, Xoca Səfərsə yaxındakı-uzaqdakı məsləkdaşlarının işinə yarayır. Axırını da Allah saxlasın!

Amma Həmzə Mirzənin qətli görünməmiş müsibət oldu. Bədbəxt Şahzadənin mərhum atam Sultanəli bəyə böyük etibarı varıdı, sonra o hörməti mən də duymuşdum. Yazıq iki əşirətin – şamlularla ustacluların arasındakı çəkişmənin qurbanı oldu. Oğlu İsmayıl Mirzəni özünə vəliəhd təyin eləyib, himayəsini İsmayılqulu xan Şamluya tapşıranda, qəyum xan yarıkor padşahımız Məhəmməd Xudabəndənin ölümündən sonra özünü baş vəzir yerində görürdü. Əliqulu xan Ustacluyla birləşib, daha on iki xanın beynini doldurub, Həmzə Mirzəni aradan götürməkdən ötrü qurğu quranda yəqin, hər şeyin istədiyi kimi olacağı-

na inanırmış. Xoylu dəllək erməni Xudaverdini bu rəzalətə sövq eləmək xətrinə çox mal-mülk vəd eləyiblər, başından bir tük belə əskik olmayacağına inandırıblar...

Onda, on üç il qabaq 994-cü il zilhiccənin 22-də *(1586-cı il dekabrın 4-də)* osmanlı qoşunları Təbrizin üstünə gəlirdi. Biz də az qüvvəylə düşmənin qabağına çıxmağa çəkinən Şahımızla Şahzadənin əmri üzrə yolumuzun üstündə nə varsa, yandırıb, dağıda-dağıda Qarabağ bəylərbəyliyinin torpaqlarına girmişdik. Gəncədə bir neçə gün qalıb, İmamqulu xan Qacarın dəstələrilə güclənəndən sonra Şahımızla Şahzadə məsləhət-məşvərət elədilər, nəticə də belə oldu ki, bu qoşunla Təbrizi geri almaq ağılsızlıqdan başqa bir şey deyil. Səhəri Qəzvinə qayıtmaq üçün yola çıxdıq. Qış təzəcə girsə də, hava əməlli-başlı soyuğuydu, bu da azmış kimi, şəhərdən azacıq aralanıb Qırxçaya çatmışdıq, duman gəlib hər yeri bürüdü, yola davam eləməyimiz çətinləşdi. Bu vaxt Şahzadədən çapar gəldi, bəs, dayanıb çadırları qurmaq, hava açılanacan gözləmək lazımdı. Yüzbaşılara, onbaşılara əmr elədim, çadırlar quruldu, tonqallar qalandı, yeməyimizi yeyib namazımızı qıldıq, sonra da yıxılıb yatdıq.

Gecənin nə vədəsiydisə, gördüm, kimdisə çadıra girib, nəfəsi təngiyə-təngiyə məni silkələyir. Gözümü ovuşdurub, baxdım, yüzbaşı Şahquludu, "Qalx, qalx, – deyir, – Şahzadəni öldürüblər!" Əvvəl ağlıma gəldi, osmanlıların dəstəsi düşərgəyə hücum eləyib, amma yüzbaşı Şahqulu tələsə-tələsə hadisənin necə olduğunu söylədi: "Canım sənə sadağa olsun, bəyim, – dedi, – dəllək Xudaverdinin işidi. O gavur oğlu gavur Şahzadənin çadırının girəcəyində yatır axı, hər buyruğuna əməl eləyir. Şahzadə yaxın adamlarıyla kef məclisi qurubmuş, məclis qurtarandan sonra ge-

dib yatmağa. Gizlicə çadıra girən dəllək Xudaverdi yuxudaykən ülgücü Şahzadənin boğazına çəkib, başını toyuq başı kimi üzüb çıxanda gözətçilər görüblər, gecənin bu vaxtı Şahzadənin çadırında neylədiyini soruşublar. O da Əlahəzrətin buyruğu olduğunu deyib, tələsik yəhərli-yüyənli saxladığı atı minib aradan çıxıb. Qibleyi-aləm duyuq düşübmüş, məsələnin nə yerdə olduğunu biləndə gözətçiləri haraylayıb, amma artıq geciymiş, dəllək Xudaverdi aradan çıxıbmış. Dur görək, başımıza nə gəlir...".

Yüzbaşı Şahqulunun axırıncı sözləri düşərgədəki çığırtı-bağırtının içində eşidilməz olmuşdu. Durub tələm-tələsik geyindim, yar-yarağımı qurşayıb, özümü Şahımızın çadırının yanına saldım. Mən çatanda, bədbəxt şahzadənin nəşini kəfənə büküb, üzü qibləyə qoymuşdular, yarıkor Şahımız minbaşılara əmr verirdi: "Şahzadənin qatilini yerin dibindən də olsa, tapıb gətirin! O, oğlumun qəsdinə duranların kimliyini bilir! Düşərgədə qayda-qanun yaradın, bu xəbəri qoşundakılardan başqa bir kimsə bilməsin!" Minbaşı dəllək Xudaverdini tapmağı mənə tapşırdı, üç gün o ətrafları ələk-vələk elədik, üçüncü günün axşamı çuğul xəbər gətirdi, bəs, dəllək Xudaverdi İsmayılqulu xanın yanına qaçıbmış, o da sirrin üstünün açılacağından qorxub, xəncərlə dəlləyin ağzından elə vurub, beyninin iliyi eşiyə tökülüb. Bədbəxt Şahımız da başına gələn bu müsibətlə barışdı, mərhum Şahzadənin nəşini Ərdəbilə aparıb, ulu babası Şeyx Səfinin məqbərəsində torpağa tapşırmağı əmr elədi. Yuxusuzluqdan, yorğunluqdan üç günlük yolu yeddi günə getdik. Şahzadənin dəfnindən sonrakı gün Şahımız Qəzvinə dönmək əmrini verdi, çünki artıq bir para adamlar orda-burda baş qaldırmağa başlamışdılar...

Hə, dəllək Xudaverdi kimi quzu dərisinə girmiş bir tülkü məmləkətin taleyini başqa səmtə dəyişdi. Kor Şahımızdan sonra taxta Şahzadə Həmzə Mirzə çıxsaydı, necə olardı, görən? Dəllək Xudaverdini yenə dövlətxananın baş tərəfindəmi oturdardı? Səltənətə yiyələnən bu qardaşı kimi, farsları, erməniləri, ingilisləri qanadının altınamı alardı? Kafirlərin məmləkətdə arın-arxayın gəzib-dolanmasına himayədarlıqmı eləyərdi? Ürək qızdırıb, dərdimi dediyim kəs təkcə Hüseynəli bəydi, o da Qibleyi-aləmin hər işi öz ağlıyla gördüyünü deyir. Əlbəttə, mənim bildiklərimi Hüseynəli bəy də bilir, amma canının qorxusundanmı, Şahımıza sədaqətindənmi çinədanındakıları açıb-ağartmır. Bilir, Qibleyi-aləmin lap uşaqlığından dayəsi erməni haxcığı olub, hələ sümüyü bərkiməmiş onu gözəlçə kafir qızlarına öyrədib; bilir, Qibleyi-aləm hərdənbir gecələr təğyiri-libas olub, erməni qızı Gözəlin yanına gedir, səhərəcən onun qoynunda xumarlanır; bilir, Qibleyi-aləm təğyiri-libas olub gəzəndə, nədənsə həmişə cavan, gözəl arvadları olan ermənilərin xarabasında gecələyir; bilir, Qibleyi-aləmin Baş damarını tutan ermənilər Xoca Səfərin gizli göstərişiylə hərəkət eləyirlər, arvadlarının sayəsində toxunulmazlıq qazanırlar, vəzifələr ələ keçirirlər. Elə üççə ay qabaq Xoca Səfər işi elə qurub, Qibleyi-aləm təğyiri-libas olub getdiyi evdə körpə uşaqlı cavan erməni gəlinindən qeyri kəs olmayıb. Qənirsiz gözəl olan gəlin özünü bilməzliyə qoyub, uşağını yatırdıb, qonağına süfrə açıb, şərab gətirib, o qədər naz-qəmzə göstərib, axırda Qibleyi-aləm gecəni onun qoynunda keçirib; şəhvətini söndürəndən sonra gəlin şikayətlənib, bəs, əri kasıb çobandı, külfətini güclə dolandırır, Qibleyi-aləm də dillənmir, gəlinə daş-qaşdan bəxşiş verib, qayıdır dövlətxanaya, iki gündən sonra taxta çıxıb, əmr verib: filan kəndin çobanını tapıb gətirin yanıma; gə-

linin biqeyrət əri də məsələdən xəbərdarıymış, axı, burmabuynuz bir qoçu da götürüb, Qibleyi-aləmin hüzuruna gəlib. Qibleyi-aləm bu çobanın halallığını, düzgünlüyünü, qoçaqlığını tərifləyib göylərə qaldırır, axırda da deyir, get, səni o kəndin məliyi təyin elədim. Xoca Səfərə də tapşırır, fərman hazırlatdır. İndi həmin erməni kəndi çapıb-talayır, heç gözünün üstündə qaşın var, deyən yoxdu. Bunu Hüseynəli bəy də bilir, amma cıqqırını çıxarmır.

Bir əhvalatı o gün elə özü danışdı: deyir, neçə ay bundan qabaq Şahımız təğyiri-libas olub şəhəri gəzməyə çıxıbmış. Yolu bazardan düşüb, görüb, bir nəfər bazarın girəcəyində oturub ağlayır. Ayaq saxlayır, soruşur, a kişi, niyə ağlayırsan, nə qəza üz verib? Bu da olsun, erməni tacir, sual eləyənin təhər-töhürünə baxıb, tanımayıb, qayıdıb, ay başına pırlanım, neynirsən, mənim dərdimə əlac eləmayacaxsan, ha. Şahımız da gülümsünüb deyir, kişi, dünyanın işini bilmək olmaz, sən dərdini de, bəlkə Allah düzəltdi, əlac tapıldı. Erməni tacir deyir, bəs, çoxlu tülkü xəzi almışdım, bəlkə satıb qazanam, amma alan yoxdu, qazanc bir tarafa, mayamı da çıxara bilmiram. Qibleyi-aləm mənalı-mənalı gülür, qayıdır, kişi, fikir eləmə, bir yandan bağlayan Allah o biri yandan açar. Gəzməyini başa vurub dövlətxanaya qayıdandan sonra libasını dəyişib taxta çıxır. Xoca Səfəri çağırır hüzuruna, deyir, fərman hazırla, bu gündən məmləkətimizdə yaşayan bütün ermənilər papaqlarına tülkü quyruğu, çuxalarının yaxasına da tülkü dərisi vursunlar ki, müsəlmanlardan fərqlənsinlər. Fərman car olunandan üççə gün sonra o tacirin bütün xəzini birə-beş qiymətə alırlar, zar-zar ağlayan həmin erməni olur məmləkətin ən varlı adamlarından biri... Nəsə bu da sirri-xudadı, bəlkə elə sirri-səfərdi...

## 3.

Həyət qapısının taqqıltısından bildim, nökər yatmağa hazırlaşır, deməli, namazımın vaxtı çatmışdı. Durub, dəstəmaz aldım, sidq-ürəklə namazımı qıldım, doqquz ildən bəri məmləkətimizdə əmin-amanlıq yaradan Şahımızın canına salamatlıq dilədim, sonra şamdanı götürüb asta-asta övrətimin otağına doğru getdim. Dayəsiylə yatan Sultanəlinin hücrəsindən səs-səmir gəlmirdi, görünür, bu axşam məni görməyib küsmüşdü, dayənin nağıllarına qulaq asa-asa yuxulamışdı. Yeddi ildən bəri can bir qəlbdə yaşadığım gözəl Nisəxanım yatağında sakitcə uzansa da, şamı söndürməmişdi, deməli, məni gözləyirdi.

Şamdanı ehmalca dolabın üstünə qoydum, soyunub yanına girməzdən qabaq gözəl üzünə, yastığın üstünə dağılmış qara zülfünə, yarıyacan açılmış ağappaq sinəsinə, gilasmisalı dodaqlarına, almacıqlarına kölgə salan uzun kirpiklərinə, zərif əllərinə, şana barmaqlarına doya-doya baxdım. Deyəsən, gəldiyimi indi hiss elədi: kirpikləri titrəyib-titrəyib aralandı, iri badamı gözləri üzümə dikildi. Baxışında sevgiylə nigarançılıq bir-birinə qarışmışdı.

– Nədən narahatsan, ağam, – dedi, qalxıb yastığa dirsəkləndi. – Hüseynəli bəyin buyruqçu göndərməyindən xeyir ola?

– Heç, – dedim, – Şahımız sabah dövlətxanaya getməyimi buyurub, xeyir olar, inşallah, – gülümsədim ki, övrətimin qəlbində şəkk-şübhə qalmasın. – Bu axşam oğlumuza nağıl danışa bilmədim, yəqin, küsdü məndən.

– Dayə könlünü aldı, eyib eləməz, – Nisəxanımın səsindən arxayınlaşdığını duydum.

Artıq övrətimin vücudu, o vücuddan gələn hamam, cürbəcür ətir qoxusu asta-asta beynimi dumanlandırırdı, əzalarımın gərildiyini duya-duya, barmaqlarımın titrədiyini gizləməyə çalışa-çalışa paltarımı soyundum, yatağa uzanıb gözəl Nisəxanımın hələ də cavan, təzə-tər, qızğın bədənini qucaqladım, üzümü sinəsində, boyun-boğazında gəzdirə-gəzdirə yeddi ildən bəri tanış olan itaətkar vücudunun qoxusunu içimə çəkdim. Deyəsən, bu gecə yolumu çox gözləyibmiş, dartınıb gövdəsini mənə sıxdı, kirpikləri bir-birinə qovuşdu, gilasmisal dodaqları aralandı, nəfəsi tez-tez qırılmağa başladı. İllərdən bəri öyrəndiyim, təkmil hala gətirdiyim tərzdə gecə köynəyini çıxardım, bu qənirsiz vücudu saçından-dırnağından qoxuladım, xırdaca öpüşlərə qərq elədim, sinəsindən qopan şirin iniltini duyanda can atdığım o ilahi məqamın yetişdiyinə şübhə yerim qalmadı...

...Övrətim boşalıb-sustalıb gözəl başını sinəmə qoymuşdu, həmişə belə vaxtlarda duyduğu şirin bayğınlıq içindəydi, mən də qara zülflərini sığallaya-sığallaya onu ilk dəfə gördüyüm günləri xatırlayırdım. Onda atam Sultanəli bəy Şah Təhmasibin qulluğunda olan üç yüz nəfərlik Bayat dəstəsində onbaşıydı, Şahın əmriylə Təbrizin əmin-amanlığını qoruyan qoşuna qatılmışdı. Bir yaz günü məni – yeddiyaşlı oğlunun əlindən tutub şəhərin Sınıqçılar məhəlləsindəki Mirzə Qədimin mədrəsəsinə apardı, elm-savad öyrətməyi təvəqqe elədi. Onda Nisəxanım dünyada yoxudu, mən mədrəsəni bitirən ili – on altı yaşıma çatanda doğuldu. Səkkiz il Mirzə Qədimin yanında qaldım, Quran-i-Şərifi, şəriətin qayda-qanunlarını əxz elədim, oxuyub-yazmağı, türkcəni, rəbcəni, xəttatlığı, şeriyyəti, cəbri, rəsm

çəkməyi öyrəndim. Hər dəfə atam gəlib bir neçə günlüyə evimizə aparanda, Mirzə Qədim ona mənim ağlımı, qabiliyyətimi, çalışqanlığımı ağızdolusu tərif eləyirdi, mən də o bir neçə gündə anamın sevgisini duya-duya, qardaş-bacılarımla oynaya-oynaya Mirzə Qədimin alçaq pəncərəli, yarıqaranlıq, havasında qəribə sirr-sehr olan mədrəsəsindəki hücrəmdən ötrü darıxırdım, atamın nə vaxt məni tərkinə alıb Təbrizin qaynar küçələrindən, bazar – məhəllələrindən keçirə-keçirə şəhərin o başına Sınıqçılar məhəlləsinə aparacağını gözləyirdim...

Mirzə Qədim məni on altı şagirdinin içindən ayırırdı, təkcə oxuyub-yazmağı bacaran mömin müsəlman yox, elmli, gözüaçıq, zəkalı bir kəs olmağımı istəyirdi. “Yadında saxla, oğlum, – deyirdi, – elmsiz, savadsız güc həmişə yarımçıqdı. Sadağa olduğum, Piri – Mürşidimiz Şah Xətai niyə on üç yaşında taxta çıxdı, məğribdən-məşriqəcən bir məmləkət qurdu? Çünki qolunun qüvvəsiylə yanaşı, yaxşı savad görmüşdü, gözəl şeriyyəti varıdı, elmə-biliyə qiymət qoyurdu. Bu hikmətə vaqif olsan, səni çox uzaqlara aparacaq...” Sonra gözəl avazla Nizamidən, Nəvaidən, Rumidən, Xətaidən qəzəllər, qəsidələr, məsnəvilər deyirdi, huş-guşla qulaq asırdım, eşitdiklərimdən o qədər təsirlənirdim, gecələr şam işığında duyğularımı kağıza köçürməyə tələsirdim...

Mirzə Qədim xəttimi də, rəsm çəkməyimi də bəyənirdi, kitabxanasındakı şahların, döyüş, ov səhnələrinin, sevgililərin, cürbəcür güllərin, quşların, heyvanların, ağacların rəsmləri çəkilmiş kitabları göstərirdi, o rəsmlərin hansı məktəbə, hansı nəqqaşa məxsus olduğunu, nəqqaşların həmin rəsmlərlə nəyi çatdırmaq istədiklərini izah eləyirdi.

Kəmaləddin Behzadla Sultan Məhəmmədin ağlı başdan çıxaran rəsmlərini də birinci kərə elə o vaxt görmüşdüm. Amma o rəsmlərdə niyə insan üzlərinin bir-birinə oxşadığını Mirzə Qədimdən soruşmuşdum, susub uzun-uzadı üzümə baxmışdı: "Dinimizə görə, insan üzünün olduğu sayaq çəkilməsi günahdı, – demişdi, – səbəbini böyüyəndə öyrənərsən..." Mən də bu sözün altında hansısa sirrin yatdığını fikirləşib bir kəlmə deməmişdim...

# 4.

Nisəxanım xumarlanırdımı, yoxsa mürgüləmişdimi, bilmirəm, ehmalca başını sinəmin üstündən yastığa sürüşdürdüm, dikəldim ki, yataqdan qalxam, bu yerdə qımıldandı, gözəl gözlərini gen-gen açıb üzümə baxdı. Baxışında təkcə qadın qəlbinin duya biləcəyi narahatlıq sezdim, diliylə bir söz deməsə də, gözləriylə nə baş verdiyini soruşdu. Əyilib əlimi saçlarına çəkdim:

– Yat, – dedim, – yat, çıxıram, həyətdə təmiz hava alım.

Gözlər buna inandı, ya inanmadı, bilmədim, amma azacıq rahatlanıb süzüldü, kirpiklər bir-birinə qovuşdu, mən də nəleynlərimi ayağıma keçirdim, qapının pərdəsini qaldırıb, şamın işığında ləngərlənən kölgəmə baxa-baxa eşiyə çıxdım. Hənirti eşidən nökər hücrəsindən başını uzadıb boylandı, məni görəndə arxayınlaşıb içəri çəkildi.

Həyətin düz ortasındakı balaca çarhovuzun qırağında oturdum, əyilib ovcumda su götürdüm, üz-gözümə, boyun-boğazıma çəkdim, xeyli sərinlədim. Sonra bir müddət oturduğum yerdəcə qalıb öz fikir-xəyalımın üstünə qayıtdım.

…Mədrəsəni Şah Təhmasib ölən il bitirdim: «bitirdim» demək bir az düz çıxmır, işlər elə gətirdi, hər şeyi yarımçıq qoyası oldum. Ağam *(atam Sultanəli bəyi belə çağırırdıq)* günlərin bir günü dalımca gəlib, vəziyyətin ağırlığını başa saldı:

– Oğlum, – dedi, – ara elə qarışıb, bu gündən sabaha ümid yoxdu. Şahın on bir oğlu, üç qızı qalıb, hər kəs bir dəstə bağlayıb, öz istədiyini taxta çıxarmaq istəyir. Bu işlərin nəylə qurtaracağını hələ bilmirəm. Ona görə də qohum-qardaşla məsləhətləşib bu qərara gəldik, yığışıb

Qəzvinə köçək, haqq-ədalət kimin tərəfindədisə, onun yanında olaq. Mənə görə, Şahzadə Məhəmmədə yardım eləsək, daha münasibdi, həm taxt-tacın qanuni varisidi, həm də oğlu Həmzə Mirzə çox cəsur, dərrakəli oğlandı, beş-altı il druş gətirsə, atasının gücü çatmayan işləri görəcək. Ara sakitləşəndə yenə Mirzə Qədimin yanına qayıdarsan.

Mirzə Qədim bir neçə aydı, qızının dünyaya gəlməsinin xoşbəxtliyi içindəydi. Allah-tala neçə illərdən sonra ona züryət verib könlünü xoş eləmişdi, indi məsələnin bu cür olduğunu görəndə açıq-aşkar kefi pozuldu, ağama üz tutdu:

– Sultanəli bəy, – dedi, – bu cavan ağada elm-bilik öyrənməyə böyük həvəs var. Əlbəttə, döyüşmək, məmləkti də, Şahımızı da qorumaq da şərəfli işdi, amma bizə mirzələr, xəttatlar, nəqqaşlar, üləmalar da gərəkdi. Məsləhtdi, Oruc bəyi bu yoldan ayırmayasan.

– Mirzə Qədim, – ağam hörmətlə bağır basdı, – əmin ol, ölkədə əmin-amanlıq yaranan kimi, oğlum sənin yanına qayıdıb dərsinə davam eləyəcək. İndilikdə yanımda olması məsləhətdi.

Mirzə Qədim məni öz oğlu təki yola saldı. Təbrizdən Qəzvinə gedəndə də, sonrakı illərdə də ustadının alçaq tavanlı, yarıqaranlıq hücrəsini, nurani üzünü, hikmət dolu sözlərini unuda bilmədim.

Beləcə iki il mədrəsədən gen düşdüm. Bu iki il ərzində o qədər hadisələr baş verdi, az qala iyirmi il bəs eləyərdi. Ağam dediyi kimi, böyük şahzadənin – göz xəstəliyindən əziyyət çəkən, bəzən heç görməyən Məhəmmədin, onun oğlu Həmzə Mirzənin tərəfində durdu. Həmin vaxtlar

taxta Şah Təhmasibin bir zamanlar bəzi-bəzi şübhələr üzündən Qəhqəhə qalasına saldırdığı İsmayıl Mirzəni çıxarmağa çalışan xanlar da əl-ayağa düşmüşdülər, o biri tərəfdən də, Təhmasibin gürcü hərəmindən olan böyük qızı Pərixan xanım ögey qardaşı Heydər Mirzəni şah taxtına oturtmaq istəyirdi. Amma İsmayıl Mirzənin adamları zirək tərpənib, hərəmxananın zorla taxta çıxardığı bədbəxt Heydər Mirzəni qanına qəltan elədilər.

Bir neçə gündən sonra Qəhqəhə qalasından buraxılan İsmayıl Mirzə öz tərəfdarlarıyla Qəzvinə varid oldu. Şəhərdə böyük təntənə varıdı, mən də İmam məscidi tərəfdə durub at belində təkəbbürlə oturmuş Şahzadənin necə meydandan keçib dövlətxanaya – Ali-Qapı sarayına girməsinə baxırdım. İsmayıl Mirzə taxta oturandan sonra bir müddət sakitlik oldu, amma sən demə. Yeni şah əlaltından tədbirlər hazırlayırmış. Əvvəl-əvvəl hələ həddi-büluğa çatmamış, qardaşlarını asdırdı, sonra Heydər Mirzəni taxta çıxaranlara divan tutdu, axırda məzhəbini dəyişmək, Bağdadda xəlifə taxtına çıxmaq fikrinə düşdü…

Onda hökmdarın ən böyük səhvi ögey bacısı Pərixan xanımı sağ qoymasıydı. Yeni şahdan narazı qalanlar Pərixan xanımla dil tapıb, şahı elə hərəmxanasındaca öldürdülər. Taxta kimin çıxacağı aydın olanacan dövləti Pərixan xanım idarə elədi. O, sevgilisi Əmir xanı, baş vəzir Mirzə Salman Şahzadə Məhəmmədi, ya da Həmzə Mirzəni, bir başqaları Herat hakimi olan abbas Mirzəni, dördüncülər o biri qardaş Təhmasibi, bir paraları hətta İsmayılın körpə oğlu Şahşücanı şah eləmək istəyirdi. Amma qızılbaş ağsaqqalları yığışıb məşvərət elədilər, Şahzadə Məhəmmədi taxta çıxarmağı qərara aldılar. Əlbəttə, bu işdə Mirzə Salmanla

Şahzadənin arvadı Xeyrənnisə bəyimin sözü ötkün oldu. Elə onların fitvasıyla da Şah Məhəmməd Xudabəndə taxta çıxandan bir neçə gün sonra Pərixan xanımı aradan götürdü…

…O vaxt ağam üç yüz nəfərlik Bayat atlısının başçısı kimi Şirazdadı, qəzvinə də yeni şahın qoşunuyla girdi. Hadisələrin bu cür gedişindən çox razı görünürdü, lap başlanğıcdan taxt-tacın qanuni varisinin yanında olduğuyla fəxr eləyirdi. Pərixan xanımın qətlindən sonra məmləkətdə əmin-amanlıq yaranmışdı, xanədanın aşkar-gizli düşmənləri fərağat oturub bundan belə nələr olacağının intizarını çəkirdilər. Şah da Şahzadə Həmzə Mirzənin əliylə məmləkətin yaxın-uzaq yerlərində qayda-qanun yaratmaqla məşğuluydu.

Ömrümün iki ili beləcə qarmaqarışıq hadisələr içində keçdi. Tez-tez ustadım Mirzə Qədimin, onun alçaq tavanlı, yarımqaranlıq, mürəkkəb, kağız, rəng, qədim kitab qoxularının bir-birinə qarışdığı hücrəsinin həsrətini çəkirdim. Günlərimi şəhərdə dolaşan, səhih xəbərmi, kiminsə ortaya atdığı şayiələrmi olduğu bilinməyən söz-sova qulaq asıb saf-çürük eləməklə, bütün bunlardan bezəndə, Əttarlar məhəlləsindəki evimizin hücrəsinə çəkilib Təbrizdən gətirdiyim kitabları oxumaqla, rəsmlər çəkməklə, aradabir şeirlər yazmaqla yola verirdim. Ağam aylarla evdə olmurdu. Şahın, Şahzadə Həmzə Mirzənin əmrlərini canla-başla yerinə yetirdi, böyük qardaşlarım Yusiflə mehrəli də onun dəstəsindəydilər. Anamın əlləri həmişə göydəydi, səfərə gedənlərin sağ-salamat geri dönmələrindən ötrü gecə-gündüz dua eləyirdi.

O iki il ərzində nagəhan sevginin də dadını gördüm. Məhəllə qonşumuz olan Mustafa xan Ustacoğlunun kiçik qızı Qəmərbanunu gözüm elə tutmuşdu, özümü-sözümü itirmişdim. Qız məndən dörd yaş kiçiyiydi, hərdən anasıyla bizə qonaq gəlirdilər, onda evimizin qadınlar olan qisminə keçmək sayılmadığından, fürsət tapıb eşiyə çıxanda, görürdüm, gözləri üzümə sataşanda qızarıb pörtürdü, mən də ondan betər hallar keçirirdim. Sonra hücrəmə qapılıb Qəmərbanunun ay üzünü gözlərimin qabağında canlandırır, kağız üstündə rəsmini çəkirdim, altından da sevgi, həsrət dolu bir beyt yazırdım, rəsmləri əlçatmaz yerdə gizlədirdim, görən olmasın.

İllər ötəsi dönə-dönə fikirləşirdim: Qəmərbanu doğrudan gözəliydi, yoxsa məni cavanlıq duyğularım aldatmışdı. Hər halda, Məhəmməd Xudabəndə taxta çıxan il Qəmərbanunu əmisi oğluna deyikli olduğundan xəbər tutanda, könlümdə təlatüm qalxmadı, eləcə duyğularım tez yanıb-sönən ocağı xatırlatdı, mənəsə yerdə qalan külü eşələməklə özümü ovutmaq qaldı.

Sonrakı il ağam səfərdən qayıdanda halımı pərişan gördü, bunu Təbrizin, Mirzə Qədimin, mədrəsənin xiffətini çəkməyimə yozdu. Sözün düzü, nakam sevgim özümdən başqa kimsəyə ayan olmadığından (bir də yəqin, Qəmərbanu bilərdi, qadınlar çox həssas olurlar axı), məsələnin bu cür yozulmasından öz-özlüyümdə sevindim. Bir gün ağam elə bil ürəyimdən xəbər verdi:

– Oğlum, – dedi, – Allaha şükür, daha məmləkətdə əmin-amanlıqdı, hələ, elə bir narahatlığımız yoxdu. Görürəm, Mirzə Qədimin xiffətini çəkirsən. İzin verirəm, get, elm-savad öyrənməyinə davam elə, amma yadında saxla:

məmləkətin çətin günündə at minməyə, qılınc çalmağa, səfərə çıxmağa həmişə hazır olmalısan. Get, yolun açıq olsun.

O gedən altı il Təbrizdə qaldım. Yenə Mirzə Qədimin yanında dərs almağıma davam elədim. Nisəxanım da göz qabağında böyüyürdü. İldə bir neçə aylığa Qəzvinə gedirdim, onda da ağamın məsləhətilə böyük qardaşlarım mənə döyüşməyi təlim eləyirdilər. Belə vaxtlarda da ürəyim Təbrizdə, Mirzə Qədimin yanında qalırdı, günləri saya-saya nə vaxt geri qayıdacağımı, öz aləmimə qapılacağımı gözləyirdim.

Həmin vaxtlarda artıq məmləkətimiz osmanlılarla dava vəziyyətindəydi. Bu tərəfdən də bir para əmir ülümərалar Şaha itaət göstərmirdilər. Hətta Quzey Azərbaycanın Hakimi Əmir xan Türkməni də Məhdi Ülyanın öldürülməsinə görə onun üstünə qaldırmışdılar. Şah onu itaətə gətirməyə atam Sultanəli bəyi göndərmişdi. Atam Əmir xanı dilə tutub boyun əyməyə razı salmışdı, amma qəzəbini boğa bilməyən Şah onu Qəhqəhə qalasına salmağı əmr eləmişdi. Deyilənə görə Şah gizlicə Əmir xanı yolda öldürməyi tapşırıbmış, əmri yerinə yetirilib. O biri tərəfdən Əliqulu xan Şamlu Herat hakimi olan şahzadə Abbas Mirzəni öz əlində saxlayır, taxt-tacı təhdid eləyirdi. Mən axırıncı dəfə Təbrizdən çıxandan sonra şəhər Osmanlı qoşunu tərəfindən tutulmuşdu. Şah Məhəməd Xudabəndə oğlu Həmzə Mirzəylə Təbrizi azad eləməyə hazırlaşırdı. O ərəfədə atamın istəyi həm də könlümün səsiylə Bayat dəstəsinə qoşuldum…

## 5.

...Gecə çoxdan yarı olmuşdu, hələ də çarhovuzun qırağında oturmuşdum, gözlərimə bir gilə də olsun, yuxu gəlmirdi. Durub əllərimi belimə qoydum, nəleyinlərimi sürüyə-sürüyə həyətdə o baş-bu başa gəzişdim. Hüseynəli bəyin göndərdiyi xəbər heç beynimdən çıxmırdı, ha çalışırdım, ayrı mətləblər barədə düşünüm, amma yaddaşımda cavan Şahımızın iribığlı üzü, Xoca Səfərin tülkü sifəti soxulurdu, ağlımdakılar canavar görmüş qoyun sürüsü kimi, pərən-pərən düşürdü. Döyüşlərdə olduğum vaxtlar yuxusuzluğa alışsam da, indi yatıb dincəlmək ıistəyirdim, sabah ikindi namazından sonra dövlətxanaya gedib, Şahımızın hüzurunda duranda, beynim ayıq olsun.

Axır dönüb evə girdim, amma övrətimin yanına yox, öz otağıma getdim, istəmirdim, yenə Nisəxanımın sorğulu nəzərləriylə rastlaşım. Hüseynəli bəyin o irigözlü buyruqçusu gələn vaxt nökərin yandırdığı şam hələ də taxçada yanırdı. Gündüzkü yerimə – döşəkcənin üstünə uzanıb, əllərimi başımın altında daraqladım, şamın tirək şöləsinə baxa-baxa düşüncələrimin üstünə qayıtdım…

…Təbrizin itirilməsi təkcə Şahdan – Şahzadədən ötrü yox, bizim hamımızdan ötrü ağır zərbəydi. Ağamın dərddən rəngi qaralmışdı, Bayat atlıları qəzəbdən zəncir çeynəyirdilər, mən də gecə-gündüz Mirzə Qədimlə külfətinin fikrini çəkirdim. Bir əlimiz qılıncın qəbzəsində, o biri atın yüyənində Təbrizə hücum əmrini gözləyirdik…

***Mətnin bu yerində Oruc bəy Bayatın atası Sultanəli bəy Bayatın ölümüylə bağlı yazdıqları ikinci kitabdakı həmin epizodun eynidi:***

*(…Məmləkəti-Səfəviyyədə türk ordusunun Təbrizin ətrafındakı əraziləri müvəqqəti boşaldıb geri çəkildikləri yerdə, bütün bunlar qışda baş versə də, şah Məhəmməd Xudabəndəylə oğlu Şahzadə Həmzə olub-keçənlərdən yararlanmağa çalışırdılar; onlar indi artıq böyük bir hissəsi xarabalıqlar içində qalan bu məşhur şəhəri öz gözləri baxa-baxa itirdiklərindən, camaat arasında laxlayan nüfuzunu bu cür qaldırmağa məcbur idilər. Şah Şahzadə ordusu ilə şəhərə girib, yenidən Təbrizin ərazisini ələ keçirdi; saray orada məskun oldu, ölümdən canlarını qurtaranlar, dağlara qaçanlar indi öz evlərinə qayıdırdılar (Sonra Osmanlı qalasını mühasirəyə almağa cəhd göstərildi). Burada hərb sənətinə uyğun olaraq, böyür-böyürə iki nəhəng mühasirə topu yerləşdirilmişdi, bu toplar öz çapına görə elə iriydilər, beləsini bu vaxtacan məmləkətdə heç vaxt görməmişdilər. İki top gecə-gündüz türkləri atəşə tuturdu, süvarilərin istehkamları qalayla üzbəüzdə, əski şəhər məhəlləsinin xarabalıqları arasında qurulmuşdu. Türk qarnizonu 3000 nəfərdən ibarətiydi, amma heç vəchlə səfəvilərin bu hərəkətləri qarşısında qorxularını büruzə vermirdilər, belə ki, birincisi, onların hamısı böyük dava təcrübəsi olan əsgərləriydilər, ikincisisə, Osman paşanın sayəsində onlar qalada üçillik mühasirəyə bəs eləyən sursat, ərzaqla təmin olunmuşdular, qalanın divarları isə doğrudan da, həddən artıq qalın idi. Bizimkilər inadkarlığını, cəsurluğunu yəqin edən Həmzə Mirzə necə olursa olsun, dağıdılmalı olan qalanın altından lağım atdırmaq qərarına gəldi. İş başlandı, mühasirədəkilərsə bu barədə heç nə bilmirdilər, belə ki, bu işi səssiz görməyə çalışırdılar, bundan ötrü əlverişli vaxt seçib, dərindən lağım atırdılar, eyni zamanda da iki iri artileriya topu gecə-gündüz türklərin diqqətini yerin altında baş verənlərdən yayındırır, qalanı mərmi atəşinə tutmaqda davam eləyirdilər.*

*Beləliklə, iki iri topun törətdiyi dağıntılar mühasirədə olanların diqqətini lağım qazanların atdıqları torpaqdan yayındırırdı, ona görə ki, bu yerin ətrafı indi toplarla atəş zamanı divarlardan qopan daş qırıntılarıyla örtülmüşdü. Bu iki top elə iriydi, hər birinin lülə deyişinin dairəsi iki dirsək, lülənin uzunluğu isə beş dirsək idi. Beləcə həmin məqamda şah ordusunun iki zabitinin xəyanəti olmasaydı, türklər lağım atılan yerdə nə baş verdiyindən, heç vaxt xəbər tuta bilməzdilər. Onlardan biri qorçubaşı olan xan (Qulu bəy Əfşar, digərisə onun kürəkəni Cəfərqulu bəy idi. Bu iki əyan öz çuğullarından məlumat almışdılar ki, Şah Məhəmməd Xudabəndəylə Şahzadə hər ikisini qətlə yetirmək barədə əmr veriblər, amma hansı cinayətlərinə görə – bu məlum deyildi; ona görə də bundan xəbər tutub, qət eləmişdilər, bir dəfə gecə, sübhə yaxın şah sarayından çıxdılar, şəhərin kənar məhəllələrindən keçib, öz məmləkətlərinin düşmənlərində sığınacaq axtarmaq üçün Osmanlı qalasına girdilər. Qarnizonda onlar Şahın əmri ilə qazılan lağım barədə xəbər verdilər, bu zaman türklər dərhal səfəvilərin lağımına qarşı lağım qazmağa başlamışdılar. Beləliklə, bizimkilərin lağımının qabağı tezliklə daş-torpaqla alınmışdı. Həmin vaxtda qalanın osmanlılar tərəfində olan hissəsi səylə möhkəmləndirilmişdi, onlar da hissədəki böyük divarın ön qismini bərpa eləmişdilər, elə bu da sonralar narahatlığa səbəb oldu. Osmanlılar bu işləri həddən artıq cəld görürdülər, səfəvilərsə tikintinin qabağını almaq üçün uğursuz cəhdlərdə, öz lağımlarını başa çatdırmaq uğrunda mübarizədə xeyli adam itirdilər.*

*Şahzadə Həmzə qalaya qaçan iki satqının onun gizli niyyətini açıqladıqlarını düşmənləri öz qalalarında məhv eləməyə böyük ümidlərinin başa çıxdığını anlayıb, qəzəbdən, səbirsizlikdən ağ-*

*lını itirdi. Sonra o, söykəmə nərdivanlardan istifadə eləyib, qala divarını həmləylə ələ keçirməyə cəhd göstərdi, əvvəlcə osmanlılar bu görünməmiş hücumdan sarsılsalar da, tezliklə özlərinə gəldilər, nərdivanları bərkidən basqınçıların üstünə tökülüşüb, onlara divardakı mazğallardan, həm də dişli divarlardan, qonşu binalardan atəş açmağa başladılar. Qalaya bu açıq hücum düz altı gün davam elədi, amma Şahzadə səylərin bəhrəsiz olduğunu görüb, axırda geri çəkilmək üçün işarə verməyi əmr etdi. Bu hücumda 6000-dən artıq adam öldürülmüşdü, bəziləri nərdivanlardan xəndəyə düşmüşdülər, başqaları tüfəng atəşiylə vurmuşdular, hətta divarın üstünə çıxmağa nail olanlar da qala hüdudlarında düşmən tərəfindən məhv edilmişdilər.*

*Həmin vaxt Şah Məhəmməd Xudabəndəni müşayiət eləyən atam Sultanəli bəy Bayat Şahzadə Həmzədən öz hesabına silahlandırılıb, Şah ordusuna qatılmış 300 seçmə döyüşçünün başında ayrı cəhd eləmək əmri aldı. Hər şey elə təşkil olunmuşdu, atam gecələrin birində hava işıqlanmamış qazılan xəndəyin içində 200 istehkamçının düzəldəcəyi, atlılar müdafiə rolu oynayacaq hərəkət eləyən sipərlə (yaxud təkərlər üzərindəki altlıqlı taxta qülləylə) gizlicə qala divarına yaxınlaşacaqdılar. Bu taxta qüllə quruldu, üz tərəfdən bərkidilmiş torpaq dolu kisələrlə örtüldü; həm də qüllə o qədər hündürüydü, üstündən qalanın içindəki meydan görünə bilərdi; bu cür hündürlükdən zəncirli asma körpü lazımi məqamda qala divarının haşiyəsi üzərindən buraxıla bilərdi. Bütün bu qurğu taxtalar mıxlanmış, qum kisələriylə örtülmüşdü. İsəfəvilər düşmənə deyildiyi kimi, sübh tezdən, türk gözətçiləri onların yaxınlaşmasını görmədiyi bir vaxtda hücum eləməliydilər. Sonra 300 döyüşçümüz düşməni çaşbaş salmalı, qalanın içində, bir tərəfdən xəndəyin üzərində ucalan qüllədə möhkəmlənməliydilər. Bu qüllə sonralar şəhərin indi Şah qoşun-*

*larının əldə saxladığı hissədə, evlərin altında yerləşdirilmiş bizim mühasirə toplarımız çıxan tərəfdə idi.*

*Həmin gecə atam hərəkət eləyən taxta qüllədə əməliyyata başladı, amma meydançanın altındakı təkərlərin oxu bol-bol yağlansa, səs salmamaq üçün təkərlərə keçə sarınsa, məşəllər, xəbərdarlıq fişənglərinin, topların lülələri – hər şey cidd-cəhdlə örtülsə də, osmanlılar bizim yaxınlaşdığımızı eşitdilər, bayırdakı maneələrin üstünə dırmaşmağa macal tapmamışdıq ki, silaha sarıldılar. Onlar qülləyə, qüllə meydançasına tüfənglər, mərmilərlə hücuma keçdilər, eyni zamanda qala dairəsinin bu yerində olan 700 nəfər qalanın arxa darvazalarından çıxıb, bizə buradan da həmlə etdilər. Atam məsələ qəlizləşdiyindən, artıq geri çəkilməyin mümkün olmadığını, olub-keçənlərin ona azacıq üstünlük verdiyini başa düşüb, qüllənin içindən çıxmadı, fədakarlıqla döyüşməyə başladı, ona görə ki, töklüşən döyüşçülərin təzyiqi altında oradan çıxmaq mümkün deyildi. Bununla belə, iki zabit, üç bəyi saymasaq öz cəsurluğu ilə tanınan yeddi nəfəri öldürməyə müvəffəq oldu, amma elə həmin məqamda da yaralanıb, canını tapşırdı. Bu tərəfdən təkərlər aşağıdan yandırıldığından, qüllənin dibindəki meydançanın məhəccər örtüyünün dağıdılması hər şeyə son qoydu. Düşmən yıxılıb, altında yüzdən artıq əskəri əzmiş məhəccərin üzərindən atılıb qaçırdı. Yıxılmış divar mənim ıöz adamlarımla atamın köməyinə gəlməyinə ıimkan vermirdi. Osmanlılar bütün ordusunun Şahla Şahzadənin başçılığı altında köməyimizə gəldiyini görüb, bizim qülləyə hücum edənlərin qabağını almağa başladılar. Onlar geri çəkilib, dərhal bağlanan arxa darvazalardan öz qalalarına qayıtdılar, amma itkiləri 200 nəfərə çatırdı.*

*İstəməsəm də, məni Şahın hüzuruna apardılar, o, məni ıtəriflədi, təskinlik verməyə cəhd göstərdi, amma ıelə halda idim, beynimə heç nə batmırdı, üstəlik osmanlıların ıməni daha artıq təhqir eləmək. Alçatmaq üçün atamın başını nizənin ucuna taxıb (cəsədini artıq qızğın qəzəb içində yandırmışdılar), göstərdiklərini görəndə, halım ıpisləşdi. Şahla Şahzadə atamın xatirəsini təntənəylə yad etdilər. Sonralar atamı doğrudan da, sevən Şah Məhəmməd Xudabəndə onu şəxsən öldürdüyü yeddi osmanlı zabitinin cəsədi üstündə durmuş vəziyyətdə təsvir eləyən rəsm çəkmək əmrini verdi. Bu rəsm Şah İsmayılın biz səfəvilərin müqəddəs saydığı böyük Əmir Heydərin ışərəfinə tikilmiş Təbriz məscidlərindən birinin qapısı üstündə indiyəcən qalır…)*

…Nə qədər ki Təbrizdəydik, o faciə başıma gələnəcən də, ondan sonra da müəllimim, ustadım Mirzə Qədimi, onun külfətini axtarıb tapmaq ağlımdan çıxmırdı. Qalanın mühasirəsində durduğumuz günlərdə hər gecə ağamın izniylə yüzbaşı Şahqulunu yanıma alıb şəhərin xarabalıqlarını dolaşırdım. Möcüzəydimi, nəydisə, qonşu tikililər dağılsa da, Mirzə Qədimin ikigözlü evinə, mədrəsə kimi istifadə elədiyi alçaq, uzunsov, yarızirzəmi tikiliyə bir şey olmamışdı. Bizim qoşun şəhərə girəndən ısonra qayıdıb evlərinə gələnlərin hərəsinin ağzından bir avaz eşidilirdi: biri deyirdi, osmanlılar hücum eləməmişdən qabaq Mirzə Qədim külfətini götürüb, Ərdəbilə qardaşının yanına gedib, o biri and içirdi, onu top mərmisiylə param-parça olan görüb, üçüncüsü, Mirzə Qədimin qaçıb düşmən tərəfinə keçdiyinə şəhadət verirdi. Bu deyilənlərdən yalnız onun ailəsiylə Ərdəbilə köçməsi barədə danışılanlara inanırdım, bununla belə. Soraqlaşırdım, bəlkə daha səhih xəbər

öyrənə bildim. Saatlarla mədrəsənin qaranlıq hücrəsində oturub bu həyətdə, bu məhəllədə, bu şəhərdə keçirdiyim geri dönməz günləri xatırlayırdım. Bu həyətdə balaca Nisəxanım ora-bura qaçırdı, anası Ümleyla xala bizə şərbət gətirirdi, həmin bu yarımzirzəmi tikilinin hücrəsində Mirzə Qədimlə diz-dizə oturub, dünyanın gedişatından, elmdən-sənətdən söhbət eləyirdik. Hücrənin yarıqaranlığı, şamın titrək işığı, taxçadakı kitabların sırası, Mirzə Qədimin nurani görkəmiylə içdən gələn səsi, xırdaca nəfəslikdən Nisəxanımın hücrəmizə dolan səsi. Ümleyla xalanın «şərbəti istiməyin, bir azdan ayran da gətirərəm», deyib, ehmalca qapını çəkməsi – hər şey gözlərimin önündə canlanırdı, qəlbimə çökən kədəri daha da qatılaşdırırdı.

Sonra ağamın faciəsi araya düşdü, gözlərimə qatı duman çökdü, həyatım alt-üst oldu. Şahımızın da, Şahzadəmizin də verdiyi təskinlik, məni Bayat atlıların başında atamı əvəz eləməkdən ötrü dilə tutmaları izzəti-nəfsimi oxşasa da, itkilərimin ucu-bucağı görünmürdü. Əmir xanın edamına görə xanədanın düşməninə çevrilmiş türkmənlər osmanlıların Təbrizə hücumu vaxtı köməyə gəlməmişdilər, bir tərəfdən də gözləmədiyimiz bir vaxtda düşərgəmizə soxulub, şahzadə Təhmasibi əsir götürdülər. Sonra Qəzvinin üzərinə gedib, şəhəri ələ keçirdilər, tovlayıb yoldan çıxardıqları təhmasibi şah elan elədilər. Ağamdan mənə miras qalmış evimiz talandı, biçarə anam həmin qırğında öldü, heç nəşini də görə bilmədim.

Həmin vaxt Şahzadə Həmzə Mirzə atasını Qəzvində azğınlıq törədənlərlə haq-hesab çəkməyə rüsxət verməkdən ötrü dilə tuturdu. On dörd min nəfərlə yola çıxmaqdan ötrü xeyir-dua alanda mən də Bayat atlılarının

başında şahzadəylə yola çıxdım. Artıq Qəzvinin həndəvərinə çatanda Həmzə Mirzə qırx minlik qoşuna sahibiydi. Əlbəttə, türkmənlər bu qüvvənin qabağında duruş gətirə bilməzdilər. Çox çətinlik çəkmədən Məhəmməd xan Türkmənin qoşununu dağıdıb, qəzvinə varid olduq. Türkmənlərin əlində oyuncağa çevrilmiş Şahzadə Təhmasibi də yaxalayıb, Həmzə Mirzənin hüzuruna gətirdik, o da iradəsiz Şahzadəni Ələmud qalasına göndərdi.

Qəzvində qayda-qanun yaradandan sonra tələm-tələsik Şahzadənin əmriylə Təbrizə qayıtdıq. Şah Məhəmməd Xudabəndə bu iki ay ərzində osmanlıların qalasına baxa-baxa qalmışdı, balaca bir uğur belə qazanmamışdı. Bu tərəfdən də düşmənə güclü kömək gəldiyindən xəbər tutub, daha gözləməyin əbəs olduğunu başa düşdük. Şahla Şahzadə məşvərət keçirib, hər şeyi dağıdıb-yandırmağı, quzeyə – gəncəyə sarı çəkilməyi əmr elədilər. Canım qədər sevdiyim şəhərin salamat qalan evlərinin od tutub yandığını görəndə göz yaşlarını saxlaya bilmirdim. Mənə elə gəlirdi, həyatımın axırıdı, bundan sonra könlüm açılıb, üzüm gülməz.

Bu da azmış kimi, qardaşım Yusif Təbriz döyüşündə sağ qolunu itirmişdi, Mehrəli səfərlərin birində xəstələnib, at minməyə, qılınc çalmağa, tüfəng atmağa yararsız olmuşdu. Bütün bunları üst-üstə yığsaq, dəvəçəkməz ağır yük olardı, amma mən dözürdüm, onu da başa düşürdüm, Mirzə Qədimin könlümə saldığı nur olmasaydı, bu olub-keçənlərə çətin tab gətirəydim…

## 6.

Deyəsən, bir qədər huşa getmişdim, ayılıb gördüm, birinci xoruz banıdı, eşikdə dan yeri lap azacıq ağarıb, bir azdan sübh namazının vaxtı yetişəcək. Taxçada yanan şam da gecənin ömrü kimi gödəlmişdi, daha otağa əvvəlki ziyasını otağa səpələmirdi. Elə uzandığım yerdəcə fikirlərimi cəmləmək istədim, yenə hardansa cavan Şahımızın iribığlı üzü, vəkil Hətəm bəy Ordubadinin nurani siması, vəzir Allahverdi xanın qayğılı görkəmi, Xoca Səfərin biclik tökülən gözləri, Hüseynəli bəyin özündən razı halı, buyruqçunun xanım yerişi birər-birər gəlib xəyalıma soxuldu, düşüncəmi daha da qarışdırdı, bu səbəbdən, qalxıb sübhün təmiz havasında həyətdə gəzinməyə, namazımı qılıb, yeməyimi yeməyə, külfət oyananacan bir şeylə başımı qatmağa, sonra ikindi namazımı qılıb, dövlətxanaya getməyə qərar verdim. Nökər yenə qapının taqqıltısını eşidəndə hövlnak başını hücrəsindən çıxardı, məni görüb arxayınlaşdı.

Subaşına dəyib çarhovuzun yanına qayıtdım, axşamkısayaq ovcumda su götürüb üz-gözümə, boyun-boğazıma çəkdim, sübhün sərinliyində əməlli-başlı xoşhal oldum, amma bu dəfə çarhovuzun qırağında oturmadım, əlim belimdə həyətdə o baş-bu başa gəzinməyə üstünlük verdim. İndi xəyalımda Mirzə Qədimin nurani siması, on üç il qabaqkı onyaşlı Nisəxanımın qızlıq həddinə dolmaqda olan zərif üzü canlandı.

...Biçarə Həmzə Mirzənin nəşini Ərdəbildə Böyük Sufinin yanında torpağa tapşırandan sonra yüzbaşı Şahqulunu yanıma çağırdım.

– Eşit, – dedim, – mən on atlı götürüb Ərdəbildə Mirzə Qədimi axtarmaq fikrindəyəm. Ürəyimə damıb, özü də, külfəti də sağdı. Mənim qoşundan ayrı düşməyimi kimsə bilməsin, onsuz da Şahımız hələ öz canının hayındadı. Allah qoysa, üç gün ərzində bir xəbər bilib, Qəzvin yolunda sizə çataram.

Şahqulu bağır basdı, əmrimə əməl eləyəcəyini söylədi, amma xəbərdarlığından da qalmadı:

– Ağa, buralarda sərvaxt ol, yağıya-filana rast gələrsən. Rəhmətlik Sultanəli bəydən sonra gözümüzü sənə dikmişik. Yaxşı olar, o on nəfərin arasına bu tərəflərə yaxşı bələd olan bir kəs qatasan. Yoldu-rizdi, köməyi dəyər.

Şahqulunu arxayın saldım, məsləhətinə də əməl elədim. O qalan üç gün Ərdəbilin guşələrini ələk-vələk elədik. Axırda Allah üzümüzə baxdı, Mirzə Qədimin uzaq bir qohumunu tapdıq, onu bələdçisayaq yanımıza qatıb ustadımın qardaşı evinə getdik. Mirzə Qədimi külfətiylə birgə burda sağ-salamat tapanda nə qədər sevindiyimə tək Allah yox, yanımdakılar da şahid oldu. Bir-birimizə sarmaşıb ağlaşdıq, Rəbbin kəraminə şükür elədik. Övrətinin əlindən öpdüm, Nisəxanımı görəndəsə tanımadım; on yaşına çatırdı, gözgörəti qızlıq həddinə dolurdu. İkinci kərə içimdə anlaşılmaz həyəcan dalğası duydum – Qəmərbanudan əlim üzüləndən sonra bu cür hal keçirməmişdim. Əlbəttə, daha məhrəm adam kimi, qucaqlayıb yanağından öpə bilməzdim. Qızarıb pörtə-pörtə salamlaşdıq, cəld də çəkilib getdi, bir daha gözümə görsənmədi.

Mirzə Qədim üz vursa da, gözləyə bilməzdik, qoşun yoldaydı, atlarımızı qarabağır eləyib, Qəzvin həndəvərində gedənlərə çatmalıydıq. Buna şübhəm yoxudu, ona görə

ki, uzun yoldan yorulmuş qoşun Qəzvinə bu tezliklə çata bilməzdi. Götürmək istəməsə də, Mirzə Qədimə zor-güc bir qədər pul-para verdim, ara sakitləşən kimi, gələcəyimi dedim. Ustadım atamın, anamın, qardaşlarımın, Şahzadə Həmzə Mirzənin başına gələnlərdən çox qəmləndi, «Olacağa çarə yoxdu» – deyib, təsəlli verdi, ata-oğul təki qucaqlaşıb ayrıldıq. Atın belinə qalxanda burda çox əziz adamlarımı qoyub getdiyimi, tez bir vaxtda qayıdacağımı bilirdim.

Elə fikirləşdiyim kimi də oldu, Qəzvinin həndəvərində təzəcə yetişib, paytaxta girmişdik, bəd xəbərlər hər tərəfdən üstümüzə yağmağa başladı: Məhəmməd xan Türkmənin oğlu Əli xan Kaşanı tutub yağmalamışdı, İsfahanda iğtişaş başlamışdı, Herat hakimi Abbas Mirzəni cəngində saxlayan Əliqulu xan Fəth oğlu Ustacluyla Məşhəd hakimi Mürşüdqulu xan bir-birinin qanını axıdırdılar. Görünür, Həmzə Mirzənin qətlindən sonra hamı Abbas Mirzənin vəliəhd olacağını, onun vasitəsilə məmləkətə sahib çıxacağını fikirləşirdi. Abbas Mirzənin lələsi olan Herat və Xorasan hakimi Şahqulu Soltandan sonra Əliqulu xan Şahzadəni himayəsinə almışdı. Anası Məhdi-Ülya boğulub öldürüləndən Əliqulu xanın anası Xanikan xanım Abbas Mirzənin tərbiyəçisi olmuşdu. Günlərimiz at belində keçirdi, bu vilayətdə iğtişaşı azacıq da olsa, yatırdıb o biri vilayətə üz tuturuq, amma vəziyyətin düzələcəyinə ümidimiz get-gedə azalırdı: heç kəs daha qoca, yarıkor, sözünün kəsəri olmayan Şah Məhəmməd Xudabəndənin taxtda oturmasını istəmirdi. O vaxt on altı yaşına qədəm qoymuş Şahzadə Abbas Mirzənin taxta çıxacağı artıq kimsədə şübhə doğurmurdu – gözümüzün qabağındaca dağılan məmləkətə yalnız belə bir addım nicat verə bilərdi.

Şahzadəni himayəyə almaq üçün Əliqulu xanın adamlarıyla Mürşüdqulu xanın tərəfdarları arasındakı qanlı çarpışmada Mürşüdqulu xanın üstün gəlməsi Abbas Mirzənin taxta doğru yolunu təmizlədi: daha Həmzə Mirzənin həddi-büluğa çatmamış uşaqları bu fikrə düşə bilməzdilər.

***Mətnin bu yerində Oruc bəy Bayat ikinci kitabdakı Abbas Mirzənin taxta çıxması məqamını olduğu kimi təsvir eləyir:***

*(...Qəzvində şahlığın dağılmasından məyus olmuş xanlarla saray əyanları məşvərətə yığışdılar, Şahzadə Abbasın yanına elçi göndərmək qərarına gəldilər, Əlahəzrətə saraya gəlmək üçün yalvarırdılar, onun şahlığa olan haqqını hamının qarşısında tanımağa söz verirdilər, bundan başqa deyirdilər, azacıq ləngimə dövlət üçün məhvə bərabərdir, ona görə ki, kor, həm də qoca atası artıq qətiyyən idarə eləmək iqtidarında deyil, onun iş başında olması normal idarə üçün maneə, dövlət üçün məhvedicidi. Elçilər gəlib, hər şeyi açıq-aşkar Şahzadə Abbasa ərz eləyəndə, hərəkətlərində qətiyyətli olan Şahzadə Mürşüdqulu xana arxasınca böyük orduyla gəlmək əmri verib, dərhal kiçik dəstəylə Məşhəddən Qəzvinə doğru yola çıxdı. Qəzvin dövlətxanasında şahzadənin yaxınlaşdığını eşidən kimi, bütün əhali onu salamlamaqdan ötrü şəhər qapılarına çıxdı, xanlar, bəylər, eyni zamanda dövlətxanada olan qoşun başçıları dərhal Şahzadənin düşdüyü evə tələsdilər, kor, həm də qoca Şahın xidmətində demək olar, kimsə qalmadı. Hamı yeniyetmə Şahzadəni özünün hökmdarı və hakimi qəbul eləyib, ona sədaqətlərini bildirdilər, doğrudan da, necə deyərlər, təzə olan hər şey xoş gəlir. Baş əyan-əşrəfin, xanların keçirdikləri çoxlu məşvərətlər oldu. Bu razılığa gəldilər: hamı düşmənçiliyi, rəqabəti unudub birləşməli, xanədana yardım eləməlidi ki, dövlətin məhvinə gətirib çıxaran tayfalararası*

*davaya son qoysunlar: artıq çox başlar kəsilmişdi, düşmənçilik eləyən tərəflərin itkiləri çoxuydu.*

*Beləliklə, qərara alındı, hamı silahını yerə qoysun, birləşsin, düşmənlərsə barışıb-dostlaşsınlar. Sonra əyan-əşrəfin bir dəstəsi təntənəli hörmət, itaət ifadəsi kimi, dövlətxanada olan qoca kor Şahın yanına getdilər, daim yanında olan iyirmi səkkiz xan, qoşun başçısıyla birlikdə Şahzadənin hüzuruna qayıtdılar, bundan sonra qoca Şah oğlunu bağrına basdı, xanədanın hökmdar əsası ilə tacını oğluna verdi. Ardınca bütün orada olanlar əlini öpməklə hörmətlərini bildirib, Şahzadəni özlərinin şahı, hökmdarı qəbul elədilər, Abbas Mirzə də «şah» mənsəbini götürdü. Yeni hökmdar 12.000 gürcü mülhüdlərindən (müsəlmanlığı qəbul eləmiş) ləşkəri qulluğa götürdü, hərbi və mülki sahələrdə dəyişikliklərə başladı: baxmayaraq, bu vaxt cəmi on beş yaşı varıdı. Nəhayət, əmin-amanlıq yarandı, Şahın ağlı-kamalı, ona inam o qədəriydi, bütün əyalətlərin hakimləri itaətlərini bildirdilər, qonşu hökmdarlarsa öz hörmətlərini təsdiqlədilər.*

*Yuxarıda deyildiyi kimi, birinci gün andiçmə, yeni hökmdara sədaqət mərasimi bitən kimi, Şah Abbas əmr elədi, səhəri gün xanlar, qoşun başçıları adi geyimdə, silahsız dövlətxanaya gəlsinlər, ona görə ki, onlarla şahlığın lazımi idarəsini təmin eləyəcək Divanın yaradılmasıyla bağlı məsləhətləşmək istəyir. Səhəri gün əmr olunduğu təki hamı yığışanda Şah Abbas gizlicə gürcü ləşkərinə küçəyə, dövlətxananın ətrafındakı meydana bütün girişləri, çıxışları tutmağı əmr elədi. Xanlar, qoşun başçıları Şahın hüzuruna gedəndə, onu taxtda oturan gördülər, sağ tərəfindəsə atası qoca kor Məhəmməd Xudabəndə əyləşmişdi. Sonra Şah yığışanlara bir sualla müraciət elədi: «Öz şahzadəsini öldürən adam hansı cəzaya layiqdi?» Özlərini günahkar sayanlar bu suala pıçıltıyla cavab verdilər, eyni zamanda kimin vic-*

*danı təmiziydi, öz hökmlərini ucadan verdi: bəziləri bir cəza təklif eləyirdilər, digərləri daha ağır cəza. Amma axırda hamı bir nəfər kimi, bu qərara gəldi: öz şahzadəsini öldürmüş təbəə ölümə layiqdi. Bu hökm verilən kimi, gürcü döyüşçülər Şah Abbasın işarəsiylə dövlətxanadakılara hücum elədilər, bütün sui-qəsdçiləri qılıncdan keçirdilər, bundan sonra iyirmi iki başı nizənin ucuna taxıb, dövlətxananın pəncərələrindən camaata göstərdilər; özünə ən çox güvənənlərin qəlbində itaətqarışıq qorxu doğuran dəhşətli mənzərəydi.*

*Amma Şahın qəzəbi soyumadı, kiçik qardaşları Təhmasib Mirzəylə Əbutalib Mirzənin arxasınca adam göndərib, dərhal hər ikisinin gözünü çıxarmağı əmr elədi, sonrasa onları yaxşı qorunan Əlamud qalasına dustaqlığa göndərdi. Təxminən elə həmin vaxtda Kaşanda, İsfahanda baş qaldıran (Şah Məhəmməd Xudabəndəyə qarşı) iki qoşun başçısı Əli xan Türkmənlə Fərhad bəy öz sədaqətlərini bildirmək, əlini öpmək üçün Şah Abbasın hüzuruna gəldilər. Şah onların itaətini çox lütfkarlıqla qəbul elədi, amma bundan sonra dərhal hər ikisini asmaq əmrini verdi. Şah Abbas şahlığın əsl sahibinin kim olmasıyla bağlı bütün şübhlərə son qoymaqdan ötrü atasını, qoca şahı onun xeyrinə taxt-tacdan əl çəkmək üçün dilə tutdu, Şahzadənin taxta çıxmağı, hakimiyyəti ələ almağı dövlətxananın əski əyan-əşrəfindən fədakarlıq tələb eləsə də, paytaxtda bütün məsələlər yoluna qoyulmuşdu, hətta kimsə baş qaldırmaq, yaxud onun iradəsinin, əmrlərinin ziddinə getmək barədə düşünməyə cəsarət eləmirdi...)*

## 7.

...Baxdım, sübh namazının vaxtı yetişib, dəstəmaz alıb, otağıma getdim, namazımı qılıb, uca dinimizin, məmləkətimizin, Şahımızın salamatlığını Allahdan arzu elədim. Hələ qulluqçu yeməyimi bundan sonra gətirəcəkdi, Nisəxanımla Sultanəli səhərin şirin yuxusundan bu tezliklə oyanmazdılar. Əlimi belimə qoyub, indi də otaqda o başbu başa gedib-gəlməyə başladım, istər-istəməz yenə bayaqkı fikirlərimin üstünə qayıtdım...

...Allaha şükür, bizim tayfadan Şah Abbasın qəzəbinə tuş gələn olmadı, xanədanın ziddinə olan qarğaşalarda əlimiz yoxudu, həmişə taxt-tacın tərəfində durmuşuq, bu səbəbdən Şahımızın sayeyi-mərhəmətindən rahat yaşayırdıq. Qəzvində türkmənlərin basqısı vaxtı atamın dağıdılmış mülkünü təzədən tikdirdim, səliqə-sahmana saldım. Şah Abbasın taxta çıxmasını, orda-burda baş qaldıranların gözünün odunu almasının ardınca məmləkətdə bir qədər əmin-amanlıq yaranmışdı. Şahzadə Həmzə Mirzənin faciəsindən sonra elə hey Ərdəbilə, Mirzə Qədimə baş çəkmək üçün getməyi ağlımdan keçirirdim, amma başımız elə qarışırdı, ağlımdakılar elə ağlımdaca qalırdı. Bu fürsət əlimə də osmanlılarla barışıq bağlanandan, onların qoşunu Təbrizi boşaldandan sonra düşdü. Şah Abbasın Mürşüdqulu xanla məsləhətləşib elçi göndərdiyi yeznəsi Qara Həsən xan xeyir xəbərlə qayıdıb, Sultan Muradın şərtlərini yetirəndə Şahımız qəzəbindən gözləri qan çanağına dönsə də, uzun bığlarının ucunu ağzına təpib çeynəsə də, yenə Mürşüdqulu xanın məsləhətiylə şərtləri qəbul elədi, Arazdan o tərəfdəki torpaqlarımızı bir müddətə güzəştə get-

məyə, biçarə Həmzə Mirzənin oğlu Şahzadə Heydər Mirzəni Məhəmmədqulu Xəlifəyə qoşub, girov sifətində sultan sarayına göndərməyə razı oldu: ona hələ də dikbaşlıq eləyən xanları yerində oturtmaq üçün vaxt lazımıydı.

Qoşunlara gizlicə hazırlaşmaq əmri verilmişdi, havalar düzələn kimi yola çıxmalı, Gilanda baş qaldıran Əhməd xana qarşı döyüşlərə girməliydik. Onsuz da Bayat atlılarının həmişə bir əli atın yüyənində, bir əli qılıncın qəbzəsində, bir ayağı üzəngidəydi, qalan xırda-para şeyləri yoluna qoymağı yüzbaşı Şahquluya tapşırıb, Qibleyi-aləmdən iki həftəliyə rüsxət aldım, çoxdan Təbriz-Ərdəbil tərəflərə getməyi arzulayan Əliqulu bəy Bayatı da götürüb yola çıxdım...

Dövlətxanada böyük hörmət-izzəti olan Hüseynəli bəy Bayatın qardaşı oğlu Əliqulu bəylə tay-tuşuyduq, məndən cəmi iki yaş kiçiyiydi, bir vaxtlar Mirzə Qədiminin mədrəsəsində birgə oxumuşduq, sonra əmisi onu Qəzvinə apardı, ünsiyyətimizdə xeyli fasilə yarandı. Bir də Şah Məhəmməd Xudabəndə Şirazdan Qəzvinə gələndə rastlaşdıq, sən demə, ağamın yanında, Bayat dəstəsindəymiş. O vaxtdan ayrılmırdıq, fürsət düşəndə elmdən-sənətdən, şeriyyətdən söhbət eləyirdik. Ağamın müsibətindən sonra Bayat atlılarının başçılığı mənə tapşırılanda Əliqulu bəyə yüzbaşılığı etibar elədim. Təbrizdə osmanlılarla üz-üzə gələndə də, Gəncəyə sarı geri çəkilib biçarə Həmzə Mirzənin müsibətiylə üzləşəndə də, türkmənlərlə döyüşlərdə də bir yerdə olmuşuq. Düzünü desəm, ağır anlarımda qəlbimi yalnız ağamla bağlı xatirələr, Mirzə Qədimi nə vaxtsa görmək istəyi, bir də Əliqulu bəyin dostyana iltifatı isindirirdi.

Atların bağrını çatlada-çatlada getdiyimiz, arada azacıq nəfəs dərdiyimiz üçgünlük yolun bir gecəsini Sərabda keçirdik, üçüncü gün hava qaralanda Ərdəbilə yetişdik. Sən demə, Mirzə Qədim osmanlıların Təbrizdən qalaya çəkildiklərini eşidən kimi, sevinə-sevinə köç-külfətini yığıb neçə ildən bəri həsrətini çəkdiyi otağına gedibmiş. Ustadımın qardaşı nə qədər üz vursa da, o gecəni Əliqulu bəyin əmisi oğlugildə keçirdik, səhər obaşdan atlara süvar olub Təbrizə yol başladıq. Payız yağışları başladığından, yolçuluğumuz çətin keçdi, amma durub-dincəlməyi, yolumuzun üstündəki karvansaraların birində rahatlanmağı ağlımıza belə gətirmədik, bircə dəfə dayandıq, atlar nəfəsini dərsin. Gün qüruba əyiləndə Təbrizin həndəvərinə çatmışdıq, osmanlılarla döyüşlərdə top mərmilərinin yerləyeksan elədiyi, Gəncəyə sarı çəkiləndə öz qoşunlarımızın yandırdığı evlərdən hələ də qalan xarabalıqlar ürəyimizin başını göynədirdi. Şəhərin qıraq məhəllələrində adamların yarıuçuq evlərdə daldalandığını orda-burda zəif-zəif közərən şam, çıraq işığından, tutqun göy üzünə dikələn ağımtıl tüstü sütunlarından bildik.

Mirzə Qədimin Sınıqçılar məhəlləsindəki ömrümün ən gözəl çağlarını keçirdiyim evinə çatanda ürəyim quş kimi çırpınıb köksümdən çıxmağa can atırdı. Hövllü-hövllü uzun illərdən bəri tanış olan göy rəngli darvazanın adam boyundan alçaq alaqapısını necə açdığım yadına gəlmir. Bir onda ayıldım, evin qapısının aralanmağından içəridə çırağın işığı titrədi, Mirzə Qədimin pilə kimi yumşaq səsi eşidildi:

– Ay adam, kimsən, bir yaxın gəl, görüm.

Ustadımın səsindəki narahatlığı duydum, bildim, hələ şəhərdə gün-güzəranın yoluna düşmədiyi bir vaxtda, na-

gahan qonağın gəlməyi onu əndişəyə salıb. Bu səbəbdən, tez cavab verməyə, həm də özümü şax tutmağa çalışdım, səsim titrəməsin.

– Mənəm, ustad, mənəm... – dedim, – qonaq istəmirsən?

– Qonaq Allah qonağıdı, oğlum, – Mirzə Qədim mənə sarı gələ-gələ dedi. – İllah da sənin təki qonaq ola...

Elə həyətin ortasındaca qucaqlaşdıq. Ayın zəif ziyasında gözlərinin yaşardığını açıq-aşkar gördüm, üzümü onun çiyninə qoyub, bir müddət duyğularımın dinməsini gözlədim.

– Dünən yuxu görmüşdüm, – Mirzə Qədim kürəyimi sığallaya-sığallaya deyirdi, – yuxum çin oldu... Bütün günü yol gözləmişəm...

Darvazanı açıb atları həyətə çəkdik. Mirzə Qədim Əliqulu bəyi handan-hana tanıdı, oğlu kimi qucaqlayıb, bağrına basdı, Hüseynəli bəyi soruşdu.

O axşamı, bir də gecənin yarısını Mirzə Qədimin mədrəsə kimi istifadə elədiyi hücrəsində nələrdən söhbət eləmədik. Ustadım bu ötən illər ərzində başına gələnləri nəql elədi, Ərdəbildə keçirdiyi sıxıntılı günlərdən, Təbrizin həsrətiylə yaşadığı anlardan danışdı. Çırağın işığında Ümleyla xalanın yaşlaşdığını da sezdim, bizə çay-çörək gətirən Nisəxanımın qadınlıq həddinə dolduğunu, utana-utana gözlərini məndən gizlətdiyini də. Amma bircə anlığa nəzərlərimiz rastlaşanda hiss elədim, bizim kəbinimizi mələklər göydə kəsib, alnımıza yazılan olmalıdı. Deyəsən, qismətimə düşən Nisəxanıma da agah olmuşdu, bunu şərbəti qabağıma qoyanda əlinin titrəməyindən, içindəki təlatümü boğmaqdan ötrü əziyyət çəkməyindən sezdim.

Mirzə Qədim bizi üç gün buraxmadı; gündüzlər çıxıb şəhərin əvvəlki növrağını itirmiş məhəllələrini dolaşır, os-

manlılarla döyüş vaxtı olduğumuz yerlərə baş çəkir, uzun əzab-əziyyətdən sonra öz ocağına qayıdıb, yurd-yuvasını şənləndirməyə çalışan camaatın işlərinə göz qoyurduq. Vaxtilə yaşadığımız evin xarabalığını, ağamın qətlə yetirildiyi qala dibini, cəsədinin yandırıldığı xəndəyi, kəsilmiş başının bizim qoşuna göstərildiyi qala qülləsini gəzmək istəyirdim, amma Mirzə Qədim bunun təhlükəli olduğunu deyəndə qəlbimdən qara qanlar axırdı. Mirzə Qədimin təsəllisi, Əliqulu bəyin dərdəşərikliyi olmasaydı, kədərdən bağrım çatlayardı...

Qəzvinə yola çıxanda yaxın vaxtlarda Təbrizə dönəcəyimə şübhə eləmirdim. Əliqulu bəyi hal əhli olduğuna görə, çox bəyənirdim, elə Təbrizdən Səraba sarı yol başlayanda hər şeyi anlayan nəzərlərlə üzümə baxdı:

– Qardaşım, – dedi, – Allahın alın yazısından qaçmaq olmaz. Ola bilsin, otuz yaşınacan evlənməməyinin səbəbi elə Nisəxanımmış, özünün də xəbəri yoxmuş. Məsləhət belədi, Qəzvinə çatan kimi, mən məsələni əmimə danışım, əmim də bir-iki nəfəri götürüb getsin Mirzə Qədimin yanına. Hüseynəli bəy sənin xətrini çox istəyir, sözümü qaytarmaz. Necədi, razılaşdıq?!

Cavab vermək əvəzinə həyəcan dalğa-dalğa gəlib boğazımı tutdu, dinməzcə atı dəhmərlədim, Əliqulu bəy də hər şeyin məhz bu cür olacağını özü başa düşdü.

Allah surunu yeritsin, Hüseynəli bəy mənə də əmilik elədi, qardaşım Mehrəlini, üstəlik, məsləhət bildiyi adamları götürüb bircə həftədən sonra Təbrizə yola düşdü, daha bir həftənin tamamında gəlini – gözəl Nisəxanımı el adətincə gətirib gəldilər. Mirzə Qədim arif adamıydı, evində qaldığımız üç gün ərzində qırımımdan, həm də gözünün ağı-qarası bircə övladının təhər-töhüründən artıq

məsələnin nə yerdə olduğunu duyubmuş, Hüseynəli bəyin elçi gəldiyini görəndə, özünü tox saxlasa da, sevincindən gözü yaşarıb, qızının oğlu qədər sevdiyi bir kəsə qismət olduğuna şükür elədiyini söyləyib. Gözəl Nisəxanımın ağzını arayanda «atam bilər» sözünü elə deyib, yazıya pozu olmadığını hamı başa düşüb.

Ağamın, Şahzadə Həmzə Mirzənin, sevgili anamın itkisindən, Təbrizin dağıdılmasından sonra birinci kərəydi, könlüm açılırdı, qaysaqlanmış yaraların sızıltısını evlilik duyğusundan doğan xoşbəxtlik çırpıntıları üstələyirdi. Nisəxanımın gəlişi könül evimin uçuqları altından dikəlib qalxmağıma, bir-birinin ardınca baş verən itkilərlə sarsılmış müvazinətimi yerinə qaytarmağıma kömək elədi. Görürdüm, elə Nisəxanım da taleyinin bu cür dönüşü, tanıdığı, ailəsinə simsar olan bir kəslə ömür sürdüyü üçün Allahından razıydı.

Bu hadisədən üç ay keçmədi, Şahımızdan Gilanın üstünə yürüşə çıxmaq əmrini aldıq. Bu vilayət dağlıq yer olduğundan, atların, arabaların, topların hərəkəti hədsiz çətinlik törədirdi. Şahımız əmr elədi, otuz minlik qoşun rahat yerimək üçün çarıq geysin, özü də döyüş paltarında, ayağıçarıqlı qoşunun qabağına düşdü. Qibleyi-aləmin taxta çıxmasının səhərisi günü baş verən qırğından üç nəfərin – Məhəmməd Şərif xanın, Sultan Mahmudun, bir də Əzim bəy Kolğaçının canlarını qurtarıb Gilan hakimi Əhməd xana sığınmağı, Əhməd xanın o üç nəfəri təslim eləməməyi Şahımızı bərk qəzəbləndirmişdi. Üstəlik, Əhməd xanın arvadı Qibleyi-aləmin bibisi, Məhəmməd Xudabəndənin bacısıydı, bu səbəbdən, ər-arvadın xanədanı möhkəmlətməkdənsə, düşmən dəyirmanına su tökməyi Şahımızı cin atına mindirmişdi. On iki günlük ağır yolçu-

luqdan sonra Gilana varid olduq, pusquçuları təmizləyə-təmizləyə Ləhicana yaxınlaşanda Əhməd xan arvad-uşağını da qoyub osmanlıların tərəfinə qaçdı. Şahımız da Mehdiqulu xan Şamlunu Gilan hakimi təyin elədi, bibisini də götürüb, qoşuna Qəzvinə qayıtmaq əmri verdi.

Səfərə çıxanda Nisəxanımın nə qədər təşviş keçirdiyini görmüşdüm, amma qardaşım Mehrəlinin qonşuluqda yaşaması, qulluqçunun da, nökərin də uzaq qohumlarımızdan abırlı ər-arvad olması içimdə rahatlıq doğururdu. İki ay keçməmişdi, biz Luristan səfərinə yollananda artıq Nisəxanım oğlumuz Sultanəliyə hamiləydi, bu səbəbdən, yarı canım yanında qalmışdı. Şahımızın qardaşı Şahzadə İsmayılın qızıyla evlənmiş Şahverdi xan osmanlılarla tatarların fitvasına uyub, xəzinəyə vergi ödəməkdən boyun qaçırmışdı. Arvadı onu bu yoldan çəkindirməyə çalışsa da, gözünü qan örtmüş xan arvadına əl qaldırmadan çəkinməmişdi, o da adam göndərib ərinin gizli niyyətindən dayısını xəbərdar eləmişdi. Şahımızın əmrinə boyun əyib otuz min atlıyla yola çıxdıq. Luristana yetişənəcən Şahverdi xanın gəlişimizdən xəbəri olmamışdı, artıq başının üstünü aldığımızı biləndə elə qeyzlənmişdi, çaparın boynunu vurmaqdan özünü saxlaya bilməmişdi, sonra da var-yoxunu, arvadını götürüb Bağdada sarı üz tutmuşdu. Başsız qalan Luristan əhli qabağımıza çıxmağı belə, ağlına gətirmirdi, ayağı tutan qaçıb canını qurtarmağa çalışırdı. Şahımız Allahverdi xanın başçılıq elədiyi on iki minlik gürcü atlısını Şahverdi xanın arxasınca göndərdi. Allahverdi xan xəyanətkarı Bağdad yaxınlığında yaxaladı, arvadı, xəzinəsiylə Qibleyi-aləmin hüzuruna gətirdi. Şahımız Şahverdi xanı sorğu-sualsız edam elətdirdi, Luristan ha-

kimliyini Hüseyn bəyə tapşırıb, qardaşı qızını da götürdü, Qəzvinə döndük.

Amma şəhərə təzəcə girmişdik, Mazandaran hakimi Bəngü Məliyin itaətsizlik göstərdiyi xəbərini aldıq. Şahımız qəzəbindən az qala ağlını itirdi. Bircə aydan sonra əlli min atlıyla Mazandarana yola çıxmağı əmr elədi. Luristandan dönəndə Nisəxanımın lap ağırlaşdığını görmüşdüm, əlbəttə, belə vaxtda yanında olmağım məsləhətiydi. Amma Şahımızın əmrindən çıxa bilməzdim. Biz Mazandarana yetişib Bəngü Məliyin sığındığı qalanı mühasirəyə alanacan payız sona çatdı, qışın soyuğu düşdü. Qala alınmaz görünürdü, bütün qışı mühasirədə saxladıq, bəlkə aclığa dözməyib, təslim olalar. Qışın axırında Bəngü Məliyin yanından qaçan bir nəfərdən Qorçubaşı alınmaz qalanın... adi taxtadan tikildiyini, üzərinə çox ustalıqla suvaq çəkildiyini öyrəndi, elə həmin gecə qala divarına yaxınlaşdı, deyilənin doğru olduğunu yəqinləşdirib, divara od vurdu. Qaçıb canını qurtarmağa çalışan hiyləgər Bəngü Məliyin başını Qorçubaşı öz əliylə kəssə də, uzun müddət aldadıldığından utanıb məsxərəyə tuş gəlməmək üçün üzə çıxmadı.

Novruz bayramı ərəfəsində Qəzvinə dönəndə artıq Sultanəlinin doğulmasından qırx gün keçmişdi. Hər şeyin yaxşı qurtardığına bütün qəlbimizlə sevinə-sevinə xoşbəxt aylar yaşadıq. Ağır səfərdən sonra Şahımızın rüsxətiylə Bayat atlılarına dinclik vermişdim. Öz ocağımda olmaq, övrətimin rahatlığını görmək, oğlumun qığıltısına qulaq asmaq xoşuma gəlirdi, Allahdan diləyim buydu, məmləkətimizdə əmin-amanlıq olsun, günlərimi ailəmin qayğısına qalmaqla, kitab oxuyub, rəsm çəkib, şeir yazmaqla, tez-tez Təbrizə səfər eləyib, Mirzə Qədimin müdrik söhbətlərini dinləməklə keçirim...

## 8.

Nökər idi, qapını astaca taqqıldatdı, fikir-xəyaldan ayrılıb «gəl» dedim, başını içəri uzadıb:

– Ağa, sabahın xeyir, – dedi, – yemək buyuracaqsanmı?

Adətən yeməyimizi iri otaqda yeyərdik, amma bu dəfə nəsə könlüm istəmədi, üzüm pəncərəyə sarı, şəhərin o başında üfüqdən bir boy qalxmış günəşə baxa-baxa:

– Dəstərxanı elə burdaca aç, – dedim.

Nökər «Gözüm üstə, ağa» – deyib getdi, yadıma Hüseynəli bəy Bayatın dünən gələn xanım yerişli buyruqçusunun «bəçeşm» söyləməsi düşdü, bu səbəbdən nökər Qulaməlinin «göz üstə»si mənə ayrı cür ləzzət elədi. Günəşin işıq saçmağından bəlli olurdu, bu gün əməlli-başlı isti olacaq. Əgər mən yox, Allah deyən olsa, Qibleyi-aləmin məclisi tez başa çatsa, Sultanəlini ata mindirib şəhərin qırağındakı çeşmənin başına apararam, o ətrafdakı gözəl yerləri gəzdirərəm. Hələ meyli çəksə, Nisəxanım da, dayə də, qulluqçu da, lap elə nökər də bizimlə gedər, xalıdan-palazdan götürüb ağacların altına salarıq, şəhərin bürküsündən bir müddətə canımızı qurtararıq.

Nökərin gətirdiklərini diqqət yetirmədən, fikirli-fikirli yedim. Hey Qibleyi-aləmin zəhmli üzü gəlib gözlərimin qabağında dururdu. Axırıncı kərə Şahımızın qəzəbindən qan çanağına dönmüş gözlərini Bəngü Məliyin sığındığı qala yanında görmüşdüm. Vaxtını eyş-işrətlə keçirən ağıldankəm bir adamın onu bütün qış boyu axmaq yerinə qoyması Şahımızı təbdən çıxarmışdı, həmin məqamda Qorçubaşı əlinə keçsəydi, sorğu-sualsız şaqqalardı. Amma

qalanın od-tutub yanan hasarlarını görəndə o qəzəb bir qədər yumşaldı, Qorçubaşı Bəngü Məliyin kəsik başını ayaqları altına qoyandasa Qibleyi-aləm özünü saxlaya bilməyib, başın qorxudan, həm də əzabdan əyilmiş üzünə nifrətlə tüpürdü, tərs-tərs Qorçubaşıya baxdı:

– Anan səni namaz üstündə doğubmuş, gədə, – dedi, – bir gün də keçsəydi, sənin başın da beləcə kəsilib, qurd-quşa yem olacaqdı.

Qorxudan sarısını udmuş Qorçubaşının dizlərinin necə əsdiyini, üzünün səyridiyini açıq-aydın gördüm: onda Qibleyi-aləmin üç-dörd addımlığında, Allahverdi xanın yanında durmuşdum.

Qəzvinə qayıdıb, təzəcə rahatlanmışdıq, Astrabadda Əli bəyin baş qaldırdığı xəbəri gəldi. Mən Mazandarandan çox pis əhval-ruhiyyədə qayıtmışdım, həm sərt keçən qış, həm də özümün ehtiyatsızlığım ağır xəstəliyimə səbəb oldu. Heç oğlumun sevincini doyunca dadmamış yatağa düşdüm, bu üzdən otuz minlik atlı qoşunla Astrabada yollanan Şahımızın yanında ola bilmədim. Bayat atlılarına başçılığı o vaxt dövlətxanada çalışan Hüseynəli bəyin məsləhətiylə Əliqulu bəyə tapşırdıq. Bu qərarımızı Allahverdi xan da bəyənmişdi.

O yıxılan yıxıldım, düz üç ay yataqdan qalxa bilmədim. İkitərəfli sətəlcəm, üstəlik, ciyərlərimin soyuqlaması məni taqətdən salmışdı. Hüsenyəli bəy dövlətxanadan həkim gətirdi, hətta Allahverdi xanın buyruğuyla həkimbaşı özü gəlib baxdı, dava-dərman elədi. Nisəxanım bu üç ayda bir an da olsun, yanımdan ayrılıb səhhətimi başqasının ümidinə qoymadı. Həkimbaşının tapşırdıqlarını vaxtında, diqqətlə yerinə yetirirdi, məni darıxmağa, sıxılmağa

qoymurdu. Hardansa soraqlaşıb əliyüngül bir türkəçarə həkimi də tapmışdı, şirin Təbriz ləhcəsində danışan o nurani kişi günaşırı gəlir, cürbəcür otlardan düzəltdiyi məlhəmləri mənə içirdir, qulağını sinəmə dayayıb nəfəsimə qulaq asırdı. Düz bir ay beləcə keçdi, sonra Hüseynəli bəy demiş, kəfəni cırdım, halım yaxşılaşmağa doğru üz qoydu. O bir ay ərzində bir tikə yeməyi boğazımdan güclə keçirirdim, təngnəfəsliyim, bəlğəmli öskürəyim amanımı kəsirdi, halsızlıqdan gündə neçə kərə tər yuyub aparırdı, indisə Allaha şükür, qalxıb, yatağımın içində otururdum, ürəyim istəyəni yeyirdim, hətta dizlərimin üstünə kitab qoyub oxuya, rəsm çəkə, şeir yaza bilirdim. Belə vaxtlarda bir az aralıda *(özüm yaxın buraxmırdım, öskürəndə uşağa ziyanı dəyərdi)* Sultanəlini əyləndirən Nisəxanımın xoşbəxtlik yağan üzünə baxa-baxa:

*Dilbəra, gül yüzünə xəstə düşən canım fəda,*
*Gözlərinin ziyasına narda bişən canım fəda, –*

beytilə başlanan qəzəl də yazmışdım. Sonrakı iki ayı evin içində yavaş-yavaş gəzdim, həyətə çıxdım, bir daha həyatın, yaşamağın, rahatlığın nə qədər gözəl olduğunu dərk elədim. Dayəsi Sultanəlinin beşiyini çarhovuzun yanına qoyurdu, oğlum qığıldaya-qığıldaya mənimlə oynayırdı, sonra şirin-şirin mışıldayır, mən də Mirzə Qədimin balaca kitabxanasından oxumağa götürdüyüm kitablara diqqət kəsilirdim.

Şahımız Astrabad səfərindən dönəndə ayaq üstündəydim, tamam-kamal sağalmışdım. Səhəri gün Əliqulu bəylə Şahqulu gəldilər, səfər barədə danışdılar. Allaha çox şükür,

hər şey yaxşı qurtarmışdı, Bayat atlıları arasında iki yaralını hesaba almasaq, ölüm-itim olmamışdı. Söylədiklərinə görə, elə ilk həmlədəcə Əli bəy əsir götürülüb, Qibleyi-aləmin hüzuruna gətirilmişdi, artıq işin-işdən keçdiyini anlayıb Şahımızın ayağına yıxılmış, bağışlanmağını xahiş eləmişdi. Şahımız da o biri hakimlərə görk olsun deyə, Əli bəyin gözlərinin çıxarılması əmrini vermişdi, minbaşılardan birinə Astrabad hakimliyini tapşırıb Qəzvinə dönmüşdü.

Bundan sonra bir müddət məmləkətdə sakitlik oldu. Bir neçə aydan sonra könlümə Təbriz düşdü, Nisəxanımın da ata-anasından ötrü darıxdığını görürdüm, həm də baba-nənəsinin Sultanəlini görməsi savab iş olardı. Hüseynəli bəyin vasitəsilə ricamı Allahverdi xana çatdırdım, o da kefinin duru vaxtında Qibleyi-aləmdən bir aylığa rüsxət aldı. Bayat atlılarından ikisini yanıma alıb Təbrizə üz qoydum. Yenə bir gecə Zəncanda, o biri gecə Sərabda qaldıq, üçüncü gün hava qaralmamış özümüzü Təbrizə çatdırdıq.

Mirzə Qədim də, Ümleyla xala da gəlişimizə o qədər sevinmişdilər, az qalırdılar, qanad taxıb uçalar. Doğma yerdə keçirdiyim o günlərin dadı damağımdan illər sonra da getmədi. Əlbəttə, şəhər hələ də dağıntılardan özünə gəlməmişdi, amma Şahımızın diqqəti sayəsində könül sevindirən işlər görülmüşdü. Düzdü, osmanlılarla döyüşlərdə Sahibabad meydanına, Cümə, Əlişah, Uzun Həsən məscidlərinə ziyan dəyməmişdi, görünür, osmanlı paşası qaladan top atəşi açmaq əmri verəndə buna xüsusi diqqət yetirmişdi. Amma qoşunumuz Təbrizdə olan vaxt Qeysəriyyə, Məqsudiyyə, Müzəffəriyyə mədrəsələrinin damı dağılmış, Həşti-behişt, Nəsriyyə mədrəsələrinin di-

varlarına az-çox ziyan dəymişdi, indi o tikililərin əvvəlki görkəminə qaytarıldığını gördüm. Dəməşqiyyə, Əmirgiz, Körpü darvazalarının uçulmuş tacları da Təbriz ustalarının səyilə mədrəsədə oxuduğum vaxtların əzəmətilə dururdu.

Sahibabad meydanına çatıb, Mirzə Qədimin evinə sarı yollananda osmanlılarla döyüş vaxtı dağılmış binaların təzədən tikildiyini, abad olduğunu gördüm. Qibleyi-aləmin şəhər hakiminə bununla bağlı xüsusi göstəriş verməsindən xəbərim varıdı, ona görə də Şahımıza rəğbətim birə-beş artırdı.

Əlbəttə, Mirzə Qədim də, Ümleyla xala da gəlişimizə hədsiz sevindilər. Bir aya yaxın təsvirəgəlməz məsud anlar yaşadıq. Həyətdə o baş-bu başa qaçıb anasının-nənəsinin könlünü açan Sultanəlinin gülüşlərini eşidə-eşidə Mirzə Qədimin hücrəsində oturub, dünyanın gedişatından, elmdən, sənətdən, şeriyyətdən söhbət eləmək çox xoşuma gəlirdi. Bu müddətdə ustadımdan ölüçüyəgəlməz hikmət əxz elədim, bütöv bir məktəb keçdim...

Mən Təbrizdən Qəzvinə dönəndə Şahımızın dövlətxananı İsfahana köçürməyə hazırlaşdığından xəbər tutdum. Əlbəttə, bundan narazı olanlar da varıdı, amma kimsə cəsarət eləyib üzə vurmurdu. Üstündən bir-iki həftə keçmiş xəbər çıxdı, özbəklər Abdulla xanın başçılığı altında Xorasana soxulub, İsmət xan Ustaclının qoşununu dağıdıblar, üstəlik, bütün adlı-sanlı xanları, bəyləri baş məscidə yığıb qılıncdan keçiriblər. Ölənlərin sayının qırx minə yaxın olduğu söylənirdi. Şahımız bu xəbəri eşidəndə qəzəbindən iri bığlarının ucunu ağzına salıb çeynəmişdi, dərhal İsfahana köçməklə bağlı hazırlıqlara ara verib, Xorasan səfərinə hazırlaşmağa başlamışdı. Üstəlik, Qibleyi-

aləm xəzinənin boşaldığını görüb, bütün qızıl-gümüş qab-qacağı əridib pul kəsməyi, qoşunun haqqını verməyi əmr eləmişdi. Əyan-əşrəfin etirazına məhəl qoymadan fikrindən dönməmişdi: «Atam Məhəmməd Xudabəndə deyərdi, – bildirmişdi, – yaxşı haqq alan qoşun ən böyük uğurdan daha artıq qələbə gətirər». Beləcə səksən min atlıyla Məşhədə doğru yola çıxdıq. Amma Abdulla xan Özbək bizim yaxınlaşdığımızdan xəbər tutanda qaçıb getdi, biz də döyüşsüz-filansız Qəzvinə dönməli olduq. Sən demə, Abdulla xan biclik işlədirmiş, bizim geri qayıtmağımızı öyrənib Məşhədin güneyindəki Türbət-i-Heydəriyyəyə hücum çəkdi, şəhərin hakimi Məhəmməd xan Bayat bir ay özbəklərin həmlələrinə tab gətirdi, hətta düşmən qoşunundan otuz min nəfəri qanına qəltan elədi. Bununla belə, Məhəmməd xan özbəklərin sayının qat-qat artıq olduğunu görüb şəhəri təslim eləmək qərarına gəldi. Əlbəttə, bu Şahımızın qəzəbinə səbəb oldu, az qala Məhəmməd xanın boynunu vurduracaqdı, amma Allahverdi xanla Hüseynəli bəy vaxtında Qibleyi-aləmi dilə tutub, fikrindən daşındıra bildilər: nahaqdan qoşunu qırğına verməkdənsə, qüvvə toplayıb intiqam almaq daha ağıllı hərəkətiydi.

Məşhəd səfərindən xəlifə Əlinin nəslindən olan İmam Rzanın məqbərəsi yadımda qalmışdı. Məqbərənin üstündə saf qızıldan tökülmüş kiçik bir qüllə var. Qüllənin ucunda qiymətli daşlardan düzəldilmiş tağ gördüm. Tağın ortasında iri şabalıd böyüklüyündə almaz qoyulub, bu almaz da gecələr min addımlıq dövrəsini nura qərq eləyir. Gözlərimlə görməsəydim, bu möcüzəni heç dilimə gətirməzdim.

Abdulla xan Özbəyin basqınları, Şahımızın bu basqınlardan can qurtarmaqla bağlı səyləri yeddi ildən artıq

sürdü. Qibleyi-aləm dönə-dönə ona xəbər göndərdi: ya qoşunumuzun başında, ya da təkbətək döyüşək, Allah ya sənə verər, ya da mənə. Amma Abdulla xan əcdadları kimi döyüşdüyünü, xalqının əski adətinə xilaf çıxmaq fikrində olmadığını bildirib həmişə bu təklifdən boyun qaçırırdı. O illər ərzində Şahımız özbəklərə qarşı əllidən artıq səfərə çıxdı, həmin səfərlərin iyirmi ikisində, yaxud iyirmi üçündə Bayat atlılarının başında durdum. Döyüşlərdə ölənlərin sayı-hesabı dilə gələn deyil. Əgər Abdulla xan Özbək, ardınca da oğlu Əbdülmömin təsadüf üzündən ölməsəydilər, qırğınların ardı-arası kəsilməyəcəkdi.

Həmin vaxtlarda türk sultanı Muradın ölümü, yerinə oğlu Məhəmmədin *(Mehmetin)* keçməsi döyüşlərin ara verməsinə səbəb oldu. Şahımız da bu dinclikdən istifadə eləyib, dövlət işlərilə məşğul oldu, arada vaxt tapıb Ərdəbildə Böyük Şeyximizin, bütün əcdadlarının məzarını ziyarət elədi. Sonra dövlətxananı Qəzvindən İsfahana köçürmək barədə fərman çıxdı, neçə ildən bəri öyrəşdiyimiz ocağımızı buraxıb, təzə yurd salmaq nə qədər çətin gəlsə də, Qibleyi-aləmin hökmünə tabe olduq.

Həmin vaxt Abdulla xan Özbəyin qardaşı oğlu Təlim xan Xorasana basqın elədi, az müddətdən sonra Heratı ələ keçirib, iqamətgahını ora köçürdü. Nə vaxtdan bəri döyüşlərdən uzaq düşmüş Şahımız Təlim xanın basqınlarının qabağını almaq məqsədilə Fərhad xan Qaramanlının on iki minlik atlı qoşununu göndərdi. Amma o, düşmənin hücumuna tab gətirmək iqtidarında olmadığını görüb, geri qayıtdı. Fərhad xanın qorxaqlığından qəzəblənən Qibleyi-aləm yüz minlik qoşunla Təlim xanın qarşısına özü çıxmaq qərarına gəldi. Bu dəfə Şahımız mənimlə Əliqulu bəyə bö-

yük iltifat göstərdi, hərəmizə min nəfərlik atlıya başçılıq eləməyi tapşırdı.

Sayca düşməndən xeyli az olsaq da, Şahımızın qoşunun başında durması gücümüzü qat-qat artırdı. İlk döyüşdəcə özbəkləri əzib, Təlim xanı əsir götürdük, altı min əsgər, o qədər də qadın ələ keçirdik. Şahımız Təlim xanı dərhal edam eləmək əmrini verdi, sonra da qorxaqlığını bağışlayıb, Fərhad xana Herat hakimliyini tapşırdı. Amma saray həyatına öyrəşmiş Fərhad xan bu əmrdən boyun qaçırdı, nəticədə başını itirdi. Qibleyi-aləm Hüseyn xan Şamlunu Herat hakimi təyin eləyib, geri qayıtmaq əmrini verdi.

*(...Amma biz geri qayıdan baş İsfahana getmədik, ona görə ki, yaxın adamları, dövlətxananın xidmətçiləri düz Qəzvinə yollanan Şahın yanında qaldılar. Burada saray əyanlarından bəzilərinə Şah Abbasın lap böyük oğlu, taxt-tacın varisi Səfi Mirzənin yanında xidmət eləməyi tapşırdılar; o, gürcü qızı olan arvadından doğulmuşdu, o vaxt oğlanın təxminən on yaşı varıdı. Sonra gənc Şahzadəni İsfahana müşayiət eləmək əmr olundu, biz də bunu yerinə yetirdik, ona xidmətçiləriylə birlikdə mənsəbinə uyğun gələn saray düzəltdik. İsfahanda iki il xatırlanası bir şey olmadan beləcə keçdi, həmin müddətin axırında xəbər gəldi ki, təzədən osmanlıların dönə-dönə basqınları üzündən şimal-qərb hüdudlarımızda iğtişaşlar başlayıb. Şah bu məsələni tez həll elədi, çünki sultan Üçüncü Məhəmmədlə (Mehmetlə) sülhü pozmağa bəhanə axtarırdı, hansısa ingilislərin vaxtında gəlib çıxması onun bu fikrini qətiləşdirdi...*

## 9.

İkindi namazının yaxınlaşdığını mənə evin o biri tərəfindən gələn səs-küy anlatdı. Deyəsən, dayəsi Sultanəlini subaşına aparmaq, əl-üzünü yumaq, ya da paltarını geyindirməkdən ötrü dilə tuturdu. Nisəxanım çoxdan oyanmış olardı, yəqin, indi mən sarıdan narahat, yarıyuxulu gecədən sonra bir qədər əzginiydi, yoxsa bu vaxtacan baş çəkər, halımı soruşardı. Sultanəlinin ardınca doğulan iki uşağımızın – bir qız, bir oğlanın qırxı çıxmamış tələf olması Nisəxanımın qəlbində sağalmaz yara kimi qalmışdı. İsfahanda sakit ötən bu iki ilin ərzində bir dəfə Təbrizə getməyə fürsət tapmışdıq, onda da anası məndən xəbərsiz inanıb, bel bağladığı bir həkimin yanına aparmışdı, məlum olmuşdu, səbəb heç də Nisəxanımda deyil, mənim neçə illərdən bəri at belində olmağımda, səfərlərdə keçirdiyim günlərimdədi, bütün bunlar özünü doğulan uşaqların səhhətində bildirir. Nisəxanım həkimin qənaətini mənə çatdıranda eşitdiklərimin doğruluğuna zərrə qədər də şübhə eləməmişdim, çünki çəkdiyimiz o cür əzab-əziyyətlər izsiz ötüşə bilməzdi. Hüseynəli bəyin vasitəsilə məni müayinə eləməkdə iltifatını əsirgəməyən həkimbaşı da eyni fikirdəydi, dava-dərmanla başa gələn uzun müalicə lazım olduğunu demişdi. Hələ onun buyruqlarına əməl eləyirdim, axırının necə olacağını bir Allah bilirdi. İndiyəcən bunu Nisəxanımdan, anasından, Hüseynəli bəydən bir də həkimbaşıdan özgə kimsə bilmirdi.

Sultanəli elə gecə köynəyindəcə qapının arasından başını içəri uzatdı, gözlərindən gülə-gülə:

– Sabahın xeyir, ağa, – dedi, ədəblə bağır basdı, – məni ata mindirəcəksən?

– Hə, atam, – cavab verdim, – amma gərək ananla dayənin sözünə baxasan.

– Baxaram, – Sultanəli başını geri çəkib qapını örtdü, taqqıltısından duydum ki, atıla-atıla öz otağına cumdu.

Çıxıb dəstəmaz aldım, qayıdıb ikindi namazını qıldım, dövlətxanaya çağırılmağımın axırının xeyir olmasını sidqürəklə arzulayıb, qulluqçuya həmişə bu cür dəvətlərə geyindiyim paltarımı gətirməyi tapşırdım. Qulluqçu paltarı gətirənəcən atla, yoxsa piyada gedəcəyimi fikirləşdim. Belə qərara gəldim, atla getsəm yaxşıdı, paltarla qayıdan qulluqçuya buyurdum, Qulaməliyə atı yəhərləməyi çatdırsın. Geyinib qurtaranda Nisəxanım içəri girdi, «sabahın xeyir» deyib, sorğulu-sorğulu üzümə baxdı:

– Nigaran qalma, – dedim, əlimi örpəyinin altından çıxmış saçına çəkib gülümsədim, – axırı xeyir olar, inşallah. Yəqin, gün əyilənəcən qayıdaram.

– Allah ağzından eşitsin, – Nisəxanım narahat olduğunu gizlədə bilmirdi, – bu gecə yuxumda uzun yol görmüşəm, yoxsa Şahımız səfərə hazırlaşır?

– Səhih heç nə bilmirəm, bir də səfərə çıxdığım birinci kərə deyil ki? – gülümsədim.

Eşiyə çıxanda Nisəxanım arxamca su atdı, Qulaməlinin Qəzvin ustalarına düzəltdirdiyim yəhəri boz kəhərin belinə qoyub, üstünə Təbrizdən gətirdiyim yəhəriçini salması, gümüş yüyəni vurub, üzəngini basması bu söhbət qədər çəkmişdi. Taybatay açılmış darvazadan çıxanda dönüb geri baxdım, özünü yetirib anasının böyründə duran

az qala arxamca qaçmağa hazırlaşan Sultanəliyə baxdım, dövlətxanaya sarı enən səmtə buruldum.

Otuz doqquz illik ömrümün on altı ilini Təbrizdə, on ilini Qəzvində, iki ilini İsfahanda, qalanınısa səfərlərdə keçirmişdim. O illər ərzində Gəncədən Heratacan yollar keçmişdim, saysız-hesabsız döyüşlərə girmişdim, edamlar, qətllər görmüşdüm. Atam Sultanəli bəyin, Şahzadə Həmzə Mirzənin, anam Şahsənəmin ölümünü yaşamışdım, iki qardaşım Şahımızın yolunda şikəst olmuşdu. Bu illər ərzində Mirzə Qədimdən ayrılmağın üzüntülərinə tuş gəlmişdim, canım qədər sevdiyim Təbrizin dağıdılmasına ağrımışdım, onbaşılıqdan minbaşılığa qədər mənsəb yolu keçmişdim, Şahımızın hüsn-rəğbətini qazanmışdım, axır ki, ailə-uşaq yiyəsi olub, rahat həyata qədəm qoymuşdum. Sonrası Allah kərimdi...

Bu iki il ərzində Şahımızın sayeyi-mərhəmətindən İsfahan daha da böyüyür, get-gedə məmləkətin baş şəhərinə oxşamağa başlayırdı. Dövlətxananın yerləşdiyi Şah Meydanının ətrafında məscid, mədrəsələr, karvansaralar, hamamlar binaları, Şahımıza yaxın adamların zəngin mülkləri tikilirdi. Məxsusi Təbrizdən gətirilmiş ustalar gecə-gündüz çalışır, Qibleyi-aləmin istəyincə şahanə saraylar tikirdilər. İndi Şeyx Lütfulla, İmam məscidləri, Qeysəriyyə bazarı, altımərtəbəli Ali-Qapı sarayı cah-calalıyla göz oxşayırdı. Uzaqbaşı, on-on beş il ötəndən sonra İsfahan məmləkətin ən gözəl şəhərlərindən birinə çevriləcəkdi.

Yolumun üstündə əvvəl Əliqulu bəyin mülküydü, sonra Hüseynəli bəyin şahanə imarətiydi. Əliqulu bəyin mülkünü də mənim mülkümlə eyni vaxtda – bir il qabaq təbrizli ustalar tikmişdilər. Əlbəttə, biz dövlətxananın ən hörmətli

adamlarından sayılan, Etimad-üd-dövlə Hatəm bəy Ordubadinin Allahverdi xanın yanına sözsüz-söhbətsiz, Qibleyi-aləmin hüzurundasa lazım gələndə getməyi bacaran Hüseynəli bəylə bəhsə girmək fikrində deyildik. Onun ikiqatlı imarəti dövlətxanaya yaxın yerdəydi, bu səmtdəki tikililərdən iriliyinə görə yox, ustaların vurduqları naxışlara görə fərqlənirdi. Dövlətxananın sol tərəfində alçaq bir təpənin üstündə Cümə məscidinin göz dolduran əzəmətli mənzərəsi görünürdü. Məsciddən azacıq aralıda Şahımızın təzəcə tikdirdiyi mədrəsənin binası yerləşirdi. Neçə kərə ağlıma gəlmişdi, daha səfərlərə çıxmaq gərək olmayanda o mədrəsədə dərs deyərəm, uşaqlara türkcəni, ərəbcəni, xəttatlığı, rəsm çəkməyi, şeriyyəti öyrədərəm. Mədrəsə barədə Hüseynəli bəylə də söhbətimiz olmuşdu, osmanlılarla məsələ ayırd olunandan sonra Şahımızdan bu istəyimin ardınca getməyə rüsxət almaq fikrindəydim. O, niyyətimi bəyənmişdi, dediyinə görə, Qibleyi-aləmin də məqsədi buydu, məmləkətdə qılınc vurmağı bacaranlarla yanaşı, qələm tutanların da sayı çoxalsın.

Hüseynəli bəyin mülkünün qənşərindən keçəndə atın yüyənini çəkib yavaşıtdım, fikrim onun dövlətxanaya gedib-getmədiyini öyrənməyiydi, sonra ağlımdan keçdi, bu vaxta qalmaz, əgər Qibleyi-aləmin hüzuruna onun tərəfindən çağırılmışamsa, deməli, baş verəcək işin içindədi, indi ya Allahverdi xanın, ya da Qorçubaşının yanında məni gözləyir. Əlbəttə, ən ağıllı iş ya axşam, ya da ikindi namazınacan Əliqulu bəyi tapıb bu nagahan çağırışın məqsədindən xəbər tutmaq olardı. Amma onu da ağlıma gətirdim ki, Əliqulu bəy səhih xəbər bilsəydi, özü mənimlə

görüşməyə ehtiyac duyardı, ya da bilirsə, hələlik dəvətin səbəbini açmağı məsləhət deyil.

Şah Meydanından keçib, dövlətxananın baş darvazasının sol tərəfindəki mehtərxanaya doğru yönəldim. Mehtərlərdən biri qabağıma qaçıb atımın cilovundan tutdu, hörmətlə bağır basıb salam verdi:

– Yəhərini götürərsən, – mehtərə dedim, – yəqin, gün əyilənəcən dövlətxanada olacağam.

– Baş üstə, ağa, – mehtər yerindən tərpəndi.

– Əliqulu bəyi görməmisən? – Başlarını axura salmış atların arasında onun göydəmir kəhərini görsəm də, irəli durub hörmətlə bağır basan əmiraxurbaşıdan sordum.

– Bir az olar, gəldi, – əmiraxurbaşı cavab verdi. – Yəqin, Hüseynəli bəyin yanında olar.

Dövlətxananın baş darvazasına yaxınlaşanda keşikçibaşı məni tanıyıb irəli durdu:

– Qədəminiz xeyirli olsun, ağa, – dedi, – Hüseynəli bəy buyurdu, Oruc bəy gələndə birbaşa yanıma göndərin.

Keşikçilər aralanıb yol verdilər, dövlətxananın qarşısındakı geniş meydana çıxıb, divanxana tərəfə yox, sol yandakı əyan-əşrəfin qərar tutduqları hücrələrə aparan, hər iki yanında keşikçilərin durduğu birtağlı qapıya doğru yönəldim. «Qibleyi-aləmin hüzuruna getməzdən qabaq Hüseynəli bəy məni görmək istəyibsə, deməli, ortada daha ciddi mətləb, məsləhətləşməli məsələ var, – fikirləşdim. – Hər halda, çağırılmağımın səbəbi döyüş səfərinə hazırlıqla bağlı deyil, belə olsaydı, Şahımızdan qabaq Allahverdi xanla görüşərdim. Hər nədisə, axırı xeyir olar, inşallah». Bu vaxt divanxanaya aparan qapıdan Xoca Səfərlə onun təki müsəlmanlığı qəbul eləyib, Həsənəli adını götürmüş

Qars ermənisi Hambarsumun çıxdığını, nə barədəsə tələm-tələsik danışa-danışa həmin qapıya doğru getdiklərini gördüm. Başları bərk qarışdığından, mənə fikir vermədilər, ola bilsin, dövlətxananın qulluqçularından biri saydılar.

Qapıya on addım qalmışdı, arxadan səs eşidib döndüm, Bünyad bəyin becid-becid yaxınlaşdığını gördüm. Təbrizdə Rüşdiyyə mədrəsəsini bitirmiş Bünyad bəylə Qəzvindən tanışıydıq, şəhər hakiminin yanında mirzəlik eləyirdi, baş şəhərimiz İsfahana köçəndə, dövlətxananın mirzələrindən biri təyin olunmuşdu. Bünyad bəylə çox yaxın münasibətdəydik, azı on yaş böyük olsa da söhbətimiz tuturdu, görüşəndə, elmdən, sənətdən, şeriyyətdən ürəkdolusu danışırdıq. Görünür, hər halda, məsələdən xəbərdarıydı, salamlaşandan sonra gülümsünüb yol göstərdi:

– Buyur, Oruc bəy, uğurumuz xeyir olsun.

Artıq qapıya çatmışıq. Bu səbəbdən Bünyad bəyi sorğu-suala tutmadım.

## 10.

İçəridə ilk rast gəldiyimiz şəxs Qibleyi-aləmin mirzəsi İskəndər bəy Münşi oldu. Türkmən tayfasından olan İskəndər bəylə təxminən həmyaş idik, Təbrizdə Rüşdiyyə mədrəsəsini bitirmişdi, ərəbi, farsı, rum dilini, tarixi, şeriyyəti hədsiz gözəl bilirdi. Bu səbəbdən, dövlətxanada ən çox ünsiyyətdə olduğum adamıydı. Bünyad bəylə məni görəndə söhbətləşdiyi enlikürək, ucaboy, qaraşın, topa saqqallı Azərbaycan bəylərbəyi Zülfüqar xan Qaramanlıdan ayrılıb bizə sarı gəldi, salam-kalamdan sonra sözlü-sözlü üzümə baxdı.

– Bilmirsən, Qibleyi-aləm bizi nə səbəbə çağırıb? – İskəndər bəydən sordum, amma bilirdim, bu barədə bir kəlmə də olsun, deməyəcək.

– İndi bilərsən, Oruc bəy, – gözlərindən gülə-gülə cavabdan boyun qaçırdı. – Xeyir olar, inşallah. – Sonra eyni cür ifadəylə də davam elədi. – İngilislərin başçısını da çağırtdırıb Qibleyi-aləm...

İskəndər bəyin son sözlərindən məsələnin nə yerdə olduğunu duydum. Yadıma Xoca Səfərlə Həsənəli bəyin pıçıldaşmaları düşdü. Xoca Səfərə münasibətdə ikimiz də eyni mövqedəyik. Ona görə də qoluna girib qırağa çəkdim:

– Xeyir ola, bu bic erməni yenə əl-ayağa düşüb, özü kimi birisini də yanına alıb pıçıldaşır? – sordum.

– Qibleyi-aləmin hüzurundan çıxandan sonra mənə dəyərsən, – İskəndər bəy astadan dilləndi, sonra yanımızdan gəlib keçənlərin diqqətinə başqa bir söz dedi. – Əliqulu bəy Hüseynəli bəyin yanındadı, məndən təvəqqe elədi, görsəm, bunu sənə çatdırım.

İskəndər bəy bu sözləri mənə deməsə də, bilirdim, Əliqulu bəyi ancaq əmisinin yanında tapmaq olar, bu səbəbdən, Bünyad bəylə Hüseynəli bəy Bayatın hücrəsinə doğru yönəldik. Əliqulu bəy doğrudan da, ordaydı, amma bayaq pıçıldaşa-pıçıldaşa yanımızdan keçən Xoca Səfərlə Həsənəli bəy də içəridəydilər. Bağır basıb, salam verdik, Hüseynəli bəy bizə yer göstərəndən sonra oturduq. Ortada xoşagəlməz sükut varıdı. Əliqulu bəylə gözləşdim, bəlkə, səbəbini anlayam, amma onun gözləri mənə heç nə demədi, daha doğrusu, hələ demək istəmədi.

– Yaxşı, Hüseynəli bəy, – Xoca Səfər ayağa durdu. – Qibleyi-aləmin hüzurunda görüşərik, inşallah.

Əzici sükut o gedəndən sonra da davam elədi. Üçümüz – mən, Əliqulu bəy, Bünyad bəy bir-birimizə, sonra Hüseynəli bəyin üzünə baxırdıq, Hüseynəli bəysə hücrənin yuxarısı girdə pəncərəsindən içəri düşən işıq topasına baxa-baxa susurdu. Axır ki divanbəyinin göndərdiyi buyruqçu içəri girib təzim elədi:

– Hüseynəli bəy, dəvət olunanlar Qibleyi-aləmin hüzuruna buyursunlar.

Hüseynəli bəy durdu, arxasınca da biz qalxdıq, hücrədən çıxıb divanxanaya sarı yönəldik. Bu vaxt fars kökənli Əlfəqih Əmir qaranəfəs özünü yetirdi, bizim dəstəmizdə o da divanxanaya girdi.

Qibleyi-aləm hələ gəlməmişdi, amma dövlətxananın qeyri adamları gəlib yerlərini tutmuşdular. Qibleyi-aləmin taxtının sağ tərəfində vəkil Etimad-üd-dövlə Hatəm bəy Ordubadi, yanında İskəndər bəy, qeyri əyan-əşrəf, sol tərəfində daxiliyyə vəziri Allahverdi xan, xariciyyə məsləhətçisi Xoca Səfər, Hüseynəli bəy Bayat, ingilis mü-

safir ser Antoni Şerli əyləşdilər. Biz – mən, Əliqulu bəy, Bünyad bəy, Həsənəli bəy, Əlfəqih Əmir, qorçu dəstəsinin başçısı Yadigar bəy Məhəmməd təzim eləyib ingilis müsafirindən solda oturduq. Hamı intizar içində Qibleyi-aləmin varid olmasını gözləməyə başladı.

Bu müddətdə Şahımızın gəlməsini gözləyənləri gözaltı nəzərdən keçirdim. Hatəm bəy aradabir dən düşmüş saqqalına sığal çəkə-çəkə düşüncələrə dalmışdı; Allahverdi xan yanında əyləşən Xoca Səfərə baxmamağa səy göstərir, gözlərini divanxananın girişindən ayırmırdı; Xoca Səfərin biclik tökülən gözləri bir-bir hamıya dikilir, elə bil hüzurundakıların fikirlərini oxumağa can atırdı; Hüseynəli bəy çox narahat oturmuşdu, deyəsən, agah olduğu məsələlər barədə düşünürdü; ingilis müsafir ilk nəzər salandan xoşuma gəlməmişdi: balacaboy, sarışın, kosasaqqal, gözləri oyur-oyur oynayan cavan bir adamıydı...

İngilis müsafirə baxdığım zaman divanbəyi Qibleyi-aləmin gəldiyini xəbər verdi. Şahımız içəri girəndə hamımız ayağa durduq, ikiqat əyilib, təzim elədik, yalnız Hətəm bəy, bir də ingilis müsafir yüngül təzimlə kifayətləndilər. Otuz yaşlarında olan cavan, əzəmətli, vüqarlı Şahımız qıvraq yerişlə keçib taxtda oturdu, hüzurundakıları bircə baxışla süzəndən sonra barmağının işarəsilə Hatəm bəyə başlamaq əmri verdi. Hatəm bəy ayağa qalxıb əlini saqqalına çəkdi, gözlərini məclisdə dolandırıb ağır-ağır dilləndi:

– Həzərat, məlumunuz olsun, Avropanın səkkiz dövləti ki, xanədanımıza dostluq anlaşması, osmanlılara qarşı cəngdə əlbir hərəkət təklif eləyiblər, öz elçilərini məmləkətimizə göndəriblər. – Bu sözləri ingilis müsafirə tərcümə eləməkdən ötrü dilmanc lazım olmamışdı, türk-

cəni yaxşı bildiyindən, deyiləni başa düşüb gülümsəyə-gülümsəyə baş əydi. – Qibleyi-aləmin çoxdan belə niyyəti varıdı, bu səbəbdən, məsləhətləşmələr aparırdı. Axırda belə bir fikir yarandı, həmin dövlətlərə bir heyət göndərək, Moskov çarı, Poloniya, Firəng, İspan, German imperatoru, Venedik hökmdarı, Roma papası, ingilis, şotland krallarının hüzuruna getsin, Əlahəzrətin naməsini onlara çatdırsın.

Sonra ser Antoni Şerli danışdı. Türkcəsi mənim düşündüyümdən də anlaşıqlıydı. Uzun-uzadı səkkiz dövlətin Şahımızla danışıq aparmaq xüsusunda onu vəkil elədiklərindən, osmanlılara qarşı birgə cəng aparmağın vacibliyindən, lazım gələrsə, özünün də heyətlə birgə yola düşməyə hazır olduğundan, o səkkiz dövlətin hökmdarlarının Şahımıza böyük hörmət göstərməsindən söz açdı. O, danışdıqca, vücudumda baş açmadığım narahatlıq duyurdum, elə bil, içimdə kimsə oturub: «Bu göygöz, sarışın, balacaboy kafirə inanma!» – deyirdi.

Onun ardınca Xoca Səfər sözə izin istədi. Qibleyi-aləmin xariciyyə məsləhətçisinin üz-gözündəki mütilik, hərəkətlərindəki itaətkarlıq, baxışlarındakı biclik kimi, danışığındakı yaltaqlıq da ürəyimi bulandırdı. Xoca Səfər xeyli Şahımızın şan-şöhrətini tərifləyib göylərə qaldırandan sonra əllərini sinəsinə qoyub ingilis müsafirin sözlərinə qüvvət verdi:

– Fəda olduğumuz, Aləmlərin bəzəyi, Əlahəzrət Şahımızın uzaqgörən niyyətinin gerçəkləşməsinə hamımız canla-başla çalışmalıyıq. Buna görə də Qibleyi-aləmin hökmüylə yola düşəcək heyəti müəyyən eləmişik, – Xoca Səfər bayaqdan əlində saxladığı kağızı oxudu. – Hüseynəli bəy Bayat heyətin başçısı, Şahımızın elçisi olacaq, – Hüseynəli bəy

cəld ayağa durub təzim elədi. – Oruc bəy Bayat baş münşi, – bunu eşidəndə həyəcandan nəfəsim tutuldu, elə cəld ayağa sıçradım, az qala, yıxılacaqdım, amma təzim eləyəndə Qibleyi-Aləmin xoş münasibətini duyub bir az rahatlandım. – Əliqulu bəy, Bünyad bəy, Həsənəli bəy mirzələr, Yadigar bəy Məhəmməd heyətin təhlükəsizliyini təmin eləyən şəxs, Əlfəqih Əmirsə uca dinimizin – bu sözləri Xoca Səfərin dilindən eşidəndə, az qaldım, ucadan güləm, – nüfuzunu qoruyacaq. Şahımızın hökmü belədi, bir həftə ərzində heyət yola çıxmağa hazır olsun... – Nəhayət, susub gözlərini Qibleyi-Aləmin üzünə dikdi.

Qibleyi-Aləm barmağının işarəsiylə ona oturmaq üçün icazə verdi. Sonra sağ əlinin iki barmağıyla iri bığlarına sığal çəkib üzünü ingilis müsafirə tutdu:

– Heyəti bu dövlətlərdə müşayiət eləmək zəhməti hörmətli müsafirlərimizin üzərinə düşəcək. Bir həftə ərzində bütün hazırlıqlar görülsün, bütün hökmdarlara namələr hazırlansın, qiymətli hədiyyələr tədarük edilsin. Heyət cümə axşamı yola düşsün. – Sonra bir anlığa susub, hüzurundakı adamları nəzərdən keçirdi, axırda barmağının işarəsiylə bildirdi, kimin sözü var.

Təkcə Hüseynəli bəy Bayat danışmağa cəsarət elədi, heyətin əcnəbi məmləkətlərdə Şahımızı, dövlətimizi layiqincə təmsil eləyəcəyinə söz verdi, Qibleyi-aləmə sədaqətini bildirdi.

Sonra ser Antoni söz aldı, Əlahəzrətin bu qərarının Avropa ölkələriylə münasibətlərə böyük xeyir verəcəyindən, osmanlılara qarşı durmağa yardım göstərəcəyindən danışdı.

Təzim eləyib, Qibleyi-aləmin hüzurundan çıxandan sonra Hüseynəli bəyin hücrəsinə getdik. Hüseynəli bəy

bizə – dörd mirzəyə bir həftə ərzində görəcəyimiz işləri izah eləyib, getməyə icazə verəndə mən ləngidim, Bünyad bəylə Həsənəlibəyin çıxıb getməsini gözlədim – Əliqulu bəydən gizli sözüm ola bilməzdi. İçəridə üçümüz qalanda, astaca Hüseynəli bəydən sordum:

– Hüseynəli bəy, bu Həsənəli bəy məsələsi nə olan işdi?

– Xoca Səfər Qibleyi-aləmi inandırıb ki, rusların dilində danışa bilir, üstəlik, firəng dilini də başa düşür...

Daha bir söz danışmasaq da, bir-birimizi tamam anladıq. Sağollaşıb çıxanda yadıma düşdü, İskəndər bəy demişdi, mənə deyərsən. Əliqulu bəyə də işarə elədim, İskəndər bəyin hücrəsinə sarı yönəldik. İskəndər bəy yazısından başını qaldırıb yer göstərdi. Uzun-uzadı nəsə fikirləşib axırda dilləndi:

– Bir-birimizi neçə illərdi tanıyırıq, sizdən belim bərkdi, amma Bünyad bəyə bir o qədər də bələdliyim yoxdu. Xoca Səfər Şahımızın qəlbinə nə cür yol tapıbsa, həmişə onun məsləhətlərinə qulaq asır. Allahverdi xan da onun bir çox işlərindən xəbərdardı, mənə tapşırdı, sizə çatdırım, Həsənəli bəyi gözdən qoymayasınız. Əlfəqih Əmir də etibarlı şəxs deyil, onu da məsələdən kənar saxlarsınız. Ola bilsin, Həsənəli bəy Xoca Səfərdən gizli göstərişlər alsın, getdiyiniz ölkələrin hökmdarlarıyla ünsiyyət yaratmağa çalışsın... Məni başa düşdünüzmü?

– Başa düşdük, – dedim, Əliqulu bəy də başını tərpətdi.

– Dildə özünü müsəlman qələmə verməyinə baxmayın, – İskəndər bəy lap astadan danışırdı, – sinəsində xaç gəzdirir. Öz adamlarını hər cür yollarla vəzifələrə oturtmağa çalışır. Xəbər tutmuşam, indi də ermənilərin dərdini böyük dövlətlərin hökmdarlarına yetirmək yönümündə

əl-ayağa düşüb... – İskəndər bəy bir an susdu, sonra gözümüzün içinə baxdı. – Ola bilsin, ingilis elçiylə də dil tapmış olsunlar...

– Bəs, Yadigar bəy Məhəmməd necə, ona bel bağlamaq olarmı? – Bu mənim də ağlıma gəlmişdi, ancaq Əliqulu bəy sordu.

– Yadigar bəyi mənim təklifimlə Hatəm bəy heyətə daxil elədi, – İskəndər bəy başını tərpətdi. – Onu Təbrizdən tanıyıram, arxayın ola bilərsiniz. Onsuz da hər gün gələcəksiniz. Səkkiz dövlətin hökmdarlarına Qibleyi-aləmin naməsini hazırlayacaqsınız, imkan tapıb səfərqabağı bir də görüşərik.

İskəndər bəyin hücrəsindən çıxıb dövlətxanaya girdiyimiz qapıya doğru getdik. Dövlətxananın həyətinə çıxanda qəfildən qarşıdakı səfərin vacibliyini dərk elədim: azı il yarım-iki il yollarda olacaq, neçə-neçə məmləkət, cürbəcür adamlar görəcəkdim. Bu müddətdə gözəl Nisəxanımdan, nuri-didəm Sultanəlidən uzaq düşəcək, onların həsrətini çəkəcəkdim. Amma gördüyümüz işin məmləkətimiz üçün xeyirli olmasını hər şeydən çox arzulayırdım...

Əlbəttə, Abbasabad məhəlləsindəki evimə çatanda Nisəxanımı nigaran-nigaran həyətdəki çarhovuzun qırağında oturub yolumu gözləyən gördüm. Sultanəli də qarğı atını həyətdə o tərəf-bu tərəfə çapırdı. Atdan enib yüyəni nökərə verəndən sonra Nisəxanımla üzbəüz oturdum, onun baxışlarındakı nigarançılığı necə sovuşdurmağımı fikirləşə-fikirləşə üzünə baxdım.

– Nə xəbərlə gəldin, ağam, – Nisəxanım tab gətirə bilməyib, soruşdu. – Yenə səfərəmi çıxırsınız?

– Hə, – dedim, – amma bu səfər özgə səfərdi.

– Necə özgə səfər? – Nisəxanım təəccüblə qaşlarını çatdı.

– Şahımız uzaq ölkələrə – rusların, germanların, firənglərin, ispanların, ingilislərin yaşadıqları dövlətlərə səfarət göndərir. Buyurub, mən də yola düşüm.

Nisəxanım səfərimin cənglə bağlı olmadığından sevinsə də, uzaq ölkələrə getməyimdən sarı qayğısını bildirdi:

– Bu səfərin nə qədər çəkər, Allah qoysa?

– Ən azı bir il yarım, bəlkə də iki il... – dedim.

Nisəxanımın üz-gözünə kölgə endi, ürəyindən gələn sözləri dilinin ucundan qaytardı, köksünü ötürüb astadan:

– Bunca vaxtı necə yaşayacağıq, ağam? – soruşdu.

İki-üç aylığa məmləkətin vilayətlərinə cəng səfərinə çıxanda, Nisəxanımın nələr çəkdiyini bilirdim. Hər dəfə səfərdən qayıdanda mənsiz yaşadığı günlərin-ayların ona nələrin bahasına başa gəldiyini duyurdum.

– Mehrəli bəy sizi Təbrizə, atangilə aparar, mən səfərdən dönənəcən orda qalarsınız, – dedim. – İnşallah, yolumuz uğurlu olar, tez qayıdarıq...

Bu vaxt Sultanəli qarğı atında özünü yetirib aramıza girdi:

– Məni çeşmə başına nə vaxt aparacaqsan? – sordu. – Demişdin, ata mindirəcəksən... – dumduru gözlərini üzümə dikib durdu, cavab gözlədi.

Baxdım, axşama xeyli var, üzümü nökərə tutdum:

– Gədə, Qulaməli, atları hazırla, kiçik ağanı çeşmə başına aparacağıq. – Sonra Nisəxanıma dedim. – Tapşır, Sultanəlini geyindirsinlər, biz qayıdana yaxşı süfrə hazırlatdır...

# 11.

*(...Bütün işlər qaydaya salındı, ser Antoni kiçik qardaşı Roberti on beş ingilislə məmləkəti-Səfəviyyədə qoymağa razı oldu; Şah qalanların hamısına malik olduqları rütbələrə uyğun kifayət qədər təchizatı olan ev verdi. Elə həmin vaxt bura Hörmüzdən Lissabon sakini olan iki portəgiz rahib – səyyahı gəldi. Biri dominikan, o biri fransiskandı; birincisi özünü rahib Nikolao de Molo adlandırırdı (dominikanı Nikolao de Meto, fransiskanı Alfonso Sordero adlandırdıqlarını sonralar öyrəndim). Bu adamlar da Şahı xristian hökmdarların yanına öz nümayəndələrini göndərmək ideyasına görə, təqdir elədilər, Əlahəzrət rahibləri «padre» adlandırdı, hər birinə diqqət göstərib hədiyyələr bağışladı; onlar Şahdan öz zati-müqəddəslərinə, digəri Katolik Əlahəzrət İspan kralına tövsiyənamə verməyi təvəqqe elədilər. Şah dərhal razılaşdı, bu cür namələr yazıb, bütün qeyri-tövsiyənamələrdən ayrıca onlara verməyi buyurdu. Ser Antoni məmləkəti-Səfəviyyəyə yollananda Yunanıstandan (və Osmanlı imperiyasından) keçmişdi, türk dilini bildiyindən, özünü türk kimi qələmə vermək asanıydı, amma bu yolla da evə qayıtmaq, sadəcə, mümkün deyildi. Digər tərəfdən Hindistandan keçən yol uzun dəniz yolçuluğu tələb eləyirdi, nəticədə məhz elə bu bizim səfarətimizin yolunun Tatar və Moskovdan keçməyini qətiləşdirdi.*

*Bütün lazımi hazırlıqlar görüldü, Əlahəzrət özünün səfarətin keçəcəyi bütün torpaqlarında, ərazilərində sərbəst hərəkət eləmək üçün fərmanlarını, əmrlərini verdi; bundan sonra bizim yol xərclərimizi ödəmək göstərişiylə lazımi qədər pul verildi, həmin şey ingilislər üçün də edildi – beləliklə, hər şey Şahımızın hesabına ödəndi. Elçini katiblər qismində müşayiət eləyənlər lazımi dərəcədə təchiz edildilər...)*

...O bir həftənin içində hər gün sübh namazından sonra səhər yeməyimi yeyir, atımı minib, dövlətxanaya gedirdim. Əliqulu bəy, Bünyad bəy, Həsənəli bəylə Hüseynəli bəyin başçılığı altında gedəcəyimiz dövlətlərin hökmdarlarına namə yazırdıq, Hüseynəli bəy həmin namələri Xoca Səfərə aparırdı, Xoca Səfər oxuyub, fikirlərini bildirir, sonra Hatəm bəyə çatdırırdı. Hatəm bəy namələrlə tanış olur, Qibleyi-aləmə oxuyur, onun göstərişlərini nəzərə almaqla namələri təzədən yazmaq üçün bizə göndərirdi. Allaha şükür, mənim də Əliqulu bəyin də xəttimiz dövlətxanada bəh-bəhlə qarşılanırdı, uzun illər at belində olmağımız, səngərlərdə yatıb, qılınc çalmağımız xəttimizə xətər toxundurmamışdı. Bünyad bəylə Həsənəli bəy heyətin təchizat məsələlərinə qatıldığından, üzlərini gündə bir kərə görürdük.

Xoca Səfərin əliylə axırıncı düzəlişdə məmləkətimizdə yaşayan xristianların halını nəzərə almağa üstüörtülü eyham vardı. Görünür, Şahımız o sözlərin məğzinə varmamışdı. Bunu Hüseynəli bəyə anlatdım, naməni götürüb dərhal Hatəm bəyin hüzuruna getdi. Sən demə, heç Hatəm bəy də o eyhama diqqət yetirməyibmiş. Şahın hüzuruna Xoca Səfəri də çağırtdırıblar, Xoca Səfər uzun-uzadı, dolaşıq sözlər deyib, guya bununla xristian hökmdarların könlünü ələ almaq istədiyindən danışıb, axırda Qibleyi-aləmi inandıra bilib. Şahımız namənin o cür yazılmasını istəməsə də, Xoca Səfərin əməlində gizli niyyət görməyib. Qibleyi-aləmin hüzurundan qayıdan Hüseynəli bəyin bu baş verən hadisədən çox əndişə duyduğunu hiss eləmişdim:

– Bu səfərimiz təkcə cürbəcür məmləkətlər görməklə bitməyəcək, – dedi. – Başqa çətinliklərimiz də olacaq. Gərək bunu götür-qoy eləyək.

Səfərə çıxmağımız ərəfəsində İskəndər bəy məni öz hücrəsinə çağırdı. İçəri girəndə, Əliqulu bəyin, Bünyad bəyin, Yadigar bəy Məhəmmədin də orda olduğunu gördüm.

Salam-kəlamdan sonra İskəndər bəy üzünü bizə tutdu:

– Həsənəli bəyin getdiyiniz ölkələrin hökmdarları, dövlətxana adamlarıyla ünsiyyətinə imkan verməyin, – dedi. – Ola bilsin, səfarətin aşağı rütbəli xidmətçiləri arasında da Xoca Səfərin adamı olsun. Hesab eləyin, bu Hatəm bəyin buyruğudu. Hüseynəli bəy məsələdən xəbərdardı.

Səfərə çıxacağımız gün günorta yeməyindən sonra cəmi heyət Qibleyi-aləmin hüzurunda olmalıydı. Şahımız yaxınlarımıza, doğmalarımıza bizi gəmiyə oturanacan müşayiət eləməyə izin versə də, mən Nisəxanımla Sultanəlini həmin günün səhəri Təbrizə yola salmağı qərara almışdım. Səhər qardaşım Mehrəli bəy iki nökərlə qapıda hazır oldu. Neçə gündən bəri özümü bu ayrılığa hazırlasam da, son məqamda çox kövrəldim, az qala özümü saxlaya bilməyib, hönkürəcəkdim. Səfərə gedəcəyim məlum olan gündən Nisəxanımın bütün şirəsini çəkməyə, qoxusunu vücuduma hopdurmağa, Sultanəliyə sevgimi bol-bol verməyə çalışmışdım. Yenə elə bil ürəyimi onların yanında qoyub gedirdim.

Nisəxanımla, oğlumla vidalaşdım, Mirzə Qədimə çatdırmaq, mən burda olmadığım müddətdə korluq çəkməmək üçün tədarük elədiyim pulu Mehrəliyə verib sağollaşdım, hazırlatdığım sovqatları atlara yüklətdim, özüm də ta şəhərdən çıxıb Təbriz yoluna düzələnəcən onları ötürdüm. Ayrılanda Sultanəli bir də üstümə qaçdı, onu

bağrıma basıb doya-doya qoxuladım, sonra qaldırıb atın belinə qoydum. Yanımda nökər Qulaməli durub uzaqlaşan karvanın arxasınca baxırdım. Bir də onda ayıldım, yanaqlarım göz yaşlarından islanıb.

...Günorta yeməyindən sonra Qulaməli yükümü atın belinə aşırdı, dövlətxanaya doğru yollandıq. Yük deyəndə, dəyişək paltarımdı, neçə günüydü, Nisəxanımın nəzərləri altında diqqətlə səfərə hazırlanmışdı; Mirzə Qədimin kitabxanasından götürdüyüm kitablardı, bu barədə yeri gəldikcə söhbət açacağam; bir də səfər müddətində ünsiyyətdə olacağım adamlar üçün xırda-para hədiyyələr tədarük eləmişdim, niyyətim buydu, hər rast gəldiyim kəsə məmləkətimiz haqqında danışım, həm də hədiyyə bağışlayım.

Dövlətxanada elə bir iş gedirdi, elə bil, Şahımızın səfərinə hazırlıq görülürdü. Cəmi dövlətxana əhli və heyət Qibleyi-Aləmin hüzurunda əl əl üstündə durdu...

*(...Biz Şah Abbasla onun İsfahandakı bütün dövlətxana əhlinin yığışdığı iqamətgahında vidalaşdıq, İsanın miladının 1599-cu ili iyulun 9-da, cümə axşamı qaş qaralanda səfərimizə başladıq. Şah sarayından şahın əmri, onun vəsaiti hesabına səfərə çıxanlar saray əyanları, yüksək rütbəli adamlar idilər, müvafiq olaraq, səfər üçün təchiz edilmişdilər. Səfəvi elçisi Hüseynəli bəyidi, onunla birlikdə elçiliyin katibi qismində dörd ağa, on beş xidmətçi gedirdi. Sonra iki rahib, daha sonra ser Antoni beş dilmanc, on beş digər ingilislə gedirdi. Bundan əlavə, səfərə çıxanlardan ötrü lazımi qədər minik atlarını nəzərə almasaq, otuz iki dəvə bəxşişlər aparırdı, eyni zamanda adi yük heyvanları artıq xatırlatdığımız şəxslərin yükünü daşıyırdı. Gedənlərin qəlbindəki hisslər, bu*

*hisslərin ifadəsi cürbəcür idi: belə ki, bəziləri şad, başqaları kədərli görünürdülər. Şah bizimlə iltifatla vidalaşdı, qayıdanda bol-bol mükafat verəcəyini vəd elədi, amma dostlarımızın üzü bizə elə kədərli göründü, qohumlarımız elə ağlayırdılar, elə ümidsizlik, kədər ifadə eləyirdilər, bununla belə, istər-istəməz arvadlarımızla müxtəlif cür vidalaşmağa tələsmişdik, həmin axşam da paytaxt-dan çıxıb Kaşan şəhərinə yollandıq – birinci dayanacağımız orda olmalıydı.*

*İsfahandan Kaşana qədər yol bizə dörd günə başa gəldi; orda iki gün dincəldik, sonra Qum şəhərinə doğru hərəkət elədik, artıq növbəti günün səhəri Savə şəhərinə çatdıq. Savədən üç gün yol gedib və məmləkəti-Səfəviyyənin əski paytaxtı Qəzvinə çatdıq... Şah bizə burada İsfahandan gətirdiyimizə əlavə olaraq, xristian hökmdarlara aparacağımız bəxşişi üçün bəzi şeylər götürməyi əmr elədiyindən, səkkiz gün qaldıq, bu işlərlə can-dildən məşğul olduq...)*

...Ömrümün acılı-şirinli neçə ilini yaşadığım Qəzvində keçən səkkiz gün məndən ötrü asan keçmədi. Yolboyu atlarımızı Əliqulu bəylə yanaşı sürürdük, irəlidə bizi gözləyən uzaq, uzun, həm də naməlumluqla dolu səfərdən danışmaqla yanaşı, ötən günlərimizi – Təbrizdə keçirdiyimiz qayğısız çağları, cəng meydanındakı təhlükəli anları xatırlayırdıq. Dincəlmək, gecələmək üçün dayandığımız karvansaralarda sözləşib, Həsənəli bəyin hərəkətlərini gözdən qoymuruq, o on beş nökərin arasında kiminlə ünsiyyətdə olacağını izləyirdik. Hüseynəli bəylə Yadigar bəy Məhəmməd, Bünyad bəylə Əlfəqih Əmir də həmişə yanaşı olurdular. Hələ diqqətimizi çəkən bir hadisəylə üzləşməmişdik.

Qəzvinə çatanda çaparın xəbər yetirdiyi şəhər hakimi başının dəstəsiylə bizi qarşılamağa çıxdı. Heyətimizi hörmətli adamlara layiq mülkdə yerləşdirdilər, əcnəbi hökmdarlar üçün hazırlanmış bəxşişlərin yerləşdirilməsinə köməklik göstərdilər. Hüseynəli bəydən rüsxət alıb Qəzvindəki yurdumuza baş çəkdim, indi şəhər hakiminin mirzəsi yaşayan mülkün həyətində əyləşib atam Sultanəli bəyi, qara torpağa tapşırıb qəbri üstündə ağlamağın belə, mənə nəsib olmadığı anamı xatırladım, ilk nakam sevgimi – ayüzlü Qəmərbanunu yada saldım. Ömrümün otuz doqquz ili arxada qalmışdı, irəlidə uzun, həyəcan doğuran səfər dururdu. Qəfildən ağlıma bu səfərdən sağ-salamat dönə, bir də Təbrizi, Ərdəbili, Qəzvini, İsfahanı görə bilməyəcəyim gəldi, elə diksindim, uzun müddət qəlbimə çökən qorxu keçib getmədi...

*(...Qəzvini arxada qoyub, beş gün ərzində Gilana çatdıq, Səfəvi şahlığının eyni hissəsi olsa da, bu ərazidə fars dilindən fərqli dildə danışırlar. Bu əyalət eyni zamanda Qulzum, yaxud qədim zamanlarda Kaspi adlanan Badkubə dənizinin sahili boyu uzanır, biz də burada gəmiyə minməli olduğumuzdan, bütün lazımi hazırlıqlar görülüb qurtaranacan on gün ləngidik. Bizi İsfahandan çoxlu dostlarımız, qohumlarımız müşayiət eləyirdilər, kədər içində onlarla vidalaşdıq, budur, nəhayət, yükləri gəmiyə yüklədik, göyərtəyə qədəm basıb, uzaq səfərə yollandıq...)*

Sahildə Qulaməli boynunu büküb, bizi yola salanların arasında durmuşdu, aradabir gözlərinin yaşını silirdi. Malımı-mülkümü ona etibar eləmişdim, mən səfərdən dönənə, Nisəxanımla Sultanəli Təbrizdən qayıdanacan

evimizdə Qulaməliylə qulluqçu kimi çalışan arvadı Pəri qalacaqdı. Dayənin birillik haqqını qabaqcadan verib halallaşmışdım, əgər səfərimiz bir ildən artıq çəkəcəkdisə, qalan haqq-hesabını qayıdanbaş verəcəkdim.

Vidalaşma məqamı gəlib yetişəndə elə vay-şivən başlamışdı, gəl görəsən. Çox ağıllı iş görüb Nisəxanımla Sultanəlini Təbrizə yola salmışdım, əgər burda olsaydılar, onların ayrılığına tab gətirə bilməzdim: Sultanəlinin gözlərindən bircə gilə yaş çıxanda, elə bil, bağırımın başına köz basırdılar, Nisəxanımın bəbəklərində kədər əlaməti görəndə, varımdan yox olurdum. Son kərə dönüb dəryanın qırağında duran adamlara baxdım, ayrılıq hövlündən qalxıb xirtdəyimə dirənmiş qəhəri udmaq üçün udqundum. Bayaq Qulaməli heyətimizin xidmətçiləriylə köməkləşib, mənim yükümü gəmiyə qaldıranda dostları-doğmalarıyla halal-hümbət eləyən Hüseynəli bəyə, Əliqulu bəyə, Bünyad bəyə, Yadigar bəy Məhəmmədə, Əlfəqih Əmirə göz qoyurdum. Əliqulu bəy on səkkiz yaşlı oğlunu bağrına basıb, gözlərindən öpürdü, o cür həsrətlə öpürdü, elə bil, bir daha görməyəcəkdi. Həsənəli bəyi ötürməyə xidmətçisindən başqa kimsə gəlməmişdi. Düzü, onun İsfahanda kimisə olduğunu bilmirdim.

Əcaib libaslı, balacaboy, sarışın ser Antoni iki rahib, beş dilmanc, on beş xidmətçisiylə hamımızdan qabaq gəmiyə qalxıb, əcnəbi hökmdarlara apardığımız bəxşişlərlə dolu yeşiklərin yerbəyer olunmasına göz qoyurdu. Üz-gözündəki sevincəklik nədənsə xoşuma gəlmədi – bunun səbəbini uzun-uzadı fikirləşməli oldum. Mənim arxamca gəmiyə qalxan Həsənəli bəy yaxınlaşıb dilmanclardan birinə nəsə dedi, sonra ikisi də ser Antoniylə bir tərəfə çəkilib nə haqdasa söhbət elədilər. Həsənəli bəy boylanıb məni görəndə, diksinən kimi oldu, yoxsa gözüməmi elə dəydi,

amma tələm-tələsik ingilisdən ayrılıb özünü gəmini seyr eləyən kimi göstərdi.

Qət elədim, gəmidə elə yer seçim, həmişə Həsənəli bəyin hərəkətlərini izləməyim mümkün olsun. Əlbəttə, bu barədə Hüseynəli bəy, bir də heyətimizin təhlükəsizliyinə cavabdeh olan Yadigar bəy Məhəmmədlə məsləhətləşməliydim. Gəmi sahildən aralanıb, dəryanın dərinliklərinə üz tutanda qəlbimi elə qatı kədər bürüdü, az qaldım, hönkür-hönkür ağlayım...

## 12.

Gəminin kiçicik hücrələrində Hüseynəli bəyin buyruğuyla bu cür yerləşdik: özü xidmətçisiylə bir hücrəni tutdu, ingilis də kamerdiner dediyi nökəri, bir də dilmancıyla ayrıca hücrə aldı, mən Əliqulu bəy, Bünyad bəy bir, Həsənəli bəy, Yadigar bəy Məhəmməd və Əlfəqih Əmirsə başqa hücrədə yer tapdıq, sonrakı hücrələrdə portəgiz rahiblərlə dilmanclar yerləşmişdilər, xidmətçilərsə, elə göyərtədəcə yatıb-duracaqdılar.

İngilislər dərya səfərinə alışmış kimi görünürdülər, hər halda, günbatandan məmləkətimizə gələndə yolun bir qismini dəryada keçirmişdilər. Amma bizim çoxumuz gəmiyə minməmişdik, təkcə Hüseynəli bəyin bu yöndə az-çox təcrübəsi varıdı: yolda gələndə danışmışdı, bir kərə Qibleyi-aləmin buyruğuna əməl eləyən vaxt Hörmüzdə portəgizlərlə görüşməli olmuşdu, onda portəgizlər qonağı dəryada gəzdirmək fikrinə düşmüşdülər. Hüseynəli bəy dərya gəzintisinin çox kefverici, həm də qorxulu olduğundan da danışmışdı: nə qədər hava sakitdi, dünyanın ləzzətini görürsən, elə ki tufan qalxdı, dəryanın üzünü görməyəsən.

Gəmiağası da, gəmiçilər də ingilis millətindən ibarətiydi, bizdən qabaq tacirlərimizi Hacıtərxana, Qazana, Moskova aparmışdılar. Ucaboy, enlikürək, sarısaqqal ingilis gəmiağasını gəmiyə minməmişdən qabaq dəryanın qırağında görmüşdüm, görkəmindən cəsur adama oxşayırdı, amma fikrimdən keçdi, dərya boyda əjdahanın müqabilində onun gəmisi saman çöpü kimi bir şeydi, Allahın qəzəbi tutsa, bizi heç nə qurtara bilməz. Belə çıxırdı,

taleyimiz yalnız Allahın mərhəmətindən, dənizdə səmt küləyinin olmasından, bir də alın yazımızdan asılıdı.

Bayaqdan bütün bunlar barədə söz-söhbət gedəndə gözlərimin qabağına Nisəxanımın gözəl üzü, Sultanəlinin məsum baxışları gəlirdi, ürəyimdə Allaha dua eləyirdim, təki onların, eləcə də hamımızın yolumuzu gözləyən əhli-əyalımızın, doğmalarımızın xətrinə bizi sağ-salamat aparıb, sağ-salamat gətirsin. Qibleyi-aləm məmləkətimizin əmin-amanlığı xətrinə səfərimizdən çox şey gözləyirdi, Allah gərək bu etimadı doğrultmaq üçün bizə fürsət verəydi.

Beləliklə, Əlfəqih Əmir səfərimizin uğurlu olması üçün dua oxudu, Hüseynəli bəy yola düşməyə izin verdi, gəmiağası əmr elədi, axır ki dəryaya çıxdıq... *(...gecə-gündüz ərzində kiçik bir adaya çatdıq, balığın cürbəcür növləri burda həddən artıq çox olduğundan, adada yalnız balıqçılar yaşayırdılar. Çoxu yaxınlıqda sayı-hesabı olmayan dərya itlərindən tutub, onların dərilərini soyurdular, dəri qurudulandan sonra hər yerdə zeytun yağı saxlamaq üçün istifadə olunan qab düzəldirdilər, bax, buna görə dərya itinin dərisi bu qədər qiymətliydi. Bu adada bir gün qaldıq, gecəni yaxşı hava olacağı ümidiylə keçirdik, səhəri gün dəryada sakitlik yaranan kimi, yola çıxdıq. Amma lap tezliklə gəmiçilərin başının havadan pis çıxdığı məlum oldu, ona görə ki, tufan qalxdı, heç üç-dörd ağac irəliləməyə macal tapmadıq, külək yelkənlərimizi cırıq-cırıq elədi, dəfələrlə artıq batdığımızı fikirləşdik. Amma doğrudan da, biz dərya səfərinə o qədər adət eləməmişik, çoxumuz təhlükə duymurduq, görünür, ölümə hazırlaşa-hazırlaşa göz yaşı tökən portəgiz rahiblərinə lağ eləyə-eləyə gülürdük. Fırtına bütün gecəni davam elədi, səhərsə gördük, təzədən bir neçə gün qabaq gəmiyə mindiyimiz Gilan şəhərinə, elə həmin limana gəlib çıxmışıq...)*

Gəmi bizi o qədər atıb-tutmuşdu, lap haldan düşmüşdük. Əlfəqih Əmir bütün gecəni Allaha dua eləmişdi, hamımız namazımızı qılıb, kəlmeyi-şəhadətimizi söyləmişdik: qorxmasaq da, hər an fəlakətin baş verəcəyinə şəkk-şübhəmiz yoxudu. Mənim qorxum canımdan çox səfər boyunca oxumaqdan ötrü götürdüyüm kitablardanıydı, o kitabları gəminin qalan yükündən qiymətli sayırdım. Gecə bir neçə kərə Həsənəli bəyin saralmış, duyduğu dəhşətin şiddətindən dəyişmiş üzü gözümə dəydi, gəminin məhəccərindən bərk-bərk yapışıb gözlərini yummuşdu, elə bil, indicə dəryaya atılacaqdı...

*(...Ağciyər olanlar gəmidən düşüb İsfahana qayıtmaq istəyirdilər, çünki onlara elə gəlirdi, Göylər bizim bu uzun səfərə çıxmağımızı istəmir. Amma düzünü desək, hamımız Şah Abbasın qəzəbindən çox qorxurduq, ona görə də hava sakitləşən kimi, təzədən dəryaya çıxdıq, iki gün ərzində artıq keçdiyimiz yolu üzüb keçdik, sonrakı günsə irəli gedib başdan-binadan tikililərin olmadığı, yalnız cürbəcür tayfaların çadırlarda yaşadığı limana çatdıq. Bu adamlar Mərakeşdəki köçəri mavrların tərzində öz sürülərinin, dəvələrinin arasında yaşayırdılar; onların hamısı tatar millətindəndilər, öz ölkələrinə Böyük Teymurun Tatar Torpağı adı vermişdilər; bununla belə, əslində, Səfəvi şahının rəiyyətiydilər. Bu adamların həyat tərzi tamamilə vəhşiyanadı, az danışırlar, bu da ağıl məsələsinə bağlıdı, yalnız balıqçı şalvarları, ya da çox qısa tumanlar geyinib, demək olar, lüt-üryan gəzirlər. Bunlar çox kasıb, sadə adamlardı. Adətə görə, ölkələrinə gələn hər kəsi salamlayırlar. Dəryada səmt küləyinin olmaması ucbatından burda ləngidiyimiz iki həftə ərzində onlar bizimlə yaxşı rəftar elədilər, öz sürülərindən bol-bol pay verdilər. Başqa*

*cür Manqışlaq adlanan bu ölkədə (özü də Xəzər dəryasının günçıxan tərəfində yerləşir), adamlar yerli müsəlman Səcdəgahına çox pərəstiş eləyirlər, biz də, əcnəbilər də çoxlu bəxşiş götürüb, Səcdəgaha nəzir verdik ki, bizə səmt küləyi bəxş eləsin. Burda bir həmvətənimizə rast gəldik, onu özümüzlə götürməyimiz üçün yalvardı, nəhayət, səmt küləyi başlayanda təzədən dəryaya çıxdıq. Bununla belə, sonrakı iki ay ərzində elə hey küləkli hava üzündən ləngiyirdik; beləcə uzun müddət dəryanın qırağıyla üzdük, amma səmt küləyi olsaydı, Xəzər dəryasındakı səyahətimizi on iki günə başa vura bilərdik...)*

O iki ay ərzində Nisəxanımın, Sultanəlinin, məmləkətin ayrılığına çətin alışırdım. Düzdü, Bayat dəstəsində, atam Sultanəli bəyin yanında olduğum vaxtlarda, sonra dəstəyə başçılıq elədiyim illərdə, daha sonra minbaşı kimi, Qibleyi-aləmin buyruqlarını yerinə yetirdiyim çağlarda çox səfərlərim olmuşdu, əlliyədək döyüşdən çıxmışdım, o səfərlərdə, o döyüşlərdə olanda ağlımdan ölümə tuş gələ biləcəyim barədə fikir keçmişdi, amma onda başa düşürdüm, at belindəyəm, əlimdə qılınc var, bu yolun axırı ölümlə qurtara bilər. İndisə fırtına ucbatından dəryada qalmaq, canını döyüşsüz-filansız təslim eləmək mənə ağır gəlirdi.

Günlərimi Əliqulu bəylə söhbətdə keçirirdim. Gəminin burnunda yer seçib, qüruba enən günəşin dəryadakı əksinə baxa-baxa Təbrizdəki həyatımızı, səfərlərdəki macəralarımızı xatırlamaq xoşumuza gəlirdi. Hərdən Hüseynəli bəy də bizə qoşulurdu, onda ortaq xatırlanası əhvalatlar daha çox olurdu. Bünyad bəyi adəti üzrə Yadigar bəy Məhəmmədin, ya da Əlfəqih Əmirinin yanında

görürdüm, söhbətlərinin başlıca mövzusu uca dinimizin qayda-qanunlarıydı. Həsənəli bəy Manqışlaqdan gəmiyə götürdüyümüz həmvətənimizlə dil tapmışdı, gün uzunu bir tərəfə çəkilib nə barədəsə xısın-xısın söhbətləşirdilər. O həmvətənimiz özünü duz alveriylə məşğul olan tacir kimi təqdim eləmişdi, dediyinə görə, adı Qaragünə oğlu Bayandurdu, mindiyi gəmi fırtınaya düşmüş, Allahın lütfü sayəsində sağ qalmışdı, Hacı-Tərxana, Qazana, ya da Moskov çarlığına çatıb Gilana gedən gəmilərdən birini gözləyəcəkdi.

Əlbəttə, bütün bunları söyləyəndə, hamı kimi, mən də inandım, inanmamağa əsasım da yoxudu: dilimizdə qüsursuz danışırdı, indi məskun olduğu Qəzvinin hər yerindən xəbər verirdi, üstəlik, Hüseynəli bəyi tanımışdı, onun dövlətxanada çalışdığını bilirdi. Amma Həsənəli bəylə belə asanca dil tapmaları mənə bir qədər qəribə gəldi. Sonra bu şübhəmi tamam beynimdən çıxardım: uzun yolçuluqda hər kəs başını qatmaq, nəyləsə yolu qısaltmaq istəyir...

Ser Antoni hərdənbir Hüseynəli bəyin yanına təşrif gətirirdi. Onun cılız vücudunu, əcaib qiyafəsini, kosa saqqalını görəndə əhvalım lap qarışırdı. Belə vaxtlarda Əliqulu bəylə aralanmağı, dəryanın seyrinə dalmağı, ya da xatirələrimizə baş vurmağı daha üstün tuturduq. Ser Antoni Günbatan məmləkətlərinin cah-calalından, kralların əzəmətindən elə ağızdolusu danışırdı, istər-istəməz öz məmləkətimizi, Şahımızı təhqir olunmuş sayırdım. Bu səbəbdən, onun naqqallığına tab gətirə bilmirdim...

*(...Bu iki ayın axırında Badkubə dəryasının körfəzi olan yerə gəlib çıxdıq, burda su dəryadakından təmiz, az duzludu...*

*dəryaya tökülən çaylara dəryadan qasırğanın qovub-gətirdiyi su qarışanda, su öd kimi acı olur, mən özüm buna inandım. Yerli camaat bu çayı Volqa, başqa adla İdel adlandırır. Çayın mənsəbilə xeyli müddət quzeyə üzdük, moskovluların Asiyada ələ keçirdiyi əraziyə daxil olduq, gəldiyimiz ilk əhali yaşayan yer də Astraxan adlanan xristian şəhəridi. Bizimkilərdən biri ingilis avarçılarla kiçik qayığa oturub, şəhərin hakiminin general-qubernatorunun görüşünə getdilər, o, gəmimizin lövbər atdığı yerdən çox uzaqda yerləşirdi, şəhərin yaxınlığı həddən artıq dayaz olduğuna görə, saya oturmadan ora gedə bilməzdik. Biz orda lövbər salıb durduğumuz vaxt küləyin dəyişməsi ona gətirib çıxardı ki, gəmimiz böyük risklə üzləşdi, daha doğrusu, qasırğa hücum çəkəndə gəmimiz böyük olsa da, az qaldı çevrilsin, biz də artıq özümüzü ölümə məhkum sayırdıq. Dərhal min pudlarla buğdanı, unu, sonra təchiz olunduğumuz xeyli ərzağı, çoxlu paltar dolu sandıqları, axırda bir neçə qiymətli bəxşiş dolu yeşikləri dəryaya atdıq; nəhayət, bu tədbirlər sayəsində gəmi xilas olundu, fırtına isə sakitləşdi.*

*Bu təhlükə ötüb-keçdi; şəhərə gedənlər qayıtdılar, general-qubernator da onlarla bizə qaler adlanan çoxavarlı gəmiyə yüklənmiş ərzaq göndərdi. Ərzaqları gəmimizə yüklədik, sonra bizi gəmilərə mindirdilər. Şəhərə çatanda gəmilərdən düşdük, bizə təntənəli qəbul düzəldildi, həmin qəbulda çoxlu camaat iştirak eləyirdi. Burda Şahımızın məxsusi Moskova göndərilmiş 300 nəfərlik heyətilə başqa bir elçisinə rast gəldik. Astraxanda (ruslar belə deyirlər) on altı gün qaldıq, bizi çox yaxşı qarşıladılar, payız olduğundan, ölkədə həddən artıq dadlı yemiş, alma bolluğu varıdı. Buranın təkcə torpağı yox, adamları da xoşagələndi: belə ki, Moskov çarlığı Böyük Knyazının bura hakim təyin elədiyi general-qubernator tapşırdı, car çəksinlər, bizim almaq istədiyimizin*

*əvəzində kimsə pul tələb eləməyə cəsarət göstərməsin, tabe olmamağa görə 200 şallaq vurulsun. Astraxan – daha doğrusu, Astarxan – şəhərinin 5.000 evdən (yaxud 22.500 nəfərdən) ibarət əhalisi var; təkcə qalalar istisna olmaqla, bütün evlər taxtadandı; general-qubernatorun yaşadığı mülk yaxşı müdafiə olunur. Bu hündür binadı, çox qalın daş divarları var; binanı böyük qoşun qoruyur, xüsusi icazə olmadan ora girməyə kimsə cəsarət eləyə bilməz. Orda saysız-hesabsız kilsələr var, amma o qədər də böyük deyillər; həmin kilsələrdə müqəddəslərin çoxlu təsvirləri var, bu təsvirlər kiçik ölçüdə olsalar da, yaxşı çəkilib, şirəylə örtülüb, hər bir təsvirin qarşısında bütün günü şam yanır; sonra da yerlilər yadellilərin kilsələrə girməyinə icazə vermirlər.*

*...Öyrəndik, Astraxan hökmdarın əmriylə daim tatarların, onların saysız-hesabsız tayfalarının, yəhudilərin məskunlaşdığı şəhərlərdən biridi. Amma əslində, bütün tatarlar indi bizim mavrlarda (Mərakeşdəki qonşularımızda) gördüyümüz tərzdə kənd yerlərində yaşayır, təkcə moskovlu xristianlar şəhərdə yerləşirlər. Şəhərə tez-tez tacirlər gəlir, onların əsas alveri duzdu... Bu şəhəri keçmiş vaxtlarda Böyük Teymur tamam dağıdıb, elə sonralar da şəhər məmləkətimizlə osmanlılar arasındakı savaşlardan əziyyət çəkib...)*

# İKİNCİ FƏSİL

*Moskov knyazlığı*
*1600-cü ilin qışı*

**Bu fəsildə (yolda gəmiyə götürdüyümüz həmvətənimizlə bağlı əhvalat, Hacıtərxanda şirvanlı ibrahim Seyidəhməd oğluna rast gəlməyim, Hacıtərxanın tarixiylə maraqlanmağım, Qazanı və Nijni-Novqorodu gəzməyimiz) Moskov çarlığını gəzə-gəzə bu ölkə, orda gördüyümüz diqqətdaşıyan hər şey təsvir edilir.**

# 1.

İki aydan artıq dəryada çalxantıdan, sarsıntıdan sonra general-qubernatorun mülkündə, az qala, üç həftə rahat yaşamaq bizdən ötrü əsl xoşbəxtliyiydi. General-qubernatorun əmriylə bizi – Hüseynəli bəyi, dörd katibi, Əlfəqih Əmiri, tacir Qaragünə oğlu Bayanduru, ser Antoniylə dilmanclarını mülkdə yerləşdirmişdilər, portəgiz rahiblərsə kilsəsinin hücrəsində yaşamağa üstünlük vermişdilər, Yadigar bəy Məhəmməd xidmətçilərlə gəmidə qalmışdı ki, yüklərimizə xətər dəyməsin.

Mülkün birinci mərtəbəsi general-qubernatorun xidmət otaqlarından ibarətiydi, ikinci mərtəbədə özü, ailəsi, qulluqçuları qərarlaşmışdılar. Bizisə mülkün ön tərəfində məxsusi qonaqlar üçün tikilmiş uzun birmərtəbəli binada yerləşdirdilər. General-qubernator müsəlman olduğumuzu nəzərə alıb otaqlarımızı Şərq qaydasınca döşətmişdi: döşəməyə bahalı Təbriz xalıları sərilmiş, dəstəmaz alıb namaz qılmağımız üçün hazırlıq görülmüşdü, üstəlik, bizə xidmət eləyənlərin hamısı az-çox şəhərdə yaşamağa alışmış müsəlman tatarlarıydı. Hətta yemək-içməyimizə baxanların başçısı Şirvan türklərindəniydi, dediyinə görə, babaları tacir olub, sonra Şirvana hücumların ardı-arasının kəsilmədiyini görəndə, Hacıtərxan adlandırılan bu şəhərdə yerləşibləр. Hamımızın türkcə danışdığımızı görüb, yazıq özünü elə itirmişdi, adı da yadından çıxmışdı. Axırda onu İbrahim Seyidəhməd oğlu çağırdıqlarını öyrəndik. General-qubernatorun qulluğunda olmasa da, müsəlman məmləkətlərindən qonaqları olanda, həm dilmanclıq eləmək, həm də müsəlman qaydalarına uyğun xidməti yo-

luna qoymaq üçün çağırır, yaxşı ənam verirdilər.

Qaldığımız binanın o biri tərəfində Moskov çarlığına göndərilən səfarət heyəti yerləşmişdi. Şahımızın Böyük Knyazın yanına göndərdiyi xüsusi elçi Pirqulu bəy Əfşarın niyyətinin nədən ibarət olduğunu bilmirdik, heç həmin heyətin İsfahandan nə vaxt çıxdığından da xəbər tutmamışdıq, görünür, hər şey gizli yoluna qoyulmuşdu. Bu səfarət elçiliyin böyük sayda xidmətçilərini mülkün yaxınlığındakı taxta evlərdə yerləşdirmişdilər.

Burda otaqların sayı çox olduğundan, hamımıza ayrı-ayrı otaq, ayrıca da xidmətçi düşmüşdü. Dərhal rus hamamında çimib, uzun yolun arı-acısından təmizlənməyi təklif elədilər, amma Hüseynəli bəy Əlfəqih Əmirlə məsləhətləşəndən sonra bu təklifi bəyənmədi. Belə olanda İbrahim Seyidəhməd oğlu şəhərdəki abırlı müsəlman hamamlarından birini bizim üçün hazırlatmağa söz verdi, doğrudan da, heç bir saat keçməmişdi, verdiyi sözə əməl elədi. Biz çimib qayıdanda dövlətxanamızın divanxanası qədər böyük otaqda süfrə açıldığını gördük. Bütün bu xidmətlərin əvəzində Hüseynəli bəy İbrahim Seyidəhməd oğluna təşəkkür elədi, üstəlik, qiymətli bəxşiş də verdi.

Süfrədən qalxanda yadıma düşdü, hamama gedənlər arasında Həsənəli bəy, bir də Qaragünə oğlu Bayandur gözümə dəymədi. Əliqulu bəylə göz-gözə gəldik, deyəsən, nə barədə fikirləşdiyimi duyubmuş, nəzərlərimdən niyyətimi anlayıb, təkcə ikimiz görəcəyimiz tərzdə işarə vurdu ki, arxamca gəl. Otağına yönəldiyini görüb fürsət gözlədim, ara sakitləşən kimi, onun yanına getdim. Əliqulu bəy əlini belinə qoyub fikirli-fikirli o baş-bu başa gəzinirdi,

halətindən elə görünürdü, böyük bir müşkülü çözmək istəyir. Məni görəndə döşəkcənin üstündə yer göstərdi, sağ əlinin iki barmağıyla saqqalının tükünü oynada-oynada üzümə baxdı:

– Oruc bəy, sən bilən, Həsənəli bəy bizimlə niyə hamama getmədi? – Susub cavabımı gözlədi, ancaq bilirdim, hələ sözünü axıracan deməyib. – Heç yeməyə də gəlmədi...

– Təkcə Həsənəli bəy yox, – dedim, – həm də o tacir Qaragünə oğlu Bayandur da...

– Sənin fikrincə, bu iki nəfərin gözə görünməməsinin səbəbi eyni ola bilərmi? – Əliqulu bəy gəlib döşəkcənin üstündə mənimlə üzbəüz əyləşdi.

– Bundan ötrü gərək Qaragünə oğlu Bayandurun doğrudanmı tacir olub-olmadığını ayırd eləyəsən, – dedim.

– Mən də bayaqdan elə bu barədə fikirləşirəm, – Əliqulu bəy başını tərpətdi, bir qədər susub dilləndi. – Bəlkə əmimlə məsləhətləşək? – məndən cavab gözləyə-gözləyə susdu.

– Məsləhətli don gen olar, – dedim, – yəqin, Hüseynəli bəy fikirləşib, bir tədbir tökər.

Durub Hüseynəli bəyin otağına yönəldik. Nədənsə mənə elə gəldi, arxamızda Həsənəli bəy qalan otağın qapısı açılıb-örtüldü, kimsə bizi görüb tələsik özünü gizlətdi. Amma Əliqulu bəyin əli dirsəyimdən vaxtında yapışmışdı, başımı geri çevirmədim.

Hüseynəli bəy Əlfəqih Əmirlə uca dinimizin möcüzələri barədə söhbət eləyirdi, içəri girdiyimizi görüb əlinin işarəsiylə yer göstərdi. Bardaş qurub döşəkcələrin üstündə oturduq, Əlfəqih Əmirin səfər müddətində müsəlmana günah sayıla biləcək hərəkətlər barədə dediklərinə qulaq asdıq. O, sözünü qurtarandan sonra Hüseynəli bəy

üzümüzə baxdı, nəzərləriylə soruşdu, nə sözümüz var, amma qırımımızdan deyəcəyimizin yalnız özünə aid olduğunu başa düşdü, boğazını arıtlayıb əlini saqqalına çəkdi:

– Allahın rizasıyla boynumuzun borcuna əməl eləyərik, narahatlığın olmasın.

Əlfəqih Əmir söhbətin bitdiyini anlayıb getməyə izin istədi, bizə Allahdan salamatlıq diləyib çıxdı. Bundan sonra Hüseynəli bəy nəzərlərini üzümüzə dikdi:

– Nə baş verib, niyə pərişansınız? – görünür, görkəminizdən doğrudan da, pərişanlıq yağırdı.

Əliqulu bəy bayaqkı söhbətimizin məzmununu əmisinə qısaca danışdı, sözünü də sualla bitirdi:

– O şəxsin doğrudan Qaragünə oğlu Bayandur, həm də tacir olduğunu necə aydınlaşdırmağı buyurursunuz, ağam? – susub, ikinci sualını da verdi. – Həsənəli bəylə belə ünsiyyət qurmalarının altında nə gizlənə bilər?

Hüseynəli bəy nəzərlərini xalının naxışlarına dikib, xeyli müddət dillənmədi, deyəsən, fikrində nəyisə götür-qoy eləyirdi, sonra gözlərini yerdən ayırıb, əlini saqqalına çəkdi:

– Əgər doğrudan da, tacirdisə, duz alveri eləyirsə, şübhəsiz, bu şəhərdə onu tanıyan adamlar olmalıdı, onlardan soruşub öyrənmək olar, fikrinin bizə çatıb-çatmadığını yoxlamaq üçün susdu. – Amma elə hərəkət eləyin, duyuq düşüb, niyyətini gizlətməsin.

Yadıma Qibleyi-aləmin hüzuruna gedən gün İskəndər bəy Münşinin Həsənəli bəylə bağlı dedikləri düşdü, sonra gözlərimin qabağına Xoca Səfərin biclik tökülən görkəmi gəldi, Hüseynəli bəyin nəzərlərinin içinə baxıb:

– Bütün bunlar Xoca Səfərin qurduğu torun həlqələri ola bilməzmi, ağam? – soruşdum.

Hüseynəli bəy fikrimi başa düşürmüş kimi, gülümsündü, nəzərlərini harasa yana zilləyib dilləndi:

– Tələsməyin, ağa durur, Ağacan durur, – sonra yerindən dikəldi. – Hər şeyin öz vaxtı var.

Söhbətin bitdiyini görüb qalxdıq. Otağıma gedib bir qədər dincəlmək üçün uzandım. Xəyalımda yenə Nisəxanımın gözəl üzü, Sultanəlinin məsum surəti canlandı. Onlardan ayrılalı üç ay olurdu, bu müddət ərzində həmişə gözlərimin qabağındaydılar. Yəqin, indi Mirzə Qədimin yanında günlərini keçirir, mənim yolumu gözləyirlər. Yolumsa hələ təzəcə başlayırdı, irəlidə neçə-neçə məmləkətlər varıdı, o məmləkətlərin hökmdarlarıyla görüşüb son mənzilə – İspan krallığına çatacaqdıq.

Deyəsən, fikirlərimi çözələyə-çözələyə mürgüləmişdim, xidmətçi qapını taqqıldadanda ayılıb yerimdən dikəldim. İbrahim Seyidəhməd oğlu içəri girib Moskov çarının yanına gedən elçinin adamı gəldiyini xəbər verdi. Elçinin baş mirzəsi Pirqulu bəy Əfşarın Hüseynəli Bayatla görüşmək istədiyini bildirdi. Birlikdə Hüseynəli bəyin otağına getdik. Hüseynəli bəy baş mirzəni hörmətlə qarşılayıb, Şahımızın elçisiylə görüşməyin özü üçün şərəf olduğunu söylədi. Görüşün şam yeməyi vaxtı Pirqulu bəyin otağında baş tutacağı barədə razılığa gəldik. Baş mirzə gedəndən sonra Hüseynəli bəy ayaq saxladığımı görüb, sorğulu-sorğulu üzümə baxdı:

– Ağam, – dedim, – Şahımızın Moskov çarının yanına kimi göndərməsi öz hökmüdü, amma...

– Səni onun ayağına getməyim narahat eləyir, Oruc bəy? – Hüseynəli bəy sözümü kəsdi. – Hər halda, görüş təklifi Pirqulu bəy tərəfindən gəlib...

Hüseynəli bəyin baxışlarında duyduğum əndişənin təsdiqini gördüm, amma nə səbəbdənsə, fikrindəkiləri açıq demək istəmirdi, bildiklərini mənim də dilimə gətirməyimə razı deyildi – görünür, bundan ötrü əsası vardı.

...O gecəni rahat yata bilmədim. Hüseynəli bəyin Pirqulu bəy Əfşarla görüşündə nə danışılmışdı, nə danışılmamışdı, bundan xəbər tuta bilmədiyimə görə, gözlərimə yuxu getmirdi. Əlbəttə, Hüseynəli bəy məsləhət bilsəydi, o görüşə məni də dəvət eləyərdi, bunu məsləhət bilməyibsə, deməli, səbəbləri də yox deyil. Axır vaxtlar Qibleyi-aləm səltənətin dayağı olan tayfalara bir qədər soyuq münasibət bəsləyirdi, bunun müqabilində farslara, ermənilərə hüsnütəvəccöh göstərirdi. Bilirdim, onların fitvasıyla Şahımızda səltənətin ağırlığını çiyinlərində daşıyan kəslərə qarşı şübhə oyadırdılar. Qibleyi-aləm də bir tayfanın əliylə o biri tayfanın sütunlarını aradan götürürdü. Elə Mürşüdqulu xanın qulamlıqdan vəzirliyə yüksələn oğlu Allahverdi xana bütün qoşunların başçısı Fərhad xan Qaramanlını öldürtməsi cəmi-cümlətanı bir neçə ay əvvəl baş vermişdi.

Sözün düzü, ağlıma gələn bu fikirlərdən qorxuya düşdüm. Şübhəsiz, Hüseynəli bəyə bayaq dediyim o sözlərlə ehtiyatsızlıq eləmişdim, amma qorxum bundan deyildi, eyni cür ağzıboşluğa başqalarının yanında da yol verə bilərdim. Kimin hansı məzhəbə qulluq elədiyini hardan biləydim? Tutalım, Əliqulu bəylə uşaqlıq, gənclik dostuyduq, aramızda söylənən sözlər qırağa çıxmazdı, bəs o birilər? Bünyad bəylə çoxdan yaxın ünsiyyətimiz olsa da, könlündəkilərdən xəbər tuta bilməzdim, Əlfəqih Əmirin səfarətimizdə uca dinimizin qanun-qaydalarını qorumaqdan başqa hansı vəzifəni yerinə yetirdiyini dəqiq

bilmirdim, Yadigar bəy Məhəmməd qeydsiz-şərtsiz həm də Şahımızın bizə bəlli olmayan buyruqlarını yerinə yetirirdi, Həsənəli bəy barədə danışmaq artığıydı – Xoca Səfərin çirkin niyyətinə qulluq eləyirdi... Elə dilmancların, xidmətçilərin arasında gözdən-qulaqdan iti kəslərin olmadığına zəmanət verə bilərdimi?

Bu müddət ərzində ser Antoni nədənsə diqqətimdən yayınmışdı. Rusların hamamında çimib rahatlanandan sonra ingilislə onun heyətinə ayrıca süfrə açıldığından, mülkdə yerləşəndən bəri rastlaşmamışdıq. Gilanda gəmiyə yenicə minən vaxt Həsənəli bəylə nə barədəsə söhbətləşdikləri yaddaşımdan çıxmırdı, amma bütün səfərimiz ərzində bir daha onların həmsöhbət olduqlarını görmədim. İndi ağlıma gəldi, bu təsadüf olmaya bilər, əgər bir dəfə danışmağa söz tapıblarsa, deməli, yenə üz-üzə gəlmələri ehtimalı qalır. Üç şəxsin – ser Antoni, Həsənəli bəy, bir də Qaragünə oğlu Bayandurun arasında hansı gizli bağlılığın ola biləcəyini fikirləşə-fikirləşə nə vaxt yuxuladığımdan xəbərim olmadı...

## 2.

Səhəri rus general-qubernatoru bizim şərəfimizə böyük ziyafət verdi. Ziyafətə Hüseynəli bəy, ser Antoni, mirzələr, iki dilmanc getmişdi, qalanlara elə yerləşdiyimiz evdəcə süfrə açmışdılar. Pirqulu bəy Əfşarın səfarətindən də on nəfərədək qonaq olardı. Şahımızın rus çarının yanına göndərdiyi elçini də birinci kərə elə o ziyafətdə gördüm. Arıq, qarabəniz, ortaboylu kişiydi, sinni əlliylə altmış arasında olsa da, saqqalına dən düşməmişdi, dərinlikdən işaran xırda gözlərində sərvaxt, soyuq parıltı varıdı.

Əlbəttə, rus general-qubernatoru bizim müsəlman olduğumuzu unutmamışdı, İbrahim Seyidəhməd oğlunun sayəsində adət-ənənəmizə münasib süfrə açdırmışdı. Məclisin özüylə qeyri-müsəlmanlar oturan tərəfində xristianların adətincə yemək-içmək qoyulmuşdu. Qabaqca rus general-qubernatoru məmləkətlərimiz arasındakı mehriban münasibətdən söz açdı, sonra Pirqulu bəy Şahımızın rus çarı ilə dostluq eləmək istədiyini söylədi. Onun ehtiyatla danışmağı heç xoşuma gəlmədi, gözaltı Hüseynəli bəyin üzünə baxdım, onun çox sakit olduğunu görüb təmkininə heyrət elədim. Hüseynəli bəy də danışdı, dilmanc onun dediklərini rusca general-qubernatora çatdıranda, bu dəfə gözaltı Pirqulu bəyə baxdım, dodaqlarında güclə sezilən təbəssümü, gözlərində məşum işartını sezib əməlli-başlı üşəndim. Elə o vaxt da yadıma düşdü, o tacir Qaragünə oğlu Bayandur ziyafətə çağırılmayıb, heç səhər də gözümə dəyməyib.

Sonrakı iki günü şəhərdə gəzdik, dükan-bazara baş çəkdik, rastlaşdığımız adamlarla söhbət elədik. Hər şeyin yolunu-yolağını bizə İbrahim Seyidəhməd oğlu göstərirdi,

eşitdiklərini-bildiklərini yerli-yataqlı danışırdı. İbrahim Seyidəhməd oğlundan Astarxanın necə yaranmağı barədə soruşdum. Dedi, hicrinin ilk illərində bu yerlərdə qədim türklərin Xəzər xaqanlığı olub. Xaqanlıqda yaşayanların əksəriyyəti İudaya sitayiş eləyirmiş. Baş şəhəri İtil olan bu məmləkət sonralar köçəri ordaların, peçeneq, poloves-qıpçaqların əlinə keçib. Hicrinin yeddinci yüzilində monqol-tatarların Qızıl Orda xanlığı bu yerlərdə hakim olub, «Cuci xanın Ulusu» adlanan məmləkətdə Saray-Batu, Saray-Berke, səkkizinci yüzildə Hacı-Tərxan şəhərləri salınıb. Qırx beş il qabaq rus çarı Dördüncü Qorxunc İvanın qoşunları Cuci xanın Ulusunu fəth eləyib, Moskov çarlığına qatıblar. İki sənə sonra şəhər başqa yerə köçürülüb, dörd yanına qala divarı çəkilib.

Yadıma düşdü, Mirzə Qədimin kitabları arasında ərəb səyyahı Məhəmməd İbn-Bəttutənin səyahətnaməsini oxumuşdum. Bir qərinə az üç yüz il qabaq yazılmış o səyahətnamədə bu şəhərin adı Hacı-Tərxan kimi xatırlanır. Mirzə Qədim demişdi, çox güman, əski şəhəri saldıran Çingiz xanın hakim göndərdiyi kəslərdən biri olub. Onda heç ağlıma da gəlməzdi, bir vaxtlar yolum bu yerlərə düşəcək. İbrahim Seyidəhməd oğlu onu da dedi, camaat arasında şəhərin adıyla bağlı cürbəcür şayiələr gəzir: biri deyir, «as tayfasının tərxanı» deməkdi, o biri deyir, «Xan qızı Astranın şəhəri mənasındadı», üçüncüsü məğzini «Əjdahaların padşahı Acıdərənin nağıllarındakı yer» demək olduğunu iddia eləyir, amma bunlara inanmaq çətindi. Dediyinə görə, əski şəhər löhrəm at yerişiylə bir günortalıq məsafədə yerləşirmiş, ruslar çayın sol tərəfinə, bir az güney səmtə köçürüblər.

İbrahim Seyidəhməd oğlunun danışdıqlarına qulaq asa-asa Qaragünə oğlu Bayandurun hara yoxa çıxması barədə fikirləşirdim. Arabir nədənsə qeyri-ixtiyari oğrun-oğrun Həsənəli bəyin hərəkətlərinə göz qoyurdum, o tacirin yoxa çıxmasından xəbəri olub-olmadığını unamağa çalışırdım. Yerişindən-duruşundan, özünü aparmağından hələ, bir şey başa düşmürdüm. Amma üçüncü günün axşamı İbrahim Seyidəhməd oğlunu söhbətləşmək məqsədilə hücrəmə dəvət eləyəndə kələfin ucunu əlimə keçirəcəyimdən heç xəbərim yoxudu. İbrahim mənə Şirvandan, Şamaxıdan, tacir olan babalarından danışdı, vilayətin tez-tez əldən-ələ keçməsi, qanlı toqquşmalar baş verməsi səbəbindən Hacı-Tərxanda məskən saldıqlarını, bununla belə, dədə-baba yurdunu görməkdən ötrü burnunun ucunun göynədiyini dilinə gətirdi. Danışa-danışa qəmləndi, kövrəldi, gözlərindən iki damla yaş axıb, yanaqları boyu diyirləndi. Ona təskinlik vermək xətrinə elə dəyərli söz tapa bilmədim, buna görə də xeyli susduq. Axır ki, İbrahim Seyidəhməd oğlu qəribə nəzərlərlə üzümə baxdı:

– Oruc bəy, sizin səfarətinizdə kafirlər də var?

– Necə bəyəm? – əvvəlcə nə demək istədiyini başa düşmədim, – bir ingilis elçisi, onun dilmancları var...

– İngilisləri demirəm, biri var, ortaboylu, qarabəniz, donqarburun kişidi...

– Yəqin Həsənəli bəyi deyirsən, – İbrahimin kimi nəzərdə tutduğunu başa düşdüm, – əslən ermənidi, müsəlmanlığı qəbul eləyib...

– Tacir dediyiniz şəxs onunla ermənicə danışırdı, yanlarından ötəndə səslərini kəsib çaşdılar...

Bu vaxtacan döşəkcənin üstünə uzanmışdım, İbrahimin dediklərini eşidəndə elə bil məni əllə dikəltdilər, qalxıb oturdum. O, üzümün ifadəsini görüb özünü itirdi, elə bildi artıq-əskik danışmışam.

– Hə?! – Görünür, heyrətimin böyüklüyündən səsim dəyişmişdi, amma özümü tez ələ aldım ki, qonağım hələlik bir şey hiss eləməsin. – Ola bilər, o tacir ermənicə bilsin...

– Mən gedim, Oruc bəy, – İbrahim Seyidəhməd oğlu ayağa durdu. – Nə qulluğunuz olsa, hazıram...

Dil-ağız eləyib, onu qapıdan yola saldım, sonra bayaq eşitdiyim o naqafil xəbər barədə fikirləşə-fikirləşə hücrəmdə var-gəl eləməyə başladım. Manqışlaqda həmin tacirə rast gələndə, niyə qanım qaynamamışdı – bunu aydın başa düşdüm. Amma indi məni başqa suallar düşündürürdü: özünü Qaragünə oğlu Bayandur adlandıran o şəxs əgər tacir deyilsə, bəs kimdi? Həsənəli bəylə həmin zatın arasında hansı əlaqələr ola bilər? Ser Antoniylə Həsənəli bəyin ortaq hansı məqsədi var? Bütün bunları aydınlaşdırmaq lazımıydı...

İçimin hövlündən duruş gətirə bilmədim, durub Əliqulu bəyin hücrəsinə getdim, dedim, heç olmasa, fikirlərimi bölüşüb, bir qədər rahatlanım. Əliqulu bəy dediklərimi eşidəndə təəccübündən barmağını dişlədi, gözləri döyüşlərdə olduğu kimi, dəlisov istəklə alışıb-yandı. Onu sakitləşdirməkdən ötrü xeyli dilə tutdum, ağzından söz aldım ki, bu barədə bir kəs bilməyəcək, hələlik hətta Hüseynəli bəyə də demək lazım deyil. Axırda bundan sonra necə hərəkət eləyəcəyimiz barədə götür-qoy elədik.

– Belə çıxır, bu tacirlə Həsənəli bəyin görüşləri heç də təsadüfi deyil, – Əliqulu bəy fikrini bildirdi. – Əgər ortada pis niyyət yoxdursa, tacirin erməni olduğunu gizlətməyinə

nə hacət var? Görünür, heç adı da Qaragünə oğlu Bayandur deyil...

– Bütün bunlar İskəndər bəy Münşinin dedikləriylə bağlı olmaya? – sorğulu-sorğulu Əliqulu bəyin üzünə baxdım. – Hər halda, araşdırmaq lazımdı...

– Necə araşdıracaqsan, həm duyuq düşməyələr, həm də həqiqəti üzə çıxarasan? – Əliqulu bəy narahat baxışlarını üzümə dikdi.

– Ağlıma bir fikir gəlib, – var-gəl eləyə-eləyə dedim, – İbrahim Seyidəhməd oğlunun köməyilə yerli duz tacirlərindən belə bir şəxs tanıyıb-tanımadıqlarını öyrənmək lazımdı. Axı dediyinə görə, Hacıtərxanda çox olub. Əgər tanımırlarsa, deməli, o tacir deyil, hansısa xüsusi buyruğa əməl eləyir...

– Məndən nə asılıdı? – Əliqulu bəy əmrə müntəzir halda gözlərimin içinə baxdı.

– Hələlik heç nə, – cavab verdim. – Çalışmalıydıq, Həsənəli bəylə o tacir duyuq düşməsinlər. Qalanı Allaha təvəkkül yaxşı olar...

Sonrakı gün elə hey bu barədə fikirləşirdim. İbrahim Seyidəhməd oğluna niyyətimi bildirməkdən ötrü fürsət axtarırdım. Axır ki, günorta yeməyindən sonra məni evinə qonaq dəvət eləyəndə bu fürsətin yarandığına sevindim. O, Əliqulu bəyin də qonaqlıqda olacağına çox sevindi. Axşamüstü gün əyiləndə İbrahimin gözəl bağçasında, xalça-palazın üstündə dirsəklənib, şirin-şirin söhbət eləyirdik. Həmin əsnada mən ev yiyəsinin gözlərinin içinə baxa-baxa niyyətimi dilimə gətirdim:

– Nolar, Oruc bəy, – İbrahim məni başa düşüb, başını tərpətdi, – sabah yerli tacirlərdən belə bir adam tanıyıb-tanımadıqlarını öyrənərəm, heç narahat olmayın.

– Gərək elə davranasan, duyuq düşən olmasın, – İbrahimin yadına saldım, ehtiyatsızlıq eləməsin.

Arxayın ol, Oruc bəy, – o, əlini sinəsinə qoyub, azacıq baş əydi. – Çalışaram, hər şey yerli-yerində olsun.

Sonra söhbətimiz general-qubernatorun bizdən ötrü düzəltdiyi iri, avarlı qayıqların üstünə gəldi. İbrahim Seyidəhməd oğlunun dediyinə görə, həmin qayıqlar bizi general-qubernatorun verdiyi yol azuqəsi, bağışladığı bəxşişlərlə gəmiyə çatdırmalıydı. Söhbətimizin axırında ev yiyəsinin qulluqçusu süfrə döşədi, İbrahimin xanımının bişirdiyi ləzzətli Şirvan təamlarından yedik. Qulluqçunun yanında on üç-on dörd yaşlı ayüzlü yeniyetmə qız uşağı vardı, şübhəsiz, ev yiyəsinin qızıydı. Ürəyimdən keçdi, kaş oğlum Sultanəlinin həddi-büluğa çatmış vaxtı olaydı, qayıdanbaş İbrahimə elçi düşərdim, yəqin, oğlum da bəxtinə çıxan bu gözəldən razı qalardı. İbrahimin dörd oğlu da varmış, ikisi tacir, biri zərgərmiş, dördüncünü də ötəri gördüm, on beş-on altı yaşlarında növcavanıdı.

O axşam ev yiyəsilə halal-hümbət eləyib geri qayıdanda içimdə anlaşılmaz rahatlıq varıdı. İbrahimin rahat, xoşbəxt ailəsini görüb gözəl Nisəxanımı, nuri-didəm Sultanəlini, Mirzə Qədimi, Ümleyla xalanı fikirləşirdim. Deyəsən, bu səfər uzun sürəcəkdi, doğma adamlarımı görməyə nə müddətə həsrət qalacaqdım...

İbrahim Seyidəhməd oğlundan iki-üç gün səs-səmir gəlmədi. Daha doğrusu, o iki gün ərzində onu bircə dəfə gördüm, onda da dillənib bir söz demədi, amma üz-gözünün ifadəsindən başa düşdüm, hələ deyiləsi sözü yoxdu. Həmin iki gündə nə hücrəmdə rahat otura bildim, nə də eşikdə qərar tutdum. Üçüncü gün günorta yeməyindən sonra

qapı astadan döyüldü, İbrahim ədəblə içəri girib bağır basdı, yer göstərdim, oturdu, ağıllı gözlərini üzümə dikdi.

– Hə, nə xəbərlə gəlmisən? – səbrimi basa bilməyib sordum, elə bil, onun verəcəyi cavabla məsələyə aydınlıq gələcəkdi.

– Oruc bəy, şəhərin bütün tacir-tüccarından soraq elədim... – sözünə ara verib, başını buladı, – Qaragünə oğlu Bayandur adında taciri kimsə tanımır...

– Belə ... – fikrə getdim, sonra başımı qaldırıb, İbrahimin gözlərinin içinə baxdım. – Bəs, onda bu şəxsin özünü tacir kimi qələmə verməkdə məqsədi nə ola?

– Bunu təkcə sizin o donqarburun mirzə bilər, – həmsöhbətim eyhamla dilləndi, əslində, elə mənim ağlımdan keçənləri təsdiqlədi.

Bir qədər ordan-burdan söhbət eləyəndən sonra İbrahim Seyidəhməd oğlu durub getdi. Mən də ardınca çıxıb Əliqulu bəyi axtarmağa getdim, hücrəsində tapmayıb eşiyə çıxanda onu Bünyad bəylə həyətdə söhbətləşən gördüm. Gilandan çıxandan bəri Bünyad bəy nəsə qüssəli, adamayovuşmaz olmuşdu, günlərini düşüncələr içində, ya da kitab oxumaqla keçirirdi. Mən yaxınlaşandan azacıq sonra xudahafizləşib getdi, Əliqulu bəylə söhbətimizə fürsət yaratdı. Əliqulu bəyə İbrahimin gətirdiyi xəbəri söylədim, xeyli düşüncələrə daldı, nəhayət, başını tərpətdi:

– Deyəsən, bu xəmir çox su aparacaq, Oruc bəy... – sorğulu-sorğulu gözlərimin içinə baxdı. – Bəlkə əmimlə məsləhətləşəsən? Hər halda, məsləhətli don gen olar...

– Nə deyirəm... – cavab verdim, – Görək, Hüseynəli bəy nə fikirdədi...

## 3.

Hüseynəli bəy söylədiklərimə qulaq asıb dərin düşüncələrə daldı. Əlini arxasına qoyub gəzişə-gəzişə xeyli götür-qoy elədi, sonra oturub döşəkçənin üstündə yerini rahatladı, yüsür təsbehini çevirə-çevirə gah mənim, gah da qardaşı oğlunun üzünə baxdı:

– Deyirsiniz, o özünü tacir adlandıran gədə Həsənəli bəylə ermənicə danışırmış, hə, – sualına başımızı tərpətməyimizlə cavab alıb, sözünə davam elədi. – Onda belə çıxır, adını Qaragünə oğlu Bayandur deyən o şəxs Manqışlaqda Həsənəli bəylə görüşməkdən ötrü gəmimizi gözləyirmiş. Beləsə, bəs, bu görüşün məqsədi nədi? – Susub fikirli nəzərlərini üzümüzdə gəzdirdi.

– Bəlkə İskəndər bəy Münşinin dedikləri öz yerini alır? – Hüseynəli bəyin sorğusuna cavab kimi, fikrimi bildirdim, ardınca daha açıq danışdım. – Ola bilsin, Həsənəli bəyə Moskva çarına, üstəlik, o biri əcnəbi hökmdarlara çatdırmaqdan ötrü nəsə vermək məqsədilə gəlib...

– Əgər belədisə, artıq öz işini görüb, qurtarıb, burdan o tərəfə getməyəcək, – Əliqulu bəy fikrini bildirdi.

– Sən düzsən, – Hüseynəli bəy başını tərpətdi. – Hər halda, hər ikisini də gözdən qoymamaq lazımdı. Həsənəli bəy həmişə yanımızda olacaq, əgər doğrudan da, məsələ bu cürdüsə, gəmidə tədbir görməyə imkanımız var...

– Nə vaxt yola düşürük, ağam? – Əliqulu bəy cəsarət göstərib əmisindən sordu, doğrusu, bunu sormaq heç yadıma düşməmişdi.

– Allah qoysa, birisi gün yola çıxmalıyıq, – Hüseynəli bəy durub söhbətin qurtardığına işarə vurdu.

...O axşam da, səhəri gün də Əliqulu bəylə birgə Həsənəli bəylə özünü Qaragünə oğlu Bayandur adlandıran şəxsə göz qoyurduq. Özlərini çox təmkinli aparır, şübhəyə səbəb olacaq hərəkətlərə yol vermirdilər. Amma yola düşəcəyimiz gün səhər o başdan İbrahim Seyidəhməd oğlu qaranəfəs özünü hücrəmə saldı, halətindən duydum, nəsə təxirəsalınmaz xəbərlə gəlib.

– O özünü tacir adlandıran şəxs gecəynən yoxa çıxıb, Oruc bəy, – dedi, görünür, baş verən hadisədə azacıq da olsa, özünü günahkar sayırdı. – Qapıçı hava qaralanda onun harasa getdiyini görüb, indiyəcən geri qayıtmayıb...

Xəbər məndən ötrü gözlənilməz olsa da, təmkinimi pozmadım, özümü gülümsəməyə məcbur elədim:

– Narahat olma, İbrahim, – dedim, – o, daha bizə gərək deyil, qaçmağının ziyanı dəyməz.

İbrahim Seyidəhməd oğlu elə bil, hər şeyi başa düşdü, bir qədər sakitləşib dərindən nəfəs aldı.

– Kaş elə olsun, Oruc bəy, – dedi, çıxıb öz işinin dalınca getdi.

Əlbəttə, bu xəbəri dərhal Hüseynəli bəyə çatdırdım. O, başını tərpədib fikrində tutduğunu təsdiqlədi:

– Sərvaxt olun, – dedi, – Həsənəli bəyi gözdən qoymayın, divin canı şüşədə olan kimi, indi məsələnin canı ondadı. Özünüz də hazırlaşın, gün qalxanda yola düşürük.

Hüseynəli bəyin xəbərdarlığı tez yayıldı, hamı Hacı-Tərxandakı on altı günlük dinclikdən sonra təzədən səfər havasına kökləndi. General-qubernator Hüseynəli bəy Bayatı, Pirqulu bəy Əfşarı, bir də ser Antonini ziyarət eləyib

vidalaşdı, gün bir adam boyu qalxanda yığışıb dəryanın kənarına yollandıq. Vəfalı dostum İbrahim Seyidəhməd oğlu bizimlə vidalaşanda göz yaşlarını saxlaya bilmədi. Məni qucaqlayıb, «Bircə vətənimi görəydim», – dedi, hıçqıra-hıçqıra ağladı. Ona təskinlik verməyə söz tapmadım...

*(...Astraxanda qaldığımız on altı gün ərzində səfərimizi davam etdirmək üçün beş avarlı gəmi hazırlanmışdı, şəhərdə rast gəldiyimiz digər Səfəvi elçisiylə gəmiyə mindik.*

*Astraxan general-qubernatorunun əmriylə bizimlə birgə yolda mühafizə eləmək üçün müşayiət məqsədilə Moskov knyazının yüz əsgərini yola saldılar. Avarlı gəmilər çox yaxşı düzəldilmişdi, hər birinin yüz avarçıdan ibarət gəmi heyəti vardı. Biz gəmiyə artıq dediyim kimi, Eder, yaxud başqa cür Volqa adlanan həmin çayın sahilində mindik; burda çayın eni çox böyükdü. Bu yerlərdə çayın hər iki tərəfilə ordalara, yaxud tayfalara bölünən, əksəriyyəti kənd yerlərində, onların başlıca qida mənbəyi olan sürülərinin arasında yaşayan tatar xalqları yaşayır. Çayda çoxlu balıqçılar var, onlar burda əsasən nərə balığı tuturlar. Ən balacasının çəkisi on iki, yaxud on üç girvənkədən az deyil, təəccüblüsü budu, kimsə bu balığın ətini yeməyə cəsarət eləmir, onlar bu balıqları yalnız və yalnız kürüdən ötrü ovlayırlar. Hər bir balıqda kürünün çəkisi altı, ya da yeddi girvənkəyə çata bilər, həm də kürü yetişmiş üzüm giləsi kimi qapqaradı. Kürü çox dadlıdı, qurudulmuşusa, xarab olmadan iki, ya üç il qalır, burda İspan krallığında biz heyvanı, narı belə saxlayırıq.*

*Volqanın sahilləri boyunca, Moskova hərəkətimizin sağ tərəfində dəvələr, atlar, qoyun sürüləri otaran tatar tayfası gördük. Onlar Mərakeş köçəriləri kimi yaşayırlar, ilin bütün fəsillərində öz yurtlarıyla burdan ora köçürlər. Bu tayfa «noqay»*

*adı daşıyır, çayın bir tərəfində otaracaq tükənəndə, onları o biri tərəfdə axtarmaq lazımdı, öz sürülərini qarşı sahilə adlamaq üçün körpü olmadığından, onlar adətən çayı orada su bir qədər azalanda, avqust ayında keçirlər. Onlar çayı o biri tərəfə keçmək üçün bu cür üsul fikirləşiblər. Atları, dəvələri quyruqlarından otuz-otuz, yaxud əlli-əlli bir-birinə bağlayıb suya salırlar. Heyvanların çox sayda olması axının gücüylə mübarizə aparmağa imkan verir, bu yolla onlar çayı adlayırlar. Qoyunları adlatmaq üçün gəmidə olduğu kimi, suyun üzərinə qətran sürtülmüş çirkli yun bağlamaları buraxırlar, bir-birinə möhkəm sarınmış bağlamaları uzun ağaclarla dalbadal itələyirlər (qonçar dairəsindəki fincanlar kimi), beləliklə, onların üstündə yerləşdirilmiş qoçlar, qoyunlar o biri tərəfə keçirilə bilər. Amma çay çox enli olduğundan, tez-tez elə də olur, sürünün yarısı suda batır, ona görə ki, çayın ən ensiz yerində bu sahillə o sahilin arasındakı məsafə bir neçə ağac olar. Bu tatar tayfaları müxtəlif ağaların rəiyyətidilər, onların öhdələrində olan sürülərin sayı o qədər çoxdu, burada qoyunun qiyməti qəpik-quruşdu. Bu noqaylar din cəhətdən bütpərəstdilər, amma çox qonaqcanlıdılar; belə ki, hansısa bir yadelli qonaq gələndə, onu dərhal kef məclisinə dəvət eləyirlər, at kəsirlər, ən zərif qismini götürüb bişirir, ona hörmət-izzətlərinin nişanəsi kimi, qonağın qabağına qoyurlar...)*

...Bu on altı gün ərzində görmədiyim Yadigar bəy Məhəmməd bizi elə həsrətlə gözləyirmiş, aradan keçən günlərdə bir kərə də olsun, rahat yatmadığına inandım. Bizim yerbəyer olmağımıza kömək elədi, üstəlik, Pirqulu bəy Əfşarın elçi heyətinin rahatlanmasına da yardım göstərdi. Təzədən yanımızda olmasına, neçə aydan bəri isinişdiyi adamlarla söhbətləşməsinə elə sevinirdi, onun bu ovqatından mənim də kefim açıldı.

Elə gəmidə yerbəyer olanda, yadıma düşdü, başım məlum məsələlərə qarışdığından Bünyad bəyi tamam unutmuşam: o on altı gün ərzində cəmi bir-iki kərə söhbət eləmişdik. Avarlar suya toxunub, gəmimiz tərpənəndə sağ yandakı məhəccərə söykənib durmuşdum, çayın qırağında əlini yelləyən İbrahim Seyidəhməd oğlu get-gedə uzaqlaşır, balacalaşırdı. Bu vaxt çiynimə əl dəydi, dönüb gördüm Bünyad bəydi.

– Ya Allah, salaməleyküm, Oruc bəy, – dedi, – İlahinin möcüzəsinə fikir verirsənmi, Küreyi-ərzi nə qədər böyük, amma hər şeyi necə yerli-yerində yaradıb... – səsindən hiss elədim, demək istədiyi bu deyil, nəsə ayrı mətləbdən danışmaq istəyir.

– Hə, – dedim, – aləmin nizamı doğrudan da möcüzədi...

Bünyad bəy əlini saqqalına çəkib, bir qədər susdu, fikrində nəyisə götür-qoy elədi, görünür, dilinin ucundakı sözləri deməkdə tərəddüd keçirirdi, axır ki dilləndi:

– Oruc bəy, səninlə bir məsələ barəsində danışmaq istəyirəm, – dedi, -dinimizin də, məmləkətimizin də, Şahımızın da adına ləkə gətirən hərəkətlərə əlbəttə, heç birimiz dözməməliyik...

– Açıq danış, Bünyad bəy, – tərəddüdünü sovuşdurmaqdan ötrü dik-dik gözlərinin içinə baxıb, dilləndim. – Şübhəsiz, hamımız Allahın qulu, məmləkətimizin övladı, Şahımızın xidmətçisiyik...

– Mən Ərdəbildə, Böyük Şeyximizin şəhərində doğulmuşam. Yeddi yaşım olanda, qonşuluğumuza Osmanlıdan bir erməni ailəsi köçdü. O səbəbdən az-çox erməni dilini bilirəm... – Susub gözlərimin içinə uzun-uzadı baxdı, axır ki içindəki tərəddüdün son maneəsini aşmağı qərara aldı. – Hacı-Tərxanda olduğumuz günlərin birində təsadüf

üzündən Həsənəli bəylə özünü tacir adlandıran şəxsin söhbətinin şahidi oldum...

Təmkinimi saxladım, Bünyad bəyin daha nə deyəcəyini gözlədim. O məni intizarda qoymayıb, mətləb üstünə gəldi:

– Ermənicə danışırdılar. Onda bildim, o tacirin əsl adı Qaregin Bayanduryandı, özü də Van ermənisidi, erməni katalikosunun hansısa naməsini Moskov çarına çatdırmaq üçün Həsənəli bəyə verməlidi...

Bünyad bəy burda susub, sözlərinin necə təsir elədiyini öyrənmək istədi. Dediklərini bu qədər yerli-yataqlı bilməsəm də, hər şeydən təxmini xəbərim olduğunu gizlədib sordum:

– Həsənəli bəy sənin o söhbəti eşitdiyini bilirmi?

– O tacirdən aralananda qəfildən dönüb məni gördü, deyəsən, şübhələndi, sonrakı günlər məndən qaçmağa çalışırdı.

– Bünyad bəy, – dedim, – bizə də bəzi şeylər ayan olmuşdu, amma işin içini bu qədər aydın bilmirdim. Çalış, nəyisə bildiyini Həsənəli bəyin yanında büruzə vermə. Mən Hüseynəli bəylə danışıb, necə hərəkət eləməli olduğumuzu sənə deyərəm. Yadında saxla, bu barədə kimsə xəbər tutmamalıdı. Ortada çox ciddi mətləb var.

Bünyad bəy başını tərpətdi, baxışlarından duydum, ağzından bir söz qaçırmayacaq. Sonra söhbəti Hacı-Tərxanda gördüklərimizin üstünə gətirdik, islamla xristianlığın fərqlərindən danışdıq...

...Hüseynəli bəylə söhbətim yalnız günorta yeməyindən sonra gəmidəkilərin əksəri dincəlmək üçün öz guşəsinə çəkiləndə mümkün oldu. Yemək vaxtı sözlü baxışlarımdan nəsə demək istədiyimi başa düşdü, hamı gedəndə durub,

əli arxasında gəminin sağ yanına, Bünyad bəylə söhbət elədiyimiz səmtə getdi. Mən də yavaş-yavaş arxa tərəfdən hərlənib ona doğru yön aldım, guya təsadüf üzündən rastlaşmış adamlar sayaq yanında ayaq saxladım. Çayın qırağındakı təpələrə, arabir gözə dəyən vəhşi heyvanlara, adamlara baxa-baxa, bayaq Bünyad bəydən eşitdiklərimi danışdım. Hüseynəli bəyin ovqatının dəyişməməsi təəccübümə səbəb olsa da, sözümü bitirəndən sonra dinmədim, susub nə deyəcəyini gözlədim.

– Hm, hm-m, – Hüseynəli bəy deyəsən, fikrində nəyisə təsdiqləyirdi. – Xoca Səfərin barmağı bizim ağlımıza gətirdiyimizdən də uzunmuş. Görünür, çuğulu özünü məsləkdaşlarının yanına vaxtında çatdırıbmış, o Qaregin səfarətimizdə Həsənəli bəyin olacağını bilirmiş.

Sonra susdu, əlini saqqalına çəkə-çəkə xeyli sükut elədi, axır ki, gözaltı məni süzdü:

– Hə, təklifin nədi, Oruc bəy? – amma sözün deyilişindən hiss elədim, özünün təklifi məndən qabaq hazırdı.

– Növbəti dayanacağımızacan o naməni ələ keçirməliyik, – dedim, fikrimin düz olub-olmadığını yoxlamaq üçün üzünə baxdım.

– Bunu kim eləyə bilər? – Hüseynəli bəy sınayıcı nəzərlərini üzümdə saxlayıb cavab gözlədi.

– Mənə elə gəlir, Əliqulu bəydən məsləhətli adam yoxdu, – cavabımı ləngitmədim, – məndən qaçır, Bünyad bəydən şübhələnir. Əliqulu bəydən özgə kimsə bu məsələni bilmir...

– Yaxşı, – Hüseynəli bəyin təklifdən razı qaldığı görünürdü, – amma bu işi elə bu gecə görmək lazımdı ki, gizlətməyə, ya da kiməsə ötürməyə fürsət tapmasın.

– Baş üstə, – dedim, – arxayın ola bilərsiniz...

## 4.

...Əslində, bu məsələdən qırx nəfər də xəbərdar olsaydı, mən Əliqulu bəyin adını çəkərdim. Ona görə ki, neçə illəriydi tanıyırdım, xasiyyətinə yaxşı bələdiydim. Bayat dəstəsinə çiyin-çiyinə döyüşəndə də, sonralar mən minbaşı olanda da Əliqulu bəy Bayatı ən çətin işlərin dalınca göndərirdim, bir dəfə də olsun, əli ətəyindən uzun üstümə qayıdıb gəldiyini görməmişdim. Onda həsəd aparılası fəndgirlik, ən çıxılmaz vəziyyətdən sağ-salamat çıxmaq, təhlükəni yüz ağaclıqdan duymaq qabiliyyəti varıdı. Abdulla xan Özbəyin qardaşı oğlu Təlim xan Herata soxulanda Şahımızın başçılığı altında döyüşə getdik. Özbək tatarlarının sayı bizdən az qala iki dəfə çoxudu. Düzdü, bizim həmlələrimizin qabağında duruş gətirə bilmədilər, amma Qibleyi-aləm hədsiz qəzəbliydi, mənə əmr elədi, necə olursa olsun, Təlim xanı tutub mənim hüzuruma gətirməlisən. Həmin vaxt artıq Bayat atlılarının başçısı olan Əliqulu bəyə Şahımızın əmrini çatdırdım. «Baş üstə!» – deyib, dəstəsiylə gözdən itdi, hələ döyüş qurtarmamış Təlim xanı qolubağlı yanıma gətirdi. Əlbəttə, Şahımız əmrinin bu cür yerinə yetirilməyindən çox məmnun oldu, mənə də, Əliqulu bəyə də ənam verdi, Təlim xanınsa dərhal boynunu vurdurdu.

Görəcəyi işin məqsədini Əliqulu bəyə anladanda o döyüşlərindəki kimi, gözləri parıldadı, elə bil, indicə düşməninin üstünə atılacaqdı. Bağır basıb bircə kəlmə söz dedi:

– Oldu!

Qaş qaralanda gəmimiz sahilə yan aldı, düşüb çəmənlikdə gecələmək üçün yer təmizlədik. Nökərlər dərhal

əl-ayağa düşdülər, şam yeməyi hazırlamağa girişdilər. Yeməkdən sonra hamı yatıb dincəlmək istədi, mən də uzandım, fikirləşdim, bəlkə gözümə yuxu gedə. Fikrim-zikrim Əliqulu bəyin görəcəyi işin yanında olduğundan, xeyli müddət yata bilmədim. Əliqulu bəy də yanımda uzanmışdı, üz-gözündə bir qətrə də olsun, narahatlıq yoxudu.

Gecənin bir vaxtı Əliqulu bəy məni oyadıb, əlindəki bükülünü uzadanda hər şeyin belə asanlıqla başa çatacağına inanmaq istəmədim. Amma sorğu-sual eləməyin yeri deyildi, bükülünü qurşağımın altına soxub, əlimi onun kürəyinə döydüm, çəkilib sakitcə yerində uzandı. Mənimsə yuxum daha qaçmışdı, qalxıb o ətrafda gəzişə-gəzişə səhərin açılmasını gözlədim.

Obaşdan qalxıb, dəstəmaz aldım, namazımı qıldım, Hüseynəli bəyin namazdan sonra səhər yeməyini qurtaranacan ətrafda gəzişməyə başladım. Həyəcanımın çoxluğundanmı, nədəndi, iştaham tamam qaçmışdı, bu səbəbdən yeməyə oturmadım. Aradabir gözaltı Həsənəli bəy səmtə baxırdım, əlbəttə, onun dikəldiyini, qəfildən ilan vurmuş kimi, ayağa sıçrayıb, qoyun-qoltuğunu axtardığını gördüm: elə bil, paltarının altına zəhərli cücü, ya da ilan-çayan girmişdi, ondan qurtulmaq istəyirdi. Ardınca Əliqulu bəyin: «Sabahın xeyir, Həsənəli bəy, nə baş verib?» – soruşduğunu, Həsənəli bəyin – Hambarsum Muşeqyanın ölgün, təlaş dolu səslə: «Heç-heç...» mızıldandığını eşitdim, o an gözlərimin qabağına onun bozarmış üzü, hədəqəsindən çıxan gözləri, daha da donqarlaşmış burnu canlandı. Bu halını görməkdən ötrü hərlənib, yolumu o səmtdən saldım. Gözləri mənə sataşanda büzüşüb bir qırnaq oldu, nasaz adam kimi, əsməyə başladı:

– Sabahın xeyir, Həsənəli bəy, – dedim, – rəngin nəsə xoşuma gəlmir, xəstələnib eləməmisən ki?

– Hə...hə... – dilini ağzında güclə dolandırdı. – Bərk üşütməm var...

– İndi Bünyad bəyə deyərəm, dava-dərman elər, – dedim, – sən uzan.

Bünyad bəyin adı ağzımdan qəfil çıxdı, elə o an hiss elədim, səhv buraxdım, artıq məsələnin nə yerdə olduğu Həsənəli bəyə ayandı. Onun qovulub qəfəsə salınmış heyvan halına fikir vermədən Bünyad bəyin səmtinə yönəldim. Əlbəttə, Əliqulu bəy söhbətimizi eşitmişdi, bilirdim, mən işarə vurmamış Həsənəli bəyi göz altına alacaq, necə deyərlər, bütün bəndi-bərəni bağlayacaq.

Hüseynəli bəylə gözləşib, gəmiyə qalxmaqda bir az ləngidik. Əliqulu bəyin verdiyi bükülünü sakitcə alıb qoynuna qoydu, sonra Yadigar bəy Məhəmmədi çağırıb göstəriş verdi:

– Bundan sonra Həsənəli bəyin dirisinə də, ölüsünə də sən cavabdehsən. Adamlarından birini ayır, hər addımına göz qoysun.

Yadigar bəy Məhəmməd artıq-əskik bir şey soruşmadı, «Baş üstə, Hüseynəli bəy!» deyib, uzaqlaşdı. Biz də arınarxayın gəmiyə qalxdıq...

*(...Sonralar iki ay ərzində biz avarlı gəmilərdə Volqa yuxarı üzdük, amma on gündən bir sahilə çıxır, hamısı çay qırağı boyu yerləşən kiçik kəndlərə gedirdik. Hər dayanacaqda biz bəzi yorulmuş avarçıları dəyişirdik, gəmidə avar çəkmək üçün yeni adamlar götürürdük. Bütün bunlar Moskov knyazının əmrini*

*yerinə yetirən əsgərlərin göstərişiylə görülürdü. Volqaboyundakı təpələr çox hündürdü, həmin təpələrdə çoxlu yurtlar var. Bu təpələrdə biz saysız-hesabsız ayılar, şirlər, pələnglər, eyni zamanda dələlər gördük. Təxminən hər beş yüz ağacdan bir çayın qırağında Moskov knyazının şəhərləri yerləşir, bizim yetişdiyimiz birinci şəhər Çyornıy Yar (Qara Uçurum), sonrakı Sarisin (Çar şəhəri), üçüncüsü Samara adlanırdı, başqa şəhərlər də varıdı, onların adını çəkmirəm. Əlverişsiz ruzigar çay aşağı əsəndə, avarçılar çayın bir, ya da o biri sahilində atların belinə minməyə, gəmiləri yoğun kəndirlə dartmağa məcbur olurdular. Adətən hər gecə çöldə yatmaq üçün quruya çıxırdıq, yüzdən artıq əsgər keşiyimizi çəkir, bizi qoruyurdu...)*

Görünür, Həsənəli bəy artıq öz qədərini anlamışdı, bu səbəbdən, götürüm düşmüş at kimi, gəmidəki guşəsindən qalxmır, yeməyini iştahasız yeyir, get-gedə elə bil gözümün qabağında qocalırdı. Sahilə çıxanda, gecələr yatanda, həmişə bir yanında Əliqulu bəy, o biri yanındasa, Yadigar bəy Məhəmmədin ayırdığı ucaboy, enlikürək, pişik kimi cəld olan qulam Şəmsəddin uzanırdı. Görünür, Əliqulu bəylə Şəmsəddin vaxtı bölüşmüşdülər, biri yatanda, o biri oyaq qalırdı.

Ser Antoni öz dilmancları, xidmətçiləri, gözətçiləriylə ikinci gəmidə olduğundan, onu ancaq axşamlar sahilə çıxanda görürdüm. Üz-gözündən nə barədə düşündüyünü, əhvalının necə olduğunu bilmək çətiniydi. Nədənsə ha özümü zora salırdım, onun cılız vücuduna, saman sarısı sir-sifətinə, kosa saqqalına, xırda gözlərinə baxa bilmirdim. Əcnəbi hökmdarlara göndərilən bütün qiymətli bəxşişlər bizim gəmidə olduğuna görə, elə bil, narazıydı, tez-tez gözlərini bizə sarı zillədiyini görürdüm.

Gəmilərin qalan üçündə şahlığın xüsusi elçisi Pirqulu bəy Əfşar öz əsabələri – mirzələri, dilmancları, xidmətçiləri, gözətçiləriylə yerləşmişdi. Görünür, Hüseynəli bəylə aralarında üstüörtülü xoşagəlməz münasibət varıdı, hər halda, bu iki ay ərzində onları cəmi bircə kərə danışan gördüm. Hüseynəli bəy Qazan şəhərində gəmidən enəndə məscidə gedib, səfərlərinin uğurlu olması üçün dua eləmək barədə danışmışdı.

Doğrusu, bu iki ay ərzində Hüseynəli bəydən o gizli namədə nədən yazıldığını soruşmamışdım, heç özü də ağzının qıfılını qırıb bir söz deməmişdi. Amma məsələnin bu cür bitdiyindən razı qaldığını sezirdim. Qazana yaxınlaşdığımız günlərin birində, axşam qaş qaralanda adətimiz üzrə gecələməkdən ötrü sahilə çıxan vaxt Əliqulu bəy mənə ləngiməyi işarə elədi. Görünür, qulam Şəmsəddinə göstərişini vermişdi, Həsənəli bəy sarıdan arxayınıdı. Onun ardınca Hüseynəli bəyin guşəsinə sarı getdim. Sən demə, Bünyad bəy də ordaymış. Hüseynəli bəy yanındakı döşəkcələrin üstündə yer göstərdi, aranın sakit olduğunu yəqin eləyəndən sonra üzünü bizə tutdu:

– Allah sizdən razı olsun, məmləkətimizə, Şahımıza qarşı olan bəd niyyəti puça çıxara bildiniz. İnşallah, səfərimizi başa vurub qayıdanda bunu Qibleyi-aləmin qulluğunda ərz eləyərəm, xidmətinizə görə ənam verər. Qazanda sərvaxt olmalıyıq ki, Həsənəli bəy aradan çıxmasın, ya da kənar şəxslərlə ünsiyyət qurmasın. Həmin naməni də dəlil-sübut kimi İsfahana çatdırmalıyıq. – Susmağımızın razılıq əlaməti olduğuna şübhəsi yoxudu, bununla belə, ürəyimizdən keçənləri özü dilinə gətirdi. – Heç soruşmadınız, namədə nə yazılıb...

– Məsləhət bilsəniz, özünüz deyərsiniz, ağam... – Əliqulu bəy cəsarətlənib dilləndi.

– Erməni keşişbaşı Moskov knyazından rica eləyir, bizim məmləkətimizdə, həm də Osmanlıda yaşayan ermənilərin halına acısın, onları öz himayəsinə alsın...

– Hə, deyəsən, Qibleyi-aləmin iltifatı bəs eləmir, – dedim, – onsuz da məmləkətmizdə ermənilər Şahımızın himayəsi altındadı... – Qəfildən Hüseynəli bəyin ağır baxışlarını üzümdə hiss eləyib səsimi xırp kəsdim.

Araya naqolay sükut çökdü. Əlbəttə, Şahımızın etibar eləyib, bu qədər sanballı vəzifəni tapşırdığı adamın hüzurunda belə söz söyləmək böyük səhviydi. Üstəlik, Bünyad bəy də deyilənləri eşitmişdi, Qəzvindən tanış olsaq da, gizli namə məsələsində çox köməyi dəysə də, hələ onun nə yuvanın quşu olduğunu bilmirdim. Təkcə Əliqulu bəydən belim bərkiydi, bu barədə çox söhbətlərimiz olmuşdu, bilirdim, boğazına diri ilan salsalar da, ağzından artıq-əskik söz çıxarmaz.

Axır ki Hüseynəli bəy nəzərlərini üzümdən çəkib, əlindəki yüsür təsbehin dənələrinə baxa-baxa dilləndi:

– Yaxşı, gedək, – ayağa qalxıb irəli düşdü. – Dediklərimi sırğa eləyib, qulağınızdan asın...

# 5.

Bizim gəmiçibaşı görüb-götürmüş adammış: əlli yaşlarında ortaboylu, tökməbədən, sarısaqqal bir şəxs olan Fyodoru dilmancın araçılığıyla söhbətə tutdum. Dediyinə görə, iyirmi beş iliydi, bu yollardaydı, avarçı olub, avarçıbaşı olub, gəmiçibaşının köməkçisi olub, axır ki gəlib bu məqama çatıb. Danışdı, yeddinci yüz ildən *(hicrinin birinci yüzilindən)* sonra bu yerlərə bulqar tayfaları köçüb gəlməyə başlayıb, iki yüzillik ərzində Volqa Bulqar dövləti yaranıb, Bulqar şəhəri salınıb. Skandinav tayfalarının gəlib-getdiyi Böyük Volqa yolu sayəsində bulqarlar ticarət aparıb varlanıblar. İndi rusların Kreml dedikləri yerdə bulqarlar quzeydən təhlükəni önləmək üçün qala tikiblər. İki yüzillik sonra Böyük Çingiz xanın nəvəsi Batı xan Volqa Bulqar ölkəsini ələ keçirib, dağıdır, yerində Qızıl Orda («Cuci Ulusu») qurmağa başlayır. Sonra Batının nəvəsi əmir Mengü-Temir, sonra əmir Bulak-Temir, ardınca Mamay xan Bulqar şəhərini yerlə yeksan edir. «Cucinin ulusu» dağılandan sonra Qazan xanlığın baş şəhəri olur. Əlli il bundan əvvəl çar Qorxunc İvan *(ruslar ona İvan «Qroznı» deyirlər)* Qazanı tutmaq fikrinə düşür, yüz əlli minlik qoşunuyla şəhəri yeddi həftə mühasirədə saxlayır, nəhayət, ələ keçirir. Bundan sonra Qazan rus şəhərinə çevrilməyə başlayır.

Gəmiçibaşı Fyodor onu da dedi, Qazanda indi xristianlar yaşasalar da, gözəl məscidlər var. Doğrudan da, şəhərə yaxınlaşdıqca, yaşıllıqlar arasından göylərə ucalan şişuclu minarələr görünürdü. Az qala dümağ bulud topalarını dəlib keçən minarələr elə əzəmətliydi, gördüyümdən gözlərim yaşarırdı. O məqamda yaddaşımdan nədənsə

doğma Təbrizin məscidləri boy verdi. Yadıma gözəl Nisəxanım, oğlum Sultanəli, Mirzə Qədim, Ümleyla xala düşdü...

*(...Çayla iki aylıq səfərimizin sonunda Moskov knyazlığının çox böyük şəhəri olan Qazana gəlib çatdıq, şəhərin əhalisi 50.000 evdən (yaxud 225.000 nəfərdən) ibarətdi, hamısı da xristianlardı. Bu şəhər kilsələrlə doludu, hamısında da zəng var, bayram günlərində zənglər çalınan vaxt onların qulaqbatırıcı cingiltisindən, yatmaq, yaxud şəhərdə qalmaq mümkün deyil. Biz həmin şəhərə çatan gün camaatın böyük bir kütləsi bizi qarşılamağa çıxmışdı, biz meydanlardan, küçələrdən keçəndə heyrətlənirdilər. Biz Qazanda səkkiz gün qaldıq, bizi elə bol yedizdirdilər, süfrəyə qoyduqlarının hamısını yeyə bilmirdik, yeməyi pəncərədən küçəyə atırdıq.*

*Bu məmləkətdə kasıb yoxdu, burda yemək o qədər ucuzdu, ac olan kəs evindən çıxıb yoldaca yemək tapır. Onların çatışmayan bir şeyi varsa, o da yaxşı şərabdı, yalnız taxıldan, yaxud arpadan düzəldilən bircə içkiləri var, bu içki də elə tünddü, içən çox vaxt sərxoş olur. Həmin səbəbdən, burda qanun, fərman var, bu qanuna, fərmana görə, bir kimsə silah gəzdirməyə cəsarət eləyə bilməz, yoxsa hər an bir-birini öldürə bilərlər. Bu yerdə iqlim həddən artıq soyuqdu, buna görə də burda hədsiz çox olan dələ dərisindən paltar geyinirlər. Onların dadlı meyvələri yoxdu, yalnız cır almaları var, o da çox azdı, həm də şirin deyil, lap turşməzədi. Qazanda adamlar zərif cinsdəndilər. Kişilər yaraşıqlı, ucaboy, möhkəm bədənlidilər, qadınlarsa bir qayda olaraq, cazibədardılar. Onlar küçəyə çox yaxşı geyimdə çıxırlar, dələ xəzindən başlıqlı gen paltar geyinirlər. Bu camaat sobadan çox geniş istifadə eləyir, hər bir evdə şir kimi iri itlər var, ona görə ki, onlar gecə soyğunlarından qorxurlar. Gündüzlər itləri zəncirlə bağlayırlar, amma ax-*

*şam düşən kimi, zənglər çalınır, hər yerdə itlərin zəncirdən buraxıldığı küçədən keçənlərin ehtiyatlı olmaları barədə xəbərdarlıq edilir. Hamı öz itini açıb buraxdığından, parça-parça olmaqdan qorxub kimsə evdən çıxmağa cəsarət eləmir.*

*Qazanda bütün evlər taxtadan tikilib, amma orda daş lövhələrdən çox möhkəm tikilmiş böyük qala da var; qalanı əsgərlər qoruyur, onlar gecələr burada keşik çəkirlər... Bu qarovul ona görə qoyulub ki, əvvəllər türklərlə tatarların gecələr basqın eləyib evləri yandırmaq, adamları oğurlamaq adətləri varıdı...)*

...Qazanda olduğumuz o səkkiz gündə Hüseynəli bəyin mənə qarşı əvvəlki hüsn-rəğbətinin olmadığını hiss elədim. Ağzımdan qaçırdığım bircə kəlmə söz ünsiyyətimizdə izini qoymuşdu, daha qarşılaşanda mehribanlıqla gülümsünmür, boy-buxunuma, yerişimə-duruşuma ata şəfqətiylə baxmırdı. Nəzərlərindən soyuğu, sözlərindəki quruluğu, hərəkətlərindəki rəsmiyyəti sezdikcə, qəlbimdə dürlü-dürlü şübhələr cövlan eləyir, özümə yer tapa bilmirdim.

Bizi Tatar məhəlləsindən böyük, ikimərtəbəli evdə yerləşdirmişdilər. Pirqulu bəy Əfşarın heyəti sayca çox olduğundan, başqa mülkdə yer tutmuş, nökər-qulluqçularısa elə məhəllədəki karvansaraya oxşar bir yerə doldurmuşdular. Məskən saldığımız böyük, gözəl naxışlı pəncərələri, geniş hücrələri olan taxtadan tikilmiş evdə Hüseynəli bəylə ser Antoniyə ayrıca otaq verildi, mirzələr, dilmanclar, qeyri heyət üzvləri otaqlarda iki-iki yerləşdirildilər. Şübhəsiz, Əliqulu bəy Həsənəli bəylə, mənsə Bünyad bəylə otaq bölüşdük. Qulam Şəmsəddin bu iki ay ərzində gözaltı elədiyi adamdan canını bir müddətə qurtardı. Əlfəqih Əmirlə

Yadigar bəy Məhəmməd bizim sağ yanımızdakı otağa düşmüşdülər.

O axşam biz yerbəyer olub dincələnəcən axşam düşdü, bu səbəbdən, evdən eşiyə çıxmadıq. Hava qaralmamış Qazanın general-qubernatorunun adamı gəldi, bizə baş çəkdi, narazılığımız olub-olmadığını sordu. Əlbəttə, heç bir narazılığımız ola bilməzdi, bu cür hay-küylə qarşılaşmışdılar, rahat evdə yerbəyer eləmişdilər, müsəlman qaydasınca çimib-təmizlənmiş, yeyib-dincəlmişdik. Sabah sübhdən Qazan şəhərini gəzəcək, günortadan sonra general-qubernatorun hüzurunda verilən ziyafətdə olacaqdıq.

Gözlədim, axşam Hüseynəli bəy Əliqulu bəylə məni yanına çağıracaq, nələr barədəsə söhbət eləyəcək, Qazana gəldiyimizin ilk günüylə bağlı təəssüratlarını söyləyəcək, sonrakı günlərimizdə neyləyəcəyimiz haqqında fikirlərini bölüşəcək. Amma çağırmadı, əvəzində axşam namazını qılmaq üçün dəstəmaz almağa çıxanda Əlfəqih Əmiri onun otağından çıxan gördüm. Əmir bu təsadüfdən çaşdı, üzümə çox qəribə nəzərlə baxdı, hiss elədim, Hüseynəli bəylə mənim barəmdə söhbət eləyiblər. O məqamda içimdə nəsə qırıldı, nədənsə gözlərimin önünə gözəl Nisəxanımla oğlum Sultanəli gəldi, İsfahandan çıxalı aylar ərzində ilk dəfə onları bir daha görə bilməyəcəyimdən qorxdum.

Namazımı qılandan sonra Bünyad bəyin Əlfəqih Əmirlə söhbətə getməsindən istifadə eləyib, bir qədər rəsm çəkmək, ya şeir yazmaq, uzaqbaşı, kitab oxumaq istədim – indi duyduğum tənhalıq hissini yalnız bu yolla ovuda bilərdim. Amma rəsm çəkməyə içimdə başlanan təlatüm mane oldu, heç gəmidə ağlıma gələn qəzəlin rədifini də xatırlaya bilmədim, oxumaqdan ötrü götürdüyüm kitab-

ların arasından Budaq Qəzvininin «Cəvahir əl-əxbar»ını götürsəm də, bircə səhifədən sonra örtüb yerinə qoydum. Əlbəttə, qazanlıların şirə oxşayan itləri olmasaydı, çıxıb gəzə, bir qədər yüngülləşə bilərdim.

Məni bu sıxıntıdan Əliqulu bəy qurtardı. Deyəsən, Bünyad bəyin Əlfəqih Əmirin yanına getdiyini, biz Gilandan çıxandan başladıqları islamla xristianlığın fərqləri barədə söhbəti davam etdirəcəyini sezmiş, Həsənəli bəyin mühafizəsini Qulam Şəmsəddinə tapşırıb, mənə baş çəkməyə gəlmişdi. O, əmisinin mənə münasibətinin dəyişdiyini elə həmin gündən duymuşdu, var gücüylə çalışırdı, bu xoşagəlməzlik get-gedə dərinləşməsin.

– Elə həqiqətlər var, onları söyləmək ziyan gətirir, Oruc bəy, – Əliqulu bəy salam-kalamdan sonra dedi. – Əlbəttə, əmim məmləkətimizdə nələr baş verdiyini çox gözəl bilir, amma xoca səfərlərin qurduğu tor elə çəlpəşikdi, o tora asanca düşmək olar...

Susdum, Əliqulu bəyin sözlərində həqiqət varıdı.

– Xoca Səfər səfarətimizin dörd mirzəsindən birini öz adamı təyin elətdirməyi bacarıbsa, üstəlik, qurğu qurub, getdiyimiz məmləkətlərin hökmdarlarına namə çatdırmağa çalışırsa, başqa əlaltıları, çuğulları da olmamış deyil...

– Deyirsən, Bünyad bəydən bu cür şeylər gözləmək olar, hə? – sordum, niyyətim onun Əmirə münasibətini yoxlamağıydı.

– Yox, – Əliqulu bəy gəzinə-gəzinə başını buladı. – Bünyad bəy Şahımıza sadiq adamdı, onun yolunda canından keçər. Amma eşitdiyini Əlfəqih Əmirə söyləməyəcəyinə, Əlfəqih Əmir də sənin məmləkətimizdəki vəziyyətdən narazılığını Qibleyi-aləmə çatdırmayacağına necə zəmanət verə bilərsən?

– Sən haqlısan, – dedim, amma başa düşdüm, artıq ox yaydan çıxıb, sonrakı peşmançılıq fayda verməz.

Əliqulu bəylə o axşam çox mətləbləri çözdük. Gecəni də yatağımda o üz-bu üzə çevrilə-çevrilə keçirdim, nə qədər çalışdımsa, gözlərimə yuxu getmədi.

Sübh namazından sonra qəlyanaltımızı eləyib Qazanın küçələrinə çıxdıq. Bələdçimiz türkcəni əməlli-başlı bilən *(hələ rusların dilində də səlis danışırdı)* tatarıydı, dediyinə görə, ulu babası bura Bulak-Temirin qoşunuyla gəlib çıxıbmış, elə o vaxtdan şəhərdə yurd salıb. Öz adı da Temir olan bələdçimiz bizə rast gəldiyimiz tikililər haqqında danışdı. Əlbəttə, Qazan böyük şəhər olsa da, burda bu qədər xristian məbədinin ucaldıldığına heyrət elədim. Amma həmin məbədlərdə müsəlman məscidlərinin görkəmini xatırladan nəsə var. Ən çox xoşuma gələn ağ daşdan tikilmiş Qazan xanın dövlətxanası, çoxminarəli məscidlər, çoxqübbəli hamamlar oldu. Rusların Kreml adlandırdıqları qüllələrlə dövrələnmiş içşəhər də çox gözəldi. Güney səmtdə üç qüllə, içərisində kilsə, saraylar, cürbəcür tikililər olan bu içşəhər baxanları heyran eləyir...

Günorta Hüseynəli bəylə ser Antoni dilmancları götürüb general-qubernatorun hüzuruna getdilər. Əvvəlcə buna fikir vermədim, ağlımdan keçdi, görünür, dəvət bu cür olub, amma axşam ziyafət barədə söz-söhbət yayılıb, orda Pirqulu bəy Əfşarla bircə baş mirzəsinin də olduğundan xəbər tutanda, Hüseynəli bəyin addımını artıq mənə inamsızlığının əlaməti kimi qəbul elədim...

Qazanda qaldığımız o səkkiz gün ərzində diqqətimi çəkən bir də Bünyad bəyin hərəkətləri oldu. Heç nəyə qarış-

mır, həmişə fikir-xəyal içində olurdu, elə bil, nəsə çox vacib məsələni çözməyə çalışırdı. Həmişə onu Əlfəqih Əmirin yanında, islamla xristianlığın fərqləri barədə mübahisə eləyən görürdüm. Axşamlar mənimlə bir-iki kəlmə kəsib gətirdiyi kitabları oxumağa girişir, öz aləminə qapılırdı.

Biz Qazanda olanda payızın son ayıydı, artıq soyuqlar düşmüşdü, əlbəttə, güney istisinə alışmış adamların bu cür quzey soyuğuna tab gətirməsi o qədər də asan deyildi. Yola düşdüyümüz ərəfədə general-qubernatorun əmriylə bizə dələ xəzindən tikilmiş başlıqlı üst geyimi, isti keçə çəkmələr verdilər. Hər iki elçi heyətini yola salmağa general-qubernatorun özü çıxmışdı. Bir cüt ağ at qoşulmuş gözəl arabadan enib, Pirqulu bəy Əfşar, Hüseynəli bəy Bayat, ser Antoniylə görüşdü, dilmancı onun xeyir-duasını bizə çatdırdı, beləcə yola çıxmaq vaxtı gəlib yetişdi...

## 6.

...Qazandakı son gecəmizdə qəribə yuxu görmüşdüm. O yuxunu sübh namazını qılanda xatırladım. Görmüşdüm, məni elə bu Qazana oxşayan bir şəhərin ortasında İsa Məsih kimi çarmıxa çəkirlər, əzab verib günahlarımı boynuma almağımı istəyirlər. Günahlarımın nədən ibarət olduğunu yadıma salmağa çalışsam da, heç nəyi xatırlaya bilmirəm. Qırmızı geyimli, gözlərindən qırmızı od çıxan cəllad köksümü yarıb qəlbimə baxmaq, günahlarımı özü oxumaq istəyir, mənsə qışqırıram... Bu vaxt Bünyad bəyin məni silkələdiyini duymuşdum: «Oruc bəy, qalx, yastığını çevir...» Çayın qırağına sarı gedəndə həmin yuxumu bir də xatırladım...

*(...Qazandan yeddi avarlı gəmiylə irəli hərəkət elədik: general-qubernator bizə gəmilərlə yanaşı, yüzəcən əsgəri olan mühafizə dəstəsi də verib sağ-salamat Moskva knyazının dövlətxanasına çatdırmağı əmr eləmişdi. Biz elə həmin yolla quzeyə doğru səfərimizi davam etdirir, bu diyarın sərt iqlimini get-gedə daha artıq duyurduq; altı gündən sonra elə çayın həmin sahilində yerləşən Çerboksarı adlanan şəhərə yaxınlaşdıq. Həmin gecə Volqa, yaxud Eder elə qalın buz qatıyla örtüldü, yolumuzun səmtini dəyişməli olduq. Adamlar bütün yükümüzü, gəmilərdə apardığımız hər şeyi sahilə çıxardılar, bizə atlar, kirşələr verdilər, beləcə ləngimədən dövlətxanaya doğru yolumuza davam eləmək üçün şərait yaratdılar.*

*Covanni Botero (Benes, belə bir italyan tarixçisi var, Valyadoliddə məmləkətimizin tarixi barədə iki cildlik kitabını oxumuşam) iddia eləyirdi, Volqaya yetmiş səkkiz çay tökülür, bu çay da Borisfen (Buq), Dvina kimi, mənbəyini Volappo gölündən gö-*

*türür. Görünür, o bu məsələdə düzgün məlumata malikdi, ona görə ki, çay deyəsən, Litvanın uzaq yerlərindən axıb gəlir, səbəb – bütün bu qolların, qarışan çayların, Volqanın mənbəyinin qışda donmasının səbəbi, burda torpağa çox az gün istisi düşməsindədi; hətta günün günortaçağı günəş quzeyə baxır, sərt qış bu yerlərdə doqquz ay sürür. Bundan başqa, sahilboyu meşələr gün işığını torpağa buraxmır; bu meşələr burdan şimala uzanan Xerson meşələrinin bir hissəsidi. Beləliklə, yay fəslinin üç ayı ərzində günəş torpağı yetərincə qızdıra bilmir. Amma qış burda çox soyuq olsa da, torpağın üstü başdan-başa qar-buzla örtülsə də, əslində, qışın bu vaxtı hərəkət eləmək, mal daşımaq, səyahət üçün yayda olduğundan daha əlverişlidi, ona görə ki, qısa isti yay ərzində qar əriyir, yerin üstü hər tərəfdə göllər, bataqlıqlarla örtülür, demək olar, təzədən soyuqlar düşənəcən keçilməz olur, yalnız bundan sonra suda-quruda hərəkət eləmək mümkündü.*

*Volqa qırağındakı Çeboksarı adlanan bu şəhərdə bizə verdikləri kirşələr qatlama oturacaqlar kimiydi, kiçik xərəklərə, yaxud şümal ağac budaqlarından düzəldilmiş sürtgəclərin üzərində balaca arabalara oxşayırdı... Moskovluların Volqada işlətdikləri kirşələr başqalarından daha iridi, donmuş torpağın üzərində atılıb-düşmür, rəvan gedir. Kirşələrin forması belədi: dördkünc qutudu, içərisində iki oturacaq var; üstü piramida formasındadı, dəriylə örtülüb. İrəlidə kətil, yaxud oturacağın yarısı yerləşir, orda xizəyə qoşulmuş atları sürən adam oturur, həmin vaxt içində qorxusuz-ürküsüz oturub, səfərə çıxan iki şəxs əyləşir. Qutunun arxasında bir növ rəf kimi çıxış var, yükü bura qoymaq olar. Atlar bərk qaçırlar, gündə qırx, yaxud əlli ağac yol qət eləyirlər; amma hər kirşədə ikicə nəfər yerləşdiyindən, cəmi bizim adamları, həm də yükümüzü aparmaq üçün beş yüzdən artıq bu cür kirşə lazım gəldi...)*

... Əlbəttə, vəziyyətin bu cür dəyişməyi mənim ürəyimcə oldu: neçə ay dəryada, sonra da çayda yırğalanandan sonra görmədiyim yerlərdən kirşəylə keçmək xoşuma gəlirdi. Başqalarını bilmirəm, Əliqulu bəylə mən rusların bu kirşəsinə oxşayan bir şeylə tanışıydım. Şahımız Əhməd xanı itaətə gətirməkdən ötrü Gilana qoşun çəkəndə, keçdiyimiz yerlər dağlıq olduğundan, arabalardan əlimizi üzdük. Qibleyi-aləmin əmriylə kirşəyə oxşar şeylər düzəltdik, üstünə ərzaqlarımızı, sursatlarımızı yığdıq, atlara qoşub, dağları keçdik. Heç ağlıma gəlməzdi, illər keçəndən sonra Moskov knyazının torpağında, qar-buzla örtülü yerlərdə əsl kirşəylə səfər eləməli olacağam.

Əliqulu bəylə məsləhətləşib, Həsənəli bəyi qulam Şəmsəddinə tapşırdıq. Bizim kirşəmiz onların arxasında gedəcəkdi, gözümüz üstlərində olacaqdı. Hüseynəli bəyin yanında xidmətçisi oturmuşdu, Bünyad bəylə Əlfəqih Əmir yanaşı əyləşmişdilər, yol boyu islamla xristianlığın fərqi barədə söhbətlərinə davam eləyə bilərdilər. Yadigar bəy Məhəmmədin böyründə mühafizəçilərdən biri varıdı, həmişə bizə yaxın olmağa çalışırdı. Ser Antoninin yaraşıqsız vücudunun yanında dilmanclardan birini gördüm. Katolik rahiblər də eyni kirşədə oturmuşdular, üz-gözlərindən zəhrimar yağırdı. Yadıma düşdü, Hacı-Tərxandan çıxıb Qazana gələndə, bu iki rahib ser Antoniylə nəsə qızğın söhbət eləyirdilər, görünür, ingilisdən nəsə tələbləri varıdı, o da istədiklərinə əməl eləməkdən boyun qaçırırdı. Sonrakı günlər bu söhbətin az qala əlbəyaxaya keçdiyinin şahidi olduq. Dilmancımızın dediyinə görə, binəva rahiblər ser Antonidən nəyisə qaytarmağı tələb eləyirdilər, o da etirazını bildirirdi. Volqayla bütün səfərimiz boyunca

bu cür dava-dalaş tez-tez oldu, ser Antoni hətta rahibləri öldürməklə hədələyir, çox baş aparanda onları hücrələrinə salıb qapını bağlayır, özüsə göyərtədə qəzəbli-qəzəbli vurnuxurdu. Nə o vaxt, nə də Qazanda qalanda bu dartışmanın səbəbini öyrənə bildik, daha doğrusu, başımız Həsənəli bəylə Qareginin işinə qarışdığından, bu barədə fikirləşmədik. İndisə qət elədik, elə ilk dayanacağımızdaca xəlvətcə rahibləri danışdırıb məsələdən xəbərdar olaq.

Kirşəçi sarı bığ-saqqallı olan qırmızısifət, göygöz rus kəndlisi – müjikiydi. Öz dilində atlara çımxırır, qırmancını şaqqıldadırdı, kirşəmizin şaxtada bərkimiş qarın-buzun üstüylə irəli şığıyırdı. Qalın meşəliyin qırağıyla uzanan yol bizi hələ görmədiyimiz bir yerə aparırdı. Əliqulu bəylə gözlərimiz qarşısında açılan mənzərəyə baxa-baxa söhbət eləyirdik.

– Oruc bəy, bu kosa ingilisdən nəsə gözüm su içmir, – Əliqulu bəy görünür, kirşəçi söhbətin kimdən getdiyini başa düşməsin deyə, ad çəkmirdi, – bilmirəm, Qibleyi-aləmin qəlbinə necə yol tapdı ki, o da bizim ixtiyarımızı verdi belə adamaoxşamazın əlinə... Görürəm, əmim də onun sözünün qabağında söz deməyə ehtiyat eləyir, Şahımızın qəzəbindən çəkinir, bilir, heyətdə çuğul var, qayıdanda hər şeyi Xoca Səfərin ovcuna qoyacaq, o da Qibleyi-aləmə çatdıracaq. Elə sənin ehtiyatsız danışığın bu səbəbdən xoşuna gəlmədi...

– Həmin kosasaqqalın əlində cəmi məsələlərdə onunla məsləhətləşmək barədə Qibleyi-aləmin fərmanı var, – dedim. – Şübhəsiz, bu fərmanın ortaya çıxmasında Xoca Səfərin barmağı olmamış deyil. Bu səbəbdən, özünü çox arın-arxayın aparır. Hələ mən onun canfəşanlığının pis niyyətləriylə bağlı olmasından qorxuram...

– Deyirsən, Xoca Səfərlə əlbir olub, əcnəbi hökmdarlarla bəzi-bəzi şeylər çatdırar?! – Əliqulu bəy inamsız tərzdə soruşdu.

– Yox, – at ayaqlarının qar üstündəki yumşaq tappıltısını boğmaqdan ötrü səsimi bir az da qaldırdım. – Qorxuram, günlərin birində o hökmdarlara apardığımız qiymətli bəxşişləri götürüb, aradan çıxa...

– Buna cəsarət eləməz... – Əliqulu bəy başını buladı, – Qibleyi-aləmin qəzəbinə tuş gələr.

– Qibleyi-aləm onu Günbatan məmləkətlərində necə axtarıb tapacaq? – ona yanakı baxıb sordum.

Əliqulu bəy dinmədi, görünür, sualım ağlına batmışdı.

– Yaxşı, – sonra əlini dizinə çırpdı, – bu barədə hərtərəfli söhbət elərik, lazım gəlsə, əmimlə də danışarıq...

Yol boyu bir neçə kərə dayandıq, kirşəçilər atları açıb, qabağına torbada gətirdikləri quru otu tökdülər. Nökərlər od qalayıb, yemək hazırladılar. Yemək yeyəndən sonra xəz kürklərimizin üstünə uzanıb dincəldik, sonra təzədən yolumuza davam elədik.

*(...Beləliklə, Qazandan əhalisi 8.000 evdən (36.000 nəfərdən) ibarət olan Nijni-Novqorod (Aşağı Yenişəhər deməkdi, görünür, çökəkdə yerləşdiyinə görə bu cür ad qoyulub) adlanan şəhərə çatanacan səyahət elədik. Burda evlər Volqaboyunun hər yerində olduğu kimi, taxtadandı, amma şəhər bir tərəfi çayın qırağında ucalan daş hasarla dövrələnib. Biz bura gəlib çatan kimi, Moskov Knyazından əmr yetişdi – xəbər bizim gəlişimizə uyğun göndərilmişdi ki, burda bir ay ləngiyək, elə buna görə də sonrakı səfərimizi təxirə saldıq.*

*Nijni-Novqorodun camaatı xristian, həm də Moskov Knyazının təbəəsidi; amma onların şəhvani bir adəti var, kişilərlə qadınların bir yerdə, paltarsız lüt-üryan çimdikləri hamamları haqqında söz-söhbət dolaşır; bunun nəticəsində onların ünsiyyəti belə şeylərin mümkün olduğu hər hansı başqa bir ölkədəkindən daha sərbəstdi. Nijni-Novqorodda yemək Tatar diyarının, Moskov knyazlığının hər yerində olduğu kimi, çox ucuzdu – bu barədə artıq demişəm. Amma burda geyim bahadı, biz Knyazın əmriylə xoşumuza gələn hər şeyi sərbəstcə götürdüyümüzdən, doğrudan da, paltarımız həddən çox idi...)*

## 7.

Əlbəttə, heyətimizi məmləkətimizin, xanədanımızın, Şahımızın adına layiq yerdə – böyük, ikimərtəbəli taxtadan tikilmiş mülkdə yerləşdirdilər. Pirqulu bəy Əfşarın heyəti bir mülkə sığışmadığından nökərləri, xidmətçiləri yaxın evlərə doldurmalı oldular. Yenə Hüseynəli bəy xidmətçisiylə, mən Bünyad bəylə, Əliqulu bəy Həsənəli bəylə, Əlfəqih Əmir Yadigar bəy Məhəmmədlə bir hücrədə qalası olduq. Ser Antoni xidmətçisiylə düşmüşdü, katolik rahiblərə ayrıca bir hücrə verilmişdi, dilmanclarla mühafizəçilər iri hücrələrdə üç-üç, ya da dörd-dörd yerləşdirilmişdilər. Əliqulu bəylə sözləşib, qərara aldıq, Həsənəli bəyin ser Antoniylə hər cür ünsiyyətini önləyək, boğulan kəsin canını qurtarmaq üçün saman çöpü axtaracağını bilirdik.

Yenə hər iki elçi heyətini qarşılamağa Nijni-Novqorodun hakimi çıxmışdı. Başında bahalı xəz geyimlilərdən böyük dəstə varıdı, silah-əsləhələrinin bərbəzəyi göz qamaşdırırdı. Yolların qırağına düzülmüş camaat bizi salamlayır, öz dillərində nəsə qışqırır, yaylıq yelləyirdilər. Beş yüzdən artıq kirşənin şəhərə girməsi, bizim yerləşməyimiz yarım gün çəkdi. Uzaqdan gördüyümüz içşəhərin hündür qüllələri Qazanda gördüyümüz qülədllərə oxşayırdı, amma artıq burda Şərq ab-havasını sezmədik.

Bir gün dincələndən sonra şəhərin hakimi hər iki heyətin şərəfinə ziyafət verdi. Ziyafətdə Pirqulu bəy Əfşarın, həm də bizim elçilikdən əlliyə yaxın adam varıdı, bir o qədər adam da şəhərin adlı-sanlı zatları olardı. Əlbəttə, yerlilərin bol-bol içdikləri içkilərdən dadmadıq, dinimizdə belə şey

yasaqdı. Amma şübhəsiz, Əlfəqih Əmir olmasaydı, bir çoxları şərab içməkdən çəkinməzdi.

O gündən Həsənəli bəyə göz olmağı qulam Şəmsəddinə tapşırmışdıq. Fikrimiz katolik rahiblərlə ser Antoninin arasındakı dartışmanın səbəbini öyrənmək, əgər səfarətimizin niyyətinə xələl gətirərdisə, o səbəbləri aradan qaldırmağıydı. Bunu Yadigar bəy Məhəmmədə etibar eləyə bilməzdik, çünki artıq heyətimiz ətrafında, baş verən məsələlərin içindəydik, başqa adamların bu işə qarışması söz-sovun qırağa çıxmasına səbəb olardı. Ehtiyatsızlıq eləmək, ser Antonini duyuq salmaq da istəmirdik, tor qurub işimizi çətinə sala bilərdi, fürsət gözləmək, hər işi yerli-yerində görmək lazımıydı.

Əvvəlcə firəngcə dilmanclıq eləyən Kərim Toxmaqla dil tapmalıydıq, çünki katolik rahiblərin ser Antoniylə firəng dilində danışdığını eşitmişdik. Məsələni Əliqulu bəy boynuna götürdü: yəqin, dilmanc onun Hüseynəli bəyin qardaşı oğlu olduğunu bilirdi, tapşırığın Hüseynəli bəy tərəfindən verildiyini anlayardı, əlavə sorğu-suala ehtiyac qalmazdı.

Bu məsələləri yoluna qoyanacan iki həftə çəkdi. Axır ki, Əliqulu bəy mənə rahiblərlə söhbətin vaxtı olduğunu dedi. O gündən fürsət axtarırdıq, onlarla ser Antonidən, ona sadiq olan ingilislərdən gizlin ünsiyyət yarada bilək. Amma hiyləgər ingilis ehtiyat tədbirləri görübmüş: hər gün adamlarından ikisi rahiblərin böyründə olur, hərəkətlərinə göz qoyurdu. Artıq mənim səbrim tükənməyə başlamışdı, ancaq Əliqulu bəy ürək-dirək verir, bu düyünü çözəcəyini deyirdi.

Artıq məndə adət şəklini almışdı, gördüyüm yerlərin keçmişi, indisi barədə soruşub öyrənməyə çalışırdım.

Bu dəfə şəhər hakiminin əmriylə yanımıza göndərilmiş dilmancı söhbətə tutdum. Dediyinə görə, miladın on ikinci yüzilində *(hicrinin altıncı yüzili)* Oka adlanan çayın mənbəyində, indiki şəhərin yaxınlığında slavyan tayfaları kiçik bir şəhər salıblar. Sonrakı yüzildə Okanın Volqaya qarışdığı yerdə, köhnə şəhərin dörd ağaclığında *«Nijni» («aşağı»)* adlanan Novqorod salınıb. Əvvəl evlər torpaqdan, taxtadan tikilirmiş, içərisində ağacdan Mixayıl-Arxangel (*«Mələk-Mikayıl»*) kilsəsi tikilibmiş. Sonra ağ daşdan başqa bir kilsə də tikilib. İki kərə monqol-tatarların dağıtdığı şəhər yüz il keçmiş ayrıca Böyük Nijeqorod-Suzdal knyazlığı olur, Moskov və Tver knyazlıqlarına qarşı durur. Amma növbəti dəfə monqol-tatarlara yenilmədən sonra zəifləyib, Moskva knyazlığına birləşir. Qızıl Ordalılarla noqaylar, ardınca Qazan xanları bu şəhəri dağıdıb, var-yoxunu talayıb aparıblar. Qazanlı Ulu Məhəmmədin qoşunları şəhərə daha çox ziyan vurublar.

Daha bir yüz il keçəndən sonra Moskov knyazı Nijni-Novqorodda içşəhərin *(Kremlin)* tikilməsini əmr eləyib. Miladın on altıncı *(hicrinin onuncu)* yüz ilində Qazan xanları dəfələrlə Nijni-Novqoroda qoşun çəkiblər. Əlli il qabaq Qorxunc İvan Qazan xanlığını itaətə gətirəndən sonra şəhər dığıntılardan canını qurtarıb, daha da böyüyüb, gözəlləşib.

Dilmanc bütün bunları bizə içşəhəri gəzdirəndə danışdı. Ona da dedi, Vladimir knyazı Yuri Vsevolodoviç *(Vsevolod oğlu)* bu şəhəri salanda ətrafında dərin xəndəklər qazıb, hündür torpaq yığınları düzəltdiribmiş. O biri yüzildə qala hasarında Dmitrinin adına bir qüllə tikilib. Şəhər Moskov torpağına qatılandan sonra daha on iki qüllə ucaldılıb. O

qüllələrin beşi dördkünc, səkkizi girdədi. Qüllələrin hündürlüyü on beşlə otuz addım arasındadı. Dilmanc adlarını çəkəndə bir neçəsini yadımda saxladım: Xəzinə qülləsi, Saxlanc qülləsi, Quzey qülləsi, Gözətçi qülləsi, Bəyaz qüllə, Barıt qülləsi, İvan qülləsi *(o birilərin adları çətin olduğundan yadımda qalmadı).* Bu qüllələr bir-birinə qalın daş hasarla birləşdirilib. İçşəhərdə ağ daşdan tikilmiş kilsələri də gördüm, şəhər hakiminin yaşadığı təmtəraqlı sarayı da...

Əlbəttə, Əliqulu bəy dediyinə əməl elədi: o günlərin birində ser Antoninin sadiq adamlarıyla şəhər tacirlərinin görüşünə getdiyindən xəbər tutub, ingilisin katolik rahiblərə göz olan əlaltılarını Yadigar bəy Məhəmmədin təşkil elədiyi ziyafətə çağırdı, məclisin şirin vaxtında dilmanc Kərim Toxmağı götürüb rahiblərin yanına cumdu. Mən firəngcə bilməsəm də, var gücümlə rahiblərin başını qatmağa çalışırdım.

Əliqulu bəylə dilmancın qayıtması çox çəkmədi. Mənimlə göz-gözə gələndə hiss elədim, istədiyinə çatıb, arada çox maraqlı mətləblər var. Duruş gətirə bilməyib, dincəlmək bəhanəsiylə hücrəmə qayıtdım. Gözümü qapıya dikib vurnuxa-vurnuxa Əliqulu bəyi gözləməyə başladım, tərs kimi, onun gəlişi də xeyli çəkdi, görünür, şübhə oyatmamaq xətrinə ləngiməyi məsləhət bilmişdi. Lap o döyüş günlərindəki kimi, üzü allanmışdı, gözlərindən elə bil qor tökülürdü.

– Məsələ rahiblərə yox, rahiblə, daha doğrusu, dominikan rahib Nokolao de Moto *(ya da Meto, dəqiq deyə bilmərəm)* ilə bağlıymış, Oruc bəy, – Əliqulu bəy qarşımda dimdik dayanıb dilləndi.

– Nə baş verib? – onun dediyindən bir şey başa düşmədim.

– İsfahanda o rahib ser Antoniyə tümən borc pul veribmiş, – Əliqulu bəy izahata keçdi, – sonrasa ingilisin şirin dilinə aldanıb, doxsan ədəd almaz verib ki, saxlasın. Manqışlaqdan çıxandan sonra pulunu da, almazları da geri istəyib, ser Antoni də qaytarmaq istəmir, bu barədə söz salanda öldürməklə hədələyir...

– Hə-ə-ə... – İndi hər şey mənə aydın oldu. – Nə fikirdəsən, bu barədə Hüseynəli bəylə söhbət eləyək?

– Məsləhət görmürəm, – Əliqulu bəy başını buladı, – əmim əcnəbilərin işinə qarışmaq istəməz...

– Bəs, bir gün o kosasaqqal ingilis həmin zavallı rahibi doğrudan öldürsə, necə olsun? – Əliqulu bəyin gözlərinin içinə baxıb sordum.

– Alın yazısından qaçmaq olmaz, qismətində ölüm varsa, qabağını ala bilməzsən, – o, üstüörtülü danışdı.

– Hər halda, günahsız insanı yaramaz, təhlükəli bir fırıldaqçının öldürməsinə göz yuma bilmərik... – sınayıcı nəzərlərimi onun üzündən çəkmədim.

– Əlbəttə... – Əliqulu bəy başını tərpətdi. – Çalışarıq, belə bir şey baş verməsin...

Xeyli susduq. Sonra Əliqulu bəy şəhərdəki bolluqdan, rastlaşdığı qadınlardan danışdı. Dediyinə görə, dünən dükanlara baxanda cavanca bir qız ona ağzını açıb heyran-heyran baxırmış, üstəlik, öz dilində nəsə deyib, dilmanc bir az aralıda olduğundan, qızın nə dediyini başa düşməyib. Düzü, İsfahandan çıxdığımız altı ay olurdu, bir kişi kimi, bu müddətdə qadın mehrindən ötrü darıxmışdım, amma bu altı ay ərzində ağlımdan eşq macərası

yaşamaqla bağlı fikir keçməmişdi. Gecələrin sakitliyində gözəl Nisəxanımın təzə-tər vücudunu xəyalımda canlandırır, o vücudun məndən ötrü nələr çəkdiyini təsəvvürümə gətirirdim. Həmin anda oğlum Sultanəlinin məsum çöhrəsi gözlərimin qabağında canlanırdı. Bütün bunlardan sonra naməhrəm qadın barədə şəhvani duyğularla yaşamaq məndən ötrü çətiniydi.

O günlər ərzində Hüseynəli bəylə cəmi-cümlətanı beş-altı kərə üz-üzə gəldik. O mənim bağır basıb, salam verməyimə başını yüngülcə tərpətməklə cavab verirdi. Əvvəllər salamını alandan sonra gülümsəyər, ovqatımın necə olması barədə sual verərdi, indisə sual vermək bir tərəfə qalsın, özünü elə tuturdu, dərhal aralanmalı olurdum. Gündə üç kərə yemək-içməyimizi hücrələrimizə gətirdiklərinə görə, özü çağırmasa, Hüseynəli bəylə görüşməyə can atmırdım. Birinci kərə şəhər hakiminin verdiyi ziyafətdə, sonra içşəhəri gəzəndə rastlaşdıq, bir kərə özü çağırtdırıb, Moskov Knyazına Şahımızın göndərdiyi bəxşişlərin siyahısını tutdurdu, iki kərə həmin siyahıya düzəlişlər elətdi.

Yenə Mirzə Qədimin kitabxanasından götürdüyüm kitabları oxumağa cəhd elədim, amma ovqatım qarışıq olduğundan, hövsələm çatmadı. Axırıncı həftəni Əliqulu bəylə dilmanc götürüb şəhərdə gəzirdik, tikililərə baxırdıq. Xüsusən, rusların *«yarmarka»* dedikləri bazar çox xoşuma gəldi, burda dünyada nə desən, tapmaq olardı. Biz bu böyük bazarda hətta Təbriz xalçaları, Şirvan ipəyi, Dərbənd silah-əsləhəsi, Ərdəbil qumaşı, Qarabağ toxumaları gördük...

## 8.

*(...Nijni-Novqorodda sakitcə yaşadığımız bir ayın axırında yolumuza davam eləmək, saraya yollanmaq barədə əmr gəldi. Knyazın istifadə elədiklərimizə oxşayan, üstüörtülü oturacaqları olan kirşələrlə bizim arxamızca Nijniyə gəlmiş saray əyanlarından birinin dediyi tərzdə səfərə çıxdıq. İndi də bizi Nijni qalasının general-qubernatoru müşayiət eləyirdi. Bu qalanı 6.000 əsgərdən ibarət qoşun qoruyur, şəhəri gecə-gündüz türklərdən, tatarlardan mühafizə eləyir. Dəqiq deyə bilmərəm, onlar bizim haqqında danışdığımız həmin Perekop Ordasının tatarlarıdılarmı, amma mənə elə gəlir, bunlar (Volqaboyunda yaşayanlar) bu qədər uzaq quzeydə (Krımda) yerləşən torpaqları tutsalar da, Mərakeşdə yaşayan köçəri mavrlar kimi, əsl tatarlardı – onların yaşayış tərzi geridə qalmış ölkədəki adamların güzəranına oxşayır.*

*Altı gün ərzində Ederin sahillərini gözdən qaçırmadan irəli gedib Murom adlanan şəhərə gəldik. Bu, böyük, çox sıx əhalisi olan şəhərdi, ancaq tələsdiyimizdən, Muromun diqqətəşayan xüsusiyyətlərindən zövq almağa imkan tapmadıq. Bununla belə, mən çox özünəxas, mövhumatçı hekayət olsa da, burda danışdıqları, göstərdikləri bir əhvalatın üstündən sükutla keçə bilmərəm. Görünür, bu şəhərin əsas məşğuliyyəti, ticarəti iribuynuzlu mal-qaranın dərisini aşılamaqdı, bu iş o qədər çox görülür, şəhərdə min bir aşılama yeri var, hamı tamam bu sənətlə məşğuldu. Bundan başqa, şəhərdə bir quyu var, hər aşılama ustası öz min bir dərisini bura atır ki, tez aşılansın. Amma onlar lazımi vaxtdan sonra öz dərilərini bu quyudan çıxaranda görürlər, hansısa aşılama ustasının dəriləri tamam korlanıb, əldən çıxıb. Bu zaman onun yoldaşları, aşılama ustaları, özlərinin min dərisini bir yerə yığır, birinisə dərhal bütün dəriləri korlanan kəsə bağışla-*

*yır – hər kəs öz dərisini işarə, əlamətlərinə görə tanıyır – korlananların əvəzində düz min bir dəri alınır. Mənə elə gəlir, bu Şeytan işidi, hətta deyərdim, həmin əhvalat uydurmadı, diqqət verməyə dəyməz, ona görə ki, öz gözlərimizlə görməmişik. Amma o biri tərəfdən yenə mülahizə yürüdək: belə ki, dəriləri aşılamaq üçün yalnız bircə su quyusu var, hamı özünün eyni cür, eyni keyfiyyətli dərisini təmizləmək, aşılamaq üçün həmin quyuya atdığından, görünür, bir kəsə məxsus olan dərinin başqa kəsin dərisindən daha artıq korlandığına, demək olar, inanmaq mümkün deyil. Məsələn, necə təsdiq eləmək olar ki, quyuda məxsusi xüsusiyyət var – bir halda aşılayır, o biri halda korlayır? Bundan başqa, necə ola bilər, dərilərin sayı bu qədər dəqiq qalsın, həmişə məhz min bir dəri korlasın? Bütün bunlar şübhəsiz, onu sübut eləyir ki, bu suyun təbii təsiri deyil, əslində, İblisin şeytani işidi.*

*Beləliklə, Muromu ötüb keçdik, əvvəlki kimi kirşələrlə Volqanın mənbəyinə doğru hərəkət eləyə-eləyə üç gün ərzində Vladimirə çatdıq. Bu şəhər Muromdan xeyli böyükdü. 12.000 evdən (54.000 nəfər) ibarətdi, görünüşündən yaxşı təşkil olunmuş, gözəl idarə elənən icmaya oxşayır. Buranın qadınları gözəldi, amma onların geyim tərzi elə yaraşıqsız, qəribədi, rəng çalarlarının seçimində elə zövqsüzdülər, geyim gözəlliklərini artırmır. Kişilərin hamısı ucaboylu, möhkəmbədənlidi. Bu şəhərin görünüşü keçib-gəldiyimiz başqa şəhərlərin görünüşünün eynidi: həm də biz Vladimirdə bir gündən artıq dayanmadığımızdan, şəhər camaatının hörmət-izzətindən yararlanmağa imkanımız olmadı. Artıq burda Eder çayını sağ yanımızda qoyub, gözdən itirdik. Hələlik yuxarıda təsvir elədiyim üsulla, iki yüz əsgərdən ibarət mühafizəçisi olan general-qubernatorun müşayiətilə səyahət eləyə-eləyə nəhayət, Böyük Moskov Knyazının sarayına gəlib çıxdıq...)*

...Bu on gün ərzində Əliqulu bəylə qayğımız artmışdı. İndi Həsənəli bəyi qulam Şəmsəddinin öhdəsinə buraxıb, Yadigar bəy Məhəmmədə onlara göz olmağı tapşırmışdıq, özümüz katolik rahiblərin əyləşdiyi kirşənin yaxınlığında olmağa çalışır, ser Antoninin zavallı Nikolaoya xətər toxunduracağından ehtiyat eləyirdik. Düzdü, Əliqulu bəyin dediyinə görə, ona, üstəlik, Alfonso Sordero adlanan fransiskan rahibə məsələdən xəbər tutduğumuzu bildirməməyi dönə-dönə tapşırmışdı. Amma hiyləgər ingilis gəmidəki dava-dalaşından xəbər tutduğumuzu bilirdi, üz-üzə gələndə onun məni şübhəli-şübhəli süzdüyünü görürdüm, dibində cin qaynaşan gözlərinin xoşagəlməz ifadəsi uzun müddət yaddaşımdan çəkilib getmirdi. Əslində, bu cılız vücudlu, kosasaqqal, hiyləgər ingilisi iki barmağımla boğub öldürə bilərdim, heç qılınc döyüşünə çıxmağa da ehtiyac qalmazdı, amma qabağımı Şahımızın onun əlində olan fərmanı kəsirdi, içimdən qırıla-qırıla qalırdım. Kirşələri saxlayıb, namaz qılmaq, yemək, dincəlmək üçün dayananda dərhal ser Antoninin əlaltılarından iki nəfəri zavallı rahiblərin yanını kəsdirir, dua eləyəndə də, yemək yeyəndə də, dincələndə də gözlərini üstlərindən çəkmirdilər.

Nijni-Novqordla Murom arasındakı yolda az qala ser Antoniylə savaşacaqdım. Yarım günlük yoldan sonra nəfəsimizi dərmək üçün dayananda yenə rahib Nikolaonun firəngcə ingilisə nəsə dediyini gördüm. Deyəsən, zavallı rahib Moskova çatanda verdiyi borcun da, saxlancın da geri qaytarılmasını istəyirdi, əvəzində ser Antoni ona

nəsə qışqırır, yaxasından yapışıb qabağında atılıb-düşürdü. Sonra əlaltılarına nəsə dedi, onlar da rahibləri dartıb kirşədə oturtdular, özləri də yanlarını kəsdirib durdular ki, ser Antoni yemək yeyib, dincəlincə onu rahatsız eləməsinlər. Bunu görəndə ixtiyarsız süfrənin arxasından qalxdım, amma Əliqulu bəy vaxtında qolumdan dartıb duyuq saldı: Hüseynəli bəy süfrənin baş tərəfindən zəhmli nəzərlərini mənə dikmişdi.

Kirşəyə əyləşib yola düşəndə, Əliqulu bəylə aramızda dominikan rahibin borcuyla əmanəti barədə Hüseynəli bəyi xəbərdar eləməklə bağlı yenə söhbət oldu. Mən bu fikirdəydim, onun bu əhvalatdan xəbər tutması məsləhətdi, sabah zavallı rahibin başına bir iş gəlsə, əlbəttə, bundan bütün səfarətimizin nüfuzu ziyan çəkəcəkdi. Şahımızın fərmanı ingilisin əlində olsa da, Hüseynəli bəy onu yola gətirə, bu məsələni çözə bilərdi. Amma Əliqulu bəy dediyindən dönmür, əcnəbilərin arasındakı münasibətə qarışmağı nə bizə, nə də əmisinə rəva görürdü. Mən də onu inandıra bilməyəcəyimi anlayıb susdum...

*(...Moskov torpağının baş şəhəri Moskva adlanır, bu şəhərin əhalisi çox sıxdı. Moskov knyazlığı baş şəhərin adıyla adlanıb, həmin adsa Moskva şəhərindən keçən Moskov çayının adından götürülüb. Çay öz başlanğıcını şəhərin doqquz mil uzaqlığından götürür, yatağının kələ-kötür olması səbəbindən gəmiçilərin burda üzməsi, xüsusilə, baş şəhərlə Kolomna şəhəri arasında çətinliklə üzləşir. Bu barədə sonralar Covanni Boteronun kitabında oxumuşdum, o da həmin məlumatı Antonio Possevinonun (katolik xadimidi, Moskov knyazlığı haqqında kitab yazıb)*

*əsərindən götürüb. Sonra o iddia eləyir, Moskva 1570-ci ildə (miladi təqvimilə) Krım tatarlarının, türklərin əliylə yandırılıb-dağıdılandan sonra çevrəsi boyunca ölçüsü on ağacdan artıq olmayıb. Amma mən bu məsələni çox diqqətlə araşdırıb, onun ətrafını addım-addım gəzdim. Hesabladım, şəhərin əhalisi 80.000 evdən (360.000) nəfərdən ibarətdi, hətta bundan da çoxdu. Onlar sarayları, anbarları olan ayrıca evlərdə yaşayırlar, bunun nəticəsində burada adamların tutduqları torpaq lazım gəldiyindən artıqdı. Doğrudan da, mənə elə gəldi, camaat yaşayan ərazi tamam çevrəsinə görə, ən azı üç on beş ağacı, bəlkə də ondan artığını təşkil eləyir. Amma şəhərin ətrafına hasar çəkilməyib, açıq ərazidə yerləşir, onun müdafiəsini ətrafındakı bataqlıqlar, çaylar, uçurumlar həyata keçirir. Nəhəng saray (Kreml) hasarla əhatəyə alınıb, bu sarayın ərazisi o qədər genişdi, öz-özlüyündə əməlli-başlı şəhər böyüklüyündədi. Saray başdan-başa daşdan tikilib, gözəl quruluşu var, xüsusən də italyan üslubunda olan çar iqamətgahı çox gözəldi. Kreml o qədər böyükdü, şəxsən knyazın xidmətində olan bütün əyanlar burda yaşayırlar. Mən əslində, onların – bu evlərdə yaşayanların ümumi sayını bilmirəm, amma hasarın içərisində görünən evlərin sayı altı mindən artıq olar...)*

# ÜÇÜNCÜ FƏSİL

*Moskov knyazlığından Arxangelskə*
*1600-cü ilin yayı*

***Moskov Knyazının sarayında bizə göstərilən qəbul, Moskvada gördüklərimiz (səfarətimizin dörd xidmətçisinin məmləkətimizə qayıtması, zavallı dominikan rahibin yoxa çıxması, gözəl Anfisayla yaşadığım eşq macərası, Hüseynəli bəylə aramızdakı soyuqluğun daha da dərinləşməsi), çıxıb gedəndə Knyazla aramızda baş verənlər haqqında***

# 1.

Hə, İsfahandan çıxalı altı ay olurdu: bunu birinci kərə Nijni-Novqorodda, Əliqulu bəy bazarda gördüyü qız barədə danışanda bütün aydınlığıyla duydum, həmin vaxtdan bəri ömrümün Təbrizdə, Qəzvində, İsfahanda, eləcə də məmləkətin döyüşlərdə olduğum bütün yerlərində keçən günlər yaddaşımdan boy verirdi. Əlbəttə, Mirzə Qədimin kitablarından əlimə keçəni oxumuşdum, dünyanın nə qədər böyük yararlığını xəyalıma gətirə bilirdim, amma o vaxt yolların bu qədər uzun, adamların bu qədər cürbəcür olduğunu ağlıma yerləşdirə bilməzdim, bundan ötrü gərək səfərə çıxasan, gəzib-görəsən, rastlaşdığınız kəslərlə kəlmə kəsəsən.

Yadıma məndən ötrü aləmin hüdudlarının necə böyüməsilə bağlı ilkin duyğularım düşdü. Təbrizdəki doğulduğum evdən çıxıb həyəti görmüşdüm, həyətdən küçəyə ayaq basıb daha geniş, rəngbərəng məkanla üzləşmişdim, altı, ya yeddi yaşım olanda atam Sultanəli bəy məni Ərdəbilə, Böyük Şeyxin qəbrini ziyarətə aparmışdı, sonra Qəzvinə, ordan Bayat atlılarıyla birgə Şah Təhmasibin, Şahzadə Həmzə Mirzənin qoşunlarına qoşulub Gəncədən, İrəvandan ta Heratacan yollar keçmişdim, şəhərlər, qalalar, məscidlər, karvansaralar, dostlar-düşmənlər görmüşdüm, aləm barədə təsəvvürlərim hədsiz genişlənmişdi. Amma onda heç ağlıma da gəlməzdi, nə vaxtsa quzey məmləkətindən keçib, Günbatandakı yalnız adını bilib, haqqında oxuduğum dövlətlərə yollanacağam, atla, arabayla, gəmiylə, kirşəylə yollar keçəcəyəm, dillərini bilmədiyim adamlarla rastlaşacağam. İndi budu, altı aydı,

yollardayam, fırtınadan tutmuş, gizli qəsdlərəcən hər şeylə üzləşmişəm, yəqin bundan sonra da başıma bu cür əhvalatlar gələcək.

Hacı-Tərxanda İbrahim Seyidəhməd oğluna rast gələndə birinci kərə ağlımdan bu sual keçmişdi: görən, mən ömrüm yad məmləkətdə, yad adamların arasında yaşaya bilərəmmi? Əlbəttə, İbrahimin vəziyyəti bir qədər yaxşıydı, ailəsi yanındaydı, dilini, adət-ənənəsini bildiyi adamların arasında yaşayırdı, müsəlmançılığını saxlamağa imkan varıdı; amma bununla belə, onu Şirvandakı yurd-yuvasından ötrü nə qədər acı çəkdiyini görmüşdüm. Bilmirəm, Nisəxanımla Sultanəli yanımda olsalar da, mən bu yad məmləkətlərdə yaşaya bilərəmmi? Təbrizdən Qəzvinə köçəndə neçə il özümə rahatlıq tapa bilməmişdim, Qəzvini İsfahana dəyişdiyim bir il ərzində yuxum ərşə çəkilmişdi...

Nədənsə axır vaxtlar oxuduğum tarix kitablarında soykökümüzlə – Bayat tayfalarıyla bağlı yazılanlar diqqətimi daha çox çəkirdi. Əmir Soltan İbrahim Əmini Həvərənin «Fütuhat-i Şahi», Əli Zeynalabdinin «Təkmilat-əl-əxbar», Hürşah Bürhanın «Tarix-i-elçi-i Nizamşah», Budaq Qəzvininin «Cəvahir əl-əxbar», Həsən bəy Rumlunun «Əhsən ət-təvarix», Qiyasəddin ibn Hüməməddin əl-Hüseynin (tarixdə Mir Mahmud bin Xondəmir kimi qalıb) «Həbib əs səyyar» kitablarını oxumuşdum, qeyri kitabları da götürmüşdüm, səyahətim boyu oxuyacaqdım. Hərəsindən bayatlar barədə bir qədər məlumat almışdım, bilirdim, Ağqoyunlular zamanında Gündoğandan gələn türk soylarındandı. Həmədanın güney-doğusunda, Nişapur həndəvərində yurd salıblar. Hərəsi on min çadırdan artıq olan bu yurd yerlərindən sonralar Təbrizə, Kərkükə,

Şirvana qollar ayrılıb. Cığatay ulusuna mənsub olanlar qara bayatlar, Hələb türkmənlərisə ağ bayatlar sayılır. Ağ bayatlar Təbriz, Bağdad, Dərbənd arasında yayılıb. Bayatlardan Bəyazid qalasında Yarəli Sultanın, Makuda Gədəli Sultanın, Çuxursəddə Bədir Sultanın, Şirvan, Dərbənd, Şabran tərəflərdə Fərrux Sultanın çox adlı-sanlı qalabəyi, qoşun başçısı olduğunu rəhmətlik atam Sultanəli bəy danışmışdı. Qismətimdən Mirzə Qədim də ağ bayatlara mənsubuydu, bunu sonralar, Nisəxanımla evlənəndən sonra Həsən bəy Rumlunun kitabı barədə söhbətimiz vaxtı bilmişdim. Deməli, oğlum Sultanəli adını daşıdığı babasının, mənim – Oruc bəy Bayatın layiqli varisimiz olacaqdı...

Əlbəttə, gəncliyim məmləkətimizin qilü-qallı vaxtına düşməsəydi, əlimə qılınc götürüb döyüşmək könlümcə olmazdı. İskəndər bəy Münşi kimi, məmləkətimizin tarixini yazar, şeirlərimi kağıza köçürüb, divan bağlayar, rəsmlər çəkib, kitablar bəzəyərdim. Elə Mirzə Qədim də bu fikirdəydi, deyirdi, oğlum, onsuz da məmləkətdə döyüşənlər həmişə çox olur, sən çalış, elm-sənətə vaqif olasan. Amma ustadım deyən olmadı, ən ağır vaxtda atam Sultanəli bəy silah götürməyi tövsiyə elədi, mən də sözündən çıxa bilmədim. Sonra Bayat dəstəsində onun yerini tutdum, daha sonra qoşunda yüksək məqama çatdım. Amma İskəndər bəy vəkil – Etimad-üd-dövlə Hatəm bəy Ordubadinin sayəsində Şahımızın şəxsi mirzəsi məqamına çatdı, odur, indi aləmi bəzəyən Şahımız barədə kitab yazır, yazdıqları da, ad-sanı da tarixdə yüzillərlə qalacaq.

Şübhəsiz, arzuladığım həmin işləri bundan sonra da görə bilərdim: qırx yaşım təzəcə tamam olurdu, bununla belə, dünyada çox şeylər görmüşdüm, görüb-götürmüş-

düm, Şahımızın sayeyi-mərhəmətindən xidmətlərimə görə yaxşı məvacib alardım, ailəm, varisim varıdı, mənə gərək olan elmləri, xəttatlığı, rəsm çəkməyi mənimsəmişdim, çoxlu oxuyub-öyrənmişdim, bundan belə oturub salnamə yaza, şahid olduğum əhvalatları qələmə ala bilərdim. Ola bilsin, Günbatan ölkələrə səfərimi başa vurub, bütün bunları qələmə alacaq, yazdığım şeirləri toplayıb, bir divan bağlayacaqdım. Hələ bu Allahdan başqa kimsəyə ayan deyildi.

Bu səfarətin məmləkətimizin tarixində birinci olmadığını bilirdim. Ağqoyunlu hökmdarlarının, eləcə də böyük Şah İsmayılın vaxtında belə gediş-gəlişlər olmuşdu. Miladın 1551-ci ilində *(hicri 958-ci il)* Şah Təhmasibin vaxtında Portəgiz kralı ikinci Xuanın elçiləri Qəzvinə gəlibmiş. İyirmi dörd, iyirmi beş il sonra onun varisi don Sebastianın göndərdiyi elçiləri Şahımız qəbul eləməmişdi, çünki portəgizlər dəryada ələ keçirdikləri adaların müsəlmanlarını incidirdilər. O, elçilərin geri qayıtmasına da izin verməmişdi. Yalnız Şahımızın atası Məhəmməd Xudabəndə taxta çıxandan sonra o girovlar evlərinə qayıda bilmişdilər. Mən Roma papası Üçüncü Qriqorinin elçisi Vinçenso Alessandrininin Qəzvinə gəlişinin şahidi olmuşdum. Məhəmməd Xudabəndə bir neçə il sonra Osmanlıya qarşı birləşmək niyyətilə İspan və Portəgiz Krallarına namə göndərmişdi. İndi budu, on ildən sonra biz həmin məramla Günbatan məmləkətlərinə gedirdik.

Bütün bunları Moskov torpağının baş şəhərinə yaxınlaşanda, qarla örtülü aləmin ortasında dikələn qala və kilsə qüllələrinə baxa-baxa ağlımdan keçirirdim. Qəfildən məmləkətim, ailəm, oğlum, Mirzə Qədimin mədrəsəsinin

o alçaqtavanlı, yarıqaranlıq hücrəsi, aləmin gedişatı, şeir-sənət barədə söhbətlərimiz üçün elə qəribsədim, Şahımızın qəzəbindən çəkinməsəydim, elə bu Moskov torpağındaca səfərimə son verər, gəmilərin birinə minib geri qayıdardım. Amma şübhəsiz, bunu eləyə bilməzdim, qarşımda əsrarəngiz məmləkətlər, ağlagəlməz əhvalatlar, bir-birinə oxşamayan adamlarla görüşlər dururdu, bundan sonra taleyimin necə olacağı təkcə İlahidən asılıydı...

## 2.

Bayaq tələsib, bir qədər irəli qaçmışdım. Muromdan Moskvaya uzanan yolda şübhəsiz, məni ən çox narahat eləyən ser Antoninin acıqlı-qızdırmalı görkəmiydi. Görünür, dominikan rahibin inadkarlığı onu hövsələdən çıxarmışdı, Nikolaodan canını qurtarmaq barədə fikirləşir, buna fürsət axtarırdı. Əliqulu bəy aradabir kirşəçini dürtmələyir, əlinin işarəsiylə ondan ingilisin əyləşdiyi kirşənin yanınca sürməyi tələb eləyirdi. Mən ehmallıca Əliqulu bəyin qızğınlığını ovutmağa çalışırdım, istəmirdim, bu canfəşanlığı ser Antoniyə ayan olsun, ya da Hüseynəli bəy sezib səbəbiylə maraqlansın.

Amma Əliqulu bəyin bu ehtiyatı səbəbsiz deyilmiş. Yolumuz uçurumun qırağından keçirdi, sağ tərəfdə deyəsən, əvvəllər çay yatağı olmuşdu, beş-on addım o səmtə gedən hündür yarğanın qaşına çatardı. Həmin yerdə ser Antoniylə xidmətçisinin əyləşdiyi kirşə get-gedə rahiblərin kirşəsini uçuruma doğru sıxışdırmağa başladı. Mən bir anlığa rahiblərin qorxmuş, kirşəçinin təəccüb dolu üzünü gördüm, başa düşdüm, bir an geciksək, atlar kirşəqarışıq yarğandan aşağı yuvarlanacaq. Əliqulu bəy kirşəçiyə: «Sağa, sağa, aralarına gir!» – qışqırırdı, kirşəçi də deyiləni başa düşmədiyindən, cilovu çəkib, atları saxlamağa çalışırdı. Bu vaxt ser Antoninin kirşəsi havaya qalxıb, yanı üstə aşdı. Mən əvvəlcə nə baş verdiyini anlamadım, amma ingilislə xidmətçisini qarın içində görəndə rahat nəfəs aldım. Görünür, kirşə ağac kötüyünə, ya da daşa ilişmişdi. Hiddətindən, üstəlik də soyuqdan pörtmüş ingilisin pişik balası kimi çapalayıb, qarın içindən çıxmağına, xidmətçinin

ona sarı sürünməsinə, kirşəçinin yıxılsa da, cilovu əlindən buraxmayıb, atları dayandırmağa çalışmasına baxa-baxa gülməkdən özümü saxlaya bilmədim.

Hə, deyəsən, artıq hekayətimizin çox cəlbedici məqamının üstünə qayıtmaq vaxtıdı...

*(...Günlərin birində, noyabr ayının bir cümə günü səhər gün adam boyu qalxanda baş şəhərə gəlib çatdıq, bizi çoxlu camaat qonaqpərvərliklə qarşılamağa çıxdı – moskovlular təntənə düşkünüdülər. Knyazın sarayına hər hansı şahzadə, yaxud elçi gələndə, ictimai fərmanla bayram elan olunur, həmin gün kimsə işləmir. Sonra hər bir kəs şəhərin girişindəki görüş yerinə getmək üçün ən yaxşı, ən gözəl paltarını geyinib, sarayın qarşısına yığışmalıdı. Onların bu xüsusi günlərdə hər hansı iş görməmələri, doğrudan da, yaxşıdı, amma başqa müqəddəs günlərdə səhərdən-axşamacan vicdanla işləyirlər. Bununla belə, digər bütün məsələlərdə mənsub olduqları Yunan kilsəsinin nəsihətlərinə dəqiq əməl eləyirlər.*

*Knyazın fərmanıyla bizi qarşılamağa çıxan saray əyanlarının – onların hamısı adlı-sanlı ağalar, məqamı olan adamlar, qraflar, mənsəb sahibləriydi – sayı mənə elə gəlir, altı mindən çox olardı. Knyaz bizi gətirmək üçün iki yüz balaca ekipaj (üstüörtülü araba) göndərmişdi, ekipajlara gözəl, yaxşı bəzənmiş atlar qoşulmuşdu, ekipajların hər biri isti döşənmişdi, faytonçular yaxşı geyinmiş, atların belinə şir, pələng dəriləri salınmışdı; bütün bunlar adamları və atları ilin bu vaxtında çox sərt olan soyuqdan qorumaq üçün edilmişdi. Şəhərə girişin iki ağaclıq məsafəsinə çatanda, öyrəndik, bizi qarşılamaq üçün Knyaz mühafizəsindən adamlar göndərilib, sonra onlar bizim keçib-gəldiyimiz yolun sol, sağ tərəflərində düzüldülər. Mühafizəçilərin hamısı ox-ka-*

*manla silahlanmış başqa əsgərləri nəzərə almasaq, piyadalardan, tüfəngçilərdən ibarətiydi; məşəlləri aparanların sayı 10.000 nəfər olardı. Biz onların səflərinin arasından keçib gedirdik, hər bir əsgər də farağat durub, yanan məşəlini saxlayırdı. Çarın nə qədər böyük olduğunu bilməyiniz üçün xatırladım, Moskov torpağının Böyük Knyazı ikiqat çardı, ona görə ki, o, on beş hersoqluğun, on altı knyazlığın, iki çarlığın hökmdarıdı. Onun torpaqları quzeydə Böyük Quzey Buzlu Dəryasından, Qranvik körfəzindən Ob çayınadək uzanır, güneydə Eder, yaxud Volqa çayıyla hüdudlanır, burda Xəzər dənizinə çatır; günbatanda onun məmləkəti Livoniyada, Borisfen, yaxud Buq çayının yerləşdiyi yerdə qurtarır; eyni zamanda biz günbatan hüdudlarında yenə Volqaya rast gəlirik. Moskva məmləkətinin eni 25.000 ağac, uzunluğu isə 12. 000 ağacdı.*

*Böyük Knyaz həddən artıq varlıdı, ona görə ki, öz təbəələrinin həm həyatının, həm də əmlakının sahibidi, məmləkətində məktəblərə, universitetlərə yer vermir ki, kimsə onun bildiyindən artıq bilsin; buna görə də qubernatorlardan, dövlət katiblərindən heç biri Böyük Knyazın izin verdiyindən artıq bilməyə cəsarət eləməz. Əgər təbib əcnəbidisə, kimsəyə müalicə olunmaq üçün ona üz tutmağa icazə verilmir; bir kimsə başqa məmləkətə getmək, başqa xalqlarla ünsiyyətdə olmaq, bir şey öyrənmək üçün ölüm qorxusu altında Moskva torpağını tərk eləyə bilməz. Moskov torpağında nə dilənçi, nə də oğru var; birincilərə həmişə, istənilən vaxt bol yemək verərlər, ikincilərisə ömürlük zindana salmaqla cəzalandırarlar. Kimisə hər hansı cinayətə görə ölümə məhkum eləmirlər, kim başqa ölkədə məhkum olunubsa, burda ömürlük həbs verirlər. Beləliklə, bir cinayət işlətmiş adam, ikinci cinayət eləyə bilməz, o, necə deyərlər, zindana diri-diri dəfn olunur. Din məsələlərində moskovlular öz kilsələrinə çox hörmət*

*eləyirlər. Onların «Tövrat», «Müqəddəslərin həyatı»ndan başqa kitabları yoxdu, bütün adamlar boyunlarında xaç gəzdirirlər. Bir adam kilsəyə girəndə, əvvəlcə torpağı öpür, sağ əlində Əlahəzrət, Xilaskar İsa Məsihin təsvirini aparır. Sarayda, Böyük Knyazın taxtı üzərində həmişə yepiskopların geyimi kimi paltar geymiş Məryəm ananın təsviri asılır, onun da barmaqlarında çoxlu üzük var...)*

...Bizi qarşılamaq üçün mərasimin bitməsini gözləyəndə dilmancın vasitəsilə Böyük Knyaz barəsində sorğu-sual eləmişdim. Eşikağasının xidmətinə daxil olan şəxslərdən biri həvəslə danışmışdı. Onun dediyinə görə, Qorxunc İvan oğlu Fyodorun dövlət işlərinə yaramadığını görüb, qəyyumlar seçmişdi. O qəyyumlardan biri də indiki Böyük Knyaz Qodunovuydu. Babaları Qızıl Orda tatarlarından Çete Mirzənin törəmələriydi, vaxtilə Böyük Knyaz İvan Kalitanın yanına qaçıb gəlmişdilər, burda Zaxari adıyla xaç suyuna çəkilib Kostroma-İpatyev monastırını tikmişdilər. Boris çarın yanında sadaqçı olub, onun qəlbinə yol tapandan sonra Marfayla toyunda bizim adətimizcə desək, soldış olur. Varlı ailədən evlənən Boris üstəlik, bacısı İrinanı şahzadə Fyodora verməklə yerini lap möhkəmlədir, boyar məqamına çatır. Qorxunc İvan qəzəbinin şiddətli vaxtında oğlunu əsasıyla ölümcül yaralayır. Bu vaxt kiçik oğlu Dmitrinin vəliəhd olacağı barədə söz-söhbət yayılır, amma Dmitri müəammalı tərzdə ölür, bundan sonra Qorxunc İvanın kəmağıl oğlundan başqa varisi qalmır. Çar öləndən sonra taxta Fyodoru çıxarırlar, Boris qəyyumların hamısından zirək çıxır, onları bir-bir aradan götürür, o vaxtdan əslində, rus torpağının çarı, Bö-

yük Knyazı olur. Fyodor öləndən sonra arvadını çar kimi görmək istəyirlər, amma o doqquz gündən keçmiş monastıra gedib, rahibə olur. Beləliklə, Qorxunc İvanın varisi qalmadığından hamı Borisdən taxta çıxmağı xahiş eləyir. Amma Boris bu xahişlərdən boyun qaçırır, yalnız dönə-dönə xahiş eləyəndən sonra taxta çıxmağa razılaşır. Biz Moskvada olanda, onun taxta çıxmasının iki ili tamamlandı, camaat bunu çox böyük təntənəylə bayram elədi...

Saveli adlı həmin eşikağası xidmətçisi ortaboylu, enlikürəkli, qırmızıyanaqlı bir kişiydi, bildiklərini çox həvəslə danışırdı, görünür, çoxdandı uzaq yerdən gələn bu qədər uca məqamlı qonaq görməmişdi. Əlbəttə, tutduğu məqama görə mühafizəçilərlə tüfəngçilərin səfləri arasından əvvəlcə Şahımızın şəxsi elçisi Pirqulu bəy Əfşarın heyəti keçib getdi: öndə elçinin arxasınca əyanların, mirzələrin, dilmancların addımladığını görmək adama qürur verirdi. Sonra Hüseynəli bəylə ser Antoni, arxada bizim heyətin əyanları, mirzələri, dilmancları, ingilisin başındakı adamlar addımlayırdı. Əliqulu bəy mənim yanımca gedirdi, geridə – Yadigar bəy Məhəmmədlə qulam Şəmsəddinin arasında Həsənəli bəy gəlirdi. Gözucu arxaya baxanda zavallı rahiblərin ayaqları dolaşa-dolaşa yeridiklərini gördüm, üzlərindəki qorxu hələ də tamam çəkilib getməmişdi.

Hələ uzaqdan şəhərin ortasında əzəmətlə ucalan içərişəhərin *(Kremlin)* ətrafına çəkilmiş ağappaq, qardan seçilməyən hasarı yaxına gəldikcə daha aydın görürdük. Rusların Çar divarı, yaxud Ağşəhər adlandırdıqları bu hasarın üzərində çoxlu sayda bəzəkli *(sayı iyirmi beşdən otuzacan olardı)* qülləni, çıxıntını gördük. Biz şəhərə Arbat qapısından girirdik, sonra öyrəndim, şəhərin daha doqquz gi-

riş qapısı var. Arbatın nə demək olduğunu mənə heç Seveli də izah eləyə bilmədi, görünür, buralarda çox geniş yayılmış türk-tatar adlarındandı. Hələ şəhərin bir tərəfi rusların «Kitay-qorod» adı verdikləri Çin şəhəridi, deyəsən, bu da həmin səmtdəki tikililərin zahiri görünüşüylə bağlıdı.

Saveli onu da dedi, doqquz il qabaq Moskvada bədbəxtlik bədbəxtlik ardınca gəlirmiş. Kiçik şahzadənin ölümündən sonra Moskvada bir yanğın başlayıb ki, şəhərin Çertol darvazasından Neqlinnı darvazalarınacan nə varmışsa, hər şeyi külə döndərib. O vaxt bu yanğını indiki çarın – Böyük Knyazın üstünə atıblar, guya camaatın fikrini şahzadənin ölümündən yayındırmaq istəyib, sonra da dərdli camaata sədəqə verib, özünü şirin salsın. Elə həmin yay da Qırım xanı Qazi Gireyin qoşunları Moskvanın üstünə gəlib, Ağ şəhəri ala bilməsələr də, divardan güneydəki evləri yandırıblar. Bu fəlakəti də indiki hökmdarın üstünə atıblar. Sonra Skrodom, yaxud Torpaq şəhər adlanan o hissənin ətrafına da hasar çəkilib, on iki darvaza, əlli yeddi qüllə tikilib. Bir də şəhərin Moskva çayından o tərəfdəki qismi varıdı, əgər yadımda düzgün qalıbsa, Seveli adına Zamoskvoreçye demişdi.

Bizi qarşılamağa qalxanların əl yellədiklərini, gülə-gülə nəsə dediklərini görüb-eşidirdim, onların baxışlarında təəccüb, heyrət, bir qədər də həsəd varıdı, yəqin, güney məmləkətindən gələn ucaboylu, yaraşıqlı, qaraşın kişilərin görkəmi moskovlulardan ötrü həmişə görmədikləri tamaşaydı. Onların arasında başlıqlı xəz kürək geyinmiş, yanaqları allanan, gözləri parıldayan cavan zənən xeylağı da görürdüm, beləcə qoruq-qadağasız, gülə-gülə yad kişiləri salamlamalarına sidq-ürəklə heyrət eləyirdim. Dimdik qu-

ruyub qalmış tüfəngçilərin birinin arxasından boylanan qızınmı, qadınınmı gözləriylə gözlərim rastlaşanda, qəfildən səfərim boyunca duymadığım nəşəli bir hiss vücudumu qapladı, beş-altı addımlıq yol ərzində o gözlərin mənə nələrsə demək istədiyini anladım. Sonra o gözlərin sahibi tüfəngçilərin arxasıyla səf boyu yeridi, nəzərlərini məndən çəkmədi, yalnız tüfəngçibaşının yanına çatanda, ayağını ləngidib geri qaldı...

Əlbəttə, Əliqulu bəyin dümsüyünü böyrümdə hiss eləməsəm də, onun baş verənləri gördüyünə şübhəm yoxudu: xasiyyəti beləydi, özgələrinin görüb-sezə bilmədiklərini tutmağı çox yaxşı bacarırdı. Üzümə sözlü-sözlü baxıb gülümsədi, yəqin, meydana çatmasaydıq, nəsə deyəcəkdi. Elə bu vaxt tüfəngçibaşının zəhmli səsi eşidildi, qəfləmiz meydanın ortasında dayanan bahalı kürk geyinmiş, başında dələ xəziylə haşiyəli, üstü daş-qaşla bəzədilmiş papaq olan sarısaqqal şəxsin – görünür, sarayın baş idarəçisiydi – şəxsin qənşərində dayandı. Əvvəlcə Şahımızın xüsusi elçisi Pirqulu bəy Əfşar irəli çıxıb dilmancın vasitəsiylə Qibleyi-aləmin salamını, xeyir-dualarını çatdırdı, cəmi rus torpağının çarı və Böyük Knyazının hüzuruna yetişməyi özündən ötrü böyük şərəf saydığını bildirdi. Sonra Hüseynəli bəy Bayat Şahımızın əmriylə Günbatan məmləkətlərin hökmdarıyla görüşüb-danışmağa getdiyimizi, Böyük Knyazın torpağına qədəm basdığımıza görə özümüzü hədsiz xoşbəxt saydığımızı söylədi. Axırda kürkün içində itib-batmış ser Antoni qabağa getdi, cır səsiylə nəsə üdüləyib-tökməyə başladı, bunları başa düşməsəm də, yəqin, Hüseynəli bəyin dediklərinə qüvvət verirdi.

Həmin şəxs gur səslə danışmağa başladı. Dilmancın türkcəmizə çevirməsindən belə başa düşdük, Böyük Knyaz artıq bizim Moskvaya gəlişimizdən xəbərdardı, qüdrətli güney qonşusu olan məmləkətimizlə isti münasibətlər qurmağı həmişə arzulayıb, ümidvardı, səfarətimizin bu gəlişi aradakı dostluq və mehribanlığı daha da artıracaq. Bundan sonra o, artıq dincəlməyimizdən ötrü yer ayrıldığını, Əlahəzrət Böyük Knyazın hüzuruna getmək üçün vaxtın bildiriləcəyini dedi, bizi iqamətgahımıza aparmaq barədə əmr verdi.

*(...Beləliklə, bizi nəhayət, Moskvaya gətirdilər, qalaya oxşayan çox gözəl evlərdə yerləşdirdilər; bir evdə onlar Şahımızın Knyazın yanına göndərdiyi şəxsi elçisinə yer verdilər; o biri evi elçimizlə birgə bizə ayırdılar; üçüncüdə bütün ingilisləri yerləşdirdilər, bizim mühafizəmizisə üç yüz silahlı əsgərə tapşırdılar. Sonra Knyaz hər evə üç dilmanc olmaqla, türkcəmizdə gözəl danışan doqquz dilmanc göndərdi; ardınca o, bizə çoxlu ərzaq yolladı. Sonra səkkiz gün dincəldik...)*

Şübhəsiz, bütün bunlar yaxşıydı, amma mənim rahatlığımı əlindən alan iki məsələ vardı: birincisi, ingilislə ayrı-ayrı evlərdə yaşadığımıza görə, ser Antoninin bədbəxt dominikan rahibin başına nə gətirəcəyindən xəbər tutmağımız çətin olacaqdı; Böyük Knyaz dilmanc göndərdiyindən, daha bizim dilmancın ingilislərin yanında qalmasına ehtiyac qalmamışdı, bəd ayaqda heç olmasa, bu imkandan yararlanardım. İkincisisə, şəhərə girdiyimiz gün Böyük Knyazın pişvaza göndərdiyi piyadalarla tüfəngçilərin səfləri arasından keçib gələndə, rastına çıxan o soyuqdan allan-

mış yanaqlarla nəsə deməyə çalışan gözləriydi, nə illah eləyirdim, xəyalımdan silinib getmirdi, yatanda da, duranda da məni addım-addım izləyirdi. Əlbəttə, o məqamda gözəl Nisəxanımın çöhrəsi, oğlum Sultanəlinin məsum üzü də gəlib gözlərimin qabağında dururdu, üstəlik, mənimlə o baxışların arasına sipər çəkməyə çalışırdı.

Demək olar, hücrəmdən eşiyə çıxmırdım, gündə bircə kərə çıxandasa, yaşadığımız evin qarlı həyətində o başbu başa gəzişir, şaxtalı təmiz havanı ciyərlərimə çəkir, xəyalıma qızmar İsfahan yayının dözülməz bürküsünü gətirirdim. Hələ, rastlaşdığım adamlar arasında ölüvay, xəstəhal adamlar görməmişdim, hamısı sağlam, enlikürək, qırmızıyanağıydılar, çox güman, sərin havadan, doyunca yeməkdən bu cür tox görünürdülər.

## 3.

Axşamlar Saveli dilmancını yanına alıb iqamətgahımıza gəlirdi, bir əyər-əskiyimizin olub-olmadığını soruşurdu, sonra şirin söhbətə girişirdi: ən çox da məmləkətimiz, Şahımız, adət-ənənələrimiz barədə soruşurdu. Bizim kimi mədrəsədə oxumasa da, dərrakəli, hər şeyin içinə yetməyə çalışan adamıydı, özü də az eşidib-öyrənməmişdi...

Bu dəfə Əliqulu bəylə bir hücrəni tutmuşduq, xidmətçilərimiz də girişdəki xırdaca otağa sığınmışdılar. Əliqulu bəylə yaxşı qızdırılan hücrədəki döşəkçənin üstündə oturub, asta-asta söhbət eləməyi, olub-keçənlərdən baş çıxarmaq üçün gördüyümüz hər şey barədə danışmağı xoşlayırdıq. Mənim düşüncəmə görə, artıq dominikan rahibi qorumaq imkanından məhrumduq, bədbəxt rahibin bundan sonra başına nə gələcəyini demək olmaz: bəlkə ser Antoni doğrudan da, hədəsini gerçəyə çevirəcək, bəlkə də rahib canının qorxusundan qaçıb Böyük Knyazın adamlarından sığınacaq istəyəcək.

– Bu iki səbəbə ağlabatan deyil, – Əliqulu bəy fikirli-fikirli saqqalının çevrəldiyi çənəsini qaşıdı, gözünü qıyıb, öz içində nəyisə çək-çevir elədi. – Ser Antoni niyyətini biz rus çarının qonağı olduğumuz müddətdə yerinə yetirməyə cəsarət eləməz, yəqin Moskvadan yola düşməyimizi gözləyəcək, o vaxtacan rahibin başını şirin vədlərlə aldadacaq...

Əliqulu bəyin susduğunu görüb dik-dik üzünə baxdım:

– Bəs ikinci səbəb?

– İkinci səbəb odu, artıq ser Antoni bizim məsələdən xəbər tutduğumuzu bilir, dominikan rahibdən yaxasını

qurtarmaq üçün daha əlverişli fürsət gözləyəcək, məsələn, dəryada gəmiylə gedəndə, tufana düşəndə bu işi görməyə çalışacaq...

– Ola bilsin, sən haqlısan, – dedim, – amma ən azı ser Antoninin yanındakı kiminsə vasitəsilə bədbəxt rahibə göz olmalıyıq. Elə firəng dilmancı Kərim Toxmağı bu işə qoşmaq mümkündü. Ser Antoninin dilmancları arasında onun yaxın tanışı olmamış deyil...

– Elə günü sabah mən bu məsələni yoluna qoyaram, – Əliqulu bəy məni arxayın saldı.

Neçə illərdən bəri tanıdığımdan, dönə-dönə sınaqdan keçirdiyimdən, onun dediklərinə inandım, amma yenə ürəyim səksəkədəydi, hər şeyin yaxşı sonluqla başa çatacağına özümü çətinliklə inandırdım.

Moskov şəhərində məskun olduğumuz ilk günlərdə könlümü çulğalayan narahatlıq duyğusundan yaxamı qurtara bilmirdim. Hüseynəli bəyin yanında Şahımızın xristianları himayə eləməsi barədə ağzımdan qaçırdığım sözlər qırxayağa dönüb, beynimi cırmaqlayırdı. Bilirdim, Hüseynəli bəyi çoxlarına ayan olan bu həqiqətin özünə yaxın sandığı, etimad göstərib bu cür uca məqamlı səfarət heyətinə saldığı şəxsin ağzından çıxması *(həm də tamam-kamal bel bağlaya bilmədiyi adamların yanında)* rəncidə salmışdı. Əlbəttə, Hüseynəli bəyin qorxacaq yeri Əlfəqih Əmir sarıdan ola bilərdi: axır vaxtlar dövlətxanada sayı artan, Şahımızın etibarlı *"göz-qulağı"na* çevrilən farsların törətdiyi qorxu yavaş-yavaş xanədanın dayağı olan türk əmirlərin qəlbinə çəkməyə başlamışdı. Şübhəsiz, Əlfəqih Əmir səfarətimizdə uca dinimizin gözətçisi olmaqdan başqa Şahımızın *«göz-qulağı»* vəzifəsini də yerinə yeti-

rirdi, məmləkətə qayıdandan sonra söylənən sözlərin, edilən hərəkətlərin haqq-hesabı çəkiləcəkdi. Belə çıxır, artıq iki qüvvənin arasında qalmışdıq: Əlfəqih Əmirlə Yadigar bəy Məhəmməd Şahımızın iradəsini, tapşırığını yerinə yetirirdilər, Həsənəli bəy Xoca Səfərin niyyətini gerçəkləşdirməyə çalışırdı, biz Hatəm bəy Ordubadiylə İskəndər bəy Münşinin, həm də səltənətin dayağı olan əmirlərin istəklərinə əməl eləyirdik; bu tərəfdən də ser Antoni öz oyununu oynayırdı: görünür, onun əsl niyyəti Şahımızla Avropa hökmdarları arasında ittifaq yaratmaq yox, olub-keçənlərdən öz payını götürməyiydi...

Qulam Şəmsəddin Həsənəli bəyi elə ustalıqla göz altında saxlayırdı, onunla bağlı nigarançılığımız yoxudu. İlk günlər şəhəri gəzməyə çıxmaq barədə fikirləşmirdik, Hüseynəli bəyin dediyinə görə, Böyük Knyazın hüzurunda olandan sonra bu cür gəzintilərə vaxtımız çox olacaqdı. Amma Əliqulu bəylə səhər yeməyini, naharı, bəzən də şamı eləyib məskun olduğumuz mülkün həyətində gəzir, təmiz havanı ciyərlərimizə çəkə-çəkə söhbət eləyirdik. Böyük Knyazın sayeyi-mərhəmətindən bizə verilən xəz kürklərdə, xəz papaqda, keçə çəkmələrdə yerimək xoşumuza gəlirdi. İkicə günün ərzində Kərim Toxmaq istədiyimizi düzüb-qoşmuşdu, ser Antoninin dilmanclarından biri bədbəxt dominikan rahibə nəzarəti öz boynuna götürmüşdü, əgər ona qarşı hər hansı təhlükə hiss eləsəydi, dərhal bizə çatdıracaqdı.

Günün qalan hissəsini özümlə götürdüyüm kitabları oxumağa, aradabir yazmağa, rəsm çəkməyə sərf eləyirdim. Biz şəhərə girəndə səf-səf düzülmüş tüfəngçilərin arxasında gözümə dəyən o bir cüt mavi gözü kağıza köçürməyə

çalışdım, istədiyim kimi alınmasa da *(görünür, o gözlərə doya-doya baxa bilməmişdim),* altına «Atdı müjgan oxunu, cigərim parə eylədi...» misralarıyla başlanan qəzəlimi yazıb, gizlətdim. Bilirdim, Əliqulu bəy görsəydi, gavur qızına vurulduğumu güman eləyib sataşacaqdı. Əslində, bu aylardan bəri gözəl Nisəxanımdan ötrü duyduğum həsrətin əlamətiydi, ötəri gördüyüm bir yad qadına münasibətdə təzahür eləmişdi. Bu həsrətin ömrü nə vaxt bitəcəkdi, bunu bir Allah bilirdi...

## 4.

*(...Bir bazar günü Knyaz öz eşikağasına bizi onun yanına aparmağı əmr elədi, biz də şəhərə girəndə gəldiyimiz qaydada onun yanına yollandıq. Eynilə şəhərə girdiyimiz gündə olduğu kimi, uzunluğu iyirmi ağacdan artıq olan yolun hər iki tərəfində mühafizəçilər düzüldü, biz evlərimizdən sarayın yerləşdiyi qalaya qədər bu yoldan keçib getməliydik. Knyazın yaşadığı bu saray artıq dediyimiz kimi, haqqında danışdığımız qala (Kreml) çarın iqamətgahından və eşik darvazalarından başqa hamısı ağacdan tikilmiş 6.000 evin yerləşdiyini artıq xatırlatmışam, hər yerdə İtalyan üslubundadı. Qalanın içində çoxlu sayda kilsə yerləşir, onlardan ən böyüyündə nəhəng zəng var (Sonra öyrəndim, bu zəng Böyük Knyazın əmriylə düzəldilib, Çar-zəng adlanır, çevrəsi 100 dirsək, en kəsiyi 30 dirsək, qalınlığı 2 dirsəkdi, ağırlığının neçə pud olduğunu bilən olmadı), bu zəngi çaldılar ki, biz onun əsrarəngiz səsini eşidək. Otuz nəfər onu güclə yerindən tərpədə bildi, Knyazın doğum günü və tacqoyma mərasimi istisna olmaqla, bu zəng indiyəcən heç vaxt çalınmamışdı.*

*Biz saraya yaxınlaşanda içağasını, yaxud Knyazın sarayını idarə eləyən şəxsi heyətimizi həyətdə gözləyən gördük, o, nəhəng cüssəli adamıydı, tutağan itin zəncirindən yapışmışdı; bu içağası bizi sarayın ikinci qapısınacan müşayiət elədi. Burda ikinci qapıçı dururdu, o, bizi digər qapılaracan apardı, burda üçüncü qapıçı dayanmışdı, o da heyətimizi Knyazın əyləşdiyi salona açılan iç qapısının önünə gətirdi. Zalda sarayın beş yüzdən artıq əyanı yığışmışdı, hamısının əynində bahalı parçadan paltar, başında dələ xəziylə dövrələnmiş, qiymətli daşlarla bəzədilmiş papaq varıdı, hamısının paltarı ağlagəlməz daş-qaşla süslənmişdi. Həmin əyanlar bizi hörmətlə zalın o başına, Knyazın əyləşdiyi yerə apar-*

*dılar. Bu zal o qədər genişdi, giriş qapısından baxanda o biri başında nələr olub-keçdiyini ayırd eləmək çətindi. Bu yer kilsədəki ayin zalını xatırladır, amma artıq dediyim kimi, hədsiz uzundu. Tavanı təşkil eləyən tağları, qübbələri bitki naxışlı heykəllərlə bəzədilmiş qızıl suyuna çəkilmiş qırx ağac sütun saxlayır, hər sütun o qədər qalındı, iki adam onu çətinliklə qucaqlaya bilər.*

*Biz zalın yuxarı başına çatanda Böyük Knyazı gördük; o, pilləvarı yüksələn taxtda oturmuşdu. Bu taxt qiymətli daş-qaşla bəzədilmiş qızıl külçəsindən düzəldilmişdi. Böyük Knyaz dələ xəziylə haşiyələnmiş, çoxlu brilyant düymələrlə düymələnmiş qızıl parçadan əba geyinmişdi, başında qiblə formasında papaq vardı. Onun əlində çoban çomağına oxşayan hökmdar əsası gördük, Knyazın arxasında qırx əyan durmuşdu, hər biri əlində özlərinin fərqlənmə nişanı olan gümüş toxmaq tutmuşdu. Bundan başqa, Böyük Knyaz döyüşə yollananda hökmdar əsasını özüylə götürürdü.*

*Biz onun qarşısında dayananda üzüüstə döşənib təzim elədik, Moskov torpağına göndərilmiş xüsusi elçisə, irəli çıxdı. Dediyimiz kimi, onun adı Pirqulu bəyiydi, o, məmləkətimizin ən uca məqamlı əsilzadələrindəniydi. Özünü təqdim eləməmişdən qabaq, gətirdiyi Naməni öpdü, sonrasa onu Əlahəzrətə sarı uzatdı. Bu zaman Böyük Knyaz taxtından qalxdı, Naməni alıb, o da öpdü, sonrasa dilmanca uzatdı, dilmanc dərhal Naməni oxuyub, rus məmləkətinin dilinə çevirdi. Sonra İspan krallığına gedən elçimiz irəli çıxıb Naməni uzatdı, bu Namədə Böyük Knyazdan bizim rahat keçib-getməyimizə yardım göstərmək rica olunurdu; o, dərhal buna əməl eləməyə söz verdi. Əlahəzrət bizə oturmaq üçün icazə verdi, biz də tük doldurulub məxmərlə örtülmüş uzun oturacaqlarda əyləşdik. Bir qədər keçəndən sonra Böyük Knyaz qalxıb öz əyanlarıyla sarayın otaqlarına getdi, azacıq son-*

*ra qayıdanda gördük, özü, onu müşayiət eləyən əyanların hamısı ağ dələ xəziylə haşiyələnmiş bəyaz paltar geyiniblər...*

*Əlahəzrətin zalda olmadığı vaxtda süfrə açılmışdı, Böyük Knyaz yeməyə oturdu, hamı öz tutduğu məqama görə yerində əyləşdi. Yemək-içmək həddən artıq boluydu, həm də çox yaxşı xidmət eləyirdilər; hər qonağın qabağında qırxdan artıq xörək qoyulmuşdu, hər kəsin artıqlamasıyla payı varıdı, mal, yaxud maral, qoyun, yaxud ördək əti olsun, fərqi yoxdu. Bizə verdikləri çörək kömbələri elə iriydi, iki nəfər yerdən çətinliklə qaldırırdı, hər qonağın qabağında da sapılca kimi iri, iki tərəfində tutacağı olan gümüş qab dururdu. Böyük Knyaz hər birimizə diqqət yetirirdi, alanın məqamından asılı olaraq, öz qabındakı yeməyin bir qismini göndərirdi. Sona o, üzüm şərabıyla sağlıq dedi, bu məmləkətdə olanların ən qiymətlisi sayılan şərab uzaqdan yalnız Böyük Knyaz, bir də yepiskoplar (adi məqamlı keşişlər) üçün gətirilir, yepiskoplar onu ayində istifadə eləməkdən ötrü kisələr arasında bölüşdürdülər. Bizim nahar elədiyimiz zala bitişik otaqda həmişə ən müxtəlif alətlərdə çalğı səslənirdi, eyni zamanda nəğmə eşidilirdi. Kef məclisi günorta saat ikidən axşam saat səkkizəcən davam elədi, sonra bizi səhər yaşadığımız yerdən çıxanda olduğu kimi, elə həmin mühafizəçilərin, yüzlərlə məşəlin müşayiətilə saraydakı qaldığımız otaqlarımıza ötürdülər. Bundan başqa, bizimlə gələn bütün xidmətçilərə də bol-bol yemək verildi...)*

Ziyafətdə Böyük Knyaz dövlətlərimizin arasındakı münasibətlərin daha da yaxşı olması üçün həmişə çalışacağına söz verdi. Pirqulu bəylə Hüseynəli bəy də danışdılar, Əlahəzrət Şahımızın Böyük Knyaza bəslədiyi dostyana

hissləri bəlağətli sözlərlə çatdırdılar. Amma Böyük Knyaz üzüm şərabının dadına baxmağı təklif eləyəndə hər ikisi də uca dinimiz məqbul saymadığına görə, bundan iltifatla boyun qaçırdılar. Sözün düzü, heç indi də bilmirəm, necə oldu, mən də, Əliqulu bəy də həmin şərabdan bir neçə qurtum daddıq, görünür, Böyük Knyazın qüdrətinə, əzəmətinə duyduğumuz heyranlıq ağlımızı başımızdan almışdı. Əlbəttə, məmləkətimizdə şərab içənlər az deyildi, eşitdiyimə görə, Şahımızın eyş-işrət məclislərinin heç biri şərabsız ötüşməzdi, elə adlı-sanlı əmirlərin çoxu asudə vaxtlarını bu cür məclislərdə keçirirdilər. Düzü, Əliqulu bəyi bilmirəm, mən bu vaxtacan uca dinimizin yasaq elədiyi içkini dilimə vurmamışdım. Həmişə oruc tutub, namaz qılmışdım, şəriətimizin buyruqlarına əməl eləmişdim, həməşirətim Süleyman oğlu Məhəmmədin:

*Var canda arzusu vüsali – Məhəmmədin,*
*Gözlərdə intizarı camali – Məhəmmədin, –*

beytilə başlayan qəzəlini oxuyanda könlümdə sözə gəlməyən ucalıq hiss eləyirdim.

Amma olan olmuşdu, üstəlik, şərabdan daddığımızı ziyafətdəkilərdən kimsə *(Bünyad bəymi, Həsənəli bəymi, yoxsa Yadigar bəy Məhəmmədmi – bunu sonralar da ayırd eləyə bilmədik)* süfrədə dinimizin yasaq elədiyi təamlar olduğuna görə, ziyafətə gəlməyən Əlfəqih Əmirə çatdırmışdı. Ziyafətin səhəri günü ikindi namazından sonra Əliqulu bəy harasa çıxmışdı, mən də oturub kitab oxuyurdum, Hüseynəli bəyin xidmətçisi gəlib məni elçimizin yanına çağırdı. Bu nagahan dəvətdən çox təəccübləndim,

çünki Böyük Knyaza gətirdiyimiz bəxşişlərin siyahısını dəqiqləşdirdiyimiz vaxtdan Hüseynəli bəyə lazım olmamışdım. İndi çağırılmağımın bir-iki qurtum şərabla bağlı olacağını heç ağlıma da gətirmədim, fikrimə səfarətimizin işiylə bağlı məsələlər gəldi. Durub ədəbin tələb elədiyi qaydada geyindim, «Ya, Allah!» deyib, Hüseynəli bəyin hücrəsinə doğru üz qoydum. Cəmi-cümlətanı otuz addımlıq yolda çox çək-çevir elədim, bu dəvətin səbəbini dəqiq anlaya eləyə bilmədim.

Xidmətçinin açdığı qapıdan içəri girib hücrədə Hüseynəli bəydən özgə Əliqulu bəylə Əlfəqih Əmiri görəndə nəsə sümüyüm sancdı. Salam verib bağır basdım, elçimizin baş işarəsiylə göstərdiyi yerdə – Əliqulu bəyin böyründəki döşəkcənin üstündə əyləşdim. Yerimi rahatlaya-rahatlaya gözaltı Əliqulu bəyi süzəndə ortada hələ bilmədiyim çox ciddi mətləbin durduğunu sezdim, amma özümü o yerə qoymayıb, nəzərlərimi Hüseynəli bəyə dikdim.

– Buyur, başla, – o, üzünü Əlfəqih Əmirə tutdu.

– Bizə çatan xəbərə görə, – Ələfəqih Əmir əmmaməli başını dikəldib, əvvəl Əliqulu bəyə, sonrasa mənə baxdı, – dünən Böyük Knyazın verdiyi ziyafətdə Məhəmməd ümmətinə yaraşmayan iş tutmusunuz... – susdu, üzümüzün ifadəsini öyrənirmiş kimi, qalın qaşlarının altından işaran xırda gözlərini qıydı, – ...dinimizin qadağa qoyduğu şeytan suyu, yəni şərab içmisiniz...

Görünür, bu qəfil ittihamdan ikimizin də görkəmi xeyli dəyişmişdi, daha doğrusu, dünən pis niyyətlə yox, Böyük Knyazın təklif elədiyi şərabın dadına baxmaq xətrinə bir-iki qurtum içməyimizin axırının nəylə qurtaracağını ağlımıza gətirməməyimizdən özümüz də çaşmışdıq, nə

deyəcəyimizi bilmirdik. Əlfəqih Əmir bunu başa düşdü, yəqin, günahımızı boynumuzdan ata bilməyəcəyimizi görüb, xırda gözlərinin soyuq sərtliyini daha da artırdı.

– Əlbəttə, ümidvaram, bu xəbərin bizə haradan yetişdiyini çək-çevir eləməyəcəksiniz, hər kəsin günahlarını da, savablarını da çiyinlərində oturmuş mələklər yazır, – Əlfəqih Əmir türkcəmizdə aydın sezilən fars ləhcəsiylə danışırdı, bu da istər-istəməz içimdə xoşagəlməz hisslər doğururdu. – Uca dinimizin buyruqlarını, şəriətimizin qayda-qanunlarını pozmusunuz, buna görə də günahkar hesab olunursunuz...

Əliqulu bəy Əlfəqih Əmirdən çəkindiyinə görə yox, əmisinin yanında gözükölgəli olduğundan, başını sinəsinə əymişdi, üstündə bardaş qurub oturduğu döşəkçənin saçaqlarını sığallayırdı. Elə o vəziyyətdə də dilləndi:

– Günahkaram... Şeytan aldatdı, eləcə dadına baxmaq istədim...

– Bəs sən, Oruc bəy? – Hüseynəli bəy nəhayət, dilləndi, yüsür təsbehini çəkə-çəkə üzümə baxdı.

– Günahımı boynuma alıram, ağam, – özümü şax saxlamağa çalışa-çalışa cavab verdim. – Əlbəttə, dinimizə zidd getmək xəyalında olmamışam. Fikirləşdim, Böyük Knyazın təklifindən boyun qaçırtmaq yaxşı olmaz...

– Belə görünür, mən də, Pirqulu bəy də Əlahəzrət Böyük Knyazın təklifinə əməl eləməməkdə hörmətsizliyə yol vermişik, hə? – Hüseynəli bəy istehzayla gülümsünüb məni süzdü.

– Yox, ağam elə demək istəmədim, – çalışdım, hövsələdən çıxmayam; əlbəttə, bu sorğu-sualın səbəbkarı elə Hüseynəli bəy özü də ola bilərdi: bəlkə, şərabdan bir neçə qurtum almağımız gözündən yayınmamışdı, səfər boyu keçəcəyimiz

məmləkətlərdə bu cür əməllərin təkrarlanmasından qorxub məsələni Əlfəqih Əmirə açmışdı.

– Yaxşı, – Əlfəqih Əmir fitvasını verdi, – bu günahınıza görə Allah qarşısında cavab verəcəksiniz. Amma gərək tövbə eləyəsiniz, bir də bu cür əməllərə yol verməyəsiniz.

– Tövbə eləyirəm, – Əliqulu bəy dilləndi.

– Tövbə eləyirəm, – onun səsinə səs verdim.

– Yaxşı, mürəxxəssiniz, – Hüseynəli bəy ağır bir yükdən qurtulmuş kimi, dərindən nəfəs aldı.

Baş endirib çıxdıq, hücrəmizə qayıtdıq. Əliqulu bəy bir müddət sözsüz-sözsüz üzümə baxıb durdu, sonra başını bulayıb acı-acı gülümsədi:

– Görürsən, qardaşım, başımıza necə işlər gəlir... Şübhəsiz, Əlfəqih Əmir günahımızı boynumuza almağımızla kifayətlənməyəcək, İsfahana qayıdanda hər şeyi Şahımıza çatdıracaq.

Dinmədim. Onun sözlərində həqiqət varıdı...

## 5.

...Artıq üçüncü həftəydi, Moskov şəhərindəydik. Əslində, biz vəzifəmizi yerinə yetirmişdik, Böyük Knyazın Şahımıza göndərəcəyi cavab naməsini Pirqulu bəy Əfşar aparacaqdı: Böyük Knyaz ümumi ziyafətdən sonra onu ayrıca qəbul eləmiş, bir çox ortaq məsələləri çözmüşdü. Bizsə torpaqlarından rahat keçib getmək üçün Böyük Knyazın xeyir-duasını almışdıq, arxayınca yolumuza davam eləyə bilərdik. Amma qarlı-çovğunlu rus qışı hələlik yolumuzu bağlamışdı, səfərimizə nə vaxt davam eləyəcəyimizi heç Hüseynəli bəy də dəqiq-dürüst bilmirdi. Bu səbəbdən, özümüzü Moskvada ən azı iki-üç ay qalmağa hazırlamışdıq...

Amma gətirdiyimiz bəxşişlər Böyük Knyazı çox məmnun eləmişdi. Hərəsi bir sənət əsəri olan Təbriz xalçaları, qını, qəbzəsi daş-qaşla bəzədilmiş qılınc, zərif naxışlı mücrülər, ipək parçalar... Böyük Knyazın da, əyan-əşrəfin də çox xoşuna gəlmişdi. Xüsusilə, eşitdiyimizə görə, o mücrülərin içindəki üzüklər, qolbağılar, boyunbağılar Böyük Knyaginyanı heyran eləmişdi. Bundan sonra bizə qarşı diqqət, qonaqpərvərlik o dərəcədə artmışdı, özümüzü evimizdə sayırdıq.

Düzdü, ziyafət əhvalatından sonra Əliqulu bəylə bir qədər guşənişin olmuşduq. Həsənəli bəylə bağlı qayğıları tamam-kamal Yadigar bəy Məhəmmədlə qulam Şəmsəddinin öhdəsinə buraxmışdıq, heç dominikan rahibinin taleyindən xəbər tutmaq, ser Antoninin niyyəti barədə fikirləşmək də istəmirdik. Ən çətin işimizi görmüşdük – Xoca Səfərin qurduğu toru dağıtmış, onun adamını oyun-

dan çıxarmışdıq. Amma nə qədər qıraqda qalmaq istəsəm də, cılız vücudlu, sarışın, kosasaqqal ingilisin bizi barmağına dolamasını sinirə bilməyəcəkdim. Çox istəyirdim, bu məsələdə rahatlığımı əlimdən alan fikirlər həqiqətə çevrilməsin...

*(...Moskvanı gəzmək arzumuzu bildirəndə, bizim adımızdan qalabəyinin yanına izin üçün adam göndərdilər, o da mühafizə üçün dörd əsgər verdi. Moskvaya gəlməyimizdən iki həftə sonra gəzintiyə çıxmağa, şəhərin görməli yerlərinə, xüsusilə, Böyük Knyazın xəzinəsinə baxmağa başladıq. Burda darvazanın qabağınla iki şir heykəli dururdu, biri görünür, gümüşdən, o biri qızıldanıydı, amma hər ikisi kobud düzəldilmişdi. Xəzinənin içində gördüyümüz, xəyalagəlməz var-dövləti təsvir eləmək çətindi, bu barədə danışmaq mümkün deyil, ona görə də susuram. Böyük Knyazın geyimləri də qiymətə gəlmir, əsləhə anbarı o qədər zəngindi, 20.000 adamı silahlandırmaq olar. Bizə içərisində vəhşi heyvanlar olan iri qəfəsi də göstərdilər: ordakı başqa heyvanların arasında at kimi heyvərə şir varıdı, şirin yalmanı boynunun hər iki tərəfindən sallanmışdı, sonra o qəzəblənib qəfəsindəki iki yoğun ağac dirəyi sındırdı. Bundan sonra şəhərdə gəzdik, orda heyrətamiz dərəcədə cürbəcür dükanları, topların əsas qisminin yerləşdiyi baş meydanı gördük. Bu toplar ölçülərinə görə o qədər iridilər, onları təmizləmək lazım gələndə iki nəfər lüləsinin üstünə çıxmalı olur. Hər topun uzunluğu on dörd dirsəkdi, onu doldurmaq üçün 50 girvənkə barıt qoyurlar...)*

Bu gəzintidən sonra hamımızın qulağımız səsdə olsa da, yola düşmək barədə söz-söhbət çıxmırdı. Əlbəttə, Qazandan Nijni-Novqoroda, Nijni-Novqoroddan Moskvaya

gəldiyimiz sayaq Quzey Dəryasınacan gedə, ordan German ölkəsinə yollanan gəmilərə minə bilərdik. Amma Böyük Knyazın məsləhətilə yazın gəlməyini, havanın isinməyini, çay yolunun açılmağını gözlədik. Bu hesabla səfərimizə Novruz bayramından da bir ay keçmiş davam eləyə bilərdik – rus torpağında qış həmin vaxt başa çatır.

Moskvada qaldığımızın bir ayının tamamında darıxmağa başladım. Düzdü, məşğuliyyətim varıdı: Əliqulu bəylə söhbətlərimin dadı-tamı azalmırdı; hərdən hücrəmə Bünyad bəy gəlirdi, Əlfəqih Əmirlə islamla xristianlığın fərqləri barədə mübahisələrini, eyhamla islamda qadağaların həddən artıq çox, həm də sərt olduğunu anladırdı; Əlfəqih Əmirlə hərdənbir rastlaşırdıq, üz-üzə gələndə salamıma qarşı əmmaməli başını vüqarla tərpədir, üzümə baxmamağa çalışırdı; daha Həsənəli bəyin taleyilə demək olar, maraqlanmırdım, qulam Şəmsəddin onunla bağlı sözlərini birbaşa Yadigar bəy Məhəmmədə deyirdi; bilmirəm, Əlfəqih Əmir ziyafətdə baş verən məsələylə bağlı Yadigar bəy Məhəmmədə nəsə danışmışdımı, mənə qarşı hərəkətlərində qabaqlar rast gəlmədiyim qəribə çalarlar görürdüm; Hüseynəli bəy məni ancaq nəsə yazıb-pozmağa ehtiyac olanda çağırırdı, günlərinin çoxunu Pirqulu bəy Əfşarla, Böyük Knyazın dövlətxanasından təşrif buyuran şəxslərə, Əlfəqih Əmirlə söhbətlərdə, tez-tez baş verən qonaqlıqlarda keçirirdi; bədbəxt rahibi də az qala unutmuşdum, ser Antonini demək olar görmürdüm, bir neçə dəfə Hüseynəli bəyin yanına gələndə ötəri görmüşdüm; arada-bir yenə də Saveli gəlirdi, Əliqulu bəylə onun söhbətlərinə qulaq kəsilirdik, dediyinə görə, Kreml adlandırdıqları içşəhərin tikilişində Təbriz, Şamaxı, Səmərqənd ustaları

çalışıbmış, hətta şirvanlı Usta Əli adlı birisinin çox böyük hörmət sahibi olduğunu xatırlayırlar...

Əliqulu bəy harasa gedəndə, qonağım olmayanda kitab oxuyur, gördüklərimi yazır, şeirlərimin üzünü köçürürdüm. Aradabir rəsm çəkirdim, rəsmlərimin hamısında qadın üzlərinin cizgiləri gözəl Nisəxanımı xatırladırdı. Belə vaxtlarda xəyalım qanadlanıb Təbrizə uçur, iç dünyamda Nisəxanımı, Sultanəlini, Mirzə Qədimi, Ümleyla xalanı açıq-aydın görürdüm. Ömrümün qırxıncı ilini tamamladığım bir vaxtda doğmalarımdan çox-çox uzaqlarda olacağımı ağlıma gətirə bilməzdim, amma görünür, alın yazımda bu da varmış...

Moskovun qışı özünü bütün gücüylə bildirirdi: tez-tez qar yağır, aradabir çovğun olur, şaxta səngimirdi, sanki bütün bunların heç vaxt sonu olmayacaqdı. Bəzən Əliqulu bəylə küçələri, meydanları gəzməyə çıxırdıq, at qoşulmuş kirşələrlə ötüb-keçən, xəz kürklərin içində itib-batmış adamlara tamaşa eləmək xoşumuza gəlirdi. Hərdən Saveli təzə xəbərlər gətirirdi: onun dediyinə görə, Böyük Knyaz qızı Kseniyanı taxtdan salınmış, Günbatan ölkələrində sərgərdan dolaşan İsveç kralı on dördüncü Erikin oğlu Şahzadə Qustava vermək istəyirmiş, amma Şahzadə özünün yüngül xasiyyətilə onun qəzəbinə tuş gəlib, bu səbəbdən Uqliçə sürgün olunub. İndi Knyaginya Kseniyanın Avstraliya kralı Maksimilianla izdivacının baş tutması ətrafında gizli danışıqlar gedir. Bütün bunlar Böyük Knyazın Günbatan məmləkətləriylə yaxınlaşmaq istəyindən doğur. Saveli bunları sirr açırmış kimi, danışırdı, amma artıq danışdıqları sirr deyildi.

Ömrümdə ilk dəfə kitabın xəttatlar tərəfindən köçürüldüyünü yox, iri bir qurğuda basıldığını gördüm. Savelinin vasitəsilə bunun necə baş verdiyinə baxmaqdan ötrü saray eşikağasından icazə alıb, kitabların basıldığı yerə getdik. Dilmancın bizə başa saldığına görə, bu üsul çox çətin, ancaq sərfəlidi, hər kitabdan bir neçə yüz, hətta bir neçə min nüsxə əldə eləmək olar. Bütün bunları görəndə Təbrizdə bu cür qurğu qurub, kitab basmaq könlümdən keçdi.

Şəhərin bütün küçələri Böyük Knyazın sarayından, həm də sarayın yaxınlığındakı Kilsə *(ruslar sobor deyirlər)* Meydanından başlanıb, giriş darvazalarına doğru uzanır. Əliqulu bəylə Kreml divarları boyu uzanan alış-veriş yerindən keçib, o küçələrin biriylə asta-asta gəzişməyi xoşlayırdıq. Moskva evlərinin həyəti çox genişdi, yaşayış evindən başqa bağı-bağçası, cürbəcür tikililəri var. Şəhərdə bataqlığın qabağını almaq üçün küçələrin gediş-gəliş olan hissəsinə üstü yonulmuş tirlər döşənib.

Burda olduğumuz müddətdə rusların «boyar» dedikləri, bizim əmirlərin, xanların məqamında olan şəxslərin çox əzəmətli mülklərini gördük. Moskva şəhərində qaldığımızın dördüncü həftəsində Streşnev soyadlı boyar bizi öz mülkünə qonaq apardı. O ziyafətdə səfarətimizdən Hüseynəli bəy, mən, Əliqulu bəy, Yadigar bəy Məhəmməd, dilmancımız, Pirqulu bəy Əfşarın səfarətindən dörd şəxs, bir də ser Antoni dilmancıyla oldu. Smolensk adlanan küçədəki mülk çox böyük, həm də dəbdəbəliydi, səliqə-sahmanıyla xoşumuza gəldi.

Bir ayın tamamında Əliqulu bəyin hərəkətlərində altıncı duyğumla hiss elədiyim, amma hələ anışdıra bilmədiyim çalarlar sezdim: neçə dəfəydi, axşamlar hava almaq bəha-

nəsiylə çıxır, çox gec, mən bir yuxu yatıb oyanandan xeyli sonra, hava işıqlanana yaxın qayıdırdı. Gündüzlər bir söz deməsə də, üz-gözündən bir bayğınlıq içində olduğunu duyurdum. Bilirəm, kişi gecələr qıraq yerdə bu qədər ləngiyirsə, üstəlik, harda olduğu barədə bir söz demirsə, deməli, mütləq eşq macərası yaşayır. Şübhəsiz, bunu Əliqulu bəyin üzünə demədim, duyduğumdan xəbər tutmasını da istəmədim. İsfahanda böyük bir külfət – dörd oğlan, iki qız qoyub gəlmişdi, on səkkiz yaşından ailə həyatı yaşamışdı, indi yad eldə ayağını yan qoyursa, deməli, bundan ötrü sanballı əsası varıdı. İki, ya üç həftə keçmiş, gecələrin birində qayıdıb məni oyaq görəndə üzümə sözlü-sözlü baxıb susdu, dillənmədiyimi görüb sirrini özü açdı:

– Oruc bəy, qardaşım, deyəsən, məni şeytan ikinci dəfə aldatdı... – sözünə ara verdi, sonra ağır-ağır davam elədi. – Yeddi ay olur, ailəmizdən aralı düşmüşük, hələ səfərimizin nə qədər sürəcəyini bilmirik. Yəqin, Allah günahımızdan keçər...

Dillənmədim, ürəyimdə Əliqulu bəyə haqq qazandırdım. Şübhəsiz, bu müddət ərzində qadın mehrindən aralı düşmüş kişinin şəriət qaydalarını pozmasına Qurani-Şərifimiz izin verirdi. Təkcə ağlıma gələn şübhəni bildirdim:

– Çalış, bu gəzintilərdən Əlfəqih Əmir xəbər tutmasın, – dedim. – Yoxsa Hüseynəli bəyə çatdırar, təzədən qara dəftərə düşərsən.

... Amma elə o söhbətdən üç gün keçməmiş özüm «qara dəftər»ə düşmək qorxusuyla üzləşdim. Günorta namazından sonra Hüseynəli bəyin xidmətçisinə gəzintiyə çıxmaq istədiyimi bildirib *(qəfildən hansı məsələdən ötrüsə məni ax-*

*tarardı),* mülkdən aralandım. Dilmanc götürmədim, onsuz da kimiləsə görüşüb-danışmaq fikrimdə yoxudu, bir qədər həsrətdən doğan qüssəmi dağıtmaq, qürbətin, həm də bir para adamlarla ünsiyyətin doğurduğu sıxıntıdan qurtarmaq istəyirdim. Sakit, aydın havada ayaqla, ya da kirşədə yanımdan keçənlər dönüb yetik-yetik üzümə baxırdılar, deyəsən, geyindiyim dələ xəzindən kürk də uzaqlardan olduğumu gizlədə bilməmişdi. Neqlinka adlanan küçənin taxta səkisiylə üzüaşağı addımlayanda böyrümdən ötən kirşə qəfildən dayandı, atın cilovunu dartan adam çevrilib nəzərlərini mənə sarı çevirdi. Onun cavan qadın olduğunu üstündən xəz papaq qoyduğu güllü yaylığından, bir də allanmış yanaqlarından bildim. Dərya suyu kimi göy, həm də təmiz gözlərinin işığı məni uzaqdan vurdu. Fikrimi cəmləşdirməmiş gülə-gülə nəsə dedi, o kəlmələrin arasından təkcə *«türk»,* bir də *«boyar»* kəlmələrini başa düşdüm, qəfildən bu qadını boyarın evindəki ziyafətdə gördüyümü xatırladım. Başa düşdüyümə görə, ev yiyəsinin mətbəx işlərinə baxırdı, bir neçə kərə süfrəmizin əyər-əskiyini yoxlayanda göz-gözə gəlmişdik. Bir cüt yoğun hörüyü, naxışlı baş örtüyü, içərinin havasından allanmış yanaqları, par-par yanan gözləri içimdəki duyğuları tərpətmişdi. Amma bir müddət sonra qadın çəkilib getdiyindən, görə bilməmişdim, axırda ziyafətin ümumi axarında o nagahan üz xəyalımdakı başqa üzlərə qarışıb itmişdi. İndisə bu qəfil görüşdən özümə gəlməmiş qadın artıq cilovunu tərpətdi, çiyni üstündən hələ də mənə baxa-baxa yüz addım irəli getdi, sonra kirşəni təzədən saxlayıb düşdü, evlərin birinin taxta alaqapısından içəri girdi, ardınca darvazanı açıb atı içəri çəkdi.

Gözümü ondan ayırmadan gedirdim, evin yanından keçəndə qadın alaqapının arasında durmuşdu, yetik baxışlarıyla məni süzürdü. Ayaqlarım birdən-birə ağırlaşdı, vücuduma hakim kəsilən duyğular düşünüb-daşınmaq ixtiyarımı əlimdən aldı. Əlbəttə, dilini bilsəydim, ayaq saxlayıb kəlmə kəsər, mənə göstərdiyi rəğbətin hansı məna verdiyini ayırd elərdim. Amma ötüb-keçdim, dönüb baxmasam da, uzun müddət alaqapının arasında durub arxamca baxdığını sezirdim...

## 6.

Həmin vaxtdan o gözlər məni təqib eləməyə başladı. Asudə anlarımda xəyallarımla əlləşəndə həmin qadının surəti yaddaşıma soxulur, ordan gözəl Nisəxanımın üzünü sıxışdırırdı. Övrətimin uzaqlığı həsrət dumanına bürünürdü, içimin sızıltılarını yalnız nə vaxtdan bəri intizarında olduğum coşqun duyğular ovuda bilərdi.

Bu da baş verdi. Cəmi ikicə gün sonra hava qaralana yaxın hansı duyğunun təsirindənsə ayaqlarım məni yenə həmin küçəyə aparıb çıxardı. O qadını gördüyüm evə yaxınlaşdıqca qəlbimdə özümün də baş aça bilmədiyim təlatüm başlayırdı, özümdən ixtiyarsız addımlarım yavaşıyırdı. Elə bil, bu görüşü sözləşmişdik: qadın alaqapının arasında durub, toranın təzəcə qovuşduğu qarlı, boş küçəyə baxırdı. Nəzərlərimiz rastlaşanda gülümsəyib nəsə dedi, başa düşmədim, amma geri çəkilməyindən bildim, məni içəri çağırır. Baş açmadım, dolaşıq duyğular içində necə qət elədim, ayağımı alaqapıdan içəri necə qoydum, ikigözlü taxta evin qapısından necə girdim – hər şey yüngülcə dumana bürünmüşdü. Qadın kürkümü, papağımı, keçə çəkmələrimi çıxarmağı işarə elədi, evin bir tərəfində gurhagur yanan buxarının yanında yer göstərdi. Əlini sinəsinə qoyub «Anfisa» deyəndə, bunun adı olduğunu başa düşdüm, mən də öz adımı dedim, çətinliklə dilinə gətirsə də, halətindən gördüm, bu təsadüf ondan ötrü də Allahın bəxşişi kimi bir şeydi.

...Sonra hər şey öz-özünə baş verdi, sözə ehtiyac qalmadı. Düzü, nə gizlədim, Nisəxanımı gəlin gətirənəcən

də, ondan sonra da həyatımda qadınlar olmuşdu, – bunu dansam, heç kəs inanmaz – amma heç vaxt bu cür qızğın eşq macərası yaşamamışdım. Elə bil, uzun illər bir-birinin yolunu gözləyən iki vücud qəfildən tapışmışdı, bir-birini itirməkdən qorxa-qorxa digərinin bütün şəhdi-şəkərini sorub çıxarmağa can atırdı.

Əliqulu bəy görünür, həyatımda baş verən dəyişiklikləri özünəxas həssaslıqla duymuşdu, soruşmasa da, üz-gözündən baş verənləri anladığına şübhə eləmirdim. Sonrakı üç ay yarım ərzində azı həftədə iki kərə «*gəzintiyə*» çıxırdım, həmişə də yolumu Anfisanın yaşadığı küçədən salırdım, naxışlı pərdəsi azacıq aralanmış pəncərənin qabağında yanan şamı görəndə fürsət gözləyib taxta alaqapıdan içəri girirdim. Sonra ikimiz də vaxtın hesabını itirirdik...

O aylar ərzində Anfisanın dilini az-az anlamağa başlamışdım, artıq Kolomnadan olduğunu, Böyük Knyazın qoşununda tüfəngçi olan ərinin ona bir yürüşdə rast gəlib, Moskova gətirdiyini, amma ötən qış Yauza çayından keçəndə buz sındığından kirşəqarışıq batdığını bilirdim. Ona gəldiyim məmləkət barədə bəzi şeyləri başa sala bilmişdim. Bağışladığım bəxşişlər – zərif işləməli qolbağı, sinəbənd, gümüş sırğalar çox xoşuna gəlmişdi. Əlbəttə, uğruma çıxan bu eşq macərasının Allaha ağır getməyəcəyinə inanırdım, xəyalımda dönə-dönə Nisəxanımdan üzrxahlıq eləyirdim – bütün bunlar övrətimə, oğluma, doğmalarıma, eləcə də məmləkətimə olan sevgimin üstünə kölgə sala bilməzdi...

Arada hamının diqqətini çəkən, söz-söhbətə səbəb olan iki əhvalat baş verdi. Birincisi, səfarətimizin dörd

xidmətçisinin geri qayıtmaq arzusuydu. Hüseynəli bəy xeyli götür-qoy eləyəndən sonra buna razılıq vermişdi. Ruscanı ingilis tacirlərinin gəmilərində dəfələrlə rusların ölkəsinə səfərə gedəndə öyrənmiş əlli yaşlarındakı Seyid Nədim Moskvadan o yana getməsini artıq sayırdı; bizim xidmətimizdə olanlardan biri – Müstəcəb mədə ağırlığından əziyyət çəkirdi, qorxurdu yolda ölə, şəriətin buyurduğu kimi dəfn olunmaya; o biri iki şəxs yükçülərdi, durub-oturub külfətlərini başsız qoyduqlarından danışır, sızıldaşırdılar. Hüseynəli bəy qayıdanların hərəsinə bir az yolxərci verdi, Pirqulu bəy Əfşarın məmləkətə dönəcək səfarətinə qoşub, uğur arzuladı...

Elə o vaxt Həsənəli bəyin – Hambarsum Muşeqyanın da İsfahana göndərilməsi fikri ortaya çıxdı. Əlbəttə, Hüseynəli bəy neçə ayda birinci dəfə məni yanına çağırdı, Əliqulu bəydən, Bünyad bəydən, bir də Yadigar bəy Məhəmməddən bununla bağlı fikirlərimizi soruşdu. Əliqulu bəy bu məsələdə əmisinin ixtiyar sahibi olduğunu dedi, Bünyad bəylə Yadigar bəy Məhəmməd susub qəti bir söz demədilər. Mənsə fikrimi gizlətmədim:

– Bu iki səbəb sərfəli deyil, – dedim, – birincisi, dövlətxanada Xoca Səfər vəziyyətdən xəbər tutub, şahımızda sizə qarşı pis fikir oyada bilər. İkincisi, ola bilsin, Xoca Səfərin niyyəti təkcə Moskov çarına namə çatdırmaqla bitməyəcək, başqa hökmdarlarla bağlı planları da olsun. Bu səbəbdən, mən hələlik Həsənəli bəyin yanımızda gözaltında qalmasına tərəfdaram.

– Sən haqlısan, Oruc bəy, – neçə aydan bəri ilk dəfə Hüseynəli bəyin səsində, həm də nəzərlərində rəğbət gördüm, – mən də bu cür fikirləşirdim.

Əlbəttə, bunu yox, bədbəxt dominikan rahibin qəfildən yox olmasını gözləmədiyimiz əhvalat sayıram. Axşam Əliqulu bəylə oturub bir həftə, on gün sonra səfərimizə davam eləyəcəyimizlə bağlı danışırdıq. Qəfildən dilmanc Kərim Toxmaq içəri girib, salamsız-kəlamsız rahibin yoxa çıxdığını xəbər verdi. Donub qaldıq, neyləyəcəyimizi bilmədik.

– Dünən axşam çıxıb, dediyinə görə, gəzmək istəyirmiş. İndiyəcən qayıtmayıb. Fransiskan rahib göz yaşları axıdır, onu ser Antoninin öldürdüyünü deyir.

Bunu şübhəsiz, biz də bilirdik. Amma necə sübuta yetirə bilərdik? Məsləhətləşib, Hüseynəli bəyin hüzuruna getdik, olub-keçənləri ona yerli-yataqlı danışdıq. Hüseynəli bəy bu işi ser Antoninin tutduğuna inanmadı. Dedi, ola bilsin, başına bədbəxt hadisə gəlib, ya da hardadısa, bir neçə gündən sonra üzə çıxacaq. Amma Böyük Knyazın eşikağasından rahibin tapılmasıyla bağlı kömək istədi. Şəhərin bütün künc-bucağını ələk-vələk elədilər, bədbəxt rahibi gördüm deyən olmadı ki, olmadı. Məndə cılız, sarışın, kosasaqqal ingilisə qarşı inamsızlıq duyğusu daha da artdı.

Anfisayla vida görüşünə getmədim. Əlbəttə, qürbətdə keçirdiyim bu cansıxıcı aylar könlümü xoş elədiyinə görə, ondan çox razıydım. Ancaq taleyin işini bilmək olmazdı, bəlkə məmləkətimizə dönəndə yolumuz burdan düşməyəydi. Hələ qarşıda bizi nələr gözlədiyini Allahdan başqa bilən yoxudu. Şəhərdə son gəzintimi başqa tərəfdən saldım, həmin gecə də gözümə yuxu gəlmədi. Xəyalımdan boy verən Təbriz bütün duyğularımı çəlpəşik salmışdı...

*(...Beləcə, burda, Moskov torpağının ana şəhrində beş ay qaldıq, yağış-qar səbəbindən ləngidik, nəhayət, Böyük Knyaz getmək*

*üçün bizə icazə verdi. Buna görə də vidalaşmaq niyyətilə onun yanına yollandıq, qayıdanda o, elçimizə qızıl sapdan toxunmuş, hər biri dələ xəziylə haşiyələnmiş üç ən bahalı əbasını, yarım girvənkə şərab tutan qızıldan kasa, yol xərcləri üçün 3.000 tümən göndərdi. Böyük Knyaz elçimizin mirzələrinin hər birinə də üç mantiya – bir bahalısını, iki bir qədər ucuzunu – həm də özlərinə səfər paltarı tikdirmək üçün müşayiət eləyənlərin hər birinə səkkiz yardlıq parça göndərdi. Sonra hər birimizə elçimizə bağışladığı qızıl kasa böyüklükdə qızıl suyuna çəkilmiş kasa, istədikləri kimi xərcləmək üçün 200 tümən göndərdi. Bundan sonra biz həmvətənimiz, Moskvada qalan xüsusi elçimizlə məhəbbətlə vidalaşdıq; o bizi on ağacdan artıq ötürdü, ayrılanda gizlədə bilmədiyimiz kədərlə «xudahafiz» dedik...*

*...Pasxa həftəsində (milad təqvimincə 1600-cü il martın 23-üydü) Moskov torpağının ana şəhərindən kapitanın (yüzbaşının) müşayiəti, yüz əsgərin mühafizəsiylə çıxdıq. Hər gün on lyöyə yaxın yol gedirdik, üç gün ərzində Pereyaslavl adlanan, əhalisi 30.000 evdən (yaxud 135.000 nəfərdən) ibarət olan böyük şəhərə çatdıq. Əhalisinin hamısı moskovlular, xristianlardı, onların öz məmləkətlərinin adətincə gözəl bəzədilmiş çoxlu kilsələri var.*

*Şəhər daşdan tikilmiş hasarla əhatə olunub, böyük çayın suyuyla dövrələnib, biz sonra yolumuzu kəsdiyindən, suyu adladıq. Bildiyimə görə, çay bu yerə keçib gəldiyimiz ana şəhərin ətrafından axıb gəlir. Suyun axını çox itidi, biz çayı bərk kəndirlə çəkdikləri tirlərdən düzəldilmiş salın üstündə keçdik. Sal o qədər iriydi, bir dəfəyə yüzlərlə yük heyvanı keçirə bilərdik. Həmin vaxt bu çayın adını bilmirdim, mənə elə gəlirdi, Moskva çayının qollarından biridi, sonra öyrəndim, keçdiyimiz elə həmin Eder, yəni Volqa çayıymış...)*

# 7.

Sözün düz, rahibin yoxa çıxmasından sonra əhvalım lap korlanmışdı, başımıza gələn bədbəxtliklərin bununla bitməyəcəyini duyurdum. Moskvadan çıxandan elə hey bu barədə fikirləşirdim. Əlbəttə, Hüseynəli bəyi vaxtında xəbərdar eləsəydik, o, ser Antoniylə bədbəxt rahibin arasındakı çəkişməyə son qoysaydı, axırı bu cür qurtarmazdı, amma Şahımızın cılız, sarışın, kosasaqqal ingiliscə verdiyi bir parça kağız onun əl-qolunu bağlamışdı. İndi budu, yöndəmsiz görkəmiylə özünü külli-ixtiyar sahibi sayır, təkcə bizə yox, elə elçimizə də yuxarıdan-aşağı baxmağa başlayıb.

Əlbəttə, Əliqulu bəydən gizlədəcək sirrim yoxudu, bütün bunları ona dedim, fikrimə şərik olsa da, əmisinin iradəsi xilafına addım atmaq istəmir, onun qəzəbindən ehtiyatlanır. O biri tərəfdən də bədbəxt rahibin yoxa çıxmasından sonra artıq taleyimizin onun əlində olduğunu hiss eləyir. Bu gedişlə, günlərin birində Şahımızın Avropa hökmdarlarına göndərdiyi qiymətli bəxşişləri götürüb aradan çıxsa, heç təəccüb eləməz.

– Bəs, neyləyək, Əliqulu bəy? – Ederi keçəndən sonra dincəldiyimiz vaxt olub-keçənlərdən söhbət eləyəndə dedim. – Əlimizi-qolumuzu yanımıza salıb oturaq, bu kosasaqqal da taleyimizin yiyəsi olsun?

– Hər halda, onu duyuq salmaq olmaz, – Əliqulu bəy qırağında oturduğumuz tonqalın külünü eşələyə-eşələyə dedi. – Vəziyyətimizi nəzərə al: Həsənəli bəyin kim olduğu üzrə çıxdı; Bünyad bəy özünü bütün olub-keçənlərdən uzaq tutur, hələ kimin tərəfində olduğu dəqiq məlum de-

yil; Əlfəqih Əmirin hansı məzhəbə qulluq elədiyi gün kimi aydındı; Yadigar bəy Məhəmməd dövlətxanada aldığı tapşırığı yerinə yetirir. Bu ingilislə açıq savaşa başlasaq, halımızın necə olacağını bilmirəm...

– Onun canfəşanlığı, özünü külli-ixtiyar sahibi kimi aparması mənim izzəti-nəfsimə toxunur, üstəlik, bəzi şübhələrə düşürəm, qorxuram, bədbəxt rahibin məsələsində olduğu sayaq, bu dəfə də gecikək, sonra bir əlimiz olsun, bir də başımız.

– Fürsət düşəndə çalışaram əmimlə açıq danışam, – Əliqulu bəy qəti fikir demədi. – Allah kərimdi...

Onun bu qədər naümid danışması əhvalımı korladı, bundan sonra məsələnin üstünə qayıtmamağı, amma ayıq-sayıqlığımı da itirməməyi qət elədim.

...Qəlbimdə tüğyan eləyən qüssə amanımı kəsir, məni düz-əməlli düşünüb-daşınmağa qoymurdu. Nə vaxtsa bu qədər uzun, bu qədər sonu naməlum səfərə çıxacağım ağlıma gəlməzdi. Hələ Böyük Knyazın torpaqlarından çıxmamışdıq, amma doqquzuncu ayıdı yollardaydıq, İspan kralının hüzuruna gedib yetişənəcən daha neçə aylar ötüb-keçəcəkdi. Əlbəttə, bu səfər mənə çox şey vermişdi: dəryalar, çaylar, şəhərlər, qalalar görmüşdüm, könlümdə iz qoyan adamlarla rastlaşmışdım, yaddaşımdan silinməyən əhvalatlarla üzləşmişdim, taleyin uçuruma çıxardığı eşq macərası yaşamışdım, amma bütün bunların hamısı ömrümün geridə qalan günlərini unutdura bilməmişdi. Elə indi Təbrizdə, Mirzə Qədimin o alçaq tavanlı hücrəsində, gözəl Nisəxanımın, nuri-didəm Sultanəlinin yanında olmaq xətrinə bütün bunlardan keçə bilərdim. Amma alın yazısı deyilən şeyin mövcudluğuna da inanırdım...

*(...Bu yerdən üç gün səfər eləyib, Yaroslavl adlanan şəhərə gəlib çıxdıq: indi yolumuz quzey – Günbatan səmtinə uzanırdı. Bu şəhərin əhalisi Pereyaslavlın əhalisindən çoxdu, burda 40.000 ev (180.000 nəfər) var. Onların hamısı moskovlu, xristiandılar, şəhər yaxşı inşa olunub, orda rus tərzində tikilmiş çoxlu kilsələr, monastırlar var. Bundan başqa, burda bütün Moskov torpağında gördüyümüz ən güclü qalalardan biri yerləşir, yaxınlıqdan axan Barem (qolu olan Suxona) çayının sayəsində qala daha güclü, əzəmətli görünür. Məqsədimiz burdan keçib Lotaring, Sakson, German məmləkətlərinə getməyiydi, amma bizə dedilər, Yaroslavldan ora ən tez, düzgün, doğru yol avarlı gəmilərə minib, Volqa çayıyla demək olar, Böyük Buzlu Dərya olan dəryayacan yüz lyö üzməkdi. Amma bəziləri deyirdilər, bu çay Baltik dəryasına, bayaq dediyim Günbatan Dvina, yaxud Borisfen (Buq) çayının bir qisminin axdığı yerə tökülür. Bunu hətta ən etibarlı kosmoqraflarla təsdiqləyirlər. Nə olur olsun, biz gəmiyə minib, gündə əlli, ya da altmış ağac üzə-üzə Volqa çayıyla beş yüz ağac məsafədə yerləşən Ağ dəryaya yol aldıq, bizim heyətə iki gəmi vermişdilər, birini bizə, o birini ingilislərə.*

*Volqa çayının hər iki tərəfində çoxlu şəhərlər yerləşir, Yaroslavlda gəmiyə minəndən iki gün sonra mənim fikrimcə, 10.000 evdən (yaxud 45.000 nəfər) ibarət, hətta bundan çox əhalisi olan Rıbinsk adlı şəhərə varid olduq. Burda avar çəkmək üçün gəmiyə götürdüyümüz adamları dəyişdik, bizə başqalarını, həm də çoxlu ərzaq verdilər. İki günlük səfərdən (həm də Dvinanın əsas suyuna daxil olandan sonra) bu çayın qırağında yerləşən, mənim fikrimcə, 3.000-ə yaxın evdən (yaxud 13.500 nəfərdən) ibarət əhalisi olan Totma şəhərinə gəldik; burda gördüyümüz ən yaxşı qalalardan biri yerləşirdi. Yenə adamları dəyişdik, bir gündən sonra Brusensk şəhərinə yetişdik, sonra burdan Ustyuq şəhərinə*

*gəldik, burda bizi təzədən bol ərzaqla təchiz elədilər. Səhəri gün yol bizi gətirib Turoves şəhərinə çıxardı. Burdan o tərəfə səfərimizdə qaranlıqla gecə aradan çıxdı, aləmin bu hissəsində mart, aprel və mayda gecə olmur: həm də əksinə, qışın mütənasib vaxtlarında gündüz həmişə qaranlıq olur, işıq olmur. Bu fasiləsiz gündüz işığı onunla izah olunur, biz çox yüksək genişliyə gəlib çıxmışdıq, amma gün-güzəranımıza heç alışa bilmirdik, ona görə ki, yatmaq üçün lazım olan qaranlıq yox idi...)*

...Çox götür-qoy eləyəndən sonra Əliqulu bəylə məsləhətləşib ser Antoninin hərəkətlərini göz olmağı qət elədik – hər halda, Şahımızın buyruğunu yerinə yetirən, namələrini, bəxşişlərini Avropanın ən qüdrətli hökmdarlarına aparan səfarətimizin taleyini sözsüz-sovsuz ser Antoniyə tapşıra bilməzdik.

– Bəlkə Yadigar bəy Məhəmmədlə açıq söhbət eləyək? – Əliqulu bəy fikrini bildirdi. _ Onu heyətə İskəndər bəy Münşinin təklifilə salıblarsa, deməli, inandığı, bel bağladığı adamdı. Yadındadısa, İskəndər bəy dövlətxanadakı söhbətimizdə də elə bunu dedi. Yadigar bəyin əlinin altında olan qulamlar çətin məqamda işimizə yaraya bilər.

– Nolar, – dedim, – Yadigar bəylə danış, fürsət düşən kimi, neyləyəcəyimizi danışıb-razılaşaq. Mənim ehtimalıma görə, ən çətin işimiz Böyük Knyazın torpağından çıxandan sonra olacaq.

– Arxayın ol, Oruc bəy, danışaram, – Əliqulu bəy neçə illərdən bəri mənə tanış olan, öz-özlüyümdə çox qiymətləndirdiyim soyuqqanlılıqla dilləndi.

Belə fürsət gündüz kimi aydın olan gecələrin birində, Turoves şəhərindən çıxanda yarandı. Gəminin burnunda

tək-tənha dayanıb ağappaq gecənin su üzərindəki əksinə baxırdım. Əliqulu bəylə Yadigar Məhəmməd səssizcə mənə yanaşdılar.

– Yadigar bəylə hər şeyi danışıb razılığa gəlmişik, Oruc bəy, – Əliqulu bəy lap astadan, dilimizi başa düşməsələr də, avarçıların belə eşidə bilməyəcəyi tərzdə pıçıldadı. – Elə bilirəm, daha narahatlığa əsas yoxdu.

– İskəndər bəy mənə həmişə sizin yanınızda olmağı tapşırıb, Oruc bəy, – Yadigar bəy Məhəmməd də azman vücuduna xas olmayan asta səslə dilləndi. – Hər şey mənə aydındı, lazım gələndə istənilən addımı atmağa hazıram.

– Söhbət Əlahəzrət Şahımızın buyruğunu yerinə yetirməyə gedən səfarətimizin əmin-amanlığından gedir, Yadigar bəy, – dedim. – Yəqin, Qibleyi-aləmin fərmanını əlində dəstəvuz eləyib özünü küllü-ixtiyar sayan ser Antoninin işdəklərindən xəbərin var. Gərək sabah belə bir oyunun bizim səfarətin başına açılmasına razı olmayaq. Adamlarımızın, həm də Şahımızın günbatan hökmdarlarına göndərdiyi bəxşişlərin qorunması Hüseynəli bəyin də istəyidi. Müəyyən səbəblərə görə, Hüseynəli bəyi bu söhbətdən xəbərdar eləməmişik. Amma sayıqlığımızı əldən verməməliyik.

– Başa düşdüm, – Yadigar bəy Məhəmməd əlini sinəsinə qoyub baş əydi, gəldiyi kimi səssizcə də çıxıb getdi. Əliqulu bəylə uzun müddət dinmədik.

– Dəryaya çıxandan sonra işimiz çətin olacaq, – dedim, – hələ ser Antoninin əl-qol açmaq imkanı yoxdu...

– Allahın köməyilə öhdəsindən gələrik, – Əliqulu bəy inamını itirmirdi. – Girdiyimiz döyüşləri yadına sal, qardaşım, neçə kərə ölümlə üz-üzə gəlmişik, amma geri çəkilməmişik...

## 8.

İki gəmiyə mindiyimizi, ser Antoniylə heyətinin birinci, səfarət heyətimizinsə ikinci gəmidə üzdüyünü deməmişdim. Yola çıxmağa hazırlaşanda bəxşişlər yığılmış sandıqların bizim gəmiyə yüklənməsindən ötrü çox çalışdım, amma ser Antoni Hüseynəli bəylə danışıb bu işi öz xeyrinə həll eləmişdi. Əlbəttə, Hüseynəli bəyi inandırmağa çalışsaydıq, ürəyinə şübhə toxumu düşərdi, üstəlik, Şahımızın iradəsinə zidd getdiyimizi fikirləşib qəzəblənərdi. Yüz-yüz əlli addım irəlidə üzən gəmini gözaltında saxlamağa imkanımız olmadığından, hərdənbir onun səmtinə boylanmaqdan başqa əlimizdən bir iş gəlmirdi. Bu cür çıxılmaz vəziyyətdə ürəyimizə azacıq da olsa, toxtaqlıq gətirən dəryaya qədər hər hansı təhlükə ehtimalının çox az olmasıydı.

Hüseynəli bəyin qabağını kəsən təkcə Şahımızın ser Antoninin əlindəki fərmandımı? Bunu dəqiq bilmirdim. Fərmanda ingilisin bu cür səfərlərdəki səriştəsini nəzərə alıb, məsləhətinə qulaq asmaq buyurulmuşdu. Amma elə şeylər varıdı, birbaşa səfarətimizin taleyilə bağlıydı, bunu şübhəsiz, ser Antoniyə güzəştə getmək olmazdı. Əslində, ingilisi rəncidə salmaqdan, Şahımızın buyruğunu yerinə yetirməyə əngəl törədəcəyindən ehtiyat eləyirdi. Əgər belə olsaydı, Şahımızın qəzəbinə tuş gələr, nəinki mənsəbini, hətta başını da itirərdi.

Mən başqaları kimi, yuxusuzluqdan əziyyət çəkmirdim, günün istənilən vaxtı yatmağa, lazım olan məqamda oyaq qalmağa öyrəncəliydim. Ömrümün az qala tən yarısını at belində, səfərlərdə keçirmişdim, qaya altında, kol

dibində, qumlu səhrada, eləcə də ayaq üstündə yatmağa öyrəncəliydim. Bu cür vəziyyətlərdə Əliqulu bəy də məndən geri qalmırdı. Ona görə sözsüz-sovsuz növbələşib ingilisin getdiyi gəmiyə göz olurduq, amma ikimiz də qarşıda bizi nələr gözlədiyini, əlbəttə, bilmirdik.

Gəmiçibaşından öyrəndiyimə görə, irəlidə rusların böyük Xolmoqorı şəhəri varıdı, sonra dəryanın qırağındakı Arxangelsk şəhərinə – gəmilərin lövbər saldığı şəhərə gedəcəkdik. Buralarda yaz özünü hələ təzə-təzə bildirirdi. Çayın hər iki tərəfindəki meşələr, ara-sıra gözə dəyən çəmənliklər yenicə yaşıllaşmağa başlayırdı. İndi Təbriz bir aydan artıq olardı, yaşıl donunu geyinmişdi, bağ-bağatın, çölün, düzün, yamacların min bir rəngi göz oxşayırdı. Təbrizdə olsaydım, Sultanəlini ata mindirib Səhənd dağına aparardım, göz yaşı kimi dumduru çeşmələrin başında oturub dincələrdik, qayıdanda yolüstü Mehranrud çayında çimib, evə qayıda-qayıda rastımıza çıxan kəhrizlərin hərəsindən bir qoşa ovuc içərdik. Yol boyu ona təbrizin şairlərindən, bəstəçilərindən, xanəndələrindən, naqqaşlarından, xəttatlarından danışırdım. Bir çoxunu tanıdığım Allah vergisi xəttatlar Mövlana Məhəmməd Həsən Təbrizini, Mövlana Əla bəy Təbrizini, bənzərsiz rəsm ustaları Mir Müsaviri, Mövlana Müzəffər Əlini, Əmir Dövlətyarı, Seyid Əhməd Nəqqaşı, Pirseyid Əhməd Təbrizini, bəstəçi Əbdülqədir Marağayini, xanəndə Hafiz Lələni, şairlər Kişvərini, Həqirini, Xələfini, Sürurini, Şahini, Tüfeylini, Qasımini tanıdardım. Əlbəttə, Allah-tala möhlət versəydi, bu səfərdən sağ-salamat qaytarıb Təbrizə yetirsəydi, yəqin, elə belə də olacaqdı. Çünki hər şey Qadir Allahın ixtiyarındadı, biz bəndələrin Ona boyun əyməkdən başqa görəcəyi

iş yoxdu. Evimdə sakitcə oturduğum məqamda bu cür uzaq səfərə çıxmağım da yalnız Allahın buyruğudu...

*(...Səfərimizdə davam eləyə-eləyə Böyük Buzlu Dəryanın kənarında yerləşən Xolmoqorı adlı çox böyük şəhərə gəlib çıxdıq. Bu şəhərdə 30.000-dən artıq ev (yaxud 135.000 nəfər) var, şəhər Barem (yəni Dvina) çayının böyük dəryaya töküldüyü yerdən əlli ağac aralıda yerləşir. Xolmoqorıda dincələ-dincələ, ingilis, yaxud german gəmilərindən xəbər gözləyə-gözləyə on iki gün qaldıq. Sonra yolumuza davam eləyib Arxangelsk adlanan yerə çatdıq, bu şəhər çay aşağı altmış ağac məsafədə, dəryanın kənarında yerləşir. Mənim fikrimcə, Arxangelskin əhalisi 12.000 evdən (yaxud 54.000 nəfər) ibarətdi; bu çox məşhur limandı, burda ingilis, german gəmiləri lövbər salır, Asiyanın quzey hüdudlarıyla ticarət eləyirlər. İri dayazlıq limana girişin yolunu kəsir; bu dayazlıq güneyə meyillidi, gəmilərin dayanması üçün geniş, təhlükəsizdi. Çox vaxt bu limanda düz 400 gəmi dayanır, burda gömrük vergiləri Moskov torpağının Knyazına yaxşı gəlir verir. Biz Arxangelskdə on iki gün qaldıq, bütün işlərimizi görüb qurtardıq, axırda min ton su tutumu olan flamand gəmisinə minməyi qərara aldıq, həmin gəmi bu limandan üzməyə hazırlaşırdı, on iki topla silahlanmışdı.*

*Burda ser Antoni Şerlinin başımıza gətirdiyi iş barədə danışmaya bilmərəm. Ser Antoni balaca boylu olsa da, çox diribaş adamıydı; tale ona əməlli-başlı görkəm verməsə də, özünü çox dartırdı. Sonra aşkar olacaq, həmişə onun qəlbində bizə qarşı gizli niyyət varıdı, üstəlik, əlində Şah Abbasın verdiyi fərman vardı – ser Antoninin məsləhət gördüyü hər şeyə qulaq asaq, ona görə ki, əcnəbilərlə iş görməkdə bizdən daha artıq səriştəsi var. Buna görə də dəryada səfərə çıxanda ser Antoni bizə dedi, xris-*

*tian hökmdarları üçün bəxşişlər yığılmış böyük sandıqları flamand gəmisinə götürməmək daha təhlükəsiz olacaq, ona görə ki, həmin gəmi köhnədi, bu qədər yükün ağırlığına dözməz. Bir də ki, qəfildən bizi qasırğa yaxalasa, yükü gəmidən dəryaya atmaq lazım gəlsə, onda hədiyyələr yığılmış sandıqları birinci atacaqlar. Sonra dedi, onun Arxangelskdə etibarlı dostu var, ingilisdi, böyük, möhkəm gəminin sahibidi, o, sandıqlarımızı həmin gəmiyə yükləyər, biz Romaya gedib çatanda özümüzə qaytarar. Bütün bunlar elçimizə etibarlı, ağıllı göründü, ser Antoninin məsləhət gördüyü kimi, sandıqlarımızı həmin ingilisə verdik...)*

...Əslində, Arxangelskdə qaldığımız on iki gün həddən artıq gərginlik içində keçmişdi. Şəhərə çatdığımızın səhəri günü ser Antoni əl-ayağa düşdü, bizi Romaya çatdırmaqdan ötrü gəmi sahibləriylə danışıqlar aparmağa başladı. Axırda məlum oldu, bir flamand gəmisiylə razılığa gəlib. Amma söhbət sandıqlarımızı ingilis gəmisinə yükləməyin üstünə gəlib çıxanda dalağım sancdı. Əgər ingilis gəmisi Romaya gedirdisə, ser Antoni niyə heyətimizin də bu gəmidə getməsinə razı olmamışdı? Kim bəxşişlərin yükləndiyi gəminin dəryada fırtınaya düşməyəcəyinə, quldurların əlinə keçməyəcəyinə, ən azı hansısa ayrı limana gedib çıxmayacağına zamin dura bilərdi? Bu fikrimi Əliqulu bəyə dedim, o da əmisinin yanına getməyi məsləhət gördü.

Hüseynəli bəy bizim ehtimallarımızı çox soyuqqanlıqla qarşıladı. Dəlil-sübutu yenə dəyişməmişdi:

– Ser Antoninin əlində Qibleyi-aləmin fərmanı var, – dedi. – Narahat olmağınıza əsas görmürəm.

– Hüseynəli bəy, – hər şeyi gözümün altına alıb, fikrimdəkiləri gizlətməmək qərarına gəldim, – belə bir məsəl var: Ehtiyatlı igidin anası ağlamaz. Əgər qərarınız qətidisə, heyətimizdən bir neçə nəfərin ingilis gəmisinə minməyinə, yükümüzə göz olmağına icazə verin. Lap elə Əliqulu bəylə mən bir neçə qulam, bir də dilmanc götürüb, o gəmiyə minə, sizi Romada qarşılaya bilərik. Ürəyiniz də arxayın olar...

Hüseynəli bəy ani tərəddüd keçirdi – bunu üz-gözünün ifadəsindən bildim, amma yenə də öz dediyindən dönmədi:

– Şahımızın buyruğuna əməl eləmək mənim borcumdu, – gözlərini üzümüzə yox, harasa kənara zilləyib dilləndi. – Qalanını, Allah bilir, alnımıza nə yazılıbsa, o da olacaq.

Ser Antoni üzdə çox sərfəli görünən bu təkliflə Hüseynəli bəyin könlünü necə ələ almışdısa, daha sözü çevirməyin xeyri yoxudu. O söhbətdən gəmiyə minənəcən keçən üç gün ərzində çıxış yolu axtardıq, qərarın dəyişəcəyinə ümid bəslədik, amma biz deyən olmadı. Həmin gün Əliqulu bəy, Yadigar bəy Məhəmməd bir də mən məlul görkəmlə ingilis gəmisinə yüklənən bəxşiş dolu sandıqlara, cılız vücuduyla ora-bura qaçan ingilisə baxır, hönkürməkdən özümüzü güclə saxlayırdıq. Üçümüzə də ayanıdı, bir daha o əntiq şeyləri görməyəcəyik...

Mən kitablarımı, bəzi xırda-para bəxşişləri, dəyişəcək paltarımı yığdığım sandığı vermədim, köhnə flamand gəmisində bir küncə qoyub, üstünə elə gəmidəncə tapdığım köhnə kilim parçası atdım. Qabaqca ingilis gəmisi, ardınca da bizim mindiyimiz gəmi dəryaya çıxıb günbatana doğru üz qoydu...

CVCHEINOLLIBEAG MAGNI SOPHI PER-
SARVM REGIS LEGATIONIS SOCIVS, &c.




*StrenVVs dVCar beLLIs reX persa CeLebrIs.*
*Caesar DIVe tVas hInC per aDIVIt opes.*

*Səfarətin başçısı Hüseynəli bəy Bayat*

# DÖRDÜNCÜ FƏSİL

*Quzey Buzlu dəryasından*
*German torpağına*
*1600-cü ilin payızı*

**Quzey Buzlu dəryasında səfərimizin necə keçdiyindən (ingilis dəniz quldurlarının bizi qarət eləmək istəməsindən, gəmimizin fırtınaya düşməsindən, nəhayət, German torpağına qədəm qoymağımızdan), gördüyümüz başqa yerlərdən danışılır.**

# 1.

Bu vaxtacan elə bilirdim, dünyanı kifayət qədər görüb-tanımışam – hər halda, ömrümün qırx ilinin yarısını döyüşlərdə, səfərlərdə, görüb-götürməkdə keçirmişdim. Amma ustadım Mirzə Qədim düz deyirmiş: insan ana bətnindən qəbir evinəcən öyrənir. Ustaddan dönə-dönə bu sözləri də eşitmişdim: *«Heç vaxt özünün kamilliyinə yetdiyini sanma, kamil insan dünyada tək-tək olur, o da Şeyx Nizami, Mövlana Rumi, Piri-Mürşidimiz Şah Xətayi kimi Allahın seçdiyi şəxslərin qismətinə düşür...»*

Gəmiyə minəndə nədənsə ağlıma bu fikirlər gəlmişdi. Əlbəttə, Əliqulu bəylə Yadigar bəy Məhəmmədin sınıq görkəmləri ürəyimi sızladırdı, Bünyad bəyin tərki-dünya əhvalından, Əlfəqih Əmirin yekəxana hərəkətindən qəzəblənirdim. Həsənəli bəy məndən ötrü çoxdan mövcud deyildi, iri gövdəli, amma pişik kimi cəld olan qulam Şəmsəddinin əsirliyinə verilmiş zavallı bir zatıdı. Hüseynəli bəylə yalnız rastlaşanda salamlaşır, üz-üzə gəlməməyə çalışırdım. Artıq deməlimi demişdim, bundan sonra nəyisə geri qaytarmaq çox çətin idi. Ürəyimdən qara qanlar axa-axa bəxşiş dolu sandıqları götürüb aparan ingilis gəmisinə baxır, əlini belinə qoyub gəmimizin göyərtəsində görkəmsiz vücuduyla özündən razı halda var-gəl eləyən ser Antoniyə göz qoyurdum. Bu cılız, sarışınsaqqal zatı bircə əlimlə götürüb dəryaya atmağıma Allahım izin verərdi, yeganə qorxum Şahımızın qəzəbinə tuş gəlmək sarıdanıydı...

Ser Antoniylə ulduzumuz elə birinci kərə üz-üzə gələndən barışmamışdı. Nə qədər özümü Şah təlxəyinə

oxşayan bu adama biganə göstərməyə səy eləyirdimsə, olmurdu ki, olmurdu. Deyəsən, ondan xoşum gəlmədiyini üz-gözümün ifadəsi altında gizlədə bilməmişdim, bunu anlamışdı, ona görə də rast gələndə xırda, dibində cinlər oynaşan gözlərini üzümə dikib, elə bil, məni cəng meydanına çəkmək istəyirdi. Özümü o yerə qoymurdum, amma artıq onda duyurdum, bu vücudun sahibi dürüst adam ola bilməz. O da ürəyimə dammışdı: nə vaxtsa onunla üz-üzə gələcəyik, cəngimiz qaçılmaz olacaq.

Mindiyimiz flamand gəmisi doğrudan da, köhnəydi. Altmış beş min pud su tutumu olsa da, adama elə gəlirdi, fırtına qopsa, dağılıb parça-parça olacaq. Ser Antoni öz əsabələriylə gəminin burnunda yer tutmuşdu. Dominikan rahibin səssiz-soraqsız itməsindən sonra özünü narahat, səksəkəli aparan fransiskan rahib büzüşüb bir küncdə oturmuşdu, elə bil, başına nə vaxt bu cür fəlakətin gələcəyini gözləyirdi.

Aramızda hansısa sözləşmə olduğu bilinməsin deyə, Əliqulu bəylə Yadigar bəy Məhəmməd özlərinə bir-birindən aralı yer eləmişdilər. Mən də Bünyad bəyə yaxın yerdə qərar tutmuşdum. Sandığımın yanından keçəndə ser Antoninin necə şübhəylə, sonra açıq-aşkar həqarətlə baxdığını sezib bundan belə ehtiyatlı olmağı qət elədim. Nə vaxtsa bu ingilis sandığı dənizə atdıra bilərdi, belə fikrə düşəcəyinə də zərrə qədər şübhə eləmirdim. Əlbəttə, nə qədər hər şey qaydasında gedirdi, buna cəsarət eləyə bilməzdi, amma günlərin birində fırtına qalxsaydı, ilk ağlına gələn fikir sandığın dənizə atılması olacaqdı. Buna həyatım bahasına da olsa, yol verə bilməzdim. Hətta çox hörmət bəslədiyim, özümə böyük saydığım Hüseynəli bəy

Bayat əmr eləsəydi belə, ən qiymətli xəzinəmi – kitablarımı dənizə atmazdım...

*(...İndi bu dənizin qırağında yaşayan adamların adətlərini təsvir eləmək istərdim. Zahiri görünüşcə kişilərlə qadınlar bir-birinə oxşayırlar, kişilərin nə saqqalı, nə də qaşı var; üstəlik, onların boyu çox alçaqdı, o qədər alçaqdı, əgər hər hansı xalqı doğrudan da, cırtdan adlandırmaq olarsa, bu xalq həmin loparlardı. Onlar hətta İspan krallığındakı istənilən cırtdandan da balacadılar. Həmin adamların gözləri o qədər balacadı, güclə görürlər. Onların hamısı çox mövhumatçıdılar, cadugərləri öz cadularıyla bu adamların dənizlərində üzənlərə, xoşbəxt təsadüf üzündən alış-veriş eləyənlərə əlverişli hava bəxş eləmək vədi verirlər. Onlar gəlib bizə də təklif elədilər, dedilər, əgər yaxşı pul versək, gözəl hava yaradarlar, amma elçimiz həqiqətən Allahın əlində olan bir şeyi necə vəd eləyəcəklərini soruşdu, buna görə də çıxıb getdilər.*

*Səfərimizə başlayıb, qırx gün ərzində gecənin nə olduğunu görmədik – günəş həmişə göyün ortasında dururdu; amma sonra nəhayət, yenə aylı-ulduzlu qaranlıq düşdü...)*

Səfərimizin ilk qırx günü çox çətin keçdi: yuxusuzluqdan əziyyət çəkənlər həmişə yarıyuxulu, əzgin olurdular, hətta yeməyi də yarıyuxulu yeyir, subaşına yarıyuxulu çıxırdılar. Əlfəqih Əmir dilmanclardan, xidmətçilərdən, yükçülərdən ibarət yarıyuxulu dəstəni başına yığıb Allah-talanın möcüzələrindən danışırdı. Onun dediyinə görə, Gözəgörünməz bu aləmdə hər şeyi cüt yaradıb, yalnız özü təkdi; məsləhət bilib, gündüz nurlu, gecə qaranlıq olsun, ona görə də indi gecənin də nurlu olması bu yerlərin Allah-talanın qəzəbinə gəldiyini göstərir.

– Gördünüzmü, – Əlfəqih Əmir əlini saqqalına çəkib vəcdlə danışırdı. – Burda yaşayanlar necə balaca, eybəcərdilər, heç bığ-saqqalları, qaşları da yoxdu. Deməli, Allahın qəzəbinə tuş gəliblər, hansısa böyük günahın sahibidilər. Üstəlik, Allahın işlərinə qarışmağa da cəsarət eləyirlər. Gördünüzmü, elçimiz bizə yaxşı hava vəd eləyən cadugərlərə nə dedi? Doğrudan da, hər şey Allah-taalanın əmrindədisə, onlar necə çarə qıla bilərlər?

Əlbəttə, Əlfəqih Əmirin dediklərinə qulaq asa-asa bu yerlərdə ilin çox qisminin qaranlıq, az qisminin nurlu olmasını təbiət hadisəsi sayırdım, daha doğrusu, bunu Mirzə Qədimin kitabxanasından götürdüyüm hansı kitabdasa oxumuşdum. Amma indi Əmirlə mübahisəyə girişmək fikrində deyildim, elə bilərdilər, Yaradanın bu aləmdə qoyduğu nizamın ziddinə gedirəm. Bütün bunlara huş-guşla qulaq asan Bünyad bəyin də nəsə demək istədiyini, amma Əlfəqih Əmirin vəcdlə danışdığı sözlərin müqabilində susduğunu görüb qüssələnirdim.

Müvazinətimi saxlamaqdan ötrü içimdə çox əzab çəkirdim. Vaxtı çatanda namazımı qılır, Allah verəndən yeyir, kitab oxuya-oxuya günləri yola salırdım. Hərdən Əliqulu bəy yanıma gəlirdi, kürəyimizi sandığa söykəyib ordan-burdan danışır, ötən günləri xatırlayırdıq. Sandıqların ingilis gəmisinə yüklənməsiylə bağlı Hüseynəli bəyin hüzurundakı söhbətimizdən sonra xeyli sınqın, fikirli görünürdü. Düzü, tanıdığım az qala otuz il ərzində həmişə özünə güvənən, müşkülləri çözməyi bacaran, hamıya arxa-dayaq olmağa can atan Əliqulu bəyin bu haləti ürəyimi ağrıdırdı. İkimizə də bu cılız, sarışın, kosasaqqal ingilisin Qəzvində peyda olması, sonra Xoca Səfərin canfəşanlığı

sayəsində Şahımızın qəlbinə yol tapması, Günbatan hökmdarlarının hüzuruna gedən səfarətimizin demək olar, bütün ixtiyarının ona verilməsi ustalıqla qurulmuş qorxunc oyunu xatırladırdı, bu oyunun nəylə qurtaracağı barədə baş sındırırdıq. Mən hələ xəyalıma gətirə bilmirdim, əgər əcnəbi hökmdarlar Şahımızın naməsinə istədiyi cavabı versələr, osmanlılarla davada məmləkətimizə necə kömək eləyəcəklər: gəmilər göndərəcəklər, yoxsa ləşkər çəkəcəklər? Osmanlının qabağında əcnəbilərin bir neçə minlik qoşunu neyləyəcək? Bundansa Şahımız Sultanla dil tapıb ortaq məsələləri çözə bilməzmi? Əgər bu ingilis bizim məmləkətin dərdini belə çəkirdisə, Qəzvinə niyə Osmanlı torpaqlarından keçib gəlmişdi? Bəlkə elə səfarət məsələsi Xoca Səfərlə ser Antoninin gizli sövdələşməsinin nəticəsiydi? Saysız-hesabsız bu cür suallar içimi didib-dağıdırdı, bilirdim, Əliqulu bəyin qəlbində də eyni təlatümlər baş verirdi...

Aradabir ayaqlarımın uyuşuğunu açmaqdan, fikrimi dağıtmaqdan ötrü yüngülcə yırğalanan gəminin göyərtəsindəki beş-on addımlıq boş yerdə gəzişir, yad dildə danışan gəmiçilərə göz qoyurdum. Arxa tərəfdəki bir cüt topun lüləsi dəryanın iki səmtinə tuşlanmışdı. Bu cür topları osmanlılarla Təbrizdə döyüşən vaxt görmüşdüm, gurultusundan az qalırdı, adamın qulağının pərdəsi yırtılsın. Yəqin, dəniz səfəri o qədər də təhlükəsiz deyil, düzdü, Badkubə dənizində quldura-filana rast gəlməmişdik, amma Arxangelskdə eşitdiyimizə görə Quzey Dəryasında çoxlu quldur gəmiləri dolaşırdı, bu səbəbdən, hər gəmidə top, tüfəngli adamlar varıdı.

Əlbəttə, səfarətimizdəkiləri, ser Antoninin adamlarını nəzərə alsaq, gəmidə altmış nəfərədək əli silah tutan adam olardı. Əlfəqih Əmiri, göz dustağı olan Həsənəli bəyi bu dəstədə saymırdım – biri yaraq-əsləhədən oddan qorxan təki qaçırdı, o birisə imkan tapan kimi, istənilən düşmənin tərəfinə keçə bilərdi. Amma məsələnin qəliz tərəfi bizimkilərin heç vaxt dəniz döyüşündə olmamasındaydı. Şübhəsiz, dəniz döyüşünün öz sirləri, üsulları, öyrənməli tərəfləri varıdı.

Heç bilmirəm, axır günlər bu barədə niyə tez-tez fikirləşirdim. Amma deyəsən, adamın ağlına gələn başına gəlirmiş – buna bir daha əmin oldum...

## 2.

Səfərimiz qırx gün beləcə sürdü. Qırxıncı gün axşam namazı vaxtı havanın qaraldığını görəndə gəmidəkilərin necə sevindikləri indi də gözlərimin qabağındadı. Əlfəqih Əmir Allah-taalanın axır ki, bu aləmdə öz nizamını qurduğu barədə ucadan danışa-danışa dua eləyirdi. Uzun çəkən yuxusuzluqdan, əzginlikdən qurtaracaqlarını duyan yolçular ayın, ulduzların çıxmasını Yaradanın lütfü sayırdılar. Hətta, Həsənəli bəy də üzündə xoşbəxt ifadə nəzərlərini göyə dikib durmuşdu. Mən bir qıraqda dayanıb bütün bunlara göz qoyur, doğrudan da, İlahinin necə möcüzələrə qadir olduğu barədə fikirləşirdim.

Sonrakı iki gün çox sakit keçdi. Gecənin düşməsiylə dərin yuxuya gedən yolçular günortayacan oyana bilmir, sonra qəza namazı qılmalı olurdular. Mən, dediyim kimi, hər cür şəraitdə yatmağa öyrəşmişdim, erkən oyanmağa da adət eləmişdim. Üçüncü günün səhəri gəmimizdən beş-altı yüz addımlığında iki gəmi gördüm. Bu gəmilərin biri sağ, birisə sol tərəfdən gəmimizə yaxınlaşmağa çalışırdı. Əvvəlcə elə bildim, yanımızdan ötüb keçəcəklər, amma təxminən iki yüz addımacan yaxınlaşanda, sağ tərəfdəki gəmidə şübhəli canlanma sezdim, sonra göyərtənin sol tərəfinə qaçıb eyni canlanmanı da o biri gəmidə gördüm. Həmin vaxt Əliqulu bəy artıq yanımdaydı, diqqətlə gəmiyə baxıb şübhəsini dilinə gətirdi:

– Deyəsən, bunların heç biri bizə xoş niyyətlə yaxınlaşmır, Oruc bəy. – dedi. – Hər halda, gəmiçibaşını xəbərdar eləyib, hazır durmaq lazımdı.

Əlbəttə, əvvəlcə Hüseynəli bəyi xəbərdar elədik. O dərhal Yadigar bəy Məhəmmədi yanına çağırdı, hamının silahlanmasını, quldurların gəmiyə yaxınlaşmasına imkan verməməyi tapşırdı. Təbrizdə osmanlılarla üz-üzə gələndə Əliqulu bəylə top atmağı öyrənmişdik. Düzdü, gəmidəki top bizim o vaxt gördüyümüz toplara oxşamırdı, amma hər halda, atəş açmağımız çətinlik törətməyəcəkdi.

Ser Antoni də vəziyyətdən xəbər tutmuşdu, cılız vücuduyla gəminin bu tərəfindən o tərəfinə qaçır, gəmilərin hansı ölkəyə məxsus olduğunu ayırd eləməyə çalışırdı. Sonra gəmiçibaşının yanına cumdu, qışqıra-qışqıra onunla nəsə danışdı, ardınca dəstəsində olanları yığıb, sərkərdə kimi, onlara əmrlər verməyə başladı.

Bu vaxt gəmilər iki tərəfdən əlli addımacan yaxınlaşdılar. Ordakıların hərəkətindən gördüm, qarmaq atıb bizim gəmimizə ilişdirməyə, sonra göyərtəyə soxulub qarət eləməyə hazırlaşırlar. Hətta bir neçəsi tüfəngdən atəş açdılar, ardınca top atəşi guruldadı. Məsələnin get-gedə ciddiləşdiyini görəndə, Hüseynəli bəyə dedim, basqına hazırlaşanlar ingilis dəniz quldurlarına oxşayırlar, bəlkə ser Antoni onlarla danışıq aparsın, ingilis kralının yanına getdiyimizi desin. Təklifim onun ağlına batdı, dərhal dilmancı göndərib, ser Antonini yanına çağırdı. Biz hər ehtimala qarşı topların arxasına keçdik, Yadigar bəy Məhəmməd tüfəngçiləri atəş açmağa hazır vəziyyətdə düzdü.

Ser Antoni Hüseynəli bəylə danışandan sonra heyətindəki ingilisləri yanına çağırdı, onlar səs-səsə verib ingilis olduqlarını, Əlahəzrət Kraliçanın, həm də Əlahəzrət Şotland kralının buyruğu, Günbatan hökmdarlarının xahişilə Əlahəzrət Səfəvi hökmdarlarının yanına elçi getdiyini,

indi Səfəvi hökmdarının naməsini Günbatan hökmdarlarına, Roma papasına, ingilis kraliçasına, şotland kralına apardıqlarını, gəmidə qiymətli yükün olmadığını qışqırdılar. Deyəsən, basqına hazırlaşan gəmilərdə bu deyiləni eşitdilər, hər halda, gəmimizdə ingilislərin olmağı onların məramına təsir göstərdi, bir xeyli öz aralarında qışqırışandan sonra qarmaqları yığışdırıb gəmimizdən aralanmağa başladılar, biz də təhlükənin sovuşduğunu görəndə asudə nəfəs aldıq. Əlfəqih Əmir artıq şükür duası verirdi, bayaqdan didib-tökən fransiskan rahib sakitləşib süst düşmüşdü. Ser Antoni də özünü qalib sərkərdə kimi hiss eləyir, cılız vücuduna yaraşmayan vüqarla göyərtədə gəzişirdi...

Bu əhvalat Hüseynəli bəylə aramızdakı soyuqluğu azacıq yumşaltsa da, hər şeyin öz məcrasına qayıtmağı deyildi. Üstəlik, hiss elədim, ingilisin bizi öz millətindən olan dəniz quldurlarının xatasından qurtarması onun ser Antoniyə qarşı inamını bir qədər də artırmışdı. Hər halda, elçinin uzun-uzadı minnətdarlığı bu fikrə gəlməyimə əsas verirdi...

O gün axşama yaxın qəflətən göyün üzü tutuldu, uzaqlarda başlayan fırtına ağlagəlməz sürətlə gəmimizə yaxınlaşmağa başladı. Özümüzə gəlməyə macal tapmamışdıq, gəmi elə dəhşətlə yırğalanmağa başladı, ayaq üstündə dura bilməyib kimin əli nəyə çatdısa, ondan yapışdı. Əlfəqih Əmir məndən bir az aralıda yelkənin kəndirindən yapışıb Allah-talanın qəzəbinə tuş gəldiyimizi, bütün bunların günahkar bəndələrə göndərilmiş bəla olduğunu ağlar səslə qışqırırdı. Fransiskan rahib də dor ağacını qucaqlayıb, latınca dua oxuyur, göz yaşları axıdırdı. Bünyad bəy bü-

züşüb bir küncdə oturmuş, gözlərini yummuşdu, elə bil, ölümün nə vaxt yertişəcəyini gözləyirdi. Həsənəli bəyin yanında sərvaxt duran qulam Şəmsəddininsə üzünün bir əzələsi belə tərpənmirdi, elə bil, ömrünü dəryada keçirib, başının tükü sanı fırtınalar görmüşdü.

Küləyin şiddətindən qırılan yelkən kəndiri Əlfəqih Əmiri göyərtənin kənarına çırpdı, onun sinəsindən qopan fəryada dözməyib özümü yanına çatdırdım, sürüyüb sandığımın daldasına çəkdim. Yelkənin kəndirləri bir-birinin ardınca qopur, dor ağacı küləyin şiddəti qarşısında tab gətirməyib gəmimizi o tərəf – bu tərəfə əyirdi. Mənə elə gəlirdi, gəmi indicə yanı üstə çevrilib dəryanın dibinə batacaq. Amma gəmiçibaşı bu cür fırtınaları çox görübmüş, gəmiçilərin köməyilə yelkənləri yığışdırırdı, bu işə Əliqulu bəy, Yadigar bəy Məhəmmədlə yanaşı, mən də qoşuldum. Gəmiçilərdən bir neçəsi sükanı düz tutmağa çalışır, gəmini küləyin səmtinə uyğun saxlamağa can atırdılar. Bu arada gözümə ser Antoni dəydi: o, fransiskan rahibin yanında cılız vücuduyla dor ağacından yapışıb əski parçası kimi yellənirdi.

Fırtınanın şiddəti eləydi, ümidimizi Allaha bağlamaqdan özgə yolumuz qalmırdı. Nəhəng dalğalar gəmimizin üstünə gəlib göyərtəyə çırpılır, hər şeyi silib-süpürüb aparmağa çalışırdı. Gəmiçilərin çoxu, həm də bizim heyətdəki xidmətçilər, qulamlar, yükçülər əllərinə keçənlə suyu göyərtədən təmizləməyə can atırdılar. Bir neçə dəfə dalğaların şiddəti elə böyük oldu, daha xilasımıza bir yol qalmadığını düşündük. Bütün bu müddət ərzində Hüseynəli bəy təmkinli görünür, hər şeyin Allahın mərhəmətinə bağlı olduğunu, alnımıza nə yazılıbsa, onun da baş verəcəyini deyirdi.

Fırtına bütün gecəni davam elədi. Səhər havanın sakitləşəcəyinə ümid bəsləməsək də, dan yeri ağaranda fırtınanın həmin güclə olduğunu gördük. Gəmidəkilər yorğunluqdan, üzgünlükdən, həm də yuxusuzluqdan zəifləmişdilər. Belə getsəydi, yəqin, xilasımız barədə fikirləşməyə halımız qalmayacaqdı. Fikrimi küləyin uğultusu arasından qışqıra-qışqıra Əliqulu bəyə çatdırdım. Qərara gəldik, Hüseynəli bəylə danışıb, gəmidəkiləri iki dəstəyə ayıraq, bir dəstə dincəlib qüvvə toplayanacan o biri dəstə göyərtədəki suyu boşaltsın. Hüseynəli bəy təklifimizlə razılaşdı, gəmiçibaşı, ser Antoniylə danışandan sonra dəstələrin birini mənə, o birini gəmiçibaşına tapşırdılar. Həmin məqamda qəlbimdə ser Antoniyə qarşı heç bir his yoxudu, ola bilsin, həmişə ikrahla baxdığı sandığımı dənizə atmaq o anlarda ingilisin ağlına da gəlmirdi...

Əlfəqih Əmirdən, bir də fransiskan rahibdən başqa hamı mənimlə gəmiçibaşının buyruğunu yerinə yetirirdi. Əlbəttə, Hüseynəli bəylə ser Antoniyə istisna varıdı: Hüseynəli bəy özü istəsəydi belə, mən buna razı olmazdım; ser Antonisə elə haldaydı, dalğa onu asanca götürüb dənizə atardı. İndi qulam Şəmsəddinin göz olmasına ehtiyac qalmayan Həsənəli bəy də mənim dəstəmdəydi.

Beləcə beş gün gecə-gündüz ölümlə üz-üzə qaldıq. Beşinci günün tamamında fırtına sakitləşdi, dalğalar yatışdı, üstəlik, səmt küləyi əsməyə başladı, axırda lövbər atıb dayandıq, fırtınanın ağrı-acısından qurtarmaqla məşğul olduq.

Bizdən azacıq uzaqda üzən bir gəmisə fırtınanın cəngindən qurtara bilmədi. Bizim gəmiçilər balaca qayıqda batan bədbəxtlərin köməyinə yetişməyə çalışdılar, amma çox gecikmişdilər, bəzi yükləri xilas eləsələr də, heyətdən

kimsəni qurtara bilmədilər, hamısı son nəfərinəcən dəryada batıb balıqlara yem oldu.

Görünür, hələ alnımıza ölüm yazılmayıbmış, amma ingilis quldurların gəmimizə basqın eləmək istədiyi, həm də fırtınanın tüğyan elədiyi vaxtda çoxlarının üzündə ölüm əlaməti sezdim...

*(...Bu dənizdə üzdüyümüz bütün müddət ərzində cürbəcür nəhəng balıqlar gördük: bəziləri o qədər nəhəngiydi, bizə elə gəlirdi, dəryanın üzəriylə üzən gəmidi. Suiti adlanan balıqlar da gördük, onlar bir yerdə otuz baş olmaqla dəstəylə üzür, bizdə müəyyən qədər qorxu yaradıb, gəminin göyərtəsinə çox yaxınlaşırdılar; onda həmin balıqların bu qədər çox olduqlarını görüb topdan atəş açdıq, bundan sonra bizdən əl çəkdilər. Həmin Böyük Quzey Dəryasında səfərimizə davam elədik, amma elə hey dərya azarından əziyyət çəkirdik, sifətimizin rəngi qaçdı, üstəlik, heç nə yeyə bilmirdik, nə yeyirdiksə, geri qaytarırdıq...)*

## 3.

...Fırtınadan sonrakı yarım ay ərzində gəmimizin heyəti ağır döyüşdən çıxmış qoşuna oxşayırdı. Orta hesabla demək olar, adamların yarıdan artığı xəstə, yarımcan vəziyyətdəydi. Alışmadıqları dərya xəstəliyi, qidasızlıq, ürəkbulanması çoxunu əldən salmışdı. Təbabətdən başı çıxan, cavanlığında təbib yanında şəyirdlik eləmiş dilmanc Kərim Toxmaq özü də xəstəhal görünürdü, amma İsfahanda İskəndər bəy Münşinin məsləhətilə tədarük elədiyi dava-dərmanla ehtiyacı olanlara yardım eləməyə çalışırdı. Xüsusilə, Ələfəqih Əmirlə fransiskan rahibin vəziyyəti ürəkaçan deyildi, amma Kərim Toxmaq hər ikisini həyata qaytara bildi...

Ser Antoni bir balaca dirçəlmişdi, əllərini belinə qoyub təşəxxüslə göyərtədə gəzişir, özünü həyatin ağası kimi aparmağa çalışırdı. Fırtınanın şiddətli anındakı halətini yadıma salanda gülməyim gəlirdi, sözün düzü, dalğalardan biri onu götürüb dəryaya atsaydı, heç acıyıb eləməzdim.

Hüseynəli bəyin özünə gəlməsi on gün çəkdi. Onda artıq yelkənləri sahmana salıb ilk dayanacağımıza doğru gedirdik. Elçinin bütün fikri-zikri Şahımızın Günbatan hökmdarlarına göndərdiyi namələrin yanındaydı, qorxurdu namələr zərər çəkmiş olsun. Amma Allahın mərhəmətindən hər şey yaxşı qurtarmışdı, üstəlik, Kərim Toxmağın səyilə get-gedə dirçəlirdi.

Allah bir də onda üzümə baxmışdı, kitablarım zərər çəkməmişdi. Şübhəsiz, ağzı kip örtülən dəmir sandıqda olması, bu halında ən böyük var-dövlətim olan o nadir kitabları fırtınanın cəngindən qurtarmışdı. Ser Antoni yenə

sandığıma tərəf kin dolu nəzərlərlə baxmağa başlamışdı. Əlbəttə, daha ondan zərrə qədər də çəkinəcəyim yoxudu, açıq düşmənçiliyə keçsəydi, qılıncımın bircə zərbəsiylə başını bədənindən ayırardım, sonrası nə olardı-olardı...

*(...Bu quzey dəryalarında düz iki ay üzəndən sonra biz yenidən quru gördük – ah, bilsəydiniz, torpağı görməyə necə can atırdıq! – böyük çayın mənsəbinə, orda salınmış Ştade şəhərinə daxil olduq.*

*Ştade limanı – balaca bir yerdi, başdan-ayağa balıqçılar məskunlaşıblar. Elbanın mənsəbiylə yuxarı üzüb sahilə çıxdıq, sonra iki avarlı gəmiyə minib təzədən çay aşağı üzdük. Elba burda elə genişdi, böyük gəmilər də keçib gedə bilər, sahillərində də deyilənə görə, minlərlə şəhər var. Bizim indi olduğumuz yerdən Şvabiyaya, həm də Vürtemburq Knyazına məxsus olan torpaqları, eyni zamanda Nürnberq, Frankon, Bavar, Essen, Bukav torpaqlarını görmək mümkündü. Amma bu torpaqlar indi bizim üzüb keçdiyimiz yerlərdən uzaqda yerləşir, düz əlçatarımızda Minden, həm də Braunşveyq, Lüneburq diyarlarını görmək olar. Sonra gəmilərimizin səmtini dəyişdik, Elbanın mənsəbindən keçib, üç gündən artıq üzəndən sonra Emden adlanan, əhalisi 30.000 evdən (yaxud 135.000 nəfər) ibarət şəhərə gəldik. Bu şəhərdə çoxlu gözəl binalar, bütün ətrafda ən güclü qalalardan biri var. Bütün evlərin damı qurğuşunla örtülüb, bu da uzaqdan çox cəlbedici görünür, belə ki, gündüz günəş şəfəq saçanda həmin örtüklər parıldayır, damlar gümüşlə örtülmüş kimi görünür. Burda ölkənin şahzadəsi adından bizi kapitan (yüzbaşı) salamladı, amma Şahımızdan bu şahzadəyə tövsiyə naməsi olmadığından, həmin ölkəyə artıq diqqət ayıra bilmədik.*

*Emden şəhəri iki böyük çayın (Vezerlə Elbanın) arasında yerləşir, bu çaylar tərəfindən əhatə olunub, dəryadan ikigünlük*

*məsafədədi. Liman burda geniş alış-veriş aparır, tacirlər həmişə daha çox ingilislərin mallarıyla bol-bol təchiz olunublar. Sahilə çıxanda bizi qonaq evinə oxşayan bir evdə yerləşirdilər; hücrələr çox təmiziydi, amma qəribə tərzdə döşənmişdi: içində hərəsinin üstündə tük döşək, holland mələfəsi olan yüzlərlə çarpayı varıdı. Burda bizi yaxşı qəbul elədilər; səhəri gün həmin kapitan gəlib şahzadənin sarayına apardı, Şahzadəyə Təbriz ustalarının tikdiyi papaq, bir neçə top mahudla kətan apardıq. O, bütün bunları iltifatla qəbul eləməyə icazə verdi, bizi səhəri gün özüylə nahara dəvət elədi. Şahzadə bizə altı saat çəkən böyük ziyafət verdi, həm də bu ölkənin adət-ənənələrinə görə, bizi o qədər çox içməyə məcbur elədilər, çoxumuzu keflilikdən yuxu apardı...)*

...Hüseynəli bəylə azacıq düzələn aramız elə bu ziyafətdən sonra da əməlli-başlı korlandı. Əlbəttə, mən şərab içib, elə masa arxasındaca yuxuya gedənlərdən deyildim, bununla belə, içdiyimi danmaq fikrim də yoxdu. Bu məsələdə ən çox qabağa gedən Yadigar bəy Məhəmməd, Həsənəli bəy, Kərim Toxmaq, səfarətimizin daha iki dilmancıydı, şübhəsiz, ingilislərin hamısı bizimkilərdən yaman günə düşmüşdülər. Xüsusilə, ser Antoni o qədər içmişdi, iki xidmətçi onu qucaqlarına götürüb yatağınacan aparmalı oldu. Bu məsələdə təkcə Əlfəqih Əmirlə Bünyad bəy qıraqda qalmışdılar, fransiskan rahibsə özünü pis hiss elədiyini deyib, ümumiyyətlə, ziyafətə getməmişdi.

Əliqulu bəylə mən həddi keçməməyə çalışsaq da, bu nemətdən yetərincə dadmaqdan özümüzü saxlaya bilməmişdik. Qəribə burasıydı, ağlımız «*İçmə!*» deyirdi, nəfsimizsə «*İç!*» buyururdu, nəfsimizə boyun əyməyimizə görə də şübhəsiz, özümüzü günahkar sayırdıq. Hüseynəli

bəyisə bizim – özünə yaxın saydığı adamların başqaları sayaq şəriətimizin qadağalarını pozmağı bir də bütün baş verənlərin qabağını almaqda özünü gücsüz sayması qəzəbləndirirdi. O ziyafətdə elçimizin özünü saxlamasının ona hansı əzablar bahasına başa gəldiyini aydın duyurdum. Quzey dəryalarında iki ay sürən qorxu, xəstəlik, üzgünlük dolu günlərdən sonra bu cür eyş-işrətdən boyun qaçırmaq əlbəttə, böyük iradə tələb eləyirdi.

Ziyafətin səhəri gün Hüseynəli bəy Əlfəqih Əmirlə birgə divan qurmuşdu: dilmancları, xidmətçiləri, qulamları bir-bir yanına çağırır, bütün qəzəbini günahkarın üstünə tökəndən sonra hər kəsin cəzasını deyir, İsfahana qayıdanda mütləq cəza alacaqlarını söyləyirdi. Çağırılanlar öz suçlarını dərk eləsələr də, bu qədər təhlükəli yolçuluğun sonucunda özlərini doyunca yeyib-içmək ləzzətindən məhrum eləməyi ədalətli saymırdılar – bunu Yadigar bəy Məhəmmədin də, Kərim Toxmağın da, elə Əliqulu bəyin də görkəmindən sezmək olurdu.

Mən elçinin hüzuruna çağırılanda özümü tox tutmağa qət elədim. Yenə Hüseynəli bəyin töhmət, Əlfəqih Əmirin ikrah dolu nəzərləri altında durub payıma düşəcək cəzanın nə olacağını gözləyirdim. Xeyli sükutdan sonra axır elçi əlini saqqalına çəkib tənəylə dilləndi:

– Oruc bəy, Şahımızın etimad göstərib tapşırdığı bir məqama yaraşmayan iş tutduğunu anlayırsanmı?

– Anlayıram, ağam, – dedim, – amma gərək azı iki kərə ölümdən qurtulduğumuzu da nəzərə alasınız.

– Hər bir bəndənin sağ qalması, yaxud axirət evinə köçməsi Allahın əmrindədi, – Əlfəqih Əmirin iynə təki iti gözləri üzümə sancıldı. – İlahinin mərhəmətinin əvəzində

əməlisaleh bəndələr dua eləməlidilər, daha şeytan suyu içib, günah işlətməli deyillər...

Nəsə Əlfəqih Əmirə cavab vermək istəməyib susdum. Bir müddət dinmədiyimi görəndə Hüseynəli bəy hökmünü verdi:

– Get, İsfahana qayıdanda Qibleyi-aləmin hüzurunda danışarıq, – dedi.

Elə bildim, geriyə dönən yolum qəfildən qeyb oldu. Bu cür hökmlə Şahımızın qəzəbindən qurtulmaq müşkül görünürdü. Şübhəsiz, məsələnin bu yerə gəlib çatmasını istəməzdim, heç istəməzdim.

Amma hələ hər şey qurtarmamışdı...

*(...Bu ölkədə gördüyümüz ən əyləncəli şey-qadınların baş örtüyüdü. Həmin örtük düz başının üstündə ucalan dəyirmi sipərə oxşayır, demək olar, İspan məmləkətindəki evlərin kirəmitlə örtülmüş damları kimi, üzünü bu iqlimin arasıkəsilməz yağış-qarından qoruyur. Həm də mənə elə gəldi, heç bir ölkədə bir yerə yığışmış bu qədər çox qadın yoxdu.*

*Səhəri gün bizi şahzadənin xəzinəsinə, bir də cəbbəxanasına baxmağa dəvət elədilər. Gördüklərimiz doğrudan da, çox dəyərliydi, amma adi heyrətdən başqa bir hiss doğurmurdu. Digər şeylərlə birgə bizə taxıl anbarını göstərdilər, anbar o qədər iri, o qədər doluydu, adama elə gəlirdi, onların iddia elədikləri kimi, bu ehtiyat doxsan ilə bəs eləyər. Biz buna inana bilmədik, amma elə israrla dedilər, inandıq. Bununla belə, bu buğdanın özəyi yoxdu, hamısı qabıqdı, həm də ispan buğdasından uzundu; amma o biri tərəfdən, bu buğda bizim çəkisinə görə hətta vələmirdən də az olan arpamızdan ağır deyil. Belə taxıl növü bizdə də var, ona çovdar deyirik...)*

Vaxtımın çoxunu *(qəbul, gəzinti olmayanda)* gördüklərimi kağıza köçürməyə sərf eləyirdim. Elə bilirdim, arada olub-keçənlər bir müddət sonra unudulacaq, bu səfərdən yalnız gördüklərimin, eşitdiklərimin kağıza köçən qismi qalacaq. Əliqulu bəyin susqunluğu qəlbimi daha da sıxmağa başlamışdı. Yurdumuzdan-ocağımızdan artıq bir ildən çoxuydu çıxmışdıq, yəqin, səfərimiz hələ yarım il də sürəcəkdi. Bu müddətdə doğmalarımızın üzünə, adi həyata tamarzı qalmışdıq. Belə vəziyyətdə Allahın xoşuna getməyən xırda-para günahlar işlətməmək mümkün deyildi.

Düzü, səfərimizin bu qədər qarğaşalı keçəcəyi də heç ağlıma gəlməzdi. Elə bilirdim, hər şey çox asan, sakitlik içində baş verəcək, Şahımızın buyruğunu yerinə yetirib, şad-xürrəm məmləkətimizə qayıdacağıq...

## 4.

Şübhəsiz, Emdendə gördüyüm çoxlu gözəl qadınlar, bir də həmin qadınların qəribə baş örtükləri, Şahzadənin var-dövləti, nəhəng taxıl anbarı keçirdiyim dolaşıq hisslərin müqabilində kiçicik şeylərdi. O günlərdə ömrümdə bir daha canım Təbrizi, gözəl Nisəxanımı, nuri-didəm Sultanəlini, ustadım Mirzə Qədimi, doğmalarımı görə bilməyəcəyimdən qorxdum. Badkubə dəryasında, eləcə də Quzey dəryasında fırtınaya düşəndə quldurların basqınını gözləyəndə heç bu cür qorxu keçirməmişdim. Çünki öləcəkdimsə, nəşim olmasa da, ruhum o yerlərə, o adamların yanına qayıdacaqdı, amma sağ qalıb geri dönə bilməməyim məndən ötrü dözülməz əzab olardı.

Gecələrin birində yuxuma Nisəxanım girdi. Gördüm, çox xoşladığım çəhrayı paltarını geyinib, Təbriz yolunun üstündə durur. Sonra hardansa özüm peyda oluram, atın bağrını çatlada-çatlada ona sarı çapıram, amma əlim əlinə çata-çatda qəfildən atın ayaqlarının altında uçurum yaranır, o uçurum məni atqarışıq udur, yazıq Nisəxanımın ürəkparçalayan fəryadını eşidə-eşidə dibsizliyə yuvarlanıram.

Səhəri yuxumu axar suya pıçıldadım *(yerləşdiyimiz qonaq evi çayın lap yanındaydı)*, sonra fürsət düşəndə Əliqulu bəyə danışdım.

– Axır vaxtlar mən də qarışıq yuxular görürəm, – Əliqulu bəyin gözləri yol çəkdi. – Allah axırını xeyir eləsin. – Sonra heç gözləmədiyim bir xəbər verdi. – Bu gecə Həsənəli bəy aradan çıxmaq istəyib. Qulam Şəmsəddin bir anlığa yanından aralanıbmış, qayıdanda yerində tapmayıb, xeyli axtarandan sonra çayın qırağındakı ağaclıqda yaxalayıb...

– Belə çıxır, German imperatoruna çatdırmalı bir namələri yoxdu, amma əgər bu işi Xoca Səfər qurubsa, German imperatoruna da, Roma Papasına da, İspan kralına da namə çatdırmaq istəməmiş olmaz...

Əlbəttə, nə qədər ikrah hissi doğursa da, indi Həsənəli bəylə – Hambarsum Muşeqyanla oturub onun şeytanla dolu gözlərinin içinə baxmaq istərdim. Osmanlıdan basa-basa gəlib adını, dilini dəyişmiş (guya), Xoca Səfərin sayəsində dövlətxanaya yol tapmış, erməni kilsəsinin niyyəti yolunda oyuncağa çevrilmiş bu adamcığaz indi özünü necə hiss eləyirdi? Yəqin, o naməni ələ verməklə aldığı buyruğun öhdəsindən gələ bilməmişdi, bu səbəbdən, İsfahana dönməsi ondan ötrü ölümə bərabərdi: ya Şahımız boğazından asdıracaqdı, ya da Xoca Səfərin qəzəbindən qurtulmayacaqdı. Ola bilsin, özünü tacir Qaragünə oğlu Bayandur kimi qələmə verənlərin biri German imperatorunun iqamətgahında, ikincisi Romada, üçüncüsü Valyadoliddə səfarətimizin yolunu gözləyir...

Hüseynəli bəy bəxşiş dolu sandıqları ser Antoninin fitvasına uyub ingilis gəmisinə yüklətdiyinə görə peşman olduğunu Emdendə üzə vurdu. Bir neçə həftədən sonra Əlahəzrət İmperatorun hüzuruna yetişəcəkdik, onda Şahımızın göndərdiyi qiymətli bəxşişləri çatdırmalı olacaqdıq. Əgər ingilis gəmisinin Romaya nə vaxt çatacağını, ümumiyyətlə, çatıb-çatmayacağını dəqiq-dürüst bilmirdiksə, deməli, Şahımızın buyruğuna əməl eləyəcəyimiz şübhə altına düşürdü. Ucundan-qulağından eşitdiyimə görə, artıq Hüseynəli bəyin bu barədə ser Antoniylə bir dəfə kəskin söhbəti olmuşdu.

Mənim *(elə Əliqulu bəyin də)* bu məsələdə haqlı çıxmağım Hüseynəli bəyə pis təsir eləmişdi. Bundan sonra Şahımızın buyruğunun lazım olduğu kimi yerinə yetirilməməsi onunla ser Antoninin günahına yazılacaqdı. Üstəlik, ser Antoninin belə vəziyyətdə İsfahana qayıdacağı, Şahımızın hüzurunda duracağı şübhə doğururdu. Günlərin birində bu cılız, sarışın, kosasaqqal ingilisin aradan çıxacağını eşitsəydim, heç təəccüblənməyəcəkdim. Bir neçə aydan sonra Romaya yetişəndə ser Antoni verdiyi vədlərin əvəzini ödəməli olacaqdı – özü bunu çox gözəl başa düşürdü. Yəqin, əməlinə haqq qazandırmaqdan ötrü plan qurmamış da deyildi...

*(...Emdemdə səkkiz karetaya (yeddi-səkkiz adamın oturduğu iri, üstüörtülü arabaya) minib yolu düşdük, bir həftədən sonra Aurix adlanan, yaxşı möhkəmləndirilmiş, əhalisi 10.000 evdən (yaxud 45.000 nəfərdən) ibarət olan başqa şəhərə gəlib çatdıq.*

*Diqqətimizi çox güclü görünən qala çəkdi, bu qalada bir gün dayandıq, amma görməli ayrı şey rastımıza çıxmadı. Burdan iki gün ərzində ərazisi balaca, bununla belə, yaxşı möhkəmləndirilmiş, Fridenberq adlanan şəhərə çatdıq. Yolumuza davam eləyib, çoxlu əhalisi olan, başa düşdüyümüzə görə, istehkamlarla yaxşı qorunan Ninburq şəhərinə yetişdik. Səhəri gün artıq Oldenburq adlanan, yaxşı möhkəmləndirilmiş, həm də qala olan başqa şəhərdəydik, bütün bu şəhərlərin, qalaların əksəri cidd-cədhlə qorunur, qapıları gecələr bağlanır, səhəri gün səhər saat səkkizəcən nə səbəb olur-olsun, açmırlar. Bütün bunlar hər şəhər bir knyaza məxsus olduğuna görə baş verir, hər şahzadə də öz qonşusunun düşmənidi. Sonra landqraf Hesse-Kasselin mülkü olan Türingə gəldik, bu da German torpağının ən bərəkətli*

*vilayətlərindən biridi. Türingə – Zale və Verra çaylarının arasında yerləşən ölkədi, bu yerləri German torpağının qəlbi adlandırırlar. Vilayət uzunluğuna, həm də eninə görə çox böyükdü, amma əhalisi dünyanın heç bir yerində olmadığı qədər sıxdı, eni-uzunu təxminən yüz ağac olan ərazidə on iki vilayət yerləşir, bu vilayətlərdə ətrafına hasar çəkilmiş 140 şəhər, bir o qədər də açıq qəsəbə, eyni zamanda 2000 kənd, 150 qala, 12 monastır toplanıb...)*

...Şəhərlərdən, kəndlərdən keçirdik, qalaları, monastırları görürdüm, ürəyim Təbrizdən ötrü sızım-sızım sızıldayırdı, gözlərimin qabağına on beş il əvvəl osmanlıların Təbrizə basqını gəlirdi. Hicri 993-cü il ramazan ayının 25-də *(1585-ci il sentyabrın 20-də)* Osman paşanın qoşunu şəhərin üstünə gəlib, Diyarbəkir hakimi Cığaloğlunun atlıları Şatırban küçəsiylə Sahibabad meydanına doğru irəliləmişdi. O vaxt eşitmişdim, Pirqeyb xanla Hüseynqulu Soltanın qoşunu duruş gətirə bilməyib, Sorxab dağına çəkiliblər. Qazi Kamran bəy Övhadiylə şeyxülislam Mövlana Məhəmməd Əlinin heyəti paşanın yanına getsə də, şəhər talandan, qırğından qurtula bilmədi. Deyilənə görə, yeniçərlər həyətləri, evləri gəzir, əllərinə keçənin hamısını götürürdülər. Mahir Təbriz xəttatlarının, naqqaşlarının yazıb-bəzədiyi kitablar mədrəsələrdən çıxarılıb yandırılırdı. Qeysəriyyə bazarının talan olunub yandırıldığını Üzümdüldə, Şah Məhəmməd Xudabəndəylə Şahzadə Həmzə Mirzənin ordugah qurduğu yerdə eşitdik. Qorçubaşı Qulu bəy Əfşarın qızılbaş dəstəsi Fəxusfənc çayını keçib, Cığaloğlunun qoşununa divan tutdu.

Onda atam Sultanəli bəy Bayatın başçılıq elədiyi Bayat dəstəsi Həmzə Mirzənin qoşunundaydı, mən də dəstədə

yüzbaşıydım. Fəxusfənc çayının qırağında Qaraman hakimi Murad paşayla Diyarbəkir hakimi Məhəmməd *(Mehmet)* paşanın qoşunlarına basqın elədik. Şahrux xanın dəstəsinin, bir də Bayat atlılarının fədakarlığı sayəsində qələbə qazandıq, üstəlik, hər iki paşanı əsir götürürdük, qaçanları Çərəndabdakı ordugahlarınacan qovduq...

Osmanlıların qalasına hücumumuz, Qulu bəy Əfşarın xəyanəti, atam Sultanəli bəy Bayatın öldürülməsi barədə artıq yazmışam – on beş il qabaqkı Təbrizi xatırlamaqda məqsədim bu deyil, Şəhərə girəndə o gözəl Təbrizdən nə qaldığını anlatmaqdı. Həmin vaxt şah Məhəmməd Xudabəndənin yanında mirzə olan İskəndər bəy Münşi gördüklərini çox dəqiq təsvir eləmişdi: «*Zərlə, mavi rənglə bəzədilmiş bütün evlər, şəkillər çəkilmiş qapılar, pəncərələr çıxarılmış, oduncaq əvəzinə işlədilmişdi. Gözəl bağlarıyla məşhur olan şəhərdə ağac qalmamışdı, hamısını kəsib yandırmaq üçün qaladakı qoşuna göndərmişdilər. Saysız-hesabsız yaraşıqlı evlərdən orta təbəqəyə mənsub olan adamın yararlı bir evi belə, salamat qalmamışdı. Dükanlar, kaşılarla işlənmiş ikimərtəbəli evlər, hamamlar xarabalığa dönmüşdü. Hər yerdə – küçələrdə, bazarlarda, evlərdə öldürülmüş adamların meyitləri qalmışdı. Bütün bunlara bir dəfə baxmaqla dəhşətdən ürək sıxılırdı...*»

Keçdiyim şəhərlərdəki səliqə-sahmanı görəndə nədənsə bütün bunlar yadıma düşürdü. Qış olsa da, qar-yağış bu şəhərdəki nizamı sezməyə mane olmurdu. Bəlkə də qəfildən Təbrizi bu cür xatırlamağım onu bir daha görə bilməyəcəyimin qorxusundan doğmuşdu. Hər şəhərdə dayanan kimi, bizə evləri, qalaları, başqa görməli yerləri göstərirdilər, elə bil, uzaq məmləkətdən gəlmiş adamların qarşısında bütün bunlarla öyünürdülər.

– Şübhəsiz, gözəldi, – Əliqulu bəy belə gəzintilərin birində fikrini bildirdi, – amma elə bil, nəsə çatışmır. Bəlkə germanlar soyuqqanlı xalqdı, ona görə belədi. Təbrizdəki, Ərdəbildəki, Qəzvindəki qalaları, mədrəsələri, məscidləri, məqbərələri xəyalına gətir, hamısında gözəllikdən başqa adamın qəlbini isidən nəsə var. Bu yəqin, daha çox xalqın ruhuyla bağlıdı...

– Həm də aləmi dərk eləmə tərzilə, – dedim. – Biz tikililəri ucaldanda da cövhərinə şeriyyət, ucalıq, əzəmət qatmağa can atırıq...

Bəlkə bundandı, nə qədər çox şəhərlər, qalalar, monastırlar görsəm də, ruhumdakı sıxıntıdan qurtara bilmirdim. Məndən ötrü bütün gördüklərim bir müddət fikrimi məşğul eləyən, ancaq ömürlük düşüncəmə hakim kəsilməyəcək, duyğularımı tərpətməyəcək şeylərdi. Yadıma düşdü, Qazandan çıxandan nə bir şer yazmışam, nə də rəsm çəkmişəm. Nijni-Novqorodda, Moskovda yazıb – çəkmək istədiklərim yarı-yarımçıq qalmışdı...

## 5.

...Kasseldə qaldığımız on gün müddətində bir həqiqəti də dərk elədim: əgər inanclarını, adətlərini, vərdişlərini nəzərə almasaq, insan hər yerdə eyni cürdü. Uzaq məmləkətdən, Səfəvi dövlətindən gəldiyimizi eşidib bizi görməkdən ötrü yolların qırağına çıxanlara baxanda ağlımdan bunlar keçirdi. Ser Antoninin dəstəsi Qəzvinə gələndə də pişvaza çıxmışdılar, sonra həmin heyət Qəzvindən Şahımızın iltifat göstərib dəvət elədiyi İsfahan dövlətxanasına gələndə də eyni hal baş vermişdi. Düzdü, əksər adamlar kimi, yolun qırağına çıxıb uzaq məmləkətdən buyuran qəribə görkəmli, qəribə geyimli adamlara baxmaq mənim mənsəbimə yaraşmazdı, amma elçi adıyla təqdim edilən ser Antoninin heyəti dövlətxanaya varid olanda mən ordaydım, İskəndər bəy Münşi aləmlərin bəzəyi olan Şahımız barədə yazdığı kitabdakı bəzi məqamları dəqiqləşdirmək üçün köməyimə ehtiyac duymuşdu. Divanbəyinin xəbərdarlığıyla dövlətxanada olanların hamısı – əyan-əşrəf, xanlar, əmirlər, bəylər, mirzələr gələnləri salamlamaq üçün həyətə çıxdı. Gözəyarı hesabla otuz-otuz beş nəfərlik heyətin önündə qəribə geyimli cılız, sarışın, kosasaqqal adamı görəndə İskəndər bəy məna dolu nəzərlərini üzümə zillədisə, dillənmədi, fikrini hücrəsinə qayıdandan sonra üstüörtülü dedi:

– Oruc bəy, doğrudanmı, bir-birinə bu qədər yaxın olan iki məmləkətin dil tapması, əmin-amanlıq içində yaşamasından ötrü uzaq bir ölkədən gələn bu cür elçi gərəkdi?

Onda dillənmədim: bu acı sualın cavabını ikimiz də bilirdik. Əlbəttə, hicri 998-ci ildə *(miladi 1590-cı il)* xanədanın

düşdüyü ağır vəziyyətdən istifadə eləyən osmanlılar Azərbaycan, Gürcüstan, İrəvan vilayətlərini, Nahəvəndi, Şəhrizuru, Luristanı məmləkətimizdən qopartmasaydılar, Şahımız da o torpaqları qaytarmaq fikrinə düşməz, german, ingilis, ispan hökmdarlarından yardım gözləməzdi...

Sözün düzü, Şahımızın bu səfarəti göndərməsi, xüsusilə, ser Antoniyə bel bağlaması barədə İskəndər bəylə gizli söhbətlərimiz olmuşdu. Amma onun da, mənim də dövlətxanadakı mövqeyimiz eləydi, bu cür məsələlərdə sanballı söz yiyəsi ola bilməzdik. Dövlətin taleyilə bağlı işlərdə Etimad-üd-dövlə Hatəm bəy Ordubadi, Xoca Səfər, bir də Şahımızın taxt-taca sahib çıxmasına böyük əmək sərf eləmiş Mürşüdqulu xanın oğlu, qulamlıqdan vəzirliyə ucalmış Allahverdi xanın sözü keçirdi, amma son söz həmişə Şahımızın olurdu. Xariciyyə məsələlərində Qibleyi-aləmin Xoca Səfərə daha çox bel bağlamasını nəzərə alsaq, yəqin, hər şey aydın olar.

Əlbəttə, rast gəldiyimiz adamlarda bu yerlərin iqliminə xas soyuqluq, sərtlik gördüyümüzü deyə bilmərəm. Əksinə, ziyafətlərdə başımıza gətirdikləri həddən artıq qonaqsevər olduqlarına sübutdu. Artıq həyatimizdə Əlfəqih Əmirin «şeytan suyu» adlandırdığı şərabın dadına baxmayan qalmamışdı. Hətta Kərim xan Toxmağın uzun əzab-əziyyətdən sonra adamın daha yaxşı yeyib, özünə gəlməsindən ötrü şərabın faydalı olduğu barədə iddiaları Bünyad bəyi də yoldan çıxarmışdı. Daha çəkinib-eləmədən süfrəyə qoyulan şərabdan ləzzətlə içir, bütün günü xoş bayğınlıq içində olurduq. Emdendən sonra elçimizin da özünə korluq vermədiyindən şübhələnmişdim: hər halda,

bir dəfə nahardan sonra onu laübalı halda gördüm, həm də o məqamda rastlaşmağımız heç döşünə yatmadı.

Qonağı olduğumuz şahzadələrin yaxşı nələri varsa, bizə göstərib, özlərini dartmaları məndə nəşə doğururdu. Şübhəsiz, Böyük Knyazın, İmperatorun, Kralın müqabilində onlar məsələn, bir bəylərbəyi olan məqamdaydılar, amma hamısı özünü əsl hökmdar təki göstərməyə çalışırdı, bunu rastlaşdığım bütün şahzadələrdə duydum, xüsusilə də, landqraf adlanan Kassel bəylərbəyisində...

*(...Sonra gəldiyimiz birinci şəhər Veymar, sonrakı Alefeld, üçüncüsü Kassel adlanırdı; sonuncusu çox geniş ərazidə yerləşmişdi, yaxşı möhkəmləndirilmişdi, əhalisi də çoxudu. Şəhərin divarı elə qalın tikilib, onun üstüylə üç kareta yanaşı keçib gedə bilər. Bundan başqa Kasselin onu hər cür top atəşlərindən əməlli-başlı qoruyan torpaq çevrəyə malik qalası var. Landqraf (adı İkinci Luisiydi) bizim gəlişimizi eşidən kimi, öz kamergerini (eşikağasını) üç ekipajla bizi qarşılamağa göndərdi, ekipajların hər birinin içərisinə qara məxmər çəkilmişdi, həmin arabalarda saraya gəldik. Landqraflar elçimizlə ser Antonini, həm də bizi çox iltifatla qəbul elədi, hər birimizə mənsəbinə görə diqqət göstərdi. Sonra bizi sarayın üzərinə naxışlı yorğanlar salınmış çarpayıları olan otaqlarında yerləşdirdilər. Landqraf xidmətçilərimizi ayrı-ayrı qonaq evlərində yerləşdirdi, bütün xərcləri öz boynuna götürdü, hər şey orda qaldığımız on gün ərzində çox yaxşı təşkil olundu. Hər gün bizə yeni görməli şeylər göstərdilər. Bir dəfə divarları ağ daşdan, bəlkə də gipsdən olan otaq göstərdilər, bu otağın hər daşı elə ustalıqla qoyulmuşdu, qapının, yaxud pəncərənin ətrafında bitişmə yeri belə bilinmirdi, adama elə gəlirdi, təbiət özü bu divarı bütöv daşdan yaradıb. Fikrimizcə, həmin otaq bu Şahzadənin*

*sarayının ən nadir görməli yerlərindəniydi. Landqraf bizə öz kabinetini – çox dəyərli qiymətli daşlar, xüsusilə, almazlar olan xəzinəsini göstərdi. Amma gördüyümüz bütün var-dövlətdən ən möcüzəlisi bu kabinetin divarlarının döşəmədən tavanacan xalçalarla yox, əsl mərcandan hazırlanmış lövhəylə örtülməsiydi, bu da heyrətamiz hisslər oyadırdı.*

*Landqrafın cəbbəxanasından, həm də at tövləsindən danışmaya bilmərik, hər ikisi də o qədər iri, baxımlıydı, üstəlik, o qədər yaxşı təchiz olunmuşdu, məncə, on min atlını tamam-kamal təmin eləmək olardı. Biz Kasseldə olduğumuz müddətdə elə gecə olmurdu, şərəfimizə şənlik düzəltməsinlər. Xüsusilə, landqrafın taxt-tacının varisi olan on iki yaşlı oğlunun hamısı dəbdəbəylə geyinmiş öz yaşındakı başqa oğlan uşaqlarıyla məşəllərin işığında qılınc savaşına çıxması çox heyrət doğururdu...*

*Kasseldə on gün qalandan sonra nəhayət, özümüzlə şirniyyat bəxşişi aparıb şəhərdən çıxdıq. Doğrudan da, ömrümüzdə heç vaxt burdakı qədər şəkərdən düzəldilmiş belə çox şey görməmişdim. Lap birinci gün biz nahar eləyəndə masanın üstündəki çörək kömbəsi, dəsmallar, bıçaqlar, duzqabıların hamısı, cürbəcür meyvə növləri kimi, şəkərdən düzəldilmişdi. Hər bir əşya da təsvir elədiyi şeyə çox oxşayırdı, formalarına, quruluşuna görə onları xatırladırdı. Biz bəzi meyvələri bıçaqla kəsməyə səy göstərəndə möhkəm gülüşmə düşdü, əlbəttə, o meyvələr əlimizdə parçalanıb dağıldı. Səfərimizi davam etdirmək üçün lazım olan hər şeylə təmin olunmuşduq. Səfərə çıxmazdan qabaq landqraf elçimizə iki qızıl, onun heyətinin hər üzvünə də bir bu cür qızıl kürə verdi. Yola düşməzdən qabaq, axırıncı gün sarayın divarlarının lap dibindən axan çaydakı iki avarlı gəmiyə baxmağa apardılar, həmin gəminin göyərtəsində yeni nümunəli*

*toplar gördüm, toplar çox sadə düzəldilmişdi, hər top yarım saat ərzində dalbadal qırx atəş aça bilərdi.*

*Landqraf xüsusi qoşununun kapitanına kifayət qədər mühafizəçi götürməyi, bizi torpağından keçirib düz İmperiyanın sərhədinəcən ötürməyi əmr elədi. Sonra o, həmin kapitanı İmperatorun yanına göndərilən xüsusi elçi kimi bizim ixtiyarımıza verdi, çünki ona Şahımızdan gətirdiyimiz naməni çox bəyənmişdi, ser Antoni də landqrafa belə bir namə yetirmişdi; axırda o, İmperatora şahzadələr bir yerə yığışanda türk sultanına qarşı çıxmaq üçün özlərinin 12.000 nəfərlik qoşununu birləşdirməyi təklif elədi...)*

...Yol boyu landqrafın on iki yaşlı oğlunun həmyaşıdlarıyla qılınc döyüşünə çıxması xəyalımdan çəkilmirdi, yadıma nuri-didəm Sultanəlini salırdı. Məmləkətdən çıxdığımız bir il altı ay olurdu, bu ilyarım ərzində yəqin, gözgörəti böyümüşdü – artıq səkkiz yaşındaydı. İndi babası Mirzə Qədim ona hərfləri öyrətməyə başlayıb. Az qala otuz beş il qabaq mənim əlimdən tutub kağızın üstündə gəzdirə-gəzdirə hərflər yazdırdığı kimi, Sultanəlinin toppuş əlini baba nəvazişiylə tutub, sehrli aləmin qapısını açır. Gözəl Nisəxanım da kəhrizə getmək üçün səhəngi götürür, amma daha çox Təbrizdən çıxmaq, Qəzvinə, ordan İsfahana uzanan yola baxıb, məndən bir xəbər istəyir. Hər gün şər qarışanda pəncərədən yola baxır, gecələr çırağı yandırıb pəncərənin qabağına qoyur, bəlkə qayıdanda yolum işıqlı olsun.

Moskvadan geri dönəndə Seyid Nədimdən oğlum Sultanəliyə namə göndərmişdim. İsfahanın Abbasabad məhəlləsində qardaşım Mehrəliyə, ya da Təbrizdə usta-

dım Mirzə Qədimə çatdırmağı xahiş eləmişdim. Bilirdim, Mehrəli naməni alan kimi özünü Təbrizə çatdıracaq, Mirzə Qədim oxuyub vəziyyətimdən halı olacaqdı. O namədə Moskvayacan səfərimizin necə keçdiyini, Allah qoysa, sağ-salamat qayıdıb, gördüklərimi onlara danışacağımı, hamısından ötrü bərk darıxdığımı yazmışdım. Mənim hesabıma görə, namə Təbrizə çoxdan yetişmiş, həsrətlərini bir qədər ovutmuşdu.

Gözümün ağı-qarası Sultanəlini istədiyim kimi, böyüdüb, ərsəyə çatdırmaq bundan sonrakı həyatımda yeganə murazımıydı. Əlbəttə, Sultanəli də bütün kişilər sayaq at minməyi, qılınc çalmağı, məmləkətin yolunda döyüşməyi bacarmalıydı, amma istəyirdim, oğlum elmə vaqif olsun, adamlara qolunun qüvvəsiylə yox, zəkasının qüdrətiylə üstün gəlsin. Amma bu murazıma əməl eləməyə ömrüm çatdıracaqdımı? Hələ yollardaydım, məmləkətlər, şəhərlər, kəndlər, qalalar, dəryalar, çaylar keçirdim, gördüklərimi, eşitdiklərimi, başıma gələnləri kağıza köçürürdüm, bu yolun ucu harda qurtaracaqdı, hardan dönüb geri qayıdacaqdı, alın yazımda daha nələr varıdı – bunları bilmirdim, bunlar təkcə Allaha ayanıdı...

## 6.

...Landqrafın bu cür nikbin danışması, on iki minlik German qoşununun Şahımızın tərəfində osmanlılara qarşı döyüşməsinə razı olması Hüseynəli bəyin kefini açmışdı: belə çıxırdı, Qibleyi-aləmin göndərdiyi heyət artıq uğur qazanmağa başlayıb. Ondan da çox ser Antoni özünü dartırdı: axı osmanlılara qarşı Günbatan hökmdarlarından yardım istəmək təklifini Şahımızın hüzuruna o gətirmişdi, bu səfərin gərəkli olacağına Şah Abbası o inandırmışdı! Bu cılız, sarışın, kosasaqqal ingilis başını dik tutub qılıncının ucunu yerə sürüyə-sürüyə gəzdikcə məni gülmək tuturdu, həm də daha artıq şübhəyə düşürdüm: onun hərəkətlərində elçimizə, eləcə də onun suallarına qarşı saymazlıq get-gedə daha artıq aydın görünürdü.

Axır vaxtlar, daha doğrusu, dəryada dəniz quldurlarının cəngindən qurtarandan sonra ser Antoniylə demək olar, danışmırdıq. Rastlaşanda özümü görməzliyə qoyurdum, o da kosa saqqallı çənəsini dik tutub üzünü çevirirdi. Şübhəsiz, dominikan rahibin başına nələr gətirdiyini bilməyim onu rahat buraxmırdı. Şahımızın verdiyi buyruq, bir də səfarətimizin görməli olduğu işlər qabağımı kəsməsəydi, yəqin, onunla haqq-hesabı çoxdan çürütmüşdüm, bu niyyətimdən heç Hüseynəli bəyin xətir-hörməti də çəkindirə bilməzdi. Əliqulu bəy dönə-dönə məni fikrimdən daşındırmağa çalışmışdı.

– Bəlkə səfərimizi başa vurandan sonra buna ehtiyac oldu, Oruc bəy, – ağzımı boza verməyə çalışırdı, – indi bu ingilisin başına bir iş gəlsə, Şahımızın qəzəbindən qurtara bilməzsən...

– Sən səfərimiz başa çatanda, ser Antoninin yanımızda olacağına əminsən? – soruşdum. – Onsuz da görməli işini Böyük Knyazın torpağından çıxmamış görüb. Gecələrin birində dabanına tüpürüb qaçmasa, təəccüblənərəm...

– Buna mənim də şübhəm yoxdu, – Əliqulu bəy başını tərpətdi. – Amma günlərin birində qılıncla şaqqalasan, yaxud boğub çaya atsan, əmimlə ömürlük düşmən olarsan, həm səfarətimizin adına xələl gələr...

– Bəs, hökmdarların hüzuruna əli ətəyindən uzun getməyin, Səfəvi xanədanının aləmi başına götürmüş nüfuzuna dəyən zərbənin əvəzini kim ödəyəcək? – soruşdum.

– Hələ çıxmamış cana çox ümid var. Romaya çatanda şübhəsiz, Hüseynəli bəy ser Antonidən haqq-hesab istəyəcək. Sən səbrini bas, – Əliqulu bəy məni arxayın salmağa çalışdı.

Bu söhbət olanda səhəri gün Kaseldən yola çıxacaqdıq. O gecə neçənci dəfəydi, qəfildən oyanıb, yatağımın içində oturdum, ha yuxulamağa çalışırdım, kirpiklərim yumulmurdu ki, yumulmurdu. Artıq ömrümün qırx ilini arxada qoymuşdum, bundan sonra da Allah-taalanın verdiyi möhləti yaşayacaqdım. Qırxillik ömrümdə bu qədər yerlər görəcəyimi, bu qədər adamlarla qarşılaşacağımı, neçə-neçə təhlükə adladacağımı ağlıma gətirə bilməzdim. İndi budu, heç yatanda da ağlıma gəlməyəcək məmləkətdə indiyəcən gördüyüm şəhərlərə oxşamayan bir şəhərdəydik, sabah burdan yola çıxıb, neçə-neçə şəhərlər, kəndlər, çaylar keçəcək, İmperiyanın paytaxtına çatacaqdıq, yenə qəbullar, ziyafətlər, gəzintilər günlərimi dolduracaqdı, asudə vaxt tapanda görüb-eşitdiklərimi qələmə alacaqdım.

Əliqulu bəy də yatmırmış. Qalxıb yatağında oturdu, gözlərini hələ də yanan şam işığına zilləyib fikirli-fikirli dilləndi:

– Bu yollar nə vaxt bitəcək, Oruc bəy? – səsində indiyəcən duymadığım qatı qüssə varıdı. – Gözümü yumuram, özümü Təbrizdəki evimizdə görürəm. Heç bilməzdim, Təbrizdən ötrü bu qədər darıxacam. Gərək ki, İsfahandan on səkkiz aydı çıxmışıq. Hələ qabaqda nə qədər yolumuz qalır, görən?

Dinmədim. Bu sualın cavabını bilmirdim...

*(...Kasseldən yola yaxşı əhval-ruhiyyədə çıxmışdıq, landqrafın çoxlu sayda, var-dövlətiylə əzəmətli olan şəhərlərindən keçib gedirdik. Bu şəhərləri xüsusi qeyd eləmək lazımdı: Leypsiq, Roberq, Quimendek, Jub, Quimidak, Labinç, Aslaben, Xipric, Vulfussen, bir də Xosse-Kassel dövlətində axırıncı olan Perbin. Sonra biz Sakson Knyazının torpağına daxil olduq, buranı çox sürətlə keçdik. Sakson Knyazı öz ərazisində Mansfeld, Maqdebuzq, bir də Misnia şəhərlərinin sahibidi, bununla belə, çoxları axırıncının knyazlığın hüdudlarından qıraqda olduğunu hesab eləyir. Yuxarı Saksonda Vittenberq bu torpaqda ən gözəl, ən güclü qalalardan biridi. Aşağı Saksonun paytaxtı Zale çayının üzərində yerləşən məşhur Qalle şəhəridi, bu şəhərdən də günbatan tərəfdə Günbatanı bu ərazinin hər yerindəki mədənlərdə çıxarılan minerallarla təmin eləyən baş şəhəri yerləşir. Günbatan səmtdə, Elba çayının sahillərində üç məhəlləyə bölünən çox güclü Maqdeburq şəhəri salınıb: bu şəhəri dövrələyən divarların qalınlığına, xəndəklərin dərinliyinə görə ələ keçirmək mümkün deyil, mühasirəyə almaqsa faydasızdı.*

*Beltsiq şəhərinin yanından keçib (burda çoxlu gümüş mədənləri var) Sakson Knyazlığına gəldik. Yaxından gördü-*

*yümüz bütün adamlar xəstəydi, üzləri solğunuydu, xüsusilə, mədənlərin özündəki işlə ailələrini dolandıranların üz-gözündən iş vaxtı qarşılaşdıqları civənin nə qədər zərərli olduğunu sübut eləyir. Civəni doğrudan da, bu yerlərin çox-çox dərinliyindəki metalların tərkibində əsasən başqa metallarla qarışıq halda tapırlar. Sakson Knyazlığında keçdiyimiz bütün yolların hər iki tərəfində çoxlu sayda yel dəyirmanları gördük; bu yerlərdə çayların axarı itidi, germanlar da həddən artıq ağıllıdılar: hər yerdə mədənlər üçün taxta doğrayan suyun işlətdiyi mişarlar qurulub, amma onların çörək unu üyütməkdən ötrü tamamilə küləyin dəyişkənliyinə bel bağladıqlarını görəndə təccübləndim.*

*Saksonda keçdiyimiz ikinci şəhər İlmenau, üçüncü şəhərsə Lepsiqdi. Bu axırıncı xeyli əhalisi olan çox böyük şəhərdi, binaları Günbatanda səfər eləyəndən bəri gördüyümüz binaların ən yaxşısıdı. Saksoniya Knyazı (İkinci Kapitan) burdakı sarayında yaşayır. İndiki Knyaz əslində, on dörd, ya da on beş yaşındakı yeniyetmə oğlandı, paytaxtına gəldiyimiz gün Knyaz ova getmişdi, bu səbəbdən onu görə bilmədik. Buna görə də bir gün sonra İmperiyanın sərhədlərinə doğru irəlilədik, Saksonun hüdudlarından qıraqda yerləşən, Aussiq adlanan birinci imperiya şəhərinə gəldik...)*

...Gecələdiyimiz şəhərlərdəki qonaq evlərinin öyrəşə bilmədiyim hücrələrində görüb-eşitdiklərimi kağıza köçürəndə özüm də hiss eləmədən gözlərimi şam işığına dikib xəyal aləminə cumur, Təbrizin, Mirzə Qədimin alçaq tavanlı hücrəsinin həsrətini çəkirdim. İndi saçı-saqqalı ağappaq ağarmış, beli bükülmüş ustadım nəvəsinə savad öyrədirdi, mən də uzaq ölkələrin, soyuq şəhərlərin görməli yerlərini gəzə-gəzə kitab yazırdım. Əlbəttə, bu

işi görməkdə niyyətim şöhrət dalınca gedənlərə qoşulmaq deyildi, istəyirdim, İsfahana qayıdanda Şahımız da, dövlətxanadakılar da səfərimizin necə keçdiyini, hansı məmləkətləri görüb, hansı xalqları tanıdığımızı, qonaq getdiyimiz yerlərdə adət-ənənələrin necə olduğunu oxuyub öyrənsinlər. Təbriz xəttatları Şahımızın buyruğunu yerinə yetirib kitabımın üzünü köçürsələr, naqqaşlar da səhifələrin qıraqlarına gözəl naxışlar vursalar, həmin kitabı dövlətxananın, eləcə də üləmaların, şairlərin kitabxanasında İbrahim Əmininin, Əli Zeynalabdinin, Hürşah Bürhanın, Budaq Qəzvininin, Həsən bəy Rumlunun aləmdə tanınan kitablarıyla yanaşı görsəm, dərdim olmaz. İskəndər bəy Münşidən başqa eşitdiyimə görə, Mir Mahmud bin Xondəmir «Həbib Əs-səyyar», Mahmud bin Hidayətulla Nətənzi «Dindar adamlar haqqında hekayələrdəki əsərlərdən ən yaxşısı», Şərəf xan Bitlisi «Şərəfnamə» kitablarını yazırlar. Bütün bunların hamısı yaxşıdı, məmləkətimizin tarixi, Şahımızın şücaəti, dindar adamların kəraməti barədə oxumaq gərəklidi, amma səyahətnamələr də az gərəkli deyil. İndiyəcən Günbatan məmləkətləri haqqında elə ordan gələnlərin özlərinin yazdıqlarını oxumuşuq, indi bu cızıqdan qırağa çıxmaq vaxtı çatıb...

Kitabın necə yazıldığını İskəndər bəy Münşinin yanına getdiyim vaxtlarda öyrənmişdim. Əlbəttə, qayıdan kimi, yazdıqlarımı xəttatlara verib, üzünün köçürülməsini istəmək sadəlövhlük olardı. İsfahana dönəndən sonra Qibleyi-aləmdən rüsxət alıb Təbrizə getmək, bütün qeydlərimi ustadım Mirzə Qədimə oxumaq, onun məsləhətlərini nəzərə almaq lazım gələcək. Bundan sonra

İskəndər bəy oxuyub, öz fikirlərini deməliydi, həmyaş da olsaq, onun kitab yazmaqda səriştəsi vardı. Yalnız bundan, bir də Qibleyi-aləmin təqdirindən sonra kitabımın üzünün köçürülməsi, naxış vurulması barədə fikirləşmək olardı.

Şübhəsiz, ortaya çətinliklər, maneələr də çıxa bilərdi. Xoca Səfərlə Həsənəli bəyin əməllərini, ser Antoninin fırıldaqlarını oxuyanda Şahımızın hansı hökm verəcəyini bilmirəm; mümkündü, bu cür əhvalatların hamıya ayan olmasına izin verməsin. Görünür, kitabın üzünün köçürülməsi xətrinə bəzi qurbanlar verməyim qaçılmazdı. Hələ bundan sonra başımıza nələr gələcək, daha nələri yazmalı olacağam – bunu bilmirəm...

Bir də Moskvada gördüyüm o kitab çap eləmək üsulu yadımdan çıxmır. Bəlkə elə İskəndər bəy Münşini dilə tutdum, o da Şahımızın qılığına girdi, həmin üsulu öyrənmək üçün Moskova bir heyət göndərdi... Bundan ötrü ömrümün daha bir neçə ilindən keçməyə razıyam. Düzdü, xəttatlarımız, naqqaşlarımız misilsizdi, amma bu möcüzəni də sınaqdan çıxarmaq pis olmaz...


*Oruc bəy Bayatın iştirak etdiyi səfirlik*

# BEŞİNCİ FƏSİL

*German torpağında*
*1601-ci ilin qışı*

**German İmperatorunun sarayına gəlməyimiz, orda başımıza gələnlər (ser Antoniylə ilk dəfə az qala qılınc döyüşünə çıxmağım, heyətimizdən üç nəfərin xristianlığı qəbul eləmək niyyətindən xəbər tutmağım, Bünyad bəyin də namaz qılmaqdan boyun qaçırması) haqqında**

# 1.

...Güneylə quzeyin, Məğriblə Məşriqin fərqini German şəhərlərindən keçəndə daha aydın duyurdum. Bu yerlərə səfərimiz ilin qış fəslinə düşsə də, təbiət Moskovdakı kimi sərt deyil, qar basmış yolları kirşələrlə getmək lazım gəlmir, karetalar əl verir. Karetaların arxasınca yükümüzün yığıldığı, xidmətçilərin, qulamların, yükçülərin oturduğu üstüaçıq arabalar gəlirdi, o arabaların üstünə də su keçirməyən örtük çəkilmişdi. Bu yerdə şəhərlər, kəndlər, qalalar bir-birinə o qədər yaxındı, gecələr çöldə, meşədə, monastırda qalmağa ehtiyac yoxdu, ən azı yarımgünlük yoldan sonra balaca bir şəhərə, yaxud abad kəndə rast gəlirsən. Landqrafın bizim heyətlə Əlahəzrət İmperatorun hüzuruna göndərdiyi kapitan mühafizəçilərlə birlikdə bütün ehtiyaclarımızı ödəyir, yerli hakimlər bizi xüsusi qonaqpərvərliklə qarşılayırdılar.

Qarşımızda elə hey şəhərlər, kəndlər, meşələr, çaylar çıxırdı, dilmancdan adlarını soruşur, yaddaşımda saxlayır, fürsət düşən kimi, kağıza yazırdım. Nədənsə ruhum genişlik istəyirdi, göz işlədikcə uzanıb gedən çöllər, yerlə göyün bitişdiyi üfüqdə güclə sezilən dağlar görmək istəyirdim. Təbrizi osmanlılardan geri almaq cəhdimiz boşa çıxıb Gəncəyə doğru geri çəkiləndə, Günçıxanda Abdulla xan Özbəyin qoşunlarına qarşı döyüşəndə belə gözlənilməz genişlik görmüşdüm – dan yeri qızarandan şər qarışanacan atı qarabağır eləsəydin, heç yarısına gedib çata bilməzdin. Yer üzündən hər şeyin bu cür sıxlığısa məni karıxdırırdı, elə bil, düşüncələrimin hüdudlarını da daraldırdı. Deyəsən, bu halətim yazdıqlarımda da özünü büruzə verirdi...

*(...Aussiqdən irəliyə doğru hərəkət eləyib bu yerlərdən keçdik: Neutri, Estratassenc, Berehen, Klussen, Klinq, Pouscin, beləcə Trinkayacan getdik, axırıncı imperiya paytaxtından cəmi on beş ağac məsafədə yerləşir.*

*Kosmoqraflar adətən German torpağını Yuxarı, bir də Aşağı Germana ayırırlar, amma mən onların aşağı vilayəti niyə German adlandırdıqlarını bilmirəm, ona görə ki, bu yerdə germanlar yox, flamandlar yaşayır. Covanni Botero əhalinin german, yaxud tevton dilində danışdıqları bütün torpaqları German adlandırır, bu ada Maasdan Vislaya, Alp dağlarından Quzey dağlarınacan bütün əraziləri daxil eləyir. Amma biz haqqında danışdığımız çox sıx əhalisi olan şəhərlərə malik həddən artıq ölkəyə – yuxarı Germana aiddi; tevtonlar evlərinin, küçələrinin təmizliyinə, həm də gözəlliyinə görə bütün digər xalqlardan üstündü. Binalar ya daşdan, yaxud ağacdan, ya da ikisinin qarışığından tikilib. Əlahəzrət İmperatorun bilavasitə idarə elədiyi ölkədən başqa, Germanın hüdudları daxilində çoxlu kiçik mülklər, həm də Avetriya, Danimarka, Saksoniya, Turnigiya kimi hersoqluqlar var; bundan başqa, Mayns, Trevizo, Kelonne kimi kilsə mülkləri, Reyn üzərindəki Porals, Maqdebruq kimi qraflıqlar, bunlardan əlavə çoxlu ayrı şəhərlər var. Hər yerdə torpaq çox bərəkətli, asan becərilir, bir ailənin güzəranını bütöv il ərzində təmin eləmək üçün torpağı bircə dəfə əkmək bəs eləyir. Biz burda vəhşi heyvanların, həm də quşların çox növünü gördük, xüsusilə, atlar çox bala verir. Əksər rayonlarda, daha artıq Elzasda, Nekkarayla Reynin sahillərində, eyni zamanda Avstiryada şərab düzəldirlər. German torpağı, məsələn, Günbatanın ən böyük çayı olan Dunay kimi, gözəl çaylarıyla məşhurdu; sonra Reyn, Elba, Oder, Maas, Mozel, Nekkar, Mayn İnn, Moldova, Ems, Vezer gəlir.*

*Çoxlu iri göllər var, amma həmin göllərin ən iriləri İsveçrədədi; Leman, Nevşatel, eyni zamanda Lüsern, Sürix, Konstana belə göllərdəndi. Həm də Germanda geniş, dünyada ən böyük meşələr var. Əsasən, bu meşələr üçdü: birincisi Dunayın mənbəyində yerləşir, Qara Meşə adlanır; ikincisi Frankondakı Vronni və üçüncüsü Bohemdən Moskovacan uzanan Herkiniana meşələridi. Germanın bütün ərazisində dəmir, qurğuşun, daş kömür, qalay, polad kimi faydalı qazıntıların bütün növlərini bol-bol tapmaq olar; məhsulu ən azı bir milyon tümən dəyərində qiymətləndirilən qızıl mədənləri də var. Çoxlu kükürd, selitra, kvars mədənləri, eyni zamanda duz mədənləri də var. Germanların adətlərinə, geyimlərinə gəldikdəsə, ayrı-ayrı xalqların adətləri, məclisləri, geyimləri barədə ətraflı danışmağa ehtiyac yoxdu. Amma ən diqqət çəkəni Əlahəzrət İmperatorun seçilməsiylə əlaqədar olan adətdi, amma bu bir çox ciddi müəlliflər tərəfindən gözəl təsvir olunub...)*

...Halımın belə vaxtında ser Antoniylə döş-döşə gələsi oldum. Əslində, Kaseldə Əliqulu bəylə söhbətimizdən sonra təmkinimi saxlamağa, Şahımızın fərmanını, Hüseynəli bəyin nüfuzunu nəzərə alıb, ona baş qoşmamağa çalışırdım. Amma onun indi də fransiskan rahibi gözümçıxdıya salması diqqətimdən yayınmadı. Kərim Toxmağın firəng rahibdən öyrəndiyinə görə, ser Antoni dominikan rahiblə aralarında baş verənlərin faş olmasını ondan görürdü, bu səbəbdən də fürsət düşən kimi, haqq-hesab çəkəcəyini deyirdi. Hətta onun hədələrindən cana doyan bədbəxt rahib Emdendə qaçıb aradan çıxmağa cəhd eləmişdi, amma xəfiyyələri vaxtında xəbər tutub yazığı şəhərin iki ağaclığında yaxalamışdılar. İndi də ser Antoninin əlaltılarından

biri Alfonsdan gözünü çəkmir, hətta dincəlmək üçün dayananda belə, onun karetadan düşməsinə izin vermirdi.

Əlbəttə, bir qədər soyuqqanlı olsaydım, bütün bunlara göz yuma bilərdim. Amma azğınlaşmış ser Antoni bu gün öz xristian qardaşının başına bu cür oyunu gətirirdisə, sabah bütün heyətimizi, üstəlik, xanədanın, Şahımızın nüfuzunu dəyər-dəyməzinə satardı. Bütün bunları Hüseynəli bəyə danışmağın xeyri yoxudu, artıq öz fikrini bildirmişdi. Əliqulu bəyin əl-qolunu bağlayan səbəblər də Kasseldəki söhbətimizdə məlum olmuşdu. Şübhəsiz, Yadigar bəy Məhəmmədin də bu məsələyə qarışması ağlabatan deyildi – səfarətimizin mühafizəsinə cavabdeh olsa da, Hüseynəli bəyin üzünə ağ ola bilməzdi. Belə çıxırdı, ser Antoninin əməllərinin qabağını almağa heç bir ümid yoxdu.

Klussen şəhərinə yaxınlaşanda landqrafın Əlahəzrət İmperatorun hüzuruna göndərdiyi xüsusi elçi çapar yollayıb, şəhər hakimini gəlişimizdən xəbərdar eləmişdi. Bizi elə təntənəylə qarşıladılar, yolun yorğunluğunu tez unutduq. Hakimin ayırdığı qonaq evində rahatlanandan sonra hamınızı ziyafətə dəvət elədilər. Həmin ziyafətdə iki nəfər – Əlfəqih Əmirlə dominikan rahib gözümə dəymədi. Əlfəqih Əmirin məsələsini bilirdim, şəriətin qadağan elədiyi yemək-içməyin verildiyi süfrədə oturmurdu, məqbul saydığı nemətlərlə elə hücrəsindəcə gününü yola verirdi. Amma fransiskan rahibin ziyafətdə olmaması ser Antoninin buyruğuyla ola bilərdi – buna şəkki-şübhəm yoxudu.

Məclis gur keçdi, bizim heyətdən olanlar da, ingilislər də, elə landqrafın göndərdiyi heyətdəkilər də bolluca yeyib-içdilər. Ser Antoni o qədər şərab içmişdi, ayaq

üstündə dura bilmir, qışqırıb-bağırır, başa düşmədiyim sözlər deyirdi. Ziyafət zalının qapısından çıxanda səndələyə-səndələyə özünü yetirib məni itələdi, cır səsilə nəsə qışqırdı, sonra əlini qılıncının qəbzəsinə atıb qınından çıxarmağa cəhd elədi. Həmin anda indiyəcən yığılmış bütün qəzəbim vücudumdan püskürdü, şübhəsiz, Əliqulu bəylə Kərim Toxmaq araya girməsəydilər, ingilisi cəhənnəmə vasil eləyə bilərdim. Ser Antoni özünü yetirən ingilisləri görəndə ürəkləndi, daha da qızışıb əl-qol atmağa başladı. Bu vaxt qapıya yaxınlaşan kapitanla şəhər hakimi olmasaydı, yəqin, əlaltılarının yanına qaçması da onu xilas eləyə bilməyəcəkdi.

Hüseynəli bəy təmkinimi görüb qiymətləndirdi, ser Antoninin hərəkətinin səbəbini öyrənəndəsə, onunla ciddi söhbət eləyəcəyinə söz verdi. Bu söhbətin nə vaxt baş tutacağını, nəticəsinin nə olacağını bilmirdim, amma bütün bunların mənim ingilisə nifrətimi azaldacağına inanmırdım. Ser Antoni qabağımda diz çöküb, tövbə eləsəydi belə, ona bel bağlamazdım, birinci dəfə gördüyüm vaxtdan qəlbimdə yaranan xoşagəlməz duyğu heç yox olub getmirdi.

Səhəri gün yola düşməyə hazırlaşanda ser Antonini bir də gördüm. Cılız vücudundan, əyri-üyrü sifətindən zəhrimar tökülürdü, hələ axşam içdiyi şərabın təsirindən ayılmadığındanmı, nədəndi, üzümə key-key baxdı, nəyisə xatırlamağa çalışdı, sonra bürüşdürüb, qılıncının ucunu yerlə sürütləyə-sürütləyə yanımdan keçdi. Səfər ərzində üçüncü dəfəydi (birinci dəfə Hacı-Tərxanda Həsənəli bəyin hansı yuvanın quşu olduğunu biləndə, ikinci dəfə Moskvada dominikan rahibin yoxa çıxdığını eşidəndə)

bütün vücudum bu cür əsmişdi, şeytana lənət deyib, onu unutmağa çalışdım...

Şənimə ən çox toxunan landqraf tərəfindən Əlahəzrət İmperatorun hüzuruna göndərilən xüsusi elçinin, şəhər hakiminin, qeyri-yerli şəxslərin axşam olub-keçənlərdən xəbər tutmasıydı. Əlbəttə, təkbətək döyüş barədə söhbət belə gedə bilməzdi, bu, eşidənlərdə yalnız acı gülüş doğurardı; bir neçə günlük qonaq olduğumuz məmləkətdə bu cür xoşagəlməz əhvalatların baş verməsi böyük Səfəvi xanədanına da, Şahımızın etimad göstərib qüdrətli hökmdarların hüzuruna göndərdiyi səfarətimizə də yaraşmırdı. Şübhəsiz, landqraf da, şəhər hakimi də, elə ziyafətdə olan başqa yerlilər də ser Antoninin nəzakətsizliyinə, qabalığına təəssüf elədilər, amma bu heç də heyətimizin üstünə düşən kölgəni təmizləmək deyildi – artıq olan olmuşdu.

O məqamda Allahdan özümə səbir dilədim, ingilisin məni təbdən çıxarmaq istəməsinin müqabilində təmkin göstərib, məsələnin necə qurtaracağını gözləməyə qərar verdim. Bir neçə aydan sonra Romaya yetişəcəkdik, axır ser Antoninin cavab vermək zamanı gələcəkdi, onda da o iyrənc vücudu qılıncımın bircə zərbəsiylə cəhənnəmə göndərəcəkdim...

## 2.

...İndiyəcən, bu barədə müfəssəl danışmamışam. Şahımızın buyruğuna görə, səfarətimizdəki dörd mirzənin məqamı beləydi: birinci, baş mirzə mən – Oruc bəy Bayat, ikinci mirzə Əliqulu bəy Bayat, üçüncü mirzə Bünyad bəy Zülqədər, dördüncü mirzəsə Həsənəli bəy Qəzvini – Hambarsum Muşeqyandı. Hər üç mirzə mənim buyruqlarımı yerinə yetirirdilər, mən də Hüseynəli bəy Bayatın qarşısında cavabdehiydim. Səfər boyu gördüklərimi, eşitdiklərimi qələmə almağım nə Şahımızın hökmüydü, nə də Hüseynəli bəyin tapşırığı, sadəcə, könlümün istəyilə bu işi boynuma götürmüşdüm, niyyətimlə bağlı da bir az qabaq yazmışam.

Əlbəttə, ortada başqa mətləb də varıdı: istəyirdim, gözümün ağı-qarası bircə oğlum Sultanəli böyüyüb ərsəyə çatanda (bəlkə onacan mən həyatda qalmadım, taleyin işini nə biləsən) atasının, babasının kim olduğundan, necə yaşadığından xəbər tutsun. Atam Sultanəli bəy Təbriz qalasında şücaətlə döyüşüb qətlə yetiriləndə elə mən yaşda olardı, on altı yaşından ömrünü at belində keçirmişdi, Şah Təhmasibin yanında xətir-hörmət qazanmışdı, Bayat atlılarının başçısı kimi, xanədanın yolunda qan tökmüşdü. Babam Məhəmmədəli bəy Bayat cavanca oğlan olanda Böyük Sufi, Piri-Mürşidimiz İsmayıl Şeyx Ərdəbili Təbrizi ələ keçirmişdi, Məhəmmədəli bəy Bayat da həmin vaxtdan onikizolaqlı türban qoyub, qılınc qurşamış, Şah İsmayılın müridlərindən biri olmuşdu. Bütün səfərlərində Böyük Sufinin yanında olan, onun buyruqlarını canla-başla yerinə yetirən babam Çaldıran döyüşündə yaralanıb, ölümün pəncəsindən güclə qurtarmışdı. Babamın üç oğlundan

ikisi *(atam Sultanəli bəy sonbeşiyiydi)* – Qibləli bəylə Şahəli bəy canlarını xanədanın yolunda qurban vermişdilər, onların neçə-neçə törəməsi də Bayat dəstəsində at minib, qılınc vurmuşdular. Şeyx İsmayıl xanədanın qüdrətini artırandan, məmləkəti birləşdirəndən indiyəcən Bayatlar da başqa türk tayfaları kimi, dövlətxanada hörmət-izzət yiyəsi olmuşdular.

Bütün bunları qələmə almaq, gələcək üçün qoymaq ola bilsin, Allahın alnıma yazdığı yazıydı. Axır vaxtlar xanədanda, eləcə də dövlətxanada baş verənlər qəlbimdə təşviş doğururdu. Kimlərinsə fitvasıyla xanədanın dayağı olan tayfalar get-gedə dövlətin işlərindən uzaqlaşdırılır, aralarında nifaq salınırdı. Şübhəsiz, Şahımız taxta çıxandan sonra böyük işlər görmüşdü, dağılmaqda olan məmləkəti dirçəltmişdi, amma axır vaxtlar Qibleyi-aləmin farslara, kürdlərə, gürcülərə, taciklərə daha artıq arxalanması, xristianlara hüsn-rəğbət göstərməsi, türk tayfalarının qoşunlarından daha çox, əsli-nəsli bilinməyən qulamlara bel bağlaması bu təşvişi artırırdı.

Axşamlar qələmimi mürəkkəbə batırıb, gördüklərimi, öyrəndiklərimi kağıza köçürməyə hazırlaşanda harda var, harda yox, Şahımızın iribığlı üzü gəlib gözlərimin qabağında dururdu, adamın canına üşütmə salan nəzərlərini xəyalımdan qovmağa çalışa-çalışa yazdıqlarımda artıq-əskik bir şeyin olmamasına səy göstərirdim. Bilirdim, bircə ehtiyatsız kəlməm Şahımızın qəzəbləndirər, məni gözdən salardı – bundan sonra gərək o məmləkətdə yaşamayaydım.

Öz aramızda söhbət eləyəndə Əliqulu bəy bu ölkəyə heyranlığını gizlədə bilmirdi. Dilində Təbriz sevgisini gizlədə bilməsə də, German torpağındakı şəhərlərin cid-

di gözəlliyinə, səliqə-sahmanına həsəd apardığını duyurdum. Ən böyük arzusu qayıdanda dövlətxanadakı işindən əl çəkib Təbrizə köçmək, Cahanşahiyyə vəqfində, Əbdülhüseyn Müzəffəriyyənin yanında çalışmağıydı – bunu gizlətmirdi. Mənə görə Əliqulu bəy bundan daha artığına – Şəhərin hakimi olmağa layiqiydi, ondakı başqa xüsusiyyətlərlə yanaşı, həmişə qurub-yaratmaq eşqinə qibtə eləyirdim. Yolumuzun üstünə çıxan şəhərləri gəzə-gəzə nə vaxtsa bu istəyimin çin olmasını arzulayırdım...

*(...German torpağında Klave, bu cür adı olan hersoqluq, Krefeld, Duysburq kimi şəhərlər çoxdu; bundan başqa Yulix hersoqluğunun, yəni Dürenin, qeyri-şəhərlərin adını çəkmək olar. Belə ki, məşhur Reyn çayının kənarında Vastfal hersoqluğunun Köln, bir də Noys şəhərləri var. Çoxlu əhalisi olan şəhərlər – Paderborn, Osnabrük, eyni zamanda Mozel üzərində Münster, Elzasda Trevizo şəhərləri yerləşir. Avstriyayla Balem arasında bütün German torpağının ən qüdrətli, ən zəngin şəhərlərindən biri olan Strasburq salınıb; nəhayət, İsveçrədə cəmi Günbatanın ən hündürdə yerləşən ölkəsində on üç kanton (bizdəki bəylərbəylik kimi) var. Mən bu qısa məlumatı (Covanni Boteronun kitabından götürmüşəm) ona görə verirəm, bu ölkəni İmperator sarayına, sonra İtali ölkəsinə səfər eləyəndə yolüstü gördüklərindən artıq görməmişəm. German, əlbəttə, Günbatanın ən gözəl ölkələrindən biridi, İmperator həzrətlərinin məskun olduğu yerdi, mən də bütün təfərrüatlar barədə etimad doğuran şəxslərlə məsləhətləşmişəm. Lap əvvəldən, İsfahandan səfərə çıxandan özümə söz vermişdim, sonra Şahımıza hesabat verməkdən ötrü gördüyüm hər şeyi diqqətlə qələmə alım; amma bildiyiniz kimi, bu mənə qismət olmadı...)*

...Trinkaya gedən yolda landqrafın xüsusi elçisi olan kapitan məni öz karetasına dəvət elədi. Əlbəttə, məramını qabaqca Hüseynəli bəyə söyləmişdi, ölkəmiz barədə ətraflı məlumat almaq istədiyini bildirmişdi, Hüseynəli bəy də bu məsələdə mənim daha yararlı olacağımı demişdi. Elçimizin izniylə təkəli tayfasından olan germanca dilmanc Dövləti yanıma alıb, elçinin dəvətini yerinə yetirdim. Xüsusi elçi Fridrix Veber məni çox istiqanlı qarşıladı, yaraşıqlı karetasında üzbəüz əyləşib söhbətə başladıq. Elçinin məmləkətimizin, xanədanımızın tarixi, hökmdarımızın şəxsiyyəti, adət-ənənələrimiz, din-imanımız barədə suallarına onu razı salacaq cavablar verməyə çalışdım. O, otuz beş yaşlarında sarışın, göygöz cavanıydı, görünür, yaxşı təhsil almışdı, verdiyi suallardan bunu anlamaq çətin deyildi. Mənim Təbrizdə təhsil gördüyümü, mədrəsədə oxuduğumu, Günbatan dövlətləri barədə kitablardan bəzi şeyləri bildiyimi görüb çox məmnun oldu. Onun nə vaxtsa Təbrizə səfər eləmək arzusunda olduğunu eşidəndə mən də şadlandım, qismət olsa, bəlkə də İsfahanda, ya da Təbrizdə görüşə biləcəyimizi dedim.

Landqrafın xüsusi elçisi mənə Səfəvi xanədanı barədə çoxlu suallar verdi. Ona Şahımızın ulu babası Şeyx Səfiəd-Din Ərdəbilinin Səfəviyyə adlanan təriqət qurduğunu, müridlərinin hər yana yayıldığını, iki yüz il sonra onun davamçısı Şeyx Cüneydin Ağqoyunlu hökmdarı Uzun Həsənin bacısı Xədicəylə evləndiyini, oğlu Şeyx Heydərin də Uzun Həsənin qızı Aləmşahbəyimlə ailə qurduğunu, İsmayılın da cəmi-cümlətanı on dörd yaşında taxta çıxıb xanədanın əsasını qoyduğunu danışdım. Elçi danışdıqlarına hədsiz heyranlıqla qulaq asırdı, on dörd yaşlı gəncin

ağlının, həm də qolunun gücünə taxta çıxıb, nəhəng bir dövlət qurduğuna inana bilmirdi. Ona Piri-Mürşidimizin təkcə Böyük Hökmdar yox, həm də Böyük Şair olduğundan danışdığım, şeirlərindən birini avazla söylədik, dilmanc da bacardığı qədər german dilinə çevirdi. Elçi eşitdiyindən çox xoşhal oldu.

Sonra onun xahişilə məmləkətimizin şəhərlərindən danışdım. Ərdəbil, Təbriz, Qəzvin, İsfahan, Məşhəd, Xorasan barədə bildiklərimi söylədim. Mədrəsələr, kitabxanalar, vəqflər, qalalar, meydanlar barədə eşitdiklərimə elçi huşguşla qulaq asırdı. Ona xəttatların, naqqaşların, rəsm ustalarının işindən də danışdım. Sonra elçi dinimiz-imanımızla bağlı çoxlu suallar verdi. Cavabında dinimizin yaranmasından, Peyğəmbərimiz Məhəmməd Əleyhüssəlamdan, müqəddəs kitabımız Qurani-Kərimdən, qibləgahımız Kəbədən, şəriətimizin qayda-qanunlarından danışdım, axırda Böyük Sufinin də Peyğəmbərimizin kürəkəni xəlifə Əlinin şəcərəsindən olduğunu söylədim. Fridrix buna da diqqətlə qulaq asdı, axırda bütün danışdıqlarıma görə razılıq elədi. Ayrılanda bir-birimizə bəxşiş verdik: elçi barmağındakı zərif naxışlı üzüyü, mənsə qızıl sapla naxış vurulmuş pul kisəmi.

Bu söhbət ürəyimə çox yatmışdı. Hörmətli bir zatın qəlbində məmləkətimizə sevgi, xanədanımıza hörmət, Şahımıza rəğbət oyatmışdımsa, deməli, xeyirxah iş görmüşdüm. Amma sən demə, Hüseynəli bəy elçinin mənimlə bu qədər uzun söhbətindən xeyli narahat olubmuş. Bir neçə saat sonra dincəlmək üçün dayananda sözlü nəzərlərini üzümdə sezib dolaşıq hisslər keçirdim. Düzdü, narahatlığını dilinə gətirmək istəmədi, amma söhbətin hansı

axarda getdiyindən xəbər tutub rahatlanmaq istəyini də gizlətmədi:

– Oruc bəy, aldığı cavablar hörmətli elçinin könlünə yatdımı? – eyhamla soruşdu.

– Məmləkətimiz, xanədanımız, Şahımız, din-imanımız barədə nə məqbul idisə, danışdım, – dedim, – səhv eləmirəmsə, eşitdikləri elçinin könlünü xoş elədi, bunu fürsət düşəndə özündən də soruşa bilərsiniz...

– Bu cür söhbətlər vacibdi, – Hüseynəli bəy əsl niyyətini pərdələdi, – biz təkcə görüb – öyrənməyə gəlməmişik, həm də məmləkətimizi tanıtmaq borcumuzdu.

Bilirdim, Hüseynəli bəy fürsət düşən kimi, dilmancdan da söhbətimizin məğzini soruşub öyrənəcək, artıq-əskik danışıb-danışmadığımı yəqinləşdirəcək rahatlıq tapmayacaq. Bu yandan narahatlığım yoxudu, öz düşüncələrimin cilovunu tutmağı bacarırdım, məmləkətimdə baş verən bir para şeylərin əcnəbilərə istisi-soyuğu olmadığını dərk eləyirdim. Məqamı gələndə Hüseynəli bəy söhbətimizin necə keçdiyini elçinin özündən də soruşacaqdı. Şübhəsiz, bütün bunlara haqqı çatırdı – Şahımız etimad göstərib səfarətin taleyini, məmləkətin, xanədanın, eləcə də özünün nüfuzunu ona etibar eləmişdi, bütün baş verənlərdən xəbər tutmalıydı...

...Trinka şəhərinə yaxınlaşanda hardansa yadıma Təbrizdən Gəncəyə doğru geri çəkilməyimiz düşdü. Onda Şah Məhəmməd Xudabəndənin də, Şahzadə Həmzə Mirzənin də, elə əyan-əşrəfin, qoşun başçılarının da ovqatı təlxiydi. Osmanlılar məmləkətin qəlbinə zərbə endirib, Təbrizi ələ keçirmişdilər, bu tezliklə şəhərin azad olunması çətin baş tutacaq iş kimi görünürdü. Həmzə Mirzənin yanında təkcə

kiçik oğlu Əbutalib Mirzəydi, İsmayıl Mirzə Sultanla, Heydər Mirzə çox-çox uzaqlarda – Qəzvində qalmışdılar. Şahzadə özünə yer tapa bilmir, oğullarının fikrini çəkirdi, ən çox qorxduğu, onların başına bədbəxt bir hadisənin gəlməsiydi. Bu səbəbdən, gecə-gündüz götür-qoy eləyir, vəzir-vəkillə məsləhətləşir, vəziyyətdən necə çıxacağını fikirləşirdi.

Biz Gəncəyə girəndə Qarabağ bəylərbəyi İmanqulu xan Qacar Yuxarı Qarabağdaydı. Həmzə Mirzə onun arxasınca çapar göndərdi, sonrakı gün axşam gün əyiləndə Şah Məhəmməd Xudabəndənin çadırında yığıncaq çağırdı. Əsas məsələ xanədanın taleyi, daha doğrusu, İsmayıl Mirzə Sultanla Heydər Mirzənin həyatını təhdid eləyəcək hər hansı təhlükənin qabağını almağıydı. Şah Məhəmməd çadırın yuxarı başında qoyulmuş səfər taxtında oturmuşdu, kor, həm də taqətsiz olduğundan, yatdığı, ya oyaq olduğu bilinmirdi. Onun sağ tərəfində əyləşmiş Həmzə Mirzə hələ on doqquz yaşında olsa da, görüb-götürmüş kişiyə oxşayırdı. Atasının güclə sezilən razılığıyla ayağa durub bizi nədən ötrü çağırdığını bildirdi. Şübhəsiz, kiçik şahzadələrin taleyi hamımızı narahat eləyirdi, bu səbəbdən, məmləkətin başı üstündən təhlükə sovuşanacan onlara qəyyum seçilməsi məsələsində fikirləri haçalanırdı. Şah Məhəmməd İsmayılqulu Şamluyla Əliqulu xan Ustaclunun tərəfindəydi. Əyan-əşrəfin çoxu Əliqulu xanın qəyyumluğunu məqbul saymırdı, deyirdilər, xudpəsənd, dikbaş adamdı, fürsət düşən kimi, kiçik Şahzadənin adından Şaha, həm də şahzadə Həmzə Mirzəyə qarşı çıxa bilər. Düzü, mən də bu fikirdəydim, ağlımdan keçənləri də gizlətmədim. Amma son söz Həmzə Mirzənin oldu,

bir qədər tərəddüddən sonra Şahın qərarıyla razılaşdı. Əks fikirdə olanlar susdular, Həmzə Mirzənin, kiçik şahzadələrin başına gələnlər də artıq sizə məlumdu.

Daha olanı geri qaytarmaq çətindi. Şahın yanında o yığıncaq olandan sonrakı gün Gəncəni gəzməyə çıxdım. Gördüklərim Təbrizi o qədər andırırdı, kədərdən gözlərim yaşarır, tor görməyə başlayırdı. Karvansaraları, mədrəsələri, məqbərələri dolaşdım, Şeyx Nizaminin bütün həyatını keçirdiyi evi ziyarət elədim, Məhsətinin yaşadığı söylənən məhəlləni dolaşdım. Şeyx Nizaminin «Xəmsə»sini Mirzə Qədimin kitabxanasından oxumuşdum, ecazkar Təbriz xəttatlarının köçürdüyü, təkrarsız naqqaşın rəsmlər çəkdiyi kitabdakı qüdrətli şairin qələmindən çıxmış Leyli-Məcnun, Fərhad-Şirin, İskəndər-Nüşabə, yeddi gözəl hekayətləri könül aləmimi zənginləşdirmişdi. Bu gəzinti məni xeyli rahatlasa da, nigarançılığıma tamam son qoymadı.

İki həftədən sonra İmamqulu xan Qacar Yuxarı Qarabağdan böyük qoşunla qayıdıb gəldi. Onun gəlişi Həmzə Mirzənin gözlərinə işıq, dizlərinə təpər gətirmişdi. İri gövdəli, qaraşın üzlü, eşmə bığlı İmamqulu xanın ləngimədən Təbrizə, şəhəri osmanlılardan qurtarmağa getmək təklifi Şah Xudabəndənin yanındakı məsləhətləşmədə qəbul olunmadı. Həmzə Mirzə də, əyan-əşrəfin böyük bir qismi də qışın belə vaxtında osmanlılarla döyüşü məqbul saymadı, bu səbəbdən, Qəzvinə getməyə qərar verildi. Yolda Xudaverdi dəlləyin Əmir Həmzənin qanına qəltan eləməsi artıq məlumunuzdu deyə, təkrar eləmirəm.

Görünür, Gəncəyə heç oxşamayan bir şəhərə gedən yolda bütün bunların yadıma düşməsi qış vaxtıyla bağlıydı. Onda da beləcə yağışqarışıq qar yağırdı, arabalarımız

palçıqlı yollarla addım-addım sürünürdü. Mən karetanın xırdaca pəncərəsinə söykəyib göydən tökülən sulu qara baxır, az qala on beş il qabaqkı haləti yaşayırdım. Ancaq şəhər darvazasının qabağında pis havaya baxmayıb, bizi qarşılamağa çıxan minlərlə adam gözləyirdi. Şəhər hakimi dəbdəbəli geyiminin üstündən başlıq salıb pişvazımıza şad-xürrəm görkəmlə çıxmışdı...

*(...İkinci Rudlfonun öz imperator sarayını məskun elədiyi Praqadan iyirmi ağac məsafədə yerləşən Trinna şəhərində olanda biz Əlahəzrətin yanına adam göndərib, səfarətimizin hərəkət eləməsi üçün icazə istədik. Cavab almağa beş gün lazım gəldi. Bu müddətin axırında Əlahəzrət İmperator öz eşik ağalarından birini, altı ekipajı bizi paytaxta aparmaqdan ötrü göndərdi. Şəhərə çatmağımıza bir az qalmış onun baş eşikağası altı gözəl ekipajla bizi qarşılamağa çıxdı. Səhv eləmirəmsə, onun yanında heyətimizi qarşılamaq üçün Praqadan gəlmiş on mindən artıq adam vardı. Bu adamlardan başqa, ayrı-ayrı xristian krallarının, şahzadələrinin İmperator sarayına göndərilmiş elçiləri də varıdı, onlar bizi çal-çağırla, təntənəylə qalacağımız yerəcən ötürdülər. Böyük sarayda bizdən, səfəvilərin ötrü ayrıca yer ayrılmışdı, bu cür ayrıca yer də ingilislərə verilmişdi. Bir az sonra Əlahəzrət İmperator sarayımızın qorunması üçün mühafizəçilər göndərdi, onun xidmətində olanların çoxu da görüşümüzə gəldi; sonra İmperator gündəlik ehtiyacımız üçün 150 tümən pul təyin elədi...)*

...Praqa şəhərində Əlahəzrət İmperatorun hüzuruna gedəcəyimizi gözləyəndə üç gün xəstə yatmağım kefimi bir az da pozdu. Görünür, yolda, ya da dayanıb dincələndə ehtiyatsızlıq eləmişdim. Şəhərə çatdığımız günün axşamı,

ziyafətin gur yerində qəfildən lap halsızlaşdım. Bu ovqatım Əliqulu bəyin gözündən yayınmamışdı, üzümə baxıb halımı başa düşdü, xidmətçilərə məni hücrəmizə aparmağı tapşırdı. Qızdırmamın qalxdığını, az qala huşumu itirəsi vəziyyətə çatdığımı yatağa uzananda duydum. Əliqulu bəy duruş gətirməyib dabanbasaraq gəlmişdi, tez də Əlfəqih Əmirin ardınca adam göndərdi. Əlfəqih Əmir dodaqlarında nifrət dolu gülüş, xırdaca gözlərində xoşagəlməz işartı əlini alnıma qoydu, bəbəklərimə baxdı, sonra çıxıb qapıya doğru gedə-gedə:

– Mənlik deyil, – dedi, – həkim tapıb gətirsəniz, yaxşı olar... – Sonra qapıdan çıxa-çıxa donquldandı. – Şeytan suyunu içənlərin hamısını Allah-tala bu günə salacaq...

Əliqulu bəy dilmancı çağırtdırıb şəhər hakiminin yanına getdi. O gələnəcən xidmətçi yaş əskiylə alnımı silir, alışıb-yanan dodaqlarımı isladırdı. Boğazımın ağrısı o həddə çatmışdı, artıq danışa bilmirdim. O məqamda gözlərimin qabağına Şahımızın Astrabad səfərindən qabaq xəstələnib üç ay ərzində yorğan-döşəyə düşməyim gəldi. Onda öz yurd-yuvamdaydım, yanımda yaxınlarım, doğmalarım varıdı, indisə məmləkətimdən çox-çox uzaqlardaydım, fikirləşəndə, Əliqulu bəydən, bir-iki başqasından özgə halıma yanan yoxudu.

Sonra gözəl Nisəxanım, nuri-didəm Sultanəli yadıma düşdü. Nisəxanımı ərsiz, Sultanəlini atasız qoyub qürbət eldə ölməyim, elə burda da basdırılmağım əlbəttə, mənə ağır gəlirdi. Xəyalımda cənazəmin arxasınca səfarətimizdəki kəslərdən başqa tanımadığım adamların getdiyini görürdüm, məni hardasa bizim yerlərə oxşamayan bir qəbiristanlığa aparırdılar, həm də qazılmış qəbrin

yönü nədənsə qibləyə tərəf deyildi, heç oxunan dualar da Qurani-Kərimdəki ayələrə oxşamırdı; məni qəbrə atıb, üstümü torpaqlayırdılar, qəfildən qəbrimin baş tərəfində xaç peyda olurdu...

Bütün bunları ağlıma gətirəndə yəqin, qışqırmışammış, çünki gözümü açıb başımın üstündə xeyli adam gördüm. Elə həmin vaxt Əliqulu bəy şəhər hakiminin göndərdiyi həkimlə gəlib çıxdı. Həkim qırmızı sifətli, göy gözlü, yoğun qocaydı, üz-gözümə baxdı, sinəmi tıqqıldatdı, borusunu söykəyib ciyərlərimə qulaq asdı, sonra başını bulayıb dilmanca nəsə dedi:

– Deyir, qorxulu bir şey yoxdu, soyuqdəymədən ağırlaşma baş verib...

Əliqulu bəy dərindən nəfəs alıb rahatlandı. Sonra həkim dilmancdan başqa hamını çıxartdı, uzun-uzadı hansı məlhəmisə hazırlayıb mənə içirtdi. Deyəsən, bir balaca rahatlandım, vücuduma xoş bayğınlıq yayıldı, nə vaxt yuxuya getdiyimi bilmədim.

Sonrakı gün yuxudan oyananda gün günortadan keçmişdi. Xidmətçi yemək-içmək gətirib oyanmağımı gözləyirmiş, gözlərimi açdığımı görüb sevindi. Onun köməyilə dikəlib oturdum, bir neçə loğma çörək yeyə, bir parç qaynanmış süd içə bildim. Azacıq keçmişdi, Əliqulu bəy gəldi, halımın bir qədər yaxşılaşdığın görüb xeyli sevindi. Ardınca həkim təşrif buyurdu, bir də əlini alnıma qoydu, göz bəbəklərimə baxdı, sinəmi taqqıldatdı, borusunu dayayıb ciyərlərinə qulaq asdı . Dilmancın dediyinə görə, təhlükə sovuşmuşdu, ancaq bir neçə gün qalxmaq, bayıra çıxmaq olmazdı, verdiyi məlhəmlərdən içib özümü gözləməli, tam sağalanacan ehtiyatsızlıq eləməməliydim.

Günortadan sonra Hüseynəli bəyin gəldiyini xəbər verdilər. Elçi qayğılı görünürdü, mənə qarşı münasibətində də rəğbətdən çox narahatlıq his elədim, amma bunun nəylə bağlı olduğunu unamadım. Hüseynəli bəy cəmi beş-on kəlmə kəsdi, Əlahəzrət İmperatorun iqamətgahına yola düşənəcən sağalıb ayağa durmağımı arzulayıb getdi. Sonra landqrafın elçisinin gəldiyini söylədilər. Elçi çox böyük nəzakətlə halımı soruşdu, nəyə ehtiyacım olduğuyla maraqlandı, tezliklə ayağa durmağı arzuladı.

Xəstəliyim üç gün çəkdi. Üçüncü gün artıq durub otaqda yavaş-yavaş gəzişirdim, hətta bir neçə səhifə yaza da bildim. İlk günlərdə duyduğum zəiflik yavaş-yavaş ötüb-keçir, özümü daha möhkəm, daha inamlı hiss eləyirdim. Bu günlər ərzində etibarlı dostum Əliqulu bəy yanımdan bir addım aralanmamışdı, hətta şəhər gəzintisinə çıxmağı, belə özünə rəva bilməmişdi. Yadigar bəy Məhəmməd də gündə azı bir dəfə gəlir, ürək-dirək verirdi.

Təkcə ser Antonidən xəbər çıxmadı. Əlbəttə, o cılız məxluqun özünü sındırıb, mənə baş çəkəcəyini ağlıma da gətirmirdim. Hətta gəlsəydi belə, ona qarşı hisslərim dəyişməyəcəkdi.

İmperatorun hüzuruna gedəcəyimiz gün özümü əvvəlki kimi yaxşı hiss eləyib rahatlandım. Deməli, hələ ömrüm sona yetməmişdi, qarşımda uzun-uzun yollar dururdu...

## 4.

İmperator sarayından xəbər gözləyə-gözləyə darıxırdım, bəlkə elə bu səbəbdən düşüncələrim İsfahandan başlayıb, hələlik Praqaya çatan uzun bir səfərin üzərində dolaşırdı. Əlbəttə, məmləkətimiz ucsuz-bucaqsızıydı, Dərbənddən Bağdada, Bağdaddan Heratacan uzanırdı, zaman-zaman quzeydən ruslar, günbatandan osmanlılar, gündoğandan özbəklər torpaqlarımızın bir qismini tutmuşdular. Böyük Sufinin vaxtında xanədanımız qüdrətli dövrünü yaşamışdı. İndi Şahımız o qüdrəti qaytarmaqdan ötrü Günbatan hökmdarlarından yardım istəyirdi.

Kitablarda oxusam da, dünyada bu qədər böyük məmləkətlərin olduğunu bunca aydın təsəvvür eləməzdim. Birinci dəfə buna Böyük Knyazın torpaqlarından keçəndə əmin oldum. İndi imperatorun sahib olduğu məmləkətin böyüklüyünü, zənginliyini, əzəmətini görüb çox təsirlənmişdim. Əlbəttə, bir məsələdə Şahımız tamam haqlıydı: belə qüdrətli hökmdarlarla ünsiyyət qurmaq, dost olmaq xanədanımıza başucalılıq gətirərdi. Amma o biri tərəfdən İskəndər bəy Münşinin sözlərində də həqiqət varıdı: Osmanlı sultanıyla Şahımız dil tapsaydılar, bu qədər uzaqdan yardım gözləmək lazım gəlməzdi.

İkimiz də hər an hazır durur, saraydan xəbər gözləyirdik. Əliqulu bəy hücrəmizin pəncərəsi önündə dayanıb şəhərin görünən hissəsinə baxır, fikirlərini dağıtmağa çalışırdı. Axırda dözə bilməyib düşündüklərini dedi:

– Oruc bəy, tutalım, səfərimiz uğurla başa çatdı, German İmperatoru da, Roma papası da, İspan Kralı da, İngiltərə

kraliçası də qoşun göndərib Osmanlı sultanını sınıq saldılar. Bəs sonra?

– Nə «sonra?» – soruşdum, onun fikrini tuta bilməmişdim.

– Şübhəsiz, əcnəbilər, bizim torpaqlarımızda ömürlük qalmayacaqlar, öz məmləkətlərinə qayıdacaqlar, bundan görən Sultan Məhəmməd də qoşun çəkib təzədən üstümüzə gələcək, Azərbaycanı, Gürcüstanı, İraq sınırındakı torpaqları geri almağa çalışacaq. Yenə çarpışma, dağıntı, qan-qada hər yeri başına alacaq. Nəsə mən bu addımın sərfəli olacağına inanmıram.

– Bəs, necə olsun, deyirsən? – Verdiyim sualın cavabını qabaqcadan bilsəm də, sordum.

– Mən bilən, Şahımız ser Antoninin dediklərinə qulaq asmaqdansa, Etimad-üd-dövlə Hatəm bəy Ordubadini eşidib, Sultan Məhəmmədin sarayına elçi göndərsəydi, daha düzgün olardı. Hələ məmləkəti içəridən təhdid eləyən elə bir qorxunc qüvvə yoxdu, özbəklərin xırda-para basqınlarını nəzərə almasaq, osmanlılardan başqa üstümüzə gələsi qüvvə görünmür. Sultanla dil tapıb çəkişməli məsələləri yoluna qoysaq, daha ağıllı iş olardı.

– Elə bilirsən, Sultan Azərbaycanla Gürcüstanı Səfəvi xanədanına güzəştə getməyə razı olar? – Əliqulu bəydən sordum.

– Gürcüstanı bilmirəm, – Əliqulu bəy çiyinlərini çəkdi, – amma Azərbaycan məsələsində razılığa gəlmək olar...

– İnanmıram, Sultan İrəvan vilayətini, Qarabağ bəylərbəyliyini əldən buraxmaz. Deməli, Səfəvi xanədanına Şirvanla Muğan qalır...

– İllər boyu döyüşüb, qan axıtmaqdansa, buna da razı olmaq müdriklikdi... – Əliqulu bəy köksünü ötürdü.

Daha dillənmədim, bu sözdəki həqiqətin qabağında nəsə demək artıq olardı. Əlbəttə, belə uzun, ağır səfərin məqsədi təkcə Günbatan hökmdarlarıyla dostluq olsaydı, qəlbimiz rahatlıq tapardı. Amma belə görünürdü, oğullarımız həddi-büluğa çatanda qılınc qurşayıb, at minəcək, döyüşlərə girəcəkdilər. Budu, gəldiyimiz bu məmləkətdə nə vaxtdı əmin-amanlıqdı, camaat dinc yaşayır, şəhərlər, kəndlər, qalalar dağıdılmır. Bizsə döyüşlərdən göz açmırıq, bir neçə il dinc yaşayanda da qan-qada barədə fikirləşirik...

*(...Həftənin axırında, dincələndən sonra Əlahəzrət İmperator yanımıza əmrlə öz mirzəsini göndərdi, səhəri gün beş ekipajda bizi böyük İmperator sarayına (Hradshinə) indiyəcən gördüyümüzdən dəbdəbəli, ən gözəl binaya apardılar. Eşik darvazalarından birinci pilləkənlərəcən yolun hər iki tərəfində imperator xüsusi qoşununun cürbəcür silahlı dörd müxtəlif dəstəsi saraya düzüldü, biz də onların arasından keçib getdik. Biz pilləkənin axırına çatanda qarşımıza Əlahəzrətin eşikağaları çıxdı, orda olan əyan-əşrəflə, zadəganlarla birgə heyətimizi İmperatorun qəbul otağına gətirdilər. Əlahəzrətin bizi gözlədiyi böyük zala daxil olduq; bu məqamda eşikağalarıyla əyanlar geri qaldılar, biz içəri tək girdik. Əlahəzrəti (İkinci Rudolor Birinci Ferdenandın nəvəsi, Beşinci Karlın qardaşıydı, onun bacısı İspan kralı Üçüncü Filippin anasıdı) zalın yuxarı başındakı çox gözəl xalçanın üzərində duran gördük; xalçanın kənarında onun xidmətinə hazır duran əski dilmancı, çoxlu dil bilən, İmperatorun yanında böyük nüfuz sahibi olan baş mirzəsi dayanmışdı. Elçimiz irəli yeridi, hörmət əlaməti olaraq diz çöküb, Səfəvi şahının naməsini İmperatora verdi.*

*Ardınca o, dilmanc vasitəsilə elçidən özünü necə hiss elədiyini, necə gəlib çatdığını, yorucu səfərdən sonra yaxşımı dincəldiyini soruşdu. Elçimiz onun bütün suallarına dilmancın araçılığıyla lazımi hörmətlə, diqqətlə cavab verdi. Ardınca bizim hər birimizi, onu müşayiət eləyən, dediyi kimi, bura Səfəvi şahı tərəfindən göndərilmiş adamları ayrı-ayrılıqda Əlahəzrətə təqdim elədi. Əlahəzrət hər birimizə ona yaxınlaşıb özünü təqdim eləməyi buyurdu, dilmanc vasitəsiylə kefimizi soruşdu, bununla da Avstriya xanədanına xas olan, İmperator nəslinin əlahiddə xüsusiyyətini bildirən hörmətkaranə şəfqətlə, ölçüyəgəlməz nəcibliklə öz rəğbətini üzə vurdu. Sonra İmperator elçimizə iltifat göstərib getməyə icazə verdi, dedi, o, İmperator Səfəvi şahının öz naməsində xahiş elədiyi bütün məsələləri diqqətlə öyrənəcək, şəraitin imkan verdiyi hər şeyi məmnuniyyətlə yerinə yetirəcək. Ardınca Əlahəzrətin eşikağalarından biri bizi yaşadığımız sarayacan ötürdü...*

*Sonrakı günlər ekipajlara minib çoxlu əhalisi, hamısı yaxşı tikilmiş gözəl evləri olan şəhərə baxmağa gedirdik. Böyük çay (Moldova adlanan) şəhərdən keçib gedir, onu daha gözəl, daha yaraşıqlı eləyir, onun üzərindən şəhərin iki məhəlləsini birləşdirən, həmin məhəllələri Köhnə Praqa adlanan üçüncü qismə bağlayan əzəmətli körpü uzanır. Mənim ölçümə görə, bu körpünün uzunluğu 400 addımdı. İqlim burda (noyabr ayında) elə soyuqdu, həmin böyük çay tamam buzla örtülmüşdü. Bütün Praqada hətta ən kasıb evi qızdırmaq üçün soba var. Sonra Əlahəzrət İmperator bizə öz cəbbəxanasını, ləl-cəvahir otağını, İmperator geyimlərini, at tövlələrini göstərməyi əmr elədi; onların hər birində çoxlu gözəl şeylər gördük. Ardınca bizə qəribə heyvanlar saxlanan qəfəsləri göstərdilər, dörd şirlə dörd pələng*

*bizi yaman heyrətləndirdi, bu heyvanlar elə iriydi, heç ağlımıza gətirə bilməzdik...)*

...Mənim hesabımla artıq Əlahəzrət İmperatordan lazımi hörməti görmüşdük, onun Şahımıza cavab naməsini alıb İtali torpağına doğru hərəkət eləməliydik. Elə Hüseynəli bəy də bu fikirdəydi, bir aydan sonra Roma papasının hüzuruna yetişmək, ardınca İspan Kralının yanına yollanmaq niyyətindəydi. Amma günlər keçirdi, hələ saraydan hərəkətə gəlməyimizlə bağlı səs-soraq çıxmırdı. Üstəlik, qışın sərt günləri başlanmışdı. Elçimizin saraya müraciətinə cavab verib, bildirdilər, indi yola çıxmaq çox təhlükəlidi, qalıb havaların yumşalmasını gözləmək məsləhət görülür. Belə çıxırdı, Praqada azı üç ay gözləməli olacağıq.

Əlbəttə, belə gözəl, əzəmətli, bənzərsiz şəhərdə qalmaq, özümüzü Əlahəzrət İmperatorun himayəsi altında hiss eləmək bizdən ötrü şərəfliydi. Amma nədənsə darıxırdım, səfərimizi tez başa vurub İsfahana qayıtmaq, ordan da Təbrizə getmək istəyirdim. Eyni halı Əliqulu bəyin ovqatında da duyurdum. Hava azacıq imkan verən kimi, qalın geyinib saraydan çıxırdıq, şəhərin köhnə qismində küçələri dolaşır, çayın qırağında gəzişir, körpünün üstündən şəhərə baxırdıq. Onda fikirləşirdim, əgər Avstriya xanədanı German torpaqlarına sahib olub, paytaxtını Praqada yerləşdiribsə, deməli, böyük qüdrət yiyəsiydi. Üstəlik, İspan Kraliçası İmperatorun bacısı, Florensi hersoginiyası İngiltərə kraliçasının nəvəsidirsə, belə çıxır, Günbatan hökmdarları bir-biriylə qohum olmağı, məmləkətlərinin əmin-amanlığını qorumağı bacarırlar.

Praqanın evləri də İmperiyanın bütün şəhərlərindəki kimi, şiş damlıdı, bizim yastıdamlı evlərimizlə müqayisədə çox böyük zövqlə tikilib. Moskvada gördüyümüz palçıqlı küçələrə, taxta səkilərə burda rast gəlməzsən, hər yerə səliqə-sahmanla yastı çaylaq daşları düzülüb. Şəhərdə neçə qəsr olduğunu dəqiq öyrənə bilmədim, amma gördüyüm qəsrlər çox möhkəmdi, həm də gözoxşayandı. Çoxlu qar yağanda burda da kirşəyə minirlər, hətta buz bağlamış çayın üzərindən də kirşəylə keçirlər.

Hüseynəli bəyin İmperator sarayı əyanlarının yanına gedəndə, ya da o əyanlardan kimisə qəbulu nəzərdə tutulmayanda dilmanc Dövlət Təkəlini də özümüzlə götürürdük. Onda bazar-dükana baş çəkib, yerlilərlə kəlmə kəsməyə imkan olurdu. Əlbəttə, uzaq bir ölkədən gəldiyimizi eşidəndə çox diqqət göstərir, geyimimizdən, danışığımızdan heyrətlənirdilər. Çoxu gəldiyimiz məmləkət bir yana, heç Moskov torpağını da tanımırdılar, təkcə müqəddəs Roma papasının adın eşitmişdilər. O məqamlarda, məmləkətimizin, xanədanımızın tarixindən kitab yazıb, rusların , germanların, ispanların, ingilislərin dilinə çevirtdirmək ağlımdan şirin xəyal kimi keçirdi...

## 5.

Praqada qaldığımızdan bir ay keçmişdi, saraydan İmperatorun bizi qarşılayan eşikağası gəldi. Onun dediyindən başa düşdük, belə getsə, biz ancaq mart ayında yola çıxa bilərik. Deməli, hələ iki ay da burda qalandı, havanın yumşalmasını, yolların açılmasını gözləməliydik.

O günlərin birində Əliqulu bəy təzə xəbər gətirdi. Dediyinə görə, Bünyad bəyin hərəkətlərində axır vaxtlar qəribəlik seziblər, daha doğrusu, Əlfəqih Əmir üçüncü mirzənin dəstəmaz alıb, namaz qılmadığından, yatıb-duranda dua oxumadığından duyuq düşüb, bu barədə aralarında söhbət olub. Bünyad bəy guya uca dinimizin qadağalarından cana doyduğunu, heç olmasa, səfər müddətindəsə sərbəst yaşamaq istədiyini, buna oxşar şəriət qayda-qanunlarının xristian dinində olmadığını deyib. Bütün bunlar onun yol boyu Əlfəqih Əmirlə söhbətlərinin bəhrəsiydi: nə vaxtdı, Bünyad bəy islamla xristianlığın fərqi üzərində baş sındırırdı, bəlkə də bütün gördüklərindən sonra inamında təbəddülatlar əmələ gəlmişdi.

Əliqulu bəyin dediyinə görə, Əlfəqih Əmir məsələni dərhal Hüseynəli bəyin qulluğuna ərz eləmişdi, elçimiz də yolundan azan Bünyad bəyi hüzuruna çağırıb, məsələnin məğzini öyrənməyə çalışmışdı. Söhbətin nəylə qurtardığından xəbərimiz yoxudu, amma vəziyyət doğrudan da, beləydisə, deməli, Bünyad bəyin düşüncəsində dəyişiklik baş vermişdi, bunun da hara aparıb çıxaracağını demək çətiniydi.

Əlbəttə, mirzələrin işinə cavabdeh olan şəxs kimi, Bünyad bəyin hərəkətlərinin mənə də dəxli varıdı. Ancaq bu

daha çox könül məsələsiydi, mən bu cür işlərə qarışmaq istəmirdim. Hüseynəli bəy lazım bilsəydi, onunla söhbətə məni də çağırardı. Lazım bilməyibsə, deməli, Bünyad bəyin hərəkətləri üçün məndən haqq-hesab istəməyəcəkdi.

Amma heç gözləmədiyim halda bu xəbərdən iki gün sonra Bünyad bəy özü mənim yanıma gəldi. O gələndə axşam namazından xeyli ötmüşdü, şam işığında günümün təəssüratlarını kağıza köçürürdüm, Əliqulu bəy də Məhəmməd bəy Yadigara baş çəkmək, Həsənəli bəyin yanına kiminsə gəlib-getmədiyini *(Praqaya çatandan bunu xüsusi diqqətdə saxlayırdıq)* yoxlamaq üçün getmişdi. Bünyad bəy astaca qapını açıb içəri girdi, elə salamı verməyindən bildim, doğrudan da, əvvəl tanıdığım adam deyil.

Yer göstərdim, oturdu. İkimiz də xeyli susduq. O mənim olub-keçənləri eşitdiyimi hiss eləmişdi, söhbəti hardan başlayacağını bilmirdi, axırda köksünü ötürüb dilləndi:

– Səndəmi məni günahkar sayırsan, Oruc bəy? – qüssəli nəzərlərini üzümə dikib cavab gözlədi.

–Kimin günahkar olub-olmadığı Allah-taalanın işidi, – dedim. – Mən könül məsələsinə qarışmıram. Ancaq heç istəməzdim, məmləkətimizin, xanədanımızın, Şahımızın nüfuzuna toxunan hərəkət eləyəsən.

– Uca dinimizə pənah gətirən adamları tanıyırsan, – görünür, Bünyad bəy daşdan keçən dəlil-sübut axtarırdı. – Biri elə Xoca Səfər, Şahımızın vəziri... Biri bizim heyətdəki Həsənəli bəy... Başqa adamlar da tanıyıram...

– Onları bu məsələyə qatma, – dedim. – İman könüldə olur. Onların könlündə nə olduğunu şeytan da bilməz.

– İçimdə sıxıntı var, Oruc bəy, – Bünyad bəy qəfildən sındı, sınıq səsi ruhundakı sarsıntıları büruzə verdi.

– Hər halda, son addımı atmamış dərindən götür-qoy elə, – dedim. – Yadında saxla, birdəfəlik yurdundan-ocağından iraq düşməyin müqabilində dinindən-imanından üz çevirməyin içindəki sıxıntılara məlhəm olmayacaq...

Bünyad bəy susub uzun-uzadı gözlərimin içinə baxdı, sonra lap dərindən ah çəkdi, durub vidalaşmadan qapıdan çıxdı. Halı eləydi, sanki bir azdan edam olunacağını bilirdi. Onu da deyim, söhbətimizin elə bir məqamı oldu, onu kağıza köçürməyi lazım bilmədim. Bünyad bəyin o faş eləmək istəmədiyim fikirlərində mənim də düşüncələrimi tərpədib dolaşdıran həqiqətlər varıdı. Bilirdim, dediklərim Bünyad bəydən ötrü ehkam deyil, vaxtı çatanda könlünün istədiyi kimi hərəkət eləyəcək...

*(...Sonra (1601-ci ilin yazında) İmperator bizə səfərimizi davam etdirməyə icazə verdi. O, elçimizə əlli ədəd gümüş, qızıl suyuna çəkilmiş qab bağışladı, onların arasında boşqablar, dəstəmaz almaq üçün ləyənlər, qrafinlər, şamdanlar vardı, üstəlik, yol xərcləri üçün 4.000 tümən pul da verdi. Heyətin hər bir üzvünə o, qızıl suyuna çəkilmiş gümüşdən hündür pivə parçları, yol xərclərindən ötrü 200 tümən göndərdi. Hazırlanmış iki ekipajda İmperator eşikağasının müşayiətilə Praqadan yola çıxdıq, elə birinci gün də Beroun adlanan şəhərə çatdıq, burda dincəlmək üçün yerləşdik. Səhəri gün eşikağası bizdən ayrılıb paytaxta qayıtdı, bizsə əvvəlcə İmperiyanın bir çox şəhərlərindən keçib, İtali torpağına yolumuzu davam etdirdik...)*

...İmperatorun buyruğuyla ekipajlar bizi Münhenə qədər çatdırmalıydı, orda hersoq heyətimizi lazım olan hər şeylə

təmin eləyəcəkdi. Ekipajın birində elçibaşı Hüseynəli bəy, mirzələr, Yadigar bəy Məhəmməd, o birində ser Antoniylə dilmancları gedirdi, bizim dilmanclar, xidmətçilər, qulamlar, yükçülər, ingilis xidmətçiləri üstüörtülü arabalarda yerləşmişdilər. Yanımızda Əlahəzrət İmperatorun iltifat göstərib təhlükəsizliyimizi təmin eləmək üçün qoşduğu mühafizə dəstəsi varıdı. Bütün yaraq – əsləhələriylə atları süvar olmuş iyirmi nəfər bizi Münhendən ötürməliydi.

Yazın ilk günləriydi, hava azacıq isinmiş qar-buz ərimişdi, hər şey get-gedə təbiətin dirçəldiyindən xəbər verirdi. Ekipajın kiçicik pəncərəsindən ətrafa baxmaq, hələ də yaş olan yolda at ayaqlarının tappıltısına, təkərlərin yumşaq cırıltısına qulaq asmaq adama mürgü gətirirdi. Xəyalıma elə bu cür bir vaxtda Gəncədən Ərdəbilə yola düşməyimiz gəldi. Qoşunun başında Quruçaydakı düşərgədə dəllək Xudaverdinin qətlə yetirdiyi Şahzadə Həmzə Mirzənin nəşini aparan araba gedirdi. Arabanın çağlarına bağlanmış qara örpəklər havada yellənir, düzüdünyanı kədərlə doldururdu. Cənazənin arxasınca Şah Məhəmməd Xudabəndənin hökmdar kəcavəsi gedirdi. Qoca, üzgün yarıkor Şah istəkli oğlunun itkisindən sarsılmış, dünyadan tamam əlini üzmüş halda kəcavəsində oturmuşdu, neçə günüydü, boğazından çörək-su keçmirdi. Beləcə yağış-qardan hələ də yaş olan yolla gedir, daha doğrusu, sürünürdük. Gözlərimin qabağına İsmayılqulu xanın xəncəri ağzına soxduğu dəllək Xudaverdi gəlirdi. Xəncər o qatilin dişlərini sındırıb, dilini doğram-doğram eləmiş, az qala ucu boynunun ardından çıxmışdı. Biz onu Şah Məhəmmədin hüzuruna gətirəndə təkcə nəfəsi gedib-

gəlir, dibi bulanmış göz giləfləri ölüm qorxusundan oyur-oyur oynayırdı. Şah Məhəmməd, əlbəttə, bütün bunları görə bilməzdi, onsuz da dünyanı tor görən gözləri hüzurunda diz üstə çökmüş qatili daş parçasından ayıra bilmirdi.

– Ey məlun! – Şah Məhəmmədin sinəsindən xırıltı qarışıq inilti qopdu. – De görüm, Şahzadəni kimin fitvasıyla qətlə yetirdin.

Dəllək Xudaverdi titrədi, çırpındı, amma danışa bilmədiyindən, üzü üstə döşənib, hökmdarın ayaqlarını qucaqlamaq istədi. Şah Məhəmməd nifrətlə təpiyini onun üzünə vurdu, iki nəfər cəld dəlləyin qollarından tutub geri çəkdilər.

– Kim qıydı mənim balama?! – Şah Məhəmməd qocalıb əldən düşmüş şir kimi, heysiz-heysiz nərə çəkdi.

– Qibleyi-aləm, – dedim, – xəncərlə ağzından vurublar, – danışa bilmir.

– Mən Şahzadənin qisasını kimdən alım bəs? – şah Məhəmməd inildəyib, göz yaşlarını axıtdı.

Kimsə cəsarət eləyib, ona ürək-dirək verməkdən ötrü ağzını açmırdı. Axırda Şah Məhəmməd başını qaldırdı:

– Bu məlunu diri-diri yandırın, – dedi, – qoy bir tükü də qalıb, dünyanı murdarlamasın.

Dəllək Xudaverdi hökmü eşidəndə dartınıb-çırpındı, bıçaq altına aparılan donuz kimi, qarmaqarışıq səslər çıxardı, amma ona aman verməyib hop götürdülər. Düşərgənin ortasında tonqal qalanması, dəlləyin mal təzəyi təki tonqalın içinə atılması çox çəkmədi. Xudaverdinin iyrənc fəryadı bircə an çəkdi, sonra burnumuza donuz yağına oxşar qoxu dəydi, bununla da hər şey qurtarıb getdi...

Yüzbaşı Şahquluyla atımızı Şah Məhəmməd Xudabəndənin gəcavəsinin arxasınca sürür, kədərdən, əlacsızlıqdan, üzgünlükdən danışmaq istəmirdik. Cəmi on doqquz yaşında olan Şahzadə Həmzə Mirzənin qətli, əlbəttə, xanədana ağlagəlməz zərbəydi. Belə çıxırdı, bəzi-bəzi şəxslər artıq Şah Məhəmmədin taxt-taca yaramadığını bilirlər, onun vəliəhdi olan Həmzə Mirzənin ağlından, fərasətindən, gücündən qorxuya düşüblər, bu səbəbdən, şahzadələrin daha çox sözəbaxanını taxta çıxarmaq niyyətindədilər. Onların istədikləri şübhəsiz, ya Əbutalib Mirzə, ya da Təhmasib Mirzə ola bilər. Hələ Şah Təhmasibin İsa bəy Türkmənin qızından olan oğlu Şahzadə İsmayıl Mirzəni, gürcü kənizindən doğulan Heydər Mirzəni də başdan çıxarıb qardaşının üstünə qaldıra bilərlər. Şahın şamxal bacısından, çərkəz kənizlərindən olan qardaşları Süleyman Mirzə, Əhməd Mirzə, Mahmud Mirzə, gürcü kənizindən doğulan qardaşları İmamqulu Mirzə, Mustafa Mirzə, Əli Mirzə, oğlu Soltan Həsən Mirzə taxt-taca layiq bilinməsə də, kimlərinsə əməlinə yarayardılar.

Bütün bunları ağlıma gətirəndə az qala bağrım çatlayırdı. Belə görünürdü, Təbrizi osmanlılardan geri almaq əvəzinə başımız öz içimizdəki çəkişmələrə qarışacaq, Böyük Sufinin Allah-taalanın köməyi, ağlının kəsəri, qolunun gücüylə qurduğu məmləkət parçalanacaq, günbatandan da özbəklər üstümüzə ayaq alacaq. Ha fikirləşirdim, fikirlərimin ucunu bir tərəfə çıxara bilmirdim...

...O yaz günündə bu kədərli vaqiəni niyə xatırladım? Nədənsə azacıq duyulan yaz havası könlümü açmırdı. Hərdən dönüb yanımda oturan Əliqulu bəyə baxırdım, o

da tutqunydu, sağ əlinin əntiq üzüklü barmağını dodağının üstünə qoymuşdu, elə bil, nəyisə xatırlamaq istəyirdi.

– Novruza iki gün qalır, – dedim, – ikinci bayramdı səfərdəyik.

– Allah qoysa, üçüncü bayramı evimizdə qarşılarıq, – Hüseynəli bəy qanrılıb üzümə baxdı. – Bayramı burda da keçirə bilərik. Deyərəm, hazırlıq görərlər...

# ALTINCI FƏSİL

*İtali torpağında*
*1601-ci ilin yazı*

**German və İtali torpağında səfərimiz (Novruz bayramını keçirməyimiz, Hüseynəli bəylə sar Antonini arasında bəxşişlərin yoxa çıxmasıyla bağlı ixtilaf, ser Antoninin qaçması, Roma papasının hüzurunda olmağımız, sinyora Romanayla görüşüm, səfarətimizdən üç nəfərin xristianlığı qəbul eləməsi), nəhayət, İspan məmləkətinə çatmağımız haqqında**

# 1.

Bayramı Rokitsan adlanan şəhərdə keçirdik. Şəhər eninə-uzununa görə Təbrizin dörddəbiri qədər olardı, mənim hesabımla iyirmi beş-otuz min əhalisi varıdı. Bizi şəhərin hakimi başının altı yüz nəfərlik dəstəsiylə qarşıladı. Hamısı çox gözəl geyinmişdi, elə bil, Əlahəzrət İmperatorun özünü qarşılayırdılar. Heyətimizi böyük qonaq evində yerləşdirdilər. Elə o axşam da şəhərin hakimi təntənəli ziyafət təşkil elədi.

Səhəri gün ilin-ayın axır gecəsiydi. Obaşdan Hüseynəli bəy məni, bir də Yadigar bəy Məhəmmədi yanına çağırdı.

– Yurd-yuvamızdan iki ilə yaxındı çıxmışıq, – dedi, – ötən bayramımızı Moskvada ürəyimiz istəyən kimi keçirə bilmədik. Bu dəfə imkanımız daxilində adətimizə əməl eləyək. Süfrəçibaşı Heydərəliyə tapşırmışam, tədarük görsün, gərəkli nə varsa, tapmağa çalışın. Şəhər hakimini, onun yaxın adamlarını qonaq çağırmaq pis olmazdı.

Süfrəçibaşı Heydərəlini çağırdıq, bayram keçirməyə nəyi olub-olmadığını soruşduq. Allah üzümüzə baxmışdı, İsfahandan çıxanda tədarük elədiyimiz ədviyyatlardan hələ yarısı qalmışdı, ət, yağ, düyü elə burdan da almaq olardı, şirniyyatı süfrəçinin iki əlaltısı xidmətçilərin köməyilə hazırlayacaqdı. Şam yandırmaq, tonqal qalamaq, qapı pusmaq, papaq atmaq kimi işləri yükçülərə, qulamlara, xidmətçilərə tapşırdıq. Axşam hava qaralanda Hüseynəli bəyin dəvət elədiyi şəhər hakimi başının dəstəsiylə gələcəkdi.

Yadigar bəy Məhəmmədlə axşamacan diz qatlayıb oturmadıq. Əliqulu bəy, dilmanc Dövlət, xidmətçibaşı

Murtuzəli hər şeyin yerli-yerində olmasına göz qoydular. Süfrəçi Heydərəli yanına iki nəfər götürüb şəhərin bazar-dükanlarını gəzdi, aldıqlarını iki arabaya yüklədib gətirdi.

Axşam gün əyiləndə hər şeyin hazır olduğunu Hüseynəli bəyə xəbər verdik. O, hamının bayram libası geyinməsini, ciblərinə bayram payı qoymasını, qonaq evinin həyətində iri tonqal qalanmasını, şamların yandırılmasını tapşırdı. Qonaqları tonqal başında qarşılayacaq, yüklərdən iki nəfərin bütün günü əlləşib tədarük elədikləri paltarları geyinən bayram şahıyla Kosanın oyununa baxacaq, sonra süfrənin açıldığı zala keçəcəkdilər.

Hər şey istədiyimiz kimi oldu. Hüseynəli bəyin məsləhətinə görə, bayram adətlərimizi qonaqlara dilmanc vasitəsilə mən danışmalı oldum. Şəhər hakimiylə onun yanındakı hörmətli zatlar danışdıqlarıma heyran-heyran qulaq asır, tez-tez suallar verirdilər. Qonaqların üz-gözündən adətlərimizə heyranlıq oxunurdu. Bundan sonra süfrə başına keçib ləzzətli təamlardan daddılar.

Əlbəttə, ser Antoniylə ingilislər də dəvət olunmuşdu. Nə vaxtdan bəri ilk dəfə onunla salamlaşdım – bayram günü küsülülük saxlamaq olmazdı. Hətta Hüseynəli bəylə danışıb Həsənəli bəyi də sərbəst buraxmışdıq, qulam Şəmsəddin uzaqdan-uzağa göz qoyacaqdı.

Bayram süfrəmiz gecədən xeyli keçəndə sona yetdi. Heç olmasa, bircə gün özümüzü yurd-yuvamızda hiss elədik. Yorğun-arğın, amma hər şeydən razı halda yatmağa gedən vaxt Bünyad bəylə Əlfəqih Əmirin hücrəsinin qabağından keçəndə ovqatımı təlx eləyən o sözləri eşitməsəydim, bəlkə də rahat yatacaqdım.

– Əmir, – Bünyad bəy deyirdi. – Bir gedər-gəlməz yoldu, gedirik, kim bilir, başımıza nələr gələcək.

Elə bil, qulaq falına çıxıb nəhs sözlər eşitmişdim, kefim əməlli-başlı pozuldu...

*(...Rokitsan, Pilsen, Klodrau, Porfaumberq, Vaidhauzen, Fuderitz, Vernberq, Hirschau, Hahnbach, Sulzbach torpaqlarından keçib səfərimizə davam elədik. Axırıncı çox gözəl evləri, əhalisi sıx olan şəhərdi, biz tələssək də, şəhərin adı Otto Henrix (Zaltsburq pfaltsqrafı) olan şahzadəsi, həm də sahibi bizi sevinclə qəbul eləyib, qaldığımız bir gün ərzində ehtiyacımız olan hər şeylə təmin eləmək əmrini verdi. Burdan Hersbrukk şəhərinə, sonrasa Lauf adlanan, yaxşı abad edilmiş, xeyli əhalisi olan yerə getdik. Hersbrukk da yerinə, həm də heyrətamiz tikilmiş evlərinə görə, bizə çox gözəl göründü.*

*İrəli hərəkət eləyib Nürnberq şəhərinə çatdıq, burda üç gün qaldıq. Bu əhalisi çox sıx olan şəhərdi, küçələri də, meydanları da gözəldi; burda əhalinin sayı o qədər çoxdu, paytaxt şəhəri təəssüratı yaradır. Nürnberqin hakimi, İmperatorun təyin elədiyi Şahzadə bizi çox gözəl qəbul elədi. O bizə çoxlu bəxşiş göndərdi, onların arasında da yüksək dəyəri olan qrafinlər, fincanlar varıdı; heyətin hər bir üzvünə də bəxşiş verdi. Nürnberqdən Auqsburqa sonrakı səfərimiz vaxtı ekipajlarda gedirdik, bəzi yerlərdə at belinə qalxırdıq, Kornberq, Roth, Vindsfeld, Ellingen, Veissenburq, Münchem, Kaisheim, Donauvört şəhərlərindən keçib, Ausburqa çatdıq. Bu şəhəri, onun bütün binalarının əzəmətini görmək bizə zövq verirdi, İmperator (Sezar Avqust) tərəfindən salındığından, belə də olmalıydı. Bura doğrudan da, böyük diyardı, burda toplaşmış zadəganlığı, qızğın alveri nəzərə alsaq, böyük dairənin baş şəhəridi. Ausburqda altı gün qaldıq, çox nəcib,*

*nüfuzlu Şahzadə olan hakim bizə hədsiz qonaqpərvər münasibət göstərdi, hər gün cürbəcür qəbullara dəvət elədi. Burdan ekipajlarla Münhen şəhərinə getdik...*

*Münhen ayrıca bir hersoqluğun paytaxtıdı, hersoq, həm də bu ölkənin Mömin Hersoq kimi tanınan sahibi (üç il qabaq İkinci Vilyam oğlu Maksimilianın nəfinə taxt-tacdan əl çəkmişdi) kimi tanınır. O bizə əməlli-başlı səxavət göstərib öz sarayının otaqlarında yerləşdirdi, burda bizə ləl-cavahirat olan otağını göstərdi, bu otaqda xüsusilə, gümüşdən-qızıldan ustalıqla düzəldilmiş qab-qacaq varıdı. Bizə göstərdiklərinin arasında ortası qeyri-adi tərzdə olan, nahar otağı şəklinə salınan bağ həddən artıq diqqətçəkəniydi. Daşın içindən fəvvarə qalxırdı, o fəvvarənin dörd yanında daşdan da cürbəcür heyvan, quş, balıq növlərinin fiquru düzəldilmişdi, hər birinin ağzından fəvvarə vururdu. Bütün bu yerlərlə tanış olmaqdan ötrü tam bir ay belə, bəs eləməzdi...)*

... Münhen qəlbimdə çox dərin hisslər oyatdı. Bu şəhərdə qaldığımız günlər ərzində o gün olmadı, Əliqulu bəylə dilmanc Dövləti yanıma alıb məhəllə-məhəllə, küçə-küçə gəzməyim. Zahiri görünüşünə görə evlər, küçələr, meydanlar Təbrizə oxşamasa da, nədənsə Təbriz gözlərimin qabağından çəkilib getmirdi. Hər yerdə elə səliqə-sahman, elə könül oxşayan gözəllik varıdı, baxmaqla doymaq olmurdu. Biz küçəylə gedəndə, meydanda gəzişəndə yerli camaat tamaşamıza çıxır, dilmanc Dövlətin dediyi kimi, heyranlıqlarını bildirirdilər. Burda yaşayan adamların çoxu sarışın, ortaboylu, göygözlüdü, qonağa qarşı diqqətli, mehribandılar. Qadınları incə, gözəl, işvəkardı, ən kasıbı belə səliqəylə geyinir.

Gəzintimizin ikinci günü bazarı dolaşanda gözləmədiyimiz əhvalat baş verdi. Ədviyyat satan ortayaşlı bir kişi Əliqulu bəylə öz aramızda danışdığımızı eşidib, qəfildən bizi səslədi:

– Ağa, qurban olum, bir ayaq saxlayın...

Əvvəl çaşıb qaldıq, kişinin üstümüzə doğru gəldiyini görəndə, istər-istəməz ayaq saxladıq.

– Türkcə danışdığınızı eşitdim, – kişi gözlərinin dibində qaynayan yaşı saxlaya bilmədi. – Mən ərdəbilliyəm, taleyin gərdişiylə bura gəlib çıxmışam. İyirmi beş il olar, qulağım şirin kəlmələrimizi eşitməyib...

Ona Şah Abbasın Günbatan hökmdarlarının yanına göndərdiyi səfarətdən olduğumuzu, bu şəhərdə bir neçə günlüyə dayandığımızı dedik. Çox sevindi, adının Qurban Şahhüseyn oğlu, tayfasının Şahsevən olduğunu, cavan vaxtı Şahın qoşununda qulluq elədiyini, sonra tacirliyə başladığını, portəgiz gəmisiylə Lissabona mal aparanda fırtınaya düşdüklərini, başqa bir portəgiz gəmisi tərəfindən xilas olunduğunu, illərlə qul kimi işlədildiyini, axırda qaçıb şəhərlər keçə-keçə Münhenə gəlib çıxdığını danışdı. Bu ayaqüstü hekayətinə elə kövrəlmişdik, qucaqlaşmaqdan özümüzü saxlaya bilmədik. Ayrılanda Qurban Şahhüseyn oğlunu axşam qonaq evinə dəvət elədik.

Axşam on iki-on üç yaşındakı oğluyla gəlib çıxdı, Hüseynəli bəylə görüşdü, hamımız yığışıb söhbətə tutduq. Qurban Münhenə gəlib çıxandan üç il sonra yerlilərdən bəxtinə çıxan qızla evlənibmiş, indi iki oğlu, bir qızı varıdı. Şübhəsiz, yerli adətləri öyrənmişdi, dillərini yaxşı bilirdi, din-imanını dəyişib-dəyişmədiyini soruşmadıq, neçə illəriydi, burdaydı, yad məmləkətdə oruc tutub, namaz qıl-

maq lap möcüzə olardı. Oğlunun adını German qoymuşdu, tərbiyəsindən elə yerlilərə də oxşayacağı məlumuydu. Məmləkətimizdə baş verənlər barədə sorğu-sual elədi, eşitdiklərindən gözlərinin nəmləndiyini, sinəsinin körük kimi qalxıb-endiyini, boğazının qovuşduğunu duydum. Gedəndə hərə bir bəxşiş verdi, o da bəxşişləri böyük minnətdarlıqla aldı.

Səhəri gün şəhər hakiminin iltifat göstərib, sərhədəcən ixtiyarımıza verdiyi iki ekipaj, üç karetə minib, Şahzadənin eşikağasının müşayiətilə yola çıxdıq. Səmimi qəbula görə bu əsil-nəcabətli Şahzadəyə çox-çox minnətdarlıq bildirib səfərimizə davam elədik. Bizi yola salanlar arasında Qurban Şahhüseyn oğlu da varıdı, iki oğluyla gəlmişdi. Hamımızla öpüşüb-görüşdü, çox təsirləndiyindən, çiyinləri titrədi. Bir də yerin-yurdunu görüb-görməyəcəyini bilmirdi. Uzun müddət durub arxamızca baxdı, ekipajın pəncərəsindən onun necə kiçilib, gözdən itdiyini görə-görə qürbətdə yaşamağın əzab-əziyyəti barədə fikirləşdim. Belə bir vaqiə mənim də başıma gəlsəydi, yad ellərdə arın-arxayın ömür sürə bilərdimmi? Yol boyu elə hey ağlımdan bunu keçirdim, heç sonra da yadımdan çıxara bilmədim...

## 2.

Bərəkətli German torpağını geridə buraxıb, İtal məmləkətinə yaxınlaşdıqca, özümdə anlamadığım əndişə duyurdum: qarşıda hələ görüb-tanımadığım, yalnız haqqında kitablarda oxuduğum bir məmləkət dururdu. Yolumuza bu cür davam eləsəydik, bir neçə aydan sonra İspan kralının hüzurunda ola, sonra geri qayıtmaq barədə fikirləşə bilərdik. Əlbəttə, ser Antoninin dilinə uyub, ingilis kraliçasıyla, şotland kralıyla görüşə getsək, səfərimiz azı altı ay da uzanacaqdı, bu heç ürəyimdən deyildi. Yaxşı olardı, İspan kralıyla görüşüb, Lissabon limanına gedək, ordan Hörmüzə yola çıxan bir gəmi kirayələyək, uzaqbaşı, altı aydan sonra məmləkətimizə yetişək.

Hüseynəli bəy qəbullardan, ziyafətlərdən, gəzintilərdən məmnun qalsa da, fikirli, qayğılı görünürdü. Ola bilsin, irəlidə hələ ən vacib görüşlərin durduğunu fikirləşirdi, Əlahəzrət Şahımızın buyruğunu necə yerinə yetirəcəyinin dərdini çəkirdi. Bir neçə kərə yanaşıb, ser Antoninin ingilis gəmisinə yüklədiyi bəxşişlərlə bağlı narahatlığımı bildirmək istədim, amma cürətim çatmadı, elçimizin bunu pis niyyətlə dediyimi fikirləşəcəyindən ehtiyat elədim. Heç Əliqulu bəy də məsləhət görmədi, əmisiylə aramızda yaranmış uçurumun daha da dərinləşəcəyindən qorxdu...

Yolda dincəlmək üçün bir neçə saatlığı dayananda azacıq gəzmək bəhanəsiylə aralandıq, yarıyolda Yadigar bəy Məhəmməd də bizə qoşuldu. Gözəl meşə açıqlığında ayaq saxladıq, gizlicə yaxınlaşan olsaydı, görərdik.

– Əmim qərar gəlib, Romada Həsənəli bəylə əlaqə yaratmağa can atan olmasa, onu göz dustaqlığından azad eləsin...

– Mən bilən, belə bir ehtimal səfərimizin axırınacan qalacaq, – dedim, – Həsənəli bəy boynundan atsa da, Roma papasına çatdırmaq üçün Xoca Səfərin himayədarlarının nəsə fikirləşmədikləri ağlıma batmır.

– Romada Hüseynəli bəy dediyini eləsə, işimiz çətinə düşəcək, – Yadigar bəy Məhəmməd fikrini gizlətmədi. – Sərbəst gəzməyə icazə alandan sonra onun hara getdiyini, kimlərlə görüşdüyünü ayırd eləmək asan olmayacaq.

– Elçiylə aramızda baş verənlər bizi məmləkətimizə, həm də Şahımıza xidmətdən çəkindirmir, – dedim, – Heyətimizin adına xələl gəlməməsindən ötrü əlimizdən gələni eləməliyik...

– Əgər ser Antoniylə bağlı ehtimallarımız düz çıxsa, neyləmək fikrindəsən? – Əliqulu bəy narahat nəzərlərini üzümə dikdi.

– Onda o kosasaqal ingilisi öldürüb, şərəfimizi xilas eləməkdən, Şahımızın cəzasını qəbul eləməkdən ayrı yolum qalmır, – dedim.

– Səni heyətdən alıb, elə Romadaca zindana sala bilərlər... – Əliqulu bəy gözlənilən təhlükəni diqqətimə çatdırdı.

– Hər halda, Şahımız öz təbəəsinin yad məmləkətdə qalmasına razı olmaz, – dedim. – Üstəlik, həqiqəti biləndən sonra Qibleyi-aləm bu ingilisin başını sığallamayacaq.

– Ser Antoni elçidi, elçini öldürmək, ya da cəzalandırmaq nə ingilis kraliçasının, nə də şotland kralının xoşuna gələr. – Əliqulu bəy sözlərimə şübhəylə yanaşdı. – Həm də o aldadıldığını bəhanə gətirib, izi azdıra da bilər...

– Sabah nələr olacağını Allahdan başqa kimsə bilməz, – dedim. – buna görə də gəlin gözləyək, görək başımıza nə gəlir.

Ekipajların yanına qayıdanda ser Antoninin cılız vücudunda əndişə olduğunu gördüm. Qılıncının ucunu yerlə sürüyə-sürüyə Hüseynəli bəyin beş-on addımlığında vurnuxurdu. Elçimizlə aralarında nəsə xoşagəlməz söhbət baş verdiyindən şübhələndim. Yanından ötəndə xırda gözlərini mənə zilləyib dodağının altında nəsə mırıldandı. Əlimi qılıncın dəstəyinə atmaqdan özümü güclə saxladım.

German torpağında bu son dayanacağımızıydı. Bizi ötürənlər yaxşı yol arzulayıb qayıtdılar, qarşılayanlar səfər karvanımızı irəliyə doğru apardı...

*(...İndi İmperiyanın torpaqlarını geridə qoyub, İtali məmləkətinə varid olduq; beləliklə, ilk dayanacağımız yer Venesiya olmalıydı, Romaya getməzdən qabaq Mantuyaya, yolumuzun üstündəki İtali torpağının ilk gözəl şəhərinə yollandıq. Yerləşdiyi ərazinin qeyri-adiliyinə baxmayaraq, bu şəhər təsvir olunmağa layiqdi, ona görə ki, Mantuya adi avarlı gəmilər üçün lazımi qədər dərin olan şəffaf sulu böyük gölün qırağında yerləşir. Şəhərin özü iri, əhalisi sıx, sarayları heyrətamizdi. Mantuya İtali memarlığı tərzində tikilib, məhəllələrə, küçələrə bölünüb, onlar da elə salınıblar, hər bir küçə xiyabanlara çıxır: möhkəm, hündür şəhər divarını göl dövrələyir, şəhərin dörd küncündə mantuyanı alınmaz qalaya çevirən dörd güclü istehkam var.*

*Adlı-sanlı Qonsaq nəslindən olan hersoq (Şahzadə İkinci Vinçento) qarşımda ekipajlarını, bir də eşikağasını göndərdi, biz Mantuyaya varid olduq. Hersoq bizi sarayında çox iltifatla qəbul elədi, əməlli-başlı dəbdəbəylə bəzənmiş otaqlarda yerləşdirmək əmrini verdi, ona görə ki, o, böyük qonaqpərvərliklə ad çıxarmışdı. Burda iki gün qaldıq. Bizə onun xəzinəsini, xüsusilə, böyük rəssamların çəkdikləri tabloları göstərdilər; həm də cürbəcür yad*

*ölkələrin milli geyimləriylə dolu olan qarderobunu gördük. Sonra şərəfimizə ziyafət verib, çoxlu əyləncələrlə əyləndirib, bizdən ötrü avarlı qayıqlar hazırlamağı əmr elədi, həmin qayıqlara mindik, düz Florensəcən ötürmək üçün xidmətçilərini də göndərdi. Amma Romaya getməzdən qabaq Səfəvi şahının naməsini Knyaz Senyerə çatdırmaqdan ötrü əvvəlcə Venesiyaya geri qayıtmalıydıq. Buna görə də gün ərzində avarlı qayıqlarla gölü keçdik, çayın (Minço) mənbəyindən üzüaşağı hərəkət elədik, sahilə çıxıb Otranto adlanan şəhərə gəlib çatdıq. Burdan Venesiya ərazisində yerləşən, Günbatanın ən gözəl şəhərlərindən biri olan Veronaya yollandıq. Burda elçimizin Venesiyaya Knyazla görüşə izin almaq üçün göndərdiyi əyanın qayıtmasını gözləyə-gözləyə üç gün dayandıq. Amma venesiyalılar cavab verdilər, məhz indi türk (Osmanlı) elçisiylə vacib dövlət işlərini müzakirə eləyirlər, buna görə də onların bizi qəbul eləmələri düzgün olmaz; həm də Osmanlı elçisinin yanında Səfəvi şahının – çoxdan bir-birinə düşmən olan bu iki dövlətin elçisini qəbul eləmək məqsədə müvafiq deyil – xristian dövlətlərinə ziyan vurar. Amma ehtiyac duyduğumuz nə varsa, dərhal bizə göndəriləcək. Bu namənin cavabında təhqir olunan elçimiz xəbər göndərdi ki, Osmanlı elçisiylə onun işi yoxdu, həm də Venesiyanın hörmətsizliyilə bağlı fikir söyləmək istəmir; beləliklə, səfərimiz təxirə salındı, yolumuza davam eləyib, Ferraraya gəldik...)*

...Hüseynəli bəy şübhəsiz, özünə, həm də özünün şəxsində Şahımıza, nəhayət, məmləkətimizə bu hörmətsizlikdən çox sarsılmışdı. Şöhrəti dünyanın tutan dövləti, xanədanı təmsil eləyirdi, keçdiyi ölkələrin, şəhərlərin hamısında ağlagəlməz sevgiylə qarşılanmışdı, indi Venesiyanın hakimi onu qəbul eləməyi məqsədəuyğun saymamış-

dı. Ferraraya gedəndə elçinin qaşqabağından bu halının uzun sürəcəyi bilinirdi. Şübhəsiz, şəhər hakiminin bizi qonaqpərvərliklə qarşılaması, ən yaxşı sarayların birində yerləşdirməsi, xidmətçilərinin canla-başla qulluğumuzda durması da Hüseynəli bəyin kefini açmadı.

Şəhərə çatdığımız günün axşamı elçimiz gözlənilmədən məni, Əliqulu bəyi, bir də Yadigar bəy Məhəmmədi yanına çağırdı. Bu qəfil dəvətin səbəbini bilməsək də, bəxşişlərin taleyilə bağlı narahatçılığından doğduğunu təxmin eləyirdik. Zənnimiz doğru çıxdı, Hüseynəli bəy yer göstərib xeyli susandan sonra danışmağa çətinlik çəkirmiş kimi, ağır-ağır dilləndi:

– Bilin, agah olun, Romaya yetişməyimizə az qalıb. Mən bir neçə kərə ser Antoniylə bəxşişlərin yükləndiyi gəminin Romaya nə vaxt gəlib çatacağı, ora səfarətimizdən qabaq adamlar göndərmək lazım gəlib-gəlmədiyi barədə söhbət eləmək istədim. Amma o cürbəcür bəhanələrlə söhbətdən yayınır. Belə çıxır, bəxşişləri yüklədiyimiz ingilis gəmisi Romaya yetişməyə, yolda fırtınaya düşə, ya da quldurların basqınıyla üzləşə bilər. Bəxşişlərin çatmaması görünür, onu heç narahat eləmir. Əgər vəziyyət doğrudan da bu cür olsa, hansı addımları atacağımız barədə fikrinizi bilmək istədim.

Ortaya ağır sükut çökdü. Əslində, bizim deməyə sözümüz yoxudu. Arxangelsk limanında fikrimizi demişdik, Hüseynəli bəyi bu yoldan döndərməyə çalışmışdıq, amma ser Antoninin təcrübəsinə, Şahımızın fərmanına, limandakı ən iri gəminin ingilislərə məxsus olduğuna bel bağlayan elçimiz öz hökmünü vermişdi, indi aldadıldığını duyub

hökmdarların hüzurunda xəcalətli qalacağından, Şahımızın qəzəbinə tuş gələcəyindən çəkinirdi.

– Əslində, bu məsələni öz aramızda götür-qoy eləmişik, – axırda Əliqulu bəy sükutu pozdu, – ingilis hər şeyi qabaqcadan ölçüb-biçib, görünür, elə bu səfəri təşkil eləməkdə əsas məqsədi Şahımızın göndərdiyi sandıq-sandıq bəxşişləri ələ keçirməyiymiş. Həmin gəminin fırtınaya düşüb-düşmədiyini necə ayırd eləyəsən, hansı limanda olduğundan necə xəbər tutasan? Üstəlik, o, şotland kralının əmisi oğlu, Günbatan hökmdarlarının elçisi olduğunu deyir, elçini günahlandırmağın axırı necə qurtarar?!

Mən dillənmədim, Yadigar bəy Məhəmməd Əliqulu bəyin fikriylə şərik olduğunu söylədi. Susqunluğum elçimizə hədsiz ağır təsir eləmişdi, bu məsələnin lap başlanğıcından haqlı narahatlığıma fikir vermədiyinə görə, indi özündən daha çox mənə acığı tuturdu. Əlbəttə, ağzımı açıb bir-iki söz desəydim, yəqin, Hüseynəli bəyin halını yüngülləşdirərdim, amma özümə güc gələ bilmədim, elçi də ovqatı təlx halda bizə çıxıb getməyi işarə elədi.

O gecə heyətimizi Romada gözləyən xoşagəlməz hadisələr barədə uzun-uzadı fikirləşdim. Müqəddəs Roma papasının hüzuruna əliboş getmək məmləkətimizə də, dinimizə də, Şahımıza da zərbəydi, əvvəlcədən bilirdim, Hüseynəli bəy Bayat bu zərbəyə dözməyəcək.

## 3.

Ksseldən sonra şəhərlərdə, kəndlərdə, dayandığımız yerlərdə tez-tez elçimizin şəxsi mirzəsi Mirzə Sədrəddini, dəllək Xudakərimi, bir də süfrəçibaşı Heydərəlini Bünyad bəyin yanında görürdüm. Axır vaxtlar hamıdan kənar qaçan, nə haqdasa uzun-uzadı, əzabla düşünən Bünyad bəylə dindən-şəriətdən söhbət eləyirdilər. Həmişə Əlfəqih Əmirin onlara sarı baxıb, nəsə donquldandığını, sonra əllərini göyə açıb duya elədiyini görürdüm. Elə bilirdim, bütün bunların hamısı beşgünlük fırtınadan sonra heyətimizdən bir çoxunun şəriət qayda-qanunlarından, yumşaq desək, üz döndərmələriylə bağlıdı. İndi məlum olmuşdu, bütün heyətdə Əlfəqih Əmir dəstəmaz alan, vaxtlı-vaxtında namazını qılan, şərab içməyən, donuz əti yeməyən... yeganə adamdı. Bu səbəbdən, hamımıza töhmətlə baxır, çox güman, qəlbində İsfahana qayıdandan sonra hərənin hansı cəzanı alacağını götür-qoy eləyirdi...

Ferrarada ikinci gözləmədiyim əhvalat baş verdi: bir axşam Əlfəqih Əmir hücrəmizə gəldi. Əliqulu bəyin təəccübdən uzanmış üzündən onun da hədsiz heyrətləndiyini anladım. O, uzun-uzadı mənə baxdı, çıxıb getməli, yoxsa qalmalı olduğunu kəsdirə bilmədi. Başımı yüngülcə tərpədib, qalmasına işarə vurdum.

Əlfəqih Əmir oturandan sonra xeyli susub danışmadı. Söhbətə mən başladım.

– Çox qayğılı görünürsən, Əmir, – dedim. – Səni narahat eləyən bir hadisəmi baş verib?

Əlfəqih Əmir xırda gözlərini döşəmədən çəkib üzümə baxdı, nəzərlərinin soyuqluğundan, kəsərindən, hiddə-

tindən demək istədiklərini ağzını açmamış duydum, amma özümü o yerə qoymayıb, səbirlə dilini tərpədəcəyini gözlədim.

– Bismillahir-rəhmanir-rəhim! – Əlfəqih Əmir təsbehli əliylə salavat çevirdi. – Səfarətimizdəki vəziyyətdən xəbəriniz yoxdusa, mən deyim: bir-iki yükçü, xidmətçidən başqa hamı uca dinimizdən, şəriətimizdən üz çevirməyə başlayıb, Oruc bəy, – susub sözlərinin necə təsir eləyəcəyini gözlədi, amma dinməyəcəyimə əmin olandan sonra davam elədi. – Şahımız da, sədrimiz də məni heyətə o səbəbə daxil eləyiblər, xristian məmləkətlərində dinimizin adını uca tutulduğuna, şəriətimizin qayda-qanunlarına necə əməl olunduğuna göz qoyum. Nə vaxtdı, görürəm, oruc tutub, namaz qılanların, Allaha ibadət eləyənlərin sayı gündən-günə azalır. Bütün bunların axırı necə olacaq, qayıdanda Qibleyi-aləmin hüzuruna nə ərz eləyəcəyik?.. Üstəlik, müsəlman məmləkəti kimi tanınan dövlətimizin nüfuzuna xələl gəlməyəcəkmi?

– İbadət də, şəriət qayda-qanunlarına əməl eləmək də şərtlərə bağlıdı, Əmir, – Mirzə Qədimdən aldığım Quran dərslərini xatırlayıb dilləndim. – Az qala iki ildi yollardayıq, xristian məmləkətlərini dolaşırıq, belə vəziyyətdə qayda-qanunları gözləmək çətin olur. Yəqin, məmləkətimizə qayıdanda hər şey yerini alacaq.

– Bəs, Allahın qarşısında işlənən bu qədər günahların cavabını vermək lazım gəlməyəcək? – Əlfəqih Əmir eyhamla, həm də əyri-əyri gülümsədi.

– Başlıcası, Allah-taalanın verdiyi cəzadı, Əmir, – Əliqulu bəy qılıqlı səslə dilləndi, – bəndələrin verdiyi cəza ancaq cismani cəzadı.

– Axır vaxtlar Bünyad bəyin xristian dini barədə bəlağətli danışmasına nə deyirsiniz? – Əlfəqih Əmir nəzərlərini gah mənə, gah da Əliqulu bəyə dikdi.

– Əlbəttə, başqa dinlərə hörmət borcumuzdu, – dedim. – İnana bilmirəm, Bünyad bəyin xristian dininə rəğbətini bildirməkdə hansısa məqsədi var...

Əlfəqih Əmir, görünür, öz-özlüyündə bizdən gözlədiyi köməyi ala bilməmişdi, bu səbəbdən, təəssüflə başını bulayıb ayağa qalxdı, xudahafizləşib getdi.

Xeyli susduq. Bilirdik, bu Əlfəqih Əmirin açıq xəbərdarlığıdı, İsfahana qayıdanda, Şahımız da, sədrimiz də günahkarları məhşər ayağına çəkəcəyi şübhəsizdi. Ser Antoninin, Venesiya knyazının məsələsindən sonra əhvalımız bir daha korlandı...

*(...Burdan Florensin Böyük Hersoqunun (Toskananın böyük knyazı Birinci Ferdinandın) yanına gəlməyinizi xəbər verməkdən ötrü çapar göndərdik, hersoq qabağımıza özünün baş eşikağasını yolladı, o da bizim yolda dayanacağımızı təşkil elədi. Biz Florensə gəlib çatan vaxt Hersoq orda yoxudu, ova getmişdi, amma bizi öz sarayında yerləşdirmək barədə əmr göndərdi, üstəlik də, onun saray əyanları bizi qarşılamaqdan ötrü şəhər darvazalarına çıxdılar. Üç çox gözəl ekipajda çoxlu adamın dövrəyə aldığı saraya gəlib çatdıq, orda bizə böyük Hersoqun şəxsi xidmətçiləri qulluq eləyirdilər.*

*Florensdə iki həftə qaldıq, burda bizi yaxşı əyləndirdilər, əzəmətli binalarının gözəlliyilə şöhrət qazanan bu ən məşhur şəhərin bütün görməli yerlərini göstərdilər. Hersoq Böyük Hersoginyayla (Kristinayla) birgə olduğu Pizaya dəvət eləməkdən ötrü arxamızca adam göndərdi. Bura gəlib çatanda bizi onun qardaşı Şahzadə Covanni de Mediçi qəbul elədi, o heyətimizi sa-*

*raya gətirdi, sarayda Hersoqla Hersoginya bizə çox gözəl ziyafət verdilər.*

*Burda heyətimizi on gün saxladılar, gen-bol yedizdirdilər, Böyük Hersoqun mülkiyyəti olan zəngin, nadir xəzinəni göstərdilər. Sonra heyətimizi tikilən yeni şəhərə baxmaq üçün Livornoya apardılar, buranın yeri kifayət qədər cəlbedicidi. Artıq qala ucaldılıb, sonralar bütün Aralıq dəryasında ən gözəl limanlardan biri olacaq limana təhlükəsiz giriş təmin olub. Bu işləri görməkdən ötrü onların əlinin altında beş mindən artıq kölə var.*

*Böyük Hersoq elçimizə boynuna on altı kərə dolanan, qiymətli daşlarla bəzədilmiş, içərisində özünün kiçildilmiş portreti olan medalyonlu qızıl zəncir göndərdi; bu cür qiymətli bəxşişi ser Antoni Şerliyə də verdi. Heyətimizin üzvlərinə də iltifat göstərib, bəxşişlər bağışladı. Sonra eşikağalarından birinə heyətimizi düz Romayacan ötürməyi, bütün yol xərclərimizi ödəməyi tapşırıb, bizi buraxdı...)*

Böyük Hersoqun xəzinəsində bir neçə qiymətli şey gördüm, hisslərim tamam dolaşıq düşdü. Biri «Dörd fəsil» adlı Təbriz xalısıydı, naxışlarını görəndə ürəyim əsdi. Xalının aşağı küncündə «968-ci il, Təbriz» toxunmuşdu, dörd küncündə dörd fəslin əlamətlərini təsvir eləyən təbiət səhnələri varıdı. Düz ortada ömrünün ən gözəl çağlarını yaşayan aşiqlə məşuqun surəti, ətrafında ağacların, heyvanların təsviri varıdı. Naxışlar o qədər zərif, o qədər canlıydı, əlimi üstündə gəzdirməkdən özümü saxlaya bilmədim.

– Əlahəzrət Hersoq bu xalçanı çox sevir, – halətimi görən eşikağası dilmanc vasitəsilə dedi. – Xəzinəsinə baş çəkəndə xeyli müddət bu möcüzə xalçanın tamaşasına durur.

Təəssüf elədim, ser Antoninin sayəsində Şahımızın Günbatan hökmdarlarına göndərdiyi bəxşişdən hələ xəbər yoxdu, gətirdiyimiz ağlı başdan alan xalçalardan birini Əlahəzrət Hersoqa verərdik, Təbriz ustalarının daha da bir möcüzəsinin şahidi olardı...

O biri Dərbənd sənətkarının əlindən çıxmış, qəbzəsiylə qını gümüş işləməli qılıncıydı. Naxışlar elə zövqlə, zərgər dəqiqliyilə işlənmişdi, heyranlığını gizlədə bilmirdin. Qılıncın qəbzəsində «Ancaq düşmənlərinlə üz-üzə gələndə qınından çıxar» yazılmışdı. Qılınc Ərəş ipəyinin üstündən asılmışdı, elə ipək kimi zərif naxışlarıyla da göz oxşayırdı.

Üçüncüsü Quran-i Kərimin 951-ci ildə köçürülmüş nüsxəsiydi, eşikağasının dediyinə görə, Florens tacirləri Təbrizdən gətirib Böyük Hersoqa bəxşiş eləmişdilər. Bunu deməsə də, Təbriz cildçilərinin əl işini dərhal tanıyırdım. Müqəddəs Kitabımızın Təbriz nüsxələrindən biri də mənim İsfahandan bəri özümlə gəzdirdiyim sandığımdaydı, yəqin, ömrümün axırınacan mənimlə birgə olacaqdı.

Əlbəttə, Böyük Hersoqun zəngin xəzinəsindəki üzüklər, qolbağılar, sinəbəndlər, xəncərlər, şamdanlar, üstürlablar, pul kisələri, kəmərlər, xəncərlər... arasında Qəzvin, Ərdəbil, Şamaxı, Ordubad ustalarının əl işlərini də tapa bilərdim, amma xalça, qılınc, bir də kitab duyğularımın ehtizaza gəlməsinə bəs elədi. Deyəsən, Hüseynəli bəy də bütün bunları sezmişdi, Şahımızın göndərdiyi bəxşişlərlə Böyük Hersoqun xəzinəsini şərəfləndirə bilmədiyindən, yanıb-yaxılır, açıq-aşkar da olmasa, ürəyində ser Antoninin qarasınca deyinirdi.

Xəzinəni gəzib qurtrandan sonra qəfildən ağlıma gəldi, belimdən qılıncımı açıb, eşikağasına verdim, onu he-

yətimizin bəxşişi kimi, Böyük Hersoqun xəzinəsinə qəbul eləməyini, bu barədə Əlahəzrətin özünə xəbər çatdırmağını istədim. Eşikağası bəxşişimi böyük məmnuniyyətlə götürdü, mütləq Böyük Hersoqun diqqətinə çatdıracağını bildirdi. Bu qılıncı mənə atam Sultanəli bəyin qətlə yetirildiyi Təbriz döyüşündən sonra Bayat atlılarının başında durmağımı istəyən Şahzadə Həmzə Mirzə öz belindən açıb bağışlamışdı. Onun yadigarını irili-xırdalı əlliyəcən döyüşdə qınından sıyırmışdım, minbaşı olanda Şah Abbas daş-qaşla bəzədilmiş qılınc peşkəş eləsə də, Şahzadənin bəxşişindən ayrıla bilmirdim. Düzdü, dövlətxanaya gedəndə Şahımızın peşkəşini qurşayırdım, amma uzaq səfərlərə çıxanda Həmzə Mirzənin qılıncı yol yoldaşım olurdu.

Hüseynəli bəy bu comərd hərəkətimi bəyəndi, bununla, elə bil, bəxşişləri ser Antoniyə etibar eləməkdə səhvə yol verdiyindən daha çox utandı. Şübhəsiz, onu çətin vəziyyətdə qoymaq fikrim yoxudu, istəmişdim, Böyük Hersoqun hədsiz səxavətinin müqabilində heyətimizin üzünü ağardım. Ser Antoni məsələdən xəbər tutanda əyri-əyri gülümsəyib yox oldu, gözə görünməməyə çalışdı. Bu cılız, sarışın, kosasaqqal ingilisin boynunu vuracaq qılıncı peşkəş elədiyimə görə, bir qədər çaşqınlıq içində oldum, amma qisas almaq lazım gəlsəydi, onu yalın əllə parçalayardım, heç qılınca da ehtiyac qalmazdı.

Axşam Hüseynəli bəy mənə xidmətçisinin qılıncını göndərdi. Bərbəzəyi olmasa da, düşmən qabağına çıxmaqdan ötrü yarayardı. Onda ağlımdan keçdi, sandığımdakı kitabları qılıncdan qiymətli sayıram. Görünür, qəlbimdə bundan sonra vuruşmaq yox, bilik xəzinəsinə baş vurmaq istəyi daha güclüydü...

## 4.

...Romaya doğru yola çıxacağımız günün səhəri nəsə özümdə-sözümdə deyildim, düşüncələrim tez-tez çürük ip kimi qırılıb-dağılırdı. Əvvəl elə bildim, bu xəstəliyin əlamətidi, yenə yorğan-döşəyə düşəcəm, amma sonra anladım, olub-keçənlər ruhi halətimlə bağlıdı. Görünür, nagahan bir qüvvə məni nələrdənsə xəbərdar eləmək istəyirdi.

O səhər Əliqulu bəy də uzun-uzadı üzümə baxdı, sonra qaşlarını çatıb təəccüblə:

– Lap dar ağacına gedən adama oxşayırsan, qardaşım, – dedi. – Şübhəsiz, sənin özünə əzab verməyinin özündən qeyrisinə ziyanı olmayacaq...

– Üç-dörd günə Romaya çatırıq, – cavab verdim, – cəmi xristian aləminin ən ünlü zatıyla görüşəcəyik. Onun hüzuruna əli ətəyindən uzun getməyin nə demək olduğunu bilirsənmi?

– Bilirəm, – Əliqulu bəy başını tərpətdi. – Əgər bu ingilisi Şahımızın çox inandığı adamlardan biri bu işə qatıbsa, Qibleyi-aləm də əlinə möhürlü fərman veribsə, sənin, mənim, ya da əmimin əlindən nə gəlir?

– Məndən olsa, Romada onun fırıldağı aşkar olan kimi, göz altına alıb Papaya xəbər vermək lazımdı, – fikrimi qəti bildirdim, – zənnim məni aldatmırsa, Romada yalanının faş olduğunu görüb aradan çıxmağa çalışacaq...

Əlbəttə, Hüseynəli bəyi ayaqlayıb bu işi özüm görsəydim, elçimizin qınağına tuş olardım, hələ eşidib-bilənlər də hərəkətimizə yaxşı baxmazdılar. Susub nə deyəcəyini bilməyən Əliqulu bəyin gözlərinin içinə baxıb qəfil qızğınlıqla hökmümü verdim:

– And içirəm, atam Sultanəli bəyin ruhuna, əgər Papanın hüzurunda məmləkətimizin, xanədanımızın, Şahımızın nüfuzuna xələl gəlsə, Hüseynəli bəylə hesablaşmayacağam, o kosasaqqal ingilisdən bütün başımıza gətirdiklərinin qisasını alacağam...

*(...Böyük Hersoqla vidalaşdıq, Sienayacan getdik, burda Romaya gedib, bizim Sisnada gəlib Müqəddəs atanın ayaqlarından öpmək üçün icazə gözlədiyimizi Papaya (Səkkizinci Klimentə) xəbər vermək məqsədilə Romaya göndərilmiş adamı gözləməyə başladıq. Sisnada olduğumuz üçüncü günü yanımıza Müqəddəs atanın yanından kardinal gəlib bizi onun adından salamladı, qəbulumuza dəxli olan bütün məsələlərlə bağlı göstəriş verdi. Burda, Siena şəhərində elçimiz ser Antoniylə dalaşdı, əgər Müqəddəs atanın göndərdiyi kardinal məsələni yoluna qoymasaydı, axırı pis qurtaracaqdı, bununla belə, o, əvvəlcədən nəzərdə tutulduğu kimi, ser Antoninin onunla birlikdə Romaya getməsinə icazə vermək üçün elçimizi dilə tutmağa müvəffəq olmadı. Elçinin ser Antoniylə davasının səbəbi artıq deyildiyi kimi, sonradan Romaya çatdırmaq üçün ingilis kapitanına saxlanc kimi verilmiş (Arxangelskdə) otuz iki sandıq bəxşişiydi. Elçi ser Antonidən Müqəddəs ataya layiqli bəxşiş verməkdən ötrü həmin sandıqları tamam-kamal çatdırılmasını tələb eləyirdi. İndi aydın olurdu, bütün bu məsələ fırıldaqdan özgə bir şey deyilmiş, ona görə ki, bircə sandıq belə, heç vaxt Romaya çatdırılmamışdı; ser Antoni Baltik dəryası, Quzey dəryalarıyla səfərimiz zamanı həmin sandıqların içindəkiləri ingilis ticarət gəmisinin gəmiçibaşına satmışdı. Məsələ doğrudan da, elə bu cür olmuşdu, ona görə ki, bizə ipək, qumaş parçalarımızı ingilis tacirlərinin Moskvada açıq-aşkar satdıqlarını xəbər verdilər.*

*Amma aramızdakı dava-dalaş kordinalın iltifatlı məsləhətləriylə yatırıldı, biz Romaya doğru yola düşdük, şəhərdən beş ağac məsafədə qarşımıza Roma zadəganının müşayiətilə Papanın qardaşı oğlu çıxdı. Şərəfimizə çoxlu ekipajlar göndərilmişdi, ancaq Romaya atların belində varid olduq. Hər iki tərəfimizdə də at üstündə olan iki romalı gedirdi, eyni zamanda müqəddəs atanın qardaşı oğlunun yanıyla elçimiz, o biri tərəfiyləsə nüfuzlu zadəgan atını sürürdü. Bununla bağlı darvazadan o yandakı yerlər ekipajlarla doluydu, mən onların sayının mindən artıq olduğunu saydım, dörd mindən artıq adam da atların, qatırların belindəydi, bizi piyada qarşılayanlarınsa sayı-hesabı yoxudu. Biz şəhərə girəndə Müqəddəs Ancelo qalasından, digər qüllələrdən şərəfimizə yaylım atəşi açıldı, eyni zamanda Papa tüfəngçiləri də gəlişimiz şərəfinə yaylım atəşi açdılar. Şəhərdə onlar bizi Vatikan sarayından, Papanın iqamətgahından bir az aralıda yerləşən evə, yaxud saraya apardılar, Müqəddəs atanın hər birimizə diqqətlə yanaşan eşikağası da ora gəlib çıxdı. Sonra o, yanımızda qaldı, lap çıxıb gedənəcən bütün istəklərimizi yerinə yetirib, rahatlığımızı təmin elədi. Ardınca Romada üç gün dincəlib Müqəddəs atadan dəvət aldıq. Onda təzədən elçimizin ovqatı ser Antoninin işləklərindən korlandı, ona görə ki, təyin olunan gün Müqəddəs atanın kandarını öpmək üçün ser Antoninin dələduzluqla məhrum elədiyi lazımi bəxşişsiz gəlməsinin ondan ötrü necə utandırıcı olmasını xəbər vermək məcburiyyətində qaldı. Papa cavab göndərdi ki, bəxşişlər məsələsi o qədər də əhəmiyyət kəsb eləmir, o bu məsələylə bir qədər sonra məşğul olacaq, pisliyin aradan qaldırılması üçün tədbir görəcək.*

*Elçimiz özünü ona təqdim eləmək qərarına gəldi, zadəganların müşayiətilə Vatikan Sarayına yollandıq; kardinallar bizi qarşılamağa çıxıb zala apardılar, burda Müqəddəs atanı taxtda oturan*

*gördük. Onun ayaqları altında, taxtın üzbəüzündə xalça salınıb üstünə yastıqlar qoyulmuşdu, elçimiz əvvəlcə Papanın ayağından öpüb həmin yastıqların birinin üstündə oturdu. Sonra Müqəddəs ata bizə xeyir-dua verib dedi: «Qoy İlahi sizi xristian eləsin», ardınca elçimiz lazımi hörmətlə Səfəvi şahının naməsini ona verdi. Papa dilmancın köməyilə elçimizlə söhbət eləməyə başladı, elçimiz başqa işlərlə yanaşı, onu bəxşişlər məsələsində ser Antoninin dələduzluğu, fırıldaqlığıyla tanış elədi. Bunun cavabında Müqəddəs ata dedi: «Mən yanıma gələnləri, üstəlik də, Səfəvi şahının yanıma göndərdiyi adamları cəzalandırmıram. Qoy onu İspan kralının hüzuruna aparsınlar, qoy günahkarı İspan kralı cəzalandırsın». Bundan az sonra elçimiz getməyə icazə istədi, Müqəddəs ata da ayağa durdu, bizə yenə xeyir-dua verib çıxdı. Bunun ardınca Müqəddəs ata hər gün bizim hal-kefimizi soruşurdu, sonrasa Romaya baxmağı təklif elədi. Kardinallar, şahzadələr hər gün elçimizə baş çəkirdilər, hamımız nəhəng kilsələrə, müqəddəs yerlərə baxmaq üçün çıxırdıq; Tibrin sahillərində cürbəcür xiyabanlara, meyvə bağlarına getdik...)*

...Görünür, ser Antoni elçimizin qəzəbindən sonra onu hədələyən təhlükənin gün-gündən artdığını duyurdu, bu səbəbdən, narahatlığını kardinal Frankelliyə demişdi. Kardinal Hüseynəli bəylə görüşəndə Müqəddəs atanın sözlərini bir daha xatırladıb, İspaniya kralının hüzuruna çatanacan ser Antoniyə toxunmamağı tövsiyə eləmişdi. Bu cür vəziyyət elçimizin xoşuna gəlmirdi, mənisə lap təbdən çıxarmışdı, qılıncımı sıyırıb fırıldaqçının hücrəsinə soxulmaqdan, onu şaqqalamaqdan, ya da iyrənc bir cəmdək kimi, pəncərədən eşiyə atmaqdan özümü güclə saxlayırdım. Şübhəsiz, ser Antoni kardinala mənimlə arasında olan münaqişəni danışmışdı, iki gün sonra yanında dilmancı

mənim hücrəmə də gəldi, müqəddəs atanın tövsiyəsini xatırlatdı.

– Müqəddəs ata, – kardinala fikirləşdiklərimi deməkdən özümü saxlaya bilmədim, – əgər böyük məmləkətin, şöhrətli xanədanın, Əlahəzrət Şahımızın nüfuzu bir fırıldaqçının əlində oyuncaq olursa, buna necə dözəsən?

– Başa düşürəm, mənim balam, – kardinal mehriban-mehriban gülümsəyib, qəzəbimi yatırtmağa çalışdı, – amma Müqəddəs ata onun himayəsinə sığınmış adama dünyəvi günahlara görə cəza verməyi məqbul saymır. Yəqin, İspan kralı Əlahəzrət Filipp ser Antoninin günahlarından xəbər tutanda layiq olduğu cəzanı verəcək. Müqəddəs ata Vatikan torpağında bir möminin belə, əzab çəkməsinə razı olmaz...

– Bəs, bir fırıldaqçının ucbatından mömin müsəlmanların əzab çəkməsinə necə? – kardinallın gözlərinin içinə baxıb soruşdum.

– Mənim balam, sənə Müqəddəs atanın tövsiyəsini çatdırdım, – kardinal cavabdan yayındı. – Burda qaldığınız müddətdə hörmətli qonağımızsınız, başqa nə sorğunuz var, əməl eləməyə borcluyuq...

Şübhəsiz, biz də Müqəddəs atanın tövsiyəsinə əməl eləməyə borcluyduq, Papanın iradəsinin ziddinə getmək elçiliyimizə də, xanədanımıza da başucalılıq gətirməzdi. Bu səbəbdən, qəzəbimi içimdə boğmalı oldum, amma o gündən rahatlıq tapmadım. Elə bil, içimdə qəfil boşluq açılmışdı, bu səfərlə bağlı ümidlərim həmin boşluğa axıb yox olurdu.

Səhəri gün fransiskan rahibin qaçıb Papanın himayəsinə sığınması xəbərini eşitdik. Kərim Toxmağın dediyinə görə, rahib kardinal Frankelliyə dominikan rahibin ba-

şına gələnləri danışıb, az qala iki ildən bəri təhdid altında olduğunu demişdi, kardinal da onu Papanın hüzuruna aparıb, Vatikan sarayına yerləşdirmişdi. Elə bilirdim, bütün bunlardan sonra Müqəddəs ata ser Antoniyə qarşı münasibətimizin şəxsi ədavət olmadığına inanıb tədbir görər. Amma görünür, o, doğrudan da, günahkarı cəzalandırmaq fikrindən uzağıydı. Əlacsızlıq girdabında boğula-boğula Romadan yola düşəcəyimiz vaxtı – qisas məqamının yetişməsini gözlədim...

## 5.

...Günlər keçirdi, yola düşməyimiz barədə söz-söhbət eşitmirdik. Əliqulu bəylə kardinalın dilmancını yanımıza alıb, şəhərin məhəllələrini, küçələrini gəzir, əzəmətli saraylarına, cənnətmisal guşələrinə baş çəkirdik. Oğlum Sultanəlidən, gözəl Nisəxanımdan, Mirzə Qədimdən, Ümleyla xaladan, qardaşlarımdan ötrü burnumun ucu göynəyirdi, az qalırdım, gecələrin birində qaçıb Hörmüzə gedən gəmilərin birinə minəm, ordan da özümü Təbrizə yetirəm, amma qabağımı Şahımızın qəzəbi kəsirdi.

İlk dəfə ser Antonini görəndə duyduğum xoşagəlməz hiss fransiskan rahibin başına gətirdiyindən sonra nifrətə çevrilmişdi, Şahımızın Günbatan hökmdarlarına göndərdiyi bəxşişləri satıb-sovduğunu yəqin eləyəndəsə qarşısıalınmaz qəzəb hissisə duyğularıma hakim kəsilmişdi. İndi onun əməlinin müqabilində Həsənəli bəyin hərəkəti mənə mənasız görünürdü. Həsənəli bəy Xoca Səfərin fitvasıyla sonu bəlli olmayan bir işə qol qoymuşdusa, ser Antoni cəmi Günbatan hökmdarlarının hüzurunda bizi gözükölgəli eləməmişdi, bunu sinirmək üçün gərək daşa dönəydim.

Kardinal Müqəddəs atanın tövsiyəsini çatdırandan sonra elçimiz Hüseynəli bəyin də, bizim də əl-qolumuz bağlanmışdı, qəzəbimizi içimizdə boğa-boğa Romadan yola düşməyimizi, İspan kralının hüzuruna çatmağımızı gözləyirdik. Kardinal ingilis heyətini hər ehtimala qarşı ayrı binada yerləşdirmişdi, ser Antonini demək olar, görmürdük, bu da məni çox narahat eləyirdi: yəqin, ingilis məsələnin sakitcə başa çatmayacağını bilirdi, bununla

bağlı hansısa tədbirləri varıdı. Bəs, günlərin birində səssiz-soraqsız itməsinin qabağını necə ala bilərdik?

Ağlıma yenə dilmanc Kərim Toxmaq gəldi – onun ingilis dilmancla ünsiyyət saxlaması şübhəyə səbəb olmazdı, bu yolla ser Antoninin hərəkətlərindən xəbər tutmağa imkan yaranardı. Fikrimi Əliqulu bəylə Yadigar bəy Məhəmmədə dedim, bəyəndilər, sonra da fürsət tapıb Kərim Toxmaqla söhbət elədik. Kərim naümid görünsə də, cəhd eləyəcəyini dedi, onun fikrincə, axır vaxtlar ser Antoni hamıdan, hətta dilmanclarından belə, şübhələnirdi.

Elə həmin günlərdə sinyora Romananı gördüm: bir axşam yaşadığımız evin qarşısından keçən küçədə gəzişirdim, niyyətim bir qədər tək qalmaq, fikrimi dağıtmağıydı. Bir də onda ayıldım, üzbəüz gələn cavan bir xanım ayaq saxlayıb heyranlıqla boy-buxunuma, geyimimə baxır. Bircə anlığa gözlərimiz toqquşdu, bir-birini su kimi içdi, bir-birinin sözsüz söylədiklərini anladı. Qadın gülümsəyib, aradabir arxaya baxa-baxa getdi, elə bil, qəlbimi də özüylə apardı.

Nədənsə səhəri gün eyni vaxtda yenə həmin xanıma həmin yerdə rast gəldim, yenə baxışdıq, yenə gülümsəyib getdi. O vaxtdan elə bil, görüşməyi sözləşmişdik: hər axşamüstü tək-tənha küçəylə gedirdim, bilirdim, rastıma çıxacaq, bu səbəbdən, özümdə çəlpəşik duyğular hiss eləyirdim. Əlbəttə, dönüb arxasınca getmək, harda yaşadığını öyrənmək, qonaq getməyin məqbul olub-olmadığını bilmək istəyirdim.

Axır bir gün öz-özümə «nə olur olsun» deyib fikirləşdiyimi elədim. Qadın qapılardan birinin arxasında gözdən itdi, azacıq sonra qapının arasından onun üzünü, «gəl-gəl» deyən gözlərini görürdüm. O gözlərdə elə qarşısıalınmaz istək varıdı, qabağımı ölüm də kəsə bilməzdi...

...Sinyora Romanoyla altı kərə görüşdük, uzun yolların yorğunluğunu, içimin təlatümlərini ötəri də olsa, unutdurduğuna görə, ona hədsiz minnətdarıydım. Ancaq uzaq bir məmləkətdən gəldiyimi bilirdi, aramızdakı dil uçurumunu keçməyə, qəlbimizdən keçənləri danışmağa amanımız olmadı. Görünür, buna heç ehtiyacımız da yoxudu: günlərin birində çıxıb gedəcəkdim, gözəl Romana da bu şəhərdə öz taleyini yaşayacaqdı...

Kərim Toxmaq həftədə iki kərə ingilisin heyətindən xəbər gətirirdi. O xəbərlərdən belə çıxırdı, ser Antoni bizimlə İspan kralının hüzuruna getmək niyyətindədi. Mən də bir qədər rahatlanıb yola çıxmağımızı gözləyirdim...

*(...Beləliklə, Romada iki ay qaldıq. Müqəddəs ata elçimizə qızıl zəncirlə 2000 tümən göndərdi, bizə, səfarətin mirzələrindən hər birinəsə Papa zəncirlə öz rəsmini bağışladı. İspan məmləkətinə yola düşmək üçün icazə istəyib, Müqəddəs atayla vidalaşdıq. Papa iltifatla bizə xeyir-dua verdi, Barselonanın Fransisko Quaske adlı kanonikinə (xristian əlfəqihinə) bizi İspan torpağınacan ötürmək tapşırığı verdi, onu yol məsrəfləri üçün lazımi məbləğdə pulla təmin elədi. Elə bu vaxt, artıq Romanı tərk eləməyə hazırlaşanda, birlikdə getmək məqsədilə ser Antonini axtarmağa başladıq, amma onu tapmadıq; o biri ingilislər də tapılmadı, onların hara çıxıb getdiklərini kimsə bilmirdi. Beləliklə, Romadan ingilislər olmadan çıxıb getdik, yolda da üç heyət üzvümüzün qalmasından da xəbər tutduq. Biz onları tapmaq üçün geri qayıtdıq, öyrəndik, İlahi artıq öz iltifatını göstərib. Heyətimizin həmin üç üzvünü müqəddəs atanın Romadakı sarayında tapdıq, onlar xristianlığı qəbul eləməyə hazırlaşırdılar. Elçimiz çox narahat olmuşdu, Papayla görüşməyə müvəffəq oldu; Müqəddəs ata ona*

*cavab verdi ki, İlahinin qanunu rəhmlidi, onların heç biri zorla dinindən döndərilməyib, hər kəs istədiyi addımı ata bilər, o, Papa hər şeyi Allahın iradəsilə yerinə yetirib. Bundan sonra elçimiz dönüklərin hər biriylə təkbətək söhbət elədi, xristian olmaq niyyətlərinin sarsılmazlığını görüb, onları rahat buraxdı...)*

İndiyəcən dönük çıxan o şəxslərin ikisinin – elçimizin şəxsi mirzəsiylə dəlləyi barədə söz açmamışam. Bəlkə ona görə ki, ikisi də guşənişin, sakit, kimsəylə yaxın ünsiyyət saxlamayandılar. Hərdən onları Bünyad bəyin yanında görürdüm, nə barədəsə söhbət eləyir, bu söhbətin başqalarına ayan olmamasına çalışırdılar. Düzü, bu iki nəfərdən şübhələnmək heç ağlıma da gəlməmişdi, hətta gizlinlərdən tez xəbər tutan Əliqulu bəy belə, mirzəylə dəllək barədə bir söz deməmişdi.

Mirzə Sədrəddini Qəzvindən tanıyırdım, burda doğulmuşdu, mədrəsəni bitirib şəhər hakiminin yanında qulluq eləmişdi, sonra İskəndər bəy Münşi onun gözəl xəttini, qabiliyyətini görüb, Etimad-üd-dövlə Hatəm bəy Ordubadinin xidmətinə tövsiyə eləmişdi. Otuz iki yaşlı qaradinməz şəxs olan Mirzə Sədrəddinlə hərdən dövlətxanada rastlaşırdıq, salam-kalamdan, xırda-para söhbətlərimizdən başqa aramızda elə bir münasibət olmamışdı. Hətta elçimizin şəxsi mirzəsi sifətində heyətimizə salınmasından xəbər tutanda heç təəccüblənib-eləmədim.

Dəllək Xudakərim xasiyyətcə Mirzə Sədrəddinə oxşasa da, bir qədər yaşlıydı. Eşitdiyimə görə, anası fars qızıydı, amma onu görməzliyə vurmağımın səbəbi tamam ayrıydı: hər dəfə rastlaşanda istər-istəməz yadıma Şahzadə Həmzə Mirzəni qətlə yetirən xoylu dəllək Xudaverdi düşürdü, dəlləklərin dünyada ən təhlükəli, ən sirli adamlar oldu-

ğunu fikirləşirdim. Səfərə çıxdığımız müddətdə bir dəfə də olsun, onun ülgücünün altında oturmamışdım. Vaxtı gələndə səriştəsi olan, inandığım xidmətçibaşı Murtuzəlini çağırır, saç-saqqalıma əlac qılmağı ona tapşırırdım.

Süfrəçibaşı Heydərəli əksinə, ortaboylu, qırmızı yanaqlı, ünsiyyətcil kişiydi. Ustaclı tayfasından olduğunu, Səlmasda doğulub-böyüdüyünü bilirdim. Rastlaşanda şirin-şirin hal-əhval tutur, mütləq söhbətin axırını yemək-içməklə qurtarırdı. Həmişə çənəsinin tərpəndiyini, cəhənglərinin nəyisə əzişdirdiyini görmüşdüm, mənə elə gəlirdi, ağzı gecə yatağında da boş qalmır.

Bu üç şəxsin qəfildən dinimizə dönük çıxdıqlarını eşidəndə çaşqın hala düşdüm: heç ağlıma gəlməzdi, məmləkətimizin, xanədanımızın, Şahımızın şərəfinə xələl gətirən, uca dinimizə zidd olan bir iş tutsunlar. Düzdü, Qurani-Kərim qeyri dinlərə etiqad bəsləyənlərə hörmətlə yanaşmağı, dözümlü olmağı təlqin eləyirdi, amma ciddi səbəb göstərmədən öz dinindən dönməyi ağıl əlaməti saymırdım.

Hər üçünü Hüseynəli bəy danışdırmışdı, heç Əlfəqih Əmirin orda olmasını da məqbul saymamışdı. Hüseynəli bəy də, görünür, eşitdiklərinin heç yüzdə birini üzə vurmamışdı. Təkcə onu dedi, guya onların xristianlığa üz tutması İlahinin iradəsindən asılıdı, müsəlman kimi, Allaha könüllərinin istədiyi qədər ibadət eləyə bilmirlərmiş. Əlbəttə, bu uşaq başı aldatmaq üçün uydurulan bəhanəydi, əsl səbəb Günbatan məmləkətlərinin böyüklüyünü, əzəmətini, adamların sərbəst həyatını görüb, dərk eləmələri, şəriət qayda-qanunlarının təhdidi altında yaşamaq istəmədikləriydi. Amma doğma məmləkətdən, ocaqdan, adamlardan uzaqlarda necə ömür sürəcəkdilər?!

Şübhəsiz, bu xoşagəlməz əhvalatdan sonra ən çox sarsılanlar Hüseynəli bəylə Əlfəqih Əmiriydi; Əlfəqih çoxdan bizə şübhəylə baxmağa başlamışdı, bundan sonrasa hər birimizi gavur gözündə görürdü. Üz-üzə gələndə xırda, dibində cin oynaşan gözlərini üzümə dikir, elə bil, dönüklərin hərəkətini təqdir eləyib-eləmədiyimi unamağa çalışırdı. Onun bu şübhəsi məni haldan çıxarırdı, amma özümü o yerə qoymur, Əlfəqihin əlinə dəstəvuz verməməyə çalışırdım. Əliqulu bəysə qəzəbini gizlədə bilmirdi, mən olmasaydım, yəqin, Əmirlə cəngi-cidala çıxacaqdı.

Biz Romadan yola düşən gün İsfahandan səfərə çıxdığımızın bir il on bir ayı tamam olacaqdı. Yolçuluğumuzun ikinci ilini İspan kralının torpağında qarşılayacaqdıq. Burdan o tərəfə heyətimiz döyüşdən sınıq çıxmış qoşunu xatırladırdı: Vatikan sarayına sığınan fransiskan rahibin, başımıza oyun açan ingilis qəfiləsinin, dönük çıxan üç heyət üzvümzün ayrılmasından sonra səfərimizin uğurla başa çatacağına, Şahımızın hüzuruna, doğmalarımızın yanına başımızı dik tutub qayıdacağımıza inana bilmirdim. Üstəlik, Əlfəqih Əmirin namaz qılıb, oruc tutmamağımız, bu da azmış kimi, şərab içəməyimiz barədə Şahımıza çatdıracağı xəbər yəqin, cəzasız ötüşməyəcəkdi...

## 6.

Ser Antoninin bizi bir daha aldatması heysiyyətimə toxundu. Bundansa ölüm yaxşı olardı, başımıza açılan qəziyyəni görməzdim. Əliqulu bəylə Yadigar bəy Məhəmməd də mənim günümdəydilər, qəzəbdən zəncir çeynəyirdilər. Romadan iki ağac aralanmışdıq, yolda dincəlib, nahar eləməyə dayananda Əliqulu bəylə elçimizin hüzuruna getdik, dedik, Papayla danışıb bizim ingilisləri axtarmağımıza rüsxət versin: bundan ötrü qulamlarımızdan bir neçəsini, dilmancı, bir neçə Roma atlısını özümüzlə götürmək bəs eləyərdi. Məmləkətin bütün liman şəhərlərini gəzərdik, çox güman, ser Antoniylə dəstəsi İngiltərəyə gedən gəmilərə minməyə can atacaqdı.

Amma Hüseynəli bəy baş verənlərdən elə sarsılmışdı, bu barədə fikirləşmək belə istməmədi. Dediyinə görə, indi onu bəxşişləri yox, adamları xilas eləmək düşündürür, çünki Qibleyi-aləm etibar eləyib, şərəfləndirdiyi şəxslərin dönüklüyünü bağışlamayacaq, dar ağacına çəkdirməsə də, zindana atdıracaq, ya da gözdən salacaq – bu da ölümdən betərdi.

– Bütün ömrümü ləyaqətlə yaşamışam, – Hüseynəli bəy Bayat nəzərlərini yerdən ayırmadan sınıq səslə danışırdı. – İndi yaşımın bu vaxtında yüngülsaqqal olmağım mənə çox ağır gəlir. İllərlə tanıdığın, yön çevirdiyin, etimad göstərdiyin şəxslər qəfildən təkcə sənə yox, Şahına, xanədanına, məmləkətinə də dönük çıxır. İndi kimə inanasan?

– Könülə hökm eləmək olmaz, ağam, – Əliqulu bəy bu sözləri əmisinə ürək-dirək vermək məqsədilə dedi, – özgələrin qəlbinə vaqif olmaq çətindi...

– Yoxsa sənin də könlündən gavur olub, bu yad məmləkətdə qalmaq keçir? – Hüseynəli bəy nəzərlərini ağır-ağır yerdən üzüb qardaşı oğluna zillədi, səsində töhmətdən çox, imdad duyuldu.

– Hələ ki, əlhəmdülillah, müsəlmanam, – Əliqulu bəy deyəsən, sərt cavabdan özünü güclə saxlayırdı. – Sabah başımıza nə gələcəyinisə, bilmək olmaz...

Elçi bu sözlərdən elə bil balacalaşdı, büzüşdü, dolaşıq düşən hisslərindən yaxa qurtarmaq üçün ayağa durub arxasını bizə çevirdi...

Əlbəttə, Əliqulu bəyin bu cür cavabını heç illərdən bəri könül dostu olan şəxs kimi mən də gözləmirdim. Elçinin yanından aralananda baxdım, özü də çaşqındı: o sözlər qəfildən, düşünüb-daşınmadan dilinə gəlmişdi, yoxsa nə vaxtdan bəri könlündən keçirdiklərini özü də bilmədən dilinə büruzə vermişdi – bundan baş açmadım. Heç soruşmaq fikrinə də düşmədim, könül məsələsinə qarışmaq istəmirdim, lazım bilsəydi, Əliqulu bəy düşüncəsində gəzdirdiklərini mənə açardı.

O günün axşamı Hüseynəli bəy qəzəbinin get-gedə artdığının əlaməti olan bir buyruq verdi: Yadigar bəy Məhəmmədi yanına çağırıb Həsənəli bəyin gözaltından buraxılmasını tapşırdı. Dediyinə görə, əgər Romada onu gözləyəcək bir şəxs olmamışdısa, deməli, bundan sonra səfarətimiz üçün təhlükə törətmirdi. Mən də, Əliqulu bəy də elçinin əmrindən narazı qaldıq, amma ağzımızı açıb bircə kəlmə söz deməyimiz Hüseynəli bəylə aramızdakı

uçurumu daha da dərinləşdirərdi. Elçimiz demişdi, dininə dönük çıxan müsəlmandan, müsəlmanlığı qəbul eləmiş gavur yaxşıdı, qaldı namə məsələsi, yəqin, buyruq yerinə yetirməyə məcbur olub...

Genuya şəhərinə yaxınlaşanda ağlımdan yenə qaçmaq, heyətin yola düşməsini gözləyib, İstanbula, ya da Hörmüzə gedən gəmilərdən birinə minmək keçdi. Bu istək o qədər güclüydü, artıq bu cür addım atacağımı da qət eləmişdim. İki il sürən səfərimizin uğurla başa çatacağına qəlbimdə şübhə baş qaldırmışdı. Amma şəhərə girəndə başa düşdüm, bu fikrimdən əl çəkəcəyəm, çünki səfarətdə ikinci şəxs məqamında olduğumdan, hərəkətim Şahımızın daha artıq qəzəbinə səbəb olardı, üstəlik, Bayat tayfasının, nəslimin, ailəmin, Şahımızın, xanədanımızın, axırda məmləkətimizin şərəfinə xələl gətirə bilməzdim...

*(...Romadan çıxandan on beş gün sonra Genuyaya çatdıq, orda bir həftə qaldıq. Knyaz bizə çox gözəl ziyafət verdi; sonra heyətimizi Genuyanın bir çox nüfuzlu zatı qonaq çağırdı. Genuyadan yola düşməkdən ötrü iki avarlı gəmi kirayələdik, gəmilərə minib, iki gündən sonra Savona şəhərinə çatdıq. Burda quruya çıxdıq, səfərimizi Fransadan keçməklə at belində davam etdirdik. Əvvəlcə Avinyona, Papa nümayəndəliyi müşavirinin iqamətgahına getdik, o bizi qəbul eləyib, qonağı olduğumuz iki gün ərzində qonaqpərvərlik göstərdi. Sonra atlarımızı, yük heyvanlarımızı dəyişib, Nimin yanından keçdik, Monpelyeye gəldik. Burdan Narbona getdik, Salsdan keçib, Perpiniana yetişdik, burda Hakimlə Baş Sərkərdə bizi*

*lap Böyük Şahzadənin qəbul elədiyi kimi qarşıladılar. Burdakı quldurların üzündən Perpiniandan otuz əsgərin müşayiətilə çıxdıq, Pireney dağlarının çətin, təhlükəli keçidlərindən keçəndən sonra bizi sağ-salamat Barselonaya çatdırdılar. Barselonadan iki ağac məsafədə hersoq Feria qabağımıza atlarla ekipajlar göndərdi; bir çox katalon zadəganları da bizi salamlamağa gəldilər. Beləliklə, böyük şəhərə varid olduq. Hersoq on gün ərzində xərclərimizi üstünə götürdü, hər cür diqqət göstərib bizə qonaqpərvərliklə yanaşdı.*

*Sonra bizə atlar, yük heyvanları verdilər, Saraqosaya gəldik, burda hersoq Alubukerke, yerli vitse-kral yaxınlaşdığımızdan xəbər tutub, bizi hörmət-izzətlə şəhərə gətirməkdən ötrü altı ekipajla atlar göndərdi. Saraqosanın bir çox əsilnəcabətli adamları bizi qarşılamaqdan ötrü şəhər darvazalarına çıxdılar, çoxlu sayda adamların əhatəsində şəhərə varid olduq.*

*Saraqosada Böyük Şahzadə sayılan vitse-kralın qonağı kimi, üç gün qaldıq; o bizə şəhərin bütün görməli yerlərini, xüsusilə sütunlarla bəzədilmiş Müqəddəs Məryəm kafedral kilsəsini göstərməyi tapşırdı. Barselonada müqəddəs Mansarraya getməyimiz bizdə ilahi sevinc oyatmışdı, elə bil, ruhumuzu saflaşdırmışdı.*

*Burdan paytaxt Valyadolidə doğru yollandıq, Olivares adlanan yerə gəldik, burda dayanmağı qərara aldıq, bizim gəlməyimizi Əlahəzrət Krala xəbər vermək üçün dilmancımızı Valyadolidə göndərdik. Tezliklə göstəriş aldıq, bu göstərişə görə bir həftə Duero çayı üzərindəki Tudeldə ləngiməliydik...)*

...İspan krallığına varid olduğumuz ilk gündən bu məmləkətin nə qədər böyük, əzəmətli, zəngin olduğunu dərk eləmişdim. Bəlkə elə bu səbəbdən xristian Əlfəqih Françesko Quaskedən mənə ispan dilini öyrətməyi xahiş elədim. Hər fürsət düşəndə o, dilmancın köməyilə hərfləri, rəqəmləri yazdırır, sadə sözləri öyrədir, əşyaları göstərib adını deyirdi. Üstəlik, Barselonanı, sonra Saraqosanı gördüyüm ilk anlarda heyranlıq duyğusu vücuduma hakim kəsilmişdi. Hersoq, vitse-kral, şəhər hakimləri bizi elə hörmət-izzətlə, elə təntənəylə qarşıladılar, özümüzü doğrudan da, qüdrətli bir məmləkətdən gəlmiş elçilər kimi hiss elədik. Gördüyümüz binalar, saraylar, kilsələr, qəsrlər, körpülər... Əlahəzrət İspan kralının hüdudsuz hökm sahibi olduğundan xəbər verirdi.

Roma yaxınlığındakı son görüşümüzdən sonra Hüseynəli bəylə üzbəüz oturub, kəlmə kəsməmişdik. Rastlaşanda salamımıza başının vüqarlı hərəkətiylə cavab verir, bizə etimadının olmadığını açıq-aşkar bildirirdi. Əliqulu bəy əmisinin bu cür münasibətlərindən hədsiz əzab çəkirdi, bilmirəm, öz əməlindən peşman olmuşdu, yoxsa Hüseynəli bəyin ona şübhəylə yanaşdığına görə incimişdi, hər halda, biz Saraqosadan Valyadolidə doğru yola çıxanda ovqatı qarışığıydı. Elçi Genuyadan bəri sərəncamlarını Yadigar bəy Məhəmmədin vasitəsilə verirdi, görünür, bu yolla səfarətin ipini əlində saxlamağa can atırdı. İndi mirzəlik tapşırığı olanda Həsənəli bəyi çağırtdırır, beləcə bizi gözdən saldığını büruzə verirdi. Bütün bunları görüb-duysaq da, dözməkdən, boyun əyməkdən başqa əlacımız yoxudu.

Onsuz da az danışan Bünyad bəy Romadan çıxandan lap guşənişin olmuşdu, kölgə kimi gəzir, yeyir, atın belində, ekipajda gedəndə gözə dəyməməyə çalışırdı. Yadigar bəy Məhəmmədin dediyinə görə, Hüseynəli bəy dönüklərlə söhbət eləyəndən sonra Əlfəqih Əmirlə birgə Bünyad bəyi məşhər ayağına çəkmiş, baş verən məsələdə daha çox onu günahlandırmışdı. Elçiylə Əlfəqih Bünyad bəyin dönükləri təhrik eləməyindən, beyinlərini doldurub, yoldan azdırmağından şübhələnmişdilər, görünür, bu da Əlfəqih Əmirin fikriydi.

Məni ən çox qorxudan Əliqulu bəyin halıydı: gözümün qabağındaca tamam ayrı adama çevrilirdi. Neçə illərdən bəri tanıdığım, ömrümün yaxşı-pis günlərini yanında keçirdiyim, həmişə comərdliyinə, dözümünə, igidliyinə güvəndiyim, könül sirdaşı bildiyim şəxsin get-gedə uzaqlaşmağı, yadlaşmağı ürəyimi ağrıdırdı. Əvvəllər söz-söhbətimiz qurtarmırdı, indi kəlmə kəsməyə belə söz tapmırdıq. Şübhəsiz, könlündə baş verənləri özündən yaxşı bilən olmazdı, amma nəsə soruşub-öyrənmək cəhdimin bu yadlığı daha da artıracağından qorxurdum.

Bilmirəm, Əlfəqih Əmir elçiylə o naqolay söhbətdən xəbər tutmuşdumu, nədi, Genuyada gəmiyə minəndən bəri Əliqulu bəyə salam vermirdi, mənimlə də elə candərdi salamlaşırdı, görən aramızda dava-dalaş olduğunu zənn eləyərdi. Əlbəttə, Valyadoliddə – İspan kralının hüzuruna bu halətdə getməyimiz heç könlümcə deyildi. Gecə-gündüz səfərin tezliklə bitməsini, məmləkətimizə qayıtmağımızı arzulayırdım. Sonrası nə olacaqdı – bunu

Allahdan başqa bilən olmazdı. Bəlkə Şahımız ser Antoninin bu fırıldağının əsas səbəbkarı olan Xoca Səfəri zindana saldıracaq, yaxud boynunu vurduracaqdı. Bəlkə də Qibleyi-aləmin qəzəbinə tuş gəlib, həyatımızı edamla başa vuracaq, ya da gözdən salınıb rüsvay olacaqdıq. Hələ bunu bilmirdim, ancaq bir həqiqəti anlayırdım: alın yazısından qaçmaq faydasız işdi...

# YEDDİNCİ FƏSİL

*İspan krallığında*
*1601-ci ilin yayı*

**Valyadolidə varid olmağımız, Əlahəzrət Kralın əlini öpməyimiz (Hörmüzə yola çıxmaq üçün Lisbon limanına getməyimiz, Əlfəqih Əmirin öldürülməsi, Əliqulu bəyin xristianlığı qəbul eləməsi, mənim də dinimdən dönmək üçün təhrik olunmağım) haqqında**

# 1.

... Tudelə çatanda kefimin ən qarışıq vaxtıydı: bir tərəfdən mənzilbaşına yetməyimizə, İspan kralıyla görüşüb, Şahımızın naməsini ona yetirəndən sonra məmləkətimizə qayıdacağıma, ailəmə, doğmalarıma qovuşacağıma, Təbrizi görəcəyimə sevinirdim, o biri tərəfdən də səfarətimizin başına gələnlər, könül sirdaşım Əliqulu bəylə aramızda yaranan soyuqluq qəlbimi ağrıdırdı. Əlbəttə, Əliqulu bəyin get-gedə qaradinməz, adamyovuşmaz olması bütün tabıtavanımı əlimdən alırdı, ta yeniyetməliyimdən bəri həmişə yanımda olan dərdini-sərini gizlətməyən, köməyini əsirgəməyən qardaş gözündə gördüyüm bir şəxsin qəfildən dəyişməsi məni dərindən yaralayırdı. Bu dəyişikliyin səbəbi dövlətxanamızda baş verənlərdimi, səfarətimizin taleyinin ser Antoniyə tapşırılması, axırda fırıldağının qurbanı olmasıydımı, əmisinin şübhəli münasibətiydimi, yoxsa gördüyü məmləkətlərin əzəməti, qüdrəti qarşısında duyduğu sarsıntılarıydımı, bilmirəm, amma artıq onun geri qayıtmağa o qədər də həvəsli olmadığını duyurdum. Bəlkə elçinin indi bütün mirzələrin içində Həsənəli bəyə bel bağlaması şəninə toxunmuşdu? Bəlkə Hüseynəli bəyin şəxsi mirzəsinin, dəlləyinin, süfrəçibaşının öz dininə dönük çıxması onun ruhunda təlatümlər yaratmışdı? Bütün bunları özündən soruşmaq istəmirdim, bilmək istədiklərimə doğru-dürüst cavab verəcəyinə inanmırdım.

Elə çatdığımız günün səhəri şəhər hakimi pişvazımıza çıxdı, bizi çox rahat binaların birində yerləşdirəndən sonra şərəfimizə ziyafət verdi. Nədənsə o ziyafətdə Hüseynəli bəyi hədsiz düşüncəli gördüm, bilmədim, ha-

lımın qarışmasındanmı, yoxsa başqa səbəblərdənmi, şərab içmədim, üstəlik, süfrənin arxasından bir qədər tez qalxıb hücrəmə qayıtdım. Xeyli vaxtdan bəri nə şeir yazırdım, nə rəsm çəkirdim, gördüklərimi, eşidib-öyrəndiklərimi kağıza köçürəndən sonra ya kitab oxuyur, ya da təkbaşına gəzirdim. Bu dəfə də yazı-pozumu bitirib gəzməyə getmək istəyirdim, amma Hüseynəli bəyin xidmətçisi elçinin məni çağırdığını xəbər verəndə heyrətimdən quruyub qaldım.

Elçi öz hücrəsindəydi, yanında Əlfəqih Əmir oturmuşdu. Salamıma başlarını azacıq tərpətməklə cavab verdilər. Hüseynəli bəy heç oturmağa yer də göstərmədi, gözlərini yüsür təsbehindən ayırmadan:

– Oruc bəy, – dedi, – hazırlaş, səhər xristian əlfəqihlə Valyadolidə yola düşüb, gəlişimizi, Əlahəzrət Kralın hüzurunda olmaq xahişimi hersoq Lermaya, bir də Markiz Veladaya çatdıracaqsan.

– Baş üstə, Hüseynəli bəy, – dedim, – gedərəm.

– Gərək ləngiməyəsən, – elçinin səsində ürəkgöynədən üzgünlük varıdı, – cavabı alan kimi, geri qayıdarsan. Qalan məsələləri Yadigar bəy Məhəmməd yoluna qoyacaq.

Baş endirib, bağır basıb çıxdım. Deməli, hər halda, elçi mənim xidmətim olmadan keçinə bilməmişdi: əlbəttə, bu işi Əliqulu bəylə Bünyad bəyə tapşıra bilməzdi, heç birinə bel bağlamırdı; Həsənəli bəyin Valyadolidə göndərilməsi bağışlanmaz səhv olardı, hələ də onun nələrsə törətməyəcəyinə inana bilmirdi; Yadigar bəy Məhəmmədi yanından buraxmaq istəmirdi, indi bel bağladığı yeganə adamının heyətdən uzaq düşməsini ağlına da gətirməzdi. Deməli, çox düşünüb-daşınıb, mənim üstümdə dayanmışdı, ola bilsin, son kərə sınaqdan çıxarmağı qət eləmişdi...

Yadigar bəy Məhəmməd artıq məsələdən xəbərdarıydı, lazımi hazırlıqlarını görürdü. Mənimlə iki xidmətçi, yükçü, Şəmsəddin, bir də üç qulam gedəcəkdi...

*(... Romadan bizimlə birgə gəlmiş əlfəqihi götürüb Əlahəzrətin birinci naziri (vəziri) hersoq Lerma, bir də Böyük Qofmeyster məqamını tutan markiz Veladayla danışıq aparmaq üçün saraya yollandım. Mən Valyadolid şəhərinə varid olanda Səfəvi geyiminin qeyri-adiliyi elə heyrət doğururdu, böyük bir kütlə küçələr boyu arxamca düşüb gəlirdi. Nəhayət, kral sarayına yetişdim, orda bir neçə əyan məni hörmət-izzətlə qarşılayıb, markiz Veladanın hüzuruna ötürdü, ona özümü təqdim eləməyə cəsarət göstərdim, bunun səbəbini hörmətli elçinin məmləkəti-Səfəvidən gəlməsiylə bağlı tədbirlər görməyin gərəkliyini aydınlaşdırmaq istəməsiylə əsaslandırdım. Əlahəzrət Markiz bəri başdan mənə yer göstərməyi özünə borc bildi, böyük diqqətlə qulaq asdı, cavabında dedi, Əlahəzrət Kral artıq elçinin gəlməyindən xəbər tutub, indi Valyadoliddə onların qalacaqları bina qaydaya salınır (Sonra öyrəndim, Əlahəzrət Kral Üçüncü Filipp Şahımız dövlətxananı İsfahana köçürən il – hicri 1007-ci (miladi1598-ci) ildə, on iki yaşında taxta çıxıb, hersoq Lermanın qəyyumluğu altında olub, hersoq bir il əvvəl paytaxtın Madriddən Valyadolidə köçürülməsi üçün Kralı dilə tuta bilib). O, əlavə elədi, elçimiz iki-üç gün də Tudeldə gözləməli olacaq, sonra ona rəsmi surətdə Valyadolidə varid olmaq barədə xəbər veriləcək. Bu cavabı alandan, xoş qəbul barədə razılığmı bildirəndən sonra dərhal əlfəqihlə Tudelə yollandım...)*

...Düzü, Valyadoliddən çıxanda içimdə baş açmadığım təlatüm varıdı. Şəhərin gözəlliyini, Əlahəzrət Kralın

qüdrətini, xanədanın əzəmətini görəndən sonra bir daha böyük bir məmləkətdə olduğumuzu dərk eləmişdim. Markiz Veladanın eşikağasından dilmanc vasitəsilə bəzi şeylər öyrənmişdim. Əlahəzrət Kral İkinci Filipp öləndən sonra taxt-taca onun oğlu Üçüncü Filipp yiyələnmişdi. Hələ ən vacib məsələləri Germaniya imperatoru İkinci Rudolfun bacısı olan Kraliça Marqarita Avstriyalıyla sarayın birinci naziri hersoq Lerma yoluna qoyurdular, çox vaxt əcnəbi məmləkətlərdən gəlmiş elçiləri qəbul eləyəndə anasıyla hersoq Əlahəzrət Kralın yanında olur, dövlət işlərinə tam vaqif olanacan ondan məsləhətlərini əsirgəmirdilər. Eşikağası Əlahəzərət Kraliçanın cavan, gözəl, həm də nəcib olduğunu qürurla, amma bir az məhrəm tərzdə söyləmişdi.

Çox təəssüf, hələ Valyadolidə qalmaq, şəhərin görməli yerlərinə baxmaq, sərvətlərinə tamaşa eləməyə amanım yoxudu, elçimiz məndən cavab gözləyirdi, durub-dincəlmədən yol getdik, Tudelin bir ağaclığına çatanacan dayanmadıq. Axırda acdığımı görüb, dincəlməyi buyurdum, əlfəqih də fikrimlə razılaşdı. Həmin vaxt qulam Şəmsəddin cəsarətini toplayıb yaxınlaşdı. Onun dediyindən belə başa düşdüm, mənə Əliqulu bəylə bağlı hansısa sirr açmaq istəyir, amma yaxınlğımızı bildiyindən, qorxur acığım tutsun.

– Deməsəm də, böyük günah işlətmiş olaram, ağam, – dedi, – çox düşünüb-daşındım, dedim, bəlkə sizin bilməyiniz yaxşıdı.

– Çəkinmə, sözünü de, – onu cəsarətləndirdim, – Əliqulu bəy elçimizin qardaşı oğlu, mənim də otuzillik sirdaşımdı, ziyanı olmaz.

Qulam Şəmsəddin duruxdu, yəqin, fikrində o sirri hansı sözlərlə ifadə eləməyi düşünürdü, axırda dilləndi:

– Əliqulu bəy gecələr ispan ağalarının paltarını geyib şəhərdə gəzir, özünü yerlilər kimi aparır, ağam, – susdu, gözünü üzümə dikib sözlərinin mənə necə təsir elədiyini öyrənməyə çalışdı.

– Bunu nə vaxt görübsən? – soruşdum, həmin an ağlımdan keçdi, sualın cavabını özüm bilirəm.

– Birinci dəfə Barselonada olanda gördüm, – qulam Şəmsəddinin aydın baxışlarında ürəkdən gələn əndişə duydum.

– Bu barədə bir kimsəyə söz deyibsənmi? – onun dərrakəsinə əmin olsam da, sordum.

– Yox, – qulam Şəmsəddin and içirmiş kimi, əlini qılıncının qəbzəsinə qoydu. – Heç Yadigar bəy Məhəmməd də bu barədə bilmir.

– Yaxşı, – dedim, – bu sirr necə var, aramızda eləcə də qalsın, çalışaram, bir əncam çəkim.

Qulam Şəmsəddin aralanandan sonra yadıma düşdü, Barselonada qaldığımız on gün ərzində Əliqulu bəyi az qala görə bilməmişdim. Gəlişimiz şərəfinə verilən ziyafətdən sonra ayrı-ayrı hücrələrdə yaşadığımızdan, rastlaşmırdıq, bu, tək qalmaq istəməsiylə bağlıdı. Sonra Saraqosada üç gün qaldığımız müddətdə yenə onu görə bilmədim. Heç ağlıma da gəlməzdi, Əliqulu bəy təkcə batininə görə yox, zahirinə görə də dəyişir, bu dəyişikliyin çox qorxulu bir şey olduğunu indi başa düşdüm.

Tudeləcən qalan yolu fikir-xəyal içində keçirdim. Hersoqla markizin iltifatı könlümü xeyli xoş eləmişdi, qulam Şəmsəddinin sirri dərdimin üstünə dərd gətirdi. Şübhəsiz,

Hüseynəli bəyin halını daha aydın anlamağa başlamışdım. Səfarətin təkcə Şahımızın buyruğunu yerinə yetirməsinə yox, həm də heyət üzvlərinin yad məmləkətdəki hərəkətlərinə cavabdeh adam kimi, qardaşı oğlunun əməli ondan ötrü ağır zərbə olacaqdı. Şəxsi mirzəsinin, dəlləyinin, süfrəçibaşının dönüklüyündən sonra doğma adamlarının da bu addımı atması əlbəttə, asan sinirilesi məsələ deyildi.

Qət elədim, Əliqulu bəyin ağzını aramamış, hərəkətlərinin məğzini öyrənməmiş qulam Şəmsəddinin dediklərini açıb-ağartmayım. Ola bilər, bu əmələ ötüb-keçəri əyləncə səbəbindən qurşansın. Əliqulu bəy mədrəsədə oxumuş, döyüş meydanlarından keçmiş, məmləkətinə, xanədanına, Şahına sədaqətini sübut eləmiş adamıydı, düşünülməmiş addım atmazdı...

## 2.

Mən heyətimizdən uzaqda olduğum müddətdə elə bir xoşagəlməz əhvalatın baş vermədiyindən xəbər tutub sevindim. Bizi qarşılayan Yadigar bəy Məhəmmədin dediyinə görə, elçimiz səbirsizliklə yolumu gözləyir. Əlahəzrət kralla görüşmək, Şahımızın naməsini çatdırmaq üçün tələsirdi. Amma ondan dincəlməyə, fikirlərimi nizama salmağa bir neçə saat möhlət istədim.

O bir neçə saatda hər şey tərsinə döndü: nə fikirlərimi cəmləşdirdim, nə də dincələ bildim, əksinə, əhvalım daha da qarışdı. Hersoq Lerma, markiz Veladayla görüşlərimdən duyduğum məmnunluq hissini könül sirdaşım Əliqulu bəyin ruhunda baş verən sarsıntılardan xəbər tutmağımdan doğan kədər hissinin üstələməsi müvazinətimi pozmuşdu. Hüseynəli bəyin də halını anlayırdım: bu qədər uzun, vacib səfərdə arxalandığı iki şəxs – dos-doğma qardaşı oğluyla, xətrini dünyalar qədər istədiyi həməşirətinin, silahdaşının övladı qol-qanad olmaq əvəzinə xoşagəlməz hərəkətə yol verirdilər; bu halda Bünyad bəy Zülqədərlə, Həsənəli bəy Qəzvinidən – Hambarsum Muşeqyandan nəsə gözləmək gülünc olardı...

Hüseynəli bəy qardaşı oğlunun gecə gəzintilərindən xəbər tutubsa, deməli, əhvalı daha da qarışıb: ola bilməz onun bu hərəkəti Yadigar bəy Məhəmədin qulamlarının gözündən yayınsın, Yadigar bəyin özü xəbər tutmasın. Barselonadan bəri bu xəbəri elçiyə çatdırmayıbsa, yəqin, Əliqulu bəyin əməlini ya adi əyləncə sayır, ya da axırının nəylə qurtaracağını gözləyir; ola bilsin, Əliqulu bəylə aralarında olan münasibətə görə susmağı məsləhət bilib...

Daha Hüseynəli bəyin dalımca xidmətçi göndərməsini gözləmədim, durub hüzuruna getdim. Elçi məni çox fikirli qarşıladı, baş əyib, bağır basmağımın cavabında yalnız başının hərəkətiylə salamımı qəbul elədi, yer göstərib, üzbəüz oturdu:

– Hə, Oruc bəy, – dedi, – danış görək, səfərin necə keçdi.

Hüseynəli bəyə Valyadolid şəhərinə varid olanda necə qarşılandığımı, şəhər camaatının geyim-kecimimə necə heyrətlə baxdığını, dalımca düşüb, kral sarayının darvazalarınacan ötürdüklərini, markiz Veladanın məni necə hörmət-izzətlə qarşıladığını, elçimizin xahişinə hansı cavab verdiyini danışdım. Hüseynəli bəy nəzərlərini əlindəki təsbehdən ayırmadan dediklərimi dinləyir, get-gedə üzünü məmnunluq ifadəsi bürüyürdü.

– Allah-taalanın mərhəmətiylə deyəsən, səfərimizin sonuna yaxınlaşırıq, – bunu, elə bil, mənə yox, özünə deyirdi. – Yəqin, Əlahəzrət Kralın hüzuruna yetişəndən bir neçə ay sonra məmləkətimizə yola düşərik. Keçənə güzəşt deyərlər, ola bilsin, ser Antoninin yoxa çıxması bizi İngiltərəyə, Şotlandiyaya getmək məcburiyyətindən qurtardı, amma Qibleyi-aləmin hüzurunda bütün bunların bədəlini ödəmək lazım gələcək.

– Hüseynəli bəy, – dedim, – mənə elə gəlir, ser Antoninin bütün addımları qabaqcadan ölçülüb-biçilmişdi, əsas məqsəd məmləkətimizə kömək yox, Şahımızın Günbatan hökmdarlarına göndərdiyi bəxşişləri ələ keçirmək, bir də Xoca Səfərin niyyətini yerinə yetirməyiydi...

– Yaxşı, tutalım, belədi, bəs adamlarımızın öz dininə dönük çıxması necə, onu da ingilisin boynuna ataq? – Hüseynəli bəy ağır nəzərlərini üzümə dikib cavab gözlədi.

– Əlbəttə, yox, – dedim, – bunun səbəbləri başqadı, vaxt gələr, özünüz həqiqəti bilərsiniz...

– Yaxşı, – elçi elə o həqiqətdən qorxurmuş kimi, əlini yellədi. – Səfərini bir də danış görüm, elə bil, söylədiklərini eşitdikcə əzablarım sona yetir, məmləkətimin qoxusunu duyuram...

*(...Mən elçimizə İspan sarayının əzəmətli görünüşünü, əyanların saysız-hesabsız olduğunu, mənə göstərilən qəbulu, dediklərimi iltifatla dinlədiklərini təsvir elədim, səbirlə dəvəti gözləməyə başladıq.*

*Bir həftədən sonra Tudeldən çıxdıq, ona görə ki, Əlahəzrət Kral özünün dörd eşikağasından biri olan don Luis Enrikeyə bizi Valyadolid yolunda qarşılamağı tapşırdı. Don Luis İspan torpağının ən əsil-nəcabətli nəsillərindən sayılan nəslindən çıxmış bir dəstə adamın müşayiətilə beş ekipajda yola düşdü, həmin ekipajlarda onlarla birgə elə o gün şəhərə çatdılar. Burda bizi çoxlu sayda əyan-əşrəf qarşıladı; heyətimizi dəbdəbəylə bəzədilmiş, zəngin yataq dəsti, cürbəcür rəngli mahuddan, məxmərdən hazırlanmış asma xalçalı gözəl bir evə gətirdilər. Bizə Əlahəzrətin xidmətçiləri qulluq eləyirdi, qapıların ağzındaca ispan, german xüsusi qoşunlarının əsgərləri qoyuldu. Sonra elçimizin görüşünə o zaman İspan sarayında olan cəmi əcnəbi elçilərin adamları gəldilər, yaşadığımız ev bütün günü, xüsusilə, nahar və şam saatlarında qonaqla doludyu.*

*Valyadoliddə dörd gün qalandan sonra elçimizin yanına hersoq Lerma da rəsmi görüşə gəldi, dedi, Əlahəzrət bizə saraya buyurmağı tapşırıb. Arxamızca gözəl bəzədilmiş atlar göndərdilər, bütün yol boyu heyətimizi əyanlarla kral mühafizəçiləri müşayiət eləyirdi. Saray darvazalarının qabağında atlardan*

*endik, pilləkənlərlə qalxıb, eşik qapının ağzında bizi qəbul zalına ötürən eşikağasını gördük. Kral burda dayanmışdı. Qızıl sapdan toxunmuş kisənin içindəki bu Naməni elçi türbanının içində, demək olar, başında gətirirdi, indi ordan götürdü, öpüb gözlərinin üstünə qoydu, sonra onu Krala verdi. Əlahəzrət şlyapasını qaldırıb Naməni aldı, dilmancın köməyilə Səfəvi şahının ondan nə xahiş elədiyini öyrəndi, ona elçiliyimizin gəlişinin səbəbi aydın oldu. O dedi, Səfəvi şahının təklif elədiyi dostluqdan çox mütəəssir olub, ondan gözlədikləri bütün şeyləri məmnuniyyətlə yerinə yetirəcək, bu naməyə bir qədər sonra cavab verəcək. Hər iki tərəfdən bütün deyilənlərdən və elənənlərdən sonra elçi Əlahəzrəti tərk eləməyə icazə istədi, müşayiətçilərlə birgə iqamətgahımıza qayıtdıq...)*

...Əlahəzrət kral Üçüncü Filipp yaşca uşaq olsa da, görünüşcə yaşından böyük, həm də yetkin görünürdü. Çox gözəl parçadan tikilmiş, qiymətli daş-qaşlarla bəzədilmiş paltarı göz qamaşdırırdı. Markiz Veladanın eşikağasından eşitdiyimin əksinə, Əlahəzrət Kraliça Marqarita oğlunun yanında deyildi, bizi qarşılayan saray eşikağasının dediyinə görə, Kraliça vacib dövlət işləriylə məşğuluydu, münasib bir vaxtda heyətimizi qəbul eləyəcək, mənsub olduğu nəslə xas əsil-nəcabətlə iltifatını göstərəcəkdi. Amma Əlahəzrət Kralın dayandığı zalın divarında mərhum İkinci Filippin də, kraliça Marqarita Avstriyalının da rəsmlərini görmüşdüm. Qızılı çərçivələrdəki rəsmlər o qədər dəqiq çəkilmişdi, hər ikisinin canlı olduğunu sandım.

Doğrudan da, krallara layiq olan iqamətgahımızda səfarətimizin hər üzvünə ayrıca otaq, xidmətçi verilmişdi, səhərdən-axşamacan yanımızda olan iki dilmanc bütün

istəklərimizi yerinə yetirməyə hazırıydılar. Eşikağası tez-tez elçimizin yanına baş çəkir, çətinliyimizin olub-olmadığını soruşurdu. Təkcə sıxıntımız Şahımızın göndərdiyi bəxşişləri Əlahəzrət Krala çatdıra bilməməyimizdəndi, onu da Hüseynəli bəy hersoq Lermayla danışmış, üzrxahlıq eləmişdi, bütün bunları Əlahəzrət Krala danışmasını istəmişdi.

Əliqulu bəyi hərdənbir, yalnız əyanların şərəfimizə verdiyi ziyafətlərdə görürdüm. O, gündüzlər otağına qapanıb qalır, xidmətçisi məşğul olduğunu, ya da yatdığını deyirdi, axşamlar ziyafətə getməyəndəsə, dilmancla gəzintiyə çıxdığını eşidirdim. Heç Bünyad bəy də gündüzlər gözə dəymirdi, arabir rastlaşanda tələm-tələsik salam verib ötür, öz otağına çəkilirdi.

Asudə vaxtlarımı qəbullardan, görüşlərdən, gəzintilərdən aldığım təəssüratlarımı kağıza köçürməklə, dilmancı bu məmləkətin tarixi, adət-ənənələri, şəxsiyyətləri barədə söhbətə tutmaqla, Təbrizdə ustadım Mirzə Qədimin kitabxanasından götürdüyüm, bu qədər yolu özümlə daşıdığım kitabları oxumaqla keçirirdim. Belə məqamlarda şübhəsiz, Nisəxanım, oğlum Sultanəli, Mirzə Qədim, Ümleyla xala, qardaşlarım, məmləkətim yadıma düşürdü, nə qədər gözəl, əzəmətli, əsrarəngiz şeylər görsəm də, içimdəki həsrətin bitəcəyi zamanı gözləyirdim.

Valyadolid səfərimdən sonra Hüseynəli bəylə münasibətimiz azacıq düzəlsə də, mənə tamam-kamal bel bağlamaqda tərəddüd elədiyini sezirdim. Düzdü, qəbullarda, ziyafətlərdə, görüşlərdə mən elçimizin sağ tərəfində, Yadigar bəy Məhəmməd sol tərəfində dururduq, amma bununla elçi heyətində hər şeyin yerli-yerində olduğunu

göstərmək istədiyini anlayırdım. Genuyadan bəri gündəlik yazı-pozu işlərini Həsənəli bəy görürdü, bir növ elçimizin yanında dönük çıxmış şəxsi mirzəsini əvəz eləyirdi. Özümü şəxsi mirzə məqamında təsəvvür eləyə bilməsəm də, Həsənəli bəyin elçiyə məhrəmliyini qəlbimə yaxın buraxmaq istəmirdim.

Amma nə olur olsun, dözməli, səbir eləməli, məmləkətimizə qayıdacağımız günü gözləməliydim. Əgər bəxtimiz gətirib, Şahımızın qəzəbindən, Xoca Səfərin məkrindən qurtula bilsəydik, dövlətxanadakı qulluğumuzdan çıxıb Təbrizə köçəcək, ömrümün qalan qismini kitab yazmağa, mədrəsədə dərs deməyə sərf eləyəcəkdim – bu yaşımda kifayət qədər görüb-götürmüş, öyrənmişdim...

## 3.

...Şübhəsiz, Əliqulu bəylə görüşməsəydim, bunu özümə bağışlaya bilməzdim; neçə illərin sirdaşıydıq, çörək kəsmişdik, ən ağır günlərimizdə bir-birimizə güvənmişdik, məsud anlarımızı bölüşmüşdük, indiyəcən aramızda bir naqolay kəlmə belə olmamışdı. Əlbəttə, guşənişin olmuşdusa, yəqin, bunun səbəbi varıdı, düşüncələrini mənimlə bölüşmürdüsə, bu da səbəbsiz deyildi, amma mən ona fikirlərinin dolaşığından baş çıxarmaqda yardım əlimi uzatmağımı heç bir şeylə əsaslandıra bilməzdim. Bəlkə də bircə kəlmə sözüm könül yarasına məlhəm olacaqdı, ürəkdirək verəcəkdi.

Əlahəzrət Kralla görüşümüzdən üç gün keçmiş qəti qərara gəldim, günorta yeməyindən sonra Əliqulu bəyin qapısını döydüm. İçəridən səs gəlməsə də, belə vaxtda onun harasa gedə biləcəyinə inanmadım, bu səbəbdən, səbirlə gözləyib, qapını bir də döydüm. Nəhayət, qapının o tərəfində səs gəldi, Əliqulu bəy kim olduğumu soruşdu, səsimi eşidəndə xeyli duruxdu, elə bil, açıb-açmamaq barədə düşünürdü. Amma qapı açıldı, Əliqulu bəy salamımı alıb yol verdi. İçəri girib, bir müddət danışmağa söz tapmayan adamlar kimi, bir-birimizin üzünə baxmamağa çalışdıq.

– Otur, Oruc bəy, – nəhayət, o, sıxıntıdan qurtarmaq üçün yer göstərdi.

– Deyəsən, səfərimiz başa çatır, – daha çox söhbətə körpü salmaq xətrinə dilləndim, – belə getsə, inşallah, Novruz bayramınacan evimizdə olarıq.

– Səfərimiz başa çatır, amma yolumuz heç vaxt başa çatmayacaq, – Əliqulu bəy gözlərini harasa məchul bir nöqtəyə zilləyib fikir-xəyal içində dilləndi. – İnsan dünyaya göz açandan Allahına doğru yol gedir, gedir, yalnız xoşbəxt bəndələrə Ona qovuşmaq qismət olur... – Susdu, sonra qarşımda dayanıb gözlərimin içinə baxdı. – Ola bilsin, məndən ötrü bu səfər də bitməsin...

Nə dediyini izahsız-filansız anladım, artıq geri qayıtmaq istəmədiyini çox ustufca qandırdı.

– Sən o məmləkətin yolunda qılınc çalmısan, tüfəng atmısan, qan tökmüsən, Əliqulu bəy, – dedim, – o məmləkətdə sənin oğul-uşağın, doğmaların, nəhayət, xatirələrin qalıb, bu cür fikirləri özünə necə yaxın buraxırsan?..

– Düz deyirsən, onda bəs niyə Şahımız altdan-altdan farsları, kürdləri, cürbəcür qanıqarışıqları yanına çəkir, gavurlara kölgə salır, bizisə bir-birimizə qırdırıb zəif salır? – Dodaqlarında kinayəli təbəssüm varıdı, görünür, sorduğunun cavabını məndən də yaxşı bilirdi. – Bir məmləkətin ki taleyi gürcü atlılarından, erməni Xoca Səfərlə ingilis Antoni Şerlidən asılıdısa, sənin-mənim o məmləkətdə olmağımızın xeyri varmı?

– İndiyəcən səndən bu cür fikirlər eşitməmişdim... – Təəccüblə onu süzdüm.

– Ona görə ki, yolunda qan tökdüyümüz məmləkətdə bu sözlər söyləyənin gözlərinə mil çəkir, qulaqlarına qurğuşun tökür, ya da boynunu vururlar, – Əliqulu bəy əlini boğazına çəkdi. – Onsuz da Xoca Səfər Həsənəli bəyin uğursuzluğunu, Şahımız da əlinə fərman verdiyi ser Antoninin fırıldağını, üç təbəəsinin də dönük çıxmağını bizə bağışlamayacaq. Gedib məmləkətimdə günahsız ola-ola dar

ağacına çəkilməkdənsə, qürbətdə əzab çəkə-çəkə yaşamaq daha məqbul deyilmi? Heç olmasa, övladlarım rüsvayçılıqla öldüyümü görməz.

Nə vaxtdan bəri beynini gəmirən fikirləri dilinə gətirdiyinə görə, bir qədər rahatlanmış adam görkəmi aldı.

– Yad məmləkətdə dinimizə dönük çıxmadan yaşamaq olmazmı? – Xristianlığı qəbul eləyib-eləməyəcəyini aydınlaşdırmaq üçün soruşdum.

– Məqsəd Allaha qovuşmaqdısa, ona hansı yolla çatmağın nə fərqi? – Əliqulu bəy təəccüblə üzümə baxdı.

Daha dinmədim, bu gedən adamı saxlamaq iqtidarında deyildim. Ayağa durdum, xeyli üz-üzə, göz-gözə qaldıq, sonra qucaqlaşdıq, ikimizin də çiyinlərimiz titrədi. Qapıdan çıxanda nə vidalaşdım, nə də dönüb üzünə baxdım. Qəfildən yalquzaq kimi, kimsəsizləşdim...

*(...Sonrakı iki ayı bizi sarayda çox gözəl qəbul elədilər. Əlahəzrətin ekipajlarında, ya da at belində gəzirdik, şəhərin ən görməli yerləriylə tanış olurduq, ballarda rəqslərlə əylənirdik, öküz döyüşünə, qılıncoynatmaya baxırdıq. Bizə elə gəldi, bütün bu el bayramları bizim əvvəllər getdiyimiz hər hansı krallıqdakı, yaxud məmləkətdəkindən daha yaxşı keçirilirdi, ona görə ki, ispanlara hətta yarışlarda belə, başqa xalqlarda çatışmayan əzəmət, soyuqqanlılıq xasdı.*

*Bu bayramlar vaxtı elçimizi çox kədərləndirən əhvalat baş verdi: Əliqulu bəy öz xoşuyla xristian kilsəsinin bütün qayda-qanunlarını yerinə yetirməyə başladı. O, İspan həyat tərzini qəbul elədi, ispan geyimi geyindi. Əvvəlcə bunu, sadəcə, maraq,*

*əyləncə üzündən eləyirdi, amma tezliklə onun dininə dönük çıxmaq niyyətinə düşdüyü hamıya aydın oldu. Xristian olmaq, xaç suyuna çəkilmək qərarına gələn Əliqulu bəy bizi öz niyyətindən xəbərdar elədi, sonra heyətimizlə vidalaşdı, özünü İsa Məsih icması ruhani atalarının ixtiyarına verdi, onlar ona xristianlğın qayda-qanunlarını öyrədəcək, xaç suyuna çəkilməsi üçün hazırlayacaqdılar.*

*Elçi də, heyətimin qalan üzvləri də şübhəsiz, bütün bunlardan hədsiz pərişan oldular, amma hamının başını əyləncələr, karnavallarla qatdılar (baş verən əhvalatın qabağını almaq heç cür mümkün deyildi...)*

... Ola bilsin, Əliqulu bəyin itkisi hamıdan çox mənə təsir eləmişdi, nə könlüm, nə də qaşqabağım açılırdı. Hüseynəli bəysə sınmışdı, hətta sınıxmışdı, gözlərini yerdən qaldırıb üzümüzə baxa bilmirdi. Üstəlik də, elçimizin mənimlə arada yumşalan münasibəti yenə pisləşmişdi. Mənə elə gəldi, bunun səbəbi məndən şübhələnməyindədi: Əliqulu bəyin dinindən dönüb, İspan məmləkətində qalacağını qabaqcadan bilsəm də, ona xəbər vermədiyimi güman eləyirdi. Əslində, Hüseynəli bəyin gümanı doğruydu, amma desəydim, qardaşı oğlunu yoldan çəkindirə biləcəkdimi? Buna heç inana bilmirdim.

Elə bil bir tərəfim yox olmuşdu, nə ballar könlümü açırdı, nə öküz döyüşü, nə də qılıncyarışı. Hardansa göstərişmi vermişdilər, yoxsa təsadüfüydümü, bizi ayılmağa, fikrimi toplamağa, baş vermiş, həm də baş verəcək faciələr barədə düşünüb-danışmağa qoymurdular. Gecələri səhərəcən

əyləncələrə uyanlar gündüzləri də görüşlərə, qəbullara sərf eləyirdilər.

Əlfəqih Əmir hirsindən-hikkəsindən büzüşüb bir tikə olmuşdu: artıq heyətimiz dörd müsəlman üzvünü itirmişdi, vəziyyətdən belə görünürdü, məsələ bununla qurtarmayacaq. Demək olar, onun özündən başqa (Hüseynəli bəyi deyə bilmərəm, şərab içdiyini gözümlə görməsəm də, dərdini dağıtmaq üçün bundan vaz keçəcəyini ağlıma sığışdıra bilmirdim) heyətin bütün üzvləri, hətta xidmətçilər, yükçülər, qulamlar belə, özlərinə korluq vermirdilər. O əyləncələrdə Yadigar bəy Məhəmməd ad çıxarmışdı, Kərim Toxmağın, Dövlət Təkəlinin, xidmətçibaşı Murtuzəlinin, qulam Şəmsəddinin fikri-zikri oynayıb-əylənməkdəydi, təkcə Bünyad bəy Zülqədər əvvəlki tək fikirli-fikirli gəzib dolanır, başqalarını deyə bilmərəm, mənimlə üz-üzə gəlməkdən çəkinirdi.

Mən o əyləncələrə daha çox dərdimi dağıtmaqdan, Əliqulu bəyin son görüşümüzdə söylədiyi bir para həqiqətləri ağlımdan çıxarmaqdan ötrü gedirdim. Tək qalanda xəyalımda qorxunc qarabasmalar baş qaldırır, gözlərimin qabağına Şahımızın iribığlı, qəzəbli üzü, Xoca Səfərin məkrli baxışları, hiyləgər gülüşü, vurulmuş başımın ağaca keçirilib dövlətxana qapısından asıldığı gəlirdi. Əlbəttə, Şahımız bütün bunları bizə – Hüseynəli bəyə, mənə bir də Yadigar bəy Məhəmmədə bağışlamazdı, nəyin necə olduğunu da şübhəsiz, Əlfəqih Əmir yetirəcəkdi. Belə olanda, Əliqulu bəy demiş, rüsvayçılıqla ölməkdənsə, qürbətdə yaşamaq daha mərifətli olardı.

Bu fikir ağlıma gələndə diksinir, beynimdən qovmağa çalışırdım. Əyləncələrə getməyimin başlıca səbəbi də, buy-

du, elə bil, axır vaxtlar tək qalmaqdan qorxurdum. Belə günlərin birində heç gözləmədiyim halda Əlfəqih Əmir yanıma gəldi. Salam-kalamdan sonra saqqalını sığallaya-sığallaya əmmaməli başını yırğaladı.

– Bütün bu işlərin axırı necə olacaq, Oruc bəy? – soruşdu.

– Hansı işlərin? – Onun nəyə işarə elədiyini gözəl başa düşsəm də, özümü bilməməzliyə vurdum.

– Qurani-Kərimin Maidə surəsinin doxsan birinci ayəsi yadındadı? – xırda gözlərini üzümə dikdi, dillənmədiyimi görüb, ayəni özü dedi: «Şübhəsiz, şeytan içki və qumarla aranıza ədavət, kin səpmək, sizi Allahı yada salmaqdan, namaz qılmaqdan ayırmaq istəyir».

– Yadımdadı, – dedim, susub sözünün davamını gözlədim.

– Moskovda Böyük Knyazın verdiyi ziyafətdə bir para adamların şeytan şərinə uyduqlarını görəndə Allahı yaddan çıxardıqlarını bilirdim, – Əlfəqih Əmir köksünü ötürdü. – İngilisin apardığı maddi sərvətdi, Oruc bəy, o sərvəti qaytarmaq, ya da yerini doldurmaq olar, amma adamların öz əqidəsindən dönməsi daha qorxuludu, bunu bilirsənmi?

Elə bildim, Əlfəqih Əmir düşüncələrimdən xəbər tutub, məni bu yolda atacağım addımdan çəkindirmək istəyir. Üzünə baxıb gümanımın doğru olub-olmadığını yoxlamağa çalışdım.

– Bilirəm, – dedim.

– Bu dünyanın kefinə uymaq, axirəti unutmaqdı, – Əlfəqih Əmir sözünə davam elədi. – O kəslər Allahın lənətini qazanacaqlar...

Susdum, Əlfəqih Əmir də məndən artıq söz qopara bilməyəcəyini başa düşüb sağollaşmadan getdi. Havası

çatmayan adam kimi, boğulduğumu görəndə çıxıb uzun-uzadı küçələri dolaşdım, beynimi gəmirən fikirlərdən can qurtarmağa çalışdım. Lisbonda gəmiyə minənəcən duruş gətirməyə dözümüm çatsaydı, taleyimin sonrası Allahdan asılı olacaqdı, buna da bir neçə həftə, uzaqbaşı, bir ay qalırdı. Bu müddət məndən ötrü ömür qədər uzanacaqdı, heç atam Sultanəli bəyi itirəndə, Şahzadə Həmzə Mirzə qətlə yetiriləndə də bunca əzab çəkməmişdim...

# 4.

...Bizimlə vidalaşıb gedəndən sonra, Əliqulu bəydən soraq ala bilmirdim. Amma eşitmişdim, xaç suyuna çəkiləndən sonra İspan Kralının şərəfinə don Filipp adı götürüb, İezuitlər Evində yaşayır, özünü tamam-kamal katolik ispan kimi aparır. Onunla görüşməyə, hərəkətindən peşman olub-olmadığını öyrənməyə də can atmırdım, şübhəsiz, Hüseynəli bəy də, Əlfəqih Əmir də bundan xəbər tutub, başqa don geyindirərdilər. Yeganə istədiyim İspan məmləkətindən tez çıxıb getmək, bütün baş verənləri unutmağıydı, amma unudacağıma, daha doğrusu, unutmağa imkan verəcəklərinə də əmin deyildim.

Get-gedə özümdən aralı düşməyim də bir tərəfdən amanımı kəsirdi. Dolaşıq düşüncələrdən yaxamı qurtarmaq üçün şer yazmaq istədim, amma nədənsə ağlıma bircə beytdən artıq gəlmədi. Həmişə beynimdə dolaşan obrazlar pərən-pərən düşüb, təravətini, zərifliyini itirmişdi. O duyğuları qaytarmaq ümidiylə həməşirətim Süleyman oğlu Məhəmmədin qəzəllərini, Böyük Sufi Şah Xətainin «Dəhnamə»sini oxudum, amma ha çalışdımsa sözə heyranlıq hissindən irəli gedə bilmədim. Onda ağlıma gəldi, bəlkə də bunun səbəbi ayağımın torpağımdan üzülməyidi.

Bir gün də rəsm çəkmək fikrinə düşdüm. Uzun-uzadı çəkdiyim rəsmlərə baxdım, qabağıma kağız qoyub, əlimə qələm götürdüyüm ilahi məqamların yaşantılarını qaytarmağa çalışdım. Gözəl Nisəxanımın cizgilərini andıran qadın rəsmi çəkmək istədim, kağız üzərində cızdığım rəsmdə övrətimə oxşar bir cizgi tapa bilməyib ruhdan düşdüm. Çəkdiyim gözəl Moskovda, Praqada, Romada,

Valyadoliddə gördüyüm qadınlara oxşayırdı, məndən yüz köynək uzaq məxluqlar idi.

Sonra uzun gəzintilərlə başımı qatmaqdan ayrı əlac görmədim. Amma bu gəzintilərdə də məni hövsələdən çıxaran əhvalatlar baş verirdi: küçədə uca boylu, qara saqqallı, çiyninə tökülmüş qara saçlı, qəribə geyimli cavan kişinin getdiyini görənlər gözlərini zilləyir, dalımca düşürdülər, küçənin başına çatmamış tamaşama duranların sayı o qədər artırdı, qaçıb gizlənməyə yer axtarırdım. Dalımca düşənlər öz dillərində nəsə deyir, heyranlıqlarını qışqırmaqla bildirirdilər, hətta paltarıma, saç-saqqalıma əl vurmaq istəyənlər də tapılırdı. Şübhəsiz, mən də Əliqulu bəy təki, diqqəti çəkməmək üçün yerlilərin paltarını geyinə bilərdim, amma bu hərəkətim dönük çıxmaq kimi qiymətləndirilə bilərdi.

Axır vaxtlar Bünyad bəy mənə yaxınlıq göstərməyə başlamışdı, daha rastlaşanda salamlaşıb, tələm-tələsik aralanmır, ayaq saxlayıb, ordan-burdan söhbət eləyirdi. Belə vaxtlarda onun əzablı düşüncələrlə üz-üzə qaldığını duyur, ta İsfahanı arxada qoyandan bəri Əlfəqih Əmirlə söhbətlərinin ucunu bir tərəfə çıxara bilmədiyini görürdüm. Üstəlik, elçimizin onu üç nəfərin xristianlığı qəbul eləməsində təqsirləndirməyi Bünyad bəyin müvazinətini lap pozmuşdu.

Valyadoliddən çıxmağa bir neçə gün qalmış qəfildən otağıma gəldi. Üz-gözündən o qədər mütərəddid, uçuntulu görünürdü, elə bildim xəstələnib. Yer göstərdim, oturmadı, gözlərini harasa boşluğa dikib:

– Gedirikmi, Oruc bəy? – soruşdu, sualından elə bilərdin, bu vaxtacan gedib-getməmək barədə söhbətimiz olub.

– Gedirik, – dedim, – bu yəqinlik daha çox özümə aidiydi, Bünyad bəy də qərarını özü verəcəkdi.

– Kaş, bu səfərə çıxmayaydım... – Bünyad bəy elə kədərlə dilləndi, tüklərim biz-biz oldu.

– Alın yazısından qaçmaq olmaz, Bünyad bəy, – dedim, – Allah-taala nə məsləhət bilibsə, o da olacaq...

– Əgər Şahımız zindana atdırıb, ya da boynumuzu vurduracaqsa, bunu Allahın məsləhəti saymaq olmaz, – Bünyad bəy kədərlə gülümsünüb, üzümə baxdı, sonra cavab gözləmədən çıxıb getdi.

Bir gün sonra sarayda Əlahəzrət Kralla vidalaşıb Lissabona doğru yola çıxacaqdıq. Eşikağası bu xəbəri gətirəndə ani çaşqınlıq hissi keçirdim: doğrudanmı səfərimiz başa çatmışdı?!

*(...Valyadoliddə iki aylıq qalmağımızın axırında Əlahəzrət kral elçimizə 500 tümən ağırlığında qızıl zəncir, hələ onun yanında olan mirzələrdən hər birinə 300 tümən dəyərində zəncir bağışladı. Bir qədər az qiyməti olan zəncirləri də bizim xidmətçilərə peşkəş elədi. Bizə Səfəvi Şahına göndərilən naməni, 10.000 tümən əlavə məbləği (dəniz səfərini nəzərə alıb), bundan başqa Portuqala səfər üçün xərclərə 1000 tümən verdilər. Sonra hələ də bizi müşayiət eləyən kanonikə pul verildi, Lissabona bizim Əlahəzrətin hesabına gəmiyə mindirilməyimiz barədə əmr göndərildi, bu əmrdə yükümüzün daşınması, gəmidə gündəlik xərclərimizin dəyəri nəzərdə tutulmuşdu, beləliklə, biz Hörmüzdə gəmidən düşənəcən, məmləkəti-Səfəvinin ərazisinə çatanacan heç bir xərc çəkməyəcəkdik. Bu, doğrudan da, Əlahəzrət Katolik Üçüncü Filippin əzəmətinə, İspan və Avstriyanın şöhrətinə, Əqidənin əsl dayağı, bütün günbatan ölkələrdə Xristianlığın*

*himayədarına layiq səxavətiydi. Hər şey yoluna qoyulandan sonra bizə göstərdiyi bütün iltifatlara görə minnətdarlığımızı bildirib, Əlahəzrət Kralla vidalaşdıq.*

*İspan torpaqlarında səfərimiz üçün Əlahəzrətin şəxsi xidmətçilərindən olan, çoxlu dillər bilən dilmancımız varıdı, adı Dieqo de Urreaydı. Dərhal Seqovaya yola çıxdıq, burda mülki hakim bir qrup şəhər əhliylə bizi qarşılamağa gəldi, böyük hörmət göstərdi. İrandan səfərə çıxanda qarşıma qoyduğum məqsədə uyğun – mümkün olan hər şeyi görmək, sonra məmləkətimdə kitab yazmaq üçün yolda gördüyümün hamısını yazmaq – mən mülki hakimdən Seqovanın şöhrət tapdığı dörd görməli yeri göstərməyi dönə-dönə xahiş elədim.*

*Onlardan biri Məryəm ananın gözəl heykəliylə Fuensisla adlanan Evdi; bu ev yanındakı yüksəklikdəki qayanın altında üzü güneyə durur. Həmin heykəlin üzündə ilahi gözəllik var, beləsini heç vaxt, heç yerdə görməmişdim, onun qarşısında bir neçə iri gümüş fənər yanır, həmin fənərlər o qədər böyükdü, gözləriylə görməyənlər onların gümüşdən düzəldildiyinə inanmaz. Fənərlərin hansı böyük dövlətlərin bəxşiş elədiyini soruşdum, mənə dedilər, bunu Kraliçaya çox məşhur yun paltarlar hazırlayan əyalət icmasının üzvləri gətiriblər. Bu şəhərin ikinci görməli yeri Alkasar, İspan krallarının sarayıdı; doğrudan da həmin saray gördüyümüz ən gözəl, ən məşhur tikililərdən biridi. Saray qayanın üzərində tikilib, hər iki tərəfdən əllə düzəldilmiş dik sıldırımlar aşağı enir, çox dərin xəndəyin divarını yaradır, burdan Eresma (həm də Klamores) çayı qala-sarayı daha da alınmaz eləyib, aşağı axır.*

*Bu (Roma) şəhərinin üçüncü görməli yeri dördkünc yonulub, məhlulsuz bərkidilən sal daşlarından tikilmiş (Sezar Avqustun vaxtında) Akvedun su kəməridi. Kanalın üstüylə bütün Seqo-*

*vanın istifadə elədiyi su axır, Akvedun su kəmərinin uzunluğu elədi, iki yüzdən artıq tağı var. Şəhərin bəzi yerlərində su boyu iki sıçrayışa bərabər olan hündürlükdən axır.*

*Dördüncü heyrətamiz görməli yer milyonlarla qızıl, gümüş, dəmir pulların zərb edildiyi zərbxanadı. Bu iş əllə yox, Alkasarın altından axan çayın (Eresma) üzərində qurulmuş dəyirmanla hərəkətə gətirilən maşınlarla görülür.*

*Seqovada olduğumuz vaxt İspan krallarının Balsaim (yaxud Balsam) adlandırılan qış Sarayını görmək üçün şəhərdən iki lyö (güney – günçıxan tərəfə) məsafədə olan yerə getdik; dərin dərədə (Eresmanın qolunda) yerləşən bu nəhəng tikili şam meşələriylə örtülmüş uca dağlarla əhatə olunub; buranın bakirə təbiəti əsl cənnətdi...)*

...Bütün bunları gördükcə nə vaxtdan bəri könlümdə baş verən təlatümlər bir qədər səngiyir, elə bil, yaralarımın gözü qaysaqlanırdı. Yaddaşımda Təbrizin meyvə bağları, Ərdəbilin cənnət guşələri, Qarabağın meşələri canlanırdı. Əlbəttə, keçib gəldiyimiz məmləkətlərin uzun illər əmin-amanlıq içində yaşaması, hücumlar, dağıntılar, yanğınlar görməməsi bakirə gözəlliyin başlıca şərtlərindəndi, üstəlik, mən Günbatan məmləkətinin adamlarında təbiətə qarşı çox böyük sevgi gördüm.

Seqovada qaldığımız müddətdə Bünyad bəylə münasibətimiz çox yaxın oldu. Üzə vurmasa da, Hüseynəli bəylə Əlfəqih Əmirin onunla soyuq davranmasından, Həsənəli bəyi özlərinə daha yaxın saymalarından bərk incimişdi, həm də Əliqulu bəyin atdığı addımın məğzi müvazinətini sarsıtmışdı, təskinliyi mənimlə söhbətlərində tapırdı. Görünür, uzun müddət guşənişin həyat sürməyi suallara cavab tapmağına kömək eləməmişdi.

Şübhəsiz, Hüseynəli bəylə Əlfəqih Əmir bizim münasibətimizi xanədanımızı, Şahımızı, həm də dinimizi təhdid eləyən nəsə tapmağa çalışacaqdılar, amma indi bütün bunların məndən ötrü fərqi yoxudu, özümü təmizə çıxarmağa çalışsam, günahkar olduğuma daha çox inanacaqdılar. Susmaq, bütün olub-keçənləri götür-qoy eləmək, bu işlərin nəylə başa çatacağını gözləmək daha ağıllı olardı. Canımdan artıq istədiyim adamları – gözəl Nisəxanımı, gözümün ağ-qarası Sultanəlini, ustadım Mirzə Qədimi, mənə anamı əvəz eləyən Ümleyla xalanı, qardaşlarım Mehrəliylə Yusifi görəndən, günahsız olduğumu anladandan, Təbrizi doya-doya gəzəndən sonra başıma nə gələcəyini özümə dərd eləmirdim. Ruhumu üççə şey ağrıdacaqdı: oğlumu istədiyim kimi böyüdə bilməməyim, külfətimi başsız qoymağım, könlümdə gəzdirdiyim kitabı yazmağa vaxt tapmamağım.

Əlbəttə, külfətimi də götürüb, hər cür qada-qorxudan uzaq bu cür cənnətmisal guşələrin birində kitablarımı yazmaq daha gözəl olardı. Düzdü, bunun qürbət ağrıları deyilən tərəfi varıdı, amma heç olmasa, yazdıqlarım qalardı, oxuyan kəslər təkcə mənim başıma gələnlərdən yox, məmləkətimizin çəkdiklərindən də xəbər tutardı. Bəlkə bu, doğrudan, yeganə çıxış yoludu? Sabahın işini kim bilir? Dərd verən Allah dərmanını da göstərməmiş olmaz...

# 5.

...Səfər elədiyimiz yerləri gəzib gördükcə bir həqiqəti daha dərindən anlayırdım: bizim başlıca bəlamız daxili çəkişmələrdə, qonşularımızla arasıkəsilməz savaşlardadı. Pirimiz-Mürşidimiz Böyük Sufi Şeyx Heydər cavanca yaşında ağlının, iradəsinin, qılıncının gücünə taxta çıxdı, parça-parça olmuş məmləkəti birləşdirib qüdrətli dövlət yaratdı, axırda Çaldıran döyüşündə, Osmanlı Sultanı Səlimlə üz-üzə gəldi, hər iki tərəfdən yüz mindən artıq adam qanına qəltan oldu; onun varisi Şah Təhmasibin əlli iki illik hakimiyyəti dövründə ara-sıra müvəqqəti sakitlik yaransa da, çəkişmələrin ardı-arası kəsilmədi; Şah Məhəmməd Xudabəndənin zamanında Böyük Sufinin qurduğu xanədan dağılmaq təhlükəsiylə üz-üzə gəldi: osmanlılar bir tərəfdən, özbəklər o biri tərəfdən, özünü şah hesab eləyən vilayət hakimləri də üçüncü tərəfdən torpaqlarımızda at oynatdılar.

Şah Abbas taxta çıxanda başı daxildəki çəkişmələrə o qədər qarışdı, bir müddət osmanlıların qabağından geri çəkilməli, məmləkətin yaralarını sağaltmalı oldu. Gah Gilan hakimi baş qaldırırdı, gah Luristanda qiyam qalxırdı, Gah Mazandaran vilayəti Şahımıza boyun əyməkdən boyun qaçırırdı, gah da özbəklər hücum çəkib Heratı, Astrabadı, Xorasanı talayırdılar. Bu minvalla son yüz ili göz önünə gətirsək, məlum olur, məmləkətimizin davasız, qırğınsız, dağıntısız vaxtı olmayıb.

Şübhəsiz, hər döyüş ölüm, qan, dağıntı, yanğın, məhrumiyyət deməkdi: yaralarını sağaltmağa macal tapmamış yeni fəlakətlə üzləşirsən, elə hey əlin qılıncın qəbzəsində,

bir ayağın atın üzəngisində olur, ölənlərin ağrısı, yaralanıb şikəst olanların acısı canından çıxmamış təhlükə başının üstünü alır. Belə vəziyyətdə məmləkətin tərəqqisindən danışmaq çətindi. Gözümün işığı Təbriz bu qədər dağıntılarla üzləşməsəydi, indi dünyanın ən böyük, ən zəngin şəhərlərindən olardı. Hülakilərin, Qaraqoyunluların, Ağqoyunluların, Böyük Sufinin vaxtında məmləkətin baş şəhəri olan Təbrizin nə qədər dağıntılara, yanğınlara məruz qaldığını göz önünə gətirsək, indiki mövcudluğuna ancaq şükür eləmək qalır. Xondəmir vaxtilə Təbrizi dünyanın dörddəbir hissəsinin məskunlaşdığı ən abad şəhərlərdən sayırdı, məndən ötrü bu şəhər cəmi Gündoğarın paytaxtıydı. Hesablamalarıma görə, osmanlılar Təbrizi almamışdan qabaq burda səksən min ev *(üç yüz altmış min nəfər adam)* varıdı. Amma bilirdim, bu rəqəmin milyonu ötən, yüz minə düşən vaxtları olub – səbəb ardı-arası kəsilməyən dağıntılar, qırğınlardı.

Elə osmanlıların basqınları üzündən məmləkətin paytaxtını Qəzvinə köçürmək ehtiyacı yarandı. Bir vaxtlar adı dünyanın ən böyük şəhərləri sırasında çəkilən Təbriz get-gedə tənəzzülə doğru üz qoydu. Əlbəttə, mənim gəzib-gördüyüm Günbatan şəhərlərinin başına bu qədər müsibətlər gəlsəydi, belə əzəmətli, abad olmazdı. İki ildən artıq sürən səfərim boyu nə qədər şəhərlər gördüm, heç birində dağıntının, tənəzzülün izinə rast gəlmədim.

Onu da bilirdim, məmləkətimə qayıdandan sonra həsrətini çəkdiyim asudə həyata qovuşa bilməyəcəm. Tutalım, Şahımız səfarətimizin başına gələnlərə görə bizi gözdən salmadı, zindana atmadı, boynumuzu vurdurmadı, amma qabaqda təzədən osmanlılarla çarpışmalar gözlənilir:

Azərbaycanı, Gürcüstanı, İrəvanı, İraqı qaytarmamış onun dinclik tapacağına inanmıram. Dövlətxanadan, qoşundan uzaqlaşmağıma izin verməsə, yenə at minməli, qılınc vurmalı, ölümlə üz-üzə gəlməliyəm. Sonra məni oğlum Sultanəli bəy əvəz eləyəcək, atam Sultanəli bəyin, mənim, oğlumun taleyini də onun oğlu yaşayacaq. Beləcə arasıkəsilməz döyüşlər, qan-qada, dağıntı, əzab-əziyyət neçə yüz illərsə davam eləyəcək...

*(...Seqovanı tərk eləyib insanın ən möcüzəli əsəri olan Eskoriala yollandıq, bunu görmək üçün ən uzaq diyarlardan adamlar gəlir. Buradakı sarayı indi Cənnətməkan olan kral İkinci Filipp özü üçün tikdirib. Saray çayın sahilində Qvadaramma adıyla tanınan sıra dağların yamacında yerləşib. Beləliklə, bu yer quzeydən qapalı, güneydənsə açıqdı; bina nəhəng dördbucaqlı şəklindədi, bir çox üslubların qarışığıyla tikilib; bina yonulmuş özülün üzərində duran hamarlanmış daşlardan hörülüb. Hamısı zəngin naxışlarla işlənmiş çoxlu saraylar, qüllələr, sütunlar, qalereyalar, zallar var. Əbəs yerə deyil, Eskorial dünyanın səkkizinci möcüzəsi kimi məşhurdu. Şübhəsiz, mən özüm belə hesab eləyirəm, qədim dövrün yeddi möcüzəsindən heç biri onunla müqayisəyə gəlməz. Danışırlar, kral İkinci Filipp bu sarayı Fransanın Müqəddəs Kuinten şəhərində içdiyi anda ona görə tikdirib, burda Müqəddəs Lourensin xaç suyu çilədiyi, müharibə vaxtı dağıdılmış kilsə vardı. O vaxtdan Eskorialdakı kilsə Müqəddəs Lourensin adını daşıyır. Kilsənin minbər rəsmləri dünya rəssamlığının heyrətamiz əsəridi. İeronimit Qardaşlarının (bu da xristian təriqətidi) monastırı da belədi, onların burada öz məktəbləri var. Bundan başqa, Eskorial İspan krallarının dəfn olunduğu yerdi; onların cəsədləri burda uyuyur.*

*Burdan Eskorialın beş, Madriddən on ağac məsafəsində yerləşən, imperator Beşinci Karlın əziz xatirəsinə tikilmiş qış Sarayına yollandıq. Bu da gözəl tikilidi. Onun ətrafında irili-xırdalı hər cür vəhşi heyvan olan çoxlu meşələr var; doğrudan da, sayları o qədər çoxdu, hər yerdə maral, vəhşi-qaban sürülərinə rast gəlir.*

*Sonra Madriddə Kasa del Kampo adıyla tanınan saraya getdik, bu sarayın fəvvarələrini, bağlarını, nohurlarını təsvir eləməkdən ötrü ayrıca kitab yazmaq lazım gələrdi. Ardınca İspan torpağının ən iri, ən gözəl şəhərlərindən biri olan Madridə varid olduq. Şəhərin əzəməti o qədər məşhurdu, artıq başqaları tərəfindən təsvir olunanı yazmağa cəhd eləməsəm, daha yaxşı olar.*

*Madridi tərk eləyib, qüdrətli Taxo çayının kənarında Əlahəzrət Kral İkinci Filipp tərəfindən tikilmiş İspan krallarının Aranxues Sarayına getdik. Aranxuesin xiyabanlarla, fəvvarələrlə, göllərlə, yaşıl çəmənlərlə, irili-xırdalı vəhşi heyvanlarla dolu meşələrlə, uzaq Hindistandan gətirilmiş möcüzəli quşlarla, meyvə bağlarıyla birgə ərazisi o qədər böyükdü, bütün bunların hamısını təsvir eləməkdən ötrü neçə-neçə cildlər bəs eləməz. Aranxuesin niyə dünyanın doqquzuncu möcüzəsi adlandırıldığını başa düşməkdən ötrü burda dediyimiz bəs elər.*

*Yolumuzun üzərində yerləşən, qot krallarının paytaxtı olan Toledo şəhərinə də getdik. Alkasar burda yerləşir, bu şəhərdə də bir qurğu gördük, həmin qurğunun köməyilə su Taxo çayının dərinliklərində yatağından çox hündürdə yerləşən şəhərin səviyyəsinə qaldırılır ( Sonra öyrəndik, bu qurğunu 1565-ci ildə, Beşinci Karlın zamanında Kremonalı Covanyello Turriano yaradıb, gündə çaydan altmış min vedrə su qaldırır). Bizi İspan məmləkətinin yeparxial kilsəsi olan kilsəyə də gətirdilər, bunun sayəsində Toledo İspan Roması sayılır...)*

...Toledo şəhərinin hakimi heyətimizi böyük hörmət-izzətlə qarşılayıb, xanədanın adına layiq sarayda yerləşdirdi. Orda qaldığımız müddətdə şəhərimizə verilən ziyafət bir yana, cürbəcür əyləncələrlə bizi darıxmağa qoymadılar. Əlbəttə, cismim o məclislərdə olsa da, ruhum hardasa özümdən çox-çox uzaqlarda pərvaz eləyirdi. Könlümdəki təlatümü heç cür ovuda bilmir, özümə rahatlıq tapmırdım. Əgər götürdüyüm kitablar olmasaydı, yəqin, daha əzablı anlar keçirərdim.

Onu da deyim, Əlahəzrət kralın böyük iltifatla ixtiyarımıza verdiyi dilmanc don Dieqo de Urreayla aramızda gözəl münasibət yaranmışdı. Don Dieqo işini yerinə yetirəndən sonra Hüseynəli bəydən izin alıb yanıma gəlir, çox gözəl söhbətlər eləyirdi. Dediyinə görə, türkcəmizi ticarət gəmiləriylə səfərləri vaxtı öyrənmişdi, hətta bu səfərlərində Təbrizdən, Ərdəbildən, Qəzvindən məmləkətimizin tarixinə dair kitablar əldə eləyib oxumuşdu. O kitablardan Budaq Qəzvininin «Cəvahir əl-əxbar»ına, bir də Həsən bəy Rumlunun «Əhsən ət-təvarix»inə böyük qiymət verirdi, şübhəsiz, bu məsələdə fikirlərimiz üst-üstə düşürdü.

Don Dieqo mənə Ciovanni Tommazo Minadoi adlı bir italyan tarixçisinin «Türklər və iranlılar arasındakı müharibələrin tarixi» kitabını bağışladı. 1588-ci ildə ispan dilində basılmış bu kitabda atam Sultanəli bəyin də, mənim də olduğumuz döyüşlərdən yazılmışdı. Biz Təbrizi osmanlılardan geri almağa cəhd eləyəndə Minadoi Dəməşqdəki Venesiya konsulluğunun həkimxanasında işləyirmiş, həm də tez İstanbula gedib müharibə haqqında məlumat toplayırmış. Don Dieqonun etirafına görə, əgər bu kitab olma-

saydı, Səfəvi şahının elçiləri İspan krallığına gəlib çıxmazdı: Günbatan Osmanlıların dünyanı təhdid eləməsini bu kitabdan başa düşüb. Şübhəsiz, o, məmləkətimizlə bağlı məlumatı satqın çıxıb osmanlıların tərəfinə keçmiş, bəxşiş kimi Hələbə hakim göndərilmiş Maqsud xan Zülqədərdən ala bilərdi.

Don Dieqonun bağışladığı kitabı oxumaqdan ötrü ispan dilini öyrənməyə davam eləməyi qərar verdim: dilmanc yanımızda olduğu müddətdə bu fürsətdən istifadə eləsəydim, özümü dünyanın ən məsud adamı sayardım. Don Dieqo xahişimə həvəslə razı oldu, xristian əlfəqih Françesko Quaskenin başladığı işi davam etdirməyə səy göstərdi. Toledodan yola düşənəcən artıq Minadoinin kitabını höccələyə-höccələyə oxuyurdum. Bu təsadüfü Allahın lütfü kimi qəbul eləyib xeyli rahatlanmışdım: hər halda, fikrimi dağıtmaq üçün məşğuliyyətim varıdı...

## 6.

...Əlbəttə, Hüseynəli bəyi çox gözəl başa düşürdüm: Şahımız böyük etimad göstərib, onu Günbatan hökmdarlarının hüzuruna gedən, qüdrətli bir xanədanın namələrini aparan elçiliyin başçısı təyin eləmişdi, ixtiyarına mirzələr, dilmanclar xidmətçilər vermişdi, gedənlərin ehtiyacını, səfərin xərclərini ödəmişdi. Amma səfər başa çatmamış səfarət döyüşdən sınıq çıxan qoşuna oxşayırdı: dörd nəfər Moskovdan qayıtmışdı, biri səfərin başlanğıcında, üç nəfər Romada, biri də Valyadoliddə dönük çıxmışdı, iki nəfərə *(mənimlə Bünyad bəyə)* etimadsızlıq yarlığı vurulmuşdu, üstəlik, heyətə qoşulan iki rahibdən biri ilim-ilim itmiş, o biri qaçıb Roma papasına sığınmışdı; bu da azmış kimi, səfarətin taleyini tapşırdığı adam Günbatan hökmdarlarına göndərdiyi qiymətli bəxşişləri satıb-sovub beş dilmancı, on beş xidmətçisiylə qeyb olmuşdu, böyük bir dövlətin elçisi hökmdarların hüzuruna əli ətəyindən uzun getmişdi. Hələ bu səfərin nəticəsi bəlli olmasa belə, baş verənlər Qibleyi-aləmin xoşuna gəlməyəcəkdi.

Hüseynəli bəyin qardaşı oğluna acığı tutmağa tam haqqı varıdı. Lap uşaq vaxtından himayəsinə götürdüyü, mədrəsədə oxudub, evləndirdiyi, dövlətxanada qulluğa girməyə səbəb olduğu bir kimsənin bu addımı atması ondan ötrü xəyanətdən ağırıydı. Doğmaca qardaşı oğlu itaətindən çıxıb, xristianlığı qəbul eləmişdisə, deməli, lazımınca tərbiyə verə bilməmişdi. Əgər ona hökmü çatmırdısa, deməli, məndən də, Bünyad bəydən də itaət gözləməyə dəyməzdi. Belə çıxırdı, elçinin ancaq iki dilmancın, xid-

mətçibaşı Murtuzəlinin, bir neçə xidmətçinin, Yadigar bəy Məhəmmədlə qulamların yanında sözü keçirdi.

Yadigar bəy Məhəmməd qulam tərbiyəsi görmüşdü, Allahverdi xanın seçib, özünə yaxınlaşdırdığı adamlardanıdı, ondan ötrü Şahın buyruğu canından da qiymətliydi. Bu səbəbdən də elçinin dediklərini kəlmə kəsmədən yerinə yetirir, baş verənlər barədə fikrini bildirmirdi. Dilmanclar Kərim Toxmaqla Dövlət Təkəli də hər şeydən uzaq olmaq yolunu tutmuşdular. Elə Şəmsəddin də Yadigar bəy Məhəmmədin buyruqlarına canla-başla əməl eləyir, görüb-bildiyi barədə yalnız susurdu.

Bütün bunları götür-qoy eləyəndə elçimizə ürəyim yanır, heç olmasa, olub-qalan heyətlə səfərimizi başa vurmaqda ona əlimdən gələn köməyi göstərmək istəyirdim. Amma aramızdakı münasibət o yerə gəlib çatmışdı, özü çağırıb bir iş tapşırmasa, Hüseynəli bəyin yanına getməyim yaxşı çıxmazdı. Bununla belə, üstümüzdəki haqqı-sayını unuda bilməzdim: atam Sultanəli bəylə yaxın olmuşdu, neçə illərdən bəri məni Əliqulu bəydən ayırmamışdı, evlənəndə qabağa düşüb ağsaqqallıq eləmişdi, dövlətxanada qulluğa girməyimlə bağlı saqqal tərpətmişdi. Bütün bunlar bir yana, Hüseynəli bəy Bayat həməşirətim, deməli, ağsaqqalımıydı, ağsaqqalın üzünə ağ olmaq bizdə ölümdən betər sayılırdı. Umub-küsürsə, belə çıxır, mənə ərk eləyir, ya da yaxın adam kimi, daha çox şey gözləyirmiş, axı Şahımız bütün olub-keçənlərin hesabını birinci ondan soruşacaqdı.

Valyadoliddən çıxandan sonra ən çox ünsiyyət saxladığım adamlar Bünyad bəylə don Dieqoydu. Bünyad bəy təkliyin əlindən qaçmaq, içindəki təlatümləri yatırtmaq üçün yanıma gəlirdi, yola çıxandasa yaxında olmağa ça-

lışırdıq. Ona da ürəyim yanırdı, tərəddüd ümmanında çırpındığını açıq-aşkar görürdüm. Şübhəsiz, ağlındakıları mənimlə bölüşsəydi, qəti məsləhət verməzdim, hər şeyi özünün ixtiyarına buraxardım, çünki məmləkətə qayıdanda hər şeyin yaxşı qurtaracağına zəmanət verə bilməzdim.

Don Dieqoyla söhbətlərimiz daha çox məmləkətlərimizin tarixiylə bağlı olurdu. Onun biliyinin zənginliyinə, fikirlərinin səlisliyinə, dəqiqliyinə heyran qalırdım. Düzdü, eyni cür xoş sözləri də o mənim haqqımda söyləyirdi, bu da nə gizlədim, izzəti-nəfsimi oxşayırdı. Fikirləşirdim, əgər bildiklərimdən kitab bağlaya bilsəm, deməli, oxuyub-öyrəndiyim hədər getməyib, çünki bilik mal-pul deyil ki, kağıza köçürməmiş bu dünyada qalacağına bel bağlayasan...

*(...Burdan Estramadura əyalətiylə Truxilyoya səfər eləyib – bir çox adlı-sanlı nəsillər bu yerlərdəndi – qədim zamanlarda ikinci Roma olan (bunu xarabalıqların böyüklüyü də sübut eləyir) Merid şəhərinə gəldik. Elçimiz bir günlüyə Meriddə qalmağı arzuladı, başımıza bizə heyrətlə, yetik-yetik baxan çoxlu camaat yığıldı.*

*Əlfəqih Əmirin faciəsi də burda baş verdi (Əmir ərəb adı daşısa da, farsıydı, amma özünü Məhəmməd peyğəmbərin nəslindən sayırdı). O, qarşısında əməlli-başlı basabas düşmüş yaşadığımız binanın kandarında durmuşdu, camaatın həmlələrinin qabağını alırdı, bu vaxt qəfildən kimsə səbəbsiz-filansız xəncərlə Əlfəqih Əmiri vurub yerindəcə öldürdü. Bu demək olar, gecə baş verdiyindən qatili müəyyən eləmək mümkün deyildi, bununla belə, şəhər hakimi bütün vasitələri işə saldı, hətta öz hiddətini Krala çatdırmaq üçün qətiyyətlə Valyadolidə yollanan elçinin*

*səs-küylü tələblərini yerinə yetirmək məqsədilə xeyli adamı zindana da saldılar. Amma öyrəndik, Kral ova yola düşüb. Bununla da Lissabona getməyi qərara aldıq, orda yola düşməyə hazırlıq görülənəcən mən təzədən Valyadolidə qayıdacaq, Əlahəzrətə yazıq əlfəqihimizin necə səbəbsiz-filansız öldürüldüyünü danışacaq, qatilin axtarılmasını, həm də cəzalandırılmasını tələb eləyəcəkdim. Sonra Əlfəqih Əmiri Səfəvi adətincə, dinimizin qaydalarına uyğun Meridin kənarında dəfn elədik, bütün şəhər əhli hədsiz maraq göstərdikləri mənzərəyə baxmağa çıxdı.*

*Meriddən İspan torpağıyla Portuqalın sərhədində yerləşən Badaxos şəhərinə yollandıq, bu şəhərin mülki hakimi, Xuan de Avalos adlı əsil-nəcabətli ağa bizi öz evində yerləşdirdi, bütün istəklərimizə əməl elədi, rahatlığımıza böyük diqqət yetirdi.*

*Nəhayət, Badaxosdan öz gözəl yeriylə bütün İspan ölkəsində şöhrət tapmış, adı yaddaşlarda bütün şəhərin əsasını qoymuş şəxs kimi qalan Ulissin (antik dövrlərdə Olissipo Lisbonu) adlanan şəhərinə varid olduq. Lissabon Portuqalın paytaxtı, həm də ən böyük şəhəridi, əhalisi 80.000 evdən (yaxud 360.000 nəfərdən) ibarətdi. Burda Taxo çayının mənsəbində, çayın böyük dəryaya tökülən yerində nəhəng liman var. Bu həm də Böyük Hindistana və Yeni Dünyaya yollanan bütün gəmilərin yola çıxdığı əsas limandı...)*

...Əlfəqih Əmir öldürülənəcən nəyəsə ümidim varıdı. Bilmirəm, Allah-taalanın rəhminəmi, şahımızın mərhəmətinəmi, yoxsa dövlətxanadakı ağıllı adamların *(daha çox Etimad-üd-dövlə Hatəm bəy Ordubadiylə İskəndər bəy Münşinin)* himayəsinəmi bel bağlayırdım, amma mənə elə gəlirdi, hansı möcüzəsə bizi Şahımızın qəzəbindən, Xoca Səfərin məkrindən qoruya bilər. Mənə elə gəlirdi, Şahı-

mızın gözündən düşsəm, Təbrizə köçüb, Mirzə Qədimin mədrəsəsinə sığınar, oğlumu böyüdüb, kitablarımı yazaram. Amma Əlfəqih Əmirin faciəsindən sonra fikirləşdim, Allahın lənətinə gəlmişik, Şahımız heç vaxt öz qulağı, gözü kimi heyətə qoşduğu Əlfəqihin ölümünü bizə bağışlamayacaq.

Hüseynəli bəy bu əhvalatdan o qədər sarsılmışdı, elə bil, günbəgün, saatbasaat qocalırdı, hətta gözlərim məni aldatmırsa, mərhumu qəbrə qoyanda elçimizin saç-saqqalının əvvəlkindən daha da ağ olduğunu sezdim. Fatihə verəndə səsi elə yanıqlı çıxdı, lap ürəyimin başı göynədi: bu səs elə bil özünü, öz taleyini ağlayırdı. Qismət bütün ömrünü abırla yaşamış, indiki məqamına ağlı, bacarığıyla çatmış bir adamın əlindən hər şeyi alır, əgər boynu vurulmasa, qalan ömrünü rüsvayçılıq içində yaşamağa sürükləyirdi.

Şübhəsiz, Əlfəqih Əmirin səfarətimizdə hansı vəzifəni yerinə yetirdiyini bilirdim, bu işi heç könlümcə deyildi, amma indi onun ölümü nə səfarətimizə, nə də mənə sərf eləyirdi. Şahımızın qulağının-gözünün məmləkətimizə sağ-salamat qayıtması bizim sağ qalmağımıza az da olsa, ümid yeri qoyurdu, amma Əlfəqihin öldürülməsiylə üstümüzə daha ağır ittihamlar götürməli olacağıq: qanımıza susayanlar ortada qəsd axtaracaqdılar. Deməli, Əlfəqih Əmir təsadüfi ölümüylə bizi daha ümidsiz çıxılmazlığa salmışdı. Meriddən Badaxosa gedəndə elə hey bu barədə fikirləşirdim.

Badaxosda dincəldiyimiz müddətdə mənim xristian əlfəqihlə Valyadoliddə, Əlahəzrət Kralın hüzuruna qayıdacağım qətiləşdi. Hüseynəli bəy bunu Meriddə olanda da demişdi, o vaxt elə bilirdim, bu qərarı şəhərin hakiminə

hədə-qorxu gəlməkdən savayı bir şey deyil. Amma Yadigar bəy Məhəmməddən elçinin fikrində qəti olduğunu öyrənəndə qəribə hal keçirdim. Ola bilsin, bu Allahın lütfüydü, gedib Əliqulu bəyi görəcəkdim, onun başqa məmləkətdə, başqa inamla, başqa tərzdə necə yaşadığından xəbər tutacaqdım, bir daha düzgün addım atıb-atmadığını götür-qoy eləyəcəkdim.

O gündən yuxum ərşə çəkildi *(daha doğrusu, Əliqulu bəyin xristian olmaq qərarını eşidəndən gecəmi-gündüzümü qarışdırmışdım),* içimdəki təlatümlərin hövlündən yerişimi-duruşumu itirdim. Qarşıda Lissabon, arxadasa Valyadolid varıdı, alın yazımda bu iki şəhərdən hansısa yazılmışdı: birində gəmiyə minib az qala otuz aydan bəri çıxdığım məmləkətimə gedəcəkdim, o birində otuzillik sirdaşımın halına vaqif olub, özümü Haqqın ixtiyarına verəcəkdim. İndisə iki suyun arasında qalmış adama oxşayırdım. Görən, yol məni hara aparacaqdı?!

## 7.

...Dövlətxanamızda çalışan vaxtlarda işimi-gücümü qurtaranda İskəndər bəy Münşinin, bir də kitabxananın kələntəri «sadiqi» təxəllüslü Kitabdar Sadıq bəy Əfşarın yanına gedirdim. İskəndər bəylə aramızda həmyaş münasibəti olsa da, Sadıq bəy məndən ötrü Mirzə Qədim kimi, ustad məqamındaydı. Sadıq bəyin ağlı başdan alan rəsmlərini görmüşdüm, çox zərif duyğularla süslənən şeirlərini oxumuş, müdrik söhbətlərini eşitmişdim. Xüsusilə rəsmlərin necə çəkilməsindən danışan, nəzmlə qələmə aldığı «Qanun as-Savar» kitabı çox işimə yaramışdı. Hər gedəndə yanında Əliqulu bəy Bayatı, Bünyad bəy Zülqədəri, Əli Rəzi Təbrizini, ya da Şahımızın İmad-ül-Mülk *(dövlətin dayağı)* ləqəbi verdiyi Mir Məhəmməd Qəzvinini görürdüm. Həmişə söhbət şeirdən, rəsm çəkməkdən, naqqaşlıqdan, xəttatlıqdan gedirdi. O məclislərin birində Qibleyi-aləmin də də şeir yazdığından xəbər tutdum. Şübhəsiz, Pirimiz-Mürşidimiz Böyük Sufi Şah İsmayıl Xətainin nəticəsi şerə-sənətə meyil göstərməsəydi, daha təəccüblü olardı, atası Şah Məhəmməd Xudabəndə, babası Şah Təhmasib şeir yazmamışdılarsa *(bəlkə də yazmışdılar, üzə çıxarmamışdılar),* buna ancaq heyrətlənmək lazım gəlirdi. Təbrizdə doğulmuş Sadıq bəy Əfşar təxminən atamla həmyaşıddı. Uşaqlıqları bir məhəllədə keçmişdi, eyni mədrəsədə oxumuşdular, amma atam daha çox at minib, qılınc çaxmağa meyilli olduğundan, sonra yolları ayrılmışdı. Sadıq bəy iyirmi yaşında atasını itirəndən sonra dərviş libası geyinib ərəb aləminin məmləkətlərini, şəhərlərini dolaşmış, əmir ül-üməraların saraylarında rəsm çəkmiş, sonra Təbrizə qa-

yıdıb səkkiz il ustad Kəmaləddin Behzadın qardaşı oğlu Müzəffər Əlidən rəsm dərsi almışdı. Hələ bu illərdə Şah Təhmasibin Astrabad səfərində at minib, qılınc çalmağa, şücaət göstərməyə də vaxt tapmışdı. İkinci İsmayılın vaxtında Sadıq bəy Böyük Sufinin yaratdığı Şah kitabxanasının nəqqaşxanasında çalışırdı, Şah Məhəmməd Xudabəndəsə ona Kitabdar titulu verib, kitabxanaya başçı qoydu. Xəttatların, naqqaşların, müsəvvirlərin, müzəhhiblərin, səhhafların, mücəllidlərin cəmləşdiyi o kitabxanada bir müddət indiki Şahımızın iltifatıyla səy göstərdi. Axır vaxtlar qocaldığından, yerini Şahnəvaz Əli Rza Təbriziyə vermişdisə, yenə öz məqamında qalırdı.

Sadıq bəy Əfşarın fırçasından çıxan rəsmlərə dönə-dönə baxmışdım. Əmirlərin, İmamqulu xanın, Teymur xan Türkmənin, gəzərgi dərvişlərin rəsmləri, naxış vurduğu kitablar məndən ötrü əvəzsiz sərvətiydi. Sadıq bəy yaratdıqlarının dəyərini də bilirdi. Bir dəfə şair Qüruri onun şəninə qəsidə yazmışdı. Sadıq bəy də rəsmlərindən birini ona bağışladı, amma xəbərdarlıq eləməyi də unutmadı: «*Tacirlər Hindistana çatdırmaqdan ötrü rəsmlərimin hər nüsxəsini üç tümənə alırlar, sərvaxt ol, ucuz satma!*»

Uzaq Badaxosda, könlümün təlatümlü məqamında bütün bunları niyə xatırladım? Nə qədər fikirləşdimsə, əvvəlcə sualın cavabını tapmadım. Görünür, iki suyun arasında qalmış adamın bu cür qəfil xatırlamalara baş vurması səbəbsiz deyil. Ola bilsin, hər şey Şahımızın, həm də bizim istədiyimiz kimi olsaydı, mən də, Əliqulu bəy də, Bünyad bəy də şad xürrəm – İsfahana qayıdacaqdıq, bəlkə də Qibleyi-aləm iltifat göstərib, ənamla yanaşı, daha uca məqam da layiq görəcəkdi. Biz də Məsihi, Saib Təbrizi, Sa-

dıq bəy Əfşar, Mir Məhəmməd Qəzvini, Əli Rza Təbrizi sayaq, dövlətxanada yaşayıb, Şahımızın könül dostlarından olacaqdıq. Kim bilir?..

Badaxosdan tərpənməmiş Bünyad bəylə söhbətləşəndə də bu fikir ağlıma gəldi. Qəribəydi, sən demə, Bünyad bəy də bu barədə düşünürmüş. Hətta qoltuğundan son günlər yazdığı bir şeir çıxarıb oxudu. O məsnəvidə qürbətdə vətən həsrətilə çırpınan bir insanın fəryadı duyulurdu. Axşam olsa da, şamı yandırmadığımdan, hücrəm alaqaranlığıydı, amma Allahın möcüzəsi kimi, pəncərədən düşən ay nuru Bünyad bəyin üzünü aydınlatdı, onda ağladığını gördüm. Qırx bir ilini yaşadığım ömrümdə cəmi ikicə kərə ağlamışdım: Təbriz döyüşündə atam Sultanəli bəyin nizəyə keçirilmiş başını qala divarının üzərində görəndə, bir də Qəzvinə qayıdıb evimizin tar-mar olduğundan, anamın öldürüldüyündən xəbər tutanda. Üçüncü kərə də indi, yad məmləkətdə, taleyimin bundan sonrasının istədiyim təki olmayacağını hiss elədiyim məqamda Bünyad bəyi – qədər qardaşımı qucaqlayıb hönkürməkdən özümü saxlaya bilmədim.

Bünyad bəy hücrəmdən gəldiyi kimi, səssiz-səmirsiz çıxıb getdi. Bütün gecəni vurnuxa-vurnuxa qaldım, nə dincələ, nə də yata bildim. Ha fikirləşirdim, fikirlərimin ucunu bir tərəfə çıxara bilmirdim. Bir ucu burda, yad məmləkətdə, o biri ucu doğma yurd-yuvamda olan bu yolda məni nə gözləyirdi? Burda cismən azad olacaqdım, amma ruhum həmişə qəfəsdə olacaqdı; orda ruhum azad olsa da, cismimi itirmək qorxusu varıdı. Bəlkə də övrətim Nisəxanımla oğlum Sultanəli yanımda olsaydılar, burda ruhumun əzablarını azacıq ovudardılar. Niyyətimi

gizlədib İsfahana qayıtmaq, külfətimlə həmişəlik geri qayıtmaq alın yazımda vardımı, yoxdumu – bunu Allahdan başqa kimsə bilməzdi. Hər halda, hələ ümidimi tamam itirməmişdim.

Özümü ələ almaqdan, ruhi müvazinətimi saxlamaqdan ötrü çox əziyyət çəkməli oldum. Valyadolidə qayıdıb Əliqulu bəylə görüşənəcən kimsə könlümdəki təlatümlərdən xəbər tutmamalıydı. Səhər yola düşməyə hazırlaşanda Bünyad bəyin üzünə baxdım, gözümə bir qədər rahatlanmış kimi göründü. Ona rahatlıq gətirən hansı fikriydi – bundan hələ xəbərim yoxudu...

*(...Biz Badaxosu tərk eləyib Aldesa Qalleqaya gələndə Portuqalın vitse-kralı (vəkili) don Kristobal de Moraya olduğumuz yer haqqında xəbər yolladıq, o çoxlu xidmətçilərlə dörd avarlı gəmi göndərdi. Burda bizə möhtəşəm qəbul düzəltdilər, qonaqpərvərliklə əzəmətli sarayda yerləşdirdilər.*

*Bir neçə gün dincələndən sonra bir çox portuqal əyanları, Lissabonun ayrı-ayrı şəxsləri tərəfindən qəbul olunduq, onlar, doğrudan da, çox qonaqpərvər ev sahibidilər.*

*Elçimiz Əlahəzrətə bizim Əlfəqihin ölümüylə bağlı düzgün xəbər çatdırmaq üçün xristian əlfəqihlə birlikdə Valyadolidə qayıtmaq əmr elədi. Onun əmrini yerinə yetirmək üçün yola çıxdım, məhz burda mənə bir daha aydın oldu, alın yazısından qaçmaq olmaz. Ona görə ki, Valyadolidə çatan kimi, İezuitlər Evində yaşayan Əliqulu bəyin görüşünə getdim, onunla danışandan, İsa Məsih icması ruhani atalarıyla söhbət eləyəndən sonra özümdə qəribə dəyişiklik hiss elədim. Yaşadığım yerə qayıdan kimi, kilsəyə gedib, məni xristianlığa qəbul eləmələrini istədim.*

*Özümü mənim təki dinini dəyişməyi qərara alanlardan ötrü vacib olan duaları, qaydaları, andları ərəb hərfləriylə yazmağa məcbur elədim. Sonra məni katolik təlimiylə ətraflı tanış elədilər. Əlahəzrət Kralın baş keşişi və mərhəmətinin yönəldicisi don Alvaro de Karvaxal mənimlə uzun-uzadı söhbətləşdi, təlimdə aydın olmayan yerləri izah elədi, mömin xristian kimi, bütün qəlbiylə mənə, mənim yeni dinə keçməyimə kömək göstərdi. Sonra Əlahəzrətin çiyinlərinə krallığın idarəsinin bütün ağırlığı düşmüş baş naziri hersoq Lermayla görüş istəməyə cəsarət göstərdim, o da iltifatla qəbula razılıq verdi. Hersoq, mənim xeyirxah niyyətlərimdən xəbər tutanda çox şad olduğunu dedi, mən də öz planlarımı onun qarşısında açmağı qərara aldım; planım xristianlığı qəbul eləyib, məmləkəti-Səfəviyyəyə, arvadımla oğlumu özümlə götürüb İspan krallığına qayıtmağıydı. Bütün bunların cavabında hersoq dedi, xristianlığı qəbul eləyəndən sonra yaşamaq üçün İspan krallığında qalsan, şübhəsiz, Əlahəzrət mənə iltifat göstərib, yüksək məqama çatdıracaq; həm də o, əgər Allah-taala bizim hamımıza bundan daha ağır sınaqlara səbirlə duruş gətirməyi buyurmasaydı, arvad-uşağımı itirməyimlə bağlı dərdimə şərik (İspan məmləkətində qaldığım, İrana qayıtmadığım təqdirdə) olmaq istədiyini bildirdi.*

*O, bir çox başqa təsirli səbəblər gətirdi, mən də tamam təskinlik tapıb, özümə gəldim, ona görə ki, Allah hersoq Lermaya dərin ağılla xeyirxah ürək bəxş eləmişdi. Hətta elçimiz də hersoq Lermayla axırıncı görüşündən sonra bu fikirlə razılaşmış, ona ən dərin hörmətini bildirmişdi.*

*Beləliklə, ləngimədən xristianlığı qəbul eləməyi, sonra arvadımla oğlumun arxasınca İrana qayıtmağı qəti qərara aldım. Əlbəttə, məmləkətimdə İspan krallığına qayıtmaq üçün əlverişli*

*təsadüfdən, lazımi məqamdan istifadə eləmək məqsədilə xristianlığı qəbul elədiyimi gizlətmək niyyətindəydim. Yəqin, buna görə, xaç suyuna çəkilməyimlə bağlı bütün hazırlıqlar çox tez başa çatdı...)*

...O, axşam son dəfə namaz qıldım, dua elədim, Qurani-Kərimi üç dəfə öpüb gözlərimin üstünə qoydum, Allahdan, peyğəmbərdən, imamlardan bütün günahlarımın bağışlanmasını istədim. Bir Allah şahidiydi, mən könlümcə dönük çıxmamışdım, taleyimin quluydum. Məmləkətimə qayıdıb hər şeyi itirməkdənsə, qəlbimdə inamımı saxlamaqla gücüm çatan şeyləri qorumağa çalışırdım. Xristian məmləkətində müsəlman kimi yaşamağın mümkünsüzlüyünü də gözəl başa düşürdüm, nə Əlahəzrət Kralın, nə də əyanlarının iltifatını qazanmadan ömür sürmək, şübhəsiz, ağlabatan deyildi.

Bütün olub, keçənlərdən təkcə xristian əlfəqih Fransisko Quaske xəbər tutmuşdu. Mənim hərəkətimdən hədsiz məmnun olduğu üz-gözündən bilinsə də, bu barədə hələlik susmağı dönə-dönə tapşırdım, çünki xəbər elçimizin qulağına çatsaydı, şübhəsiz, böyük qalmaqal baş verəcəkdi. Əlfəqih Fransisko niyyətimi gizli saxlayacağına and içdi, mən də arxayın oldum. Əgər Allah üzümə baxsaydı. Lissabona qayıdıb, müsəlman kimi, Hörmüzə yola düşən gəmiyə minəcəkdim.

Əliqulu bəylə söhbətimiz vaxtı ondan heç gözləmədiyim söz eşitmişdim:

– Oruc bəy, insanın başlıca niyyəti Allaha qovuşmaqdısa, bütün dinlər bu yolu getmək üçün vasitədən başqa bir şey deyil, demişdi, – hər xalq Allaha öz adını verib, amma

bununla Allahın mahiyyəti dəyişmir – o, Təkdi, Qadirdi, Yaradandı.

Şübhəsiz, Mirzə Qədimin mədrəsəsində ilahiyyat elmini öyrənmişdim, bununla belə, özümü mövhumatçı adam saymırdım: namaz qılırdım, oruc tuturdum, Allaha dua eləyirdim, dinin mahiyyətini insanın yaşayışını asanlaşdırmaqda, əzablarını yüngülləşdirməkdə görürdüm. Mərhum Əlfəqih Əmir kimi, dindən başqalarını itaətə gətirmək üçün istifadə eləyənlərə heç vaxt hörmətim olmamışdı. İndi xristian Allahının mənim simamda mömin bəndə qazandığını da fikirləşmirdim, sadəcə, yad məmləkətdəki həyatımı öz axarına salacaq başqa bir qüvvə görmürdüm.

Bu da alın yazısıdı. Hər şey istədiyim kimi olmadı. Günahkar mənəmmi?!



*Oruc bəy Bayat*

# SƏKİZİNCİ FƏSİL

*İspan krallığında – Valyadolid*
*1601-ci ilin payızı*

**Mənimlə elçinin qardaşı oğlunun xaç suyuna çəkilməyimiz, Lissabona qayıtmağım, elçiylə mənim aramda baş verən dava (onun məni öldürmək niyyəti, elçi heyətindən ayrılmağım, Bünyad bəyi dilə tutmağım, Əlahəzrət Kralla görüşüm), Bünyad bəyin xristianlığı qəbul eləməsi haqqında**

# 1.

...Elə blirdim, xristian dininə keçməyi qərara almağımla hər şey başa çatacaq. Ancaq məlum oldu, bu vaxtacan yön çevirdiyim dinimdən, əqidəmdən, həyat tərzimdən tamam imtina eləməliyəm. İlahinin mərhəməti sayəsində onun sadiq qulu olduğumdan, mənə ali iltifatı göstərdiyinə görə, bu vaxtacan günah içində yaşadığımı, saxta dinə qulluq elədiyimi boynuma almalıydım. Belə çıxırdı, mənim atam, babalarım, ulu babalarım yalançı əqidənin arxasınca gediblər, mən də elə o cür böyümüşəm, Məhəmmədin saxta sektasına mənsub olub, kafir hökmdarın hökmü altında olan ölkədə yaşamışam, amma Allah, doğrudan da, üzümə baxıb, Səfəvi şahının İspan krallığına göndərdiyi səfarətin baş mirzəsi təyin olunmuşam, bu yolla da Tövratın həqiqətinə vaqif olmuşam...

Don Alvaro de Karvaxalın latınca həvari Paveldən yazdığı sitatı oxuyurdum: *«Gratias ago Ei, gui me confortavit in Chiristo Jesi Domino nostro, gui fidelem me existimavit ponens in ministerio, gui prius blasphemus fui, et peresekutor, et contumeliosus, sed misericordiam Dei consecutus sum, quia ignorans feci in icradulitate, et cetera»*. Mənası buydu: *"Onun iltifatı məni İlahi İsa Məsihə xidmətə məcbur elədi, əvvəllər həm Allaha inanmayan, həm də Onu danan, həm də rüsvayçı olsam da, indi Allahın mərhəmətiylə ardıcıllarındanam, ona görə ki, öz əqidəmdən xəbərim olmayıb".*

Bütün bunları dilimə gətirirdim, ancaq yaddaşımdan Mirzə Qədimin mədrəsəsi boy verirdi: türkcəni, ərəbcəni mənə öyrədən ustadım ilahiyyata diqqət yetirməyi də məsləhət görürdü.

– Oğlum, qəlbində Allah nuru olmayan adam ömrü boyu zülmətdə yaşar, – Mirzə Qədim Quran-i Kərimi vərəqləyib, oxumaq istədiyi ayəni axtara-axtara elmin, əqidənin nə olduğunu təzəcə anlamağa başlayan səkkiz yaşlı uşağa deyirdi. – Qurani-Kərim də Allah-taalanın yer üzünə göndərdiyi sonuncu müqəddəs kitabdı. İnşallah, ilahiyyat elminə vaqif olanda dinimizin nə qədər uca olduğunu başa düşəcəksən.

Qurani Kərimi mənə öyrədən, şəriət qanunlarını başa salan Seyid Qasım Təbrizinin Allah nuru qonmuş üzü indi də gözlərimin qabağındadı. Ayələrin açımı vaxtı söylədiyi hədisləri yaddaşıma gətirdikcə, ilahi müdrikliyin əsiri olurdum. İndi bütün bu möcüzədən məhrum olacaq, başqa əqidəylə başqa ömür yaşayacaqdım.

Elə hey fikirləşirdim, görən, zahirdə xristian olub, batində müsəlman kimi qalsam, Allaha ağır gedərmi? Görən, insanın batini əsasdı, yoxsa zahiri? Əgər Allah təkdisə, müsəlmanlar da, xristianlar da, iudaçılar da, buddaçılar da eyni Allaha tapınmırlarmı? Belədisə, bütün mərasimlər olsa-olsa, zahiri qatdan ibarət deyilmi? Məhəmməd (s) də, İsa Məsih (ə) də insanın Allaha tapınmağına çalışmayıblarmı? Allah-taala Qurani-Kərimdə buyurub: *«Onlar İsanı nə öldürdülər, nə də dardan asdılar. Şübhəsiz, onu öldürmədilər. Allah onu özünə tərəf ucaltdı. Allah qüdrətli və hikmətlidir».*

Sabah hər şey başa çatacaq. Ən böyük istəyim könlümdəki təlatümdən, düşüncələrimdən dolaşıqlardan yaxa qurtarmaqdı...

*(...Hersoq Lermanın yanından qayıdandan sonra Əlahəzrətin baş keşişi, həm də sədəqəpaylayanı don Alvaro de Karvaxalın*

*xüsusi buyruğuyla mənimlə elçimizin qardaşı oğlunun xaç suyuna çəkilməsi üçün bütün hazırlıqlar tələm-tələsik başa çıxarıldı. Bizə xristian dininin ehkamlarını tamam-kamal öyrətdilər. Hər birimizə ağ atlaz paltar gətirdilər, don Alvaro de Karvaxal bizi ekipajda saraya gətirib, eynilə ağ paltar geyinmiş, gəlişimizi gözləyən Əlahəzrətin hüzuruna ötürdü. Sonra böyük bir qrup adamın müşayiətilə kral kilsəsinə endik, burda Alvaro de Karaval bizi xaç suyuna çəkdi. Bu zaman xaç atamızla xaç anamız vəzifəsini Kralla Kraliça yerinə yetirdilər. Elçinin qardaşı oğlu Əliqulu bəy Don Filippde Persia, mən, bu vaxta kimi Oruc bəy kimi tanınan bəndəsə Don Xuan de Persia adı aldıq, bunun ardınca Əlahəzrət bizi dəfələrlə qucaqladı, beləliklə, böyük iltifat göstərdi. Sonra kral mənə elçimizə çatdırmaq üçün namə verdi, dilmancına məni səfərdə müşayiət eləməkdən ötrü əmr elədi, yol xərcini ödədi. Beləliklə, əvvəlki təki Səfəvi paltarı geyinib Lissabona qayıtdım.*

*Axır dediyim kimi, niyyətim məmləkəti-Səfəviyyəyə qayıtmağıydı, orda xristiana çevrildiyimi gizlədəcəkdim, təki övrətimlə oğlumu aparmağa fürsət olsun. Amma bu yalnız xaç suyuna çəkildiyimdən xəbər tutmadıqları halda mümkün ola bilərdi, yoxsa gərək İsa məsihə inam gətirdiyimi açıq-aşkar söyləyib, yeni əqidəm yolunda başımı qoyaydım. Bu düşüncələrlə Lissabona yola düşdüm, ora macərasız-filansız gəlib çatdım. Hersoq Lermanın əmriylə məni Əlahəzrətin əyanlarından biri olan (artıq xatırlatdığım) Fransisko de San Xuan adlı türk dilmancı müşayiət eləyirdi, tezliklə başa düşdüm, xristian olandan sonra əvvəl yaxşı ünsiyyətdə olduğum həmyerlilərimlə söhbətdən ləzzət almıram. Elçi deyəsən, mənim geri qayıtmağımdan çox razı qaldı, yola düşməyimiz üçün tələm-tələsik hazırlıq görməyə başladı...)*

...Əlbəttə, xristian qaydasınca ad götürmək məsələsinə gələndə, birinciliyi Əliqulu bəyə vermişdim, çünki o məndən qabaq addım atmışdı. Əlahəzrət Kralın şərəfli adını özünə götürməyə haqqı çatırdı. Don Alvero de Karvaxal bununla bağlı arzumu soruşanda ağlıma gələn ilk ad Əlahəzrətin türk dilmancı Fransisko de San Xuanın adı oldu, həm də Don Xuan adının İspan məmləkətində çox geniş yayıldığına əmindim, üstəlik də, gözəl səslənirdi.

İndiyəcən elə bilirdim, bütün olub-keçənlər yalnız üzəyarı mərasimdi, amma don Alvaro de Karvaxal xristian adımı elan eləyib, boynumdan xaç asanda içimdə nəyinsə dəyişildiyini hiss elədim. Diz çöküb Baş Keşişin, Kralın, sonra da Kraliçanın əlini öpəndə geriyə qayıdan yolumun ömürlük bağlandığını beynimdən keçirdim, həmin məqamda hönkürüb ağlamaqdan özümü güclə saxladım. Allaha qovuşmağın bu qədər kəşməkəşli, əzablı olduğunu xəyalıma gətirməzdim. Elə bil sinəmdən xaç əvəzinə ağır daş asılmışdı, məni dartıb dibsiz uçurumlara salırdı.

Daha xristian əlfəqih Fransisko Quaskenin xidmətinə ehtiyacım qalmamışdı. Mərasim başa çatandan sonra onunla vidalaşdıq. Romadan çıxandan elçi heyətimizi müşayiət eləyən, mənə böyük rəğbət göstərən, ispan dilini səbirlə öyrədən əlfəqihə dərin minnətdarlığımı bildirdim, məmləkəti-Səfəviyyədən qayıdıb Valyadoliddə yerləşəndən sonra mütləq görüşünə gələcəyimə söz verdim. Əlfəqih Fransisko xristian olduğuma çox sevindiyini bildirib, gözləri yaşara-yaşara xeyir-dua verdi.

Hələ ki Lissabonda xristian olmağımı bilən yeganə adam dilmancım Fransisko de San Xuan idi. Hersoq Ler-

ma onu mənim ixtiyarıma verəndə mənim xristianlığı qəbul eləməyimi gizlin saxlamağı tapşırmışdı. Həm də dilmancla söhbətimiz elə birinci görüşümüzdən tutmuşdu. O mənə türk dilini Lepantodakı dəniz döyüşündə türklərə əsir düşüb, Konsontinopolda yeddi il Əlcəzair donanmasındakı gəmidə xidmət elədiyi vaxt öyrəndiyini danışmışdı. Dediyinə görə, gəmiçibaşının qulluğunda Midhət adlı bir mirzə varmış, ona çox mərhəmətlə yanaşırmış, gəmiçibaşından gizlin Fransiskoya türk dilini öyrədib, sonra Əlcəzairdəki xoşbəxtlikdən qaçıb qurtula bilib.

Fransisko de San Xuan mənə çox diqqətəşayan bir əhvalat da danışmışdı. Otuz il qabaq Lepanto yaxınlığında osmanlılarla baş verən həmin dəniz döyüşündə indi kitablar yazan don Migel de Servantes Saavedra da yaralanıb, hətta onlar Əlcəzair əsirliyində də görüşüblər. Onda artıq Migelin sol qolu işləmirmiş, əlində Əlahəzrət kralın tövsiyə naməsi olduğundan, osmanlılar onu azad eləyiblər. Dedi, indi don Migel Sevilyada yaşayır, eşitdiyinə görə, o tərəflərdə donanmaya hazırlıq məsələləriylə məşğul olurdu. Dilmanc məmləkətimdən qayıdandan sonra məni Sevilyaya aparıb, ona təqdim eləyəcəyinə də söz verdi.

Əlbəttə, məndən ötrü ən çətin məqam bütün olub-keçənlərdən sonra ilk dəfə Hüseynəli bəylə üz-üzə gəlməyiydi. Qorxurdum, üzümün ifadəsinin, səsimin, baxışımın dəyişdiyini hiss eləyər, məmləkətimə getməklə bağlı gizli niyyətim gözümdə qalar. Amma xoşbəxtlikdən elçimizin başı Əlahəzrət kralın göndərdiyi naməyə qarışdı, mənim qorxduğum şeylərə o qədər də diqqət yetirmədi. Deməli, qismət olsa, bir neçə həftədən sonra gəmimiz Hörmüzə doğru yola çıxacaqdı...

## 2.

...Məni narahat eləyən ikinci məsələ Bünyad bəylə bağlıydı. Xəyalıma gətirirdim, elçimiz İsfahana üç mirzəsiylə dönür, biri mənəm hələ nə elçimiz, nə Şahımız, nə də qeyriləri gizli niyyətimdən xəbər tutublar, bu səbəbdən, ailəmi götürüb, İspan məmləkətinə bir də səfərə çıxmaq istəyimdən kimsə şübhələnmir; biri Bünyad bəydi – elçimiz Romada üç nəfərin dönük çıxmasını ona bağışlaya bilmir, olub-keçənləri Şahımıza danışır, Qibleyi-aləm də ən azı mirzəni dövlətxanadakı işindən uzaqlaşdırır, zindana atıb, edam etdirməsə də, gözdən salır; üçüncü Həsənəli bəydi, Şahın buyruğunu yerinə yetirmək əvəzinə Xoca Səfərin çaldığına oynayıb, əgər Qibleyi-aləmin istəkli vəziri sudan quru çıxsa, cəza-filan almayacaq, bu da bizə göz dağı olacaq.

İndi belə hesab eləyirdim, Əliqulu bəy də, mən də Şahımızın qəzəbindən qurtulmuşuq, qara bulud yalnız Bünyad bəyin başı üzərində dolaşır, onun xilası da bizim yolumuzu getməkdə, xristianlığı qəbul eləyib Əlahəzrət İspan kralına sığınmaqdadı. Bundan ötrü Bünyad bəylə söhbət eləmək, tərəddüdlərinə son qoymaq, həqiqətə inandırmaq lazımdı. Bu məsələdə birinci addımı özüm atmaq istəmirdim, onun yanına hersoq Lermanın dilmancı Fransisko de San Xuanı da göndərmək istəmirdim, ümidim varıdı, özü hər şeyi götür-qoy eləyəcək, biz Hörmüzə yollanan gəmiyə minənəcən qəti qərara gələcək.

Lissabona qayıtdığım günün axşamı bu fikirlər içində vurnuxan vaxt Bünyad bəy otağıma gəldi. Düzü, onun

gəlişindən sevinsəm də, özümü təmkinli apardım, beynində dolaşan fikirləri özünün açmasını gözlədim.

– Əliqulu bəylə görüşmüsənmi? – Bünyad adəti üzrə oturmayıb, otaqda var-gəl eləyə-eləyə soruşdu, sonra üzbəüzdə ayaq saxlamayıb gözlərini üzümə dikdi.

– Görüşdüm, – dedim, bilirdim, Hüseynəli bəydən gizlətdiyimi ondan da gizlətsəm, günah olar.

– Burda Nikolas Klavel adında bir Venesiyalı tacirlə tanış olmuşam, türkcəni yaxşı bilir. Dediyinə görə, Valyadoliddən gələn tacirlər iki Səfəvi təbəəsinin xristianlığı qəbul eləməsi barədə şayiə eşidiblər... – Bünyad bəy susub sınayıcı nəzərlərini üzümdə saxladı, açıq-aşkar cavab gözlədiyini bildirdi.

Həmin məqamda hiss elədim, hər şey Bünyad bəyə ayandı, sadəcə, niyyəti baş verənləri mənim ağzımdan eşitməkdi. Ani tərəddüd keçirdim, amma ağlımdan keçdi, dansam, onun inamsızlığına daha da rəvac vermiş olaram, boynuma almağımsa, əksinə qətiyyətini artırar. Nəzərlərimi qaçırmayıb eyhamla sordum:

– Əgər bu şayiə yox, həqiqətdisə, sən bilən, həmin şəxslər kim olar?

– Elə niyyətim də bu həqiqəti səndən eşitməkdi, – Bünyad bəy hər şeyi başa düşürmüş kimi, ehmalca gülümsədi. – Sən Valyadoliddən gəlirsən, olub-keçənlərdən xəbər tutmamış olmazsan...

– İnsan oğlunun məqsədi Allaha qovuşmaqdısa, bu məqsədə hansı din vasitəsilə çatmağın fərqi varmı, Bünyad bəy? – soruşdum. – Bütün olub-keçənlərdən sonra Şahımızın qəzəbindən qurtarmağımızı düşünürsənsə, hansı addımı atacağını özün ayırd elə...

Bünyad bəy ağzını açmamış qapının arxasında tərpəniş duyub şəhadət barmağımı dodaqlarımın üstünə qoydum. Araya düşən səssizlikdə yumşaq ayaq səslərinin necə tələm-tələsik uzaqlaşdığını ikimiz də eşitdik. Bundan sonra nəsə danışmağın yersiz olduğunu hiss eləyən Bünyad bəy ovqatı təlx halda səssiz-səmirsiz çıxıb getdi. Mən də o sirli ayaq səsləri barədə fikirləşə-fikirləşə qaldım. İndi ən xırdaca təhlükə belə, geriyə yolumu bağlaya bilərdi...

*(...Sonra özümü təqdim eləmək üçün vitse-kralın yanına getdim, əlini öpüb, xaç suyuna çəkildiyimi danışdım, o bu xəbərə çox sevindi. Ona övrətimlə oğlumun dalınca məmləkətimə qayıtmaq niyyətimi bildirəndə, vitse-kral təhlükə barədə məni xəbərdar eləməyə başladı, hələ İspan torpağında qalmağı məsləhət gördü. Dedi, mənim xristianlığa keçdiyimi, qardaşı oğlu kimi Valyadoliddə xaç suyuna çəkildiyimi elçi yaxşı bilir, buna görə də vətənə qayıtmağım həyatım üçün çox təhlükəlidi, çünki ya dəniz səfəri vaxtı elçinin əmriylə edam olunacağam, ya da əgər o bunu eləməsə, onda mənzilbaşına çatan kimi, ələ verəcək, əlbəttə, orda məni diri-diri yandıracaqlar. Cavab verdim, xeyirxah münasibətindən çox mütəəssir oldum, məsləhətlərinə görə minnətdaram, amma əminəm, xristianlığa keçməyimdən indiyəcən elçinin xəbəri yoxdu, ona görə də hələlik mənə dostyana münasibət bəsləyir, öz niyyətimi yerinə yetirməkdə israrlıyam. Vitse-kral cavabında dedi, hər şeyi diqqətlə götür-qoy eləyim, hələ vaxt var.*

*Bundan sonra evə qayıtdım, amma nəsə məni narahat eləməyə başladı. Niyyətimdən təkcə özümə yaxın saydığım (mirzələr arasında üçüncü olan) Bünyad bəyin xəbəri varıdı, bu məsələni yalnız onunla açıq götür-qoy eləmişdim.*

*Bir neçə gündən sonra nahardan qalxanda elçimiz Həsənəli bəylə (səfarətimizin mənsəbcə dördüncü mirzəsiylə) öz otağına getdi; şübhə məni bürüdü, qeyri-ixtiyari qulağımı qapıya söykədim. Qulaq asıb söhbətin məndən getdiyini başa düşdüm. Elçi Həsənəli bəyə onu, həm də başqalarını mənimlə çox ehtiyatlı olmaq üçün xəbərdar eləyirdi, deyirdi, mən onun – elçinin mənim Don Juan adıyla xaç suyuna çəkildiyini bildiyimdən qəti şübhələnməməliyəm, sonra dedi, o bu məsələni biz məmləkəti-Səfəviyyəyə qayıdanacan sirr kimi saxlamaq niyyətindədi. Əgər sağ-salamat ora gedib çıxa bilsək, o məni tutub Şahın hüzuruna aparmağı əmr eyləyəcək, Şah da aşımın suyunu verəcək.*

*Şübhəsiz, özümü elə apardım, guya heç nədən xəbərim yoxdu, amma dərhal xidmətçimi vitse-kralın yanına göndərdim, o da məni yaşamağım, rahatlığım üçün lazımi hər şey olan başqa binaya köçürdü...)*

...Məni təhdid eləyən gerçək təhlükədən qurtarmışdım, amma bütün olub-keçənlərin sakitliklə başa çatacağına inanmırdım. İndi fikrimi iki müəmma məşğul eləyirdi: birincisi, Hüseynəli bəy gizli niyyətimdən necə xəbər tutmuşdu, ikincisi, bundan sonra hansı addımları atacaqdı. Əlbəttə, fikirləşirdim, o da Bünyad bəy kimi, Valyadoliddə iki Səfəvi təbəəsinin xristianlığı qəbul eləməsi barədə şayiələrin Lissabonda danışıldığından xəbər tuta bilərdi. Əgər beləydisə, Bünyad bəy otağıma gələn axşam qapının o tərəfində eşitdiyimiz sirli ayaq səsləri kimə məxsusdu?

Əlbəttə, elçinin buyruğuyla da olsa, Yadigar bəy Məhəmmədin bu cür işlərlə məşğul olacağına inanmırdım. Hüseynəli bəy nə vaxtdan bəri şəxsi mirzəsini əvəz eləyən Həsənəli bəyə xəbərdarlıq eləyirdisə, deməli, bizi yoxla-

maq üçün başqa sadiq adamlarından – dilmanc Kərim Toxmaqdan, lap elə süfrəçi Murtuzəlidən, ya da xidmətçilərin, qulamların hansındansa istifadə eləyə bilərdi. Bu məsələdə Bünyad bəydən şübhələnməyi, heç özümə yaxın buraxmaq istəmirdim. Bununla belə, elçi Həsənəli bəyə xəbərdarlıq eləyəndə Bünyad bəyin adını çəkməməsi qəlbimə xal salırdı. Ola bilərdimi, görüşümüzdən sonra elçimiz Bünyad bəyi divara qısnayıb, ona bildiyini dedirtsin? Tərəddüd içində çapalayan Bünyad bəyin belə namərdlik eləyəcəyi ağlıma batmırdı. Amma artıq olan olmuşdu: Hüseynəli bəylə aramızda təzəcə qurmağa başladığımız körpü uçulub-dağılmışdı.

İndi qarşımda iki yol dururdu: ya məmləkətimə qayıtmaq niyyətimdən əl çəkib, Valyadolidə qayıtmalı, ya da niyyətimi gerçəkləşdirmək üçün başqa yol aramalıyam. Hələ ikinci yol məndən ötrü daha məqbuluydu: Valyadolidə qayıdıb, Barselona, Perpinian, Genuya vasitəsilə Venesiyaya, ordan gəmiylə İstanbula gedə bilər, özümü osmanlı türkü qələminə verib Qarsa çatar, ordan məmləkəti-Səfəviyyəyə keçə bilərdim, beləliklə, məmləkətə elçi heyətindən bir neçə ay tez yetişər, Hüseynəli bəy gələnəcən ailəmi götürüb gəmiyə minə bilərdim.

Şübhəsiz, elçimiz mənə qarşı hazırladığı plandan xəbər tutduğumu duymuşdu. Bundan sonra hansı addımı atacaqdı? Artıq özünə başqa yol seçmiş heyət üzvündən əlini üzəcəkdi, yoxsa cürbəcür yollarla qisas almağa çalışacaqdı? İkinci addımı atacağına daha çox inanırdım, çünki səfarətdə özündən sonra ən böyük məqama sahib olan bir adamın dönük çıxıb yad məmləkətdə qalması Hüseynəli bəyi hədsiz çətin vəziyyətə salır, Şahımızın mərhəmətinə

ümid eləmək imkanını azaldırdı. Bu səbəbdən, ölüm təhdidiylə də olsa, məni yolumdan döndərməyə çalışacaqdı, mən də hər cür gözlənilməz hadisəyə hazır olmalıydım.

İndi yeganə həmsöhbətim, ürək-dirək verənim dilmanc Fransisko de San Xuanıydı. Zavallı dilmanc vitse-kralla mənim aramda qalmışdı, üstəlik, həm də həmişə yanımda olmağa çalışır, hər cür gözlənilməz basqına qarşı əlini qılıncının dəstəyindən çəkmirdi. Dərhal Valyadolidə qayıda, fikrimdə tutduğum quru yolla məmləkətimə yollana bilərdim. Amma hələ səbir eləyib, məsələnin nəylə bitəcəyini gözləyirdim. Başqa yerə köçməyimi, guya səfarətimizin qaldığı binada yazmaq üçün şərait olmamasıyla, üstəlik, rütubət üzündən neçə il əvvəlki xəstəliyimin əziyyət verməsiylə bağlamışdım, amma bilirdim, bu cür bəhanələrlə Hüseynəli bəyi inandırmaq çətindi...

## 3.

...İspan məmləkətində qalmağı qət eləyəndən sonra dil öyrənmək səylərimi daha da artırmışdım. Təklikdə olanda dilmanc Fransisko de San Xuanla ispanca danışırdıq, o abırlı müəllim kimi, sözləri düzgün tələffüz eləyib-eləmədiyimə diqqət verir, uğurumu görəndə uşaq kimi sevinirdi. Sonra hardansa köhnə tanışı Migel de Servantes Saavedranın «Qalateya» kitabının birinci cildini tapıb gətirdi. Kitab on altı il qabaq basılmışdı, dilmancın dediyinə görə, don Migel ordakı əhvalatın davamını yazmağa söz versə də, amma başı qalmaqallara qarışdığından, niyyətinə əməl eləyə bilməmişdi.

Vitse-kralın ayırdığı evə köçdüyüm günün axşamı dilmanc bir para məsələləri yoluna qoymaqdan ötrü şəhərə çıxmışdı, mən də ovqat təlxliyinə bir əncam çəkmək məqsədilə hücrəmdə vurnuxurdum. Vitse-kral böyük iltifat göstərib xidmətçi də göndərmişdi, burda qalacağımız müddətdə buyruqlarımızı yerinə yetirəcəkdi. İndi həmin xidmətçi yemək tədarükü görür, hərdən maraqla hərəkətlərimə göz qoyurdu.

Vurnuxmaqdan bezdim, dilmanc Fransisko gələnəcən başımı qatmaq fikrilə İsfahandan bəri özümlə gəzdirdiyim sandıqdan əlhavasına bir kitab götürdüm, şam işığına tutanda gördüm Mövlana Cəlaləddin Ruminin Təbrizdə Mirzə Qədimin kitabxanasından götürdüyüm, hərdən gizlin-gizlin oxuduğum «Məsnəvi»sidi. Gözünü yumub, Allaha təvəkkül açdım, bəxtimə Əzrayılın ölüm mələyi olmasından bəhs eləyən misralar çıxdı. Allah-taala Adəmi yaratmaq məqsədilə mələklərindən dördünü – Cəbrayıl, İsrafil, Mikayıl, Əzraili yerə göndərir, buyurur gil gətirsinlər. Gil

möhkəm olduğuna görə, Cəbrayıl, İsrafil, Mikayıl yerdən qopara bilmirlər, Əzrailsə ağlagəlməz gücü sayəsində gili dartıb qoparır. Bu sərtliyini görüb Rəbbimiz ona can almaq məsələsini tapşırır. Əhvalatda ibrətamiz bir məqam da varıdı: Cəbrayıl gil götürmək istəyəndə torpaq dilə gəlib deyir: «Məndən yaranacaq insan təhlükələrə uğrayacaq... Tanrıya and verirəm, götürmə». Cəbrayıl yumşalıb Allahın hüzuruna əliboş qayıdır. Mikayılla İsrafil də torpağın yalvarışlarını eşidirlər, amma Əzrail ona qulaq asandan sonra deyir: *«Sənin yalvarışlarından ürəyim qanla doldu. Mən mərhəmətsiz deyiləm, hətta o üç saf mələkdən daha mərhəmətliyəm. Fəqət, Tanrının qəhri iki aləmin də helmindən yaxşıdı. Onun qəhrində lütflər gizlidi. Qulağım Onun sözündən başqa bir kəlmə eşitməz».*

Kitabla fal açmaq şakərim yox idi, amma «Məsnəvi»ni örtüb oxuduğum bu əhvalata məna verməyə çalışdım. Ağlıma gəldi, Hüseynəli bəyin bütün qəzəbi can qorxusuyla bağlıdı: iki cüt, bir tək heyət üzvüylə İsfahana qayıdan elçini Şahımızın bağışlayacağı ağlasığan iş deyil. Əlbəttə, Əlfəqih Əmirin ölümüylə bağlı Əlahəzrət Kralın naməsini Qibleyi-aləmə çatdırıb, bu məsələnin altından birtəhər çıxa bilər, amma doğmaca qardaşı oğlunun, üstəlik, məqamına görə səfarətdə ikinci olan şəxsin dönük çıxmasını bağışlayacağı ağlabatan deyil. İndi Hüseynəli bəy məndən ötrü Əzrail sifətindəydi, məqsədinə çatmamış niyyətindən əl götürməyəcəkdi.

Bir qədər sonra qayıdan dilmanc Fransisko şəhərdə gəzən şayiələri də danışdı. Dediyinə görə, mənim başqa yerə köçməyim artıq şübhələr oyadıb, guya elçimizlə aramızda az qala qılınc döyüşü olub.

– Çalışın, elçiylə üz-üzə gəlməyəsiniz, don Xuan, – dilmanc Fransisko məsləhət verməyi özünə borc bildi. – Əgər hələ də məmləkətimizə gedib, ailənizi gətirmək fikrindən əl çəkməmisinizsə, ondan uzaq dolaşmağınız, səbirli olmağınız daha sərfəlidi...

*(...Şübhəsiz, elçi onun niyyətini başa düşdüyümü anladı, mənimlə haqq-hesabı çürütmək üçün bəhanələr axtarmağa başladı, münasibətimiz o qədər gərginləşdi, ikimiz də əlimizi xəncərimizin dəstəyindən çəkmirdik. Əgər dilmanc yanımda olmasaydı, sözsüz, başıma bədbəxt hadisə gələrdi, çünki bütün xidmətçilərin mənə qarşı qalxdıqlarını görürdüm. Elçimizin mənimlə açıq dava-dalaşa çıxması üçün əsaslı bəhanəsi yoxudu, ona görə ki, hələ nə açıq-aşkar, nə də məxsusi olaraq xristian olduğumu etiraf eləməmişdim. Bununla belə, guya məqsədsiz-filansız elçiyə dedim, mən məmləkətimizə dəniz yoluyla, Hindistanı dolanmaqla yox, quru yolla getmək istəyirəm, Venesiyadan keçən yola üstünlük verir, ordan özümü türk qələminə verib, Osmanlıya çatmaq fikrindəyəm, beləliklə, üç, yaxud dörd aydan sonra məmləkəti-Səfəviyyədə olacağam. Elçi məni dinimi dəyişməkdə ittiham eləyib, söz davasına çıxdı.*

*Elçi məni xaç suyuna çəkilməyimi boynuma almaq məcburiyyətində qoyub, onu tərk eləməyə, İspan torpağında qalmağa hazırlaşdığımı başa düşdü. Məni dilə tutmağın ona nəsib olmayacağını, səfarətlə getməyə razılaşmayacağıma inanandan sonra təhqirə görə qisas almağı, mənim qətlimi təşkil eləməyi qərara aldı. Bundan ötrü həmin vaxt Lissabonda olan ispan donanmasının komandanı markiz Santa Kruzun avarlı gəmilərindəki katorqadan bu yaxınlarda azad elədiyi türk (Osmanlı) köləsiylə danışıqlara başladı. Bu türk cangüdəni kimi daim elçinin yanında olurdu, həm türk (bizim), həm də ispan dillərini yaxşı bildiyindən,*

*onun şəxsi dilmancıydı. Buna görə də özümü vitse-kralın yanına saldım, o markiz Santa Kruzla danışmağa razılıq verdi, markiz dedi, şübhəsiz, bu işə qarışacaq. Markiz xəbəri alanda iyirmi əsgərlə sahilə çıxıb, səssiz-səmirsiz türkü tutmağı əmr elədi. Onlar əsiri avarlı qayığa apardılar, orda markizin əmriylə türkü əzişdirdilər, sonra təzədən katorqaya atdılar...)*

...Təhlükənin bu cür sovuşmasında dilmanc Fransisko de Sen Xuanın böyük xidməti oldu. Dilmanc markiz Santa Kruzu Əlcəzair əsirliyindən tanıyırdı, Hüseynəli bəyin təhdidlərinin get-gedə artdığını görəndə çıxış yolu aramağa başlayıb, axırda markizin üzərində dayanmışdı. Mən vitse-kralla görüşəndən sonra markiz dilmancı dərhal qəbul eləyib, vəziyyətdən xəbərdar olmuş, ləngimədən işə qarışmağa qərar vermişdi. Düzü, katorqadan təzəcə azad olmuş türk köləsinin yenə də əsirliyə qayıtması ürəyimi ağrıtdı. O da insanıydı, neçə illərdi, yurd-yuvasının həsrətini çəkmişdi, indi azadlığın bu qədər yaxında olduğu bir vaxtda təzədən zəncirlənməyi heç də insafdan deyildi. Amma dilmanc Fransiskonun əsir türkdən öyrəndiyinə görə, Hüseynəli bəy mənim qətlimin müqabilində köləyə Hörmüz limanınacan aparacağını, ordan İstanbula yola salacağını, üstəlik, ənam verəcəyini deyib, onu yoldan çıxarmışdı. Bunu eşidəndə markiz Santa Kruzun yanına gedib türkü azadlığa buraxmasını xahiş eləmək fikrinə düşdüm, amma dilmanc Fransisko bunu məsləhət görmədi.

Şübhəsiz, bu əhvalatdan sonra mənim səfarətlə birgə Hörmüz limanına getməyim xülyadan başqa bir şey deyildi. İstər-istəməz İrana quru yolla yetişmək barədə fikirləşməyə başladım. Mənim hesabımla Lissabondan

çıxan gəmi Hörmüz limanına ən azı altı aydan sonra çatacaqdı, üstəlik, dəryaların hansındasa quldurlarla üz-üzə gəlmək ehtimalı az deyildi. Amma mən hesabıma görə Allahın köməyilə mənzilbaşına üç, ya dörd ay ərzində yetişərdim. Bundan ötrü Valyadolidə qayıdıb, vəziyyəti Əlahəzrət Krala, hersoq Lermaya, don Alvaro de Karvaxala danışmalı, Əliqulu bəylə görüşməliydim. Sonra Barselona, Perpinan, Genuya, Venesiya yoluyla gedib Ədirnəyə, ordan İstanbula yetişməli, özümü Osmanlı təbəəsi qələminə verib, məmləkətimə keçməliydim. Əlbəttə, İsfahana yollanıb dövlətxanada görünmək böyük ağılsızlıq olardı, təğyirilibas olub, birbaşa Təbrizə yön tutmaq, düz Mirzə Qədimin ocağına gedib, məsələni açmaq, vaxt itirmədən yola çıxmaq daha düzgün yoluydu. Başqa dinə qulluq elədiyimi Mirzə Qədimə deməyəcəkdim, bu xəbərə tab gətirməzdi, heç məni bağışlamazdı da. Əsl niyyətimi külfətim də bilməyəcəkdi, səyahət eləmək bəhanəsiynən Hörmüzə gedib, portəgizlərin, ya da ispanların gəmilərindən birinə minəcəkdim, sonra həqiqəti övrətimə açardım, oğlumsa hələ balacadı...

Bütün günü vurnuxmaqdan səbrü-qərarımı itirmişdim. Düzü, Hüseynəli bəylə aramız açılandan dərhal sonra Valyadolidə yola düşmək istəyirdim, amma hələ öz-özlüyümdə nəyəsə ümid elədiyimdən, Lissabonda qalmalı oldum, ardınca başımın üstünü qətl təhlükəsi aldı. Türk kölə katorqaya atılandan sonra yola çıxmaq barədə fikirləşirdim, vitse-kral məsləhət görmədi. Dediyinə görə, elçimiz adam göndərib, məni yolda öldürtdürə bilərdi, buna görə də heyəti aparacaq gəminin limandan aralanmağını gözləmək daha ağıllı olardı.

Hələ külfətimin dalınca məmləkətimə getmək üçün ümidim tamam ölməmişdi. Baş verənlərdən Əlahəzrət Kralı xəbərdar eləsəm, yol xərclərimi ödəyər, üstəlik, ən azı Venesiyayacan müşayiətçi də verərdi. Bu məsələdə Bünyad bəyin mənə yoldaşlıq eləyəcəyinə inamım yoxudu, çünki İsfahandan çıxandan onun arxada qalanların xiffətini çəkdiyini sezməmişdim. Əliqulu bəy nə qədər comərd, qorxmaz adam olsa da, geri dönməyi ağlına gətirmirdi – bunu Valyadoliddəki söhbətlərimizdə hiss eləmişdim. Beləcə deyəsən, yola tək çıxacaqdım. Daha qorxmalı yerim yoxudu, Allah alnıma nə yazmışdısa, o da olacaqdı. İki ildən çox sürən səfərimizdə bu qədər bəlalardan qurtarmışdı, ümidvardım, yenə məni pənahında saxlayacaq...

## 4.

...Vitse-kralın xəbərdarlığından sonra bir neçə gün gözləməyə qərar verdim. Əlbəttə, bunu dildə demək çox asandı, amma dörd divar arasında oturub vurnuxa-vurnuxa fikirlərini çözələyə-çözələyə qalmaq hədsiz əziyyətli işdi. Hələ beynimdə məmləkətimə qayıtmaq fikrindən, qəlbimdə niyyətimin baş tutacağına dumanlı ümiddən başqa heç nə yoxudu, vaxtı boş-boşuna ötürmək də bir tərəfdən amanımı kəsirdi. Özümdən olsaydı, Hüseynəli bəylə açılışandan sonra heç yarım gün də gözləməzdim, dilmancla Valyadolidə yollanar, məqsədimə çatmaq üçün maneələri aşmağa çalışardım. Amma vitse-kral təhlükənin yekmənalı olduğunu demişdi, mənim də məsləhətə qulaq asmaqdan başqa əlacım qalmamışdı.

Türk köləsi zəncirlənib katorqaya atılandan sonra ilk ağlıma gələn fikirlərdən biri də venesiyalı tacir Nikolas Klaveli tapmaq, onun vasitəsilə Bünyad bəylə əlaqə yaratmaq oldu. Şübhəsiz, özüm şəhərə çıxıb taciri soraqlaya bilməzdim, nahaqdan ağrımayan başıma dəsmal bağlamaq istəmirdim. Yenə əlacım dilmanc Fransiskoya qaldı. Həmin axşam onu Nikolas Klaveli tapmaq üçün göndərdim, özüm də xidmətçiyə qapını dilmancdan başqa kimsəyə açmamağı bərk-bərk tapşırıb hücrəmə çəkildim. Yəqin, başımı qatmağa yazı-pozu, kitablar olmasaydı, dilmanc qayıdanacan duruş gətirə bilməzdim.

İsfahandan bəri iki xidmətçinin burdan-ora, ordan-bura daşıdığı sandığımın yanında diz çöküb, qıfılını açdım, qapağını qaldıranda məni elə tanış qoxu vurdu, bin anlığa ağlım qarışdı, gözlərimə qaranlıq çökdü. Sandığın yarı-

dan çoxu özümlə gətirdiyim kitablarıdı, üstündə Moskovdan bəri hökmdarların, hersoqların, markizlərin verdiyi bəxşişləriydi, Roma papasının, Əlahəzrət İspan kralının bağışladıqları qızıl zəncirləri xırdaca kisəyə qoymuşdum. Məxmər parçaya bükdüyüm Qurani-Kərim bir küncdə dururdu. Gözüm üstü naxışlı dəsmala sataşandasa bütün vücudumu qaplayan hisslərin bolluğundan az qala boğuldum, qəhər hardansa içimin dərinliyindən qalxıb boğazıma dirəndi. Əllərim titrəyə-titrəyə dəsmalı götürüb gözlərimə yaxınlaşdırdım, uzun-uzadı baxdım. Bu naxışları Şahımızın Astrabad səfərindən qabaq ağır xəstələndiyim vaxtda gözəlim Nisəxanım salmışdı. Uzun gecələrdə yastığımın dibində oturub gözlərini üzümə dikir, hər istəyimə əməl eləməkdən ötrü hazır olurdu, gözlərimi yumub huşa gedəndəsə başını qatmaq xətrinə dəsmala naxış salırdı. Əslində, bu naxış yox, rəsm əsəriydi: rəngbərəng güllərin əhatəsində bir gözəl qız ağacdan asılmış gözəl oğlan rəsminə baxırdı. Bu əlbəttə, Nizaminin «Xosrov və Şirin» dastanında Şirinin Xosrovun rəsmini gördüyü səhnəydi, Nisəxanıma Təbriz naqqaşlarının çəkdiyi rəsmi mən göstərmişdim. Toxuma elə zərif, elə canlıydı, o dəm on dörd yaşlı Nisəxanımı gördüyüm çağları xatırladım. Qəfildən könlüm övrətimi, oğlumu, Mirzə Qədimi, Ümleyla xalanı, qardaşlarımı, Təbrizi elə istədi, dəsmalı üzümə sıxıb ağlamaqdan özümü saxlaya bilmədim.

Elə ağlaya-ağlaya da başımı sandığa söykəyib huşa getmişəmmiş. Bir də qapı döyüləndə ayıldım, tələm-tələsik dəsmalı sandığa qoyub, qapağını örtdüm. Gələn dilmanc Fransiskoydu, cəmi bir saat ərzində Nikolas Kaveli tapdığından məmnun halda gülümsəyə-gülümsəyə içəri girdi. Dediyinə görə, tacir elçiylə mənim aramda

baş vermiş əhvalatı eşidib, Bünyad bəylə görüşümüzü təşkil eləməyə məmnuniyyətlə razı olub, özü də köməyini əsirgəməyəcəyinə söz verib...

*(...Həmin əhvalatdan sonra nə elçimizə, nə onun xidmətçiləriylə üz-üzə gəldim, münasibət saxladığım yeganə şəxs Bünyad bəyiydi. Ruhunu xilas eləməkdən, xaç suyuna çəkilməkdən ötrü onu dilə tuturdum. Amma o, hələ də şübhə içindəydi, mənə gah «hə», gah da «yox» deyirdi, ondan xeyli cavan olduğumdan, ümidsizliyə qapıldım, hey Allaha yalvarırdım, təki Allah bu işi yoluna qoysun, dostumu dinini dəyişməyə razı salsın, o da mənim din qardaşım olsun. Biz adətən o vaxtlar Lissabonda yaşayan Nikolas Klavel adlı türkcə çox gözəl danışan venesiyalı tacirin evində görüşürdük. O, hey yalvardığım işi görmək – məhz xaç suyuna çəkilmək üçün Bünyad bəyi dilə tuturdu. Mənə yalnız İlahi qüvvə kömək elədi. Belə ki, bir dəfə Nikolas Kavel onunla türkcə söhbət eləyir, müqəddəs ruhun Mələklərin yanına necə endiyini danışırdı, qəfildən hardan, necə çıxdığı məlum olmayan bir ağ göyərçin uçub otağa girdi, ətrafında oturub söhbət elədiyimiz yazı masasının üstünə qondu. O qədər heyrətlənmişdik, uzun müddət özümüzə gələ bilmədik, baş verəni də ilahi möcüzə hesab elədik. Bünyad bəyə bundan aydın işarə tələb olunmurdu, çünki Allah artıq onun ruhunu yumşaltmışdı, bu səbəbdən dərhal xaç suyuna çəkilməyi qət elədi. Elə ona görə də Bünyad bəyi vitsekralın yanına gətirdim, baş verən əhvalatı danışdım, bu da onu çox sevindirdi...)*

...Vitse-kralın hüzurundan çıxandan sonra Bünyad bəyi birbaşa olduğum evə gətirdim. Görünür, hələ nə baş verdiyini tamam-kamal dərk eləməmişdi, narahat-

lığı üz-gözündən bilinirdi. Yol boyu təskinlik verdim, bu vəziyyətdə səfarətimizlə məmləkətimizə qayıdıb, Şahımızın gözünə görünməyin nə qədər fəna nəticələr verəcəyindən danışdım, mənim fikirləşdiyim kimi, quru yolla gizlicə gedib, külfətini gətirmək niyyətində olub-olmadığını soruşdum.

– Oruc bəy, düzdü, son qərara gəlməyim çox uzun çəkdi, – dedi, – amma düzünü bilmək istəsən, bu barədə İsfahandan çıxan andan fikirləşmişəm. Bu niyyətə düşməyimin şübhəsiz, dinlə heç bağlılığı yoxdu. Mədrəsə bitirmişəm, Qurani-Kərimi öyrənmişəm, Allahın böyüklüyünə, dinimizin ucalığına heç vaxt şəkk eləməmişəm. Məmləkətdə baş verənlərin çoxunun din pərdəsi altında görüldüyünü anlayanda dinə yox, din adamlarına şübhəylə yanaşmağa başlamışam. Səfərdə olduğumuz bu iki il ərzində tərəddüdlərimin böyük bir qismi bununla bağlıydı.

– Fikrimiz bu məsələdə üst-üstə düşür, – dedim, – səfərimizlə bağlı başımıza gələnlər də geriyə yolumuzu bağladı. Cismimin bir parçası olan külfətimi yanımda görmək üçün dünyada hər şeydən keçərdim.

– Mənim bu dərdim yoxdu, – Bünyad bəy kədərlə ah çəkdi. – Ömrümün əlli altı ilini yaşamışam, üç oğul evləndirib, iki qız ərə vermişəm, övrətim biz Qəzvindən İsfahana köçən il xəstələnib öldü. O vaxtdan tək yaşamışam, getdiyim yer dövlətxana, bir də şairlərin, xəttatların, naqqaşların məclisləri olub. Qayıdıb yenə də həmin həyatı yaşayacağam.

– Hələ ömrün sonu deyil, evlənmək olar, – ona ürəkdirək vermək istədim.

– Yox, Oruc bəy, könlümdə kimsəyə yer yoxdu, – cavab verdi. – Əslində, dünyasını dəyişən övrətim də könlümdəki

deyildi. On altı yaşında mənə buta verilən kimsəni əlimdən aldılar, başqa birinə verdilər. O vaxtdan içimdə rahatlıq olmayıb, heç bundan sonra da olmayacaq...

Bu ömür hekayəsini bilmirdim, heç vaxt şəxsi həyatına qarışmaq istəməmişdim. İndi yol boyu içində olduğu qarmaqarışıq ovqatın səbəbini anladım. Mənə elə gəldi, dilə tutmasaydıq belə, Bünyad bəy könlündəki təlatümü başqa cür ovutmağa çalışacaqdı, həm də fikirləşdim, əqidəsini dəyişmək də ona rahatlıq gətirməyəcək, qalan ömrünü çırpıntılar içində keçirəcək...

Bütün söhbətimiz vaxtı dilmanc Fransisko de San Xuan dinməzcə bir kənarda oturub, bizə qulaq asırdı. Araya çökən qüssəli ovqatı yumşaltmaq üçün söhbətin yönümünü dəyişib, Bünyad bəyin vidalaşmaq üçün səfarətimizin yaşadığı evə gedib-getməyəcəyini soruşdu. Bünyad bəy sorğu dolu nəzərlərini üzümə dikdi, elə bil bu sualın cavabını məndən istəyirdi.

– Bünyad bəyin bir daha ora qayıtması məsləhət deyil, – dedim. – Məncə, mənim başıma gələnlərdən sonra Hüseynəli bəy Bünyad bəyin arxasınca da güdükçü salıb, venesiyalı tacirin yanına getdiyini, bizimlə görüşdüyünü indi ovcunun içi kimi bilir. İstəmirəm, təhlükəylə üzbəüz qalsın.

– Bəs... – Bünyad bəy sözünü yarımçıq kəsib susdu.

– Götürməli nəyin varsa, vitse-kralın göstərişi, markiz Santa Kruzun iltifatı sayəsində özünə çatar, – bunu deyib dilmanc Fransiskonun üzünə baxdım.

– Əlbəttə, – dilmanc tələsik razılaşdı, – markiz bu dəfə də köməyimizə yetişər. Mən elə bu gün onunla görüşərəm. Əlahəzrət Kralın himayəsində olan şəxsə qarşı artıq-əskik hərəkətlərə yol verilməsinə markiz Santa Kruz razı olmaz.

– Axşamın xeyrindən səhərin şəri yaxşıdı, deyiblər, – dilmanc Fransiskoya üz tutdum. – Amma bizim səhəri gözləməyə vaxtımız yoxdu. Hüseynəli bəy xoşagəlməz addım atanacan Bünyad bəyi onun xətasından qurtarmalıyıq. Siz mənim adımdan vitse-kralla görüşün, markizlə danışsın, bu məsələni elə bu gecə yoluna qoyaq.

Dilmanc Fransisko tələm-tələsik vitse-kralın hüzuruna yollandı. O qayıdıb bir xəbər gətirənəcən Bünyad bəylə söhbətimizə davam elədik. Yavaş-yavaş atdığı addımın mahiyyətini dərk elədiyini, sakitləşdiyini, daha doğrusu, həqiqətlə, həm də taleyilə barışdığını duyurdum. Külfətimi gətirməkdən ötrü məmləkətimizə qayıtmaq fikrindən tamam əl çəkməsəm də, artıq tərəddüd keçirməyə başlamışdım...

## 5.

...Dilmanc Fransisko gecədən xeyli keçmiş qayıtdı. Artıq Bünyad bəylə çoxdan şam yeməyini yeyib, söhbətimizi bitirmiş, çətinliklə də olsa, səbrimizi basıb yatağımıza uzanmışdıq, amma gözümüz yolda, qulağımız səsdəydi. Dilmancın xoş xəbərlə dönməyi narahatlığımızı bir qədər ovutdu. Dediyinə görə, vitse-kral mənim adımdan gələn dilmancı dərhal qəbul eləyib, vəziyyətdən xəbərdar olandan sonra eşikağasını Fransisko de San Xuanın yanına qoşub, əlinə də tələm-tələsik yazdırdığı naməni verib, dərhal markiz Manta Kruzun yanına göndərib. Markiz naməni oxutdurub, vəziyyətdən xəbər tutan kimi, bir zabitə on iki əsgər götürüb, səfarətimizin yerləşdiyi evə getməyi, markizin adından Bünyad bəyin sandığını götürməyi əmr eləyib.

Zənnim doğruymuş: mənimlə dava-dalaşdan sonra elçi çoxdan bəri şübhələndiyi Bünyad bəyin də dönük çıxacağından qorxub arxasınca güdükçü salıbmış. Venesiyalı tacir Nikolas Klavelin evində görüşümüzdən bu yolla xəbər tutan Hüseynəli bəy qayıdan kimi, Bünyad bəyi gözaltına almağı, gəmiyə minənəcən bayıra buraxmamağı əmr eləyibmiş. Amma Bünyad bəyin birbaşa mənim yaşadığım evə gəlməyi onun bu niyyətinin qabağını alıb. Artıq səfarətin daha bir üzvünü də itirdiyini hiss eləyən Hüseynəli bəy qəzəbindən zəncir çeynəyirmiş, hətta əvvəlcə markiz Santa Kruzun tələbinə əməl eləməkdən də boyun qaçırıb. Amma vitse-kralın eşikağası, dilmanc Fransisko, markizin göndərdiyi zabit artıq Bünyad bəyin Əlahəzrət Krala pənah apardığını, əmrin yerinə yetirilməsi

üçün güc işlətməkdən belə, çəkinməyəcəklərini deyiblər. Məsələnin get-gedə qəlizləşdiyini görən Hüseynəli bəyin geri çəkilməkdən başqa əlacı qalmayıb, xidmətçilərə Bünyad bəyin sandığını gətirməyi buyurub.

Bundan sonra səhər vitse-kralın hüzuruna gedib Vayadolidə yola çıxmaq üçün izin istəməyi, Nikolas Klavelə, markiz Santa Kruzla vidalaşmağı qərara aldıq. Dilmanc Fransisko hər şeyi tez bir zamanda yoluna qoyub səfərə çıxmağın daha düzgün olacağını bir də xatırlatdı, iltifat göstərib yatağını Bünyad bəyə verdi, özüsə xidmətçinin otağında yerləşdi.

O gecə ilan vuran yatdı, amma nə mənim gözümə yuxu getdi, nə də Bünyad bəyin. Dövlətxanaya çağırılıb, bu qədər uzaq səfərə çıxacağımdan xəbər tutanda ən xəyalpərvər adamın belə, ağlına axırımızın qürbətdə qurtaracağı gəlməzdi. Şübhəsiz, taxta çıxdığının səhəri günü gənc Şahımızın adlı-sanlı xanları, əmirləri, sərkərdələri qılıncdan keçirməsi çoxlarının kürkünə birə salmış, gözünü qorxutmuşdu, amma hökmdarın sonrakı fərmanları daha qorxunc oldu. Qibleyi-aləm Pirimiz-Mürşüdümüz, Böyük Sufi Şah İsmayılın vaxtından xanədanın, həm də səltənətin dayağı sayılan tayfaları yavaş-yavaş dövlət işlərindən, üstəlik, qoşundan uzaqlaşdırması, əksər məsələlərdə farslara, kürdlərə arxalanması, qulamları yetişdirib qorxunc qüvvəyə çevirməsi, xristianlığın əl-qol açmasına imkan yaratması bir çox başqa mətləblərdən xəbər verirdi. Hətta Şahın onu taxta çıxaran Mürşüdqulu xan Ustacluya da rəhmi gəlməmişdi, böyük güc olduğunu görüb gizlicə qətlinə fərman vermişdi, sonra da oğlu Allahverdi xanı özünə vəzir eləyib onun əliylə Fərhad xan Qaramanlını aradan

götürmüşdü. O vaxtdan bütün əmirlər, xanlar, bəylər qorxu içində yaşayır, olub-keçənləri fikirləşməyə belə, çəkinirdilər. Bu cür həyat da adamı üzür, rahatlıq tapmağa qoymurdu.

Lissabondakı yuxusuz qaldığım son gecəmizdə baş verənlər barədə düşündüm, ömürlük qürbətdə qalmaqdan ötrü gəldiyim qərarın düzgün, yoxsa səhv olduğunu götür-qoy eləyirdim. Get-gedə külfətimi gətirmək üçün məmləkətimizə getməyin ağılsızlıq olduğuna inamım da artırdı. Dan yeri ağaranda artıq son qərarımı vermişdim: daha bu yoldan qayıdış ola bilməzdi...

*(...Elçimizdən xəbərsiz, həm də heç ləngimədən vitse-kralın əmriylə bizə yol üçün lazım olan hər şeyi verdilər – dilmancın müşayiətilə düz Valyadolidə yollandıq. Saraya gəlib çatan kimi, Əlahəzrət Kraldan görüş istədim, dilmancın vasitəsilə bütün baş verənləri ona çatdırdım, əlavə elədim, İspan məmləkətində qalmaq üçün qəti qərar qəbul elədim, oğlumun əvəzinə Əlahəzrətin hüzuruna mənim ardımca gəlib, xristianlığı qəbul eləmək istəyən dostumu gətirdim. Əlahəzrət həddən artıq məmnun oldu, dedi, Bünyad bəy don Alvaro de Karvaxalın yanına getməlidi, baş keşiş onu yeni əqidəsini qəbul eləməyə hazırlayar.*

*Bundan az sonra Kral Valyadoliddən Eskoriala getdi, onun yanında olan da don Alvaro de Karvaxal öz kapellanını (köməkçisini) göndərib, bizə Bünyad bəyi ora gətirməyi əmr elədi: məlum oldu, o xristian dininin qayda-qanunlarını gözəl bilir. Sonra ona ağ atlas paltar geyindirdilər, hamımız kral kilsəsinə yollandıq, burda xaç atası və xaç anası vəzifəsini Kralla hersoginya Lerma yerinə yetirdilər. Don Alvaro de Karvaxal onu xaç suyuna çəkdi, o Don Dieqo de Persia adı aldı. Kral, bizim artıq xristian olduğu-*

*muzu, ancaq vətənimizdən yüzlərlə ağac uzaqlarda yerləşən bu məmləkətdə yadelli kimi qaldığımızı görən həmin xristian hakimi öz Kral və xristian genişürəkliyilə bizə ildə 1200 tümən təqaüd verməyi, bundan sonra evimizi tikmək üçün əlavə pul ayırmağı əmr elədi. Eyni zamanda sarayda müvəqqəti otaq da verdi. Bizə münasibətdə çoxlu xeyirxah işlər gördü, gündən-günə bu iltifatlar artdı – Kral səxavətinin bəxşişləri həddən artığıydı...)*

...Əlahəzrət Kralın təbəəsi kimi, xristian əqidəsiylə yeni, müsəlmanlardan tamam fərqli həyata başlamağımız qabaqcadan fikirləşdiyim qədər asan olmadı. Əlbəttə, Əlahəzrət Kralın sarayında yaşayırdıq, nazımızı çəkən, qulluğumuzda duran adamlar varıdı, əyləncə məclisləri həmişə yolumuzu gözləyirdi, üstəlik, Kral da, Kraliça da hersoq da, əyanlar da bizə çox mehriban münasibət göstərirdilər, amma üzdə xoşbəxt sayılan bu həyatda çox gərəkli bir şey çatışmırdı. Əvvəllər həmin çatışmazlığın nə olduğunu anlaya bilmirdim. Əliqulu bəylə Bünyad bəy ev-külfət qayğılarından uzaq asudə həyata tez alışa bildilər, mənsə bunu ağır keçirdim.

İlk günlər gözlərimi yumurdum, dərhal xəyalımda qorxunc mənzərə yaranırdı: elçi heyəti Lissabonda gəmiyə minib yola çıxırdı, bir müddətdən sonra Hörmüz limanına yetişirdi, sonra atlara süvar olub İsfahana, Şah Abbasın hüzuruna gedirdi. Az qala üç il Günbatan məmləkətlərinə yollanan heyətin qayıtdığından xəbər tutan dövlətxana əhli sevinə-sevinə onların pişvazına çıxırdı, amma bir vaxt burdan yola saldıqları böyük heyət əvəzinə yalnız elçinin, bir mirzənin, iki dilmancın, bir neçə xidmətçinin, Yadigar bəy Məhəmmədlə qulamların qayıdıb gəldiyini görənlərin

heyrətdən gözləri kəlləsinə çıxır, canına vicvicə düşürdü; vəkil Hatəm bəy Ordubadinin düşüncəli, vəzir Allahverdi xanın təəccüblü, o biri vəzir Xoca Səfərin hiyləgər, İskəndər bəy Münşinin kədərli, o biri əyan-əşrəfin qorxu dolu nəzərləri altında döyüşdən sınıq çıxmış qoşun kimi seyrəlmiş dəstə dövlətxana həyatinə varid olurdu; sonra Hüseynəli bəy Bayatı Şahın hüzurunda diz çökmüş görürdüm, qəzəbindən gözləri qan çanağına dönmüş Şah, iri bığlarının ucunu ağzına salıb çeynəyə-çeynəyə elçiyə nəsə deyirdi, ardınca fərraşlar Hüseynəli bəyi sürüyüb edam yerinə aparırdılar, Şah dönük çıxıb yad məmləkətdə qalanların kafir və xəyanətkar olması barədə ölkəyə car çəkməyi, külfətlərini zindana salmağı əmr eləyirdi. Xəyalıma gələn vaqeənin bu yerində həmişə boğazım qovuşur, gözlərim yaşarırdı.

Həmin məqamlarda xəyalən ata-anamın ruhundan utanırdım, Mirzə Qədimdən, anam qədər istədiyim Ümleyla xaladan, övrətim Nisəxanımdan, oğlum Sultanəlidən, qardaşlarım Yusiflə Mehrəlidən dönə-dönə üzr diləyirdim, onları bu ömrü heç istəmədiyimə, amma özümün ixtiyarımda olmayan alın yazısından da qaça bilmədiyimə inandırmağa çalışırdım. Ata-anamın ruhu susurdu, ustadımın təəssüf, Ümleyla xalanın giley, Nisəxanımın töhmət, Sultanəlinin küskünlük, qardaşlarımın inciklik dolu baxışlarından məni heç vaxt bağışlamayacaqlarını başa düşürdüm. Ha fikirləşirdim, bütün bəlalarımızın kökünü ser Antoniylə Xoca Səfərdə tapırdım: əgər ingilis bəxşişlərlə bağlı hiyləni fikirləşməsəydi, Xoca Səfər öz niyyətinə çatmaqdan ötrü Şahımızı bu yola təhrik eləməsəydi, şübhəsiz, başımıza bu müsibətlər gəlməz, qürbətdə qalmaq fikrinə də düşməzdik.

Bəzən bu addımı atdığıma görə peşmanlıq hissi keçirirdim, tez-tez külfətmi gətirməkdən ötrü məmləkətimə qayıtmadığımdan vicdan əzabı çəkirdim. Əgər məmləkətimə döndüyümə görə ölümə tuş gələcəyimi düşünmüşdümsə, deməli, günaha batmışam. Həmin vaxt Qurani-Kərimin Ənam surəsinin altmış birinci surəsini yadıma gətirirdim: «Bəndələri üzərində yeganə hakim Odur. Sizi qoruyanları (mələkləri) göndərir O. Birinizi haqlayanda ölüm, ondan can alır elçilərimiz, heç nəyi gözündən qaçırmaz onlar». Sonra da neçə illərdən bəri canıma-qanıma yerikləmiş adətim üzrə müsəlmansayaq fikirləşdiyimin fərqinə varıb dolaşıq duyğuların ağuşuna düşürdüm.

Bununla belə, gözlədiyimdən də dözümlü, hətta daşürəkli çıxdım: məmləkətimdən, Təbrizimdən, doğmalarımdan əbədi ayrılıq hissinə alışdım, bundan sonra yaşamaq azacıq asanlaşdı...

# DOQQUZUNCU FƏSİL

*İspan krallığında – Madrid*
*1610-cu ilin payızı*

**Valyadoliddə ikili həyatım, Fransisko de San Xuanın təklifilə kitab yazmağa başlamağım, Lisensiat Alonso Remonun sayəsində ortaya çıxan qadağalar, kitabımın basılması, şer yazmağımın, rəsm çəkməyimin, rəqs eləməyimin İspan məmləkətinə və daha uzaqlara yayılması, donna Annayla eşq hekayətim, Migel de Servantes Saavedrayla görüşüm, qılınc döyüşündə Hüseynəli bəyi öldürməyim, Kral sarayı ilə birgə Madridə köçməyimiz, Əliqulu bəyin evlənməsi, Bünyad bəyin sərgərdan həyat keçirməsi, ölümümlə bağlı şayiə yayılması, ser Antoni Şerliyə rast gəlməyim, nisgil içində ömür sürməyim, Hörmüzə gedən gəmiyə minmək üçün can atmağım, oğluma namə göndərməyim haqqında**

# 1.

...Kim deyir, ömrün sonunu bilmək olar?

Kim həyatının harda, necə bitəcəyini bilir?

Təbrizdə doğulan adam bir vaxt Qəzvində, İsfahanda, sonrasa uzaq İspan məmləkətinin Valyadolid, Madrid şəhərlərində yaşayacağını əvvəlcədən ağlına gətirə bilərdimi?

Amma bütün bunlar oldu. Deməli, alın yazımda ömrümü yad məmləkətdə, başqa ad altında, özgə həyatıyla başa vuracağım varmış...

Ömrümün qırx bir ilini Oruc bəy Bayat kimi yaşamış kəs – məmləkəti yolunda, Təbriz civarında canından keçən Sultanəli Bayatın oğlu həyatını İspan məmləkətinin baş şəhəri Valyadoliddə Don Xuan de Pers adıyla nisgil içində sona yetirəcəkdi...

Amma olan oldu. Biz – mən, Oruc bəy Bayat – Don Xuande Pers, Əliqulu bəy Bayat – Don Filipp de Pers, Bünyad bəy Zülqədər – Don Dieqo de Pers xristian dininin, xristian hökmdarının himayəsinə sığınıb yaşamalı olduq.

Əvvəllər Əlahəzrət Kralın böyük iltifat göstərib, öz sarayında ayırdığı otaqlarda yaşayırdıq, hərəmizə bir xidmətçi ayrılmışdı, artıq axır vaxtlar mənim dilmanca ehtiyacım olmasa da, üçümüzə bir dilmanc – köhnə dostum Fransisko de San Xuan təhkim olunmuşdu. Hər üçümüz Əlahəzrət Kralın xüsusi fərmanı, Kraliça Marqaritanın xeyir-duası, hersoq Lermanın təqdiriylə saray əyanları cərgəsinə qatılmışdıq. Əlahəzrət Kral məmləkətin başqa şəhərlərinə, saraylarından birinə, yaxud ova gedəndə səfərlərə, mərasimlərə çağırılırdıq. Qalan günlər şəhər zənginlərinin

evlərində keçirilən ballara gedir, rəqs eləməyi, xanımlara qulluq göstərməyi öyrənirdik.

Az vaxt ərzində hərəmiz bir yönümdə uğur qazandıq: Əliqulu bəy xanımların qəlbini ələ almaqda həsəd aparılası tərəqqi göstərdi, Bünyad bəy şairlər, rəssamlar arasında şöhrət qazandı, həm də kefli vaxtlarında törətdiyi qalmaqallarla yadda qaldı, mənsə ilk vaxtlar guşənişinliyim, yazı-pozuya çox vaxt ayırmağımla tanındım. Hər ikisindən fərqli olaraq, xristian əqidəsi, xristian həyat tərziylə yaşamağa, ispansayağı geyinməyə çətinliklə alışırdım, üstəlik, məmləkətimlə, külfətimlə bağlı xəyallarımı beynimdən qovmaqda çox əziyyət çəkirdim.

Əlahəzrət Kralın böyük iltifat göstərib verdiyi ildə min iki yüz tümən təqaüd gen-bol yaşamağımıza bəs eləyirdi. Heç altı ay keçmədi, ev tikdirmək üçün ayrılan məbləğə Samano küçəsində hərəmizə bir mülk ucaltdılar. Saraydan həmin mülkə köçüb asudə həyat sürməyə başladıq. Hərəmizin ev işlərinə baxan bir xidmətçisi, bir də aşpazı varıdı. Sarayda yaşayanda tez-tez görüşərdik, indisə hərə öz həyatını yaşamağa başlamışdı. Əliqulu bəy kübar aləmdə dolaşır, Bünyad bəy şairlər, rəssamlarla oturub-durur, mənsə vaxtımın çoxunu kitab oxumaqla, yol boyu kağıza köçürdüyüm qeydlərimi qaydaya salıb, üzünü köçürməklə məşğul olurdum.

Gözlədiyim kimi, xristian olandan sonra da məndən qatı dindar çıxmadı. Özümü hər gün dua oxumağa məcbur eləyirdim, amma dilimdən çıxanlar gedib könlümə çatmırdı, elə bil ağlımla ruhumun, dilimlə könlümün arasında gözəgörünməz uçurum yaranmışdı. Həftədə bir dəfə kilsəyə gedir, şam yandırır, ayinləri icra eləyirdim,

amma heç vaxt özümü Allaha qovuşmağa yaxın saymırdım. Qətlə yetirilmiş Şahzadə Həmzə Mirzəni Ərdəbildə, sufilərin türbəsində torpağa tapşırdığımız vaxt duyduğum o ilahi məqama oxşar bir hiss məni yaxalamırdı. Özümlə tək qalanda qeyri-ixtiyari dualarımı latınca yox, ərəbcə oxuyurdum, onda vücudumu nagahan qorxu hissiylə yanaşı, utanc duyğusu da bürüyürdü.

Şübhəsiz, ən dözülməz acılarım Təbrizdən, külfətimdən, doğmalarımdan ayrı düşməyimiydi. Yurd-yuvamı, övrətimi, oğlumu, ustadımı, ana saydığım ağbirçəyi, qardaşlarımı, sirdaşlarımı bir də görməyi Allah mənə qismət eləyəcəkdimi? Bu qərarımdan xəbər tutanda o günahsız adamlar hansı əzabları keçirəcəklər? Soy-kökümün davamçısı, atamın adını daşıyan oğlum qürbətdə qalmağımla bağlı şayiələrə uymayıb, əsl həqiqəti anlamağa çalışacaqdımı, övrətim üstünə yağdırılan tənə oxlarına tab gətirəcəkdimi? İllər boyu mənə dünyanı da, Allahı da geniş anlamağı tövsiyə eləyən ustadım başqa çıxış yolunun qalmadığını dərk eləyəcəkdimi? Beynimi qurd kimi gəmirən bu sorğulardan can qurtarmaq o qədər də asan deyildi. Nə müddətdən sonra şeir yazmağa *(görünür, keçirdiyim sarsıntılar təkan vermişdi),* yazdıqlarımı ispan dilinə çevirməyə, rəsm çəkməyə başlamışdım – məni əzablardan yalnız bu məşğuliyyət qurtarırdı...

İndi ən sədaqətli adamım dilmanc Fransisko de San Xuan olmuşdu. Demək olar, həftədə iki, ya üç dəfə gəlir, şirin söhbətlərlə başımı qatır, məmləkətdə, şəhərdə, sarayda olub-keçənləri danışırdı. Axırıncı kərə gələndə Migel de Servantes Saavedranın təzədən borc üstündə zindana salındığını xəbər vermişdi. Dediyinə görə, deyəsən, zindan-

da da boş oturmur, növbəti kitabını yazır. Bundan sonra mənə heç gözləmədiyim təklif elədi:

– Don Xuan, bəlkə məmləkətinizdə yazmaq istədiyiniz kitabı burda yazasınız? Fikrimcə, Əlahəzrət Kral sizin məmləkətinizlə bağlı kitabın basılmasına icazə verər...

– Düzü, bu barədə fikirləşmişəm, – dedim. – İstəyirəm, yazdığım kitab həm məmləkətimin tarixindən olsun, həm də səyahətimizdən söhbət açsın...

– Belə bir kitab Günbatan məmləkətlərində də rəğbət görər, – dilmanc Fransisko məni daha da həvəsləndirdi. – Kitabın kastil mətninin hazırlanmasında köməyimizi əsirgəməyəcəyimizə əmin olun.

– Bu barədə kimə müraciət eləmək lazım gəldiyini bilmirəm, – dedim. – Amma don Migelin «Qalateya»sı tərzində bir kitab yazsam, özümü xoşbəxt sayaram.

– Əlbəttə, don Alvaro de Karvaxalla danışsan, daha düzgün olar, – dilmanc Fransisko qətiyyət dolu nəzərlərini üzümə dikdi. – Don Alvaro Əlahəzrət Kralın, Kraliça Marqaritanın, hersoq Lermanın xeyir-duasını alar, qalanı o qədər də çətin deyil.

Təklif ağlıma batdı, yaxın günlərdə don Alvaroyla görüşüb, niyyətimi bildirəcəyimə söz verdim.

Əlbəttə, bir də təkrar eləyirəm, mən İsfahandan çıxanda səfər boyu gördüyüm, eşitdiyim, öyrəndiyim hər şeyi kağıza köçürəcəyimə, qayıdanda Şahımıza çatdıracağıma söz vermişdim, yol gəldiyimiz müddətdə bu sözümü yerinə yetirmişdim, amma məmləkətimizdə kitab yazmaq qismətim deyilmiş. Əgər dilmanc Fransiskonun təklifini həqiqətə çevirə bilsəydim, heç olmasa, azacıq da olsa, məmləkətim qarşısındakı günahımı yuya bilərdim.

Dilmanc Fransiskonun təklifi ağlıma elə batmışdı, o gedəndən sonra özümə dinclik tapmadım, az qaldım, elə indicə durub don Alvaronun yanına gedəm, amma tez də fikrimdən daşınıb, bu niyyətimi sabaha saxladım. Əlahəzrət Kralın da, hersoq Lermanın da, don Alvaronun da mənə hüsn-rəğbət bəslədiklərini bilirdim, istəyimə heç bir qadağa olmayacağına əminliyim varıdı, üstəlik, özümü belə bir kitab yazmağa hazır sayırdım. Ustadım Mirzə Qədimin kitabxanasından götürdüyüm, İsfahandan bəri özümlə danışdığım kitablar karıma gələcəkdi, Minadoinin kitabını oxuyub başa çıxmışdım, dilmanc Fransisko artıq Covanni Boteronun tarix kitabının da ispan dilinə çevrildiyini, basılmağa hazır olduğunu xəbər vermişdi. Bütün bunları əxz eləyib, mükəmməl bir kitab yaza bilərdim.

Elə o axşam kitabımın necə olacağını da xəyalıma gətirdim. Əlbəttə, birinci qisimdə məmləkətimizin lap əski zamanlardan Səfəvi xanədanının hökmdar taxtına yiyələnməsinəcən tarixindən bəhs ediləcəkdi, həm də Günbatan əhli üçün məmləkətimizin, həm də onun hökmü altında olan ölkələrin təsviri, səltənətin dayağı olan tayfalar, adət-ənənələr, hökmdarların mənşəyi, xanədanların nəsil ağacı, xəlifələr, sultanlar haqqında oxuduqlarım – bildiklərim yer tapacaqdı. İkinci qisimdə Böyük Sufinin nəsli, apardığı müharibələr, Şah İsmayılla Sultan Səlim, Şah Təhmasiblə Sultan Murad, Şah Təhmasiblə Sultan Murad, Sultan Muradla Şah Məhəmməd Xudabəndə arasındakı döyüşlər, Şahzadə Həmzə Mirzənin öldürülməsi, atam Sultanəli bəyin şəhid olması, taxt-tac uğrunda qanlı çarpışmalar, Şah Abbasın taxta çıxması, onun hökmüylə çıxdığımız səfərlərdən danışılacaqdı. Üçüncü qismə in-

gilis səfarətimin Qəzvinə gəlməsi, Şahın əmriylə Günbatan məmləkətlərinə yola düşüb Moskov knyazlığından, German imperatorluğundan keçib Roma papasıyla görüşməyimiz daxil ediləcəkdi. Dördüncü qisimdə Genuya limanından çıxdığımız gündən bəri başımıza gələn əhvalatlar, İspan məmləkətində gördüklərimiz, səfarətimizin başına gələnlər, üç mirzənin xristianlığı qəbul eləməsinin səbəbləri yazılacaqdı.

Bütün bunları fikirləşib, özümə tələsməməyi, səbirli olmağı tövsiyə elədim. Amma içimdə bu məşğuliyyətin qürbətdə keçən həyatıma az-çox məna gətirəcəyinə, könlümdəki təlatümü ovudacağına inanırdım. Buna da çox şükür elədim: dərd verən Allah dərmanını da yetirir. Belə halımda yaramın üstünə azacıq məlhəm qoymağa çox ehtiyacım varıdı...

## 2.

Səhəri gün münasib vaxtda xidmətçini göndərib ekipaj gətirtdim, Allahın adını çağırıb saraya yollandım. Dilmanc Fransiskonun yanımda olmasına ehtiyac duymamışdım, don Alvaronun mənə münasibəti özümü arxayın hiss eləməyə yetərliydi. Hicri 1100-cü *(Miladi 1602-ci)* ilin bu soyuq qış günü ekipajın pəncərəsindən küçəyə baxa-baxa qarşıda məni gözləyən görüşün həyəcanını yaşayır, qəlbimin ümidlə dolduğunu duyurdum.

O vaqiələrin baş verdiyi vaxtdan bəri Lissabondan xəbər gözləmişdim, həmin müddətdə dilmanc Fransisko Nikolas Klaveldən bununla bağlı iki namə almışdı. Birinci namədə tacir səfarətin hələ Hörmüzə gedən münasib gəmi tapa bilməməsindən, elçinin böyük ruh düşkünlüyü içində yaşadığından yazmışdı, ikinci namədəsə, nəhayət, səfarətin bir portəgiz gəmisiylə razılığa gəldiyini, bu günlərdə yola düşəcəklərini xəbər verirdi. Ondan sonra tacir işlərinin dalınca Venesiyaya getdiyindən, heyətin gedib-getməməsindən xəbər tuta bilməmişdik. Çox güman, yola düşmüşdülər, çünki başqa cür olsaydı, səfər mütləq Əlahəzrət Kralın sarayına, ən azı hersoq Lermanın yanına qayıdardı, ya da vitse-kral elçinin hələ krallıqda olması barədə ismarış göndərərdi.

Don Alvaro de Karvaxal məni öz hücrəsində qəbul elədi, gülər üz göstərib, həyatımla maraqlandı. Allahın və Əlahəzrət Kralın mərhəmətinə sığınıb rahat ömür sürməyimi arzuladı. Sonra mətləb üstünə gəldik. Don Alvaro Səfəvi məmləkətinin tarixi, səfəvi xanədanı, səfarətimizin Günbatan məmləkətlərinə səfəriylə bağlı ki-

tab yazmaq niyyətində olduğumu eşidəndə çox sevindi, dərhal xeyir-duasını verib:

– Bu niyyətiniz Əlahəzrət Kralın da, hersoq Lermanın da ürəyincə olacaq, mənim balam, – dedi, – krallığımızda da, Avropa məmləkətlərində də ölkənizlə bağlı belə bir kitab çox yaxşı qarşılanar. Lap yaxın müddətdə mən Əlahəzrət Kralla da, hersoq Lermayla da danışıb, kitabın basılmasına izin alaram.

– İltifatınız artıq olsun, müqəddəs ata, – dedim. – Əlbəttə, bu niyyətimi başa çatdırmaqda çətinliklərim də olacaq. Yazdıqlarımı ispan dilinə çevirməkdə, kitab şəklinə salmaqda səriştəli bir şəxsin köməyinə ehtiyacım var. Elə bilirəm, bununla bağlı əlinizdən gələni əsirgəməyəcəksiniz.

– Buna şübhəniz olmasın, – don Alvaro nəvazişlə gülümsəyib xaç çevirdi. – Xristianların himayədarı Əlahəzrət Kral ləyaqətli təbəələrinin xeyirxah əməllərini qiymətləndirməyi bacarır.

Don Alvaronun yanından böyük ümidlərlə döndüm. Daha fikrim-zikrim məni qarşıda gözləyən işlə bağlıydı. İsfahandan bəri kağıza köçürdüyüm qeydlərimi səliqəyə salır, məmləkətimizin tarixiylə bağlı kitablardan iqtibaslar seçir, hökmdarların nəsil ağacıyla bağlı siyahı tərtib eləyir, səltənətin dayağı olan tayfalar barədə bildiklərimi qısaca yazır, Səfəvi xanədanı, aparılan döyüşlər barədə təfərrüatları xəyalımda canlandırırdım. Dilmanc Fransisko de San Xuan bu fikri don Alvaronun rəğbətlə qarşılanmasından çox məmnun qalmışdı, əslində, danışıb-barışmadan mənim köməkçimə, məsləhətçimə çevrilmişdi. Beləcə don Alvaro de Karvaxaldan xəbər gözləyə-gözləyə kitabın yazılmasına hazırlıq işini başa çatdırmışdıq.

Baş keşişin xidmətçisi bir həftədən sonra gəlib, məni ekipajla don Alvaronun hüzuruna apardı. Onun razılıq yağan simasını görəndə niyyətimə izin verildiyini anladım, qəlbim şiddətlə döyündü. Müqəddəs atanın əlini öpüb, xeyir-duasını qəbul eləyəndən sonra göstərdiyi yerdə əyləşdim.

– Allah öz sadiq bəndələrindən mərhəmətini əsirgəmir, mənim balam, – baş keşiş şəfqət dolu nəzərlərini üzümə dikib sözə başladı. – Əlahəzrət Kral niyyətinizdən çox məmnun qaldı, kitabın yazıldığı müddətdə sizin bütün ehtiyaclarınızı ödəməyi, ispan dilinə çevrilməsi üçün səriştəli bir şəxs ayrılmasını buyurdu, şübhəsiz, kitabınızın basılması da Əlahəzrət kralın mərhəməti sayəsində baş tutacaq. Hersoq Lerma da sizə hər cür kömək göstərəcəyini bildirdi...

Qəlbim döyünə-döyünə Allahın mərhəmətinə, xristianların himayədarı Əlahəzrət Kralın səxavətinə, hersoq Lermanın iltifatına, don Alvaronun xeyirxahlığına görə minnətdarlığımı bildirdim.

– Müqəddəs ata, – dedim, – başıma gələn bu qədər əhvalatlardan sonra sığındığım dinin və hökmdarın mənə bu qədər nəcib münasibəti qarşısında deməyə söz tapmıram.

– Allah nəcibləri sevir, mənim balam, – baş keşiş əlini başıma qoydu. – İsa köməyin olsun. – Sonra hücrəsinə girən qara libaslı keşişi göstərdi. – Lisensiat Alonso Ramon Əlahəzrət Kralın buyruğuyla sizə bu işdə kömək eləyəcək.

Lisensiat Ramon ilk baxışdaca məndə xoşagəlməz duyğu oyatdı, amma bunu üzə vurmadım. Onun ciddi, iti, bir qədər də şübhə dolu baxışları mənə rəhmətlik Əlfəqih Əmiri xatırladırdı. Şübhəsiz, əlfəqih Fransisko Quaskenin,

dilmanc Fransisko de San Xuanın sayəsində ispan dilini öyrənmişdim, üstəlik, dilmanc yazdıqlarıma əl gəzdirə bilərdi, amma son söz bu nəzərlərin sahibinin – lisensiat Ramonun olacaqdı, buna zərrəcə şübhə eləmirdim.

Don Alvaroya dedim, kitab yazılıb başa çatanacan lisensiat Ramona ehtiyacım olmayacaq, yalnız basılmağa hazır vəziyyətə gələndə oxuyub fikrini deyə, məsləhətlərini verə bilər. Hiss elədim, bu sözlərim lisensiatın xoşuna gəlmədi, gözlərini acıqlı-acıqlı qıyıb, dodaqlarını büzdü, amma dillənmədi. Baş keşiş arada gözəgörünməz gərginliyin yarandığını dərhal duydu:

– Elə bilirəm, lisensiat Ramonun işinizə yalnız xeyri dəyəcək, – dedi, gərginliyi yumşaltmaq üçün gülümsədi. – Mən kitabın yazılışı barədə vaxtaşırı Əlahəzrət Krala da, hersoq Lermaya da vaxtaşırı məlumat verməliyəm. Güman eləyirəm, artıq məsələnin nə qədər ciddiləşdiyini başa düşürsünüz...

– Başa düşürəm, müqəddəs ata, – dedim, həmin məqamda daha geriyə yol qalmadığını ağlımdan keçirdim.

– Don Xuan, – lisensiat Ramon iti nəzərlərini üzümə dikib soyuq səslə dilləndi. – Hamımız Əlahəzrət Kralın təbəələriyik, verilən buyruğa əməl eləməyə borcluyuq...

Deməyə söz tapmadım, bunu da razılıq əlaməti kimi qəbul eləyib razı qaldılar, həm də mənim vəziyyətimi yüngülləşdirdilər.

Böyük ümidlərlə getdiyim bu görüşdən qarmaqarışıq fikirlərlə döndüm. Dilmanc Fransiskonun təklifini qəbul eləyəndə hər şeyin asanlıqla başa gələcəyinə inanırdım, indisə fikrimdə xeyli yanıldığımı anladım. Mən istəyirdim, yazdığım kitab yad məmləkətdə qalıb xristi-

an dinini qəbul eləmiş, xristian hökmdarın mərhəmətinə sığınmış bir şəxsin qələmindən çıxan etiraf yox, qədim məmləkətin tarixi, adət-ənənələri, qüdrətli səltənətin dayaqları, şöhrətli xanədanın taleyi, səfarətimizin başına gələn vaqiələr barədə mükəmməl əsər olsun, oxuyanlar ordan istədiklərini əxz eləyə bilsinlər. Həyatın işindən baş çıxarmaq olmaz, bəlkə də araya-ərsəyə gətirdiyim kitab gedib məmləkətimə yetişəcəkdi, yazıldığı dili bilənlər oxuyub, məmləkətinə dininə, əsil-soyuna dönük çıxan bir adamın qələmindən çıxdığını görəcəkdilər, həmin şəxsi bu addımı atmağa sövq eləyən səbəblərdən, iç dünyasında keçirdiyi iztirablardan xəbər tutacaqdılar. Qısası, nə vaxtsa məmləkətimdə, əsil-soyumda nifrətlə xatırlanmağımı istəmirdim. Heç istəmirdim...

Dilmanc Fransisko de San Xuan baş verənlərdən xəbər tutanda xeyli susdu, danışmağa söz tapmadı, sonra ehtiyatla fikrini bildirdi:

– Don Xuan, – dedi, – mənə elə gəlir, vəziyyətlə barışmaqdan başqa çıxış yolu yoxdu. Lisensiant Ramondan imtina eləmək də, kitab yazmaq fikrindən daşınmaq da Əlahəzrət Kralın, üstəlik, hersoq Lermanın xoşuna gəlməz. Ümid eləyək ki, lisensiat Ramon sizin kitabınıza xoş niyyətlə yanaşacaq. Gələcəkdə nə olacağınısa zamanın öhdəsinə buraxmaq lazımdı.

Öz-özlüyümdə dilmancla razılaşdım: indiki məqamda Əlahəzrət buyruğuna qarşı çıxmaq onun mərhəmətindən məhrum olmaq deməyiydi, bu da məmləkətinə yolu bağlı olan şəxsdən ötrü ölümə bərabərdi. Bununla da tərəddüdlərimə son qoyuldu, səhəri gün işə başlamağı qət elədim.

Vaxtımın çoxu əlimin altında olan tarix kitablarını araşdırmağa, həmin kitablardan məmləkətimizin tarixinə dair yazılanları seçməyə gedirdi. Əliqulu bəy də, Bünyad bəy də məsələdən xəbər tutmuşdular, daha az-az gəlir, işimə mane olmamağa çalışırdılar. Hersoq Lermanın rüsxətiylə dilmanc Fransisko de San Xuan könüllü köməkçimə çevrilmişdi, hər gün günortadan sonra gəlir, ispanca yazılmış mənbələrdə tapdıqlarını ayrıca kağıza köçürür, lazımlı olub-olmadığı barədə fikrini bildirirdi. Onun Strabondan, Ptolomeydən, Uzun Həsənin sarayına elçi kimi gəlmiş İosafat Barbarodan, Tomas Minadoiddən seçdiklərini saf-çürük eləyir, kitabın hansı hissələrində iqtibas gətirəcəyimi müəyyənləşdirirdim. Özümsə İsfahandan bəri daşıdığım kitabları bir-bir sandığımdan çıxarır, təzədən oxuyur, işimə yarayacaq məlumatları işarələyirdim. İşimizdən yalnız xidmətçi süfrəyə çağıranda, ya da başqa xırda-para ehtiyaclarımız olanda ayrılırdıq. Axşamlar dilmanc Fransisko evinə yollanır, mən də görülən işlər barədə fikirləşə-fikirləşə yuxuya gedirdim.

İlk üç ayımız belə keçdi. Həmin günlərdə dilmanc Fransisko məni bərk sevindirdi: Covanni Boteronun bir qədər əvvəl haqqında danışdığı «Ümumi tarix» adlı ikihissəli kitabını gətirdi. Təzəcə basılmış kitabda dünyanın lap bu yaxınlaradək tarixi təsvir olunmuşdu, şübhəsiz, işimə çox yarayacaqdı. O üç ay ərzində üç dəfə don Alvaro de Karvaxalın yanında oldum, işin gedişi barədə danışdım, bir neçə dəfə lisensiat Alonso Remon evimə gəldi, qeydlərimlə bağlı sorğu-sual elədi. Onun yetik-yetik danışması xoşuma gəlməsə də, susmalı oldum.

Gecələr yatağıma girəndə Təbriz, atam Sultanəli bəyin ölümü, Şahzadə Həmzə Mirzənin qətli, Şah Abbasın qoşunuyla getdiyim səfərlər, külfətim, qardaşlarım, ustadım Mirzə Qədim, anam əvəzi Ümleyla xala, Şahın iribığlı üzü xəyalıma gəlirdi, yuxularımda göydə quş, torpaqda ilan, dəryada balıq olub məmləkətimə doğru can atırdım...

## 3.

Kitabı başa vurmağım bir il çəkdi.

Bu bir ildə tamam guşənişin də olmadım, Əliqulu bəylə Bünyad bəyin təkidinə boyun əyib, məclislərə, ballara, şairlərin, rəssamların məclislərinə getməyə başladım. Bu aləmdə artıq əməlli-başlı şöhrət qazanmış Bünyad bəy məni don Alonso Heronimo de Salaso Barbadilyo, don Avqustin de Virueqa, donna Anna de Espinosa Ledesmayla tanış elədi. Həmin yığıncaqlarda məni şeir oxumağa, rəsm çəkməyə, qılınc oynatma məharətini göstərməyə məcbur elədilər. İspanca yazdığım şeirlər onların çox xoşuna gəlmişdi. Bir müddət sonra don Avqustin, donna Anna mənə ithaf elədikləri sonetlərini göndərdilər. Həmin sonetlərdə boy-buxunum, şərqli xasiyyətimlə yanaşı, şeir yazmaq, rəsm çəkmək, qılınc oynatmaq məharətim də vəsf olunmuşdu, nə gizlədim, bütün bunlar da izzəti-nəfsimi oxşadı.

Seqovalı donna Annayla münasibətlərimiz özümüz də hiss eləmədən adi ünsiyyət hüdudlarından qırağa çıxdı. Daha doğrusu, hər cür görüşlərdən kənar qaçıb, kitabımı yazmaqla məşğul olduğum günlərdə donna Anna evimə təşrif gətirir, mənə gözləmədiyim nəvaziş göstərirdi. Əlbəttə, bu nəvazişlərdən boyun qaçırmadım, nə vaxtdan bəri qadın təmasından ötrü darıxmış cavan kişinin zahidsayaq həyat sürməsi ağılsızlıqdan başqa bir şey olmazdı. Az vaxt içində bu görüşlərimiz kübar aləmin söz-söhbət mövzusuna çevrildi, üstəlik, elə duyğulu çalarla bəzədildi, özümü əfsanələrin, sevgi dastanlarının qəhrəmanlarına oxşatmağa başladım. Bu da azmış kimi, heç tanımadığım qadınlarla şəhvani vaqiələrim dildə-ağızda dolaşırdı.

Bu şayiələrin kimin yaydığını bilmədim, amma keçirdiyi həyata görə, Bünyad bəy barədə danışsaydılar, daha düzgün olardı. Görünür, burda başqa bir sirr varıdı: mən daha cavanıydım, boy-buxunum, ispanca şeir yazmağım, rəsm çəkməyim, qılınc oynatmağım, rəqs eləməyim rəvayətlər yaranmasına daha çox rəvac verirdi. Əslində, uzun müddət donna Annadan başqa yaxınlıq elədiyim qadın olmadı. Hətta bu zərif vücudlu, qara gözlü, kübar xasiyyətli xanıma o qədər aludə olmuşdum, arada nikaha girmək barədə də fikirləşməyə başladım, amma sonra danışacağım bir əhvalat bu arzumun üstündən xətt çəkdi.

Kitabımı 1111-ci ilin *(1603-cü ilin)* ortalarında bitirdim. Dilmanc Fransisko de San Xuanın köməyilə istədiyimi yerinə yetirə bilmişdim. İndi Əlahəzrət Kralın buyruğuyla lisensiat Alonso Remon əlyazmanı oxuyub rəyini deməli, Əlahəzrət Kral don Alvaro de Karvaxalla hersoq Lermanın fikrini öyrənəndən sonra kitabın basılmasına izin verməliydi. Əslində, ən çətin məqamın indi yetişdiyini hiss eləyirdim. Yazdığım müddətdə lisensiat Remon az qala hər həftə başımın üstünü kəsdirib, işin gedişindən xəbər tutsa da, əsas köməkçinin dilmanc Fransisko olduğunu danmağa haqqım yoxdu. Amma vaxt çatdı, lisentiant əlyazmamı götürüb apardı, mən də intizar içində hökmü gözləməyə başladım.

Don Alvaro de Karvaxalın məni çağırıb hökmü elan eləməsi iki ay çəkdi. Lisensiat Remonun rəyinə görə, əlyazmada bir çox qüsurlar varıdı, artıq təfərrüatlara yol verilmişdi, üstəlik, don Xuan xristian dinini qəbul eləməsinin səbəblərini düzgün açmamış, dinə, həm də Əlahəzrət Krala sədaqətinə kifayət qədər yer ayırmamış-

dı. Onun fikrincə, mən kitaba ön söz yazmalı, həm də bu qüsurları aradan qaldırmalıydım. Don Alvaro bütün bunları mənə deyəndə lisensiat Alvaro Remon da yanındaydı, dodaqlarının ucunda özündən razı təbəssümlə dik-dik üzümə baxırdı.

Susdum, bu məqamda nəsə demək Əlahəzrət kralın iradəsinin ziddinə getmək, hersoq Lermaya qarşı saymazlıq, yaxud baş keşişə hörmətsizlik kimi anlaşılardı.

Dilmanc Fransisko de San Xuanın məsləhəti ağlımdan keçdi: «Razılaşmaq, hər şeyi zamanın öhdəsinə buraxmaq»...

Zaman... Zaman mənim düşüncələrimin, əzablarımın, həsrətimin izini saxlayacaqdımı?

Zaman nə vaxtsa həqiqətin ortaya çıxmasına imkan verəcəkdimi?

– Əlbəttə, Əlahəzrət Kralın, Zati-aliləri hersoq Lermanın fikrini, həm də don Alvaro, sizin mövqeyinizi bilmək istərdim, – bütün bunları beynimdən keçirə-keçirə dilləndim.

– Lisensiat Remon Əlahəzrətin kitablarıdı, mənim balam, – baş keşiş mənalı-mənalı gülümsəyib, etirazın faydasız olacağını anlatdı, – o Əlahəzrət Kralın da, Zati-ailələri hersoq Lermanın da fikrini ifadə eləyir. Mən də belə düşünürəm, bu qüsurları aradan qaldırmağınız ancaq xeyrinizə olar.

Araya elə əzici sükut çökdü, səssizlikdə az qala ürəyimin döyüntüsünü də eşitdim. *«Razılaşmaq, hər şeyi zamanın öhdəsinə buraxmaq...»* – dilmanc Fransiskonun məsləhəti yenə beynimi gəmirməyə başladı.

– Yaxşı, müqəddəs ata, – dedim, – o qüsurları düzəldərəm...

...O gündən əzablarım elə həddə çatdı, bəzən hər şeyi atıb, Lissabona getmək, Hörmüzə yollanan gəmilərdən birinə minmək istəyirdim: lisensiat Remonun dediklərini eləməkdənsə, Şahın zindanında çürüməyim, ya da boynumun vurulmağı daha yaxşı olardı. Amma etiraf eləyirəm, buna cəsarətim çatmadı, görünür, belə cəsarətsizlik kitabımın basıldığını görmək istəyim həddən artıq güclü olmasındandı.

Ay yarım lisensiat Remonun zülümlərinə dözməli oldum. Birinci kitaba ön hissə artırıb xristian dinini könüllü qəbul elədiyimi, bu vaxtacan yalançı əqidəyə *(Allah günahlarımı bağışlasın!),* Mühamməddin yalançı təriqətinə inandığıma görə, özümü günahkar saydığımı yazdım, xristian dininin ucalığını vəsf elədim, katolik məzhəbinə təriflər yağdırdım, Əlahəzrət Krala sonsuz sevgilərimi bildirdim. Düzdü, axırda türk və ərəb dillərində savad aldığımı, kitab haqqında fikrimi də qeyd elədim, yazdım, bizim məmləkətdən İspan torpağına səfərimizlə müqayisə oluna biləcək bir səfər yoxdu. Burda lisensiat Remon Marko Polonun, səyyah Enrikonun səyahətlərini misal gətirdi, amma onunla razılaşmadım, çox şükürlər olsun, bu fikrin çıxarılmasında təkid eləmədi.

Görünür, lisensiat Remonun tarixdən o qədər də xəbəri yoxudu, bu səbəbdən, birinci hissənin qalan bölümlərinə, ikinci hissənin yarısına toxunmadı, amma özümün şahid olduğum hadisələrdə təfərrüatın çoxluğunu bəhanə gətirib, xeyli ixtisarlar apardı. Üçüncü hissəylə bağlı çox qızğın mübahisələrimiz oldu: o, yalnız gördüklərimin təsviri olan parçaları saxlamaq, ayrı-ayrı vaqiələri çıxarmaq istəyirdi, mənsə səfərimizin daha da canlı təsvirindən ötrü Migel de Servantes Saavedranın «Qalateya» kitabından təsirlənib qələmə aldığım cəlbedici əhvalatların, öz

başıma gələn hadisələrin qalmasına çalışırdım. Günlərlə davam eləyən amansız çəkişmə lisensiatın xeyrinə oldu: don Alvaro de Karvaxal da onun tərəfini saxlayanda inad göstərməyin artıq olduğunu başa düşdüm. Üstəlik, lisensiat Remonun əl gəzdirməsindən sonra mənim – Oruc bəy Bayatın xristian olub, özümü hədsiz xoşbəxt saydığım ortaya çıxırdı, məni də ən çox ağrıdan buydu. Son anda şənimə yazılmış yeddi sonetin kitaba salınmasına razılıq verməyi də könlümü açmağa bəs eləmədi.

*«Razılaşmaq, hər şeyi zamanın öhdəsinə buraxmaq...»* – son məqamda dilmanc Fransisko de San Xuanın bu məsləhətin, bir də xatırladım. Lisensiat Alonso Ramon əlyazmamı götürüb apardı, bir aydan sonra don Alvarodan Əlahəzrət Kralın kitabımın basılması üçün izin verdiyi xəbərini aldım. Bu xəbər məni zərrə qədər də sevindirmədi, elə bil hisslərim dolaşıq düşmüşdü, tez bir zamanda hər şeyi unutmaq istəyirdim.

Belə məqamda köməyimə Əliqulu bəylə Bünyad bəy çatdı – yenə şer məclisləri, ballar, şəhər gəzintiləri başlandı. Donna Annanın nəvazişləri könül yaramın qaysaq bağlamasını tezləşdirdi. Kitabımın necə basıldığını öz gözlərimlə görmək istəsəm də, lisensiat Remonla rastlaşmamaq xətrinə bu fikrimdən vaz keçdim. Aradabir dilmanc Fransisko gəlir, işin nə yerdə olduğuyla bağlı xəbər gətirirdi. Dediyinə görə, gözlənilməz hadisə baş verməsə, üç, ya dörd aydan sonra kitabım işıq üzü görəcəkdi. Gündüzlər, axşamlar həyatımı görüşlər, məclislər, gəzintilərlə doldursam da, gecələr özümlə təkbətək qalanda hisslərin əlində pəsələng olurdum. Bilirdim, heç kitabımın basılmağı da məni bu əndişələrin cəngindən qurtarmağa bəs eləməyəcəkdi...

Dilmanc Fransisko de San Xuan kitabımın ilk nüsxəsini Hicri 1012-ci *(Miladi 1604-cü)* ilin soyuq qış günlərinin birində gətirdi. Ürəyim əsə-əsə aldım, bir müddət «***İranlı don Xuanın kitabı***» yazılmış cildindən gözlərimi çəkə bilmədim. Sonra kitabı açıb birinci səhifəsində yenə həmin yazını, "1604" rəqəmini, «***Valyadolidin Samano küçəsində yaşayan Xuan de Bostilyo üçün imtiyazla***» sözlərini oxudum. Sonrakı vərəqdə mətndəki səhv getmiş sözlərin siyahısı verilmiş, həmin vərəqin arxasında kitabı 1603-cü il oktyabrın 20-də iezuit Fransisko de Qalarsın təqdir elədiyi, 1604-cü il fevralın 20-dən etibarən hər çap vərəqinin 3,5 maravedi *(ispan puludu)* qiyməti olduğu bildirilirdi. Növbəti vərəqdə mənə müraciətlə Əlahəzrət Kral Üçüncü Filippin basqıya izin verdiyi, mənim Əlahəzrət Krala iltifatım varıdı. Beşinci vərəqdə mənim – Don Xuan de Persin – oxuculara xitabım basılmışdı. Bir vərəqdə doktor Maksimiliano de Sespedeslə donna Anna de Espinosa Ledesmanın mənim şənimə yazdığı sonetlər yerləşdirilmişdi. İki vərəqdəsə lisensiat Alonso Remonun don Alvaro de Karvaxala müraciətlə kitabımı yazmaqda mənə necə kömək elədiyi yazılmışdı. Arxasınca şənimə yazılmış daha yeddi sonetə yer ayrılmışdı. Sonra mənim qələmimdən çıxan, lisensiat Remonun əl gəzdirdiyi üç hissə gəlirdi. Sona yaxın şərq müdrikliyini ifadə eləyən on rübai yer almışdı. Axırıncı on dörd səhifənin on ikisi kitabın müfəssəl məzmununa, ikisisə mətndə rast gəlinən türk sözlərinin izahına ayrılmışdı.

– *Hər şeyi zamanın öhdəsinə buraxdım...* – bilmirəm, bunu özümə, yoxsa dilmanc Fransiskoya dedim.

Sonra ağlımdan keçdi, görən, yazdığım kitab zamanın sınağına tab gətirəcəkmi?..

# 4.

Bir neçə ay ərzində kitabım yayılıb mənə əməlli-başlı şöhrət gətirdi. Oxuyanlar məmləkətimiz, xanədanımız, İsfahandan Valyadolidəcən etdiyimiz səfər barədə mükəmməl, əyləncəli məlumat aldıqlarını söyləyir, şənimə təriflər yağdırır, İspan torpağında basılan ilk məşriqli kitabı olduğundan danışırdılar. Boynuma alım, bütün bunlar, izzəti-nəfsimi oxşayırdı, amma içimdə kitabla bağlı bir para həqiqətləri dilimə gətirə bilməyəcəyimin əziyyətini çəkirdim.

Günlərin birində Əliqulu bəy gəldi, kitabla bağlı yaxşı-pis bir söz demədi, uzun-uzadı susdu, sonra yenə baxa-baxa dilləndi:

– Zamana etibarın çoxdumu, qardaşım?

Hiss elədim, kitabımı oxuyub, mənim içimi gəmirən dolaşıq fikirlər ona da əziyyət verir.

– Bilmirəm, – dedim, – hər halda, azacıq da olsa, ümidim var, yoxsa yaşamaq lap məşəqqət olar...

– Mən zamana bel bağlamaqdansa, bugünlə yaşamağı qət eləmişəm, – Əliqulu bəy dikəlib dik-dik üzümə baxdı, baxışındakı sualı sezəndə gözləmədiyim qətiyyətlə dilləndi. – Qısası, evlənmək istəyirəm, Oruc bəy... Məmləkətimizə yolumuzun bağlı olduğu bir vaxtda həyatımı az-çox mənalı eləmək üçün başqa çıxış yolu görmürəm.

– Belə de... – təəccübümü gizlədə bilmədim, – kimi xoşbəxt eləmək fikrindəsən?

– Donya Luisa de Kirosdu, – Əliqulu bəy, – abırlı ailədəndi, elə bilirəm, bu seçimimdə səhv eləməyəcəyəm...

– Eləsə, mənə xeyir-dua verməkdən başqa bir şey qalmır, – dedim, – təki hər şey könlüncə olsun.

–Nikahın vaxtını hələ razılaşdırmamışıq, – Əliqulu bəy böyük qardaşının yanındaymış kimi, həyalı görkəmlə dedi, – inşallah, qərara gələndə xəbər verərəm.

...Amma Bünyad bəy kitabımı gördüyünü desə də, oxuyub-oxumadığını bildirmədi. Başı kef məclislərindən, qalmaqallardan açılmırdı, hətta bir neçə nəfərlə qılınc döyüşünə çıxmağından da xəbər tutmuşdum. Bu hərəkəti qəlbimə toxunsa da, üzə vurmadım – hərə öz həyatını yaşayır.

Bir müddət sonra dilmanc Fransisko de San Xuan gözləmədiyim xəbər gətirdi: köhnə tanışı Migel de Servantes Saavedra Sevilyadakı yaşayışından bezar olub Valyadolidə köçmüşdü. Dediyinə görə, don Migel aşağı təbəqədən olan adamların yaşadığı məhəllədə ev kirayələyib, indi zindanda yazmağa başladığı, bu yaxınlarda bitirdiyi kitabının basılmasına çalışır, bundan ötrü don Alvaro de Karvaxalın hüzurunda olub, ondan izin almaqdan ötrü Əlahəzrət Krala ağız açmağı xahiş eləyib. Dilmanc Fransisko don Migelə mənim kitabımı da aparıbmış, hətta yaxın günlərdə bizi tanış eləyəcəyinə də söz verib.

Aradan bir həftə ötməmişdi, dilmanc Fransiskoyla şəhərin ucqar məhəlləsində yerləşmiş don Migelin görüşünə getdik. Haqqında o qədər eşitmişdim, az qala qeyri-adi varlıqla qarşılaşacağımı düşünürdüm, amma altmış yaşlarında, üz-gözündən tənhalıq tökülən ortaboylu bir zatla rastlaşanda çaşıb qaldım. Don Migel ikiqatlı evin iki otaq, bir mətbəxdən ibarət qismində hələ tək yaşayırdı, xidmətçi saxlamağa imkanı olmadığından, güzəran qayğılarını təkbaşına çəkmək məcburiyyətindəydi.

Tanışlığımızın lap əvvəlindəcə don Migel kitabımı oxuduğunu dedi, fikirlərini də gizlətmədi:

– Düzünü deyim, don Xuan, – sağ əliylə hərəkətsiz sol qolunu ovuşdura-ovuşdura söhbətə körpü saldı. – Mənə başınıza gələn əhvalatlar tarixi məlumatlardan daha cəlbedici göründü. Əgər mən o cür sınaqlardan keçsəydim, daha mükəmməl kitab yazardım. Amma görünür, əsas səbəb Məşriqdə belə əsərlər yazmaq ənənəsinin olmamasındadı...

Don Migelin məndən ötrü daha əlverişli səbəb tapdığına qəlbimdə sevinib razılaşdım:

– Elədi, don Migel, Məşriqdə obrazlı düşünməyi, fikri nəzmlə ifadə eləməyi xoşlayırlar...

– Lepanto döyüşünün yadigarıdı... – ovuşdurduğu qoluna dikilmiş nəzərlərimi tutub üzünü pəncərədən bir parçası görünən tutqun payız səmasına dikdi. – Düz otuz üç il qabaq osmanlılarla döyüşdə üç güllə yarası aldım, ikisini sinəmdən, birini çiynimdən. Sinəmdəki yaralar sağaldı, qolumsa ömürlük şikəst oldu. Dörd il sonra Qalet qalasında Fransiskoyla tanış olduq. Onda əsir düşüb Konstantinopola aparılmışdı, Qılınc Ali paşanın gəmilərinin birində avarçıydı, məni də quldurlar qardaşım Rodriqoyla birlikdə tutub kölə kimi satmışdılar. Amma Allahın mərhəmətindən don Xuan Avstriyalı Əlahəzrətə tövsiyə naməsi yazmışdı, bu da məni xilas elədi.

– Yeni kitabınız nə haqdadı, don Migel, – soruşdum, – elə bil bununla onu ağrılı xatirələrdən uzaqlaşdırmaq istəyirdim.

– Fəndgir idalqo Don Kixotla onun sədaqətli silahdaşıyanı Sanço Pansonun həqiqət axtarışları haqqında... – o, çönüb dilmanc Fransiskoya baxdı. – Bu kitabımda əsirlikdən qurtulan dənizçinin mavr qıza sevgisini də yazmışam, ancaq o dənizçinin adı Ruy de Perse Vyedmadı.

Heyrətindən dilmancın sifəti uzandı, hələ də eşitdiyinə inanmırmış kimi, don Migelin üzünə baxdı.

– Hə, dostum, – ev sahibi gülümsünüb sağ əlini dilmancın çiyninə vurdu, – donya Zoraida necədi?

– Öz məmləkətinin həsrətini çəkir, – Fransisko dilləndi, – amma məni atmaq fikrində də deyil...

– Bizim donya Katalinasa nə Seviliyaya köçmək fikrinə düşdü, nə də Valyadolidə. Uşaqlarımı birtəhər yola gətirmişəm, bu yaxınlarda gələcəklər...

– Kitabınızın basılması barədə yeni nə xəbər var, don Migel? – Dilmanc Fransisko onu gündəlik qayğılardan ayırmaq istədi.

– Don Alvaronun dediyinə görə, oxuyublar, Əlahəzrət Krala da, hersoq Lerma da basılmasını tövsiyə eləyiblər. Əgər deyilənlər doğrudursa, iki-üç aydan sonra kitab dükanlarına çıxar.

Dilmanc Fransiskonun təkidilə ispanca söylədiyim şeirlər don Migeldə dərin təəssürat oyatdı, bir vaxt rəsmlərimə də baxacağına söz verdi. Dediyinə görə, indi tamaşa göstərmək üçün əsər yazmaq barədə fikirləşirdi.

Sonra xatirələrə baş vurdu, gəzərgi təbib olan atasıyla şəhərlər, kəndlər dolaşdığından, on yaşı olanda Valyadoliddəki iezuit məktəbində oxumağından, Madriddə Xuan Lopes de Oyosun məktəbində təhsilini başa vurmağından, güzəranını təmin eləməkdən ötrü Papa Beşinci Piyin Madriddəki elçisi yanında xidmətə girib açarçı işləməsindən, osmanlılarla müharibədə başına gələnlərdən, beş il qaldığı, dəfələrlə qaçmaq istədiyi əsirlikdən qurtulandan sonra ac qalmamaq üçün yazmağa başlamasından, hətta Saraqosada şairlərin yarışmasında birinci

olub, üç gümüş qaşıqla mükafatlandırılmasından, haqq-hesabda səhlənkarlığı ucbatından həbsxanada yatmağından, bir vaxtlar nikahsız yaşadığı qadından olan qızı İsavelə sevgisindən danışdı.

Don Migelin yanından elə böyük təəssüratla qayıtmışdım, günlərlə eşitdiklərimin təsirindən çıxa bilmədim. Hərdən dilmanc Fransisko gəlirdi, əsirlikdə keçirdiyi günləri yadına salır, elə o vaxtlar onun şeir yazdığını xatırlayır, fəndgir idalqo haqqında kitabının böyük səs-küyə səbəb olacağını deyirdi. Zavallı dilmanc kitabın basılmasını elə həsrətlə gözləyirdi, az qala yemək-içməkdən də kəsilmişdi.

– Məni sorğu-suala tutub danışdıranda heç başıma gələnləri kitaba yazacağını ağlıma da gətirməzdim, – dilmanc Fransisko heyrətlə başını bulayırdı. – Bilirsiniz, don Xuan, «Qalateya» kitabı basılanacan onu ciddi qəbul eləmədim, fikirləşirdim, yəqin, ağlına gələni yazır. Amma fəndgir idalqo barədə yazdığının çox yaxşı kitab olacağına inanıram.

– «Qalateya»nı oxuyandan sonra mənim də buna şübhəm yoxdu, – onun fikrinə şərik olurdum.

...Təxminən iki ay keçmişdi, soyuq qış günlərinin birində dilmanc Fransisko özünü içəri salıb, qoynundan çıxardığı kitabı göstərəndə sevincinə necə şərik olacağımı bilmədim. Dediyinə görə, artıq Madridli kitab taciri Fransisko de Robles müştərilərin əlindən zinhara gəlib. Sonra köhnə dostu Migel de Servantes Saavedranın «Lamançlı fəndgir idalqo Don Kixot» kitabını vərəqləyib, öz hekayətini tapdı, xırdaca yanlışlıqlar olsa da, başına gələnlərin çox gözəl yazıldığını etiraf elədi.

Dilmanc Fransisko kitabı mənə gətirmişdi. Üç qış günündə oxuyub başa çıxdığım fəndgir idalqoyla silah-

daşıyanı haqqında bu məzəli hekayət o qədər xoşuma gəldi, könlümdən belə bir kitab yazmaq keçirdim. Təkcə elə şahzadə Həmzə Mirzənin başına gələnləri yerli-yataqlı, bəzəyib-düzəyib kağıza köçürsəydim, yaxşı kitab alınardı. Düzdü, o kitabda gülməli əhvalatlar az olardı, ya da heç olmazdı, amma on doqquz yaşlı Şahzadənin cavanca çağında göstərdiyi igidlikləri, qılığına girən dəllək tərəfindən qətlə yetirilməsini bu cür qələmə ala bilsəm, cahanşümul kitab çıxardı.

Dilmanc Fransisko Osmanlı paşası Qılınc Ali paşa, qorxunc Sarı Saqqal, onun oğlu Cəzair hakimi Həsən paşa, nəvəsi Məhəmməd bəy, Hacı Muraddan gəmilərdə avar çəkdiyi vaxtlardan xatirələrini elə gözəl nağıl eləyirdi, o əhvalatları qələmə almağı da dönə-dönə ağlımdan keçirdim. Fikrim vardı, bir müddət sonra don Migelin kitabları tərzində kitab yazmağa başlayım. Elə lisensiat Remonun məsləhət görmədiklərini yerinə qoyub üçüncü hissəni təzədən yazsam, atam Sultanəli bəyin, Şahzadə Həmzə Mirzənin, özümün başına gələnləri, səfarətimizin İsfahandan Valyadolidəcən səfərini olduğu kimi təsvir eləsəm, şübhəsiz, maraqlı kitab çıxar.

Bu fikrimi Fransiskoya dedim, çox bəyəndi, əlindən gələn köməyi göstərəcəyinə söz verdi. Qərara aldım, şerlərimin üzünü köçürüb divanımı tərtib eləyəndən sonra bu barədə ciddi düşünüm. Divanımın tərtibinə kitabımı basılmağa verən günün səhəri başlamışdım. Əvvəlcə məqsədim intizarımı ört-basdır eləmək, başımı qatmağıydı, gündə üç-dörd şeir köçürürdüm. Get-gedə həvəsə düşdüm, divan tərtibinə qərar verdim. Ömür vəfa eləsə, divanımı ispan dilinə çevirib, basdırmaq istəyi də könlümdə baş qaldırmaqdaydı...

## 5.

– Əmim Valyadolidə qayıdıb!

Həmin günlərin birində özünü təngnəfəs içəri salan Əliqulu bəydən bu sözləri eşidib əvvəlcə qulaqlarıma inanmadım. Amma o, Hüseynəli bəyin dünən sarayda hersoq Lermanın hüzurunda olduğunu, ona Əlahəzrət Kralın təbəəliyinə keçmək arzusunu çatdırdığını xəbər verəndə eşitdiklərimi həqiqət kimi qəbul eləyə bildim. Əliqulu bəyin söylədiyinə görə, Hüseynəli bəy artıq İsfahanda pis aqibətlə üzləşəcəyini bilirmiş, bu səbəbdən, Hörmüzə yollanan portəgiz gəmisinə könülsüz minib, üç ay dəryada üzəndən sonra həmin gəmi Hindistan yaxınlığında tufana düşüb, səfarətdən təkcə Hüseynəli bəylə qulam Şəmsəddin sağ qalıblar, təsadüf üzündən rast gələn bir flamand gəmisi onları Kəlküttəyə çatdırıb. Aylarla sərgərdan həyat keçirəndən sonra qulam Şəmsəddin məmləkətimizə getməyə, Hüseynəli bəysə canının qorxusundan Lissabona gələn ispan gəmisinə minməyə qərar verib. Elə gündəymiş, Səfəvi Şahının elçisi olduğuna gəmiçibaşını güclə inandıra bilib. Lissabonda gəmidən düşəndə birbaşa vitse-kralın yanına gedib, onun himayəsilə Valyadolidə gəlib...

O məqamda nə vaxtsa Hüseynəli bəylə üz-üzə gələcəyimi beynimdən keçirdim. Bunu heç istəmirdim, Əliqulu bəy də arzulamırdı, amma elçinin düçar olduqlarına görə bizdən mütləq qisas alacağına şübhəmiz yoxudu. Mən baş verəcək faciəni mümkün qədər uzaqlaşdırmaq üçün küçəyə çıxmamağa, məclislərə getməməyə çalışırdım, Əliqulu bəy Barselonaya, Bünyad bəysə Madridə yollanmaqla Hüseynəli bəyin qəzəbindən can qurtarmağı fikirləşirdilər.

Ürəyimə daman bədbəxtlikdən cəmi ikicə ay qaça bildim.

...Hüseynəli bəylə doktor Maksimiliano de Sespedesin evində portəgiz dostu Pinyero de Veyqanın şərəfinə təşkil olunan balda üz-üzə gəldik. Doktorun ikimizi də həmin məclisə dəvət eləməsinin təsadüf, ya da qəsd olduğunu təsdiqləyə bilmərəm. Bununla belə, ora getməyim də, Hüseynəli bəylə rastlaşmağım da, münasibətimizi qılıncla ayırd eləməyimiz də görünür, alın yazımızda varmış.

Üz-üzə gələndə çaşdım, əvvəlcə ötüb-keçmək, sonra bir bəhanəylə çıxıb getmək istədim, ama Hüseynəli bəy geri çəkilməyə yol qoymadı, qəzəbindən qan çanağına dönmüş gözlərini üzümdən çəkmədən qılıncını sıyırıb:

– Xain, satqın, kafir! – qışqırdı, – mən indi sənin bağırsaqlarını çölə tökərəm!

Aləm gözlərimdə qaraldı, qılıncımı necə sıyırdığımı, Hüseynəli bəyin zərbəsini necə dəf elədiyimi, sonrakı zərbəylə sinəsini necə deşdiyimi bilmədim. Özümə gələndə biçarə elçi yerə yıxılıb xırıldayır, ağzından qanlı köpük daşırdı. Bu qəfil vaqiədən özlərini itirənlər indi özlərinə gəlirdilər.

Doktor Maksimiliano yaralıya kömək eləyə bilmədi.

Saysız-hesabsız döyüşlərdə olsam da, elə bil məni qan tutmuşdu, nə baş verdiyi hələ şüuruma çatmamışdı. Doktorun qonaqlarından kimsə qanlı qılıncı əlimdən aldı, qını kəmərimdən açdı, sonra iki nəfər ekipaja əyləşdirib evimə gətirdi. Bütün gecəni gözümü yummadım, nəzərimi boşluğa dikib, dan yeri ağaranacan dinməz-söyləməz oturdum.

Səhəri gün axşama yaxın Hüseynəli bəy Bayatı xristian qaydasınca dəfn elədilər. Düzdü, xristianlığı qəbul eləməmişdi, amma o ətrafda bir müsəlman tapılmamışdı,

üstündə Quran oxusun. Əlahəzrət Kral Madriddə olduğundan, dəfndə hersoq Lerma iştirak eləmişdi. Bütün bunları mənə dilmanc Fransisko de San Xuan danışdı.

Üçündə gedib qəbrini tapdım, yasin oxuyub borcumu verdim, elə bil bir az yüngülləşdim. Sonra hər cümə axşamı gedib yasin oxudum.

Yeddisində, qırxında da getdim.

Hüseynəli bəyin ölümündə özümü günahkar sayırdımmı? Dəqiq deyə bilmirəm. Əgər cəld tərpənməsəydim, şübhəsiz, onun qılıncı mənim sinəmi deşəcəkdi. Amma əlim bir vaxtlar xeyirxahım olmuş bir kəsin qanına batdığından, vicdan əzabı çəkirdim.

İki Səfərinin qılınc döyüşünə çıxması, birinin ölməsi haqqında xəbər şəhərə tez yayılmışdı. Əlahəzrət Kral Madriddən qayıdanda bu məsələni eşidib çox kədərlənmişdi. Əlbəttə, hər şey açıq-aşkar baş verdiyinə görə, Əlahəzrət Kral cəzalandırılmağıma razı olmadı.

Əliqulu bəylə Bünyad bəy ağızdan-ağıza dolaşan əhvalatı eşidib Valyadolidə qayıtdılar. Əliqulu bəy əmisinin başına gələnlərdən xəbər tutub çox kədərlənmişdi, amma nə qisas almaq fikrinə düşdü, nə də mənimlə üz-üzə gəlməyi arzuladı. O vaxtdan bir-birimizdən uzaq dolanmağa başladıq. Aradan altı ay ötəndən sonra eşitdim, San-Pedro kilsəsində Xuan de Kirosla donya Mariya de Arsanın qızı Luisayla nikaha girib. Şahidliyi dostları Xuan de Olabe, Xuan de Robles, Qabriel Sançes eləmiş, nikahı doktor Migel Qomes bağlamışdı.

Bünyad bəylə gec-gec rastlaşırdıq, şairlərin, rəssamların, oyunçuların arasında özünü elə yaxşı hiss eləyirdi, nə məmləkəti, nə də mən yadına düşürdüm...

Elə o vaxtlar Əlahəzrət Kralın sarayı Madridə köçürməklə bağlı fikirləşdiyi barədə şayiə dolaşmağa başladı. Əgər deyilənlər düz çıxsaydı, ilin axırınacan yeni məskəndə qərar tutacaqdı. Şübhəsiz, bizim Madridə köçməyimiz Əlahəzrət Kralın istəyindən asılı olacaqdı.

...Ömrümün o ayları çox sıxıntılı keçdi. Eşq macəralarımla bağlı ağlasığmaz, əfsanəyəbənzər şayiələr dolaşsa da, az qala guşənişin olmuşdum. Şairlərin, rəssamların, oyunçuların məclislərinə, rəqs gecələrinə getmirdim, orda Əliqulu bəylə rastlaşmaq, Bünyad bəyin arsız hərəkətlərini görmək məndən ötrü dözülməz dərd olardı. Könlümdə baş verən təlatümləri yalnız donya Annanın nəvazişləri, sədaqətli sirdaşım Fransisko de San Xuanın qardaş münasibəti ovudurdu. Donya Annanın zərif vücudunun təması da, içdən gələn səslə oxuduğu şeirləri də məni bir müddət qəmli düşüncələrin əlindən alırdı. Dilmanc Fransiskonun əsirlikdə çəkdiyi əzablar barədə danışdıqlarısa, öz dərdlərimi unutdururdu.

Elə o vaxt da kitabım basılandan bəri götür-qoy elədiyim niyyətimə əməl etməyə başladım. Şeirlərimin üzünü köçürəndən sonra kitabımın ikinci hissəsindən atam Sultanəli bəyin, Şahzadə Həmzə Mirzənin, özümün başıma gələnləri, üçüncü hissəsindən lisensiat Remonun «məsləhət görmədiklərini» bir yerə yığıb, düzəlişlər apara-apara üzünü təzədən köçürməyə başladım. Dilimə gətirməsəm də, istəyirdim, heç olmasa, məndən sonra ömür hekayətim barədə həqiqət qalsın. Bəlkə də bu yazdıqlarım nə vaxtsa üzə çıxacaq, çox şeylərin istədiyim kimi yox, iradəmin xaricində baş verdiyini məlum eləyəcəkdi – yeganə istəyim də elə buydu.

Axır vaxtlar məmləkətim, Təbrizim, övrətim, oğlum, ustadım, doğmalarım tez-tez yadıma düşürdü, xəyalımda canlanan surətlər ağlımı başımdan çıxarır, gözlərimə qaranlıq gətirirdi. Gecələr yatağımdan dik atılıb, az qala pırtlayıb çıxacaq ürəyimi ovutmaq üçün sinəmi ovuşdura-ovuşdura vurnuxur, özümə yer tapa bilmirdim. Həyat mənə qarşı niyə belə amansız olmuşdu? Cavanca yaşımda ata-anamı itirmişdim, ömrümün neçə ili dava meydanlarında keçmişdi, axır dinc günlər, yazı-pozu barədə fikirləşəndə qismətimə sonu dönüklük, ayrılıq, tənhalıqla bitən uzun səfər çıxarmışdı.

Mən bu cür ömür arzulamamışdım.

Bəxtimə düşənlər qarşısında aciz qaldığım alın yazısından başqa bir şey deyildi...

...O günlərin birində hersoq Lerma arxamca ekipaj göndərib məni hüzuruna dəvət elədi. Hüseynəli bəylə bağlı hadisəyə görə təəssüf elədiyini bir də bildirdi, Əlahəzrət Kralın mənə münasibətinin əvvəlki kimi yaxşı olduğunu dedi, sonra mətləb üstünə gəldi.

– Don Xuan, Əlahəzrətin qərarına görə bir neçə həftədən sonra sarayımız Madridə köçəcək. Bütün hazırlıqlar artıq görülüb. Əlahəzrət Kral himayəsindəki adamların Madriddə də yanında olmasını istəyir. Sizin, Don Filippin, Don Dieqonun Madridə köçməyinizlə əlaqədar son qərarınızı bilmək istərdik...

Əslində, şayiələr çıxandan bəri özümü buna daxilən hazırlamışdım: bundan belə Valyadoliddə, yaxud Madriddə yaşamağımın məndən ötrü fərqi yoxudu.

– Zati-aliləri, – dedim, – Əlahəzərt Krala bu iltifatına görə ancaq minnətdarlıq eləyə bilərəm. Onun himayəsində

yaşamaq mənə ancaq şərəfə gətirir. Ümidvaram, Don Filipplə Don Dieqonu zati-aliləri özü xəbərdar eləyəcək.

Hersoq eyhamımı başa düşdü, gülümsünüb:

– Bundan narahatlığınız olmasın, – dedi, – gedin, yola hazırlaşın.

...Madridə yola çıxmağımız üç həftə çəkdi. O üç həftə ərzində Samano küçəsindəki evimi satdım, yır-yığışımı elədim, yaxın ünsiyyətdə olduğum adamlara baş çəkib vidalaşdım. Şübhəsiz, məni ən çox ağrıdan donya Annayla ayrı düşməyimiz oldu. Onunla göz yaşları içində vidalaşdıq. Qəlbimin hərarətindən başqa heç bir şey verə bilmədiyim bu günahsız məxluq Seqovaya qayıdacağını, ömür vəfa eləsə, Madriddə görüşəcəyimizi dedi.

Yeganə təsəllim hersoq Lermanın xidmətində olan sirdaşım dilmanc Fransisko de San Xuanın Madridə köçməsiydi. Elə Migel de Servantes Saavedranın görüşünə də birgə getdik. Fəndgir Lamançlı Don Kixot haqqında kitabı dönə-dönə basılıb, yaxşı satılsa da, güzəranında hələ də dəyişiklik olmamışdı, külfətini çətinliklə dolandırırdı. Dediyinə görə, Araqonun Tordesilyas əyalətindən Avelyaneda soyadlı bir zat Don Kixot barədə kitabın davamını yazmağa başlayıb, belə saxtakarlığın qabağını heç cür ala bilmir, bu səbəbdən əsəbləri tamam korlanıb. Don Migelin ruhi vəziyyəti qəlbimi ağrıtdı, ona yardım eləmək istədim, amma qürurunu sındırıb götürmədi, bir neçə aydan sonra Madridə köçmək fikrində olduğunu dedi.

Hüseynəli bəyin məzarına da baş çəkdim. Üstündə yazısı olmayan bir daş parçası varıdı, torpağa yapıxıb, yerlə yeksan olmuşdu. Göz yaşları içində yasin oxuyub, Allah-

dan rəhmət dilədim, ruhundan günahlarımın bağışlanmasını istədim.

Madridə hersoq Lermanın köçüylə çıxdıq. Əliqulu bəylə Bünyad bəy bir neçə həftə sonra yola düşəcəkdilər. Ömrümün az qala beş ilini keçirdiyim şəhərlə məni bağlayan xatirələr yaddaşımdaydı, özümləsə sandıq dolu kitabdan, paltarlarımdan, bir də şəxsi şeylərimdən başqa heç nə götürmədim...

## 6.

Pulum Madriddəki saraya yaxın küçələrin birində münasib ev almağa, xidmətçi saxlamağa bəs elədi. Əlahəzrət Kralın səxavətindən min iki yüz tümənlik təqaüdüm gün-güzəran dərdi çəkmədən yaşamağıma bəs eləyirdi. Əliqulu bəy donya Luisayla iki küçə uzaqda məskən salmışdı, yerləşəndən bir neçə ay sonra oğlu dünyaya gəldi. Bünyad bəy ev almadı, kübar məhəllələrin birində üç otaq kirayələdi, gününü yenə şairlərin, rəssamların, oyunçuların arasında keçirir ölçüsüz-biçisiz həyat sürürdü.

Hərdən saraydakı qəbullara dəvət eləyir, Əlahəzrət Kralın əyalətlərə, başqa şəhərlərə səfərində yada salırdılar. Əlbəttə, bu mərasimlərdən boyun qaçıra bilmir, özümü qayğılardan uzaq bir adam kimi göstərirdim, amma çəkdiyim mənəvi əzabların get-gedə səhhətimə pis təsir elədiyini də duyurdum. Madridə köçəndən bir il sonra ağır xəstələndim, ay yarım yataqdan dura, üç ay evdən eşiyə çıxa bilmədim. Həmin müddətdə dilmanc Fransiskonun məndən ötrü nə qədər narahatlıq keçirdiyini ömrümün axırınacan unutmaram. Dilmanc hersoq Lermanın köməyilə ən yaxşı təbiblər tapıb gətirdi, gün-güzəran qayğılarımı üzərinə götürdü. Görünür, döyüşlərdə çəkdiyim, səfərdə qarşılaşdığım əziyyətlər, yurdumdan, doğmalarımdan ayrı düşməyim, kitabımın bu cür basılması, Hüseynəli bəyin faciəsiylə bağlı sarsıntılarım izsiz ötüşməmişdi, bu səbəbdən, səhhətimin düzəlməyi gözlədiyimdən çox sürdü.

Hərdənbir məmləkətimdən İspan torpağına gəlib çatan xəbərləri də eşidirdim. Bu xəbərləri ispan, portəgiz, ingilis gəmilərində Hörmüzdən gələn səyyahlar, tacirlər,

cürbəcür adamlar gətirirdilər. Eşitdiyimə görə, Şah Abbas bizim yolumuzu il gözləmiş, Günbatan hökmdarlarından gələcək köməyə bel bağlamışdı. Göndərdiyi səfarətin dəryada qəzaya düçar olmasından xəbər tutandasa, daha ləngiməyin faydasızlığını görüb, Təbrizi osmanlılardan qurtarmaq qərarını verib. 1603-cü ilin payızında on dörd gün ərzində qoşunu İsfahandan Təbrizə yeridib, Əmirgün xan Qacarın, Zülfüqar xan Qaramanlının köməyilə bir aya osmanlıları şəhərdən çıxarır, ardınca Naxçıvanı, Culfanı, Ordubadı geri qaytarıb. Ordan Cəlaloğlu Sənan paşanın Təbriz üzərinə gəldiyini eşidib, təzədən osmanlıların qarşısına çıxıb, Sufian kəndi yaxınlığında baş verən döyüşdə elə parlaq qələbə qazanıb ki, bundan sonra Qarabağla Şirvanın yolu açılıb. Şah Abbas Gəncə qalasını dörd ay mühasirədə saxlayandan sonra ələ keçirib, Hüseyn xan Müsahib Qacarın yerinə Məhəmməd xan Ziyadoğlu Qacarı Qarabağ bəylərbəyi təyin eləyib. Bir neçə ay Gəncədə qalıb Lori, Dumanıs, Tiflis üzərinə gedir, yarım ilə Şamaxını osmanlılardan təmizləyir, dalınca Bakıyla Dərbəndi geri qaytarıb. Beləcə Şah Abbas Avropa hökmdarlarından gözlədiklərini öz qüvvəsiylə dörd il ərzində həyata keçirib.

Gələnlər onu da danışırdılar, Şah Abbas ser Antoni Şerlinin qardaşı Roberti öz elçisiylə Günbatan hökmdarlarının hüzuruna göndərib. Görünür, osmanlıların əldən çıxan torpaqları qaytarmaq təhdidi çox güclüydü, yoxsa Şah bir qardaşın uğursuz səfərindən sonra o biri qardaşa bel bağlamazdı. Bu xəbəri alandan sonra səfarətin nə vaxtsa Madriddə peyda olacağına şübhə eləmirdim. Əlbəttə, gələnlərlə görüşüb, kəlmə kəsmək ürəyimdən keçirdi, bununla belə, görüşün mənə təskinlik gətirəcəyinə, yaraları-

mı sağaldacağına heç inanmırdım, əksinə, ağızdan-ağıza dolaşan şayiələri eşidib, mən qarşı nifrətlərini cilovlaya bilməyəcəkləri daha çox ağlıma batırdı.

Yaşım əlliyə yaxınlaşsa da, hələ görkəmimdə qocalıqdan əsər-əlamət yoxudu. Zənənlər dalımca baxıb öks ötürürdülər, nə gizlədim, donya Annadan uzaq düşdüyümə görə, zahid həyatı keçirmək fikrində deyildim. Zövq əhli olanlar şerlərimi rəsmlərimi tərifləyirdilər, ehtiyac duysam, qılınc döyüşünə də girə bilərdim. Amma bütün bunlardan divanımın basılmasını üstün tutardım. Bu niyyətlə əlyazmamı don Alvaro de Karvaxala vermiş, Əlahəzrət Kralın, hersoq Lermanın xeyir-duasını almağı təvəqqe eləmişdim. Hüseynəli bəyin faciəsindən sonra üzə vurmasa da mənə rəğbəti gözgörəti dəyişmiş baş keşiş, elə hey bu məsələni təxirə salır, qəti cavab vermirdi. Hətta ümidlərimi üzüb bir neçə dəfə əlyazmamı geri almaq fikrinə düşmüşdüm, amma hər dəfə don Alvaro ümid verir, yaxın vaxtlarda Əlahəzrət Kralın xeyir-duasını alacağını söyləyirdi.

Bir neçə ay sonra bütün şəhər Bünyad bəy Zülqədərin – don Dieqonun başına gələnlərdən danışmağa başladı. Hansı səsli-küylü məclisdəsə nə vaxtdan bəri canbir sirdaş olduğu ədib Alonso Heronimo de Salaso Barbadilyonun şərəf-ləyaqətinə toxunmasına dözməyən Bünyad bəy qılıncını sıyırmış, ona bir neçə ciddi yara vurmuşdu, özü də yüngülcə yaralanmışdı. Məsələni ört-basdır eləmək istəsələr də, mümkün olmamışdı, hersoq Lerma, Əlahəzrət Kral olub-keçənlərdən xəbər tutduğundan, Bünyad bəy məhkəmə qarşısında dayanmalı olmuşdu. Çəkişmə üç ay çəkdi, köhnə münasibətlərimiz xətrinə mən də məhkəməyə getməli oldum. Axırda hər şeyin Bünyad bəyin xeyrinə olduğunu görən hakim onlara barışmağı məsləhət gördü, Allaha şükür, bunu da hər iki tərəf qəbul elədi.

Bu əhvalatdan üç ay yarım keçmişdi, nə vaxtdan bəri öz-özlüyümdə gözlədiyim, amma ağlıma sığışdıra bilmədiyim əhvalat baş verdi: ser Antoni Şerli Madriddə peyda oldu! Bu xəbəri gətirən dilmanc Fransisko de San Xuan cılız, gözlərindən cin tökülən ingilisi hersoq Lermanın hüzurunda görmüşdü. Dediyinə görə, ingilis Romada bizim heyəti buraxıb qaçandan sonra Vyanaya üz tutub, ordan Əlahəzrət Krala namə göndərib. Bir neçə ildən sonra Praqaya gedən fırıldaqçı German imperatorunun qılığına necə giribsə, onun elçisi kimi Mərakeşə yollanıb. Amma bu səfəri də uğursuz olduğundan, Lissabonda gizlənmək məcburiyyətində qalıb, sonra iki il Neapolda baş girləyib, indisə Səfəvi Şahının elçisi kimi Əlahəzrət Kralın hüzuruna gələn qardaşıyla görüşmək üçün Madridə yön çevirib.

Dünyanın işinə bax! Bir qardaş Səfəvi şahının qılığına girib, etiğarından istifadə elədi, bəxşişləri satıb-sovdu, xanədanın, məmləkətin şərəfini tapdaladı, neçə adamın yurdundan, külfətindən, doğmalarından ayrı düşməsinə səbəb oldu, Şah Abbasın əlacı o biri qardaşa qaldı, Günbatan hökmdarından osmanlılara qarşı birgə döyüşmək istəyilə onu səfərə göndərdi. O cılız, göygöz, kosasaqqal fırıldaqçıdan layiq olmadığım taleyin qisasını uf demədən alardım, amma bu məmləkətə pənah gətirən hər bir kəs Əlahəzrət Kralın himayəsində olduğundan, qəzəbimi içimdə boğdum. Bir neçə həftə sonra qardaşı Robert Romadan gəlib çıxdı, nə danışdılar, nə danışmadılar, bundan xəbər tuta bilmədim, bununla belə, ürəyimə damdı, bu cür əməllərin axırı heç yaxşı qurtarmayacaq.

Həmin vaxtdan guşənişin həyat keçirməyə başladım. Düzdü, hələ məni unutmamışdılar, eşq macəralarım, şeir

yazmağım, rəsm çəkməyim, qılınc çalmağım haqqında rəvayətəbənzər vaqiələr danışırdılar, bütün bunlar qulağıma gəlib çatır, qəlbimdə təəssüf qarışıq hisslər oyadırdı. Olub-keçənlərin xatirəyə çevriləcəyinə, bir müddət yaddaşlarda yaşayacağına, sonrasa yavaş-yavaş unudulacağına zərrə qədər şübhə eləmirdim. Ona görə də ömrümün hekayətini doğru-dürüst, vicdanla, nəyisə artırıb-əksiltmədən yazdığım əlyazma indi məndən ötrü yeganə ümid yerimiydi. Bu əlyazmanı Allahın buyurduğu kimi atalıq eləyə bilmədiyim nuri-didəm Sultanəliyə çatdırmaq fikri heç başımdan çıxmırdı.

Niyyətimi söyləyəcəyim bircə adam vardısa, o da vəfalı sirdaşım dilmanc Fransisko de San Xuanıydı. Lissabona birgə çıxmaqla bağlı təvəqqemi heç fikirləşmədən qəbul elədi. Bu barədə hersoq Lermaya, ya da don Alvaroya xəbərdarlığı yersiz saydım, çünki nə qədər ki Şah Abbas Səfəvi taxtında oturmuşdu, məmləkətə getməyim barədə fikirləşmək belə istəmirdim. Oğluma namə göndərmək niyyətim şübhəsiz, onları başqa fikrə salmazdı. Üstəlik, Lissabonda xeyirxahım olan vitse-kralın da hüzuruna gedəcək, niyyətimi bildirəcəkdim.

Dilmanc Fransiskoyla yolçuluğumuz bir qədər qüssəli keçdi. Görünür, az qala on il qabaq rastlaşanda bizi həyata bağlayan səbəblər daha çoxudu, bəlkə də nisbətən cavandıq, ona görə hər şeyə yetik baxırdıq. İndisə danışanda ancaq xatirələrə baş vurur, ötən günlərimizi yada salırdıq. Əsirlikdə çəkdiyi əziyyətlər Fransiskonun səhhətində özünü açıq-aşkar bildirdiyindən, əvvəlki şuxluğunu xeyli itirmişdi.

Lissabonda birbaşa vitse-kralın hüzuruna getdik. Nə vaxtdan bəri görüşməsək də, o məni unutmamışdı, çox

mehribanlıqla qəbul elədi, güzəranımdan, səhhətimdən xəbər tutdu. Əlahəzrət Kralın münasibətini soruşdu. Əlbəttə, içimin ağrılarından ona söz açmadım, həyatımın qayğısız davam elədiyini deyib, niyyətimi açıqladım. Zati-aliləri eşikağasına gedən gəmilərdən xəbər tutmağı, üstəlik, burda qalacağımız müddətdə bütün ehtiyacımızı ödəməyi tapşırdı.

Əlbəttə, Lissabona gəlib, köhnə tanışımız Venesiyalı tacir Nikolas Klavelə baş çəkməsəydik, ayıb olardı. Markiz Santa Kruz qocalıb, məqamını tərk elədiyindən, onunla görüşə bilmədik. Nikolas bizi çox isti qarşıladı, niyyətimizdən xəbər tutandasa Təbrizli Xoca Dilman adında bir tacir tanıdığını, bir neçə gündən sonra onun portəgiz gəmisiylə Hörmüzə yola düşəcəyini söylədi. Bu xəbərdən çox sevindim, elə bil özüm məmləkətimə yola düşəcəkdim.

Gecəni yatmadım, yaddaşımı cırmaqlayıb, amanımı kəsən xatirələrə baş-başa qalıb oğlum Sultanəliyə namə yazdım. Çox şeylər yazmaq istəyirdim, amma könlümdəki təlatümdə əllərim titrəyir, gözlərim tor gətirirdi. Sabah bu naməni, basılmış kitabın bir nüsxəsini, indi məndən ötrü ən qiymətli sərvət olan əlyazmamı iki yüz tümən bəxşişlə Xoca Dilmana verəcək, İsfahandamı, Təbrizdəmi Sultanəliyə çatdırmasını təvəqqe eləyəcəkdim. İndi on yeddi yaşı olan oğlum yəqin, bütün bunları oxuyub, ömür hekayətimdən xəbər tutacaq, atası Oruc bəy Bayatın şayiələrdəki kimi, yolsuz, kafir, xain olmadığını başa düşəcəkdi...

Ya Rəbbim! Mənim günahlarımdan keç!

Bir özün şahidsən, mən həyatımı bu cür başa vurmaq istəmirdim...

***Hicri 1019-cu il***
***(Miladi 1610-cu il sentyabrın 25-i).***

# SON SÖZ YERİNƏ

## yaxud

## I Şah Abbasın Gürcüstan səfərində öldürülmüş oğul Sultanəli bəy Bayatın üstündən tapılan əlyazma

...Atam Oruc bəy Bayat səfərə çıxanda altı yaşım vardı. Elə bilirdim, bu yaşda uşağın yaddaşında çox şey qalmaz, amma üstündən bu qədər vaxt ötəndən sonra görürəm, zənnimdə yanılmışam, atamın uca boyu, mütənasib cüssəsi, ağıllı gözləri, şəvə saç-saqqalı hələ də xəyalımdadı. Özümü biləndən gündüzlər dövlətxanaya getdiyini, axşamlar nəsə yazıb, rəsm çəkdiyini, namaz qıldığını görmüşəm. Cümə günləri məscidə gedir, kefi yaxşı olanda məni şəhər kənarına, çeşmə başına seyrə aparırdı. Anam Nisəxanım yemək, xidmətçi Qulaməli od-ocaq tədarükü görər, doyunca gəzib-əylənərdik. Həmin məqamlarda atamın övrətinə nə qədər sevgiylə yanaşdığının şahidiyəm.

Döyüşlərdə çox əziyyət çəkməsi səbəbindən atamın ikinci övladı olmamasından əziyyət çəkdiyini duyurdum, bununla belə, heç vaxt ağrılarını üzə vurmur, özünü şax saxlamağa çalışırdı. Yeganə varisi kimi, Təbriz civarındakı döyüşdə gözünün qabağındaca öldürülmüş atasının adını daşımağım da mənə sevgisini bir yandan artırırdı. O qədər öyrəşmişdim hər axşam nəvazişini duymasam, gözlərimə yuxu getmirdi, kefi olmayıb, yanına çağırmadığı vaxtlarda inciyirdim, amma bilirdim, səhər də olmasa, axşam mütləq könlümü alacaq.

O altı il ərzində atamla iki kərə osmanlıların əlində olan Təbrizə getdiyim yadımdadı. Babam Mirzə Qədimin mədrəsəsindəki alçaqtavanlı, ensiz pəncərələrindən azacıq gün işığı süzülən hücrədə üzbəüz oturub saatlarla söhbət

elədiklərini də xatırlayıram. Mən həyətdə öz uşaqlıq oyunlarıma aludə olduğum vaxtda babamla atamın hərdənbir açıq qapıdan şəfqət dolu nəzərlərlə mənə baxdıqlarını görür, həmin məqamda özümdə qəribə arxayınlıq duyurdum. Qorxusuz olmasa da, neçə dəfə Sahibabad meydanını gəzdiyimiz, çeşmə başına getdiyimiz də bugünkü kimi yadımdadı.

Atamın uzaq səfərə çıxacağından İsfahana köçdüyümüzdən bir il sonra, isti yay günü xəbər tutduq. Dövlətxanaya çağırılan atam şər qarışanda evə çox əndişəli qayıtdı. Onda məndən ötrü ən uzaq yer İsfahandan üçgünlük yolda yerləşən Təbriziydi, elə bilirdim, Təbrizə gedir, bir həftə, on gün keçmiş qayıdıb gələcək. Amma anamla məni qardaşı Mehrəli bəyə tapşırıb vidalaşanda bu gedişin başqa cür səfər olduğunu başa düşdüm. Elə həmin dəmdə uşaq ağlının kəsməyəcəyi hansı hissin təsirindənsə üstünə qaçdım, məni bağrına basıb öpdü, sonra qaldırıb atın belinə qoydu. Bizim mindiyimiz atlar Təbriz yoluna döndü, atamsa xidmətçi Qulaməliylə məlul-müşkül durub arxamızca baxırdı. Bilmirəm, ağlamışdımı, yoxsa gözüməmi elə göründü, amma yanaqlarının islaq olduğunu indiyədək xatırlayıram, bundan sonra da nə qədər ömrüm var, heç vaxt xəyalımdan çıxmayacaq.

Bir yandan atamdan uzun müddətə ayrıldığıma görə kədərlənmişdim, o biri yandan Təbrizə getdiyimə, babam Mirzə Qədimi, nənəm Ümleylanı görəcəyim, ilyarım, bəlkə də iki il orda qalacağıma sevinirdim. Gözümü dünyaya Qəzvində açsam, ömrümün bir ilini İsfahanda yaşasam da, qəlbimdə Təbrizin elə məhrəm yeri varıdı, bunun hansı sirrə bağlı olduğunu o vaxt uşaq ağlımla ayırd eləyə bilmirdim. İsfahandan uzanan yolsa bitmək bilmirdi, sanki bir də məni geri aparmayacağını indidən qət eləmişdi. Zəncanda yarım gün qalıb dincələndə bu fikrimi anama da dedim, fikirli baxışlarını uzun-uzadı üzümə zillədi: «Elə demə, ömrüm-günüm, – dedi, – çox keçməz, ağan səfərdən dönər, biz də evimizdə

qayıdarıq. Onacan baban sənə oxuyub-yazmağı öyrədər».

Babam atamın uca məqama çatmasına, Şahımızın buyruğuyla məmləkətimizin əmin-amanlığı naminə çox vacib bir səfərə çxmasına çox sevinirdi. Dediyinə görə, əgər Şahımız rus çarının, Günbatan hökmdarlarının hüzurunda olacaq, Qibleyi-aləmin naməsini, bəxşişlərini çatdıracaq səfarətdə ikinci şəxs kimi, Oruc bəy Bayatı seçibsə, deməli, atası Sultanəli bəyin tərbiyəsi də, mənim təlimim də boşa çıxmayıb. «Bu cür səfərlərə hər kəsi göndərmirlər, – babam gözünü qıyıb, çallaşmış saqqalını tumarlaya-tumarlaya deyirdi, – ağan məmləkətimizin, xanədanımızın, Şahımızın yolunda qanından qorxmayıb, üstəlik, öz əqli, zəkasıyla Qibleyi-aləmin diqqətini çəkib. İnşallah, verilən buyruğa əməl eləyib geri dönər, daha uca məqamlar üçün haqq qazanar».

Amma görürdüm, nənəm fikirlidi, anamın kefi açılmır, cəhd eləyib uşaq ağlımla bu qüssənin səbəbinin nə olduğunu anlamağa çalışırdım. Hələ bir neçə dəfə anamı ağlayan vaxtı yaxalamışdım, tələm-tələsik örpəyinin ucuyla gözlərinin yaşını silib gülümsəsə də, əndişə içində olduğunu gizlədə bilməmişdi. Onda elə başa düşmüşdüm, o da sevindiyindən ağlayır, ərinin bu cür uca məqama yetməsinə sevinir. Şübhəsiz, Qibleyi-aləm məmləkətdəki minlərlə şəxsin içindən Hüseynəli bəylə yanaşı, Oruc bəy Bayatı da seçib hörmət-izzətlə səfərə göndərmişdisə, deməli, buna ancaq şad olmaq lazımıydı.

Əmim Mehrəli bəy üç gün dincələndən sonra mənimlə öpüşüb-görüşüb, anamla, babamla, nənəmlə halal-hümbət eləyib, İsfahana doğru yola hazırlaşdı. Anama ürək-dirək verdi, xidmətçi Qulaməlinin evdən muğayat olacağını, özünün tez-tez gedib baş çəkəcəyini dönə-dönə dedi. Həyət qapısının ağzında durub uzun-uzadı əmimin arxasınca baxdım, qəfildən könlüm atamı elə istədi, az qaldım hönkürüb ağlayam.

O yayın istisi səngiyəndə babam Mirzə Qədim mənə oxuyub-yazmağı öyrətməyə başladı. Hər gün tələbələrindən başı açılanda məni dizinin üstündə oturdub hərfləri göstərir, yadımda qalsın deyə, onları dönə-dönə səsləndirirdi, dilimdən düzgün cavab alanda fərəhindən qanadlanıb uçmaq istəyirdi. Sonra qələm tutan əlimi ovcunun içinə alıb kağızın üstündə xətlər çəkdirirdi, o xətlərdən hansısa hərfə, yaxud rəqəmə oxşayanda kövrələ-kövrələ alnımdan öpürdü: «*Sən yaşda olanda atana deyirdim, elmsiz kəsin mənzili gödək olar, Peyğəmbər (ə) buyurur, elm Çində də olsa, ardınca get. Peyğəmbər Rəsulillah alimin məqamını həmişə uca tutub. Mən daha qocalmışam, atan səfərdən dönəndə bilmədiklərini ondan öyrənərsən*».

O vaxt Təbriz osmanlıların əlindəydi, əvvəlki ölüm-itim olmasa da, həmişə səksəkə içindəydik. Babamın könlündən əlimdən tutub şəhərin küçələrini gəzdirmək, çeşmə başına aparmaq keçsə də, istəyini qəlbində boğmaq məcburiyyətindəydi. Atamın Şah səfarətiylə səfərə çıxmasını dillərinə gətirməmələrini nənəmə də, anama da dönə-dönə tapşırmışdı: divarın da qulağı varıdı, şəhərdə ağalıq eləyənlər Osmanlıya qarşı ittifaq bağlamağa gedən Şah elçisinin külfətini rahat buraxmazdılar.

O payız, qış, yaz beləcə keçdi. Doqquz ayda oxumağı-yazmağı öyrənib babamın-nənəmin könlünü şad elədim, anamın qəlbinə toxtaqlıq gətirdim. Həftələr, aylar ötdükcə gözü yolda, qulağı səsdə olan anam xəstələnibmiş kimi, solub-saralırdı. Gecələr hərdənbir oyananda onu yatağında oturub gözləri yol çəkə-çəkə ağlayan görürdüm. Baxdığımı görüb: «Yat, ömrüm-günüm – deyirdi, – ağan bu gecə yuxuma girmişdi, deyəsən, daramı düşmüşdü, nədi, məni heç dindirmədi. Yat, inşallah, səfərdən dönər, sənə ürəyin istəyəni alıb gətirər...»

Bir yay günü babamın yanına Seyid Nədim adında dilmanc gəldi. Babamla nə danışdılar, nə danışmadılar, elə gəldiyi kimi də səssizcə çıxıb getdi. O gecə babam sevincdən

gözləri parıldaya-parıldaya atamın namə göndərdiyini söylədi. Dediyinə görə, gələn adam səfarətin dilmancıymış, Gilandan Hacı-Tərxana, ordan Qazana, Qazandan Nijni-Novqorod deyilən bir şəhərə, axırda Moskova *(bu şəhərlərin adı sonralar atamın göndərdiyi əlyazmanı oxuyanda yadıma düşdü)* gedib çıxıblar. Atam yazırdı, Moskov çox varlı yerdi, amma çox soyuqdu, elə bu soyuğun ucbatından da orda beş ay qalıblar, indi Quzey Dəryasına doğru yola çıxırlar. Allah qoysa, altı aya gedib Venesiyaya yetişərlər, salamatlıq olsa, o biri yay geri dönəcəklər. Babam o naməni göstərmədi, sonralar öyrəndim, oxuyan kimi yandırıbmış.

Anamın rəngi-rufu gözgörəti düzəlmişdi, yanaqları islansa da, hiss elədim, bu dəfə sevindiyindən ağlayır. Əlbəttə, o vaxt doğma adamdan illərlə ayrı qalmağın nə demək olduğunu əməlli-başlı dərk eləmirdim. Atamı səfərlərə çıxmayanda da az-az görürdüm, bəlkə də dözümümün səbəbi elə buydu. Əgər anamı üççə gün görməsəm, bağrım çatlayardı, çünki özümü tanıyandan onun yanında olmuşdum.

Sonrakı bir il də intizar içində keçdi . Güzəranımızda elə bir dəyişiklik yoxudu: babam gün uzunu tələbələrinə dərs keçir, axşamlar mənə dərs verirdi. Hərdən gözləri yol çəkə-çəkə Şeyx Nizamidən, Mövlana Cəmaləddin Rumidən, Şah Xətaidən, Süleyman oğlu Məhəmməddən, Qətran Təbrizidən qəzəllər, qəsidələr, məsnəvilər söyləyirdi. Belə vaxtlarda sifətinin anlaşılmaz ziyası elə bil otağı nura qərq eləyirdi. Bu sehrin söz nuru olduğunu çox-çox sonralar anladım.

Atamın söz verdiyi – Təbrizdə keçirdiyimiz ikinci il başa çatdı, amma səfarətdən bir xəbər çıxmadı. Anamın səbri-qərarı kəsilmişdi, təzədən rənginin saraldığını, gözlərinin tutqunlaşdığını aydınca görürdüm. Babamsa ümidini kəsmirdi, «İnşallah, bir şey olmaz, qızım, – deyirdi, – uzaq səfərdi, bəlkə gəmi gözləyirlər, ya da yağışın, qarın-çovğunun ucbatından gecikiblər, bir də gördün, gəlib çıxdı. Allah səbir

eləyənləri sevir, heç vaxt ümidini üzmə». Bunları deyə-deyə babamın səsindəki inamın get-gedə öləzidiyini uşaq ağlımla da duyurdum.

Günlər ötürdü, gedənlərdənsə xəbər gəlmirdi...

Daha nə babamın inamı qalmışdı, nə də anamla nənəmin göz yaşları...

Mən də bunları görə-görə vaxtından qabaq kişiləşir, yaşa dolurdum...

***

Atamın geri dönməyə söz verdiyi müddətdən il yarım, bəlkə də iki iləcən vaxt ötmüşdü, artıq hamımız ümidimizi Allaha bağlayıb, hər şeyi onun öhdəsinə buraxmışdıq. Gecələrin birində əmim Mehrəli bəy gəlib çıxdı. Onun belə nagahan gəlişi mənə görə yaxşı heç nə vəd eləmirdi, çünki üz-gözündə elə tutqunluq varıdı, baxanda qanım donurdu. O gecə səhərəcən əmim, babam, nənəm, bir də anam baş-başa verib oturdular, nəsə danışdılar, məsləhətləşdilər, bir gözləri də mən tərəfdə oldu, deyəsən, danışdıqlarını eşitməyimi istəmirdilər. Əlbəttə, on yaşlı uşağın böyüklərin söhbətinə qarışmasını caiz saymadığımdan, kimsədən nə baş verdiyini soruşmadım. Səhəri əmim İsfahana qayıdıb, gecənin sirrini də özüylə apardı. Həmin sirrə illər keçəndən sonra atamdan naməylə birgə əlyazma alanda yetdim.

Sən demə, Şahımızın Günbatan hökmdarlarının hüzuruna göndərdiyi səfarət ağlagəlməz macəralarla gedib Romaya yetişibmiş, orda səfarəti müşayiət eləyən ingilisin hökmdarlara göndərilən bəxşişləri satıb-sovduğu bəlli olub, bu səbəbdən, atamla Hüseynəli bəy Bayatın arası dəyib, ingilis də qisas qorxusundan başının adamlarıyla qaçıb, elə ordaca səfarətin üç xidmətçisi dönük çıxıb, Hüseynəli bəyin qardaşı oğlu, ardınca da atamla Bünyad bəy xristian olub, İspan məmləkətində qalmağa qərar veriblər; qalan adamlarla Hörmüzə çıxan gəmiyə minmiş Hüseynəli bəyin də bəxti

gətirməyib, gəmi Hindistan yaxınlığında qəzaya uğrayıb, salamat qurtaran Hüseynəli bəy Şahımızın qəzəbindən qorxub İspan məmləkətinə qayıtmayıb. Bütün bunları dövlətxanaya min bir əziyyətlə Kəlküttədən Hörmüzə gəlib çıxan, pay-piyada özünü İsfahana çatdıran qulam Şəmsəddin adlı bir nəfər çatdırmışdı. Eşitdiklərindən gözləri qan çanağına dönən Şahımız dərhal qulamın şaqqalanmasını əmr eləyib, sonra səfarətdəki bütün şəxslərin imtiyazlarının ləğv olunmasına göstəriş verib. İndi Günbatan hökmdarlarından ümidini kəsmiş Qibleyi-aləm Təbrizi osmanlılardan qurtarmağa hazırlıq görürdü.

Atamın dönük çıxmasına nə anam inanmışdı, nə də babamla nənəm, amma artıq olan olmuşdu, Şahın qəzəbinə tuş gəlmişdik. Təbrizin qurtulacağıyla bağlı şad xəbər də atamla bağlı bəd xəbəri üstələyə bilmədi. Anam gözümüzün qabağındaca solub-saralmağa başladı, sonra xəstələnib yatağa düşdü. O vaxtdan babam da qaraqabaq, guşənişin olmuşdu, başını qaldırıb üzümə baxa bilmirdi. Yazıq nənəm bir yandan qızının dərdini çəkirdi, o biri yandan babamın halına yanırdı, üstəlik də, mənim məsələdən xəbər tutub, ürəyimə salmamağımdan ötrü min əziyyətə qatlaşırdı.

Əlbəttə, o vaxt hələ bütün bunları mənə deməmişdilər, atamın uzun müddətə səfərdə olacağını, Qibleyi-aləmin çox vacib buyruğunu yerinə yetirdiyini söyləmişdilər, həqiqətin heç də belə olmadığını sövqi-təbiiylə duysam da, çək-çevir eləyib dərdlərini artırmaq istəməmişdim. Amma anamın solub-saraldığını, babamın tükəndiyini görüb hər şeyi içimdə çəkmək də asan deyildi. Uşaq saysalar da, artıq on bir yaşa varmışdım, çox şeyi başa düşürdüm.

O payız təzəcə girmişdi, Şahımızın Təbrizi qurtarmaq niyyətilə yola çıxdığını eşitdik. Babamın tələbləri pıçıltıyla şəhərdə bərk hazırlıq getdiyini, camaatın osmanlılara qarşı silah götürməyə hazırlaşdığını deyirdilər. Danışdıqlarına

görə, artıq Zülfüqar xan Qaramanlıyla Əmirgünə xan Qacarın qoşunları da Şah qoşununa birləşiblər, belə getsə, Təbrizin qurtulması heç bir ay da çəkməyəcək. Mən bunları eşidib axır ki, şəhərin meydanlarında, çeşmə başında qorxu-hürkü bilmədən gəzib-dolaşacağıma sevindim. Nə vaxtdan bəri babam məni adını daşıdığım Sultanəli bəy Bayatın məzarı üstünə, həm də Böyük Sufinin məzarını ziyarət eləmək üçün Ərdəbilə aparmağa söz vermişdi, əgər deyilənlər doğru çıxsaydı, dediyini yerinə yetirəcəkdi.

Deyilənlər doğru çıxdı: Şahımızın qoşunları şəhərin beş ağaclığına çatanda camaat əlinə keçəni götürüb Osmanlı əsgərlərinin üstünə tökülüşdü. İçəri çəkilən osmanlılar qalanı tələm-tələsik əldən vermək istəmirdilər, düz bir ay şəhərdən güllə, top səsləri kəsilmədi. Həmin günlərdə babamla hücrəsində baş-başa verib, hadisələrin necə qurtaracağını gözləyirdik. Babam da, elə mən də qalanın üstünə gedənlərin arasında olmağı çox istəyirdik, amma nə babamın o vaxtıydı, nə də mənim yaraq götürmək yaşım çatmışdı.

Bir ay davam eləyən döyüşdən sonra Şah qoşunları osmanlıları Təbrizdən günbatan tərəfə qovdular. İyirmi ildən bəri Səfəvi xanədanının hökmü altından çıxmış şəhər azad nəfəs aldı, küçələrdə, meydanlarda bir şadyanalıq başlandı, gəl görəsən. Babamı ilk dəfə onda ağlayan gördüm. Elə ağlaya-ağlaya da əlimdən tutub Sahibabad meydanına apardı. Camaat əlindən iynə atsan, yerə düşməzdi, hamı göz yaşı içində bir-birini qucaqlayır, gözaydınlığı verirdi. Sonra Şahımız əyan-əşrəfi, qoşunuyla gəlib meydandan keçdi, onun yaraşıqlı qamətinə, üzünün hökmlü, vüqarlı ifadəsinə baxa-baxa yerə-göyə sığmırdım. Onda hələ atamın ömür hekayətindən doğru-dürüst xəbərim yoxudu.

Şahımız Təbrizdən Araza doğru yola çıxdı, deyilənə görə, Culfanı, Naxçıvanı, Ordubadı qurtarmağa gedirdi, ordan İrəvana, Qarabağa, Borçalıya, Şirvana səfər eləyəcəkdi. Onda

yaraq götürən vaxtım olsaydı, heç düşünüb-daşınmadan atımı minib, Qibleyi-aləmin qoşununa qatılardım. Babam Sultanəli bəy Bayat Təbrizin yolunda başını qoymuşdu, atam Oruc bəy Bayat ömrünün neçə ilini döyüşlərdə keçirmişdi, mən də gec-tez borcumu verməliydim.

Anamın xəstəliyinə görə o vaxt Ərdəbilə gedə bilmədik. Təbrizin qurtulmasından bir qədər özünə gəlsə də, qaş-qabağı açılmır, üzü gülmürdü. Nənəm bildiyi türkəçarələrin hamısını sınaqdan keçirdi, babam yaxın ünsiyyətdə olduğu həkim Əbül Fəth Təbrizini gətirdi, ondan sonra xəstənin halı xeyli yaxşılaşdı, amma ovqatı yenə düzəlmədi. Anam elə bil, atamın həsrətindən saralıb-solduğuna görə məndən utanırdı, yanında olanda gözlərimin içinə baxa bilmir, tez-tez köksünü ötürürdü.

Onda mənə elə gəlirdi, atamın başı əldə deyil, yoxsa yad məmləkətdə bir gün belə, qalmaz, pay-piyada da olsa, özünü Təbrizə, bizim yanımıza çatdırar. Əlbəttə, əmim gəlib-gedəndən sonra babamın tutqunlaşıb fikir-xəyal içində dolaşması, anamın xəstələnib yatağa düşməsi, nənəmin dodaqaltı söylənə-söylənə ora-bura tüyünməsi səbəbsiz deyildi – bütün bunları gözəl başa düşürdüm. Amma iki dağ baş-başa gəlsə, dəryalar qabarıb qalxsa da, atamın geri dönən yolunu kəsə bilməzdi – buna da qəti inanırdım. Çünki mənə görə, Təbrizi bu qədər sevən, külfətinə, doğmalarına bu qədər bağlı olan adam qürbət eldə çox yaşaya bilməzdi.

Babam Sultanəli bəy Bayatın məzarını Təbriz qurtulan günün səhəri ziyarət elədik, Ərdəbiləsə sonrakı il Novruz bayramında getdik. Babam elə məhəlləmizdəncə bir araba tutdu, arabanın içinə xalça-palaz döşədik, nənəmlə anam yastıqlara söykənib oturdular, babamla mən də arxa cağdan yapışıb yerimizi rahatladıq. Bir cüt at qoşulmuş araba Ərdəbil yoluna çıxanda sevindiyimdən qanad taxıb uçmaq istəyirdim. O günün axşamı bir karvansarada gecələdik, səhəri gün şər

qarışana yaxın mənzilbaşına çatdıq. Ərdəbildə qaldığımız bir həftə məndən ötrü nağılaoxşar günlər oldu. İllah da babamın verdiyi sözə əməl eləyib, Böyük Sufinin məzarını ziyarətə aparması, ziyarət məqamında keçirdiyim hisslər indiyəcən yadımdadı...

***

Ömrümün sonrakı beş ili bir-birinə oxşadı: yenə gözümüz yolda, qulağımız səsdəydi, özümüzə məlum olmayan ümidlə nagahan xəbər gözləyirdik, bu minvalla yaz gəlirdi, yay keçirdi, payız ötürdü, qış üstümüzü kəsdirirdi, amma gözlədiyimiz kəsdən – atamdan soraq çıxmırdı ki, çıxmırdı. İldən-ilə babamın qocaldığını, anamın, hələ cavan olsa da, saçına dən düşdüyünü, nənəmin dərddən üzüldüyünü görürdüm. İndi üçünün də gözü mənim – Mirzə Qədimin bircə övladının yeganə oğlunun, Sultanəli bəyin adını Bayat əşirətində yaşadan tək varisinin üstündəydi.

Həmin vaxtlar, Şahımızın səfərləriylə bağlı tez-tez xoş soraq alırdıq. Qibleyi-aləm altıca ayın içində Culfanı, Naxçıvanı, Ordubadı, İrəvanı osmanlıların əlindən qurtarmış, Maqsud Sultan Gəngərlini Naxçıvana, Əmirqulu xan Qacarı İrəvana hakim təyin eləyib Qarabağa keçmiş, amma osmanlıların təzədən Təbrizin üzərinə gəldiklərini eşidib geri dönmüşdü. Şahımızın Sufian kəndi yaxınlığında Cəlaloğlu Sənan paşanın qoşunlarını darmadağın eləməsiylə bağlı xəbərlər də gəlib Təbrizə çatdı. Bundan sonra Qibleyi aləm Qarabağa yönəlib Gəncə qalasını ələ keçirmiş, ordan Tiflisə yeriyib, Şirvan üzərinə getmişdi. Dörd il ərzində Böyük Sufidən sonra itirilən bütün torpaqları geri qaytaran Şahımız İsfahana zəfərlə dönmüşdü.

Babam nə qədər qocalsa da, mənə dərs deməyindən qalmırdı. Artıq ilahiyyatı, şeriyyəti, rəsm çəkməyi öyrətməyə başlamışdı. «Səndə ağanın qabiliyyəti var, – deyirdi, – xəttin gözəldi, şeriyyətə, rəsm çəkməyə həvəsin var. Oxuduqla-

rını tez yadda saxlayırsan. İnşallah, ağan dönər, Günbatan məmləkətlərdə görüb-eşitdiklərini sənə də öyrədər...» Əlbəttə, babam bütün bunları mənə ürək-dirək vermək üçün deyirdi, səsindən bilirdim, artıq nələrisə sezdiyimi, həqiqətin heç dediyi kimi olmadığından xəbər tutduğumu başa düşürdü.

Şahımız Şirvan səfərindən döndü, zəfərlə Təbrizdən keçdi, bir müddət sonra eşitdik, osmanlılar yenə əldən çıxan torpaqları qaytarmaq xəyalına düşüblər. Sonra İsfahandan Qibleyialəmin kiçik qardaş Roberti Günbatan hökmdarlarının hüzuruna göndərməsi barədə şayiələr gəlib çıxdı: guya bu ingilis böyük qardaşının görə bilmədiyi işi yerinə yetirəcək, günbatan məmləkətləri Osmanlıya qarşı qaldıracaqdı. Babam xəbəri eşidəndə xeyli susdu, sonra təəssüflə köksünü ötürdü. Onda təəssüfün səbəbini başa düşmədim, məsələnin nə yerdə olduğunu iki ildən sonra bildim.

...On yeddi yaşım olanda həyatımın axarını dəyişən iki hadisəylə üzləşdim.

O il Novruzdan üç həftə keçmiş babam Mirzə Qədim Haqqa qovuşdu. Rəhmətlik canını elə rahat tapşırdı, elə bil dünyada ruh kimi yaşayırmış. Axır vaxtlar çətin yeriyirdi, həmin axşam qolundan tutub həyətə çıxarmışdım, təzəcə özünü bildirən yaz havasını uda-uda söhbət eləyirdik. Babam payızdan tələbələrinə dərs deməyə son vermiş, təhsili yarımçıq qalanları cavan yetirmələrinə tapşırmışdı: «Ömrüm boyu arzulamışam, – deyirdi, – ağan qoşundakı, dövlətxanadakı işindən aralansın, elm öyrətməklə, kitab yazmaqla məşğul olsun. Elə bilirəm, nə vaxtsa niyyətim gerçək olacaq. Ağan yaxşı tərbiyə görüb, çox vacib səbəb olmasa, yad məmləkətdə bu qədər qala bilməz. Hərdən xəyalımda görürəm, qapı açılır, içəri girir...»

Babam bunları deyə-deyə nuru sorulmuş gözlərini yumdu, dərindən köksünü ötürüb rahatlandı. Əvvəl elə bildim, huşa gedib, sonra qımıldanmadığını sezib hər şeyi başa

düşdüm, üzümü onun sinəsində gizlədib ağladım. Atamın gedişindən sonra ümidimiz-pənahımız babamıydı, onu da beləcə itirdik. Əlbəttə, artıq on yeddi yaşındaydım, öhdəmdə qalan külfətə – anamla nənəmə həyan ola bilərdim, amma babamın təkcə quru nəfəsinin üstümüzdə olması məndən ötrü böyük təsəlliydi.

Babamı tələbələrinin, qonum-qonşunun köməyilə urvatladıq. Xəbər göndərmişdik üçünə Ərdəbildən qohumlarımız, yeddisinə əmilərim – Yusif bəylə Mehrəli bəy gəlib çıxdılar. Hamının fikri-zikri bizimlə bağlıydı – bundan sonra necə yaşayacaqdıq? Bizi Yusif əmim Qəzvinə, Mehrəli əmim İsfahana aparmaq istəyirdi, babamın qardaşı tərəf Ərdəbili məsləhət bilirdilər, amma anam Təbrizdə qalmağa üstünlük verdi. İsfahanla daha külfətimizi heç nə bağlamırdı: Şahımızın hökmüylə Abbasabad məhəlləsindəki evimizi boşaldıb dövlətxanada güdükçübaşı olan fars kökənli Haşım Kirmaniyə vermişdilər, atamla bağlı olub-keçənlərdən sonra əmim Mehrəli bəy gözümçıxdıya salınmışdı; Qəzvində əmim Yusif bəyin xəstə canıyla bizim də qayğımızı çəkməyə imkanı yoxudu; Ərdəbildə babamın qardaşı törəmələrinə sığınmaq arımıza gəlirdi. Mərhumun qırxını verəndən sonra xəttatların, naqqaşların, mirzələrin hüzuruna gedib iş axtarmaq daha ağlabatan olardı.

Amma axtardığım qismət öz ayağıyla gəlib çıxdı: babamın yaxın sirdaşı, «Cahanşahiyyə» vəqfinin başçısı Əbdülhüseyn Müzəffəriyyə qırx mərasiminin səhəri gün adam göndərib məni çağırtdırdı, artıq qocaldığını, vəqfin işlərini yola verməkdən ötrü zirək, savadlı, qabiliyyətli köməkçiyə ehtiyacı olduğunu bildirdi: «Baban Mirzə Qədimlə düz qırx beş il çörək kəsmişik, – dedi, – bu işi boynuna götürsən, həm maddi vəziyyətiniz düzələr, həm xeyirxah iş görmüş olarsan». Qibleyi-aləmin qəzəbinə tuş gəlmiş kəsin övladını qanadı altına almağın ona zərər verib-verməyəcəyini beynimdən keçir-

dim, elə bil fikrimi üzümdən oxudu: «Sənin baban Sultanəli bəyi də yaxşı tanıyırdım, – dedi, – başını xanədanının, Təbrizin yolunda qoydu. Atan Oruc bəyə bələdəm, əminəm, məmləkətimizin, Şahımızın, nəslinin şərəfinə ləkə gətirən bir iş tutmaz. Bunları ağlından çıxart...»

Əbdülhüseyn Müzəffəriyyənin sözündən çıxmayıb vəqfdə işə başladım. Təbrizin məhəllələrini gəzir, binəsib, kimsəsiz, baxımsız kəslərin siyahısını tutur, hərənin nəyə ehtiyacı olduğunu qeyd eləyirdim. Vəqfdən aldığım maaş güngüzəranımıza yetirdi.

Babamın ilindən iki həftə keçmiş məni sarsıdan ikinci vaqiə baş verdi: qapımızı tanımadığım bir nəfər döydü. Dediyinə görə, Təbrizdəndi, hamı onu Xoca Dilman kimi tanıyır, Venesiyaya, İspan məmləkətinə, Portəgizə ipək, mahud parça aparır, ordan cürbəcür xırdavat gətirir, indi bir neçə həftə olar, Lissabondan yola çıxan portəgiz gəmisində Hörmüzə gəlib. Bütün bunları eşidəndə anlaşılmaz duyğular məni elə qapsadı, hövlümdən az qala qışqıracaqdım. Xoca Dilman ehtiyatla danışır, mətləb üstünə gələnəcən əndişəmi yatırtmaq istəyirdi. Axırda məqamın yetişdiyini görüb bayaqdan dizlərinin üstündə saxladığı bağlamanı açdı: «Lissabon limanında atan Oruc bəy Bayat gəlib məni tapdı, – dedi, – bu kitabı, əlyazmanı, bir də naməni İsfahandamı, Təbrizdəmi sənə çatdırmağı xahiş elədi. Allahın mərhəmətindən sağ-salamat gəlib çata, verdiyim sözə əməl eləyə bildim».

Deyəsən, Xoca Dilman bütün bunları deyəndə huşum özümdə deyilmiş, çünki həmin məqamda neylədiyimi sonralar ha fikirləşdim, yadıma sala bilmədim. Bircə o yadımdadı, nə qədər üz vurdumsa, Xoca Dilman ləngimədi, heç verdiyim pulu da götürmədi, tələsdiyini deyib getdi. Təkcə bunları söylədi: «Ağan dilcavabı bir ismarış göndərmədi, dedi, hər şeyi kağızda yazmışam». Qəfil qonağı yola salandan sonra xeyli atamın göndərdiyi bağlamaya əl vura bilmədim.

Anamla nənəmin duyuq düşməsindən ehtiyatlanıb hönkürtümü içimdə boğur, səssiz-səmirsiz ağlayırdım. Heç anamın yad adamın nagahan gəlişiylə bağlı sorusuna da düzgün cavab vermədim, yatmaq istədiyimi deyib qapını bağladım, səhərəcən yazılanlarla baş-baha qaldım.

Bağlamada basma bir kitab varıdı, o əlifbanı oxuya bilmədiyimdən, nə kitab olduğunu ayırd eləyəmmədim, amma arasından atamın naməsini tapdım. Atam bu vaxtacan eşitmədiyim Lissabon adlı bir şəhərdən yazmışdı. Naməni oxuyub, məndən, anamdan, doğmalarından ötrü darıxdığını, İsfahandan çıxdığı illər ərzində başına çox müsibətlər gəldiyini, hər şeyin şayiələrdəki kimi olmadığını, həqiqəti əvvəldən-axıracan kağıza yazdığını bildim. Sonra atamın gözəl xətlə yazdığı qalın əlyazma varıdı, o əlyazmanı göz yaşları içində oxudum, bir də onda ayıldım, sübh namazı çoxdan keçib.

İndi başa düşdüm, atam elə İsfahanda olanda dövlətxanadakı bəzi məsələlərdən – fars əyanların başa çəkilməsindən, xristianlara geniş meydan verilməsindən, məmləkətin xariciyyə məsələlərinin Xoca Səfərə tapşırılmasından narazıymış, səfər müddətində Moskov çarına göndərilmiş namə, ser Antoninin bəxşişləri satıb-sovması, üç xidmətçinin, üstəlik, Hüseynəli bəyin qardaşı oğlunun dinimizə dönük çıxması, səfərin uğursuzluğu ruhi müvazinətini pozubmuş, xristianlığı çarəsiz qaldığından qəbul eləyibmiş, son məqamacan gizlicə gəlib anamla məni aparmaq barədə fikirləşirmiş, elə indi də məmləkətinin, Təbrizin, külfətinin, doğmalarının həsrətiylə yaşayır.

Əlbəttə, bütün bunları anama danışmadım, həqiqəti bilmək onun səhhətinə pis təsir göstərərdi. Aradan illər ötmüşdü, hələ də günlərin birində atamın qayıdıb gələcəyinə ümidini itirməmişdi – bunu dilinə gətirməsə də, yol çəkən gözlərindən, səhər-axşam elədiyi dualardan bilirdim. Olub-

keçəndən xəbər tutsaydı, Şahımız taxtda olanacan atamın məmləkətə dönə bilməyəcəyini başa düşəcək, bu da ona bir dərd olacaqdı. Naməni də, basma kitabı da, əlyazmanı da ağlagəlməz yerdə gizlətdim, o gündən bu böyük sirlə yaşamağa başladım.

Bütün olub-keçənlərdə nə atamı günahlandırırdım, nə də Şahımızı – bu olsa-olsa, tale məsələsi, Allahın yazdığı alın yazısıydı. Şübhəsiz, Şahımız Xoca Səfərin yağlı dilinə aldanıb Günbatan hökmdarlarına bel bağlamasaydı, göndərdiyi heyətin ixtiyarını ser Antoni kimi fırıldaqçıya verməsəydi, bütün bunlar olmaz, atam da məmləkətindən, külfətindən, doğmalarından ayrı yad məmləkətdə qalmağı yəqin, heç ağlına gətirməzdi. Şahımız osmanlıların əlində olan torpaqlarımızı qaytarmaq istəyirdi, atam ustalıqla toxunan hiylə torunu yırtmağa can atırdı, amma son məqamda ikisi də uğursuzluğa düçar olmuşdu.

Elə hey fikirləşirdim: mənim həqiqəti bilməyim yaxşıydı, yoxsa bilməməyim? Bildim – Şahımız taxtda olanacan atamın qürbətdə qalacağını anladım; bilməsəydim – nə vaxtsa qayıdıb gələcəyinə ümid eləyə-eləyə yaşayacaq, şayiələrin içimdə doğurduğu kədərdən qurtulmayacaqdım. Hansı ağır gəlirdi: atamı bəlkə də ömürlük görə bilməməyim, yoxsa onun günahsız olduğuna əminliyim? Əlbəttə, dininə dönük çıxması, daha doğrusu, zahirdə xristian, batində müsəlman kimi yaşaması nə qədər böyük günah sayılırdı – bunu ayırd eləyə bilmirdim. Başlıcası, Oruc bəy Bayat məmləkətinə, xanədanına, külfətinə sevgisini qoruyub saxlamışdı...

***

Sonrakı il Novruz bayramında anamla İsfahana, əmim Mehralı bəyin evinə qonaq gedəndə atamdan namə aldığımı açıb-ağartmadım. Ola bilsin, qabağımı əmimin məndən dörd yaş kiçik olan, anasının adını qoyduğu qızı kəsdi. Şahsənəmi

axırıncı kərə lap balaca vaxtı görmüşdüm, heç üzü də yadımda qalmamışdı. İndi qarşımda dolub-toxtamış, qızlar bulağından su içmiş bir gözəl dururdu. Qismətdəndimi, Nədəndi, anam ürəyimi gözlərimdən oxumuşdu, həftənin axırında əmim arvadıyla, sonra əmimlə nə danışdısa, gördüm, alın yazısından qaçılası deyil. Anam ordaca üzüyünü çıxarıb qızın barmağına keçirdi, mən də sözsüz-sovsuz taleyə boyun əydim.

O yeddi gündə atamın halal puluna tikdirdiyi, ömrümün bir ili keçən evimizə dönə-dönə uzaqdan, həsrətlə baxdım, amma içəri girmək fikrinə düşmədim.

O il Şahımız Osmanlı Sultanıyla anlaşma bağlamışdı, həmin anlaşmaya görə, Sultan qaytarılan torpaqların Səfəvi məmləkətinə məxsus olduğunu tanımışdı, amma şayiələr gəzirdi, bu sakitlik uzun çəkməyəcək, Qibleyi-aləm Gürcüstan səfərinə hazırlaşır, çox güman, yenə osmanlılarla üz-üzə gələcək. Elə də oldu, Gürcüstanı itaətə gətirəndən sonra Osmanlı qoşunlarıyla üzbəüz döyüşə girmək istəməyən Şahımız Məhəmməd xan Ziyadoğluya Gəncə qalasını dağıdıb geri çəkilmək barədə əmr göndərdi, aclığa dözməyən Osmanlı qoşunları da Qarabağdan baş götürüb qaçdı.

Sonrakı il Xəlil paşa osmanlılardan, bir də Krım tatarlarından ibarət qoşunla Təbrizin, Ərdəbilin üstünə gəldi. Onda ata olmağın xoşbəxtliyini yaşayırdım, oğlum Oruc bəy iki yaşındaydı. Şahımız hamının məmləkətin içərilərinə köçürülməsini əmr eləmişdi, qəlbimiz qan ağlaya-ağlaya qiymətdə ağır, vəzndə yüngül nə vardısa, arabalara yüklədik. Yükümüzün çox hissəsi babam Mirzə Qədimin kitablarıydı, atamın göndərdiyi əmanəti də mahud parçaya büküb o kitabların arasına qoymuşdum. Qocalıb əldən düşmüş Əbülhüseyn Müzəffəriyyə yalvar-yaxarıma baxmayaraq, şəhərdən çıxmaq istəmirdi, təkcə vəqfin dəftər-kitabını mənə tapşırdı: «Qismət olsa, qayıdıb işinə davam edərsən, – dedi,

– Daha mənim ömür möhlətim yetişib, yolda-rizdə can tapşırmaqdansa Təbrizdə ölmək daha yaxşıdı». Bu müdrik qocayla göz yaşları içində vidalaşmalı oldum.

İsfahana dörd günə gəlib çıxdıq. On beş il hürr içində yaşayan təbrizlilərin təzədən cəlayi-vətən olması ürəyimin başını ağrıdırdı: bu döyüşlər, dağıntılar, köçlər nə vaxtacan sürəcəkdi? Doğrudanmı, iki hökmdarın üzbəüz oturub bütün çəkişməli məsələləri çözməsi bu qədər müşkülüydü? Doğrudanmı, məmləkətdə əmin-amanlıq yaratmaq, tikib-qurmaq, abad eləmək əvəzinə yürüşə çıxmaq, qan tökmək, ölüb-öldürmək lazımıydı?

İsfahanda əmim Mehrəli bəyin mülkündə yerləşdik. Düzdü, gen-bol bəy eləyirdi, amma anam, illah da nənəm çox sıxıntı keçirirdilər, elə hey əlləri göydəydi, davanın tez bitməsini, öz ocağımıza qayıtmağımızı arzulayırdılar. Onda ağlıma nə gəldisə, əmim oğlu Şücaəddinlə qoşuna yazılmağa qərar verdik. Nənəm göz yaşı axıtdı, anam dil tökdü, övrətim «getmə» dedi, amma fikrimdən dönmədim: «Evdə oturmaqla torpaq qayıtmaz, – dedim, – torpağı döyüşlə qaytarırlar. Qorxmayın, heç nə olmaz, Təbrizi qurtarandan sonra gəlib sizi apararam».

Mən elə bilirdim, hər şey beləcə asanmış, amma qoşunda olmağım düz yeddi il çəkdi. Şahımız Sınıq körpüdə osmanlılarla Krım tatarlarını darmadağın eləyəndə də ordaydım, Ərdəbili, sonra Təbrizi qurtaranda da. Sonra Şahımızın Axalsıx səfərində oldum. Ardınca Gürcüstanda keçmiş qulamı Georgi Saakadzenin qiyam qaldırmağını eşidən Şahımız naşükür təbəəsini itaətə gətirmək fikrinə düşdü, yenə yola çıxası olduq.

Ömrünün iyirmi beş ilini döyüşdən-filandan uzaq olmuşdum, ancaq görünür, bu da alın yazısıymış, nə vaxtsa babamın, atamın yolunu getməliyəmmiş. Son yeddi ildə qılınc çalmağı da öyrənmişdim, tüfəng atmağı da, yayın istisində,

qışın soyuğunda, yağış altında, qar üstündə əziyyətlərə tab gətirməyi də. Bu yeddi ildə iki dəfə İsfahanda olmuşdum, oğlumun böyüyüb mənim yerimi tutduğuna, mədrəsəyə getdiyinə sevinmiş, ikinci övladımın olmadığına qəmlənmiş, Gürcüstan səfərindən dönəndən sonra yığışıb Təbrizə köçəcəyimizə söz vermişdim. Bu yeddi ildə nənəm qocalıb əldən düşmüşdü, anamın saçı ağarmışdı, mən otuz iki yaşına qədəm qoymuşdum.

Bu yeddi ildə atam Oruc bəy Bayatın özündən xəbər tuta bilməsəm də, əmanətini – kitabını, əlyazmasını, bir də bircə səhifəlik naməsini mahud parçaya büküb sinəmdə gəzdirmiş, fürsət düşdükcə oxumuşdum. Düzdü, kitabını oxumaq xoşbəxtliyi hələ mənə nəsib olmamışdı, amma artıq o kitabın məzmununu əlyazmadan tamam-kamal bilirdim, hərdən çıxarıb cildini sığallayır, mənə çox doğma olan atamın qoxusunu neçə ildə saralıb-solmuş vərəqlərdən alırdım. Ən böyük qorxum bu əmanəti itirməyim, ya da döyüşlərin birində düşmənin əlinə keçməsiydi.

İndi 1625-ci il iyunun 29-udu. Tiflisin yaxınlığındakı, Gümüşlüdə düşərgə salmışıq. Sabah gürcülərlə qəti göyüşə girməliyik. Əmim oğlu Şücaəddin böyrümdə mışıl-mışıl yatır, mənsə bütün bunları kağıza köçürürəm. Vaxt gələr, oğlum, sonra da oğlumun oğlu oxuyar, babam Sultanəli bəy, atam Oruc bəy barədə həqiqətdən xəbər tutar, mənim başıma gələnləri bilər...

Sabah döyüş olacaq...

***P.S. Oğul Sultanəli bəy Bayat nisgildən üzülmüş atası Oruc bəy Bayatın 1625-ci ilin iyununda Madrid şəhərində tək-tənha öldüyündən xəbər tutmadı...***

## MÜNDƏRİCAT


Ön söz yerinə, yaxud dördüncü kitabın sirri............6

Birinci fəsil ..............................................................23

İkinci fəsil ..................................................................105

Üçüncü fəsil ..............................................................157

Dördüncü fəsil ..........................................................207

Beşinci fəsil................................................................245

Altıncı fəsil ...............................................................277

Yeddinci fəsil.............................................................315

Səkkizinci fəsil ..........................................................361

Doqquzuncu fəsil .....................................................391

Son söz yerinə...........................................................430